Şirin Xanım
Kərimbəyli Şadiman

SÖZ KÖNLÜMÜ QƏLƏM ETDİ

(PUBLİSİSTİK DÜŞÜNCƏLƏR)

Şirin Xanım Kərimbəyli Şadiman

SÖZ KÖNLÜMÜ QƏLƏM ETDİ

(***PUBLİSİSTİK DÜŞÜNCƏLƏR***)

BAKI – 2016

Kitaba maddi və mənəvi dəstək göstərdiyinə görə həyat yoldaşım Abdulov Əli Əli oğluna minnətdaram.

Redaktor:
Nəzirməmməd Zöhrablı

Korrektor:
Ceyran Abbasova

Şirin Xanım Kərimbəyli Şadiman
Söz könlümü qələm etdi *(publisistik düşüncələr)*
Bakı, Qanun Nəşriyyatı, 2016, 288 səh., 500 tiraj
Çapa imzalanmışdır: 09.08.2016

"Söz könlümü qələm etdi" kitabı müəllifin yaradıcılığı boyu müxtəlif illərdə qələmə aldığı məqalələr toplusudur.

Məqalələrin mövzusu bir sıra qələm sahiblərinin yaradıcılığı, habelə siyasi, mədəni, mənəvi həyatımızda baş verən bir çox proseslər barədə söz çələngidir. Ümid edirik ki, "Söz könlümü qələm etdi" kitabı oxucular tərəfindən maraqla qarşılanacaq. Nəşriyyatımız adından müəllifə yaradıcılıq uğurları diləyirik.

IISBN 978-9952-36-247-3

© Qanun Nəşriyyatı, 2016
© Şirin Xanım Kərimbəyli Şadiman, 2016
www.shirinxanim-shadiman.net

O YERLƏRDƏ İZİM QALDI…

Bu yaxınlarda Qalaaltı sanatoriyasında istirahət edirdim. Gözəl abhavası, yaraşıqlı, gəzməli-görməli yerləri olan bu müalicəvi sanatoriya neçə-neçə dərdlərə, əlacsızlara şəfa bulağı olub. Qalaaltının mehriban həkimləri, tibb işçiləri, sağlamlığın keşiyində dayanıblar. Qalaaltı sanatoriyasında mən bircə çatışmazlıq hiss etdim. Bu da Qalaaltının bəzəyi, əsrlərin müqəddəs, sirli yadigarı olan Çıraqqalanın bərbad halda olmasıdır. Əsrlərin yadigarı olan bu tarixi abidənin bərpası keçmişimizə çıraq tutan qalanı tikənlərin ruhuna da təskinlik olardı… Mən orta məktəbdə oxuyanda Çıraqqalaya ekskursiyaya getmişdik. Görünür, əsrlərin sınağından çıxan bu qala son 10-15 ildə təbiətin küləyinə, sazağına dözə bilmir. Bəlkə də o əsrlərdə onun qeydinə qalanlar olubmuş, indi isə müasir dövrdə elmin, texnikanın sürətli inkişafına baxmayaraq babalarımızın, ulularımızın əvəzsiz yadigarına dırnaqarası baxılır. Necə olur ki, 14-15 əsr bundan qabaq Çıraqqalanı dağların başında ən uca zirvədə hasilə gətirə bilirlər, biz isə bu sürətli atom, texnika əsrində ulularımızın, qədim Odlar Yurdunun müqəddəs yadigarlarını nədənsə bərpa edə bilmirik?!

Qalaaltı sanatoriyasına gələn bütün xəstələr böyrəklərində, öd kisələrində olan çatışmazlıqlara baxmayaraq, bura ayaq basan kimi babaların əvəzsiz yadigarını – Çıraqqalanı görməyə tələsirlər…

Çıraqqalanın hər daşı – uğursuz həyatına qiymət verilməyən bədbəxt bir insan kimi qəlpə-qəlpə olub dərin dərələrin, uçurumların dibinə yuvarlanır, yarğanların burulğanlarında qeyb olur. Sinəsi parçalanıb dən-dən olur Çıraqqalanın… Sanki haray-həşir salıb qışqırır ki, mərəzlərini, xəstəliklərini 1-2 saatlıq unudub, ay məni görməyə gələn insanlar deyir, bəlkə siz mənə öz kömək əlinizi uzadasınız. Axı mən sizin ulu keçmişinizin, bütünlükdə yerlə-yeksan olub torpaq altında qalan Şabran şəhərinizin, Dərbəndinizin, bütöv Azərbaycanınızın yadigarıyam. Sümükləri dəlik-deşik divarların oymalarından boylanan, səssiz-səssiz inildəyən neçə-neçə günahsız qurbanların nişanəsiyəm! Bəlkə siz gedib başbilənlərinizə xəbər verə və mənim bugünkü halımla onları hali edəsiniz. Ey mənim qurubyaradan babalarımın, ulularımın nəvə-nəticələri, kömək edin mənə deyir… Ümumittifaq əhəmiyyətli Qalaaltı sanatoriyası mənə elə gəlir ki, ittifaqın kurort mənşəli ərazilərindən heç də pis deyil. Yayın cırhacır vaxtında burda yalnız 1-2 saat isti hava hiss edirsən. Qalan saatları həzin ab-hava

adamı müşayiət edir. Mən tez-tez mətbuatımızda da oxuyuram ki, tarixi keçmişimizin yadigarlarını qoruyaq, saxlayaq. Bəs görəsən, Dəvəçi rayonunun ərazisində yerləşən Qalaaltı sanatoriyasının bəzəyi olan Çıraqqalanı qorumaq tarixi yadigarlarımızdan deyilmi?! Deyirlər, bu qala 17 tikilidən ibarət olub, onun təkcə biri qalıb. O da dağılandan sonra gərək Qalaaltının adını dəyişdirsinlər, çünki az bir hissə qalıb, belə getsə ondan, ümumiyyətlə, əsər-əlamət qalmayacaq.

Dədələrin, babaların əziz-xələf yadigarı Çıraqqala, qəlbini sıxma, bəlkə sənin də taleyinlə maraqlanan tapıldı. Səni birinci dəfə gördüyümdən illər keçib… Bir də sənin müqəddəs, sehrli torpağına ayaq basdım. O vaxt ki, izlərimin üstünə yeni izlər qarışdı. Məni uşaqlıqdan valeh edən, şiş dağlar başından kəndimiz Tağaya, dəli-dolu Xəzərə sarı boylanan sirli-soraqlı qalam, sənlə yenidən görüşdüyümə görə, o otlu-əncərli daşlarına ayaq basdığıma görə sevinirəm… Kədərim sənin dağılmış görkəmini gördüyümdən yanadır, lakin ümidimi itirmirəm, rica edirəm, heç sən də itirmə! Ümidvaram ki, ulularımızın yadigarına kömək əlini uzadanlar tapılacaq!.. Sənin uçulub tökülmüş qalaçanda bərpa işləri aparılacaq. Mən buna hava və suyun varlığı təki inanıram. O gün gələcək. Mən görməsəm də sən bunu görəcəksən. Uşaqlığımdan boyunu uzaqdan-uzağa heyran-heyran süzdüyüm, Çıraqqala, mənim səndə izim qaldı…

15.07.1987
Qalaaltı

Qeyd: *Bu məqaləni 15.07.1987-ci ildə yazdım, amma o zaman mətbuatda çap etdirə bilmədim. İllər keçdi. Biz, yəni Şimali Azərbaycan müstəqillik qazandı. Zaman keçdi, mərhum prezidentimiz Heydər Əliyev 23 iyun 2003-cü ildə № 1262 saylı "Çıraqqala» tarixi abidələr kompleksinin bərpası və qorunması haqqında" sərəncam imzaladı. Bu sərəncamın yerinə yetirilməsini arzu edərdim…*

8 MARTA AĞIM

Dörd ildir ki, xalqımızın, başı min bir bəlalar çəkmiş, həmişə yağıların yağlı tikəsi olmuş, ana torpağımız Azərbaycan ağır günlərini yaşayır. Vətənimizin göylərində qara buludlar dolaşır. Neçə-neçə günahsız körpələrimiz, ağbirçəkli analarımız, gül üzlü gəlinlərimiz, ismətli qızlarımız qəfil yağı gülləsinin qurbanı olur. Qara Yanvar qara günlər gətirdi dərddən, kədərdən əyilməyən, lazım gəlsə köksünü güllə qabağına verməyə hazır olan analarımıza!..

Bu gün mən sinəsi Vətən eşqilə yanan, damarlarından millət qanı axan qeyrətli, ismətli, hünərpərvər analarımızı, qızlarımızı, bütünlükdə qadınlarımızı dünyanın çox yerində qeyd olunan bu bayram münasibəti ilə təbrik edirəm. Və bu gün cümlə qadınlarımızı Salatın Əsgərova kimi cəsarətli, qeyrətli olmağa çağırıram. Bütün dünyada haqqa çıraq tutan ana-bacıları bizim səsimizə səs verməyə çağırıram, çünki harda bir qan tökülürsə, orda bir ana öz balasını itirir və ölənədək gözüyaşlı qalır. Hər bir eldə ana, bacı namus, ismət rəmzidir, O basılsa, xalq incələr, qaragünlü olar. Yox əgər toxunulmaz olsa, o torpağın qızı, gəlini əsir olmaz, bəxtiyar olar, xoşbəxt olar. Əziz analar, sabahlarınızın firavan və azad olmasını diləyirəm.

07.03.1991

İNANMIRAM YOXLUĞUNA

Kitabın kompüterdə işi, demək olar ki, tamamilə qurtarmışdı. Bu zaman ağır bir xəbər məni dərindən sarsıtdı. Bu "Füzuli" məclisinin yaradıcısı və rəhbəri, Füzuli yanğılı qəzəl şairi Hacı Mailin vəfatı xəbəri idi. Son bir ildə Hacının xəstə olmasını bilirdim. Lakin fələyin bu tezliklə onu bizim aramızdan aparmasına heç vəchlə inana bilmirəm. Hacı Mail sadə, müdrik və Füzuli harayı ilə nəfəs alan, alışan-yanan bir şair, daha doğrusu şairlər içində inci idi. O, Füzuli dühasının Məcnunu idi. Nəinki gənc qəzəl şairlərinin, hətta şerin bütün növlərində yazıb-yaradanların tərəfkeşi. Hacı Mail, fələk sənin varlığını nə çox gördü "Füzuli" məclisinə?

Düzdü, mən "Məcməüş-şüəra" və "Füzuli" məclislərinə ara-sıra gedirəm, çünki Neft Daşlarında işləməyim və şəhərdən kənarda, Pirallahıda, yaşamağım məclislərə intensiv gəlib-getməyimə çətinlik törətsə də, ürəyim

o kamal yığnaqlarından bir an belə aralı olmayıb və xüsusən Hacı Mailin o müdrik siması bir an da belə gözlərim önündən getmir. Amansız xəstəlik Hacı Mailə möhlət versəydi, hələ neçə-neçə qəzəl kitablarını, divanlarını araya-ərsəyə gətirərdi.

Fəqət, hardan biləsən fələyin gərdişini? Hökm çıxardan da O, hökmü həyata keçirən də O. Bizlərsə, onun hökmünə məhkum olmuşlarıq. Necə səbirlə, necə təmkinlə qulaq asırdı Hacı Mail məclisdə oxunan şeirlərə…

İrad tutanda da elə yumşaq, elə mülayim deyirdi ki, iradını… Müəllifin ümidini itirməmək üçün. Ərəb, fars dillərinin bilicisi, sənədsiz alim, istedadlı şair. Hacı Mailin ruhuna Allahdan rəhmət diləyirəm. Məzarın nurla dolsun, böyük şair!

Sənin övladların sənət çırağının işığıyla öyünə bilərlər. Ey heç kəsə əyilməyən dağ vüqarlı sənətkar! Sənin yoxluğun Azərbaycan alimləri, söz xiridarları içində bundan sonra daha çox bilinəcək. Yoxluğun göyüm-göyüm göynədəcək səni candan sevənləri, əziz Hacı Mail. Allah sənə qəni-qəni rəhmət eləsin, ruhun şad olsun! Sinəsində Vətən ağrılarıyla dünyanı tərk edən sənətkar. Ürəyində hələ nə qədər sözün-sovun qaldı…

Yoxluğun hiss olunduqca sənətinin yaddaşlardan silinməzliyi aləmə üsyan olacaq. Ölməz, Hacı Mail, bilirəm həmkarların sənin əziz xatirənə qəzəllər həsr edəcəklər.

Yoxluğunun xəbəri nədənsə mənim könlümdə heca vəznində ürək yanğısına çevrildi. Mən sənin əziz xatirənə həsr etdim bu şeri, ruhun şad olsun əməli pak ustadım!

BU XƏBƏR

Mərhum qəzəl ustadımız Hacı Mailin
unudulmaz xatirəsinə

İçimdə acıya döndü bu axşam,
Söndü gözlərimin gecəsində şam,
Aldı ürəyimdən kədərlərim kam,
Sel etdi gözümün yaşın bu xəbər,
Yandırdı qəlbimin başın bu xəbər.

Əsl insanları itirmək çətin,
Ən ağır itkisi bəşəriyyətin,

Ey fələk, sarsıtdı məni niyyətin,
Ağlatdı könlümün gözün bu xəbər,
Göstərdi ölümün üzün bu xəbər.

İlahi yaxşını həyatdan alar,
Onun yoxluğuyla qəlbləri çalar,
Duyğulu canları ələmə salar,
Saldı ürəyimi qəmə bu xəbər,
Atdı gözlərimi nəmə bu xəbər.

O candan sevərdi Azərbaycanı,
Həyatı, cahanı, hər keçən anı,
Fələk ayrı etdi tənindən canı,
Saldı matəmini dilə bu xəbər,
Mailin yoxluğun elə bu xəbər.

Füzuli oduyla alışan şair,
"Şəbi-hicran" ilə yarışan şair,
Məcnun atəşinə qarışan şair,
Partladı bağrımda necə bu xəbər?
Mənə matəm oldu gecə bu xəbər.

Sanki Simurq quşu uçdu da getdi,
O haqq dünyasında kamına yetdi,
Bir ömrün Füzuli harayı bitdi…
Barışmaz qəmilə daha bu xəbər,
Batdı könlümlə min aha bu xəbər.

Baxışın Füzuli baxışı aldı,
Qəzələ bir Vahid naxışı saldı,
"Füzuli" məclisi Mailsiz qaldı…
Özünü rüzgara qatdı bu xəbər,
Bütün məmləkətə çatdı bu xəbər.

Şadiman, ürəyin ağlamasın heç,
Mail qəzəlində ölməzliyi seç,

Dünyanın ayrılıq əzabını biç…
Qəlbinə qəm yükü töksə bu xəbər,
Üstünə zülmättək çöksə bu xəbər.

29-30.10.1999,
Neft Daşları

YAŞIL AVTOBUSLARIN YAŞIL ZƏHƏRİ

Mən Pirallahı adasında yaşayıram. Sovet zamanı bu ada Artyom adlanırdı. Müstəqilliyimizi qazanandan sonra adanın tarixi adı özünə qaytarıldı. Adanın 60 km paytaxtdan kənarda yerləşməsi, yəni Bakının ən ucqarında olması uzun illər ada sakinlərinin nəqliyyat məsələsində şəhərə gedib-gəlməsinə çətinlik törədib.

Hələ sovet dönəmində iri tutumlu avtobuslar 2 saat vaxt sərfi ilə camaatı şəhərə aparıb gətirirdi. Bu zaman kəsiyi şəhərdə işləyən ada sakinlərinin işə gecikmələri, bəzən hətta maşınlar xarab olub yolda qalarkən işdən qalma halları ilə belə nəticələnirdi. Müstəqilliyimizi qazandığımız bu neçə illərdə "QAZEL" və "FORD" tipli kiçik tutumlu avtobuslar yol problemimizə, demək olar ki, birdəfəlik son qoymuşdu. Dövlət Başçımızın qayğısı və diqqəti nəticəsində sovet zamanı xarabalığını andıran yollarımız da Gürgana (Sovet vaxtı Damba adlanırdı) qədər əla təmir olunub. Quruyla adanı birləşdirən yol da artıq dənizlə yolu ayıran qoruyucu beton divarlar vasitəsilə təmir prosesindədir. Bütün bunlar insan ruhunu çiçəkləndirən və yaşamaq eşqini artıran təqdirəlayiq işlərdir. Hiss edirsən ki, bu Vətən müstəqildir və gündən-günə çiçəklənir.

Bir aya yaxındır ki, yenidən şəhərə gedib-gəlmək problemi ilə üzüzə qalmışıq. İrihəcmli yaşıl avtobusların Pirallahı adasına marşruta buraxılması ilə əlaqədar "QAZEL" və "FORD" tipli marşrutların işləməsinə birdəfəlik nəqliyyat naziri tərəfindən qadağa qoyuldu. Bu yaxınlarda mən həyat yoldaşımla "Qazel"də şəhərə gedərkən yol polisləri Bakıya çatmamış marşrutun qabağını kəsib sürücünün əlindən açarı aldı və camaatı maşından məcburən aşağı düşürtdü. Biz Pirallahı sakinləri başa düşürük ki, adaya gələnə qədər yolboyu yerləşən kənd və qəsəbələrdə yaşayan sakinlərə iri həcmli avtobuslar sərf edir. Ona görə də böyük avtobusların marşruta buraxılmasının əleyhinə deyilik, ancaq yolumuzun uzaqlığı nəzərə alınıb "QAZEL" və "FORD"ların da xətdə işləməsinə icazə verilsin.

Axı, hörmətli nazir, seçim camaatın olmalıdır. Əvvəla, yaşıl avtobuslar heç uzaq yol üçün nəzərdə tutulmayıb, çünki bu maşınlarda oturacaqların sayı azdır. Yolboyu sərnişinlərin çoxu 2 saat, saatyarımlıq məsafəni ayaq üstə nehrə kimi çalxalana-çalxalana gəlməli olur. Hiss olunacaq dərəcədə vaxt itkisi ilə mənzil başına yorğun-arğın çatırlar. Hələ bunun qarşıda qışı var, uzaq yolun çətinliyini də nəzərə alsaq, neçə-neçə təhlükəli məqamlarla üz-üzə qalmalı olacağıq. Ataların yaxşı bir məsəli var: "Özünə qıymadığını başqalarına rəva bilmə". Xahiş edirik ki, bu məsəli nəzərə alıb Pirallahı sakinlərinin şəhərə gedib-gəlməsində önəmli yer tutmuş "QAZEL" və "FORD"ların xəttə qaytarılmasına izin verəsiniz. Bizim şəxsi maşın almağa, nə də Pirallahıdan köçüb şəhərə getməyə maddi imkanımız yoxdur. Biz Pirallahı sakinləri də Allah bəndələriyik və əminik ki, nəqliyyat naziri cənab Ziya Məmmədov yaşıl maşınların yaşıl zəhərilə ovqatımızı zəhərləməyəcək. Ada sakinlərinin arzu və istəklərini nəzərə alıb iri həcmli yaşıl avtobuslarla bərabər "QAZEL" və "FORD"ların da marşrutda fəaliyyət göstərməsinə rəvac verəcək.

29.04.2008

İKİ KÖNÜL İŞIĞI

İnsanın həyata sağlam doğuluşu hələ bütün xoşbəxtlik qapılarının onun üzünə açılması demək deyildir. O öz ağlıyla, şüuruyla, bacarığıyla, varsa istedadıyla zaman burulğanlarında Allahın verdiyi ömrü sağlam və xoşbəxt yaşamaq haqqını qazanmalıdır. Bir çoxları belə düşünür ki, hansısa səadətə çatmaq üçün fələk sənə qapı açmalıdır. Əgər fələk bu qapını açmırsa, deməli, heç bir xoşbəxtlikdən söhbət gedə bilməz, amma mənə elə gəlir ki, Yaradan bütün canlı aləmdən fərqli olaraq insana zəngin beyin verib. Bu beynin bir çox qatlarının sirləri hələ alimlər tərəfindən açılmamış qalır… Hər bir kəs (ağıldankəm adamları çıxmaq şərtiylə) öz ağlını ömrünün ilkin dönəmlərində yatıb yuxuya verməməlidir. Tənbəllik insan başına gələcək sonrakı bəlaların səbəbkarıdır. Vaxtın qiymətini bilən və onun anlarından səmərəli istifadə edənlər, hələ məktəb partası arxasında kitablarla sevda bağlayırlar. Öz başının hikmətilə illərin eniş-yoxuşlarından adlayıb, istək və arzularına çatırlar. Hətta arxasız, köməksiz olsalar belə ağıl və iradə hesabına əl çatmayan, ün yetməyən zirvələri fəth edirlər. Allah insana verdiyi şüurun aliliyi ilə adəm övladını bütün canlılardan üstün tutdu. Məhz bəşər

də bu üstünlüyünü ömrü boyu qoruyub saxlamalıdır. Bunu qoruyub saxlayanlar ulu Tanrının sevdiyi bəndələr olurlar.

Bu yaxınlarda paytaxtın sayılıb-seçilən ədəbi mətbuat orqanlarından olan "Kredo" qəzetinin redaksiyasına getmişdim. Qəzetin baş redaktoru Əli Rza Xələfli mənə "İki ürəyin sözü" adlı bir şeir kitabı verdi. Bu toplu iki müəllifin imzasıyla qələmə alınmışdır. Kitabın müəllifləri Mətanət və Aygün Tağıyeva bacılarıdır. Mətanət xanım 25 yanvar 1973, Aygün xanım isə 8 yanvar 1974-cü ildə Bakıda anadan olublar. Hər ikisi Bakı Dövlət Universitetini bitirib. Mətanət xanım filologiya, Aygün xanım isə tarix fakültəsinin məzunlarıdır. İkisi də rus dilində təhsil alıblar. Hər ikisi şeir yazır. Şeirlərini isə əsasən ana dilində yazırlar. Mətanət xanım Tağıyeva artıq AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun elmi işçisi və filologiya elmləri namizədidir. Aygün xanım Tağıyeva isə tarix üzrə magistrdir. Qızlar buraxdıqları şeir kitabını ataları Rafiq Nemət oğluna və anaları Səmayə Qasımbəy qızına ithaf ediblər. Bu iki ziyalı xanım qızlarımızın ömür tarixçəsinə diqqət kəsiləndə adamın ürəyini riqqət və heyrət hissi bürüyür, çünki bu qızlar ana bətnindən dünyaya göz açarkən hər ikisi eyni tale ilə doğulublar. Dünya işığına həsrət acısı ömürləri boyu onlarla yol yoldaşı olub. Bu iki xanım qızlarımız təbiətin onların bəxtinə ərməğan etdiyi fiziki qüsurun ağrısının burulğanında batıb qalmayıblar. İki gözün acısını dəf edib elmin zirvələrinə doğru yol getməkdədirlər. Mətanət xanım və Aygün xanım təkcə elmlə kifayətlənməyib bədii yaradıcılıqla da məşğul olurlar. Elə bu səbəbdəndir ki, məhz "İki ürəyin sözü" toplusu onların birgə əməyinin məhsuludur. Qızlar qələmlərini təkcə heca və sərbəst vəzndə deyil, hətta əruz vəznində də sınayıblar. Kitab ilk əvvəl Mətanət xanımın şeirlərilə başlayır. Onun "Qatar", "Getdi əldən vətən bağı", "Səninlə sənsiz (pul)", "Məndən başqa kimin var?", "Sən mənim yolumu gözləyəcəksən" və sair şeirləri kitabda özünə yer alıb. Müəllif "Qatar" şerində insan həyatına daxil olmuş, onun mənzil başına çatmaq ehtiyacını ödəyən qatardan söz açır. Şeirdə uzun yolları tələsmədən, həm də buna baxmayaraq yubanmadan gedən müasir dövrün ən kara gələn texnikasını öz şerində əks etdirir:

Qoy ötməsin günün hədər, vaxtın əbəs,
Tükənməsin səyahətə səndə həvəs,
Yetir məni öz arzuma tələs, tələs,
Polad yolun uzaq, rəvan olar qatar.

Müəllif “Getdi əldən vətən bağı” şerində işğal altında olan vətən torpağının acısını belə ifadə edir:

Getdi əldən vətən bağı,
Bitməz burda xarı bülbül.
Torpağımda gəzir yağı,
Oxu, sazla, sarı bülbül.

Taleyim daha çağlamaz,
Halıma heç kəs ağlamaz,
Yaralarım köz bağlamaz,
Gəl yaramı sarı, bülbül.

Əlinə qələm alıb ağlının duyğularını, ürəyinin atəşini vərəqlərə tökən qələm sahibləri kimi Mətanət xanım da düşmən əlində qalan torpaqlarımızın ağrı-acısını bu üç bəndlik şeirlə izah edir. Onun “Nəsrin” şeri əruz vəznində yazılıb:

Bənzərin çoxdu gülə, ol gülə mehman, Nəsrin!
Səndə də mən danışım, ver mənə imkan, Nəsrin.
Məskənindir uca dağlar, meşələr, çay kənarı,
Hərdən də bağçalarda var sənə ünvan, Nəsrin.

O dərman otu kimi istifadə olunan Nəsrini gül təki tərənnüm edir və bu tərənnüm insan qəlbini riqqətə gətirir. Özünə məxsus dəsti-xətti olan Mətanət xanım bir çox tanınmış adamlara müşəxxəslər yazıb. Onun “Dünyada” şeri cavan bir qələm sahibinin həyat həqiqətlərini öz könül süzgəcindən keçirib aləmə bəyan edən ürək çırpıntılarıdır:

Vətənim bəzəkdir bəşəriyyətə,
Heç kəs qalmayacaq bil qiyamətə,
Düşsəm cəhənnəmə, ya da cənnətə,
Qalacaq bəlkə də gözüm dünyada.

Mətanət xanım, sizə yaradıcılıq uğurları eşqilə deyirəm ki, sizin kimi dəmir iradəli, həyatını halallıqla quran bəndələrin yeri cənnətdədir.

Kitabda öncədən qeyd etdiyim kimi Aygün xanım Tağıyevanın da şeirləri özünə yer alıb. Onun şeirləri "Tarixi rəvayət"lə başlayır. Müəllif bu rəvayətdə XIX əsrin əvvəlindən vətənimizin başına gələn fəlakətlərdən ürək ağrısıyla söhbət açır. O, Rus çarı I Aleksandrdan üzü bəri millətimizin müsibətlərinə çevrilmiş can və torpaq itkisini nağılvarı qələmə alıb. Aygün xanım Gəncə xanı Cavad xanın, Bakı xanı Hüseynqulu xanın göstərdiyi şücaətlərdən söz açır. Rəvayətin sonunda müəllif İran və Rusiya arasında bağlanan bədnam 1813-cü il "Gülüstan" və 1928-ci il "Türkmənçay" sülh müqavilələrilə ölkəmizin ikiyə parçalanmasını və bu tarixi müsibətin indi də ürəyimizdə yara olub dərdinə çarə tapılmamasından bəhs edir. Sonrakı səhifələrdə onun qəzəlləri yer alıb. O bir qəzəlində yazır:

Torpağın qüdrətini, ruzisini hamı bilir,
Torpağın qədrini bil, sən də bu torpaqda çalış.

İtirilmiş yurdlarımızın ağrı-acısıyla yaşayan müəllif torpağın bərəkət və ruzi mənbəyi olmasından söz açır.

Aygün xanım bir neçə rübaisini də topluya salmışdır. Oxucunun diqqətini aşağıdakı iki rübaiyə cəlb etmək istəyirəm:

Su ilə, torpaq ilə paklaşır insan bədəni,
Vücudu saflaşanda bil olur insan mədəni.
Bu qoca fani dünyanın nökəri, həm şahı da
Aparır qəbir evinə zinyəti yox, ağ kəfəni.

və yaxud:

Sökülür abidələr əyri köndələn Bakıda,
Binalar ucaldılır əyri göydələn Bakıda.
Tarixin məngənəsi bağışlayarmı bizləri?
Cavabı kim verəcək, hansı baş bilən Bakıda?

Aygün xanımın bu narahatlığına mən də qoşulub bu işlə məşğul olan insanlarımıza üzümü tutub demək istəyirəm ki, tarixdən hər nə qalıbsa bu ölkənin keçmişindən yadigardır və onun qədim xalq olmasına zəmanətdir. Bu zəmanətləri əmanət kimi qoruyub gələcək nəsillərə çatdırmaq isə bizim mənəvi borcumuz və bir insan olaraq bəşəriliyimizi sübut edən amillərdir. Müəllifin bir qəzəlində Azərbaycanın qədim və zəngin keçmişi olan bir

ölkə olmasından, bu torpaqda Manna, Midiya, Atropatena, Albaniya kimi dövlətlərin keçmişimizə sönməz işıq salmasından şərəflə söz açılır. Bu torpaqda qədim zamanlarda müxtəlif dinlərin – atəşpərəstliyin, xaçpərəstliyin və ən sonda islamın bərqərar olmasından bəhs edir. Bu qəzəlin üç beytini diqqətə çəkmək istəyirəm:

Soy köküm qədimə gedir: Manna, Midiya, Atropatena,
Kür Araz vadisində bəlkə də Alban qızıyam.

Əcdadım etdi sitayiş alova, sonra xaça,
Kəlmeyi-şəhadətlə indi müsəlman qızıyam.

Aygünəm, sadə deyim öz sözümü dünyaya,
Mən də dünyada olan Azərbaycan qızıyam.

Aygün xanım, qoy müstəqil Azərbaycan vətəninin başı müsibətlərdən qurtulsun və siz də bu firavan və azad ölkədə rahatca yazıb-yaradasınız.

Əziz oxucular! Artıq qeyd etdim ki, Mətanət və Aygün bacıları rus dilində təhsil alıblar. Buna baxmayaraq ana dilinin şirinliyini və gözəlliyini qoruyub saxlayıblar. Bu onların yazdıqları şeirlərdə də açıq-aydın özünü büruzə verir. Hər iki bacı bu illər ərzində bir çox qurumlar tərəfindən müxtəlif diplomlarla təltif olunublar. Əlillərin III ümumrespublika bədii yaradıcılıq baxış – müsabiqəsində bəstəkarlığa görə ikinci dərəcəli diploma layiq görülmüş Mətanət xanım Tağıyevanın bəstəkarlıq qabiliyyəti də var. O, 1999-cu ildə keçirilmiş əlillərin ümumrespublika idman oyunları yarışında şahmat üzrə birinci yer tutmuşdur. Aygün Tağıyeva əlillərin IV ümumrespublika bədii-yaradıcılıq baxış müsabiqəsində nümunəvi çıxışına görə ikinci dərəcəli qalib olmuşdur. 2003-cü ildə "Heydər Əliyev və Süleyman Dəmirəl, Türkiyə Azərbaycan münasibətləri" mövzulu məqaləsinə görə Qafqaz Universiteti tərəfindən III mükafata layiq görülüb. 1999-cu ildə Bakı şəhəri üzrə əlillərin I idman oyunlarında şahmat növü üzrə II yeri tutmuşdur.

Anadan doğulandan dünya işığına həsrət qalmış bu qızların bacarıq və qabiliyyətləri önündə heyrətlənməyə bilmirsən. Bütün əzaları yerində, yüz faiz sağlam olan övladların bəzən valideynlərinə necə sitəm etdiklərinin tez-tez gündəlik həyatımızda şahidi oluruq. Bu gənclər ata və analarının

da çox vaxt imkanı olmasına baxmayaraq həyatı məhvə aparan və orqanizmi zəhərləyən içkiyə, beyni uyuşduran narkotik maddələrə aludəçilik edirlər. Məişətimizə və milliliyimizə zidd, dillə deyilməsi müşkül olan bir çox əxlaqı korlayan çirkinliklər girdabına düşürlər. Bu həyat tərzi onları qarşısıalınmaz xəstəliklərə, həbsxanalara, ən nəhayət, vaxtsız-vədəsiz faciəvi ölümlərə sürükləyir.

Belə oğlan və qızlarımıza üzümü tutub deyirəm: Mətanət xanım və Aygün xanım Tağıyeva bacılarının dəmir iradəylə hasarlanmış həyatına diqqət kəsilsinlər. Allahın bir dəfə verdiyi ömrü biliyə, bacarığa, əməyə sərf edib xoşbəxtliyə nail olsunlar.

Əlbəttə, bu iki bacının qazandığı uğurların təməlində valideynlik borcunu səbirlə, dəyanətlə, dözümlə, həm də deyərdim ki, qəhrəmancasına yerinə yetirən Ata və Ana durur. Onlar sevimli övladlarının fiziki qüsurlu olmasından heç də həvəsdən düşməmiş, onların böyüyüb boya-başa çatmasıyla, oxuyub təlim-tərbiyə almasıyla məşğul olmuşlar. Öz şəxsi həyatını üstün tutub sağ ikən balalarını uşaq evlərinin küncünə atan, kasıblığı, həyatın min bir çətinliklərini bəhanə edib dünyaya gətirdikləri bu günahsız körpələrdən imtina edənlərin ürəyində, yəqin ki, Allah xofu yoxdur. Mən bu qızların valideynləri Səmayə Qasımbəy qızına və Rafiq Nemət oğluna üzümü tutub deyirəm ki, halal olsun Sizin kimi mələksima valideynlərə! Daima İlahinin nəzər və diqqətində olasınız, əziz Rafiq bəy və Səmayə xanım!

Ən nəhayət, Mətanət xanım və Aygün xanıma bir məlumatı çatdırmaq istəyirəm (bəlkə də onların bu məlumatdan xəbərləri var…), bu yaxınlarda Rusiya televiziya proqramlarının birində maraqlı bir veriliş gedirdi. Həmin verilişdə Amerika alimlərinin video-eynək kəşf etdikləri barədə xəbər verilirdi. Məlumat üçün deyim ki, hətta həmin video-eynək artıq təcrübədən də keçirilib. Bu video-eynəklərdə birbaşa beynin görmə üzvlərilə əlaqəsini yaradan kiçik cihaz quraşdırılıb. Bu cihaz vasitəsilə görmə qabiliyyəti olmayan insanlar da adi görənlər kimi özünü hiss edir. Sadəcə, hələlik onun qiyməti çox bahadır. Elmin son dərəcə sürətli inkişaf etdiyi yaşadığımız bu dövrdə əminliklə deyə bilərəm ki, həmin video-eynəklər də kompüter, cib telefonları və bir çox elektron cihazları kimi ucuzlaşacaq və o video-eynəklər bizim vətənə də gəlib çıxacaq. Mətanət xanım və Aygün xanım, mən də sizə arzu edirəm ki, yaxın vaxtlarda bu eynəklərdən asanlıqla alıb istifadə edə biləsiniz. Bir-birinizin üzünü görüb öz uğurlarınızı bir-birinizə söyləyəsiniz.

Sizə həyatda ürəyiniz istədiyiniz xoşbəxtlik və humanitar elmlərdə, bədii yaradıcılıqda uğurlar arzulayıram. Mən Sizin kimi vətən qızlarıyla fəxr edirəm! Allah sizi qorusun!

05.06.2008

AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT HİMNİ (FƏLSƏFİ-TEKSTOLOJİ TƏHLİL) MƏQALƏSİNİN MÜƏLLİFİ ƏMİRŞAH BABAŞAH OĞLUNA (HACILI) AÇIQ MƏKTUB

Sizin Azərbaycan Respublikasının Dövlət Himninin mətni barədə verdiyiniz təhlili oxuyub, bu ölkənin bir vətəndaşı kimi çox məyus oldum. Ona görə ki, biz müstəqilliyimizin 17-ci ilini yaşayan, sinəsi paramparça olmuş, Azərbaycan ölkəsinin kiçik bir hissəsində bəxtinə bu yaxınlarda istiqlal haqqı düşmüş bir xalqıq. Bu xalqın çox qismi dünyanın hər yerinə səpələnmiş, ürəyi vətən həsrətilə alışıb-yanan, qürbət ağrı-acılarına köklənmiş bir ömür yaşayır, çünki onun torpağının cənub hissəsi İran, şimal hissəsində yerləşən Dərbənd Rusiya, Borçalı isə Gürcüstan qanunlarına tabe olmaq məcburiyyətində qalıb. İrəvan xanlığı mərkəz olmaqla, bütünlüklə Qərbi Azərbaycan ərazisində Rus imperiyasının amansız hökmü və himayədarlığıyla indiki Ermənistan yaradıldı. Bizim erməni kimi tanıdığımız, əslində özlərinin özlərinə "hay" dedikləri gəlmə yağılara bu torpaq, xalqımıza qarşı edilən soyqırımı və repressiyayla bəxşiş edildi. Əslində göy türklər də, hunlar da, xəzərlər də, ərəblər də, monqollar da, ruslar da, farslar da Azərbaycanı işğal məqsədilə tapdalayıb keçiblər. Hər hökmdar da bu torpaqda öz izlərini qoyub gedib… Dili ilə, dini ilə, adət-ənənələrilə, törətdikləri vəhşiliklərlə…

Allahın bizə bəxş etdiyi müstəqilliyin neçə əsrlərdir ki, həsrətində idik. Mən ona görə Allahın bizə bəxş etdiyi müstəqillik deyirəm ki, əgər imperiya balıq kimi başından iylənməsəydi, rus "qardaşlarımızın" əsarətində yaşamağa məhkum idik və məhkumluqdan bizi Allah xilas etdi. Yaxşı ki, xilas dönəmində Heydər Əlirza oğlu Əliyev kimi ağıllı, uzaqgörən, tədbirli, millətinin ədəbi dilini sevən, şivələrdən uzaq, natiqlik qabiliyyətinə malik

olan böyük insan, dilin sağalmaz yaralarına məlhəm edən, mənəvi təbibimiz oldu. Allah ona qəni-qəni rəhmət eləsin və ruhu şad olsun. Hamımızın yaxşı yaddaşına həkk olmuş məşhur o müşavirədə millətin elm adamları qarşısında "Biz azərbaycanlıyıq və bizim dilimiz Azərbaycan dilidir" dedi. O uzaqgörən vətənpərvər bizi milli təfriqələrdən xilas etdi, amma hamıya məlumdur ki, bizim indiki danışdığımız dil Azərbaycan türkcəsidir, bu ölkənin çox qismi türkdilli xalqdır.

Hörmətli Əmirşah müəllim! Sivil ölkələr yüz illərlə eyni himni və həmin himnə yazılmış eyni mətni işlədərlər, heç bunu yeniləşdirmək haqqında fikirləşməzlər. Siz himnin mətnində işlənmiş ərəb və fars dilindən dilimizə keçmiş gəlmə sözlərin bolluğundan şikayətlənirsiz. Ərəb dilindən gələn Vətən sözünü dilimizə yad adlandırırsız və deyirsiz ki, bunu yurd sözü ilə əvəz etmək lazımdır və yaxud ərəb dilindən götürülmüş qəhrəman ifadəsini, monqol dilindən türk dilinə keçmiş, bahadur sözü ilə əvəz etmək lazımdır deyirsiniz. Əgər qəhrəman sözünü bahadur sözüylə əvəz etsək, onda Milli Qəhrəman yox, Milli Bahadur yazılmalıdır. Axı niyə sizin dediyiniz iradlar təkcə himnə yazılmış şeir parçasına aid olmalıdır? Sonra misraların sonunda "iz" şəkilçisinin işlənməsi şerə daha da axıcılıq verir. Əgər sizi şeirdə gedən qafiyə qüsurları narahat edirsə, bu da dahi Üzeyir bəyin musiqisinin sədaları altında cilalanır, yəqin ki, müəlliflər mətnin söz qüdrətini artırmaq və təsirli etmək üçün bu kiçik qüsurlara göz yumublar. Ümumiyyətlə, mahnı mətnlərində bəstəkarlar şerin gücünü artırmaq üçün bəzən qafiyə və heca pozuntularına yol verirlər. Çox güman ki, himnin mətnində gedən bu xətalar da onun qüdrətini artırmağa xidmət edib və artırıb da. Mənim 53 yaşım var, ilk dəfə məktəbə gedərkən müəllim bizə yazı lövhəsində ana, vətən, ata sözlərini yazmağı öyrətdi. Əgər sizin yazdığınız fikirlərlə razılaşsaq, onda vətən, məktəb, kitab, kitabxana, şəhidlər xiyabanı, salam, xeyr, bəli kimi minlərlə sözlər bizim dilimizdən çıxarılmalıdır. Öncə klassik ədəbiyyata, Füzulidən tutmuş ən qəliz yazan Seyid Əzim Şirvaniyə, dahi Sabirə qədər, sonra müasir söz adamlarının yazıb-yaratdıqlarına əməlli-başlı əl gəzdirmək lazım olacaq. Hələ mən tibdə, texniki ədəbiyyatda və elmimizin bir çox sahələrində bizimkiləşmiş, ərəb, fars, rus, ingilis və sair dillərdən dilimizə keçib doğum şəhadətnaməsi qazanmış sözlərdən danışmıram.

Biz hamımız yaxşı bilirik ki, ərəb sözlərinin doğmalaşması islam dini və islami həyat tərzi ilə bağlıdır. İslama inancımızın əksi bayrağımızın üstündə açıq-aydın dalğalanmaqdadır. Bizim ölkədə hansı yerdə yuva

salıb yurd qurursansa ora yurd deyilir. Vətən isə geniş anlam kimi bizim ağlımıza, ruhumuza hopub. Böyük Səməd Vurğunun "Azərbaycan" şerindən iki misranı sizin diqqətinizə yetirmək istəyirəm:

"Yurdum, yuvam, məskənimsən,
Anam doğma vətənimsən"

Siz rəngi çalarlarla əvəz etmək istəyirsiniz. Onda Böyük şairimiz Rəsul Rzanın şerə başlıq kimi vermiş "Rənglər"i çalarlar ifadəsilə əvəz etmək lazım gələcək. Biz onsuz da vətənin çox hissəsini itirmiş, müstəqilliyimizi ikinci dəfə qazandığımız dönəmdə aran və dağ Qarabağı işğala möhtac edilmiş, hələ istiqlal sevincini dadmamış sinəsi ağrılara pərçimlənmiş ölkənin vətəndaşlarıyıq. Vətəni yurda qədər qısaltmağa ehtiyac yoxdur. Bunu artıq düşmənlər bizə ərməğan edib. Bizim dilimizin inkişafını göy türklərin danışdığı məqamlara qaytarmaq lazım deyil. Nə tez müstəqillikdən doyduq ki, indi də bizi onun atributları narahat edir?

HİMN, HERB, BAYRAQ 90 illik istiqlal tariximizin daşıyıcılarıdır. Bunu da nəzərə alın ki, 90 il bundan qabaqkı danışıq və yazı dili ilə indiki danışıq və yazı dili arasında çox fərq var.

Baxmayaraq ki, siz Əhməd Cavadın 12 aprel 1913-cü ildə yazdığı «Dilimiz» şerini, dilimizə fars və ərəb dilindən gələn sözlərə qarşı nümunə kimi gətirirsiz. Yəqin ki, 90 il sonrakı danışıq dililə indiki bizim danışıq dili arasında da fərq olacaq. Zaman hərəkətdə olduğu kimi, dil də inkişafdadır. Necə müqəddəs Qurana toxunmuruqsa, eləcə də himndəki sözlərə toxunmamalıyıq. O elə o sözlərlə də axıcıdır, dahiyanə bəstələnmiş musiqiyə uyğundur və qəlbimizə, canımıza hopub. Böyüklü-kiçikli ürəyi istəyənlər onu çoxdan seviblər. Hələ 90 ildə bu vətəndə onu ürəklərində, bağırlarında yaşadan yaşlılarımız olub. Onda belə çıxır ki, muğamatımızı da, əruzumuzu da dəyişdirmək, yeniləşdirmək lazımdır. Sizin himnin sözlərini dəyişdirib yeni mətn kimi təqdim etdiyiniz o şeir parçasında (əgər ona şeir parçası demək mümkünsə) heç bir axıcılıqdan, şeriyyətdən söhbət gedə bilməz. Himnin mətnində "Ey qəhrəman övladın şanlı vətəni" deyilir, şeirdə övlad geniş mənada nəzərdə tutulur, çünki dədə də, baba da, ata da, oğul da, ana da, bacı da, qız da, uşaqlı-böyüklü biz hamımız bu başıbəlalı vətənin övladlarıyıq. Ona görə də müəllif övlad deyəndə təkcə babaları yox, qadınlı-kişili bu vətən insanını nəzərdə tutur!

“Minlərlə can qurban oldu,
Sinən hərbə meydan oldu”

Bu misralarda fikir çox düzgün verilib, ona görə ki, minlərlə can qurban olmasaydı, heç vətənin sinəsi də hərbə meydan olmazdı. Yağılar asanlıqla gəlib bu torpağa qonardılar və Azərbaycan adında bu vətən dünya insanının yaddaşında qalmazdı. Qaldı mətndə işlədilən ərəb dilindən gələn “müştaq” sözünə, o da arzulayan, həsrət çəkən mənasını daşıyır və əksər yaşlılarımızın dilində bu söz hələ bu günə qədər də işlənir. Mətndə “Cümlə gənclər müştaqdır” deyilir, siz də deyirsiz “Cümlə millət müştaqdır”, biz hamımız bilirik ki, azadlıq uğrunda savaş da, işğala qarşı vuruş da, döyüş də, yarış da bu kimi tutumlu qələbələr, gəlin etiraf edək ki, gəncliklə bağlıdır, çünki insanın 40 yaşından sonra yavaş-yavaş fiziki enmə dövrü başlayır. Müəllif bu mənada gəncliyə ruhverici amalı üstün tutaraq bu misranı işlədib və nəticə də çox tutarlı alınıb. Siz misranı “Hüququndan keçən əsgər” əvəzinə “Öz başından keçən əsgər” kimi yazırsız. Əvvəla, biz orta əsrlərdə yaşamırıq ki, ölkənin himninin mətnində başdan keçməkdən danışılsın. Əsgər başından keçməməlidir, başını işlətməlidir. Siz görürsüz ki, baş işlədən millətlər hansı uğurlar qazanıb, hansı mərtəbələrə çatıblar. Dahi Üzeyir bəy Hacıbəyovun musiqisilə vəhdət təşkil edən, böyük Əhməd Cavadın ilhamından doğmuş o şeir parçası bilsəniz necə ruha qidadır! Deyilənə görə Üzeyir Hacıbəyov xəstəliklə əlaqədar dünyasını dəyişsə də repressiya qurbanı idi, çünki ona istəməyə-istəməyə bolşevik himni yazdırdılar. Türkiyənin ikinci himni kimi səslənən, musiqisi dahi Üzeyir Hacıbəyova, sözləri böyük Əhməd Cavada məxsus olan “Çırpınırdı Qara dəniz, baxıb türkün bayrağına “şərqisi, yəqin ki, heç zaman türklər tərəfindən müzakirə məngənəsində boğulmayıb. Dahi əsərlər müəllifi Üzeyir bəy Hacıbəyov çox güman ki, bu himnin mətninin Əhməd Cavada məxsus olduğunu dəqiq bilirdi. Bu hər iki istedadlı müəllifin işinə şübhə ilə yanaşmaqdan savayı bir şey deyil.

Bəxti qara, sinəsi para, əyalı darmadağın Əhməd Cavad, sənin nə ağrılı taleyin varmış?! Sən hələ bu dünyada sağ olmayanda da repressiya atəşinə tuş olursan. İstiqlal da qazandıq, hələ də sənə qarşı hücumlar səngimək bilmir… Himn sözlərini dəyişmək eşqinə düşüb yeni mətn yazmağa cəhd edənlərimizə bir Azərbaycan qadını kimi demək istəyirəm: “Siz Allah, gedin istedadınızı ədəbiyyatımızın müxtəlif sahələrində sınayın”.

Bizim himnimiz var, biz onun sözlərini də, musiqisini də sevirik. Himnin sözlərinə əl gəzdirmək İstiqlal mücahidlərimizin ruhuna hörmətsizlikdir, çünki bu himn, herb və bayraq istiqlalının şirinliyini az müddətə dadmış, sağlıqlarında əzab və əziyyətlərə düçar olmuş insanlarımızın ağrılı ruhlarını bir daha incitmək deməkdir.

Hörmətli müəllif, siz böyük bəstəkarımız Cavanşir Quliyevin yazdığı və hamımızın sevimlisi olan məşhur "Azərbaycan əsgəri" marşının sözlərinin zəifliyindən məqalənizdə bəhs edirsiniz. Biz sonuncu erməni işğalına qarşı xalqımızın haqq savaşında bu marşın necə insanlarımızın canında, ruhunda kök saldığının şahidi olduq. Mən "Məcməüş-şüəra" ("Şairlər məclisi") və "Füzuli" ədəbi məclislərinə üzv idim. Məclislərin birində mətni yazan müəllifin üstünə düşdülər ki, bəs mətn zəifdir, əgər bu mətnin sözləri və musiqisi millətin canına və qanına hopubsa, deyin hansı zəiflikdən söhbət gedə bilər? Bizim qədimdən bir adətimiz var, hər hansı bir sahədə fərqlənən insanda uğurlu işartı gördükdə tez düşürük onun üstünə, çalışırıq ona özümüz bildiyimiz və qavradığımız kimi diktə etməyə…

Vətən insanının bu saat ümdə problemi işğal altında olan torpaqlarımızın xilasıdır. Əgər bu xilasa nail olmasaq, bizim qazandığımız uğurlara kölgə salacaq, çünki dünya məğlubu sevmir, məğlub bütün zamanlarda cahanın hiddət məngənəsində boğulub. Bunu isə uşaqlı-böyüklü hamımız etməliyik: sözlə, dünyaya baxan açıq gözlə, ruhu ehtişama gətirən vərdişlə, aləmi heyrətdə qoyan gedişlə, ən nəhayət, qəvi-düşməni qandıra bilməsək ərzi titrədən döyüşlə, qələbəyə qədər vuruşla! Onda Xankəndinə, Şuşaya sancılacaq bayrağımızla şad olarıq, dünyanın yaddaşında qalib tək qalarıq. Qalibi isə hamı sevir!

Sonda hörmətli müəllifə bildirmək istəyirəm ki, əgər ərəb və fars sözlərinin bolluğundan qurtulmaq istəyirsə, onda birinci öz adından, soy adından, soy adının sonunda işlədilən rus dilindən gəlmə "ov" şəkilçisindən, təxəllüsündən azad olmalıdır. Qoy hörmətli müəllif rus dilindən dilimizə daxil olub dilimizi cinslərə bölən, dilimizin özünəməxsus xüsusiyyətlərinə kölgə salan, qadın cinsini kişi cinsindən ayıran və soy adının sonuna əlavə olunan mənfur "ov, yev, ova, yeva" şəkilçiləri haqqında düşünsün. Beləliklə, dilimizdə cinsi bildirən müəllimə, şairə, xadimə bu kimi ifadələrin dərdinə çarə edilməsinə yardımçı olsun, çünki bizim dildə cinslər yoxdur, sözlər cinslərə bölünməməlidir.

Əmirşah müəllim, bayrağımızın, herbimizin, himnimizin 90 illik tarixi var. Gəlin həm şərəfli, həm də şərəfli olduğu qədər də ağrılı tariximizin daşıyıcısı, bu üç atributdan biri olan himnimizin sözlərinin nəinki sətrinə, hətta vergülünə, nöqtəsinə belə toxunmayaq. Bunu nə Allah götürər, nə də istiqlal tariximizin banilərinin incik ruhları.

19.07.2008

BÖLGƏLƏRDƏN GƏLƏN SƏSLƏR

Bu yaxınlarda anama baş çəkmək üçün doğulduğum yurda getdim. Bu yurdun adı Tağaydır. O, Azərbaycanın şimal bölgələrindən biri olan, Bakının 105 km-də yerləşən Siyəzən rayonunun ərazisinə aid və birbaşa onun tabeçiliyindədir. Mən Siyəzən rayonunun Tağay kəndində dünyaya göz açmışam. Məqsədim doğulduğum ocaqla sizi tanış etmək deyil, çünki bir çoxları yaxşı bələddir, Siyəzən-Quba zonasının Qalaaltısı, Nabranı, Qəçreşi və bir çox buna bənzər gözəl guşələrinə…

Mən paytaxtın el arasında "Şamaxinka" adlandırıldığı yerdən avtobusa əyləşib Siyəzənə üz tutdum. Adətən Bakıdan ora uzaqbaşı saat yarım vaxt qət edərdim, amma bu dəfə belə olmadı, çünki şimal yolu mənə nəhəng bir tikinti obyektini xatırlatdı. Nəhayət, maşın ləngiyə-ləngiyə getsə də, beş saata Siyəzənə çatdım. Ömrümdə bu qədər çətin və uzun yol getməmişdim, ancaq bütün bu çətinliyə baxmayaraq düşünəndə ki, yaxın zamanlarda şimal yolu ilə maşınlar rahat gedib-gələcəklər, adamı qürur hissi bürüyür, çünki sovet zamanı da istəyirdilər şimal yolunu təzədən çəksinlər, amma iş yarımçıq qaldı və bu bizim müstəqilliyimizə nail olduğumuz zamana düşdü. Müvəqqəti çətinlik olsa da bütün bunlar ürəkaçan və könlü riqqətə gətirən məsələlərdir.

Nə isə, mətləbdən uzaqlaşmayım. Siyəzənə çatan kimi bir taksi tutub Tağay kəndinə yollandım. Bu kənd Siyəzənin 7 km-də yerləşir. Kəndimizə yol Yenikənd və Gilgiçay kəndlərindən keçir. Bir tərəfi dağlarla, bir tərəfi dənizlə əhatələnmiş kəndimizin çox gözəl havası, içildikcə doyulmayan şollar suyu və ara-sıra sönsə də işığı var. Buranın insanları əsasən əkinçilik, heyvandarlıq və tərəvəzçiliklə məşğuldur. Az bir qismi isə kənarda işləyir. Suyunu içməklə, havasını udmaqla doymadığım Tağayın şərait

baxımdan bəxti heç vaxt gətirməyib. Şimal dəmiryol stansiyasının 3 km-də yerləşən bu kənd həmişə rayon rəhbərlərinə gözdən-könüldən uzaq yer kimi görünüb. Bilmirəm, bunun təqsiri orda yaşayan insanlarda və ya ona ögey baxan əlaqədar təşkilatlardadır? Paytaxtın 115 km-də yerləşən bu kəndin işığı da 1968-ci ildə çəkilmişdi. Şollar suyu isə çox sonralar çəkilib. Halbuki kəndin 3-4 km-də həmişə su, işıq və qaz olub. Sovet dönəmində – keçən əsrin 80-ci illərində, nəhayət, bu kəndə qaz xətti çəkildi, camaatın yanacaq problemi həll olundu. Elə bil bu kəndin bəxtinə günəş doğdu, ancaq bu da uzun çəkmədi. Sovet hökuməti süquta uğrayanda ölkəmizin bir çox bölgə mərkəzləri və kəndləri kimi Tağayın da qazı kəsildi. Bizim kənd dənizkənarı zolaqda yerləşdiyi üçün burda meşələr də yoxdur. Camaat əvvəllər burda heyvan peyinindən hazırlanan təzəkdən, odundan, tapılanda kömürdən istifadə edirdi. Onu da deyim ki, Abşeronun yaxınlığında yerləşməsinə baxmayaraq, buranın qışı da sərtdir. Yayı isə sərindir, camaat yayda da orda yorğanla yatır. Sovet hökumətinin ilk dövrlərində dənizə yaxın sahədə ata-babaların saldığı qədim üzüm bağları da məhv edilib və yerində süni meşə massivi salınmışdı. Hətta ora meşəbəyi də təyin olunmuşdu, lakin kəndə qazın verilməsi dayandırılan kimi, SSRİ dağılan vaxt camaat birinci soyuqdan ölməmək üçün bu meşəyə üz tutdu. Bu minvalla ağaclar qırılıb məhv edildi, sonra isə həyət-yanı bağlar da bu qırılmaya məruz qaldı. İndi şükür Allaha ki, ölkəmizdə çətinliklər aradan qalxmağa başlayıb. Azərbaycanın ən ucqar bölgələrinə belə qaz verilməsi vüsət alıb. Sağ olsun ölkəmizin başçısını və bu işlə əlaqəli təşkilatları, amma bu vüsətdən təəssüf ki, bizim kəndimiz kənarda qalıb. Bakıya yaxın olan Siyəzən özü neft istehsal edən rayondur. Tağayın 3 km-də yerləşən Yenikənd, Gilgiçay, Həmyə və sair kəndlər qazla təchiz olunub, ancaq Tağayda isə camaat qaz problemilə üz-üzə qalıb. Məni təəccübləndirən odur ki, bu işlə birbaşa əlaqədar olan təşkilatlar və səlahiyyətli orqanlar bu məsələylə heç maraqlanmır və ya maraqlanmaq istəmirlər. Kəndlə bağlı olan bələdiyyə və icra orqanları bu məsələnin üstündən sükutla keçirlər. Halbuki kənddə qaz xətti var. Bu qaz xətlərini təmir edib camaatı qazla təchiz etmək elə də çətin iş deyil. Mən camaatdan soruşanda dedilər ki, əksinə qaz xətlərini kəsib aparırlar. Bu məsələ öz həllini tapsa, qırılıb çatılmış meşəmiz yenidən dirçələr, camaatımızın isə təmiz havalı, saf sulu, göy Xəzərli Tağayımızla ülfəti və bağlılığı birə-on artar. İnsanları kəndlərdən qaçırıb rayon mərkəzlərinə və paytaxta dolduran

nədir? Şəraitsizlik, laqeydlik, bəzi yerli icra orqanlarının və bələdiyyələrin kəndlərə ögey münasibəti.

İnanıram ki, məqalə qəzetdə dərc olunan kimi Siyəzən rayonunun aidiyyəti orqanları bu məsələnin tezliklə həllinin icrasına öz səlahiyyətləri çərçivəsində rəvac verəcəklər. Qarşıdan prezident seçkiləri gəlir, qoy sadə Tağay camaatı da bu seçkilərə üşüyə-üşüyə yox, isti ürəklə getsin!

07.09.2008

"EŞİDİB-BİLDİKLƏRİMDƏN" YAZISININ MÜƏLLİFİ ƏNVƏR NƏZƏRLİYƏ AÇIQ MƏKTUB

Hörmətli, Ənvər müəllim, mən Sizi ilk dəfə "Məcməüş-şüəra" ("Şairlər məclisi") və "Füzuli" ədəbi məclislərindən şəxsən tanıdım, amma hələ ali məktəb illərindən haqqınızda eşitmişdim. Sizin 1937-ci il repressiyasının qurbanı olmuş Hacıbaba Nəzərli ocağından olduğunuzu bilirdim. Sizin ailənin çəkdiyi ağrı-acılardan az-çox xəbərim var idi. Mən bu ədəbi məclislərə gəlib-gedərkən sizin səmimiliyinizin, sadəliyinizin, yüksək savadlılığınızın, başqalarından fərqli olaraq dözümlülüyünüzün şahidi oldum. "Füzuli" məclisində qəzəllər oxunarkən haqq dünyasına qovuşmuş rəhmətlik Hacı Mail tez-tez sizə müraciət edib sizin fikrinizi öyrənərdi. Bu sizin klassik şeir forması olan əruza bələdliyinizdən və əruz sahəsində qazandığınız mükəmməl bilikdən xəbər verirdi. Sizin 2006-cı ildə işıq üzü görmüş və mənə bağışladığınız "Ürək tərənələri" divanınızı oxuyarkən onun axıcılığının şahidi oldum. Bu divanda dilimizin şirinliyinin qorunması, dilimizdə işlənməyən ərəb-fars tərkibli sözlərin qəzəllərinizdə olmaması sizin ustad şairliyinizdən xəbər verir. Ona görə də sizin kimi ustad sənətkarı şəxsən tanıdığıma görə qürur hissi keçirirəm. Qürur duyuram ki, siz mənim 2002-ci ildə çapdan çıxmış "Kiminə acı dünya, kiminin tacı dünya" kitabımda gedən qəzəllərin redaktoru olmusuz. Əziz ustad! Siz ilhamlı şairsiz, fəqət bununla bəhəm həm də gözəl şərqşünassınız, məhz ona görə də əruzda diliniz belə rəvandır.

Arzu edərdim ki, Sizin könül oxşayan qəzəlləriniz muğam oxuyan xanəndələrimizin diqqətini çəksin və dillərinin əzbəri olsun. Ənvər müəllim, mənim məqsədim sizin qəzəlləriniz haqqında fikir yürütmək

deyil, bu fikri hörmətli akademikimiz Vasif Məmmədəliyev kifayət qədər açıqlayıb.

Əziz ustad, mən sizin mənim və mənim kimi bir çoxlarının nəzər-diqqətini cəlb etmiş və marağına səbəb olmuş "Eşidib-bildiklərimdən" yazınız haqqında ürək sözlərimi söyləmək istəyirəm. 2008-ci il may ayının 10-dən maraqlı ədəbi orqan olan "Kredo" qəzetində ardıcıl olaraq sizin "Eşidib-Bildiklərimdən" yazınız çap olunur. Mən bu yazıya publisistik yox, mənsub olduğunuz nəslin timsalında dəyərli bir tədqiqat əsəri, yaşadığımız dövrün ağrılı-acılı, nəşəli-ələmli, yüyrək dilli həyat dastanı, həyat hekayəsi deyərdim. Əziz ustad, sizin qəzəllərinizdə olduğu kimi bu hekayətdə də axıcı yazı diliniz var. "Eşidib-bildiklərimdən" hekayəti təkcə bir nəslin həyat yoluna çıraq tutmur, bu Vətənimiz müstəmləkə məngənəsində boğularkən onun övladlarının başına gələn acılı-şirinli, maraq dolu ömür tarixçəsidir.

Sizin əminiz Hacıbaba Nəzərli nəslinin başına gələn müsibətlər əsilli, ziyalı ailələrin hər birinin ağrılı taleyindən keçib. Mən özüm də bəy nəsilli ailənin övladıyam. Babamın, babamın atasının, əmisinin başına gətirilmiş fəlakətlərin acı hekayəsini dönə-dönə rəhmətlik atamdan eşitmişdim. Əziz ustad, çar Rusiyasının sonlarına və sovet dövrünə tutduğunuz sənət çırağı sizin gözəl publisist-tədqiqatçı kimi istedadınızı üzə çıxardıb. Bu yazını mütəmadi qəzetdə çap edən "Kredo" qəzetinin baş redaktoru Əli Rza Xələfliyə də öz minnətdarlığımı bildirirəm, çünki o, tariximizin dünəninə çıraq tutan belə maraqlı yazının qəzetdə işıq üzü görməsinə imkan yaradıb. Hörmətli ustad, sovet dövrü bizim Vətənimizin tarixinin bir hissəsidir, çünki biz də bu dövrdə doğulmuşuq və bu dövrün daşıyıcılarıyıq. Ona görə də bu dövr həm müsbət, həm də mənfi cəhətləri ilə olduğu kimi öyrənilməli təzə doğulanlara, yəni gələcək nəslə doğru-düzgün çatdırılmalıdır. Siz həmin zamanlarda müxtəlif məsul vəzifələrdə çalışmış, həmin vəzifələrin ağrı-acısını, şirinini-şəkərini dadmış insansınız. Nəzərli ocağının atəşindən doğan şölələr sizin könlünüzə işıq salmış, heç bir qadağaya, qorxulara baxmayaraq o dövrdə oxuyub yüksək mənsəblərə çatmısınız. Bu o zamankı dövrdə hər adamın işi deyildi. Çoxları öz ata-babalarının soy adını belə gizlətdiyi halda, Siz Nəzərli soyuna sadiq qalıb onun adını öz işiniz və xeyirxah əməllərinizlə işıqlandırmısınız. Hörmətli ustad, siz böyük Şəhriyarın "Heydərbabaya salam" poemasının bu tayda ilk dəfə mətbuat səhifəsində üzə çıxmasına nail olmusunuz. Böyük Şəhriyar da, Siz də mənim

ən çox sevdiyim şairlərdənsiz. Siz Vəli Axundovdan bu hekayətdə xoş sözlər yazırsız. O mənim atamın ana tərəfdən qohumudur və mən onun haqqında yazılan bu xoş sözlərə görə qürur hissi keçirirəm. Siz Bağırovun amansızlığından, Hacıbaba Nəzərliyə tutduğu divandan söhbət açırsınız. İnanırsınız, bu sətirləri oxuyanda dəhşətə gəldim. Böyük çıxmasın, mənim "Bizi özümüzdən qoru, Allahım" şerim burda lap yerinə düşür. Deyəsən bizim özümüzün özümüzə etdiyimizi heç kim bizə etməyib. Bir də ki, özgənin etdiyi pislik adamı o qədər yandırmır axı?! Deyəcəksən ki, qanı qanımdan deyil, canı canımdan. Biz bu müsibətləri az-çox o dövrün canlı şahidi olmuş qocalarımızın dilindən hərdən bir pıçıltılarla eşidərdik. Bu pıçıltılar onların qanına, canına hopmuş qorxudan nişan verirdi. Bu qorxu indi də bizim qanımızda var, genlərlə keçib bizə! Bəli, biz həmin qorxunun canlı daşıyıcılarıyıq!.. Budur Bağırovların millətimizə vurduğu ağır mənəvi zərbələrin acı təzahürü!

Hörmətli ustad, siz məsul vəzifələrdə çalışdığınız vaxtlar, xarici ölkələrdə səfərlərdə olduğunuz zamanlar barədə hekayətdə maraqlı məqamları nəql edirsiz. İraqda səfərdə olarkən hüzr yerinə getməyiniz haqqındakı əhvalatdan bəhs edirsiniz. Hüzr mərasimində oradakı adət-ənənənin canlı şahidi olmusuz. Yas mərasimində hüzrə gələnlərə az miqdarda acı kofe paylanılırdı. Siz də həmin kofedən dadmalı olmusunuz. Bu acı kofe yas sahibinin dərdinə şərik olmanı təcəssüm etdirirdi. Bunu mən mərhum yazıçımız Əzizə Cəfərzadənin də dilindən eşitmişdim. Təəssüflər olsun ki, bizdə yas mərasimləri varlılıqdan, kasıblıqdan asılı olmayaraq bir şouya çevrilib. Yasa gələnlər bərbəzəkli təamlarla dolu olan süfrəni görəndə heç olmasa üzdən də olsa kədərlənməyi unudurlar. Vallah, indiki qəbiristanlıqlar heykəltəraşların açıq səma altında emalatxanasına bənzəyir.

Hərdən mənə elə gəlir ki, bizlərin çoxunda nə Allaha, nə də islama etiqad var. Sadəcə olaraq, din bizim məişətimizə mövhumatla və vərdişlə daxil olub.

Siz 1968-ci ildə o vaxtkı Çexoslovakiyada Sovet İmperiyasının törətdiyi qırğının nəticəsi olaraq Türkiyədə başınıza gələn əhvalatdan bəhs edirsiz. Türk xalqının sovetdən gələn nümayəndə qrupunu necə nifrətlə qarşılamağı və türk hökumətinin məcbur olub bu qrupu üç gün adada gizlətməyi maraqlı tarixi məqamdır. Siz bu məqamı açıqlayıb o dövrün daşıyıcıları olan biz insanlara çatdırırsınız. Hörmətli Ənvər müəllim, Siz sovet dövrünün təhsil sistemindən bəhs edirsiz və maraqlı açıqlamalar verirsiz. Doğrudan da o dövrdə təhsil çox güclü idi. Adi ailələrdən tut-

muş yüksək, çinli ailələrə kimi hamı ali təhsil arzusuyla aşıb-daşır və hamı bu arzuya yetmək üçün çalışırdı. İndiki kimi bilik almaq üçün nə uşaqlara müəllim tutulardı, nə də onların nazı ilə oynanılardı. Heç kəsin əlindən kitab düşməzdi yerə, hamı savadlanmağa can atardı. Kitabxanalar qələbəlik olardı. Sadə ailələr də uşaqlarını oxutdurmağa cəhd edərdi. Onda da tanışlıqla, "dayı" ilə oxuyanlar çox idi. Əslində bu təhsil sistemi sovet quruluşuna xidmət üçün qurulmuşdu. Ümumilikdə götürdükdə isə müsbət mənada milləti savadlanmaya aparırdı. İndi də oxuyanlar az deyil, amma savadlılar azlıq təşkil edir. İnternet, kompüter məişətimizə daxil olandan cavanlarda kitaba maraq azalıb. Yeni texnikanı bilmək irəli getməkdir, ancaq kitabı əlindən yerə qoymamaq şərti ilə… Mən də kompüterdən istifadə edirəm, ancaq kompüter kitab deyil axı. Çox qabağında oturanda insanda beyin yorğunluğu, rahatsızlıq yaradır. Hörmətli ustadım Ənvər Nəzərli, mən sizin yazdığınız bu hekayəti başdan-başa nəql etmək fikrində deyiləm, ancaq mənə təsir edən bir çox məqamları sizinlə bölüşmək istədim. Bir də bir istəyimi sizə yetirmək istəyirəm. Yaxşı olardı ki, "Eşidib-bildiklərimdən" hekayəti qəzetdə sona çatdıqdan sonra kitab şəklində işıq üzü görsün. Bu həm tədqiqatçılar üçün, həm də yaxın keçmişimiz olan və artıq bir tarixə dönən sovet dövrünün yadda qalan səhifələrinin gələcək nəsillərə ötürülməsi üçün dəyərli bir vasitə olardı.

Və arzum budur ki, mənə də "Eşitdiklərim-bildiklərimdən" kitabının bir nüsxəsini öz dəsti-xəttinizlə ərməğan edəsiz. Sizə möhkəm can sağlığı və yaradıcılıq uğurları eşqilə Şadiman.

10.11.2008

FƏRİDƏ LƏMANA DİLƏKÇƏM

"Ürəyimi sabahlara açıram" kitabından şeriyyətinə, sözünə-sovuna bələd olduğum alim-şair xanımımız, Fəridə Ləman! Sizi mətbuat səhifələrindən qiyabi tanıyırdım, lakin 2008-ci ildə sizin təşəbbüsünüz sayəsində şəxsi tanışlıq məni məmnun etdi. Az-çox ədəbi aləmdə yeri olan qadın şairələrimizi "Məhsəti Şairlər Məclisi" ətrafında cəm etməyiniz ən azı mənəviyyatımızı çiçəkləndirən xeyirxah addımdır. Keçirdiyiniz tədbirlər bu tədbirlərdə sözü öz taleyinə çevirmiş müxtəlif yaşda qadın yazarlarımızın şeir çələngini, maraqlı məqalə və yazılarını jurnalın səhifələrində işıqlandırmağınız onların yaradıcılığına tutduğunuz çıraqdır.

Bu çırağın işığı hələ neçə-neçə zülmətləri nura qərq edəcək. Fədakar qadın yazarlarımızın yazmaq eşqini artıracaq. Əziz Fəridə Ləman, siz öz cəfakeşliyinizlə jurnalın maliyyə sarıdan çətinlik içində qalmasına baxmayaraq onu min bir zəhmətlə araya-ərsəyə gətirirsiz. Bu bizim mənəvi dəyərlərimizə təmənnasız xidmətdir. Siz səhhətinizi düşünmədən, yorulmadan çalışırsız. Sizin bu il cəsurluğunuz və rəhbərliyiniz sayəsində işıq üzü görmüş əksər qadın şairlərimizin şeirlərindən ibarət olan "Azərbaycan çələngi" şeirlər toplusu və onların tərcümeyi-halından bəhs edən "Məhsəti" ensiklopediyası ədəbiyyat aləmində gördüyünüz işlərin uğurlarının timsalıdır. Sizin gülər üzünüz, qayğıkeş və mehriban baxışlarınız təbinizin rübabından çağlayan şeriyyəti qələminizə calayır və bu şeriyyət vərəqlər üstünə bahar yağışı kimi ələnir. Bu şeriyyət misra-misra kağızlara hopur və kağızlar misralar içində şölələnir.

Nədənsə mənəviyyat adamları – əksərən ədəbiyyatla, incəsənətlə bağlı insanlar həmişə çətinliklər içərisində olub, amma hər dövrdə bu çətinlikləri aşmağı bacaranlar ədəbi aləmdə öz izini qoymağa nail olub. Siz anamız ulu Məhsətinin adına söykənib onun fədakarlığına bənzər bir ömür yaşayırsız. Bu ömrü qələmlə, ilhamla, sözlə bağladığınız üçün acısı şirinindən çox olub, çünki həqiqi sənət adamının həyatı məhrumiyyətlərlə doludur! Siz bu məhrumiyyətlərə sinə gərib Məhsəti işığına toplaşmış qadın şairlərimizin söz-sovuna, özünə dəstək olursuz.

Onların işıq üzü görən kitablarının təqdimatlarını, xaricdən bizi deyib gələn soydaşlarımızla görüşlərin, bir çox könül riqqətə gətirən işlərin cəfakeşisiz.

Əziz Fəridə Ləman! Noyabrın 28-i doğum gününüzdür. Bu gün münasibətilə sizi ürəkdən təbrik edir, sizə mənalı və cansağlıqlı bir ömür, ədəbi yaradıcılığınızda uğurla dolu günlər arzulayıram. Mən əlinə qələm alıb ürəyinin odunu, atəşini ağlının qavradığı, könlünün duyğulandığı səviyyədə mənzum və nəsrdə vərəqlər üstünə tökən qadın yazarlarımızla qürur duyuram. O cümlədən də Sizinlə! Əziz həmkarım, qarşıdan sizi Həcc ziyarəti gözləyir. Necə deyərlər, Allah sizə bu səfərə getmək üçün şans yaradıb. Mənim Allahdan təmənnam budur ki, cəmi Həcc ziyarətinə gedənlərlə bahəm sizin bu səfəriniz uğurlu olsun! Sağ-salamat Vətənə, ailənizə, yaradıcı sənət dostlarınıza qovuşasınız! Allah Həccə gedəcək bütün əməli-saleh insanlarımızın ziyarətini qəbul etsin, o cümlədən Sizin də! Amin!!!

10.11.2008

SÖZÜM HAQQI – DÖZÜM HAQQI

Deyirlər ki, Allah öz bəndələrini xəlq etməmişdən çox-çox əvvəl SÖZÜ yaratdı, insanları digər canlılardan fərqləndirib ali varlıq kimi dünyaya bəxş etdi. Söz, can cismi tapana qədər ağrılardan, sonu görünməyən əzablardan keçdi, çünki sözün özünün də canı var idi və bu can sonralar insan canı ilə qovuşdu, onunla əbədi yolun yolçuna döndü… Əslində sözün həyatı əbədidir. Bu həyat sözün bir bədəndən digərinə keçməsiylə öz davamını tapır, çünki sudan, qandan və ətdən ibarət olan bədən təbiətdə olan canlılar kimi ona ayrılmış müddət bitdiyi məqamlara az qalmış öz ölçüsünü, çəkisini, görünüşünü dəyişməyə başlayır və istər-istəməz bu dünyanı tərk etməli olur. Deməli, canın tapındığı cisim sıradan çıxır, daha doğrusu, öz ömrünü başa vurur. Söz isə ruh mərtəbəsində qalır yenidən hansısa bir bədəndə həyatın davamı üçün… Ruhlar da xeyir və şər olmaqla iki yerə bölünür. Necə ki, təbiətdə soyuq-isti, külək, meh, qasırğa, yağış-gurşad, qar, zəlzələ, vulkan və sair var. Onlar arasında daimi iğtişaş gedir. Elə bu dünyada da təbiət qüvvələri arasında iğtişaş getdiyi kimi, insan dediyimiz varlıqda bərqərar olan xeyir-şər arasında mübarizə gedir. Bu mübarizə çox vaxt bütünlüklə dünyanın məhv olmasına aparıb çıxarır, sanki Allah insanı haqq yolunu azdığına görə doğrudan da cahana günahlardan təmizlənmək üçün göndərib. Sözü də Adəmə şərin və xeyirin çarpışmasında bir vasitə kimi ərməğan edib. Ruhun təmizliyinə qovuşmaq istəyənlər, mənəvi dünyanın möcüzəsinə səcdə edənlər Tanrının ona bəxş etdiyi Təb adlı gözəgörünməz ilahi xilqətin əsirinə çevrilir. Təb isə sözün bir sevdalı mələyidir. O insanı həm şər tərəfə, həm xeyir tərəfə çəkə bilər, çünki söz həm şərin, həm də xeyirin əsiri ola bilər. O baxır insan ağlına, düşüncəsinə, düşdüyü mühitə və onun mənliyinin tutumuna ki, söz onu hansı tərəfə çəkir… Kaş, söz aşiqi olan insana qələmini xeyirə çalmaq qismət olaydı! Əgər belə olsaydı cahanda bu qədər zülm, didişmə, mərəkə, qan-qırğın olmazdı və insanlar da o biri dünyanın cəhənnəm əzabıyla hədələnməzdilər. Bu dünya gülüstanlıq olardı və bəşər övladı bu gülüstanlıqda bəxtiyarlıqla ömür sürərdi…

Yalnız sözdən keçir insanın insana məhəbbəti də, nifrəti də, döyüşü də, yürüşü də, ülfəti də, səadəti də! Bu ali məqamın təmizliyini duyanlar sözü xeyirlə sevdaladılar, ona tapındılar, ona ehya etdilər, onun haqqa üz tutan karvanına qoşuldular, zirvələrə doğru getdilər – Nizami kimi, Füzuli kimi,

Yunis İmrə kimi, Sədi kimi, Şekspir kimi, dərisi soyulan Nəsimi kimi, Puşkin kimi… Və bu günümüzə qədər mənəvi dünyanı maddiyyatdan üstün tutub ömrü boyu onun əsirinə çevrilən, qələmini xeyrə ərməğan edib ona dəlicəsinə aşiq olanlar Allah sevgisilə cilalanmış kəslərdir. Ölənədək varını-pulunu sayanlar, ona cani-dildən uyanlarla mənəviyyat insanları arasında dağla dəniz qədər fərq var. Bəlkə elə ona görə də müqəddəs kitabımız olan Quranda alimin qələmi uca tutulur. İlhamın insana şeytan vəsvəsəsindən və ya Allah tərəfindən verilməsi barədə söhbət açılır və şərə çalınan qələm cəhənnəm əzabı ilə hədələnir.

Əli Rza müəllim, siz sözlə bağlı olduğunuz üçün, ömrü boyu sözə doğru yol getdiyiniz üçün mən də yazmaq istədiyim bu yazını özümün bacardığım kimi, ağlımın mənə diktə etdiyi kimi sözə verdiyim təriflə, qaydayla başladım. Hələ 1991-ci ildə "Ürək niyə ağrıyırsan?" kitabı ilə ədəbiyyat aləminə qədəm qoyanda bu yolun nə qədər ağrılı, keşməkeşli, çətin olduğunun şahidi oldum. Öncə kitab çapdan çıxanda sevindim, amma sonra dərin peşmançılıq hissləri keçirdim, hətta bu peşmançılıq hisslərinin sarsıntıya bənzəri var idi. O zaman hələ yazar qadınlarımızın sayı çox deyildi, çünki qadının sənətdə və xüsusən ədəbiyyatda olması olduqca çətin bir işdir, məhz həyatın hər sahəsində üstünlük kişilərin əlində olduğu üçün, onlar qadınları zəif və zərif məxluq hesab etdiklərinə görə onların istedadına da özlərinin düşündükləri prizmadan baxırlar. Yəni qadının yazdığı da özü kimi zəif və zərifdir.

Amma evin, ailənin bütün çətinliklərini öz çiyinlərində daşıyan qadına da Allah ilham verib və onu heç də kişilərdən aşağıda tutmayıb. Sadəcə olaraq, qadın dövrün, zamanın keşməkeşlərinə dözə-dözə ilhamını ona qadağan eləyənlərə qarşı əsrlərlə mərdliklə mübarizə aparıb. Bu mübarizədən gah məğlub, gah qalib çıxıb, amma əfsus ki, onun qalib zamanları az olub, çünki dünyada hökmran kişilərdir, onlar da özləri bildikləri kimi qadınlarla rəftar edib və edir. Şükürlər olsun ki, həmin yasaqlar yaşadığımız dövrdə az təsadüf olunur və yaxud yox dərəcəsindədir. Mən bununla kişiləri ittiham etmək fikrində deyiləm, sadəcə, olaraq diqqətinizə yetirmək istəyirəm ki, kişi yazarlardan fərqli olaraq qadın yazarların həyatı bu yolda çox ağır və üzücüdür. Elə ona görə də ilk kitabım mənə həm sonsuz dərəcədə sevinc, həm də kədər hissləri yaşatdı… Həyatım boyu üç dəfə şeirlərimdən ocaq çatmışam. Birinci orta məktəbi, ikinci universiteti bitirdikdən sonra, üçüncü isə birinci kitabım çapdan çıxandan sonra… Düz doqquz il kitab

çap etmədim, çünki birinci kitab "Azərbaycan" nəşriyyatının keçmiş direktoru rəhmətlik Əjdər Xanbabayevin, ilk kitabımın çapına rəy verən hörmətli şairimiz Sabir Rüstəmxanlının, redaktorluq edən hörmətli şairimiz İlyas Tapdığın insani qayğıları olmasaydı kitabın çapı müşkül məsələydi, çünki sovet quruluşu dağılmamışdı və kitab çapı ağrılı bir iş idi. Mən Əjdər müəllimə, qəbrin nurla dolsun deyirəm, İlyas bəylə Sabir bəyə isə cansağlığı və yaradıcılıq uğurları arzulayıram və öz dərin salamlarımı yetirirəm.

Ailə həyatı qurduqdan sonra elmə, biliyə, mənəviyyata sonsuz hörmətlərlə yanaşan həyat yoldaşımın cidd-cəhdləri ilə 2000-ci ildə ikinci kitab işıq üzü gördü. Mən Neft Daşlarında işləyirdim, tamam başqa peşədə, geofizikada mühəndis kimi çalışırdım. Amma orda mənim könül hücrəm vardı. Bu hücrə Neft Daşları idi. Düz 22 il bu hücrədə həyatımın acılı-şirinli günlərini yaşadım. Tam özümə qapandım, Allahımla üz-üzə, göz-gözə qaldım. Çünki orda dəmir dirəklər və o dirəklərin üstündə balaca taxta evciyimiz var idi. Mən dənizin fırtınalarıyla üz-üzə, göz-gözə idim. Mən orda işləyə-işləyə dörd kitabım dünyaya göz açdı. 2007-ci ilin axırlarında gözəl şairimiz, "Məhsəti Şairlər Məclisi"nin sədri Fəridə xanım Ləman evimizə telefon açdı və mən bu xeyirxah və cəfakeş söz adamıyla tanış oldum, o dedi ki, sənin iri həcmli kitabların çıxıb, niyə təqdimat keçirmirsən? Gedək "Kredo" qəzetinə orda sənə təqdimat keçirək. Doğrusu, qəzetin adı mənə xoş təsir bağışlamadı. Öz-özümə dedim niyə "Kredo"? Öz sözlərimiz tapılmırdı məgər? Fəridə xanım başladı qəzeti can-dildən tərifləməyə. Dedi: "Çox güclü qəzetdi, maraqlı ədəbi-elmi məqalələr, bədii əsərlər, şeirlər nə istəyirsən var o qəzetdə. Əvvəllər lap çox yaxşıydı, indi maliyyə cəhətdən çətinlik çəkir. Nə əcəb sənin o qəzetdən xəbərin yoxdur?" Dedim, mənim köşklərdə satılan qəzetlərdən xəbərim var, yəqin satışda yoxdur ona görə xəbərsizəm. Beləliklə, Fəridə xanım məni "Kredo"ya gətirdi və mənim sizin qəzetlə tanışlığım belə başladı.

İlk dəfə 2008-ci ilin yanvarında qəzeti götürüb evə gətirdim. Məndən qabaq onu həyat yoldaşım vərəqlədi, qəzet çox xoşuna gəldi və başladı qəzeti tərifləməyə. Dedi: "Götür oxu, çox maraqlıdır". (Yoldaşım ixtisasca geofizik olsa da ədəbiyyata, tarixə, bütünlükdə dövrü mətbuata hədsiz maraq göstərən və mütaliə edən insandır, evimizdə rus və Azərbaycan dillərində zəngin kitabxana var). Mən qəzetin səhifələrinə göz gəzdirib bir-iki məqalə oxuyandan sonra, doğrusu, heyrətimi gizlədə bilmədim. Burda gedən yazıların tutumu, müxtəlif müəlliflərin yaradıcılığının

işıqlandırılması ön planda diqqəti çəkirdi. Zəngin ədəbiyyat mətbəxli "Kredo" həm həyat yoldaşımın, həm də mənim nəzərimizi özünə cəlb etdi. Mən sizə tanışlıq üçün kitablarımı hədiyyə etdim. Artıq kitablara təqdimat keçirmək məsələsi arxa plana keçdi. Siz bizə telefon açdız, mənim kitablarımdan xoş sözlər dediz və bu kitablar barədə yazmaq istəyinizi mənə bildirdiz. Bilirsiz, mənim üçün həmin gün xoşbəxt günlərimdən biri idi! Çünki bundan yaxşı təqdimat ola bilməzdi. Əslində kitablarıma təqdimat keçirməyə həmişə utanmışam. Yaşlı yazarlarımızı gözümün önünə gətirib fikirləşmişəm ki, mənim təqdimat keçirməyim hələ tezdir. 53 yaşım var, günü bu gün də təqdimat keçirməyə çəkinirəm. Bu illər ərzində mənim 400, 560, 740 səhifəlik kitablarım çıxmışdı. Və bu kitabları əsasən kitabxanalara, Elmlər Akademiyasına ərməğan etmişdim və heç kəsdən də belə təklif almamışdım. Düzdür, müxtəlif vaxtlarda AEA-nın müxbir üzvü Azad Nəbiyev, alim xanımımız Almaz Ülvi və gözəl insan, şair xanımımız Şövkət İmami çapdan çıxmış kitablarıma ön sözlər yazıblar, Şövkət xanım istisna olmaqla mən bu insanları şəxsən tanımamışam. Hər birinə öz salam və ehtiramımı yetirirəm.

Əli Rza müəllim, mən sizin qələminizin rübabından qaynaqlanan kitablarınızla tanış oldum. Sizin "Həsrət körpüsü" şeirlər kitabınız, şəhidlik zirvəsinə qovuşmuş nakam əsgərimiz Fuadın həyat və yaradıcılığından bəhs edən "Arzulara dəyən güllə", "Başdaşımın yazıları", bu yaxınlarda çapdan çıxmış "Meyar" və adlarını sadalamadığım digər publisistik kitablarınız zəngin yaradıcılığınızdan xəbər verir. Siz "Meyar" kitabınızda neçə-neçə insanların həyat və yaradıcılığı ilə ülfət qurub onların könül dünyasından qaynaqlanan əsərlərinə ədəbi səyahət etmisiz. Bu səyahətdən aldığınız təəssüratsa zəngin söz xəzinəsilə doludur.

Siz 2008-ci il aprel ayının 5-dən "Adı Şadiman olanın…" publisist əsərinizi yazmağa başladınız. Mən bu yazıyla əlaqədar hər həftə "Kredo" qəzetinə baş çəkməli oldum. Hər dəfə sizin kompüterin qabağında dayanıb sinədən, müxtəlif söz adamlarının haqqında dediyiniz yazıları əyani şəkildə eşitmək və görmək şərəfinə nail oldum. Duydum ki, sizin iç dünyanızda bir vulkan var, bu söz vulkanıdır, aramsız şəkildə püskürür. Sizin "Adı Şadiman olanın…" yazınız artıq 256 səhifəlik kitab şəkilində bu yaxınlarda işıq üzü gördü. Bu on ay ərzində yazıyla bağlı bizim maraqlı mülahizələrimiz, deyişmələrimiz olub. Bu yazıda etiraf edirəm ki, mənim razı qalmadığım məqamlarla da üz-üzə gəlmisiniz. Lakin təmkininiz, dözü-

münüz və mənim yaradıcılığıma verdiyiniz qiymət hissi sizi bu yoldan sapındırmadı, siz axıra qədər bu publisistik əsərin kitab şəklində işıq üzü görməsinə nail olduz. Bu sizin ədəbiyyat aləmində çəkdiyiniz cəfalardan xəbər verir. Sizi maraqlandırmır yazarın titulları var, ya yox? Sizi həqiqi sənət və onun keşməkeşli taleyi maraqlandırır. Bu keşməkeşli taleyə işıq tutur sizin qələminiz. Allah sizin təbinizdən doğan sözünüzü və özünüzü nəzər diqqətində saxlasın. Amin!

Bayaq qeyd etdim ki, mənim "Adı Şadiman olanın…" əsərinizlə bağlı razı qalmadığım məqamlar olub. Bir narazılığım şerə hərdənbir əl gəzdirməyinizdir. Mənə elə gəlir ki, hansı şerə əl gəzdirilirsə, o şeir cərrahiyyə əməliyyatına tuş gəlmiş xəstəyə bənzəyir. Axı gəlin etiraf edək, bəzən həkimlərin səhvi ucbatından səhvən də əməliyyat aparılır. Məhz mən şerə edilən düzəlişi xəstəyə edilən səhv cərrahiyyə əməliyyatına bənzədirəm. Fikrimcə, heç bir bədii yazıya düzəliş etmək düzgün deyil. O həm yazarın ruhunu qırır, həm də həmin yazını şikəst edir.

Şeir ayrı-ayrı təblərdən süzülüb gəlir, hər müəllifin ruhuna, ağlına, ürəyinə köklənir. Məsələn,

Mənim "Tağayım" poemasında bəndlərin birində belədir:

Onda bildim dünya fani, Tağayım,
Hər can üstə ömür ani, Tağayım.

Siz isə axırıncı misrada dəyişiklik edib:

Hər an üstə ömür ani, Tağayım.

kimi yazmısız.

Fikrimcə, can dediyimiz yoxdursa, onda nə bədən, nə ömür, nə də an var. Siz isə burada canı anla əvəz edib ömrü anla bağlayırsız. Bir misrada iki dəfə an sözü işlədirsiz, bu həm də eyni sözün bir misrada iki dəfə təkrarı deməkdir. Və yaxud

Gün çıxanda adamların hay-hoyu, misrasını
Gün çıxanda adamların öz hoyu misrasıyla əvəz etmisiz.

Mənə elə gəlir ki, adamların öz hoyu yox, elə hay-hoyu ola bilər. Və yaxud "Əski Azərbaycanın iyirmi səkkiz mayısan" şerində əski sözünü

qədim sözü ilə əvəz edirsiz. Bütün bu xırda iradlarımı çıxmaq şərtiylə haqqımda yazdığınız "Adı Şadiman olanın…" kitabına görə sizə dərin minnətdarlığımı bildirirəm, çünki siz yazdığınız bu kitabı səbirlə, xeyirxah ədəbi baxışlara və ulu sözə sığınıb ilk əvvəl qəzetin səhifələrində çapına qərar verdiniz və araya-ərsəyə gətirdiniz. On ay ərzində bəlkə də bədxah nəzərlər və sözlər sizi məngənə təki sıxdı, bəlkə də siz kimlərinsə "Şadiman kimdir?" eyhamlarına dözdüz, bu dözümü ürəyinizdə ağrı etdiz, amma üzə vurmadız. Sizin bu dözümünüzü alqışlayıram. Mən bu publisist əsəriniz getdiyi müddətdə sizə ünvanladığı yazıda mənim də adımı çəkmiş, qələminə, sözünə hörmət bəslədiyim filologiya elmlər doktoru, professor Qəzənfər Paşayevə, açıq məktubla yaradıcılığım barədə öz rəyini bildirmiş tədqiqatçı alim-şair Nizami Tağısoya, yazıçı xanımımız Salatın Əhmədliyə, şair xanımımız Nəcibə İlkinə, tədqiqatçı alimimiz Şakir Albalıyevə, "Respublika" qəzetinin baş redaktorunun müavini alim-publisist xanımımız Nərgiz Rüstəmliyə öz təşəkkürlərimi və minnətdarlıqlarımı yetirirəm.

Bu yazının əleyhinə hansısa bir sözü, bir hissi ağlından keçirib dilinə gətirənlərə demək istəyirəm ki, əziz söz adamları, uca Tanrı bizim hər birimizin əqlini və sözünü xeyrə calasın! Əli Rza müəllim, ədəbiyyatı candildən sevənlərə diləyim budur ki, bir-birinə can deyib can eşitsinlər, nəyi bacarırlarsa onu bir-birindən əsirgəməsinlər. Hörmətli şairimiz Ramiz Rövşənin təbirincə desək, "ədəbiyyatda hər kəs öz binasını yapır". Necə yapmağı isə fərdin ağlından, Allahın ona bağışladığı təbdən, özünün sözə verdiyi ruhdan aslıdır. Ruh sözlə birgə qalırsa, o söz özünə yaşam tapır, yox əgər söz ruhu tapmırsa, o bir anın içində doğulur və ölür. Ruh da ayrı sözün sorağına çıxır, çünki yazımın əvvəlində qeyd etdiyim kimi sözün də canı var. Kimlərinsə sözləri, kimlərinsə özləri bu dünyaya yükdür. Bəşər övladı bərqərar olandan kimlərsə bu dünyanı söz tutumu ilə öz çiyinlərində gəzdirirlər. Kimlərsə öz çiyinlərini sözə sütun ediblər, söz binasının çökməməsi üçün… Söz – əqli-zəkanın, hissin dillə ifasıdır. Söz – haqqın bəndəyə vəfasıdır. Söz – Allahın varlıq qitəsidir. Söz ruh dəryasının qəvvasıdır. Onu xeyrə aşiq edənlər Tanrıya, şərə aşiq edənlər İblisə bağlıdırlar. Ona görə alimin mürəkkəbini şəhid qanıyla bərabər tutan müqəddəs Quranımız sözün, sözə tapınan alimin, şairin, yazıçının, ümumiyyətlə, mənəviyyat adamının mərtəbəsindən xəbər verir, ancaq bu mərtəbə şeytanın vəsvəsəsindən uzaq olarsa…

Əli Rza müəllim, məhz ədəbiyyatda siz dözümlə öz binanızı hörənlərdənsiz. Bu bina tarixlərin tufanına, ağrı-acısına dözə-dözə yaşayacaq, ədəbiyyatı sevən və ona qiymət verən söz adamının ruhuna hakim kəsiləcək. Bu hakimlik hissindən sözünüz, əqliniz, coşub-daşan ilhamınız, zirvələrin fəthində olan kamınız əskik olmasın, çünki yazar haqq dünyasına qovuşandan sonra onun yazdıqlarının dadına titulları, mükafatları, vəzifələri yox, özündən sonraya qalacağı söz kərpiclərilə yapılmış kitab qalası yetişəcək. Əgər bu kitab qalada ruh olacaqsa, deməli, yaşam haqqı qazanıb. Allah bu haqqı sözə tapınanların əlindən almasın… Sözə və dözümə and içirəm: SÖZÜM HAQQI, DÖZÜM HAQQI!..

05.02.2009

SÖZÜN DƏRDİ

Həyata göz açıb, dünyanı dərk edən gündən bəşər övladının dərdə düşdüyünün, dərddən yanıb-yaxıldığının şahidi olmuşam. Amma sözün dərd içində çapaladığını və fəryad etdiyini görməmişdim. Yəqin ki, əziz oxucular məndən sual edib soruşa bilərlər ki, söz niyə dərdə düşüb və onun dərdə düşməyinin səbəbi nədir? Nədən insan xəlq olandan anlaşılmazlıqlar içində fəğan etdiyi bir halda onun dilindən qopan sözlər də özündən beşbetər günə qalıb? Mən bilmirəm başqa xalqlarda necədir? Çox dəqiq bilirəm ki, bizim ölkədə söz həqiqətən də dərdə düşüb. Axı bütün ağrı-acıların beşiyi də deyəsən söz özüdür. Deyirlər: "Gedər bıçaq yarası, getməz söz yarası", çünki sözdən başlayır insanın uğuru da, qəlbinə vurulan yaranın ağırı da! Söz insanı alçaldar, müvəffəqiyyətinə əl çaldırar. Onu zirvələrə qaldırar, dildən öz vaxtında çıxmayanda zirvələrdən kəllə-mayallaq yerə saldırar. Ona görə sözlə oynamaq, onunla zarafat etmək düşündüyümüz qədər də asan deyil. Söz ehsan deyil ki, dünyasını dəyişənin dostu da, düşməni də dadsın o ehsanı! O bədənində gəzdirdiyin can deyil ki, cismin ağrıyanda təbibə, dərmana üz tutasan ki, o sənin, azacıq da olsa, ağrılarına şəfa bulsun. Söz insanın həm əziz dostu, həm də qəvi düşmənidir. Mən bu yaxınlarda "Kredo" da çapdan çıxmış "Sözüm haqqı, dözüm haqqı" məqaləmdə demişdim ki, söz adamı həm xeyir tərəfə, həm şər tərəfə çəkə bilər, ona görə də onunla çox diqqətli və ehtiyatlı davranmaq lazımdır. Əks halda o insanı gülüş hədəfinə və yaxud qanlı düşmənə çevirə bilər.

O da canlıdır, o da bizim hər birimiz kimi qayğı, sayğı, ülfət, mərifət, ən nəhayət, böyük məhəbbətlə sevir. Bu məhəbbəti onu dildən çıxaran sahibindən görməyəndə quduzlaşır, azğınlaşır, qəzəb içində aşıb-daşır, bəzən də ucuzlaşır, cılızlaşır, sönükləşir, üzü bizdən dönükləşir…

İstəkli oxucular, mən bu gün bir söz adamı kimi yox, dinləyici, tamaşaçı və oxucu kimi mənə əzab verən dərdləri sizinlə bölüşmək istəyirəm. Yəqin ki, güman edirəm bu dərdlər sizi də azdan-çoxdan narahat etməmiş olmaz. Ən əvvəl televiziya və radio kanallarımızda üzdən iraq, ət tökən teleşou proqramlarında səhərdən axşama qədər at oynadan, sözü, bəstəkarı, müğənnisi özü olan, birtəhər səsilə sənətkarlıq iddiasına düşənləri heç cürə başa düşə bilmirəm. Evlərində olan ab-havanı, ev əşyalarını, zinətli bərbəzəkləri geniş tamaşaçı toplumunun gözü qarşısında nümayiş etdirmək ən azından bu adamların səviyyəsizliyindən xəbər verir. Axı bu tamaşaçıların içində kasıblıqdan da aşağı səviyyədə yaşayan ailələr var. Bu insanların əsəblərilə oynamaq tamaşaçı məhəbbəti qazanmaqdırmı? Artıq biz onların simasız üzünü görməkdən, olmayan səsini eşitməkdən zara gəlmişik. Niyə dahi Üzeyir Hacıbəyovun, Müslüm Maqomayevin, Qara Qarayevin, Arif Məlikovun, Tofiq Quliyevin, Şəfiqə Axundovanın, Elza İbrahimovanın, Emin Sabitoğlunun, Ələkbər Tağıyevin, Cavanşir Quliyevin, Qulu Əsgərovun, ustad xanəndə və bəstəkar Əlibaba Məmmədovun, Məmmədbağır Bağırzadənin və adını sadalamadığım bir çox ünlü sənətkarlarımızın nəfəsindən və istedadından doğan sənət incilərimiz bu günə qədər bizim canımızda, qanımızda dərin-dərin kök atıb ruhumuzun və mənəviyyatımızın kamilliyinə xidmət edir. Sözü, musiqisi, səsi mənim deyib, səhərdən axşama qədər ekranlardan düşməyən bu üzdəniraq müğənnilərin dəstək aldığı adamlar düşünmürlərmi fəlsəfi və mənəvi kamilliyilə zəngin olan milli dəyərlərimizə xələl gətirirlər? Bəzən dəyərlərimizin varlığına xələl gətirməsələr də, gənc nəslin düşüncə tərzinin formalaşmasına ciddi zərbə vururlar. Mənim musiqi təhsilim yoxdur, amma onu bilirəm ki, musiqidə mahnı janrı heç də asan janr deyil. Yəqin ki, bəstəkarlarımız bunu çox gözəl bilirlər. Bu janrda öz möhürünü, imzanı qoymaq üçün sənin istedadın olmalıdır. İstedadsız, səriştəsiz əqldən süzülən mahnı təbsiz yazılan şerə bənzəyir. Sözlər qupquru, ürək tellərini titrətmir. Belə bəstəkarların yazdıqları mahnılarda ritm var, ancaq melodiya yoxdur. Mahnı çalınır, bitən kimi sözü də, özü də bir göz qırpımında yaddan çıxır. Musiqi bitənə kimi müğənni əl-qol atır, olmayan səslər çıxarır, mahnının

sözü də, özü də adamın ürəyini sıxır. Elə bilməyin ki, mən estradanı sevmirəm. Xeyr, mənim klassik musiqidən tutmuş xalq musiqisinə, muğamata, aşıq musiqisinə, dünya musiqisinin ən yaxşı incilərinə sonsuz eşqim və ehtiramım var. Dəyəri olmayan sözləri və bəstəsi ilə radio və televiziya məkanlarından səsləri və özləri düşməyən kəslərdən gedir söhbət. Bu kəsləri isə ekranlara və radio qovşaqlarına təqdim edənlər sözdən istifadə edir. Bədbəxt söz isə hönkür-hönkür ağlayır, bu göz yaşı onun içinə axır. Onun hönkürtüsünü bir özü bilir, bir də onu xəlq eləyən Allahı…

İndi isə SMS barədə öz fikrimi bildirmək istəyirəm. Bu SMS deyəsən aparıcılarına və orda işləyən işçilərin başına bəla olub, çünki indiki zəmanədə ədəbiyyatımızda və tariximizdə, elmimizdə görkəmli yer tutan şəxsiyyətlərimiz SMS vasitəsilə ya dahi olur, ya da yox, çünki bu ona verilən səslərin çoxluğu ilə bağlıdır. Dahi adını qazanmaq üçün gərək ki, çoxlu SMS qazansın, əks halda tarix boyu millətin yaddaşında dahi kimi iz qoymuş şəxs də dahilikdən çıxmalı olacaq. Belə ki, ona veriləcək dahi adının taleyi SMS-dən asılıdır. Adlarıyla tarixin yaddaşında qalmış bu şəxslərə divan qurub, divan tutmaq, görəsən, nə dərəcədə düzgündür? Və yaxud hər hansı televiziya verilişi gedərkən ekranın aşağı hissəsində şıdırğı SMS yarışması başlayır. Kimi özünə nişanlı axtarır, kimi özünə dost axtarır, kimi kimə evlənmək təklif edir, kimi kimə məhəbbətini bildirir? Bilmirsən ki, televiziyada gedən verilişi izləyəsən və yaxud ekranın aşağı hissəsində baş alıb gedən bu biabırçı yazışmalara diqqət kəsiləsən. Bütün bu proseslər hamısı da bədbəxt sözlə baş verir. Bütün bunlara diqqət kəsiləndə adam özünün hansı ölkədə yaşadığını, hansı millətə və hansı dinə məxsusluğunu, hansı millətin təmsilçisi olduğunu unudur, sanki hansısa yad bir planetə düşmüsən. Nə burda abır-həya, nə ismət, nə böyük-kiçik yeri bilmək, heç nə yoxdur. Çoxsaylı tamaşaçının gözü qarşısında kimlərsə kimləri evlənməyə, ərə getməyə, dost olmağa, bilmirəm hara, niyə çağırır? Bütün bu hali-hekayətlər də hamısı SMS vasitəsilə, başıbəlalı sözün iştirakıyla həyata keçirilir. Görəsən, bu yazışmalar hələ həyatın ağrı-acısından o qədər də baş çıxarmayan, yaşının azlığıyla əlaqədar həyat təcrübəsi olmayan gənc oğlan və qızlarımıza necə təsir edər? Bu yaxınlarda bizim qonşuluğa SMS vasitəsilə bir qız qaçıb gəlib. Özü də deyir ki, ərə gəlmişəm, indi hamı belə ərə gedir. Həm valideynlərinə, həm də ər evinə qan uddurur. Budurmu inkişaf etmiş ölkələrlə ayaqlaşmaq? Bizə inkişaf etmiş ölkələrin mənəviyyatı yox, elmi ilə, savadıyla ölkəsinin

yüksəlişi üçün atdığı addımlar lazımdır. Yoxsa oğlanların qulağına sırğa taxıb saç uzatması, qızların yarıçılpaq halda ekranlarda istedad adıyla fəğan etməsi hansısa milləti təlqin etməkdən savayı bir şey deyildir. Adam özününküləşməkdən çıxdıqda çox rüsvayçı görünür.

Bu yaxınlarda televiziya kanallarının birində "Yasaq sevgilər" adlı bir veriliş gedirdi. Aparıcı cavan bir qız idi. Televeriliş boyu tamaşaçılar da ara-sıra zəng edir, öz fikirlərini bildirir. Mövzu belə qoyulmuşdu ki, sənin ailən oldu, olmadı, sən kiməsə vurulub, kimisə sevə bilərsən. Bir tamaşaçı qadın zəng edib evlənən gündən 20 il ərini aldatdığını və ərinin dostuyla, evli bir kişilə yaşadığı haqda televiziya vasitəsilə aləmə car çəkdi. İyirmi il ərinin papağını yerə soxan bir qadının fikrini camaata car çəkməklə bu televeriliş nə məqsəd güdürdü? Bunun gənc ailə quranlara və qurmaq istəyənlərə nə kimi xeyri ola bilər? Bu bizim mənəviyyatımıza nə kimi xidmətlər edə bilər? Hələ həyatın ağrı-acısını dadmayan, bərkinə-boşuna düşməyən bu gənc aparıcı qız yasaq sevginin adamın, xüsusən də ona aludə olan bəzi qızlarımızın, qadınlarımızın başına hansı bəlalar açа biləcəyinin fərqinə varırmı, görəsən? Öz ərini 20 il aldatmış o hiyləgər qadının dünyaya gətirdiyi övladları, görəsən, ondan necə tərbiyə alıb? Onlar vətənə layiqli övlad ola bilərmi? Və bu kimi verilişlər həyata gözünü təzəcə açmış gənclərə hansı tərbiyəni aşılayır? Burada hansı sevgidən söhbət gedə bilər? Bu yalnız ağılsız hissin və heyvani ehtirasın törətdiyi fəsaddır. Bu da çox vaxt böyük faciələr və fəlakətlərlə, hətta insan ölümüylə də nəticələnir. İnsanın heyvandan bir fərqi olmalıdır, ya yox? Bəs dini kitablar niyə insanı canlıların ən alisi sayır? Bəli, çünki Tanrı tərəfindən ona şüur verilib və bu şüur da bəşəriyyəti idarə edir. Əgər insan öz hisslərinin əsirinə çevrilsə və onu məhəbbət adlandırsa, onda onun sabahından nə olacaq? Söhbət burda bizim ölkədən gedir, mənim qeyri-ölkə və millətlərlə işim yoxdur, çünki hər millətin özünüaparma tərzi var. Bu da onun kimliyini həyat boyu büruzə verir. Görəsən, ekran qarşısından və radionun pultu arxasından insanlarımıza bu kimi cəfəngiyyatları təbliğ edənlər bilmirlərmi ki, əksər halda xalqın nifrət və qınağına tuş gəlirlər?

Hazırda telekanallardan və radio qovşaqlarında səhərdən axşama qədər meyxana deyənlər, bədihəçilər at oynadır və özlərini də şair adıyla millətə təqdim edirlər. Əvvəla, hansısa qafiyəni tutub getmək şairlik demək deyil. Meyxana ilə şairliyi bir-birinə qatmaq ən azı ustadlarımızın ruhuna hörmətsizlikdir. Onlar bir-biriylə tamamilə əks qütblərdə dayanırlar. Şairlik adına layiq olanlarımız ədəbiyyatda öz sözünü deyib və indi

də deməkdədirlər. Düzdür, onların içində hazırda bu adın öhdəsindən gəlməyənlər çoxdur, necə deyərlər, sözü qurtarıb və yaxud əvvəldən heç olmayıb "yarım-yarım" deyənlərimiz yox deyildir. Meyxana deyənlərin əksəriyyəti sözü elə bədbəxt günə qoyurlar ki, hətta onu söyüş səviyyəsinə gətirib çatdırmaqdan belə çəkinmirlər. Bu da birbaşa efirdən və televiziya kanallarından, çoxmilyonlu dinləyicinin və tamaşaçının gözü qarşısında baş verir. Bu, nəinki şairin, yazıçının, bütünlükdə söz adamının, həm də mənəviyyatımızın qədir və qiymətini bilən hər bir kəsin ürəyinə toxunur. Mən tamamilə meyxanaya qarşı çıxmıram. O da hansısa insanların zövqünə müvafiqdir. İnsanlarda xarakterlər müxtəlif olduğu kimi, zövqlər də müxtəlifdir, amma o kəslərdən xahişim budur ki, onlar özlərinə heç olmasa şair deməsinlər, çünki şair adı çox ağır bir addır, o adın öhdəsindən hər şeir yazan gələ bilməz, o da ola meyxana, bədihə deyən...

Gün ərzində radio və televerilişlərimizdə aparıcıların sözün axırında "ğ, q" səsi əvəzinə "x, f" səsini işlətmələri, sözlərinin içində yerli-yersiz "ç" səsinin qulaqlarımızı dəlməsi ədəbi dilimizin xüsusiyyətlərindən xəbərsiz olmasından və az mütaliə və yaxud heç mütaliə etməməsindən xəbər verir, habelə mikrofon mədəniyyətinin olmaması, qışqıra-qışqıra danışmaqları. Axı mikrofonun qabağında qışqırmaq niyə lazım? Efirdən səslənən hər bir aparıcının gözəl danışıq qabiliyyəti olmalıdır. Aparıcıda nəsə çatmayanda və ədəbi dilin xüsusiyyətlərindən xəbəri olmayanda bu o saat verilişin əvvəlindən özünü çılpaq şəkildə büruzə verir. Bəlli olur ki, aparıcı hansısa bölgənin dialektinin içində batıb qalıb və o dialektdən heç vəchlə çıxa bilmir. Ədəbi dilimiz isə onun danışığında yox dərəcəsindədir. Bu təkcə aparıcılara yox, ədəbiyyatımızın, mədəniyyətimizin, mənəviyyatımızın keşiyində duran bir qisim adamlara da aiddir. Onlar da efirdə çıxışları zamanı dillərindəki kəmkəsirlər özünü açıq məziyyətlərilə nümayiş etdirir.

Ümumiyyətlə, zəngin ədəbiyyatımız olmasına baxmayaraq bizim söz cəhətdən dilimiz kasaddır. Az bir qisim insanlarımız var ki, onların zəngin danışıq qabiliyyəti var, ancaq onların da çoxu bölgə dialektlərindən qopa bilmir, çox vaxt da bunu özlərinə fəxr sayırlar. Mənə elə gəlir ki, bizi uşaq vaxtdan evdə valideynlərimiz, məktəbdə isə müəllimlərimiz qorxudur. Ona görə nitq mədəniyyəti bizdə bu qədər zəifdir. Bir də kitabxanalardan uzaq düşmək, mütaliə etməmək, az bədii ədəbiyyat oxumaq və yaxud heç oxumamaq da bu bəlanı törədən səbəblərdəndir. İndi ali təhsilli cavanlarımızın çoxu bir-iki bədii kitab oxuyub, ya yox?

Əksəriyyətinin də kompüter və internetə başı qarışıb. Kompüteri bilmək və onu idarə etmək hər birimizin müasirlik baxımdan borcudur, çünki onu bilmədən indi heç bir işdə çalışmaq mümkün deyil. Lap elə yaradıcılıqla məşğul olanlarımız da kompüteri bilsələr, bu onların yaradıcılıq işlərinin sürətli getməsinə kömək edər. Belə ki, onun dairəsi, gücü, tutumu makinanın imkanlarından min dəfələrlə çox və əladır. Əla isə hər kəsin işinin irəliləyişində uğurlu vasitədir, amma o mütaliə etmək üçün vasitə deyil. Mütaliə kitab vasitəsilə həyata keçirilməlidir və o insana ruhu oxşar bir dad və qida verir. Bu qidanı özündə əxz etdirmək üçün buna uşaqlıqdan alışmaq lazımdır. Mən qeyri-azərbaycanlılarla uzun müddət işlədiyim üçün o insanların, xüsusən rusların kitaba, qəzetə sonsuz maraqlarının şahidi olmuşam. Onların süpürgəçisindən tutmuş ali təhsillisinə qədər əllərində daim kitab, jurnal, qəzet gördüm. Bizimkilər isə bir yerə cəm olanda ya bahalı əşyalardan, pul-paradan, ya kimlərinsə varından, sərvətindən bəhs edərdilər. Mən buna çox vaxt uzun yolu gəmi vasitəsilə qət edərkən təsadüf edərdim və bu da məni ruhən çox ağrıdardı…

Bizim evdə öz televiziya kanallarımızla bərabər rus televiziyasını izləmək üçün də imkan var. Mən onların televiziya kanallarında gedən verilişlərində uşağından tutmuş böyüyünə kimi necə gözəl danışıq qabiliyyətlərinin olduğunu həmişə heyranlıqla və həsədlə izləyirəm. Bu da onların, yəqin ki, mütaliə vərdişlərinin zənginliyindən xəbər verir. Mən onların hər zaman imperialist fikirlərinə nifrət etsəm də, özlərinin dillərinin və nitqlərinin gözəlliyinə xidməti və bu müsbət cəhətlərini misal gətirməyi dil mədəniyyətimizdən söz açdığım üçün vacib saydım.

Dilimizdəki söz kasadlığı təkcə televiziya və radio kanallarımızda baş alıb getmir, bu həm də müasir ədəbiyyatımızda özünü bariz şəkildə büruzə verməkdədir. İndi əksər çapdan çıxan kitablara tez-tələsik təqdimat mərasimləri keçirilir. Cavan yazarlarımız bədii ədəbiyyat oxumur, bu onların yazdıqları bədii mövzunun söz kasadlığında özünü nümayiş etdirir.

Bu yaxınlarda cavan yazarlardan birinin romanını oxumağa başladım. Birinci fəsli maraqla mütaliə etdim, ikinci fəsil tamam ayrı bir süjet xəttindən, üçüncü fəsil bir ayrı süjet xəttindən bəhs edirdi. Beləliklə, 120 səhifəlik roman adlandırılan bədii əsər hər fəsildə ayrı bir mövzudan bəhs edirdi. Deməli, bu müəllifin nəinki romandan, heç onun xüsusiyyətlərindən xəbəri yoxdur. Bəlkə də ömründə bir roman belə oxumayıb. Əgər oxusaydı o bilmiş olardı ki, roman geniş bir zaman dairəsində çoxlu obraz bolluğuyla

fərqlənən bədii nəsrin bir formasıdır. Bəlkə bu formaya bir yenilik gətirib, bir oxucu kimi mənim xəbərim yoxdur? Təqdimatlar keçirilir, bəzi təqdimat mərasimlərində müəllif öz yeni çapdan çıxmış kitabını da bəzən mərasimə gələnlərə ərməğan edir, amma mərasimdən adamlar dağılışanda kitabların çoxu masaların üstündə qalır. Adi etik davranış qaydalarına belə məhəl qoymadan kitab müəllifinin ürəyini qırmaqdan belə çəkinmirlər. Düzdü, bu ürəyi qırmaq dil ilə olmur, kitabı masanın üstündə atıb getməklə baş verir. Əgər bu müəllifin yaradıcılığı səni qane etmirsə bəs niyə onun təşkil etdiyi mərasimə gəlmisən? Gəlmisənsə, bəs niyə kitabı atıb gedirsən? Burdan belə nəticə çıxarmaq olar ki, kitabı masa üstündə atıb gedənlər özləri kitab yazmasına baxmayaraq, kitab oxumurlar. Əslində indiki vaxtda, demək olar ki, heç kim heç kimin kitabını oxumur... Sonra bu təqdimat mərasimi keçirilirsə, müəllif özünü buna layiq bilirsə, qoy bunu kitabxanalarda, mədəniyyət ocaqlarında oxucu qarşısında keçirsin, oxucu da bilsin ki, filankəs oxunan müəllifdir və onun filan kitabı çıxıb. Yoxsa yazar bir neçə yazarı yığıb onların qabağında özünün yazdığını nümayiş etdirir. Bu da yəqin yazar üçün bir təsəllidir. Bəlkə bu təsəlli də biganəliklərdən narahat olan ürəyinə bir məlhəmdir. Zənnimcə, söz xiridarlarının birbirinin sənətinə hörmətsizliyi bütövlükdə ulu SÖZƏ edilən biganəlikdən irəli gəlir. Bu biganəlik ədəbi aləmdə mükafat yarışmalarından tutmuş, yazarın yaradıcılığına yaraşıb-yaraşmadı, ağızdolusu təriflərə qədər gedib çıxır. Bu təriflər, təltiflər, mükafatlar, nəinki ədəbi aləmin iştirakçısı və təşkilatçısı olan adamı, hətta sözün özünü də yıxır. Ədəbiyyatımız, mədəniyyətimiz, mənəviyyatımız isə sözün özündən keçir. O təriflər də öz sahibinə yaraşmayanda fəryad qoparır, bu fəryadın əks-sədası sonradan öz fəsadlarıyla mənəviyyatımızda tüğyan edir.

Əziz oxucular, işğal altında olan torpaqlarımızın ağrısından dərd içinə təkcə özümüz düşdük, amma başıbəlalı sözümüz isə ona etdiyimiz haqsızlıqlardan dərdə düşüb. Görürsünüz ki, sözün nə boyda dərdi var? Bu dərd ən əvvəl bizim dilimizdən, dil vasitəsilə ədəbiyyatımızdan, mədəniyyətimizdən və mənəviyyatımızdan keçib düz ürəyimizə zərbə vurur. Bu zərbənin ağrısını ürək hələm-hələm çəkə bilmir. Bu ağrıya tuş olanların çoxusu bir oxucu kimi, ən azından mənim sadaladıqlarımı qəribliyə salmazlar. Əslində vicdanım ağrıdığı üçün mən bunları qələmə aldım. Bir para əhvali-vaqiyyələrimizdən bəhs etdim, bəlkə də çox uzağa getdim. Təkcə özümüzü yox, həm də sözümüzü dərddən xilas etmək lazımdır, çün-

ki bizim canımızda, qanımızda ata-babalardan keçmə bir ətalət var. Bu, bugünkü işi sabaha qoymaq ətalətidir. Allah bu ətalətdən xilas etsin bizi! Əgər bu ətalətdən xilas yolunu taparıqsa, onda nə özümüz, nə də sözümüz dərd içində olar. Sözün dərdi – keçər səddi, əyər qəddi. Bunu duyanlar mərddi, duymayanlar özləri bu dünyaya dərddi! Allah heç kəsin nə özünü, nə də sözünü dərdə salmasın. Amin!

21.04.2009

ƏNVƏR NƏZƏRLİ VƏ ONUN "BU DÜNYANI BELƏ GÖRDÜM" KİTABI HAQQINDA DÜŞÜNCƏLƏRİM

Dünyanın ağrı-acılarından, keçmiş ömrünün həyat sınaqlarından əzmlə, dəyanətlə çıxmış Ənvər Nəzərlini mən ustad şair, həqiqi ziyası ilə onu tanıyanları riqqətə gətirən nurlu bir insan kimi tanıdım. Özü də bu tanışlıqdan ürəkdolusu məmnun qaldım.

Onun biliyi, kamalı, məntiqi qarşısında qürur hissi keçirməyə bilmirsən. Yaşının ahıl vaxtında həyatın keşməkeşlərindən yorulmuş ağlını süstləşməyə qoymadı. İllərlə ürəyində yığılıb qalmış ilham tərənələrini şerimizin ən ağır forması olan əruzla vərəqlər üstünə səpələdi. Könlündə tələtümlər yaratmış ruhun ehtiyacını əruzun dili ilə beyt-beyt oxucusuna ərməğan etdi. Divanlarını araya-ərsəyə gətirdi. Əfzələddin Xaqani, İmaməddin Nəsimi, Seyid Əzim Şirvani, Mirzə Ələkbər Sabir kimi nəhəng şairlər yetirmiş Şirvan torpağının bağrından qopub Ənvər Nəzərli. Bu gün özünə şair deyib, əruzun kölgəsindən qorxanlar, Ənvər Nəzərli məktəbindən azacıq da olsa dərs alsaydılar, güman edirəm ki, uduzmazdılar. Onun simasında həqiqi mənada bir ziyalılıq, ədəbiyyatımızın bugünkü halivəziyyətinə ürək yanğısı, cəfakeşlik gördüm. O, yaşının ötən çağlarında keçmiş sovet cəmiyyətində müxtəlif vəzifələrdə çalışmış, həyatın ağrı-acısını kifayət qədər görmüş və bu ağrı-acını yaşamış kəslərdəndir, çünki sovet zamanlarında vəzifə kürsüsünün arxasına keçmək o qədər də asan iş deyildi. Kifayət qədər savadı olmayan bu işin öhdəsindən gələ bilməzdi. O sistemin özünə məxsus qayda-qanunları hər ali təhsillinin ağıl ölçüsüylə bir araya sığmırdı. Sovet sisteminin qadağaları içində millətini, doğulduğun məmləkətini, sevdiyin vətəni təmsil etmək, onun varlığını azacıq da olsa pak duyğularla yaşatmaq, öz saf əməllərinlə irəliyə aparmaq barmaqla

sayılası ziyalıların işi idi. Belə ziyalılardan biri də fars dili üzrə şərqşünas-mütəxəssis Ənvər müəllim oldu. İndiki zəmanədə müəllimlik adı o qədər ucuzlaşıb ki, bu yaxınlarda bir millət vəkilinin "adi müəllim" kəlməsini eşidəndə, dəhşətə gəldim. Ona görə dəhşətə gəldim ki, müəllim adi deyil, bu adı adiləşdirib, onun böyüklüyünü azaldanlar papaqlarını qabaqlarına qoyub bu barədə dərin-dərin fikir dəryasına qərq olmalıdırlar, çünki milliyyətindən asılı olmayaraq bu addan başlayır insanın sabaha gedən yolu! Bu yolun uğuru müəllim adıyla birbaşa bağlıdır. Ənvər Nəzərli də bu ada layiq ziyalılardan biridir və bu adı daima uca tutub, çünki ağıllı gözlərlə insanın simasına baxanda onun kimliyi o saat bəlli olur. Ənvər müəllimin üzündən onun ziyalılığı, mirzəliyi oxunur. Əsli-nəcabətli nəslin övladı olduğu hiss olunur. Bilirsiz, yüksək vəzifələr daşımaq, çoxlu pullar qazanmaq, dəbdəbəli imarətlər yapmaq olar, ancaq bir kəlmə danışıqla adamın kimliyi bariz şəkildə özünü nümayiş etdirir. Atalar demişkən, geyimlə qarşılayıb, ağılla yola salarlar. Əsli-kökün yoxluğu və varlığı insanın hərəkət və davranışlarından, danışığının çəkisindən bilinir. Ustadım Ənvər müəllimin danışığında da, davranışında da bu keyfiyyətlər kifayət qədər hiss olunur.

1937-ci ilin repressiya qurbanlarından biri olan, Azərbaycan Yazıçılar Birliyi Təşkilat Komitəsinin sədri Hacıbaba Nəzərlinin qardaşı oğlu Ənvər Nəzərli keçdiyi həyat yolunun cəfalarını ürəyində yaşatmış ziyalılarımızdan biridir. O, məktəbdə müəllimlikdən tutmuş, sonrakı dövrlərdə daşıdığı bir sıra vəzifələrdə nəslinin cəfakeşi oldu. Onu donduran haqsız tənə buzlarını isti ürəyilə, ağlı, zəkasıyla əritdi. Daşıdığı vəzifələrin öhdəsindən şərəflə gəldi. Yaşının bu çağında Nəzərli soy adının şərəfini qorudu, bağladığı divanları ədəbiyyatımıza ərməğan etdi. Çoxları bu yaşında başqalarından qulluq və diqqət tələb etdiyi halda, Ənvər müəllim ağlının kamilliyini ixtiyar yaşına qurban vermədi, tutumlu divanlarıyla bahəm, bu yaxınlarda çapdan çıxmış "Bu dünyanı belə gördüm" 367 səhifəlik kitabında "Yaddaşın izi qalır…" sənədli-povesti də yer aldı. Bu povest "Kredo" qəzetində çap olunmuş "Eşitdiklərim, bildiklərim" sənədli həyat epizodlarıdır. Bir müddət qabaq "Kredo" qəzeti vasitəsilə Ənvər müəllimə ünvanladığım məktubda qeyd etdiyim kimi bu sənədli povest təkcə bir nəslin həyat həqiqətlərini, çəkdiyi müsibətləri üzə çıxarmır, həm də millətimizin sovet dövründə və ondan öncə keçdiyi həyat yolunun önəmli tarixçəsidir. Elə tarix də zaman keçdikcə belə önəmli, sənədli həyat həqiqətlərindən yaranır. Gələcək nəsillər bu həyat həqiqətlərindən bariz şəkildə faydalanır. Ənvər müəllimi

haqq dünyasına qovuşmuş qəzəl ustadı, rəhmətlik Hacı Mailin 1994-cü ildə yaratdığı "Füzuli şeir məclisi"ndən əyani şəkildə tanıdım. Sonralar onun bu məclisdə müsbət mənada oynadığı rolun canlı şahidlərindən biri oldum. Bu məclisə müxtəlif cür ağıl tutumlu insanlar gəlirdi, çoxlarının da üzündən-gözündən razılıq töküldüyü halda, Ənvər Nəzərli heç vaxt öz təmkinini pozmazdı, başa düşmək istəməyəni də yumşaq bir tərzdə başa salmağa cəhd edərdi.

Dəyərli ziyalımız, şair-publisist Əli Rza Xələflinin baş redaktor olduğu "Kredo" qəzetində 2008-ci ilin may ayından Ənvər müəllimin "Eşitdiklərimdən, bildiklərimdən" sənədli həyat hekayəti ardıcıl surətdə çap olunarkən mən bu yazını heyranlıqla oxuyurdum, çünki həyatı dərk edən gündən dədə-babalarımızın keçdiyi ağrılı həyat yolu, kölәlik buxovlarıyla bəndlənmiş başıbəlalı vətənimizin müsibətləri məni həmişə düşündürürdü. Düşünürdüm ki, nədən dədə-babalarımız birləşib vahid bir dövlət yarada bilməyib və yaratmaq istəyəndə də cəhdləri boşa çıxıb?! Tayfa hegemonluğundanmı, ya hamının xan olmaq istəyindənmi və yaxud qonşuluqda olan amansız imperiyaların azğınlığındanmı ölkəmiz uzun illər zəlalət girdabında çapaladı?! Hissə-hissə, parça-parça doğma yurdlar əldən çıxdı, ellər, elatlar köç etdi. Qəbirlərimiz tapdalandı, namusumuz xırdalandı, düşünən beyinlərə süngü yeridildi, say-seçmə igidlərimizin, vətən eşqli ziyalılarımızın ürəyinə dağlar-düyünlər çəkildi. Xan-bəy-tacir əsilli insanlarımızın nəinki özləri, balaları, qohum-əqrəbaları bu müsibətin acısını öz sümüklərində hiss etdilər, üstəlik, mənlikləri tapdalandı, soy adları gizlədildi, özləri və yaxınları təkcə Sibirə yox, Orta Asiya səhralarına, hətta okean adalarına qədər sürgün edildilər. Əyilib diz çökməyənlərin izləri-tozları yox edildi, bu azğınlıqların xofu millətimizin ürəyinə ox edildi. Vaxt olub ki, yazını oxuyarkən Ənvər müəllimə demişdim: "Allahdan arzu edirəm, ömür sizə vəfa qılsın bu yazını kitab şəkilində buraxa biləsiz". Şükür ki, bu günü Tanrı həm müəllifin özünə, həm də bu sənədli-povestin müştağında olan oxucularına, o cümlədən mənə, qismət etdi.

Ustadım Ənvər Nəzərlinin "Bu dünyanı belə gördüm" kitabında yer alan "Yaddaşın izi qalır…" sənədli povesti obrazlar bolluğu ilə zəngindir, məhz povestin özəlliyi və gözəlliyi ondadır ki, bu obrazlar real həyatın ağrı-acıları ilə yaşamış vətən övladlarıdır. Əsərin əvvəlində cərəyan edən hadisələr çar Rusiyasının son illərinə təsadüf edir. İnqilabi özbaşınalıqların və imperiyaların toqquşduğu zamanlar milliyyətindən asılı olmayaraq in-

sanlar böyük müsibətlərə düçar olur. Onda da ola ki, dini, dili, mədəniyyəti tamamilə sənə yad olan hegemon bir dövlətin köləsi olasan. Həmin köləlik ağrılarından keçdi binəva vətənimiz. Bu gün də o ağrının yaraları bitişmir! Həm canımızda, həm qanımızda, həm də paramparça olmuş yurdlarımızın odu sönmüş ocaqlarında! Bu ocaqların tüstüsü burula-burula göyün yeddi qatında haray dolu şırımlar açıb.

Demokratiyanın beşiyi adlandırdığımız Avropada, hətta azsaylı millətlərin belə müstəqil dövlətləri olduğu halda, bu boyda məmləkətimizin müstəqillik arzuları dönə-dönə ölüm, qırğın, qanla müşayiət olundu. İnsanımızı manqurtlaşdırmaq üçün şimalda rus imperiyası, cənubda fars imperiyası ilan kimi min bir dəfə dəridən-qabıqdan çıxdı. Bu gün müstəqillik arzusuna yetişsək belə, yenə də imperiyalar fürsət düşən kimi pıçhapıçdadırlar, arzularımızı gözümüzdə qoymaq üçün, fəqət, bütöv bir dünyaya səpələnmiş 50 milyonluq Azərbaycan türkünün ümid yeridir müstəqil Vətənimiz! Elə müəllif də sənədli povestində vətən övladlarının ötən əsrin əvvəllərindən üzü bəri başlarına gəlmiş müsibətləri yanıqlı bir dillə oxucusuna nəql edir. Əsərdə Abbasqulu ağa Bakıxanovla bağlı maraqlı bir məqam diqqətimi cəlb etdi. 1847-ci ildə Şamaxıdan və Qubadan Həcc ziyarətinə gedən zəvvarların arasında Abbasqulu ağa da olubmuş. Əsərdə ağanın yolboyu sadə insanlarla mehriban rəftarından, insan nəvazişkarlığından söhbət açılır. Məşhur alim, şair və dövlət xadiminin humanistliyi onunla yol yoldaşı olan zəvvarlarda həm heyranlıq, həm də iftixar hissi doğurmuşdu. Abbasqulu ağanın o müqəddəs yerdə vəfatı oxucular üçün maraqlı və tarixi bir faktdır. Müəllifin əmisi nakam Həbibullahın başına gələn fəlakət həm oxucunu mütəəssir edir, həm də millətin sayseçmə oğullarına qarşı törədilmiş cinayətlərin təşkilatçılarına qarşı insanda sonsuz nifrət hissi yaradır. Əslində ölkəmizdə erməni azğınlıqları rusların birbaşa dəstəyi və əliylə törədilirdi və bu gün də o davam edir. Öz idbar siyasətlərini həyata keçirmək üçün əslində imperiyalar azsaylı xalqlardan, dinlərdən və bu dinləri min bir yerə parçalayan məzhəblərdən istifadə etmişdilər. Ermənilər də bu qanlı oyunun təşkilatçılarının əlində iki əsrdir ki, oyuncaqdırlar. Qan tökə-tökə bu idbar oyunun gələcəyinə inanmışdılar. Ermənilər özlüklərində, yəqin başa düşməmiş deyillər ki, Azərbaycan adlı məmləkətin ərazisində nə keçmişdə, nə eradan əvvəl dövlətləri olmayıb. Özləri də ta qədimdən gəzinti bir qövm olduğu üçün müxtəlif yerlərə köçlər ediblər. Bu gün gəlmə haylar bir ovuc alban əsilli nankor xristian

azərbaycanlıların kirli və məkrli kürkünə bürünüb nəinki torpaqlarımızı, mədəniyyətimizin müxtəlif sahələrini zəbt etməklə məşğuldurlar. Əslində ermənilər (haylar) rus siyasətinin əlində oyuncaq olduğu kimi, alban əsillilər də hayların əlində oyuncaqdır! Bilən bilir ki, nə dünən, nə sabah, nə də min il sonra haylar onları öz qanından hesab etməyib və etməyəcəklər. Ümumiyyətlə, ermənilərdə dədə-babadan belə bir adət var ki, hara qondular oranı özlərinə vətən sayır və özününküləşdirməyə başlayırlar. Bu özününküləşdirmə isə sonralar qanla, qırğınla, xəyanətlə boy göstərir. Elə keçən əsrin əvvəllərində də həm qardaş Türkiyə ərazisində, həm də bizim ərazidə bu xəyanətlər və qırğınlar kənd-kənd, şəhər-şəhər tüğyan etdi. Dünyanın başbilənləri "yazıq erməni" simasına çoxdan bələddir, sadəcə olaraq, xristian Avropaya müsəlman Azərbaycanın inkişafı sərf eləmir. Ona görə həm dünən, həm bu gün erməni xainliyi və iyrəncliyilə üzbəüz qalmışıq. Bizə isə bu xainlikdən xilas olmaq üçün iqtidarlı-müxalifətli bir olmaq lazımdır, çünki bizim bir düşmənimiz var, o da erməni toplumudur. O topluma qarşı bu gün də, sabah da, gələcəkdə də ayıq-sayıqlığımızı itirməməliyik. Bəli, onlar qoltuq altında yaşamağı xoşlayandır. Hansı millətin qoltuğunun altında daldalanırlarsa, o millətin də oyuncağına çevrilirlər. Necə ki, bu gün rusların oyuncağına çevriliblər, farsların ətəyini öpürlər. Elə əsərdə müəllif də ermənilərin fitvasıyla əzizlərinin başına gələn müsibətləri nəql edir. 1900-cü illərdə barmaqla sayılası ziyalılarımız var idi, vətənimiz belə insanlara sonsuz ehtiyac duyurdu. Ali təhsilli Həbibullahın vətənə dönməsi erməni əsilli xəyanətkarları açmırdı. Ona görə onun qətlinə fərman verdilər və cavan həyatı nakam sonluqla bitdi. Əslində mənə elə gəlir ki, torpaqlarımızın bir qismi əlimizdən müvəqqəti çıxsa da ermənilər bu dəfə oyunda uduzublar, çünki vaxtilə Azərbaycanın mərkəzi olan Bakıda ən yaxşı yerləri və vəzifələri onlar zəbt etmişdilər. Ölkənin şah damarı isə onun paytaxtıdır. Bu şah damarın əsas lingləri onların əlində idi. Bu gün müvəqqəti yardımlarla yaşayan, torpaqlarımızın bir parçası olan, indiki Ermənistan, yəqin ki, belə getsə bir müddətdən sonra süquta uğrayacaq, çünki bütünlüklə yal yeyən bir dövlət nə Avropanın, nə də onun havadarlarının ömürlük pul kisəsindən asılı qala bilməz. Avropalılar heç öz övladlarının nazı ilə oynamağı sevmirlər, o ki olsun ermənilərin. Ermənistanda yaşayan ermənilər isə belə getsə yenə də qazanc və güzəran eşqilə dilənçi dövləti tərk etməli olacaqlar. Beləliklə, Ermənistan dediyimiz qurama dövlət öz ömrünü başa vuracaq, çünki xaini nə Allah sevər, nə

də onun Allah eşqli bəndələri! Rusiyaya isə mənim yazığım gəlir, ona görə yazığım gəlir ki, o boyda dövlətin başbilənləri Yekaterina dövrünün fikir və düşüncələrilə yaşayırlar. Düşünmürlər ki, hələ daxillərində nə qədər muxtar vilayət və mərkəzlər var ki, azadlıq eşqilə çalxalanırlar. Bir gün bu çalxalanma başqasına quyu qazıyan imperiyanın özünü tar-mar edər! Axı dünya dünənki dünya deyil, indiki zəmanədə heç ailədə övlad öz valideyninin sözünə qulaq asmır…

"Yaddaşın izi qalır…" sənədli povestində törədilmiş qırğınların gətirdiyi fəlakətlər maraqlı bir dillə əsər boyu işıqlandırılır. Bu fəlakətlərin davamı isə sovet dövründə qanlı repressiyalarla özünü büruzə verir. Müəllifin əmisi 1937-ci il ziyalı qırğınının ilk qurbanlarından biri olur. Nəzərlilər ailəsi də, başqa əsilli ailələr kimi haqsızlıqlara və fəlakətlərə düçar olurlar. Nə idi bu insanların günahı? Vaxtilə öz bacarıq və istedadları hesabına layiq olduqları halal titul və varidata görə niyə ölümə, təhdidə, sonu görünməyən haqsızlıqlara düçar oldular? Rus imperiyası qırmızı bolşevik adıyla hələ 70 il sonra da millətlərin başına fəlakətlər açdı. İnsanları öz əqidəsindən, dinindən, dilindən uzaq saldı. Ruslaşma siyasəti soy adın sonuna əlavə edilən "ov, yev, ova, yeva" şəkilçilərindən tutmuş canımızda, qanımızda, mənəviyyatımızda cövlan etdi. İndi də hələ bu ağrıların məngənəsindən tam xilas ola bilmirik. Necə deyərlər, jorjiklər mənəviyyatımızda elə dərin kök atıblar ki, onlardan qopmaq üçün hələ bizə neçə-neçə illər lazım gələcək. Müstəqilliyimizin başı sağ olsun, bu yaralar da zaman gələr, sağalar. Atalar demişkən, təkcə ölümə çarə yoxdur.

Ustadım Ənvər Nəzərliyə heyranlığım ədəbi dilimizin təmizliyini qoruyub saxlamasıyla da bağlıdır. Bu onun həm nəzm dilində, həm nəsr dilində, həm də şifahi danışığında adamı valeh edir. Baxmayaraq ki, uzun müddət sovet dönəmində məsul vəzifələrdə çalışmış, ancaq ana dilimizə sadiq qalmış, onun keşiyində daim bir əsgər kimi durmuşdur. Məsul vəzifələrdə işləyənlərin çoxu vaxtilə ana dilimizdə danışmağı özünə ar bilərdi, nəinki özlərini, həm də uşaqlarını bu dildən uzaq salardılar. Ənvər müəllim əsərin bir yerində hələ bələkdə ikən anasının onun bələyində yaddan çıxardıb qoyduğu təsbehi sonralar rəhmətlik anasına xatırladır. Anası bu kiçik epizodu xatırlayanda təəccüb qalır. Oğlunun bu qeyri-adi yaddaşı qarşısında heyrətlənir, uca Tanrının şərəfinə namaz vaxtı olmamasına baxmayaraq üç rükət namaz qılır. Mən də Ənvər Nəzərlinin yazdığı "Yaddaşın izi qalır…" sənədli-povestini oxuyarkən hədsiz qibtə hissi keçirtdim. Yaşı

80-ni keçmiş bu ixtiyar kişinin hafizəsi önündə heyrət hissimi gizlətmirəm. Artıq çoxdan tarixə dönmüş hadisələri yenidən gündəmə gətirib bu yaşında kitab səhifələrinə düzmək böyük cəfa, zəhmət və məhəbbət tələb edir. Müəllif bu alimanə işilə həm biz oxucularını, həm də dünyasını dəyişmiş nakam insanların ruhunu şad edib. Əslində vəzifədə işləmək insandan hədsiz bacarıq və dözüm tələb edir. Ənvər müəllim bu bacarıq və dözümü yəqin gənc yaşlarından özündə əxz edib. İndi də o dözümün vərdişini dadmaq şərəfinə nail olub. Əsər boyu müasir dövrümüzün ziyalıları olan elm adamları, mədəniyyət işçiləri, yüksək çinli insanları barədə söhbətlər açılır. Yeri düşdükcə adları sadalanır. Rusiya, Türkiyə, İraq, İran və sair ölkələrə səfərlərindən bu səfərlər zamanı baş verən maraqlı hadisələrdən bəhs edilir. Şər və xeyir arasında çapalayan dünyamızda cövlan edən bir sıra halihekayətlər nəsr boyu şirin nağıl dili ilə nəql olunur. Biz bu sənədli-povestdə insan həyatının uğurlu və uğursuz anlarıyla üzbəüz qalırıq, bu anlar qabarıq şəkildə vərəqlər üstündən boy göstərir, üzümüzə gülümsəyir, bəzən də sonu görünməyən hıçqırtılarla hönkür-hönkür ağlayır. Ümumiyyətlə, insan həyatı məzmunlu və maraqlı olanda ağrı-acılar da onu cilalayır. Taleyim qara gətirdi deyib, onun qarşısında diz çökməyənlər həyatda uğurlar qazana bilirlər. Bu uğurlar baş işlədəndə daha mükəmməl, daha inamlı olur, məhz sənədli povest də bu məqsədə çıraq tutur.

Hörmətli ustadım Ənvər Nəzərlinin "Bu dünyanı belə gördüm" kitabında "Eşitdiklərim, bildiklərim" hekayəsi əsasında araya-ərsəyə gələn "Yaddaşın izi qalır…" sənədli-povestlə bahəm, şeirləri, publisistik qeydləri, bir də müəllif haqqında yazılmış məktub və məqalələr yer alır. Müəllifin şeirlər bölməsində qəzəllərlə yanaşı, elegiya (məsnəvi), mürəbbe, heca vəznində şeirlər sıralanır. Xüsusən Ənvər müəllimin istiqlal şairimiz Əhməd Cavada həsr etdiyi əruzun məsnəvi formasında yazdığı mərsiyəsini yaratdığı titrəyiş ürəyi ehtizaza gətirir. Şeirdən ilk parçaları əziz oxucuların diqqətinə yetirməyi özümə borc bildim:

Ey Vətən oğlu, əziz şairimiz,
Qəlbi pak, eşqi təmiz şairimiz.

Ey sevən candan əziz millətini,
Ey çəkən millətinin qeyrətini!

Gəlmişik biz səni yad etmək üçün,
Müztərib ruhunu şad etmək üçün.

Müəllifin bu misralarını həyəcansız, bəzən də göz yaşı tökmədən oxumaq mümkün deyil. 32 beytlik bu məsnəvi əruzun su kimi axan bəhriylə ürəyimizi riqqətə gətirir. Hesab edirəm ki, bu şeir parçası bəxti qara, şəhid şairimiz Əhməd Cavadın timsalında istiqlal aşiqlərimizə söz ilə yazılmış bir simfoniyadır, çünki bu beytlərin içində zəngin bir musiqi var, bu musiqi insanı ruh və paklıq dünyasına çəkib aparır. Ənvər Nəzərlinin bu paklıq dünyasından boylanan mehriban baxışları beytlər içində sıralanan misralardan od götürür, neçə-neçə sabahlara öz şöləsini salmaq üçün… Ədəbiyyatımızın sayılıb-seçilən mütəfəkkir fikirli adamlarıyla bir arada qalmaq üçün…

Hörmətli ustadım, mən Sizin bu kitabı oxudum ki, dərin-dərin mətləblərdən hali olum, ağrılı keçmişinizin acı dastanı mənim də nəslimin, soy-kökümün oxşar fəlakətidir. Deməli, bu təkcə sizin nəslin yox, bütöv Azərbaycanın taleyinin sənədli-povestidir. Bu kitabınızı oxuya-oxuya, qeyzləndim də, həyəcanlandım da, sevindim də! Qeyzim, həyəcanım sizə bəllidir, sevincimi isə mən özüm sizə söyləyəcəm. Sevindim ki, şükür Allaha, elmimiz var, savadımız var və sizin kimi gözəl yaddaşı, dərin biliyi olan şairimiz, yazıçımız, ziyalımız var. Yoxsa bu dəyərli kitablar necə yazıla bilərdi? Bəs qədirbilən oxucular bu mətləblərdən necə xəbər tutub feyzyab olardı? Türk qardaşlarımız demişkən əlinizə sağlıq! Sizi "Bu dünyanı belə gördüm" kitabınız münasibətilə can-dildən təbrik edirəm. Allah Vətən eşqli-işıqlı insanlarımızı qorusun! Vətənsiz millətin gələcəyi yoxdur, əks halda qeyri-millətlərin içində əriyib-itməyə məhkum olarıq. Allah Vətənimizi, İstiqlalımızı və onu göz-bəbəyi kimi bəsləyib sevənləri hifz etsin! Amin!..

29.04.2009

ŞERİMİZ – SEYRİMİZ

Haqqın dərgahına üz tutan bir yol var… Bu, Böyük Yaradanın öz bəndələrindən gizli saxladığı ruh dediyimiz gözəgörünməz məfhumun Ulu Tanrıya uzanan yoludur. Bu yol insanın müvəqqəti yaşam haqqından başlayır. Yaşam haqqının müddəti cismimizdə özünə məkan tapan can dediyimiz varlığın vasitəsilə olur. Sağlığımızda tənimizdə can şəkilində

bizi müşayiət edən bu varlıq, Allahın bizə verdiyi müddət bitdikdən sonra, öz donunu, yəni bədəni yerdə qoyub dərgaha doğru ruh timsalında uzun bir yolun yolçusuna dönəcək. Böyük Yaradanın bir "Ol" işarəsindən yaranmış bizlərin bir qismi sağlığımızda bu dünyanın bütün naz-nemətlərini acgözlüklə zəbt və qəsb etməklə məşğul oluruq. Bir qismimiz isə aclıq, yoxsulluq, zəlalət içində ömrümüzü başa vururuq. Az bir qisim doğulub öz varlığını dərk edən gündən milliyyətindən asılı olmayaraq mənəvi dünyanın dərvişinə çevrilir. Elə dini kitablarda da elmlə, mənəviyyatla bağlı kəslər Allaha yaxın hesab edilir. Əgər bu pakanə xidmətdirsə… Mənəviyyatın bir qolunu təşkil edən ilhamlı, həqiqi bədii yaradıcılıq insanın ruh dünyasıyla birbaşa bağlı məsələdir. Adamın beynini, qəlbini silkələyən hansı hissdir ki, o əlinə qələm götürüb bu ehtiyacın ağrı-acılarını, istək və düşüncələrini, qənirsiz eşqindən doğan çalxantıları vərəqlərin üstünə səpələməyə başlayır. Bu səpələnmələrdən bədii ədəbiyyat bərqərar olur. Özü də hər xalqın özünəməxsusluğu, çalarları, bənzətmələri, oxşamalarıyla… Bədii ədəbiyyatın bir qolu da nəzmdir, yaradıcı kəs öz fikir və düşüncələrini şerin müxtəlif formalarıyla oxucuya çatdırır. Mən də bu sahənin cızmaqaraçısı olduğum üçün əziz oxucularla və qədir bilən söz adamlarıyla öz fikirlərimi bölüşmək istəyirəm. Şeir nədir? Şeir bəlkə İlahinin ilham verdiyi kəslərə gizli pıçıltılarıdır ki, həmin kəs də bu pıçıltıları gözəgörünməz qüvvənin köməyilə ağ vərəqlər üstünə səpələyir. Ümumiyyətlə, qədim zamanlardan şeir yazan kəslərə heç də birmənalı baxmamışdılar. Onlar daşqalaq da olunmuş, "dəli" adıyla damğalanmış, min bir müsibətlərə düçar olmuş, təhdidlərə, təhqirlərə, hətta ölümlərə məruz qalmışlar. Öz təfəkkürləri öz başlarına bəla olan bu insanların ağrı-acıları özlərindən sonra bizlərə ərməğan olmuş yaradıcılıq çeşmələrindən də bəllidir. Biz bu yaradıcılıq çeşmələrindən qaynaqlandıqca fikir adamlarının yaratdıqlarında bütünlüklə dövrlərin əks-səsası duyulmaqdadır.

Elə bizim dövrümüzdə də şeir yazana heç də birmənalı baxılmır, hətta satış köşklərində də satıcılar şeir kitablarından qaçır və bu kitabların satılmamasından şikayət edir, çünki şeir ruhla bağlı məsələdir, nəzmi heç də hamı nəsr kimi qəbul etmir. Oxucular çox vaxt şerin dilini, onu başa düşməməyi və yaxud heç şeri xoşlamamasını etiraf edir. Bəlli həqiqətdir ki, həqiqi şerin dili rəvan olduğu kimi də çətindir, düşündürəndir. Onu hər adam qavraya və dərk edə bilmir.

Sonuncu peyğəmbər Məhəmməd əleyhissəlamın vasitəsilə bizlərə çatdırılan müqəddəs Kitabımız Quranda şairlər haqqında ayə var. Bu ayədə deyilir ki, Mən peyğəmbərlərə vəhy verdim, şairlərə isə ilham. Ancaq şairlərə ilham təkcə, Allah-taala tərəfdən yox, şeytan tərəfdən də verilə bilər. Yəni ilham adama şeytanın vəsvəsəsindən də gələ bilər. Ayədə qələmini düzlüyə çalmayan kəslər cəhənnəmin yeddinci qatında cəhənnəm əzabıyla hədələnir. Bir milyarddan yuxarı insan qüvvəsinin tapındığı müqəddəs Kitabımızda deyilən bu fikirlər söz adamını məsuliyyətli olmağa, sözlə bəşəri rəftara dəvət edir. Elə müqəddəs Quranımızı da Haqq-taala bizlərə peyğəmbər əleyhissəlamın vasitəsilə qafiyəli nəsrlə çatdırıb. Ona görə islama dönüşün ilk əvvəllərində bütpərəst ərəblər müqəddəs Quranımızı şeir, peyğəmbərimizi isə şair adlandırırdılar. Sonradan Allahın sevgili peyğəmbərimizə vəhylə bəxş etdiyi Quranımızın elmi-dini kitab olduğu dünyaya bəlli oldu. Daha axıcı, daha ürəyəyatımlı olması üçün, insanların ürəyinə yol tapması üçün Haqq-taala nəzmə bənzər qafiyəli nəsrlə Kitabımızı xəlq etdi. Sözün böyüklüyü, ucalığı da ondadır ki, o bizdən asılı olmayaraq haqq tərəfindən yaranıb və canla birgə bizim cismimizə daxil olub. Heç də beş-on şeir yazmaq, öz şəxsi hisslərinə qapılıb sözləri şerə bənzər şəkildə kağızlar üstünə səpələmək şairlik demək deyildir. Həqiqi şairlər sözü, qafiyəni, melodiyanı, hissi-həyəcanı axtarmaz. Bütün bunlar onu özləri gəlib tapar. Özü də Allahın verdiyi vaxtın hər məqamında ilham dediyimiz gözəgörünməz qüvvə könül qapısını salamsız-kəlamsız açа bilər. Təb adamıyla üz-üzə, göz-gözə qalar. Onu sonu görünməz sarsıntılara, çalxantılara, titrəyişlərə məruz qoyar. Şeir adamının təfəkkürü daim bulaq kimi qaynayıb daşmaqda olur. Onun üçün misradan, beytdən məhrəmanə, sevgili, istəkli heç nə yoxdur. Yazan kəs özünü bütün bu istəklərlə bir zaman çərçivəsində hiss edirsə, yazmasa dözə bilmirsə, sözlər misralara, misralar beytlərə çevrilib onun ciyərini göyüm-göyüm yandırırsa, qəlbinin içində qəm mələyi oturub hər şeydə bir məna, məzmun axtarırsa, demək ona ya Haqq-taala, ya da şeytan tərəfindən ilham peyda olub. Allah ruhunda ehtiyac duyub yazmaq istəyənləri şeytani-ilhamdan hifz etsin!

Müasir ədəbiyyatımız sovet dövründə quruluşun diktəsi ilə barmaqla sayılası yazıçı və şairlərlə müşayiət olunurdusa, müstəqilliyimizi qazandıqdan sonra yazar insanlarımızın sayı qədərindən də artıqdır. Ədəbiyyatda olan insanlarımızın çoxu, hətta bu artımdan həddindən artıq narahatdırlar. Amma fikrimizcə, narahat olmağa dəyməz, çünki sovet dövründən baş-

qa hər dövr bu mürəkkəbliklərlə qarşı-qarşıya olub, ancaq sonradan məlum olub ki, narahatçılığa əsas yoxdur. Bu qüvvənin içindən beş-on adam ədəbiyyat səhnəsində qala bilib. Bəli, ən böyük nəzarətçi əlahəzrət zamandır. Onun əlində böyük xəlbir var. Bu xəlbirdən keçənlər böyük sözün adamı sayılıb. Böyük sözün adamı zaman-zaman dövrünün istək, arzu-diləklərini ağıl süzgəcindən keçirib, ürəyinin tələtümlərinə büküb ağappaq vərəqlərin üstünə səpələyib. Dəryanın qəvvası içində sədəflərdə gizlənən ağ mirvarilər kimi... Bu mirvarilərin xırdası da olub, böyüyü də, zərifi də olub, kobudu da. Məhrəmanə istəklərin ilıq şəfəqinə büküblər bu inciləri, oxucu hisslərini silkələmək üçün, sevgili ürəkləri tələtümə gətirmək üçün. Mənsub olduğu dinin, dilin, vətənin, millətin ab-havasını oturdub ədəbi düşüncələrə həqiqi yazar dediyimiz kəslər. Ayrı-ayrı zamanlarda isə insanlar nağıllarda, dastanlarda, laylalarda, bayatılarda və bir çox ədəbi incilərdə öz keçmişini, kimliyini axtarıb. Bu axtarışlar isə çox vaxt müsbət mənada öz bəhrəsini verib, çünki hər bir xalqın, millətin kimliyi onun keçmişini əks etdirən ədəbi, bədii dəyərlərlə ölçülüb və ölçülür.

Deməli, bütünlükdə yaradıcılıq Allahdan gələn bir nemətdir. Böyük yazar, şair Allah vergisilə, istedadıyla bağlıdır. Sovet vaxtında ədəbi-bədii yaradıcılığa böyük əhəmiyyət verərdilər. Ona görə ki, yaradıcı adamlar həqiqəti, haqq yolunu yox, sovet ideologiyasını millətlərin beyninə yeritməli idilər. Milli üslubda yazanlara millətçi damğası vururdular və təqib edirdilər. Milli mənliyi olmayanlar tarı skripka ilə əvəz etməyi çağıranda şəhid şairimiz Müşfiq "Oxu tar" şerini yazdı. Bu cür amallara tabe olmayanlar 1937-ci illərdə qılıncdan keçirildilər, gülləbaran edildilər, mənlikləri tapdalandı, ailələri darmadağın olundu, yazdıqları məhv edildi, amma millətin ürəyində və beynində özləri də, özlərindən sonra bizlərə ərməğan olmuş yaradıcılıqları da dastan oldu, özü də böyük mehri-məhəbbətlə sevildilər. Bu gün də onların işıqlı simaları bizlər üçün fəxr, qürur timsalıdır. Düşünürük nə yaxşı ki, Hüseyn Cavidlər, Əhməd Cavadlar, Mikayıl Müşfiqlər, Hacıbaba Nəzərlilər, Seyid Hüseynlər, Salman Mümtazlar olub, yoxsa ədəbiyyatımız necə yetim və kasıb görünərdi. Allah neməti olan yaradıcılığı sovet ideologiyası peşəyə çevirdi. Bolşevik beşiyi olan Moskvada M.Qorki adına Ədəbiyyat institutu açdılar. Bu institutun əsas qayəsi ondan ibarət idi ki, millətlərin milli ruhunu öldürmək, yaradıcı kəsləri bu ruhun ab-havasıyla tərbiyələndirmək. Beynəlmiləl adıyla imperiyanın sovet bayrağı altında yaşayan insanları

nəinki öz dinindən, hətta soy-kökündən də uzaq salmaq, dili, dini, milliyyəti bilinməyən sovet insanını yetişdirmək idi məqsədi... Sovet insanı isə rus dilinə və rus mənəviyyatına tabe olmalı idi. Bu institutu qurtarmayanları heç yaradıcı kəs kimi saymırdılar. Bu institut bizlərə şəkilçiylə qafiyə yaratmağı öyrətdi… Elə o vaxtdan da peşəkar şairlər, yazıçılar əmələ gəlməyə başladı. Şərq şairləri dünyada ən qədim və nüfuzlu idi. Şərqdə şerin hər növü və bu şeir növlərinin də öz adları var idi. İslami dəyərlərimizlə əlaqədar əruz şeir forması ərəb ədəbiyyatından nəzmimizə daxil olubsa, heca halal türk şeir üslubumuzdur və bu şeir üslubunda laylalarımızdan, bayatılarımızdan üzü bəri gəraylı, qoşma, dodaqdəyməz, beşlik və bir çox şeir növlərilə ünlü şairlərimiz öz qələmlərini sınayıb. Şerin əzəli beşiyi olan şərq qaldı bir kənarda, şərqdən şeir yazmağı öyrənən Avropa Rusiya da daxil olmaqla hegemonluğu öz əlinə keçirdi. Bədii yaradıcılıqla məşğul olmaq istəyənlərin bir çoxunun içində qərblilər kimi yazmaq və qərbsayağı ədəbiyyat yaratmaq eşqi oyandı. Milli ruhu öldürmək üçün, bizi milli mədəniyyətdən uzaqlaşdırmaq üçün yavaş-yavaş ədəbiyyatımızda şeir formalarının adı da dəyişdirilməyə başladı. Məsələn:

1. Elegiya – Mərsiyyə, Həzinnamə və yaxud həzin şeir.
2. Esse-Xülasə (Esse esensiya sözündəndir və mənası cövhər deməkdir)
3. Ballada – Ədəb, dastan, musiqi oxumaq və çalmaq üçün musiqi əsəri
4. Şeir məclisi – Parnas
5. İbrətli hekayə və yaxud hədis – Pritça
6. Qəhrəmannamə və yaxud qəhrəmanlıq dastanı – Epopeya
7. Dastan – Epos
8. Novella – Hekayə
9. Cızma – Oçerk və sair.

Avstraliyanın aborigenləri bu adları götürsəydilər biz bunu təbii sayardıq, çünki onların ədəbiyyatı yox idi. Bizim ədəbiyyata qərbdən və ruslardan gələn bu ifadələri salmaq, deməli, Azərbaycan ədəbiyyatına düzgün qiymət verməməkdir. Başqa ədəbiyyatlarla müqayisədə Azərbaycan ədəbiyyatını, Azərbaycan dilini, onun türkcəsini alçaltmaqdır.

Göründüyü kimi istənilən qədər ədəbiyyatımıza yatırılmış bu sözlər dilimizə yatmır və olduqca ögey səslənir və günbəgün bu ifadələrin sayı artır. Siz sual edib deyə bilərsiz ki, ərəb və fars dillərindən də dilimizdə sözlər qatar-qatardır. Unutmayaq ki, biz min ildən yuxarı islam dəyərləri ilə püxtələşmiş bir qövm, xalqıq. Şərq ənənələri, şərq dillərindən keçmə

sözlər bizə doğmadır. Qərb sözlərinin, xüsusən rus ifadələrinin ədəbiyyatımızda yerləşdirilməsi, həm şerimizi, həm nəsrimizi qara günə qoyur. Başqa dillərdən sözlər işlədəndə bizim öz doğma dilimizdə işlənən sözlər ölür və dil lüğətimiz zəifləyir. Bu ifadələri ədəbiyyatımıza gətirənlər bununla da özlərini rəhmətlik Üzeyir bəyin Məşədi İbadı demişkən "obrazovanski" sayırlar. Bu yaxınlarda mənə gənc bir xanım şeir kitabı təqdim etdi. Kitabın bədii dəyərini qoyaq bir kənara, çünki onsuz da əksər gənc yazarlarımızı nə qafiyə, nə vəzn, nə ölçü, nə məzmun maraqlandırır və bunu geridəqalmışlıq əlaməti sayırlar. Heç kəs kimi yazmamağı qarşılarına məqsəd qoyan bu kəslər, görəsən, ilhamın nə olduğu barədə təsəvvürləri varmı? Qafiyəsiz, vəznsiz, ölçüsüz, ahəngsiz söz yığınını şeir hesab edib şeir aləmində inqilab etmək istəyənlər qərbsayağı cəh-cəh vururlar. Bəlkə onlar heç ana laylasının nə olduğunu da bilmirlər, çünki çox güman ki, anaları onlara heç layla da çalmayıb, çalsaydı bilərdilər ki, milli ruhun çeşməsi bu laylalardan beynimizdə, qanımızda çalxantılar yaradıb. Həmən çalxantıların sıçrayışları şerimizdə boy göstərib. Odu, atəşi ürəkləri ehtizaza gətirib. Bu gənc xanımın kitabında pritçanı oxudum. Bu pritça sözü hansı azərbaycanlı oxucusuna doğmadır? Məgər bizim özümüzdə sözlər azdırmı ki, biz ədəbiyyatımızı bu qədər yad sözlərlə doldururuq? Cavan yazarların bir çoxu qafiyədən qaçır, sözləri qafiyəsiz bir-birinin ardınca düzməyi köhnəlikdən qaçmaq sayırlar. Şəkilçiylə avropalılar və ruslarsayağı şeir yazmaq istəyənlər bilməlidilər ki, onların yazdıqları nə qərbə, nə də mənsub olduğu millətə xoş gəlir. Nümunə üçün deyə bilərik ki, Mirzə Şəfi Vazehin şerində özünəməxsusluq olmasaydı, şərq şerinin axıcılığı, isti nəfəsi duyulmasaydı, almanlar onun yazdıqlarını asanlıqla özününküləşdirərdi, çünki hər kəs mənsub olduğu millətin ruhunda ilhamla cəh-cəh vursa, onu həm öz xalqı, həm də bütün dünya sevər. Bir qisim insanlarımız elə güman edir ki, bədii yaradıcılıqda nə qədər əcnəbi söz işlətsələr, o qədər onlar oxucuların gözündə qeyri-adi istedad sahibi olarlar. Mən başa düşə bilmirəm nəyə görə Azərbaycan oxucusu dilinə yatmayan pritça sözünə baxıb dərin-dərin fikir dəryalarına qərq olmalıdır? Ay həzərat, görəsən, bizim dilimizdə pritçanın, elegiyanın, essenin, balladanın, parnasın mənası nədir?! Bəlkə bunlar bununla dünyəvi şair olmaq fikrinə düşüblər? Dünyəvi şairlər ən əvvəl mənsub olduqları xalqın, elin, elatın istək və arzularını tərənnüm ediblər. Bu baxımdan da dünyanın yaddaşına həkk olunublar. Əruzda da, hecada da, sərbəstdə də, mənsur şeirdə də

qafiyə olmayanda bu söz yığını olur. Başım çıxmır ya biz azərbaycanlı deyilik, ya onlar azərbaycanlı deyillər. Şerimizi ögey, yad sözlərlə doldurmaq nəzmimizi zənginləşdirmir, əksinə zibilləyir. Belə şeirlər adama hansısa qərb ədəbiyyatından tərcüməni xatırladır.

Ümumiyyətlə, hazırda ədəbiyyatımızda yaradılan bədii nümunələrə yox, müəlliflərin tutduqları mövqelərə diqqət yetirilir. Belə şairlərin yaradıcılığına yox, tutduqları vəzifələrə qiymət ön plana keçir. Deməli, şairin vəzifəsi yoxdursa, o tam şair sayıla bilməz. Azərbaycanda nəsilli şairlər, yazıçılar əmələ gəlib. Necə ki, Hindistanda millət kastaya bölünüb, yadıma düşür hind kinosu olan «Avara» filmində Rac Kapurun dediyi sözlər – "oğrunun oğlu oğru, prokurorun oğlu prokuror olmalıdır". Azərbaycanda bu başqa sahələrdə olduğu kimi yaradıcı kəslərin arasında da yayılıb. Bu kastaya girmək demək olar ki, mümkün deyil. Kastanın içində deyilsənsə nə sənin sözün, nə də özün sayılmayacaq. Bu faciədir. Bu faciə təkcə istedad sahibinin yox, bütöv mənəviyyatımızın faciəsidir.

Heç bir mədəniyyət başqa xalqın mədəniyyətindən üstün deyil, hər xalqın özünəməxsusluğu lazımdır. Yadımdadır, mənim təxminən 4-5 yaşım olardı. Mən rəhmətlik atama "papa" deyə müraciət etdim. O bizi ətrafına topladı və dedi bundan sonra mənə ata, ananıza isə ana deyə müraciət edəcəksiz. Baxmayaraq biz rusların əsarəti altında yaşayırıq. Biz rus deyilik, bizim öz millətimiz və öz milli dəyərlərimiz var. Ruslar çoxdur, "papa" deyənlərin sayı da çoxdur. Mənim heç bir millətlə ədavətim yoxdur, amma siz mənim övladlarımsız, mən necə istəyirəm mənə belə də müraciət etməlisiz. Bir də sizdən ricam budur ki, mənsub olduğumuz din islam dinidir. Müsəlmançılığın əsas qayələrindən biri kəlmeyi-şəhadəti bilməkdir. Bu gündən kəlmeyi-şəhadəti hər biriniz öyrənməli və yatağa girməmişdən qabaq onu pıçıltıyla deməlisiz və sonra yuxuya getməlisiz. O gündən biz valideynlərimizə ata və ana deyə müraciət etdik və kəlmeyi-şəhadət isə beynimizin ən önəmli taxçasında yerləşdi. Mənim atam heç bir ali təhsil görməmişdi, bəy nəslinə görə babası, atası təhdid və müsibətlərə düçar olmuş, ailədə əmimdən savayı heç kim ali təhsil ala bilməmişdi, sadəcə, sürücü işləyirdi. Ədəbiyyatı çox sevirdi, Füzulidən, Sabirdən əzbər şeirlər deyərdi. Rəhmətə gedəndən sonra bildim ki, atam özü də əruzda şeirlər yazıbmış, amma heç birini özündən sonra saxlamayıb cırıb atırmış. Bizim doğulduğumuz bölgə isə Bakının yüz kilometrliyində yerləşirdi. Siyəzəndə də ruslar çox idilər. Ancaq bu çoxluq bizim nə dilimizə, nə də

əqidəmizə təsir etdi. Atam hamımızı Azərbaycan dilində orta və ali təhsil almağımızı tövsiyə etdi. Bu gün də atamın tövsiyəsi bədii yaradıcılıqda öz dilimi şirincə qavramaqda mənə yardımçı olub. O bizə deyirdi ki, öz dilini və mədəniyyətini biləndən sonra nə qədər dil və mədəniyyətlər mənimsəsən o qədər də sənin üstünlüyünü göstərəcək. Hər bir millət öz ruhunun üstündə köklənməlidir. Bizimsə ruhumuz islami dəyərlərlə bağlıdır, hətta bir çox rəhmətə getmiş xalq yazıçı və şairlərinin övladları radio və telekanallardan ata və analarından bəhs edəndə onlara "papa, mama" deyə müraciət edirlər. Onda istər-istəməz belə sual doğur: "Milli dəyərlərimizi təbliğ və tərənnüm etmiş bu insanlar evlərində, görəsən, övladlarıyla hansı dildə danışmışdılar?" Bu hələ indi də radio və telekanallarda aparıcıların, verilişə dəvət alan bir çox şəxslərin dilindən səslənməkdədir. Neçə illərdir müstəqilliyimizi qazandığımıza baxmayaraq Azərbaycanda indiyə kimi özünü ziyalı sayan, guya milli mənafelərdən çıxış edən ziyalılar var ki, bu ölkədə yaşayırlar, ancaq öz ana dilini bilmirlər. Ona görə də indi Azərbaycanda ana dilini yaxşı bilməyən və ya heç bilməyən şair və yazıçılar boy verib. Onların yazdıqları şeir və nəsr yaradıcılıqlarını oxuyanda xarici dildən tərcüməyə bənzəyir. Şairin, yazıçının əsas dili ona doğma olan ana dili olmalıdır. Çox dil bilmək çox millətlərin mədəniyyətindən xəbərdar olmaq deməkdir, amma ana dilindən yan keçməmək şərtilə. Böyük imperiyalar hansı xalqı öz içində əritmək istəyirdilərsə, onun mədəniyyətinin və dilinin üstünə düşürdülər. Bunu isə imperiyalar öz qadınları hesabına edirdi. İmperiya qadınları imperiya tabeliyində olan millətlərin kişilərinə ərə gedirdilər. Öz dillərini, dinlərini həmin millətlərdən doğulan uşaqların beyninə yeridirdilər, hətta imperiya imperiyanı öz qadınlarının vasitəsilə çökdürürdü. Öz gözəl qızlarını həmin sarayların şahzadələrinə ərə verirdilər. Bir nümunə kimi göy türklərin aqibətini göstərmək olar. Çinli qadınların göy türklərdən doğduğu uşaqlar sonradan göy türklərin özünə qarşı çevrildi və bu göy türk imperiyasının çökməsinin əsas amillərindən biri oldu. Təsdiq etmək lazımdır ki, Rusiya imperiya olmuşdur və indiyə kimi də imperiya olaraq qalır. Ona görə bu gün də öz mədəniyyətini, mənəviyyatını və dilini çalışır ki, öz ərazisində və ona sərhəd olan qonşu ölkələrdə yaysın. Bunun üçün ilan kimi dəridən, qabıqdan çıxır. Bizim ölkə də həmin qonşu ölkələrdən biridir və iki əsrə qədər rus mədəniyyətinin, dilinin, mənəviyyatının əsarəti altında olmuşuq. Bu gün də o əsarətin izləri qalmaqdadır. Mən bu gün də elə adamlar tanıyıram ki, rus mədəniyyətinin

üstündə böyüdüyünü fəxrlə car çəkir. Onlarda mən nə milli hiss, nə milli ruh, nə də milli mənəviyyat gördüm. Kosmopolit heç vaxt azərbaycanlı ola, azərbaycanlı kimi düşünə bilməz, həmişə də həmvətənlərinə həqarətlə baxar. Bunu çoxları işğal dövrü ilə bağlayır, amma hər bir insanın içində bir "mən" olmalıdır, bu mən onun milli kamilliyinə xidmət etməlidir. Axı bu qədər mükəmməl və heyrətamiz musiqisi, muğamı, ədəbiyyatı olan bir xalqın nəyi başqa millətlərdən əskikdir? İndi biz 18 ildir ki, müstəqilliyi qazanmışıq və öz köklərimizə qayıtmalıyıq ki, bizə xaricidə "raşın" deməsinlər.

Ailədə doğulan uşaq birinci növbədə valideynlərinə ata, ana deyə müraciət etməlidir. Təzə doğulan uşaqların soy adları ruslardan gələn soy şəkilçilərdən təmizlənməlidir, fikrimizcə bu dövlət siyasətinə çevrilməlidir. Başqa dildə yazıb-yaradanlar, demək olar ki, millət tərəfindən doğma yazıçı, şair kimi qəbul olunmur. Mən deməzdim ki, Çingiz Aytmatov qırğız yazıçısıdır. O, rus yazıçısı, avropa yazıçısı ola bilər, amma qırğız yox, çünki qırğız yazıçısı olmaq üçün gərək qırğız dilində yazıb yaratmalı və o xalqın dilində geniş yayılmalı idi. Baxmayaraq o əsərinə manqurtu gətirdi. Mən bununla tərcümə əsərlərinə qarşı çıxmıram, başqa millətlərə məxsus əsərləri tərcümədən oxumaq olar, amma sən hansı millətə məxsussansa, o millətin də dilində yazıb yaratmalısan, ən azından millətin ürəyində özünə yer eləmək üçün. Tərcümə əsərləri isə heç zaman əsli kimi ruhu oxşamır. Bu millətçilik deyil, bu əsl həqiqətdir. Əsl həqiqəti demək və yazmaq həmişə acı olub. Dahi Nizami Gəncəvi fars dilində yazıb-yaradıb. Gəncədə doğulub, böyüyüb təlim-tərbiyə görüb, ancaq farslar indi də onu özlərindən hesab edir. Etiraf etmək lazımdır ki, bizim üçün Füzulinin, Nəsiminin, Xətainin, Yunus İmrənin dili daha şirindir, çünki onların şirin türkcədə yaradıcılıqları var. Bu daha çox bizim ruhumuzu, qanımızı, canımızı oxşayır, amma Nizami nə qədər dahi olsa da biz onu tərcümədən oxuyuruq. Hər bir tərcümə isə tərcümə edən şəxsin ruhuyla, savadıyla və tərcümə etdiyi dili nə qədər bilməsilə bağlıdır. Nizami Gəncəvidən edilən tərcümələr də tərcüməçinin istedadının gücündədir, Nizaminin gücündə yox. Bu da farslara əsas verir ki, onu fars şairi adlandırsınlar. Biz hər bir tərcümədə əsəri yazanın yox, tərcüməçinin isti nəfəsini duyuruq. Mən bununla demək istəmirəm ki, mən tərcümə ədəbiyyatını sevmirəm. Başqa xalqların dilindən yüksək səviyyədə edilmiş tərcümələri bu gün hamımız sevə-sevə oxuyuruq. Dahi rus şairi A.S.Puşkinin "Yevgeni Onegin"ini

bizə qənirsiz fitri istedada malik olmuş böyük şairimiz Səməd Vurğun sevdirib. Puşkinin məhəbbət poemasından yüksək səviyyəli tərcümələrlə hələ orta məktəbdə Vurğun fitri istedadının sayəsində bəhrələndik. Ona görə ki, Səməd Vurğun baxmayaraq sovet ideologiyasına xidmət etmişdi, böyük ilham sahibi idi. Ona görə Puşkin dühasıyla Vurğunun aşıb-daşan ilhamı bu tərcümədə özünü bariz şəkildə nümayiş etdirdi. Yaxın tarixə aid N.V.Qoqolu nümunə gətirmək olar. İndiyə kimi ruslar və ukraynalıların arasında onu hansı millətin yazıçısı saymaq haqqında mübahisələr gedir. Qoqolun yazdıqları tamamilə Ukrayna xalqının ruhuyla bağlı olsa da, yazdığı dil rus dili olub. Bu yazılarda Ukrayna ab-havası qabarıq şəkildə hiss olunmaqdadır, ancaq rus dilində yazıb-yaratdığı üçün ruslar onun heç cür Ukrayna xalqına aid olmağını qəbul etmək istəmirlər, çünki bircə yazısı da Ukrayna dilində yoxdur. Əgər, o, öz dilində də nə isə yazıb qoysaydı, heç olmasa Ukrayna dilində bir əlyazması qalsaydı bu gün ruslar ona bizimki deyə bilməzdi. Bütün bunları ona görə misal gətirdim ki, gənc yazıçı və şairlərimiz öncə öz ana dilini mükəmməl bilməli, sonra bədii yaradıcılıqla məşğul olmalıdır. Başqa dildə yazıb-yaratmaq həmin dilin ədəbiyyatını və mədəniyyətini bəhrələndirməkdir. Öz dilində yazıb-yaradanları isə heç bir imperialist qüvvə gələcəkdə mənimki deyib qamarlaya bilməz. Füzuli yaradıcılığını ana dilində əsas tutduğu üçün, bu gün onun şeirləri bizə daha doğma, daha şirindir və heç bir qeyri-millət deyə bilməz ki, o bizimdir, çünki dahi Füzuli türk dilində öz kimliyini əsrlər arxasından aləmə car çəkib. Sübut edib ki, təkcə farsın dili yox, türkün dili də şeir dili ola bilər. Fars dilinin şərqdə şeir dili kimi qəbul edilməsinin nəticəsi o olub ki, bu gün Nizami Gəncəvi yaradıcılığını geniş oxucu toplumu tərcümədən oxumağa məcburdur. Bu orta əsrlərin anlaşılmazlıqlarıdır. Mən bununla öz Xəmsəsilə dünyanı heyrətdə qoymuş dahi Nizamini mühakimə etmirəm, onun yaşadığı dövrdə bizim ərazidə təzə təşəkkül tapmış müsəlmançılıq, şərq hökmdarlarının ərazisi sayılan şahlıq-xanlıq üsul-idarəsi hökm sürürdü. Onun dövrü üçün fars dili şeir, ərəb dili isə dövlət idarəçiliyi dili sayılırdı. Bu gün isə biz bu məsələlər barədə dərindən düşünməliyik. Gələcək nəsillərə öz dilimizin, mədəniyyətimizin əmanəti xatirinə.

Müstəqillik böyük nemətdir. Şükür Allaha ki, indi yazılanlar nə fars, nə rus adı ilə gedir, nə qalibiyyətlərimiz, nə uğurlarımız varsa hamısı doğma Azərbaycanımızın adı ilə bağlıdır. Bu günə qədər də Təbriz miniatürləri və xalçaları qərbə fars adı altında tanıdılır, çünki millətimizin çox hissəsi,

cənublu qardaşlarımız fars əsarəti altındadır, amma müstəqillik qazanan bizlər isə indi öz xalçasını, öz musiqisini, bütünlükdə mənəvi sərvətlərini qərbə öz adı altında təqdim edirik. Bunun qiymətini və qədrini biz hamılıqla bilməliyik və bu mənəvi yükün ağırlığına dözməyi bacarmalıyıq. İllərlə həsrətində olduğumuz müstəqilliyimizi müvəqqəti maddi, mənəvi çətinliklərə qurban vermək olmaz. Vətəni rahatlığa dəyişmək olmaz. Vətən ümid və qürur yerimiz, haqqına tapındığımız alın tərimiz, ruhumuzun odu-ocağı, anamızın isti qucağıdır! Bu gün bizim ixtiyarımız yoxdur bir-birimizə müxalif olaq, çünki bizim bir qəvi-düşmənimiz var, o da erməni və ermənin arxasında dayanmış, ürəyində Allah xofu olmayan azğın, şeytani qüvvələrdir! Torpaqlarımız işğaldan azad olunana qədər biz bu amal uğrunda birgə çarpışmalıyıq, çünki bizi özümüz qədər heç bir xarici qüvvə istəyə bilməz. VƏTƏNİ göz bəbəyi kimi qorumalıyıq. Vətəndən kənarda yaşamaq olar, ağıllı, istedadlı, işgüzar adamlar yaşayırlar da, amma yaşadığın yer Vətən torpağı kimi ayağın altında möhkəm olmaz, sənin biliyini, təfəkkürünü isti qarşılayarlar, amma özünü heç zaman özlərinə doğma sanmazlar. Doğma sanılası bir yerimiz var, o da sinəsi min bir yerdən yaralı, torpağı paramparça olmuş doğma Azərbaycanımızdır. Vətən torpağı hələ tam azad deyil. Onun tam azadlığı işğaldan qurtulan günü olacaq. Bu azadlıq üçün birləşməliyik. Dünyaya səpələnmiş 50 milyonluq Azərbaycan türkünün gələcək birliyi naminə! Bu birliyin rıçaqları bu gün Azərbaycanda yaşayan hər bir azəri türkünün, hər bir azərbaycanlının əlindədir. Bu rıçaqlar – məhəbbət, sevgi, istək, mənlik, ləyaqət, mənəvi təmizlik və bir-birini sevmək, öz canı qədər əziz tutmaqdır. Mənim bütün bunları dilə gətirməkdə məqsədim kimlərinsə bostanına daş atmaq və kimlərəsə öyüd, tərbiyə vermək deyildir. Sadəcə olaraq, ulu Sözün, qoca Şərqin bətnindən doğulan əsrarəngiz Şerin özünəməxsusluğunu qorumaq naminə bu yazını qələmə aldım. Şerin formasını dəyişmək və ora dilimizə yatmayan ögey sözlər doldurmaq kəşf deyil, kəşfi onun mənasında və məzmununda axtarmaq lazımdır. Əziz söz adamları, sizləri də bu məsələlər barədə dərin-dərin düşünməyə dəvət edirəm. Bütün dünyanı və əsrləri heyrətdə qoymuş, qoca Şərqin isti nəfəsindən qopan müqəddəs Şerimizin gələcəyi naminə!..

09.07.2009

ALBAN ABİDƏLƏRİ KEÇMİŞİMİZİN YADİGARI VƏ YAXUD ÖLÜ TARİXİMİZİN BƏLALARI

Qafqaz Albaniyası eramızdan əvvəl təqribən III-IV əsrlərdə formalaşmış, eramızın VIII əsrində Ərəb xilafəti tərəfindən işğal edilmişdir. Paytaxtı əvvəlcə Qəbələ, sonra isə Bərdə şəhərləri olmuşdur. Eramızın IV əsrində xristian dinini rəsmi dövlət dini elan edən Alban dövləti mövcudluğunun sonuna qədər bu və ya digər dərəcədə xristian ideologiyasının təsir dairəsində olmuşdur. VII əsrdə torpaqlarımız ərəb işğalına məruz qalandan sonar islam dini ərazimizdə geniş şəkildə yayılmağa başlamışdı.

Bu günə qədər xalqımızın yaddaşında kök salmış Cavanşir adı da elə alban hökmdarlarından birinin adı idi. Daimi yaşadıqları yerləri bilinməyən ermənilər hind-avropa dil qrupuna mənsub, bir ərazidən digər əraziyə keçməklə köçəri həyat sürmüş xalqdır, hətta onların öz alimlərinin yazdıqlarından da bəlli olur ki, bu xalqın qədimdən nə dəqiq yeri, nə də məkanı olub. Onlar qaraçıların həyatına bənzər bir ömür yaşamışlar və indi də yaşamaqdadırlar. Günü bu gün də ermənihaylar Rusiyanın himayədarlığı və işğalı nəticəsində zəbt etdikləri azəri torpaqlarında da özlərini doğma hiss etmirlər, çünki onların tarixdən nə dövlətçilik, nə də torpağa bağlılıq sevgiləri olub. Tarixdə Ermənivyyə adı ilə tanınmış dövlətdə ermənilər yaşamayıb, çünki onlar heç zaman oturaq həyat sürməyiblər, bir yerdən başqa yerə azuqə, pul-para ardınca köç etməklə dünyanın haqqı bilər tarixçilərinə bəlli bir ömür yaşamışlar. Bu gün bizim əzəli torpaqlarımız üstündə qurulmuş indiki Ermənistan bir dövlət kimi süqut etsə, bu xalq uf demədən dünyanın hər yerinə köç edib gedəcək. Onları nə vətən, nə də torpaq hissi yandıracaq, çünki bu hiss onlarda heç bir zaman olmayıb. Dünyanın elə bir ölkəsini tapmazsan ki, orda ermənilər yaşamasın, eynilə qaraçılar kimi.

İslam dini ölkəmizdə yayıldıqdan sonra xalqın əksər hissəsi müsəlmançılığı qəbul etdi. Tarixi alban abidələri və məzarlıqları yavaş-yavaş islama inanc bağlamış xalqın mənəviyyatına yadlaşdı, amma xristian albanlarla qan qohumluğu və islami inancla bağlı səmavi dinlərin toxunulmazlığına görə müsəlman insanlarımız nə bu məbədlərə xain gözlə baxdılar,

nə də məzarlıqlara.. Xristianlıqda qalan alban əsilli insanlar isə məbədlərdə ibadətlərini davam etdirdilər. Ermənilər bu yerlərə ayaq basana qədər… Biabırçı və fəlakət gətirmiş məlum 1813-cü il "Gülüstan" və 1828-ci il "Türkmənçay" İran-Rusiya sülh müqavilələrindən sonra ruslar bu ikiüzlü ermənilərdən işğal etdikləri Azərbaycan torpaqlarında sipər kimi istifadə etdilər. Tarixi mənbələrdə göstərilir ki, 200 nəfər erməni ailəsini ruslar İrandan gətirib bu ərazilərdə yerləşdirdilər. Ruslar tərəfindən bu ərazilərə köçürülmüş ermənilər azlıqda qalmış xristian alban-azərbaycanlıların kilsələrindən istifadə etməyə başladılar. Yəni xristian albanlarla bir yerdə ibadət etdilər. Xristian alban əhali ilə sözləri düz gəlməyəndə isə bu əhali ilə aralarında toqquşmalar olurdu. Köhnədən vərdiş etdikləri terror üsulu ilə onları öz yollarından götürürdülər. Sonradan isə bu məbədləri də, xristian əhalinin özünü də və bu əhaliyə məxsus məzarlıqları da yavaş-yavaş özününküləşdirdilər. Yəni bir xalq məsəlində deyildiyi kimi "yersiz gəldi, yerli qaç" prinsipini məqsədli şəkildə həyata keçirməyə başladılar. Bəlkə elə bu xalq məsəli də vəhşi ermənilər bu torpağa ayaq basandan sonra yaranıb…

Ürəyinin qapısını qonağa açıq qoyan xalqımız bu fitnəkar düşmənin iç üzünü heç zaman dərindən duya bilməmişdir. Təxminən 1964\65-ci illər idi. Mən doğulduğum Tağay kəndində səkkizillik məktəbdə oxuyurdum. Dəvəçi-Siyəzən ərazisində, ümumiyyətlə, ermənilər yaşamayıblar. Bakı bizim bölgəyə yaxın olduğu üçün tez-tez paytaxtdan kəndimizə "volqa" maşınla ermənilər gələrdi. Deyirdilər ki, onlar qəbiristanlıq ərazisində duza qoymaq üçün bir yeməli bitki var onu dərirlər. Kənddən bir az kənarda dənizə sarı bizim qəbiristanlığımız yerləşirdi. Bu qəbiristanlıq təzə qəbiristanlıq adlanırdı. Köhnə qəbiristanlıq da təzə qəbiristanlığa yaxın idi. Köhnə qəbiristanlığın məzarlarının başdaşıları dağılıb 1918-ci il erməni-rus basqınları zamanı tamamilə məhv olmuşdu, təkcə 2-3 məzar daşından başqa. Bu məzar daşlarının üstündə bizim başa düşmədiyimiz dildə hərflər və xaç işarəsi var idi. Görünür, islam dininin bu ərazidə yayılmasından sonra əski xaç məzarlıqdan ayrı təzə müsəlman qəbiristanlığı salınmışdı. Biz həmişə dəniz yoluyla yay aylarında Xəzərə gedəndə bu məzarlar da sanki bizə miskin-miskin baxardılar. Sonralar kəndə duza qoymaq üçün tərə yığmağa gələn ermənilər bu xaç daşları da özləriylə tədqiq etmək bəhanəsilə harasa apardılar… O yer isə hələ də köhnə qəbiristanlıq adıyla durur. Günü bugün də o yer öz məhzun görünüşü ilə adamı qüssələndirir. O zamanlar Sovetlər İttifaqının kəsəkəs vaxtları idi. Biz o vaxtın uşaqları isə

rus tarixini öz tariximizdən yaxşı bilirdik, çünki doğma vətənimizin tarixi biz məktəblilərə dırnaqarası keçilirdi.

Uzun illər bundan öncə olmuş bir hadisəni də dəyərli oxucuların diqqətinə yetirmək istəyirəm. Çünki bu hadisənin özüm də iştirakçısı olmuşdum. 1975-ci il idi. Mən universitetə qəbul olmamışdan qabaq Bakıda tikiş fabrikində tikişçi işləyirdim. Başdan-başa qadın qüvvəsilə köklənmiş fabrikdə müxtəlif millətlərin qadınları işləyirdi, o cümlədən ermənilər də.

Dördüncü sexdə tikiş maşınları sırayla düzülmüşdü. Birinci sırada iki qadın tikiş maşınlarını idarə edirdi. Heç vəchlə bir-birilə yola getmirdilər. Bu qadınların biri Qarabağın xristian azərbaycanlısı Gülçöhrə (bunu sonradan özü elan edəndən sonra bildim), digəri isə əsli hay-erməni Raya idi. Demək olar ki, iş zamanı daim dava-dalaş salardılar. Bir gün aralarında dəhşətli dava qopdu. Mən bu dava-dalaşa dözməyib onlara yaxınlaşdım, xasiyyətcə mehriban olan Gülçöhrəyə sual verdim niyə siz bir-birinizlə yola getmirsiz? Deyirlər ermənilər bir-biriylə can deyib can eşidirlər, bəs aranızda bu nə ixtilafdır?! Həddindən artıq əsəbiləşib gözləri həlqəsindən çıxmış Gülçöhrə ağlaya-ağlaya dedi: "Mən erməni deyiləm, mənim yeddi arxadan dönənim Qarabağda doğulub, mən qarabağlı xristian azərbaycanlıyam, ermənilər bizim kilsələrimizi, əlifbamızı, tariximizi, musiqimizi, torpağımızı, bütünlükdə varlığımızı oğurlayıb. Onlar bizi heç zaman xoşlamırlar, hətta qızlarımızı da ərə getmək adı ilə alıb Ermənistana aparırlar və beş-altı aydan sonra qaytarıb başımıza vururlar ki, bəs siz türklərin artığısız. Sizdən bizə yar olmaz. Biz alban əsilli xristian azərbaycanlıyıq. Neçə yüz ildir erməni işğalının və böhtanın basqıları altında inləyirik. Allah yer üzündən ya erməniləri, ya da bizi yox eləsin… Bizimlə sizin qanımız, kökümüz birdir. Aramıza qan düşmənçiliyini salan da bu məkrli ermənilərdir. İndi biz tək qalmışıq, nə bizi murdar ermənilər, nə də canı-qanı bir azərbaycanlılar sevir. Bu murdar, qaraçı ermənilərin ucbatından…" Açığını deyim ki, mən alban əsilli xristian Gülçöhrənin dilindən bu sözləri eşidəndə alban tariximiz barədə heç bir məlumatım yox idi. Maraq məni götürdü, tez gözlərimin qabağına kəndimizin kənarında olan xristian köhnə qəbiristanlıq və Dəvəçinin ucqar dağ kəndi Zeyvə ilə üzbəüz yerləşmiş Kilvar kəndi gəldi. Bizim kəndin də köhnə qəbiristanlığından başdaşıları ermənilər tədqiqat adı ilə aparmışdılar və ərazimizdə yeganə xristian kəndi olan Kilvar əhalisinə camaat erməni

desə də, kilvarlılar özlərini heç zaman erməni adlandırmırdılar. Onlar öz aralarında bir-birinə udin deyirdilər. Baxmayaraq ki, xristian idilər, adları da bizim adlara bənzəyirdi. Hətta o kənddən Səriyyə adında bir rəfiqəm var idi. O söyləyirdi ki, ermənilər Bakıdan onların kəndinə tez-tez qonaq gəlirdi. Kilsələrində olan tarixi sənədləri də özlərilə bahəm götürüb aparmışdılar. 1988-ci il hadisələri başlayan zaman həmin Kilvar kəndinin camaatı da Rusiyaya köç etdilər.

Adətən bizim xalqda nədənsə öz tarixinə, öz tarixi abidələrinə bir biganəlik var. Özü də bu biganəlik ziyalılarımızdan tutmuş ən adi insanımıza qədər hamıda özünü büruzə verir. Bizim əsasən dövlətimiz evimizin içi, oradakı insanların sayı, imkan olduqca yığdığımız var, sərvət, dəbdəbəli ev əşyaları, bərbəzəkli zinət, yemək-içməkdir. Hərdən mənə elə gəlir ki, biz yaşamaq üçün yemirik, yemək üçün yaşayırıq. Bu, hər gün telekanallarda baş alıb gedən yemək-içmək şoularında da özünü büruzə verməkdədir. Heç biz torpaqlarının iyirmi faizi işğal altında olan ölkənin vətəndaşlarına oxşamırıq. Eh, deyəsən bizə heç torpaq da lazım deyil. Xalq şairlərimizdən biri yazmışdı ki, hara sənin üçün yaxşıdırsa, ora vətəndir. Görürsüz də biz şairlər necə beynəlmiləl fikirli insanlarıq. Bura olmasın, ora olsun. Təki qarnımız tox, cibimiz dolu olsun. Ordan qovarlar bura gedərik, burdan qovarlar ora gedərik.

Hələ uşaq vaxtlarımdan uca dağlar başından kəndimizə boylanan Çıraqqala uçulub-dağılmağa doğru getməkdədir, amma bu tarixi qalanın düz qulağının dibində dəbdəbəli bina tikilib. Bir az o tərəfdə isə müalicəxana fəaliyyət göstərir. Burda kef məclisləri qurulur, əmliklər kəsilir, uzaq tariximizin yadigarı olan Çıraqqala isə məhzun-məlul, daş-daş ələnə-ələnə bizim biganəliyimizin önündə hönkür-hönkür göz yaşı tökür. Tarix arxasında goru çatlamış şahlarına ağı deyə-deyə... Bu gün işğal altındakıları demirəm, onların taleyi hamımıza bəllidir, işğal altında olmayan neçə-neçə qala və məbədlərimiz bu ağrılı taleyi yaşamağa məhkumdur. Biz isə özümüzə saysız-hesabsız imarətlər yapır, köhnə qalalara oxşar yeni daşlarla qalalar tikir, amma keçmişimizin əbədi sükutuna qapılmış tarixi abidələrimiz bizim biganəliyimizlə barışıb öz acı taleyini yaşamağa məhkum olub. Bu məhkumluğun acısını isə biz özümüz həm dünən, həm bu gün, həm də sabah çəkəcəyik.

Universitetdə oxuyarkən kirayədə qalan tələbə qızların olduğu evə qonaq getmişdim. Evin sahibələri iki yəhudi əsilli yaşları səksəni haqlamış

bacılar idi. Bu bacılar Bakının qədim binalarının birində ikinci qatda yaşayırdılar. Yeddi, səkkiz otaqdan ibarət bu mənzildə döşəmədən tavana qədər qalaq-qalaq kitablar yığılmışdı. Kitabların çoxu da tarixlə bağlı idi və bu kitabxanada bizim alban tariximizlə bağlı neçə-neçə kitablar dil açıb keçmişimizi haraylayırdı. Erməni, yəhudi evlərində tarixi kitablar qalaqlananda bizim evlərdə isə çex büllurları, xarici mebellər adama gəl-gəl deyirdi. Bu gün bizim əlimizə pul düşəndə bahalı əşya alırıq, kitab yox, halbuki kitab bu bahalı əşyalardan neçə dəfə ucuzdur. Dünyadan köçmüşlərimizin qəbirlərini fürsət düşdükcə bahalı mərmərlərlə bəzəyirik, amma bir manatımızı belə tarixi abidələrimizin bərpasına qoymuruq. Axı bayaq qeyd etdim ki, bizim vətənimiz evimizin içidir. Evimizdən kənar bizə yaddır, zibilləyə də bilərik, ağaclarını kəsə də bilərik, təbiətini çirkləndirə də. Axı bizə nə?!

2007-ci ildə əlimə əsli şotland Amerika yazıçısı Səmuel A.Uimzin "Ermənistan terrorçu "xristian" ölkənin gizliləri" kitabı keçmişdi. Daha doğrusu, bu kitabı mənə Azərbaycan Dillər Universitetinin müəllimi Məhəmməd müəllim bir tədbirdə bağışlamışdı. Bəri başdan Məhəmməd müəllimə bu qənirsiz bəxşişə görə və bu kitabı ingiliscədən dilimizə çevirən həmin ali təhsil ocağının müəllimi Zeydulla müəllim Ağayevə öz minnətdarlığımı bildirirəm. Ağrılı tariximizlə bağlı dəyəri heç nəylə ölçülməyən belə qiymətli kitabı bizim dilimizə tərcümə etdiyi üçün… Allah belə ziyalılarımızı həmişə öz nəzər-diqqətində saxlasın və hifz etsin. 344 səhifəlik kitabı mən necə deyərlər birnəfəsə, dincəlmədən oxudum. Kitabın səhifələrini həyəcansız oxumaq mümkün deyil. Kitab məni o qədər həyəcanlandırdı ki, mən kitabın təsirilə bu insanpərvər müəllifin şərəfinə "Erməni fitvasını dünyaya faş eyləmisən" şerini yazdım. Kitab başdan-başa erməni adlı millətə mühakimə üsulunda qurulub. Ermənilərin qaraçı bir qövm olduğunu – onların nə əlifbası, nə tarixi torpaqlarının olmamasından bəhs edir. Hazırda işlətdikləri əlifbanın alban əlifbasının dəyişdirilmiş forması olduğundan danışılır, hətta xristian inanclarının da olmadığı bu dini zahirdə işlətdikləri və əslində "vahan" adlı bir inanca qulluq etdikləri, rusların vasitəsilə Qafqaza ayaq qoyduqları gündən bu əzəmətli, qeyrətli diyarı qan çanağına döndərdiklərindən bəhs edilir. Azərbaycanın şimal hissəsində alban çarlığının və bu çarlığın süqutundan sonra qalan xaç abidə və məzarıstanların ermənilər tərəfindən mənimsənilməsi, Türkləri-osmanlıları şərləməsi, yalançı aprel qırğınını dünyanın beyninə yeritmək

və Türkiyədən ömürlük yal diləmək istəkləri, xristianlıq pərdəsi altında xaç inancında olan ölkələrdən pul dilənə-dilənə yaşayan ermənilərin iyrənc sifətləri bu kitabda ifşa olunur. Kitabda ermənilər tənbəl, ağır işlərdən qaçan, onun-bunun hesabına yaşayan bir millət kimi kəskin tənqid atəşinə tutulur və onları dəstəkləyən xristian dövlətləri də bu şər yoldan əl çəkməyə, haqqın, ədalətin tərəfində olmağa çağırılır. Kitab Amerikada çap olunandan bir ay sonra müəllif müəmmalı şəkildə vəfat etmişdir. Mən imkanlı şəxslərimizin yerinə olsaydım bu kitabı cahanın məşhur dillərində milyonlarla tirajla buraxar və dünyanın hər yerinə yayardım. Heyif ki, Allah mənə belə bir imkanı nəsib etməyib, amma onu deyim bu kitab ermənilərin xeyrinə yazılsaydı, onlar mənim dediyim kimi də edərdilər. Biz həmişə fil qulağında yatmağı xoşlayan bir xalqıq. Rus tarixçisi Lev Qumilevin sözü olmasın lap qocalıb tarix səhnəsindən çıxmağa hazırlaşan xalqlara bənzəyirik…

Ona görə müstəqilliyimizin varlığının tarixini sübut edən himnimizin gah sözləri, gah musiqisi bizlərə uzun görünür, hətta səslənəndə dodağımızı belə tərpətməyi bəzən özümüzə rəva bulmuruq. Məşhur "Sarı gəlin" xalq mahnısını ermənilər özününküləşdirib və bizlərdən bəzilərimiz də elə güman edirik ki, elə bu mahnı hayların boyuna biçilib. Sizlərə və bizlərə sual edirəm sarışın, yaşıl göz, göy göz ermənilərə nə vaxt və harada rast gəlmisiz? Görünüş baxımdan ermənilər qaraşın, qara və ya qəhvəyi gözlü olurlar. Sarı saç, ağ bəniz, yaşıl və göy gözlər əslən qafqazlılara məxsusdur. Qanımızın ərəblərlə qarışmasına baxmayaraq həm bizim – yəni Azərbaycanın başqa bölgələrindən olanların arasında, həm də müsəlman qarabağlıların arasında istənilən qədər sarışın, göy və yaşıl gözlü adamlara rast gəlmək olur. Həmçinin qafqazda türk əsilli tayfalar lap qədimdən olub. Yaşlı bir qaqauzun dilindən eşitmişəm ki, onlar çox-çox əvvəllər qafqazda yaşayıblar. İslam dininin Qafqazda yayılmasıyla əlaqədar olaraq onlar xristian dinində olduqları üçün bu ölkəni tərk edib Moldova ərazisinə getmişdilər. İndi də qaqauzlar dil və qan qohumluğuyla əlaqədar bizi özlərinə çox yaxın hesab edirlər.

Naxçıvandan üzü bəri islamdan qabaqkı tariximizi bizə birər-birər pıçıldayan alban abidələrmiz, qəbiristanlıqlarda paramparça keçmişimizin, oğurlanmış xaç başdaşılarımız yaralanmış susqun və baxımsız görkəmlərilə bizləri haraylayır. Deyir, ey din ayrı soydaşlarım, qandaşlarım, gəlin başımızı tumarlayın, üstümüzdən min illər əsən xəzan yellərinin naləsini

dinləyin, ahımızı duyub, barı bir dəm bizim təki inləyin. Axı biz sizin keçmişinizin yadigarlarıyıq. Axı millətin kimliyi onun başı bəlalı tarixindən o tarixin torpaqda qoyduğu izlərdən keçir. Bu izlər torpaq altda və üstdə qalan xaraba şəhərlər, qalalar, uzaq keçmişimizin küp qəbirləri, zərdüştlüyün, xristianlığın abidələridir. Axı bizim ulularımız yeddinci əsrdən yox, çox-çox öncələrdən bu torpaqların sakinləridir. Axı heç bir millətin tarixi onun dini ilə ölçülmür. Axı biz, bu məmləkətin sakinləri dünya xalqlarında olduğu kimi neçə-neçə inanclardan keçib bu günümüzə gəlib çıxmışıq. Kimi xristian, kimi zərdüşt, kimi müsəlman kimi və sair. Öz tarixini göz bəbəyi kimi qoruyanlar tarix səhnəsində at oynadıblar. Allah bu hissi bizdə güclü etsin. Milli Məclisdə bəzi millət vəkilləri kimi deməyək ki, Naxçıvanda hər daşın altından bir xaç çıxır. Əzizlərim, o xaçlar bizim özümüzə məxsusdur. Dünənini danan xalqın sabahı da olmaz. Bunu biz hamımız bir nəfər kimi anlasaq, bununla biz xaçpərəstliyi yox, tariximizi hifz etmiş oluruq. Tarix isə onu qoruyanlardan və hifz edənlərdən başlayır, çünki tarixi qoruyanlar keçmişin sirli sandığının sehrli açarını öz ağlı, düşüncəsi, biliyi, ziyalılığı, milli qüruru, qeyrətilə dərin qatlardan arayıb-axtarır tapır və qıfılını açır. Ululanının yaşadığı həyat yolunu araşdırmaq üçün varından, pulundan keçir. Biz bu gün kimliyimizi aramaq üçün göy türklərin yaşadığı vaxtlara, Orxan-Yenisey abidələrinə gedib çıxırıq, amma bir neçə yüz il qabaq tarixə öz dəsti-xəttini yazmış alban tariximizi özününküləşdirmiş ermənihay vandalizimi qarşısında sükutla baş əymişik və bu sükut öz tariximizə bəslədiyimiz ögeyliyin ucbatındandır ki, bu gün düşmən hər cəhətdən üstümüzə hücuma keçib. Həm tarixi varlığımızı, həm musiqimizi, həm rəqslərimizi, həm torpaqlarımızı işğal etməklə məşğuldur. Göy türklərlə bağlı tariximiz və Orxan-Yenisey abidələri bizimdir, amma alban tarixini unutmamaq şərti ilə… Əsli bizdən olmayan bir yazıçı okeanın o tayından düşmənin iç üzünü açıb aləmə bəyan edib. Bütün dünyanın başbilənlərini də qaniçən terrorçulara qarşı ayıq-sayıq olmağa çağırıb. Biz isə "Əsli və Kərəm" dastanında boy göstərən Əslini erməni adlandırırıq. Bu iki dində olan bir tayfanın məhəbbət faciəsi idi, Əsli ilə Kərəm isə sonradan bir millətin başına gətirilmiş soyqırımlarının ilk qurbanları. Biz xristian albanla müsəlman albanın faciəvi məhəbbət dastanında Əslini ermənileşdirməklə ermənileri burda qədimləşdiririk. Amma dini dinimizdən, dili dilimizdən olmayan şotland əsilli yazıçı isə Amerikada haray qoparıb ermənilərin Qafqaza iki əsr qabaq gəldiklərindən bəhs edir. Biz özümüz də bilmədən və ya bilərəkdən çox vaxt

erməni dəyirmanına su tökmüşük. Bizim bu başıbəlalı qonaqpərvərliyimiz, ürəyimizin yumşaqlığı sinəmizə dağlar, düyünlər çəkib.

Bu dağ-düyünlərin ağrısı dünən baba-nənələrimizdən, bu gün bizdən, sabah isə hələ həyatın ağrılarını tam dərk etməmiş övladlarımızın ürəyindən keçəcək. Bu dağ-düyünlərin kökünü kəsmək üçün göz yaşlarını, ah-ufu yığışdırıb təpədən-dırnağa qədər düşmənə nifrət hissilə çağlamalıyıq. Namusumuz olan halalca ana torpağımızı qorumaq naminə! Ana torpaq deyəndə həm Vətən, həm tarix, həm də bütünlükdə dəyərlərimiz yada düşür. Dünyanın hər yerində yaşamaq olar, ancaq hər yerə Vətən demək olmaz. Vətən sevgisi heç bir sevgi ilə əvəz olunmur. Bu əvəzsiz sevgi qan yaddaşımızla ruhumuza hopub. Qan yaddaşımızın dolaylarında ata-babalarımızın at oynadıb qılınc çaldıqları zamanlar hayqırır. Bu hayqırtıların işartıları bağrımızda şimşəklərtək oynaşır. Kişili-qadınlı hamımızı döyüş meydanına səsləyir. Varlığımızın sağlığı naminə! Bu sağlıq hər birimizin dəyanətindən, mətanətindən, ləyaqətindən keçir. Düşmən mənfur olduğu qədər də çox qorxuludur.

Alban tarixini, alban mədəniyyətini bizə yad sayanlar qoy Azərbaycanımızın zəhmətkeş, əzabkeş və şəhid alimi akademik Ziya Bünyadovun alban tarixilə bağlı tərcümə etdiyi Musa Kalankatuklunun "Albaniya tarixi" və Muxtar Qoşun "Alban salnaməsi"ni oxusunlar. Biz bu kitabları oxumaqla xristian olmuruq, sadəcə, əsrlər arxasından haray salmış öz kimliyimizin faciəvi dastanıyla tanış oluruq… Mən demirəm ki, alban tarixinə bizim alimlərimiz müraciət etməyib, Fəridə xanım Məmmədovanın və bir çoxlarının bu sahədə xidmətləri danılmazdır. Amma bu gün biz hamılıqla əlimizdən oğurlanmış tariximizi özümüzə qaytarmaqçün mübarizə aparmalıyıq. İnternetdə açılacaq alban tariximizlə bağlı portallarımızdan tutmuş, kənd-kənd, şəhər-şəhər adlarını toz basmış, uçulub məhv olmaq təhlükəsilə üzləşmiş alban abidələrimizin bərpası və mənəviyyatımıza qaytarılmasıyla məşğul olmalıyıq. Düşmən məkrli və iyrəncdir. Bütün günü bizim musiqilərimizə qulaq asan, onları mənimsəyən, toylarında mahnılarımızın sədasına qol götürüb oynayan ermənilər özgə atı ilə çox uzağa çapa bilməyəcəklər, gec-tez atın üzəngisindən ayaqları üzüləcək və kəllə-mayallaq yerə gələcəklər.

Deyirlər ki, dünyada insan nəsli peyda olmamışdan öncə vəhşi bir insana bənzər nəsil var idi. Bizim insan nəsli vəhşi insan nəslini döyüşə-döyüşə yer üzündən silib. Ona görə onlara da insan nəsli deyirəm ki,

onların da ov alətləri var idi, amma insan əti ilə, hətta bir-birinin əti ilə qidalanırdılar. Lakin adəm övladı bir çox vəhşilər kimi adamyeyənləri də yer üzündən yox edib, ancaq hərdən mənə elə gəlir ki, bir çox nəhəng canlılar öz görünüşünü dəyişdiyi kimi, adamyeyənlərin də tör-töküntüləri indiyə kimi qalmaqdadır. Yəqin ki, başqa şəkildə. Bu üzdə bizlərə bənzər, daxildə isə vəhşi və şeytani fikirlərə qul olmuş ermənilərdir. Ona görə də onları nə din, nə iman, nə Tanrı xofu çəkindirir. Məqsədləri ev yıxmaq, qan tökmək, məzlum erməni sifətlərilə dünyadan pul dilənməkdir. Neyləyək, yəqin bizim də bəxtimizə belə qaniçənlərlə çarpışmaq düşüb. Xatirimə yüz illik fransız-ingilis müharibəsinin tarixi düşür. İndi fransız da, ingilis də öz evində oturub və bir-birinin sərhədlərinə hörmət və ehtiramla yanaşırlar. Yəqin erməni də vəhşi xislətdən əl çəkər, ya da birdəfəlik həyat səhnəsindən silinib gedər, çünki atalar demişkən yalan ayaq tutar, yeriməz, necə ki, erməni yalanı haçansa ayaq tutub, ancaq bu gün yerimir. Bütün dünya onu düz yola qaytarmaq üçün baş sındırır. Dırnaqarası xristian qardaşlarının başını sığallayıb, cibinə pul-para basanlar da bu gün tutduğu əməllərindən peşman olublar, çünki onun-bunun yalı ilə dolanmağa vərdiş etmiş ermənilər bu dilənçi yardımların ömrünü uzatmaq istəyirlər. Əfsus, xaricdə oturmuş erməni əsilli milyonerlər elə bu pullarla varlanmış, əldə etdikləri yardımların bir qismini qana, qırğına, terrora, bir qismini isə şəxsi həyatlarına xərcləyirlər. Qafqazda yaşayan erməniləri də beşdaş kimi əllərində atıb tuturlar. Yağlanmış qarınlarının sabahını düşünə-düşünə. Bizlər isə bu mətləblərdən hali olub sabahımız naminə bu günümüzə əncam çəkməliyik, halbuki müvəqqəti dondurulmuş müharibənin atəş səsləri cəbhə xəttinə yaxın ərazilərdən hər gün eşidilməkdədir. Hələ də arasıra şəhid olmuş əsgərlərimizin meyitləri evlərinə gəlir. Bu açılan güllələrlə ermənilər bizə demək istəyir ki, biz sizinlə düşmənik, bu düşmənçiliyin kökləri heç vaxt ürəyimizdən qırılmayacaq. Biz isə xristian donuna girmiş məkrli vahanlarıq. Bizi bura şeytan atamız göndərib ki, sizinlə qan savaşına çıxaq. Qələbəni isə güclülər qazanır. EY AZƏRİ İNSANI, mən bu qələbənin gücünü özümüzdə görürəm. Tariximizi sormaqla, Vətən atəşini könlümüzə sarımaqla, dünənimizi aramaqla, bu günümüzə yarımaqla, sabahımızı qorumaqla!..

06.11.2009

“KREDO” NUN ON İLLİYİ MÜNASİBƏTİ İLƏ QƏZETİN BAŞ REDAKTORU ƏLİ RZA XƏLƏFLİYƏ AÇIQ MƏKTUB

Hörmətli Əli Rza müəllim, deyirlər ki, istedad Allahın öz sevdiyi bəndələrinə verdiyi ən böyük mükafatdır. Bu mükafat isə istedadlı bəndənin təkcə özünə yox, mənsub olduğu elə, elata, yurda, Vətənə və nəhayət, millətə layiqli töhfə olur, çünki xalq öz istedadlarıyla zirvələrin fövqünə ucalır. Başqa millətlər tərəfindən sayılıb, seçilir, varlığına, mənəviyyatına ehtiram bəslənilir. Bütövlükdə istedadın yaratdığı nə varsa dünya evinə bəxşiş olur. Bu bəxşişlərlə hələ ki, məhvərindən çıxmır dünya, haqqına tapınır, iblisi, şeytanı yamanlayır və xeyir əməllərlə ümmanlayır. Yoxsa cahanın çarxı çoxdan çevrilərdi, bizim başıbəlalı dünyamız yerlə-yeksan olardı. Müxtəlif elm sahələrində istedad parlaya bilər. Hər sahə də yaxşı əməllərə köklənirsə, deməli, həyatın inkişafına, ağlın, düşüncənin nurlaşmasına, saflaşmasına, bəndənin yaşam haqqına xidmət edir. Elə insanın böyüklüyü, ucalığı da ondadır ki, öz zəkasıyla bütün keşməkeşləri dəf edir…

İstedad hər dövrdə ağrılı bir ömür yaşayıb. Ağrısının əsas amili hər şeyi başa düşüb dərk etməyi və bu dərkin içində sıçrayışlar, çırpıntılar, büdrəmələr daha nələr, nələr… Əgər istedad söz adamı olubsa onlardan bir çoxunun fəlakəti ölçüyəgəlməz olub. Millətinin, Vətəninin tale yükünü öz çiyinlərində daşıyıb. Hər addımda laqeydliklə, təhqirlə, böhtanla, paxıllıqla, əzabla, müsibətlə, zillətlə qarşılaşıb. Bəzən ac-susuz qalıb, bəzən tərki-vətən olub, repressiyalarla üzləşib, gülləbaran olub, ancaq öz amalından, əqidəsindən, məsləyindən dönməyib. Dahi Hüseyn Cavid deyirdi ki, dünyanı mədəniyyət xilas edəcək. Xilası mədəniyyətdə görən dahilərimizin böyüklüyü mənəviyyatdan boy göstərir. Mənəviyyat pakdırsa, göylərində ulduzları parlaqdırsa, deməli, işığı mədəniyyətə bəs edəcək. Mənəviyyat bəsitdirsə, deməli, mədəniyyət də kasadlaşacaq, mütiləşəcək, bayağılaşacaq və xalqın ruhunda özünü büruzə verəcək. Mənəviyyatı bəsit olan xalq gec-tez uçuruma yuvarlanır, könül sarayında bayquşlar ulayır. Öz ömrünü tamama yetirmiş insana bənzəyir, qocalıb həyat səhnəsindən çıxır.

Əli Rza müəllim, mədəni dünya bügününü öz kitabı, elmi, qəzeti, dərgisi, bütünlükdə mətbuatı, televiziyası, kompüteri, telefonu ilə yaşadır, fəqət bu yaşamın içində ən önəmli yerdə ruhumuza köklənmiş mətbuatımız durur. Mətbuatımızın nümunələri içində dəyərilə “Kredo” qəzeti məxsusi

fərqlənir. “Kredo” qəzeti redaksiyasında gördüyüm işıq, nur, mənəviyyat ucalığı adamın könlündə həyat eşqini artırır, ilhama qol-qanad verir. İyirminci əsrin əvvəllərində dahi Cəlil Məmmədquluzadənin “Molla Nəsrəddin”i söz adamlarını ətrafına toplayıb bu dərgiylə millətə mənəvi qida verirdi. O dərgidən dahi Sabirlər boy göstərirdi, xalqının sabahına həyat günəşi olmaq üçün, millətin mənəvi yaddaşında öz qüdrətilə qalmaq üçün… Allah cənnət qanunlarını pozduqları üçün Adəm babamızla Həvva nənəmizi yerə cəza çəkməyə göndərdi. Əgər belədirsə, deməli, biz Yaradanın verdiyi böyük cəzanın daşıyıcılarıyıq. İşıq sürəti ilə ölçülsə insan ömrü saniyələrə bərabərdir. Bu saniyələr içində zaman tərəzisinə bizim günahlarımız və savablarımız yığılır. Haqq-hesab günündə hesaba alınmaq üçün, bu bambalaca yer kürəsi isə adəm övladının qazamatıdır, ancaq uca Tanrı bizə bütün canlılardan fərqli olaraq zəka əta edib. Bu zəkanı həm xeyrə, həm şərə sərf edənlər var. Xeyir şəri üstələyəndə dünya nura boyanır, düzlük zəfər çalır, şər xeyiri üstələyəndə qanlar tökülür, evlər yıxılır, mənəviyyatlar öləziyir, mədəniyyətlər dərdə düşür. Əgər ağlını, şüurunu halal əməllərə işlədən mənəviyyat adamları olmasaydı, yəqin ki, Yer Kürəsi çoxdan məhv olardı. Həqiqi ilham sahiblərinin qəlbi çox kövrək, uşaq kimi küsəyən olur. İstər təbiətdə, istərsə həyatda çəkişmələr, döyüşmələr, dəyişmələr onlara təsir edir. Onlar daima istiqanlılığa, səmimiyyətə, mehmannəvazlığa möhtacdırlar. Çox vaxt redaksiyaların qapıları ağzında ümidləri qırılan bu insanlar mənəvi ucalıqdan uçuruma doğru yuvarlanırlar. Qələmləri əllərində haray qoparır, bu harayın nalələri könül fəğanını Tanrıya aparır…

Əli Rza müəllim, sizə nə qədər maddi və mənəvi cəhətdən üzücü və ağır olsa da, “Kredo” adlı ağır bir yükün altına girmisiz. Bu yük sizin çiyinlərinizə əzab-əziyyət versə də bu məşəqqətə sinə gərirsiz. Lap “Molla Nəsrəddin” dərgisinin çəkdiyi ağrı-acıya bənzər bir ömür yaşayır sizin qəzetiniz. Buna baxmayaraq siz zəkanızın, iradənizin gücünə qatlaşaraq “Kredo” qəzetini yaşadırsız. Bu ağrılı yaşam bizim mənəviyyatımıza işıq salır. Allah bu işığı sizin könlünüzdən əskiltməsin. Sizin ilhamınız aşıb-daşır, qarşısıalınmaz sellər təki çağlayır. Biz bu qəzetdə söz adamlarının, ilham sahiblərinin könül dünyasına səyahət edirik. Onların ürək çırpıntılarını duyuruq. Güclü yazanlarla zəif yazanların çarpışması, rəngarənglik, ağır tutumlu, elmi-ədəbi yazılar qəzetin səhifələrini bəzəyir. Bu qəzetdə jurnalist olmayan özünə jurnalist, şair olmayan özünə şair, yazıçı olmayan

özünə yazıçı, publisist olmayan özünə publisist deyir. Bu qəzetdə həqiqi sənəti olmayanlarla sənəti olanlar döyüşür. "Kredo"nun qeyri-adiliyi də bundadır. Bu qəzet əsl mübarizə meydanını xatırladır. İlhamlılarla ilhamsızlar çarpışmasında həqiqi sənət əsərləri qəzetinizdə boy göstərir. Sizə Allah elə ürək verib ki, söz adamını layiq olduğundan da artıq tərifləyirsiniz. Bu da sizin böyüklüyünüzdən irəli gəlir. Sözün düzü iki il qabaq "Kredo"nun səhifələrilə tanış olarkən bu qəzetin mənəvi çəkisinə nə qədər heyrətlənmişdimsə, indi də həmin heyrətimdə qalıram.

Bizim xalqın ən böyük biganəliyi vaxtında öz istedad sahiblərinə dəyər verməməsindədir. Həmin istedad sahiblərindən biri də sizsiz. Sizin kompüterin yanında dayanıb bədii, publisist əsərlərinizi sinədən deməyiniz mənə böyük zallarda görkəmli alimlərin dediyi mühazirələri xatırladır. Amma alimlərin çoxu mühazirələri kağızdan, siz isə sinədən deyirsiz… Sizin coşqun ilhamlı söz xəzinəniz tükənmək bilməyən dəryaya bənzəyir. Dərya coşanda bulanır, sakitləşəndə durulur, amma heç zaman özünə, sözünə rahatlıq tapmır. Bu yaxınlarda "Kredo" qəzetinin on illiyi tamam oldu. On illik yubiley sükutla keçdi. Sükutun arxasında bir əzəmət görünürdü. Allah əzəmətdən endirməsin qəzetinizi! Bu on ildə "Kredo"nun xalqın mənəviyyatına xidmətləri danılmazdır. Qəzetiniz qapılarını heç kimin üzünə bağlamır, hər kəsə imkan verir ki, niyə qadir olduğunu əyani şəkildə sübut etsin. Bu qəzet imkan verir ki, "yazaram" deyən kəs könül dünyasından qəzetin səhifələrinə boylansın, istər nəzmi, istər nəsri ilə, istərsə də publisist məqalələrilə, indiki zamanda qəzetlərin, dərgilərin, baş redaktorların bol olduğu bir vaxtda hər mətbuat orqanı oxucunu təəccübləndirib onda maraq oyada bilməz. İldə beş-altı sayla çıxan qəzetlərdən oxucu hansı zövqü və məlumatı ala bilər? Və yaxud "çevir tatı, vur tatı" prinsipilə işləyən mətbu orqanı insana nəyi aşılayar? Bəli, sizin qəzet oxucuya zövq və məlumat verməyi bacardı. Maddi çətinlik girdabında boğulan "Kredo"ya çoxları dodaq büzsə də, onun ağrılı-acılı taleyinə bədxahları sevinsə də, siz bir an belə ruhdan düşmürsüz. Qəzetin çapını böyük çətinliklər bahasına davam etdirirsiz. Mən ölkənin bir vətəndaşı kimi hesab edirəm ki, bu millətə və mənəviyyata ölçüyə gəlməz xidmətdir. İnanıram ki, siz gec-tez bu xidmətinizin əvəzini ulu Tanrıdan, həm də səlahiyyəti olan tanrısevər bəndələrdən alacaqsız. Necə deyərlər, qızıl nə qədər torpaq altda qalsa da öz əvvəlki parıltısını itirmir. Vətəndə o qədər imkanlı insanlarımız var ki, Allah varlarını daha da aşdırıb-daşdırsın.

Arzu edərdim ki, "Kredo"ya, söz-sənət xiridarı olan bu qəzetə öz maddi köməkliklərini əsirgəməsinlər, çünki mənəviyyata yol da maddiyyatdan keçir. Maddi durum yaxşı olmayanda mənəviyyatda aşınmalar yaranır. Ona görə də bəzən varı olan istedadsızlar öz adlarını əbədiləşdirmək fikrinə düşür, cəfəngiyyatla dolu cild-cild kitablar buraxır, ancaq kitabları vərəqləyəndə görürsən ki, ayə içində heç zad yoxdur və o kitablara qoyulan pullara heyfin gəlir. Düşünürsən ki, bu pul-paranı mənəviyyatın çiçəklənməsinə sərf edərdi, nəinki, bu boş cəfəngiyyatlara! Nə edəsən ki, çox vaxt həyat tərzi düşüncə tərzini üstələyir və ondan da aşınmalar baş verir. Çox güman ki, hər kəs öz dəyər ölçüsünü duysaydı bu biabırçılıqlar da baş alıb getməzdi. Sığala tamarzı dəyərlərimiz ayaqlar altında itib-batmazdı. Mənəviyyatımızın bal arıları öz çiçəklənmə dövrünü yaşayarkən qoltuqlarda yatmazdı. İstedadsızların tüğyan etdiyi bir zamanda barmaqla sayılası istedad sahiblərimiz maddiyyat acıları ilə çapalamazdı. O cümlədən sizin də qəzetiniz bu acıların içindədir. Siz də, sizinlə birgə çalışan işçiləriniz də maaşsız "Kredo"ya xidmətdədirlər. Bu xidmət həm də Vətənə təmənnasız xidmətdir. İstedadlıların ürək çırpıntılarıyla köklənmiş qəzetiniz öz həyat ideyasına sadiq bir ömür yaşayır. Bu ömür həyat tufanlarının keşməkeşlərində çapalayır, vurnuxur, dahi Füzuli demişkən "gözündən qanlı axar su". "Kredo"nun araya-ərsəyə gəlməsində Elçin Kamalın, Şakir Albalıyevin, Cavahir xanım Kamilqızının, işinin cəfakeşi, bacarıqlı Həkət xanım Muradovanın, gənc Türkanın əvəzsiz xidmətlərini qeyd etməmək günah olardı. Bu zəhmətsevər insanlar can-dildən "Kredo"ya bağlanıblar. Onların fədakarlığı sayəsində bu gün qəzet mətbu ömrünü yaşamaqdadır. Qəzet sizi diləyinizcə-ürəyinizcə maddiyyat sarıdan yarıtmasa da, sizlər onun cövrünə səbir, təmkin, bir oğul dəyanəti ilə dözürsüz. Allah dözümünüzü tükətməsin, üstünüzdən səmum yelləri əsməsin, "Kredo" nun ayrılığı bizlərin və sizlərin qapısının ağzını kəsməsin, çünki o bizlərə, sizlərə, bütövlükdə ədəbiyyatımıza, mənəviyyatımıza vacibli qəzetdir. Allah vacib bildiklərini hifz etsin, o cümlədən "Kredo"nu! "Kredo" ya on yaşın mübarək deyirəm, sizə isə deyirəm, Əli Rza müəllim Tanrı o boyda mənəviyyat və zəka yükünün ağrısını daşıyan ürəyinizi qorusun, çünki siz həm mənəviyyatımıza, həm də ədəbiyyatımıza lazımlı adamsız. Təəssüflər olsun ki, lazımlı adamlarımızın qədir-qiymətini çox vaxt sağlığında verməyi bacarmırıq, çünki həqiqi sənəti olan kəslər qapıların kandarını dağıtmır, hansısa dərgilərdə, qəzetlərdə öz lövbərini salmır. İstedadsızlar xalqın

yaddaşında qalmır, istedadlılar çox zaman layiq olduğu yerə ucalmır, ancaq heç kəsin qarşısında alçalmır. Budur istedad sahibinin böyüklüyü! Allah böyüklükdən düşürməsin sizi, siz də hər zaman öz nəsrinizlə, nəzminizlə, publisist yazılarınızla, sevimli "Kredo"nuzla sevindirəsiz bizləri...

Hörmətli Əli Rza müəllim, ürəyinizi qoruyun, çünki bəşər övladının ən ali mexanizmi onun ürəyidir…

11.11.2009

MƏTBƏX DÖYÜŞLƏRİ – XALQIMIZIN BİŞ-DÜŞLƏRİ

"***Sizi deyib gəlmişəm, ey mənim müsəlman bacı və qardaşlarım…***"
Cəlil Məmmədquluzadə

Televiziya həyatımıza daxil olan gündən, demək olar ki, radionu, kino-teatrı, mütaliəni kölgədə qoyub, amma bizim gənclik dövrümüzdə televiziyanın elə də böyük imkanı yox idi. Azərbaycan televiziyasında sovet vaxtının siyasi ab-havası kəskin şəkildə vəsf olunurdu. Az bir hissəsi isə kinonu, musiqili-bədii verilişləri əhatə edirdi. Müstəqilliyimizi qazanandan sonra dünyaya hərtərəfli çıxış imkanı yarandı. Mobil telefon, kompüter, internet, radio, müasir televiziya sahəsində cövlan edən saysız-hesabsız telekanallar… Ölkəmizdə də dövlət televiziyasından başqa bir çox müstəqil telekanallar günümüzün gerçəkliklərini əks etdirməyə başladı. Müasir zəmanəmizdə insan mənəviyyatının təkmilləşməsində televiziya öncül rol oynamaqdadır. Hər kəs evində otura-otura dünyanın hər yerindən xəbər tutmaq, ömründə eşitmədiyi və üzünü görmədiyi adam haqqında məlumatlanmaq və onu seyr etmək şərəfinə nail olur. Televiziya bir həftənin içində alim olmayanı alim, şair olmayanı şair, müğənni olmayanı müğənni etmək qüdrətinə malikdir və yaxud əksinə. Ona görə televiziyanın həyatımızda oynadığı rol heç nəylə ölçülmür və bu rol danılmazdır. O, insanın ruhunun və mənəviyyatının təkmilləşməsində əvəzolunmaz bir vasitəyə çevrilib. Əslində saatlarla ekran qarşısında oturub ona aludə olmaq insanın psixi durumunda qarşısıalınmaz çətinliklər yaradır. Beyin yorulur, insan özünü halsız və xəstəhal hiss edir. Heç bir işin qulpundan yapışmaq istəmir, hətta adamda baş ağrıları, ürək sıxıntıları, mənəvi yorğunluq yaradır.

Ümumiyyətlə, heç nəyə həddindən çox aludə olmaq lazım deyil. Hər şey qədərincə olanda insana gözlənilməz problemlər yaratmır. Televiziyanın reklam gücü o qədər geniş və əhatəlidir ki, o, insanları asanlıqla öz təsiri altına sala bilir. İradəsi zəif adamlar isə bu təsir gücündən heç çıxa da bilmir. Kompüter, əgər müasir zəmanənin əvəzolunmaz, heyrətedici kəşfi sayılsa da, ancaq o da kütləvilik baxımından televiziyanın yerini vermir. Televiziya məişətimizə daxil olandan, hətta radionu, mütaliəni kölgədə qoydu. Bütün bunlara rəğmən ekran aludəçilərinin sayı milyonlarladır. Müstəqilliyimizi qazanmaq bizə qürur, əvəzolunmaz səadət bəxş edib. Keçmiş quruluş, sovet qayda-qanunları iflasa uğradı, sanki dəhşətli bir sel oldu, bu sel özüylə qabağına nə çıxdısa hər şeyi götürüb gəldi. Həyatımızın hər sahəsində xoşagəlməz hallar baş versə də inkişaf da duyulmaqdadır. Bu xoşagəlməz hallar elə həyatımızın güzgüsü olan telekanallarda da tüğyan edir. Bütün günü əttökən şou layihələr adamın əməlli-başlı zəhləsini aparır. Özəl telekanallarda biz daha nələrlə üzləşmirik? Reklam xatirinə dəyərsiz, mənəviyyatımızı aşağılayan verilişlərin, falçıların, baxıcıların, serialların, aşağı səviyyəli insanların ailədaxili problemlərinin ekran nümayişi, oxuya bilməyən müğənnilərin, şeirdən, şeriyyətdən başı çıxmayan dırnaqarası şairlərin, bir sözlə, çulğalanan meyxanaçıların özəl kanallarda at oynatması adamda vallah, billah ikrah hissi oyadır. Düşünürsən o boyda Müslüm Maqomayev, Bülbül, Rəşid Behbudov, Şövkət Ələkbərova, Sara Qədimova, Rübabə Muradova, səsinin sədası hələ də qulaqlarımızda qalmış Akif İslamzadə, Zeynəb Xanlarova kimi musiqi nəhəngləri yetirmiş bu ölkə, bu xalq niyə birdən-birə belə kasadlaşıb? Səhərdən axşama, axşamdan səhərə qədər oxuya bilməyənlər, necə deyərlər, istedadı olmayanlar telekanallarda lövbər salıb. Az qalıb ki, bütün millət müğənni, şair, yazıçı və jurnalist olsun. Kimi əlinə mikrofon, kimi isə əlinə qələm-kağız götürüb Azərbaycan insanının, Azərbaycan gəncinin mənəviyyatını korlamaqla məşğuldur.

Telekanallarda baş alıb gedən yemək-içmək şoularının üstündə isə məxsusi dayanmaq istərdim. Bu mətbəx döyüşləri bütünlükdə özəl telekanalların bir çoxunu işğal edib. Adama elə gəlir ki, bu ölkədə insanın yemək-içməkdən başqa dərdi-səri yoxdur. Əməlli-başlı tele-kanallarda mətbəx döyüşləri gedir. Cürbəcür təamlarla dolu süfrələr adama şadlıq evlərindəki hay-küyü, qulaq batıran mənzərəni xatırladır. Bərbəzəkli mənzillər, bahalı qab-qaşıqla bəzədilmiş və əhalinin ac təbəqəsinin çoxdan üzünə həsrət qaldığı yemək-içmək yarışması televiziyadan bu

bədbəxt, bəxti kəm insanlara acıq verir. Guya onlar ərə getməyə hazırlaşan qızlarımıza xörək bişirmək, süfrə açmaq, bir sözlə, evdarlıq dərsi keçirlər... Xalqımızın elə adət-ənənələri var ki, dünya durduqca öz keyfiyyət və kəmiyyətini itirməyəcək. Ruhumuzun qida mənbəyidir. Elə biş-düşümüz, yəni süfrəylə bağlı nemətlərimiz də bu qida mənbəyinə daxildir. Adətimizə görə, bişən xörəyin iyi ətrafa yayılıbsa, mütləq ondan yaxın qonum-qonşuya daddırardılar, əks halda bu günah sayılardı. Əgər buna maddi imkan yoxdursa onu aləmə faş etməzdilər. Sakitcə səhər yeməyi, nahar, şam edərdilər və yemək mərasimi pünhan bir iş sayılardı, amma bu gün tele-kanallarda mətbəx döyüşləri, yemək prosesinin şouya çevrilməsi, yemək zamanı bayağı didişmələr, çəkişmələr, qulaqbatırıcı yüngül gülüşlər, hətta yeməyin içindən çıxan tükü tamaşaçının gözünə soxmaq, göz yaşları, küsüb yemək süfrəsini tərk etmək və bir çox buna bənzər hallar ikrah doğurur. Görəsən, bu layihələrlə özlərinin "istedadını" tamaşaçı qarşısında nümayiş etdirənlər bilmirmi ki, süfrədə reklam olunan o təamların çoxunun üzünə adamlarımızın bəziləri həsrətdirlər. Yalnız bəlkə yatanda yuxuda görürlər. Axı heç işləməyən və yaxud az təminatlı ailələr var ki, aylarla ət, balıq, toyuq üzünə həsrətdirlər. Evində soğan suyu bişəndə sevinirlər. Bizim dırnaqarası istedadlı tele-aparıcılarımız isə mətbəx şoularını kanallara çıxarmağı böyük kəşf sayır. Necə deyərlər, kasıb təbəqənin ağzının suyunu axıtmağı özlərinin məqsədi seçirlər. Allah bərəkətinə bu cür yüngül münasibət bəsləmək nədən xəbər verir: mənəviyyatdan və ya mənəviyyatsızlıqdan?! Bu mətbəx döyüşləri bizə nəyi aşılayır? Bəla burasındadır ki, adına "yarışma" deyilən bu üzdəniraq şoulara şəxsiyyətlərinə hörmət, izzət bəslədiyimiz əsl sənət adamları da qatılır. Axı biz başa düşə bilmirik, evinin içini, əşyalarını, yemək-içməyini camaata reklam edənlər nə məqsəd güdürlər? Bununla gündəmdəmi qalmaq istəyirlər? Belə gündəmdəmi qalarlar? Onlar bilmirlərmi ki, xalqın gözündə kiçilirlər, özlərini gözdən, nəzərdən salırlar, adiləşirlər. Bizə onların sənəti və yaxud ev-eşiyi, zinət əşyaları, biş-düşümü lazımdır? Axı sənət olan yerdə bütün bunlara nə hacət?.. Biz bu kimi dərdlərimizin bir parasını qələmə aldıq, amanı ürək yaxır, Allah yamanından saxlasın… Amin!

15.11.2009

VİCDANDAN MÜKAFAT ALAN ŞAİR

Ömür elə çağlar çeşmədir ki, onun sızıltıları zaman dolayları içində itib batır. Bu sızıltıların ağrı-acısını ağılla dərk edib qəlblə anlayanlar isə birbaşa sənətlə bağlı insanlardır. Onlar sənətin hansı sahəsində olurlarsa olsun, bir an belə həyatları boyu rahatlıq tapmırlar. Ömürləri uzunu çalışırlar, çarpışırlar, bu həyatla vidalaşana qədər, Haqqın onlara göndərdiyi ömür rübabının simlərinin son şərqisi susana qədər… Söz adamları isə zaman çeşməsindən doğan şırıltıların ürəklərində şırımlar açmış qullarıdır. Onlar mənsub olduğu xalqın, millətin kağız üzərindən Rəbbinə ismarlanmış danışan dilidir! Bu dil susanda millət ölür, başqa millətlərin içərisində əriyib itir, yoxluğa düçar olur, çünki millətin, xalqın dili onun yazarından, şairindən öc alır və kitablar içində vərəq-vərəq səhifələnir, gələcək nəsillərin tarix yaddaşına ötürülmək üçün… Əgər yazarın ilhamı, düşüncəsi millilikdən öc alarsa, daha mükəmməl, daha kamil olur və millətin varlığını bir dəvə karvanı kimi min illərə çəkib aparır. Bu dəvə karvanının sarvanı isə şairlər, yazıçılar, elm adamlarıdır. Tarix boyu çox şahlar, çox sultanlar hökmranlıq etdi, varidat yığdı, qalalar, saraylar yapdı, fəqət nə yığdıqları varidat, nə də tikdikləri qalalar, saraylar söz qədər əbədi ömür qazana bilmədi, çünki millətin kimliyi onun söz ilə, fırçayla, musiqisilə yaratdığı ədəbi, bədii dəyərlərdən keçir. Hərçənd ki, sənət adamının dəyəri çox vaxt zamanında verilmir, o öz qələmindən və vicdanından mükafat ala-ala yazır, yaradır. Ətrafındakılar isə bu mənəviyyat ölçüsünün dəyərini nəinki qiymətləndirir, hətta ona çox vaxt qəhqəhə çəkib gülür… Bu gülüşlər nə qədər acı, nə qədər rəzalət doğurucu olsa da səslənir, göyün-yerin bağrında yaralar açan qəfil qopan tufanlar təki…

Elə yaxın keçmişimizdə, keçən əsrin əvvəllərində dahi Sabirin başına gətirilmiş müsibətlər bu qəbildəndir. Böyük neft şəhəri – milyonerlər yetirmiş Bakıda bir nəfər sözə qiymət verən tapılmadı ki, dahi şair sağlığında öz kitabının çapını görsün… Ona görə tapılmadı ki, Mirzə Ələkbər Sabir sözün düzünü yazırdı, nə qədər acı olsa da qəflət və cəhalət yuxusunda yatmış millətinə şəfa diləmək istəyirdi. Tiyanda sabun bişirib övladlarına çörək pulu qazanan şairin ciyəri bu müsibətlərə dözmədi, özü demişkən "şişdi üzü qarə ciyəri", hətta doğma Şamaxısından didərgin düşüb Bakının Balaxanı kəndinə sığındı… Səhv etmirəmsə, təbib və şair Abbas Səhhət dahi Sabiri "öz vicdanından mükafat alan şair" adlandırırdı…

Əli Rza müəllim, qoy mübaliğə kimi səslənməsin, mən sizi də "öz vicdanından mükafat alan" tədqiqatçı alim, şair adlandırıram. Əgər mənim imkanım çatsaydı "Kredo"ya maddi dəstək olardım. Heyif ki, bu imkanım xaricindədir, amma vaxtaşırı mənəvi dəstək olmağı özümə borc bilirəm. Açığı etiraf edim ki, heç "Kredo"dan başqa açmağa qapım da yoxdu, çünki "Kredo" kimi dəyərli ədəbi mənbə istər-istəməz söz adamını bir maqnit kimi özünə çəkir. Bu maqnitin cazibəsindən isə həqiqi dəyərə, ilhama bağlılar çıxa bilmir. Sizin mənim sənətimlə bağlı yazdığınız "Adı Şadiman olan…" (2009-cu il) kitabınız tam mənasıyla ömrünü yaradıcılığa həsr eləmiş bir yazarın həyat dastanıdır. Siz bu araşdırmanızla mənim aşıb daşan könlümə daha da qol qanad verdiniz. Mən bu kitabı bu vaxta qədər çap üzü görmüş kitablarımın pasportu adlandırardım. Siz bu pasportla mənim kimliyimi təsdiq etdiniz. Bu kitabda siz uşaqlıq illərindən xəyalımda unudulmaz izlər qoymuş doğulduğum kəndim Tağayla bağlı "Tağayım" poemasına xüsusi önəm vermisiniz. Siz bir bənna dəqiqliyilə əsərdə bəhs edən mövzu rəngarəngliyini tutmuş, təbii hisslərlə bədii və tənqidi təhlilin süzgəcindən keçirmisiniz. Əsərdə adıçəkilən tarixi qala olan Çıraqqala ilə bağlı düşüncələriniz təqdirəlayiqdir, çünki əsrlərdən xəbər verən bu qədim tarixi abidə hazırda yox olmaq təhlükəsilə üzbəüzdür. Tarixi abidələrimizin bir çoxu erməni talan və vəhşiliklərinin, bir çoxu isə öz biganəliyimizin, laqeydliyimizin qurbanı olub və olur. Yenilərini tikib qurmaq lazımdır, amma keçmişini göz bəbəyi kimi qorumaq şərti ilə! Yavaş-yavaş İçərişəhər də öz qədimliyini itirmək təhlükəsilə üz-üzə qalıb. İndi Bakıda tarixi keçmişimizdən soraq verən divarları qaralmış binaları ağartmaqla məşğuldurlar. Mən Azərbaycandan çıxıb heç bir xarici ölkədə olmamışam, amma xarici ölkələrin həyatıyla bağlı verilişləri izləməyi xoşlayıram. Rusiya telekanallarında tez-tez belə verilişlər verirlər. Adətən şəhərlərdə qədim binaları göstərəndə bu binaların divarları ağ yox, qara olur. Bizdə əksinə, ağardırlar ki, keçmişimizdən əsər-əlamət qalmasın. Bir vaxtlar tramvaylar, trolleybuslar öz görkəmləri ilə paytaxta xüsusi yaraşıq verirdi. Həm də ekologiya baxımından da sağlamlığımıza köməkdarlıq edirdi. İndi onların kökünü Bakıdan elə kəsdilər ki, izi-tozu da qalmadı. Sonra da düşdülər Bakıətrafı elektrik qatarlarının üstünə, onları da, demək olar ki, ləğv ediblər. Bacardı-bacarmadı, hərə bir şəxsi minik avtomobili alıb düşüb şəhərin canına! Əksəriyyəti də köhnə! İndi yazıq Bakımızda əməlli-başlı oksigen azlığı yaranıb. Bir tərəfdən planlı-plansız bir-birinə

yapışan yüksək mərtəbəli binalar, o biri tərəfdən də havaya tonlarla karbon buraxan çirkli maşınlar… Digər tərəfdən sürücülük vəsiqəsini cibinə qoyub sürücülük haqqında təsəvvürü olmayan başıpozuq sürücülər. Axır vaxtlar Bakı küləkləri də bu ərazini tərk etməyə başlayıb. Küləksiz buludlu havalar paytaxtı cənginə alıb. Küləksiz Bakı oksigensiz səyyarə olar, həyat burda dayanar. İyirmi iki il geofizikada mühəndis işlədiyimə yerin təki haqqında məlumata malikəm. İstismarını başa vurmuş Bakı mədənlərində salınan qəsəbələri görəndə məni dəhşət bürüyür. Neft mütəxəssisləri yaxşı bilirlər ki, mədənlərdə qazılmış hər bir neft quyusu bugün istismar olunmasa da, hər an o quyularda qaz yığılması ilə əlaqədar partlayış və ya neft fontanı ola bilər. Dənizdən fərqli olaraq quruda qazılmış neft quyuları dayaz idi. Adətən aşağı qatlarda qatı neft layları yerləşdiyi üçün dərinlikləri istismar etmək mümkün olmurdu. Mən öz gözlərimlə şahidi olmuşam ki, dənizdə iyirmi-otuz il qabaq istismarı bitmiş bir quyu yenidən özbaşına işə düşüb on-on beş metr hündürlüyə fontan vurub. Və yaxud yüksək tutumlu elektrik xətlərinin altında tikilən evlər, adam baxanda vahimələnir. Yüksək tutumlu elektrik xətlərindən gələn dalğalar o evlərin sakinlərini hansı xəstəliklərə düçar etməz? Belə ərazilərdə qəsəbələr yox, meşə zolaqları salmaq lazım idi. Görəsən, o torpaqları insanlara satan can alverçiləri o yerlərdə tikilən tikililərin gələcəkdə hansı fəsadlar törədə biləcəyinin fərqindədirlərmi?! İndi görün bizim yaşam haqqımız hansı keçilməz qalalara sipərdir? Bu baxımdan insanlarımızın məlumatsızlığı, savadsızlığı da adamın ürəyini ağrıdır. Deyəsən bizim insanlarımızın ən qatı düşməni kitabdır, mətbuatdır. Belə olmasaydı bu barədə az da olsa məlumatları olardı, təhlükəli yerlərdə yaşayış evləri salmazdılar. Özü də salınan evlər hərəsi bir istiqamətə baxır. Mən bir dəfə bir xarici vətəndaşın dilindən eşitmişəm ki, sizə təkcə ermənilər yox, siz öz-özünüzə də düşmənsiz, belə olmasaydı salınan qəsəbələrdə evləriniz hamısı bir istiqamətə baxardı, bir-birinin əksinə yox! Mənə elə gəlir ki, Avropa insanı heç vaxt belə addım atmazdı, çünki onlar bizdən çox-çox məlumatlıdırlar. Yeri gəlmişkən bu dərdləri sizə söyləməklə mətləbdən uzaq düşmək istəmirəm. Qayıdaq tarixi abidələrə…

Tarixi abidələr millətin qədimliyini təsdiq edən əsas amillərdən biridir. “Tağayım” poemasında bir misrada adını çəkdiyim Çıraqqalanın məsud, məlul görkəmindən yana-yana yazmağınız bir söz adamının keçmişinə olan sonsuz sevgi və məhəbbət hissinin mücəssəməsidir. Vətən sevgisi övlad, ata, ana, yar, insan gözünü qamaşdıran var-dövlət sevgisindən

üstün olanda o millət, o millətin tarixi, mədəni, ədəbi dəyərləri, bütünlüklə mənəviyyatı yaşam haqqı qazanır, əlbəttə ki, doğulduğu yurdu ilə bir yerdə! Sizin "Adı Şadiman olan…" əsərinizdə Vətənə olan sevginizi bariz şəkildə duydum və dərk elədim Allah bu sevgini söz adamının əlindən almasın, o cümlədən sizin… Siz mənim başı bəlalı, sinəsi yaralı Qarabağla bağlı şeir və poemalarım barədə önəmli təhlillər verirsiz.

Bir çoxları mənə sual verir ki, sən nə Qarabağda, nə də Qərbi Azərbaycanda doğuldun, o yerləri tanımadın, bəs necə olub ki, o torpaqlara bu qədər poemalar, şeirlər həsr etdin? Bəs bu yanğı səndə necə yarandı ki, sən belə çalxalanıb "Xocalı Soyqırımı" poemasını, "Kahada ölüm hökmü" dramını yazdın? Axı sən nə müharibənin dəhşətlərini gördün, nə o yerlərin sakini oldun, bəs necə yarandı bu yazdıqların?! Təəssüflə qeyd etməliyəm ki, bu sualları mənə sənətdə olan şair və yazıçılar ünvanlayıb. Mənə elə gəlir ki, şairə, yazıçıya, müharibədə olmaq, o torpaqlarda doğulmaq yox, Allahın verdiyi coşqun ilham və vətəndaşlıq yanğısı lazımdır. Bu iki duyğu birləşəndə xariqələr yaratmaq olar. Necə ki, bu səpkidə yazanlarımızın atəşi onların yazdıqlarından duyulmaqdadır. Əli Rza müəllim, siz "Adı Şadiman olan…" kitabınızda "Canım Qarabağ" şerimə elə təhlil verdiz ki, elə fikir və əql süzgəcindən keçirtdiniz ki, adam heyrətlənməyə bilmir. Şerimizin mürəkkəb janrı sayılan qəzəllərimə verdiyiniz təhlil, tənqidi düşüncələriniz təqdirəlayiqdir. Ustad sənətkarımız Ənvər Nəzərli ilə bağlı yazdığım məqaləm barədə fikir meyarınız sənətə və sənətkara verdiyiniz insani qiymətinizlə uzlaşır. "Adı Şadiman olan..." kitabınız "Kredo"nun səhifələrində bir ilə yaxın çap olundu, bu bir çoxlarını, xüsusilə özlərini dahi sayıb mənim yazdıqlarımı cəfəngiyyat adlandıranları çox qıcıqlandırdı, hətta mənim üzümə tərs şillə kimi söz ilə vurdular bu qınaqları… Allahın verdiyi ilhamı vərəqlər üstünə tökməyə nə var ki, ağzıgöyçəklərin dillərindən qopub ürək yaralayan xətaları olmaya… Bu xətalar zaman-zaman söz adamının yolunda qayalardan qopan nəhəng daşlar kimi dığırlanıb, onu keçilməzləri aşıb keçməyə məcbur edib, bəlkə elə nə yaxşı ki, ağzıgöyçəklər var, yoxsa nə yanğı olardı, nə də yanğı ilə aşıb-daşan ilham…

Hörmətli, Əli Rza müəllim, sizə minnətdarlıq hissilə bildirmək istəyirəm ki, siz yenidən heç bir təmənna ummadan mənim yaradıcılığıma müraciət etmisiniz. Qərbi azəri türklərinin həyatından bəhs edən "Burdan bir atlı keçdi "poemamı təhlil etmək qərarına gəldiniz. Mən poemanı necə

heyrətlər içində duyğulanıb qələmə almışdımsa, siz də Vətənə olan sevgi və məhəbbət hissilə onu təhlil və tənqid etdiniz. Bu poema sizi vəcdə gətirdi və siz ondan "Axtala əfsanəsi" adlı kitab hasil etdiniz. Hörmətli həmkarım, şair, yazıçı olmaq üçün nə bizə xarici adlar, nə də xarici məkanlar lazımdır, çünki bizim özümüzdə o qədər yazılası və tarixin yaddaşına köçürüləsi mövzular var ki, nəinki bizim özümüzü, hətta yazılıb tərcümə olunsa dünya xalqlarını vəcdəyə gətirər. Siz poemayla tanış olandan sonra heyrətləndiniz və poemanı təhlil etmək barədə öz istəyinizi mənə bildirdiniz. Açığını deyim ki, heç vaxt öz yazdıqlarıma aludə olmamışam və onlardan gəlir mənbəyi kimi istifadə etməmişəm, bu sənətə də peşə kimi baxmamışam, amma yazmaq eşqi bir an məni tərk etməyib, nə orta məktəbdə, nə ali məktəbdə, nə də sənətimə yad olan geofizikada mühəndis işlədiyim zamanlarda. Mən tamamilə yaradıcılıqda azad olmuşam və heç zaman onun ətəyindən asılıb qalmamışam. Sizin ikinci dəfə mənim yaradıcılığıma müraciət etmək istəyiniz məni sonsuz dərəcədə duyğulandırdı. Allahıma şükürlər etdim ki, nə yaxşı siz varsız, "Kredo" var. Mənim kimi sayılmayanların, diqqətdən kənarda qalanların ümid yerinə, dayaq qalasına çevrildiniz. Allah sizi kimi qeyrətli kişilərimizi nəzər-diqqətində saxlasın, həmişə ilhamla olasız. İlhamınız sizi bir an belə tərk etməsin.

İndi sizə və istəkli oxucularıma Sizin könlünüzü ehtizaza gətirən "Burdan bir atlı keçdi" poemasının yaranması səbəblərini açıqlamaq istəyirəm. Mən 1985-ci ildən "Neft Daşları"nda Geofizika idarəsində mühəndis peşəsində çalışırdım (Baxmayaraq Bakı Universitetinin humanitar fakültəsini bitirmişdim, bu peşəni təcrübəylə əxz etmişdim). Bir gün bizim idarəyə Məmməd adlı bir mühəndis gəldi. O, əslən qərbi Azərbaycandan idi. Yəni indiki Ermənistan dediyimiz dövlətin vətəndaşlarından biri idi. 1988-ci il hadisələrindən sonra onun da əhli-əyalı ordan köç edib, yəni əzəli vətən torpaqlarını tərk etmək məcburiyyətində qalıb. O, Axtala adlı yurdunda qoyub gəldiyi təzəcə tikdiyi evindən, atasının iki qatlı imarətindən, buz bulaqlardan, yaylaqlardan, meşələrdən yana-yana mənə nəql edirdi, həmişə deyirdi ki, biz yiyəsiz olduq, əzəli vətənimizi yağıya ərməğan etdik. O deyirdi ki, Mən Neft Akademiyasını bitirib öz kəndimə qayıtmışdım. Oradakı filiz yataqlarında işləmək fikrində idim, evi yıxılmışlar təzə tikdiyim evimdə qoymadılar bir gün də yaşayım, heç evin divarlarının suvaqları qurumamışdı, əfsus ki, erməni xainlərinə qismət oldu. O mənim 1991-ci ildə işıq üzü görmüş "Ürək, niyə ağrıyırsan?" kitabımla tanış idi. Mən

həmişə iş bitdikdən sonra öz yaradıcılığımla məşğul olurdum, könlümü titrədən, məni riqqətə gətirən duyğuları kağızlar üstünə tökürdüm. Bir gün o, ata-babası Vəliyev Qasım Hüseyn oğlu barədə məni hədsiz dərəcədə həyəcanlandırıb heyrətə salmış və əlimə qələm alıb poema yazmağa məcbur etmiş bir hadisəni nəql etdi. O özü də gözləmirdi ki, bu sonradan hansısa bir poemanın mövzusuna çevrilə bilər. O dedi ki, siz bizi qorxaq saymayın, biz hamımız ordan çıxıb qaçdıq, biz qorxaq deyilik, biz Ermənistanın vətəndaşı idik, əlimizdə nə top var idi, nə tüfəng. Əslinə baxsan ermənilər özləri də rusun və xarici havadarlarının çaldığı ilə oynayan, iki yüz ildi beyinləri zəhərlənmiş bədbəxtlərdir. Heç vaxt onların nə tarixi vətəni, nə tarixi torpağı olub. Sadəcə olaraq, ruslar türk millətinə qarşı onları sipər kimi işlədib və bu gün də onlar bu tələnin içindədir. Vallah hesab aparılsa indi orda heç bir milyon erməni yoxdur, çünki hadisələr başlayanda bu oyundan qaçan ermənilər də evlərini dəyər-dəyməzinə satıb oranı tərk edirdilər. Bu torpaq heç zaman onların tarixi vətəni olmayıb. Dünyanın harasına baxsan orda erməni taparsan, əslən onlar qaraçı qövmüdür. Bu gün alban əlifbasını, alban dinini mənimsəmiş ermənilərin kimliyini özlərindən başqa bilən yoxdu. Onlar daima bizim qapı-bacamızda işləyərdi. Hadisələr başlayanda bizim kəndimizə də haradansa saqqallılar axışmağa başladılar. Yerli ermənilər özləri də onları tanımırdılar. Biz oradan köç edib çıxanda yetmiş beş yaşlı babam da güclə, zorla yığışdı, heç çıxmaq istəmirdi yurdundan… Evindən heç nə götürməmiş kəndi tərk etdi. Altı ay idi bizi Xızıya yerləşdirmişdilər. O vaxt bizimkilər Qarabağda məskunlaşmaq istəyirdi, amma o zamankı hakimiyyət, kürsü düşkünləri buna icazə vermədi. Çox təəssüf, biz həmişə etdiyimiz səhvlərə görə sonradan başımıza döyürük, onda da gec olur. O zaman da belə oldu. Amma köç gələndən altı ay sonra babam Novruzqabağı qarısı Tükəzban nənəmi götürüb Axtalaya, düşmən içinə qayıtdı. Düz altı ay düşmən içində qaldı, hətta məktəb yaşlı əmim oğlunu da özüylə bərabər aparmışdı. Orda qaldığı müddətdə bostan əkdi, mer-meyvə yığdı. Saqqallılar azğınlaşanda babamın tanışlarından biri yerli erməni onu köçü ilə birlikdə sərhəddən Gürcüstan tərəfə yola salmışdı. O, Xızıya qayıtdıqdan sonra xərçəng xəstəliyindən dünyasını dəyişdi. Bu ağır xəstəliyə tutulmağının səbəbi onun yurd həsrəti idi. İş yoldaşımın babası haqqında söylədiyi həm ürək parçalayan, həm insan mənliyini, ləyaqətini riqqətə gətirən acı hekayət mənim könlümdə fırtınalar yaratdı. Mən qərbi azərbaycanlı Məmməd qardaşımdan yaşadıqları yer-yurd adlarını

birər-birər soruşub kağıza yazdım, sonra bir günün içində o ər oğlu, el arasında Köndüoğlu ayaması ilə tanınmış Axtalalı Qasım kişinin şərəfinə "Burdan bir atlı keçdi" poemasını yazdım. Poema hasil olanda Məmməd heyrətdə qalmışdı, dedi ki, o qədər təsirli çıxıb ki, elə bil sən də o torpaqlarda doğulmusan. Bəlkə sənin də əslin oralara gedib çıxır, bu qədər yanğı ilə yazdın bu əsəri. Dedim yox, qardaş, mənim əsil-köküm Bakının yüz on kilometrliyində şimal hissədə yerləşən Siyəzəndəndir. Vətən eşqi olan yerdə nə tayfa, nə bölgə?! Bizim bir Vətənimiz var, o da başıbəlalı Azərbaycandır, onun nə şimalı, nə şərqi, nə qərbi, nə cənubu?! Təki içində Vətən eşqi, millət təəssübkeşliyi olsun, bir də yeri-göyü titrədən ilham olsun, amma çox təəssüflər olsun ki, mən bu poemanı onun ölümündən sonra qələmə almışam, çünki Məmməd bizim idarəyə gələndə artıq babası Köndüoğlü Qasım kişi dünyasını dəyişmişdi. Mən Köndüoğlunun mərdliyindən, cəsurluğundan qürurlandım, bu gün də o ər kişinin ruhu qarşısında baş əyirəm! Altı ay düşmən dövlətin içinə gedəsən və bu günlər ərzində yağı əhatəsində yaşayasan, bəs bu kişinin qurd ürəyinə necə vurulmayasan?! İnanıram ki, əldən çıxmış Vətən torpaqları gec-tez öz doğma sakinlərinin ixtiyarına veriləcək. Atalar demişkən "haqq nazilər, üzülməz". Mən də bu bağlılıqların üzülməyəcəyinə əminəm, bu gün biz yaşlı insanlar bunu görməsək də, gələcək nəsillər bunun şahidi olacaq.

Əli Rza müəllim, özünüzün dilə gətirdiyi kimi mən "Burdan bir atlı keçdi" sizin "Axtala əfsanəsi" adlandırdığınız poemamı yanğı ilə qələmə aldım. Siz də elə həmən yanğı və ilhamla, bir zərgər dəqiqliyi ilə, yüksək sənətkarlıqla onu təhlil etdiniz. Bu sənətkarlıq önündə adam həyəcanlanmaya bilmir. Allahıma şükürlər edirəm ki, yaradıcılığım sizin diqqətinizi cəlb etdi, çünki siz təhlil etdiyiniz hər bir əsərə, mübaliğəsiz deyərdim ki, ikili ömür bəxş edirsiniz, sanki oxucuları biganəlikdən ayılmağa səsləyirsiz. Bu gün bizim torpağımızın yaralarından qan sızır, amma biz efirimizdə səhərdən axşamadək bayağı, boğazdan yuxarı kəlmələrin, adamda ikrah hissi doğuran şit-şit verilişlərin şahidi oluruq. Elə bil ki, bu ölkənin torpaqları işğal altında deyil, ekranda dəyərli, insanı hünərə, vətənpərvərliyə səsləyən proqramlar yox dərəcəsindədir. Biz bunu nə şəhər küçələrində asılan reklamlarda, nə də adamlarımızın çöhrəsində hiss etmirik. Ölkəmizə təşrif buyuran xarici qonaqlar da yəqin ki, bu milləti iyirmi faiz torpağı işğal altında olan xalqa bənzətməz. Ekranımızı, efirimizi

müğənnilər işğal edib, çoxunun da səsinə yox, ancaq geyiminə tamaşa etməli olursan, çünki səs əvəzinə paltar nümayiş etdirirlər.

Müharibə mövzusundan söz düşmüşkən, onu da sizin nəzər-diqqətinizə çatdırmaq istəyirəm ki, kifayət qədər tanınmış, ad almış şair və yazıçılardan həm efir vasitəsilə, həm də təqdimat yığıncaqlarında təmasda olarkən eşitmişəm ki, bu mövzuda qan-qırğın gedən zamanı yazmaq olmaz. İyirmi il, otuz il keçər sonra bu hadisələr qələmə alınar, yoxsa bir çox yanlışlıqlar ola bilər. Xalqımızın bir atalar məsəlində deyilir: "Dəmiri isti-isti döyərlər". Fikrimizcə, yaradıcı adamlar hadisələri isti-isti qələmə almalıdırlar, çünki biz işğala məruz qalmış xalqıq, işğal etmiş yox! On ildən, iyirmi ildən sonra isə qoy alimlər, tənqidçilər təhlil etsinlər. İstəkli oxucular, bir məsələni də sizin diqqətinizə yönəltmək istəyirəm ki, yaratdığım surətlər bizimlə eyni zaman kəsiyində yaşayan insanlar olub, bir çoxu dünyasını dəyişib haqq dünyasına qovuşub, bir çoxu isə Allah verən ömrü yaşayır.

Siz isə, Əli Rza müəllim, yenidən mənim yaradıcılığıma müraciət etməklə, əsir torpaqlarımızdan bəhs edən "Burdan bir atlı keçdi" poemasına qayıtmaqla, bu əsərdən "Axtala əfsanəsi" adlı ədəbi, tənqidi kitab yazmaqla bir daha o ər kişinin ruhunu şad etmiş oldunuz. Əhsən, sizin alim təxəyyülünüzə, vətəndaşlıq qeyrətinizə!.. Nə yaxşı ki, Köndüoğlu kimi ər kişilərimiz, sizin təki istedadlı söz fədailərimiz var. Deməli, Vətən yaşayacaq, millət yaşayacaq. Bu yaşam içindən boylanan fidan körpələrimizin canı sağ olsun, onlar sabah qüdrətli Azərbaycanımızın qeyrətli igidləri olacaqlar. İgidləri olan Vətənsə basılmaz, övladları özgə künclərinə qısılmaz.

Sizə isə deyirəm, ey qələm əhli, ey özünü şair, yazıçı timsalında görən soydaşlar, yazıb-yaratmaq üçün millətdən qaçıb gizlənib kabinetlərə yar olmaq yox, xalqın içinə getmək, onun hal-əhvalını sormaq, onunla təmasda olmaq vacibdir. Nə avropasayağı yazmaq, nə də əcnəbi adlar işlətmək lazımdır, dünyəvi şair və yazıçı olmaq istəyirsizsə, elə bu Vətəndən, bu millətdən onun şirin, həzin diliylə ilhamını cilalaya-cilalaya dərdlərini vərəq-vərəq kitablara köçürt, onda həm öz məmləkətinin, həm də dünyanın yaddaşında qalarsan…

11.04.2010

HECA – ALLAHA RİCA…

(*Bir jurnalda heca haqqında deyilən qərəzli fikri oxuyandan sonra ürəyim ağrıdı və bu məqaləni yazmağa məcbur oldum*)

Söz insan zəkasında, qanında-canında özünə yuva qurmuş ikinci varlıqdır. Söz əlahiddə vergidir, onun dairəsi genişdir. Söz ruha qida, dilə sevda edən gözəgörünməz bir qüvvədir. Bu qüvvənin əli birbaşa Böyük Yaradanın ətəyindədir. O, insanlar arasında bir vasitə olmaqdan əlavə, həm də ilham mənbəyidir, bulağı min illər gözündən qaynayan büllur çeşmədir. Bu çeşmənin suyu nə qədər insan cəmiyyətləri var, onların ürəyinə şərbət kimi səpiləcək, ruhlarını ovutmaq, dərd-bəlalarını dağıtmaq, varlıqlarını Haqq-taalanın önündə sübuta yetirmək üçün… Sözdən qaynaqlanır bəşərin gözü, sözlə gülür min illər üzü. İlhamı olanlar milliyyətindən asılı olmayaraq sözlə ruhunu ovudur, ürəyinin ağrılarını sovudur. Millətinin kimliyini aşkar edir, varlığını öz tarixinə, ədəbiyyatına köçürür. Əgər o millətin, o xalqın sözü bitibsə, deməli, varlığı da axır günlərini yaşayır. Deməli, sonu çatıb. Hələ qədim zamanlardan insanın varlığı, onun kimliyi daş kitabələrdə, qayalarda, sal daşların üstündə çəkdiyi şəkillərlə, sonralar isə sözlə yazıya alınırdı. Məhz sözün anası, gülüzlü sonası isə ŞEİRDİR. Bizə elə gəlir ki, elə dünya yaranan gündən, insan özünü dərk edən məqamdan ilham da, şeir də onunla doğulub. Hələ qədim kitabların bir çoxunun şeirlə qələmə alınması bunu sübut edir. Heç uzağa getməyək, elə müqəddəs "Quran"ımız da bu qəbildəndir ("Quran" mənzum nəsrlə peyğəmbərimizə nazil olub və onun tərəfdarları tərəfindən qələmə alınıb).

Ədəbiyyatda şerin bir neçə formaları mövcuddur. Əgər əruz ərəblərdən gəlirsə, sərbəst şeir forması ingilislərə məxsusdur. Haqqında bəhs edəcəyimiz mövzunun cövhərindən uzaqlaşmamaq şərtilə onu da istəkli oxucuların nəzər-diqqətinə yetirmək istəyirəm ki, dünyada ingilislər qədər öz soyuna-kökünə bağlı, keçmişini yaşadan, onu əzizləyən ikinci bir millət yoxdur. İngilislər öz yaşayışlarıyla, dəbdəbəli həyatlarıyla nə qədər müasirliyi təbliğ etsələr də keçmişlərini bir o qədər çox sevirlər, ona candildən sadiq qalırlar. Bu gün təəssüf hissi ilə qeyd etmək yerinə düşər ki, vaxtilə dünyanın neçə qitəsini öz atının ayaqları altında silkələyən keçmiş Osmanlı imperiyasının, müasir Ata Türkiyəmizin şeri ingilis sərbəst şerinin təsiri altında inildəyir. Bu millətçilik deyil, bu çoxlarının həzm edə

bilmədiyi acı həqiqətdir. Həqiqətinsə bu dünyada deyəsən kitabı çoxdan bağlanıb. Kitabı bağlanmış həqiqətin hərdənbir adını dilə gətirmək Böyük Yaradana da xoş gələr, onun həqiqət sevən bəndələrinə də! Bunu da istəkli oxucuların yadına salmağı vacib bildim ki, biz də heç ata Türkiyəmizin şairlərindən geri qalmaq istəmirik. Necə deyərlər, onları bu yarışmada ildırım sürəti ilə ötmək istəyirik, çünki bu gün biz ingilis sərbəstində şeir yazıb öz ana hecamıza arxa çevirməyi bir yenilik, bir mədənilik hesab edirik. Necə ki, yeddi-səkkiz əsr bundan qabaq yaranmış "Əsli və Kərəm" dastanında baş qəhrəmanlardan birini, təmiz türk adı daşıyan eyni tayfanın daşıyıcısı xristian inanclı Əslini (Məryəmi) bizim sevimli söz adamlarımız erməniləşdiribsə və ermənilərin (haykların) tarixini belə yanlışlıqlarla Qafqazda qədimləşdiriblərsə, bu gün hecaya da ögey münasibət bəsləməklə onu hiyləgər düşmənlərimizin mənimsəməsinə şərait yaradırıq. Halbuki bütün dünyanın tarix sevən, tarixdən yazan insanlarına bəllidir ki, yeddi-səkkiz əsr bundan öncə Qafqazda heç bir ermənidən söhbət gedə bilməzdi. Dastan eyni tayfadan ayrı-ayrı dinlərə inancı olan iki alban (türk) əsilli ailənin faciəsindən bəhs edir. Sadəcə olaraq, rus işğalı və sovet dövrü torpaqlarımıza necə əl gəzdiribsə, bizimlə tarix dolaylarında yol yoldaşı olan dastanlarımıza da elə əl gəzdirib, dolayısıyla işğal edib və özümüzün də islam dininə yox, islami mövhumata qapılmağımız bu kimi yanlışlıqların ayaq tutub yeriməsinə səbəb olub. HECA türk xalqlarının ürəyinin məhsuludur. İslam dininin Şərqdə qol-qanad açmasıyla əruz islama ibadət edən xalqların ədəbi məhsuluna çevrildi. Əruzda sözünü deyə bilməyən şair o zamanlar güclü şair sayılmazdı. Əruz isə birbaşa «Quran» ilə, yəni ərəb dili ilə bağlı idi. Bir haşiyə çıxım: Mötəbər bir tədbirdə əslən misirli əruzun onların milli-mənəvi sərvəti olduğunu önə çəkdi və islamla bağlı Azərbaycan dilində ərəb sözlərinin özünə vəsiqə almasından ürəkdolusu danışdı. Yəni bizə bildirmək istədi ki, siz əruzda nə qədər istəyirsiniz şeir yaza bilərsiz, amma əruzun sahibi ərəb xalqıdır. Bir çoxları bəlkə də onun çıxışındakı bu nüansları bəyənmədi. Amma mənim çox xoşuma gəldi, çünki bu insan milli dəyərlərinin sahibliyini ərəblərin adından bizə bəyan etdi. Bunun nəyi pisdir... pis onda olur ki, sənə aid olana sahib çıxmırsan, ona əyri baxırsan, dodaq büzürsən. Necə ki, alban mədəniyyətimizə sahib çıxmadıq və könüllü verdik (hayklara) ermənilərə! Ərəb səhralarından, ərəblərin qum səhralarından, Suriyadan basa-basa başıbəlalı Qafqaza üz tutan ermənilər keçmişimizə aid nə varsa hamısını özününküləşdirməklə

məşğuldur. Bu gün də bar-bar bağırırıq ki, ay aman, nəinki torpaqlarımız, həm də mənəvi sərvətlərimiz əldən getdi. Atalar demişkən:

"Daldan atılan daş topuğa dəyər". O dövrlər ərəb dilini yaxşı əxz edən, əruzu da yaxşı qavrayıb onda gözəl nümunələr yarada bilirdi. Biz klassiklərimizin yaradıcılığına fikir verdikdə də bunun şahidi oluruq. Əruz islama inancımıza rəğmən digər şərq xalqlarında olduğu kimi şeriyyətimizin tacı sayılır və heç də biz onun ərəb ruhunun məhsulu olduğunu danmırıq. Artıq əruz şeir forması xalqımız üçün doğmalaşıb. Sovet hökumətinin ilk illərində tara, bütünlükdə mənəviyyatımıza hücumlar başladı, hətta Şərqdə birinci operanın librettosu da dahi Üzeyir bəy Hacıbəyli tərəfindən qələmə alındı. Bu, həm də tara olan kəskin hücumlara tutarlı cavab oldu. Çünki tar, kamança muğamı yaşadırdı, ancaq hecamız min illərin ədəbi təxəyyülündən doğulan türk xalqının mənəvi sərvətidir. Hələ yazı meydana gəlməmişdən qabaq şifahi formada xalqın yaddaşında özünə kimlik qazanıb və bizimlə yol yoldaşı olub. Şifahi formada xalqın yaddaşından süzülüb gələn, saz üstündə bəstələnən aşıq mahnılarımız, nəzmi avazla, nəsri sözlə dillərdə dolaşan dastanlarımız, tar üstündə pərvazlanan xalq mahnılarımız hecamızın bağrından qopub.

At belində şimaldan cənuba, şərqdən qərbə çapan, şücaətlər, qəhrəmanlıqlar, bahadurluqlar göstərən türklər öz ədəbiyyatını elə at belində də yaradırdı. Heca vəzni türk mənəvi insanının mənəviyyat məbədidir. TÜRKÜN HECASI – ONUN ALLAHA RİCASIDIR!!! Bu məbədin sədasından doğub türk xatunlarının, analarının dilindən qopan, ninnilər, bayatılar, laylalar, ağılar, oxşamalar. Aşıqlarının, ozanlarının bağrından dikələn gəraylılar, qoşmalar, dastanlar qopuzun, sazın tellərinə haray salıb. Saz və sözün birliyindən yaranan heca şeir forması ulu Türkün mənəvi dünyası idi. Bu birlik atla birləşəndə xariqələr yaradırdı. Heç təsadüfi deyil ki, türk fəth etdiyi torpaqlarda mənəviyyatla bağlı nə varsa onu göz bəbəyi kimi qoruyurdu, çünki özünün ruhu yaranışdan mənəviyyatla bağlı idi. O saza da, sözə də müqəddəs bir varlıq kimi baxırdı və onun sözdə yaratdıqları nə var idisə, heca-heca ilhamlı ürəklərin təb çeşməsindən süzülürdü. İslamın kəsə-kəs vaxtlarında, mövhumatın at oynatdığı zamanlarda, məhz Yunis İmrə, Şah İsmayıl Xətai, Molla Vəli Vidadi, Molla Pənah Vaqif şeirlərinin bir çoxunu ana türkcəsinin hecasında qələmə aldı, çünki bu onların qanından, canından gəlirdi. Bu gün də şükür Allaha heca şeirlərimiz öz axarıyla gedir. Düzdür, bu şeirlərin içərisində ədəbiyyat nümunələri ol-

mayanlar da çoxdur. Mən başa düşə bilmirəm qafiyəli, yəni heca şerinə dodaq büzənlər nəyi özlərində əxz etmək istəyirlər? Öz kökündənmi, soyundanmı uzaq düşmək istəyirlər? Niyə qafiyə onları yorur? Bəlkə qafiyəni tapa bilmədikləri üçün yorulurlar? Əvvəla, şeir yazanda sən sözü, qafiyəni axtarırsansa, deməli, sənin ilhamın yoxdur, sadəcə olaraq, şair olmağı qarşına məqsəd qoymusan. Əgər sənin ilhamın çağlayıb daşırsa, deməli, sənin şerində publisist düşüncə də, qafiyə də, heca da, ahəng də olacaq, hətta sərbəst vəzn də qafiyələrlə bol olacaq, əruzda da öz qələmini sınaya biləcəksən. Vaxtilə əruz məclislərinə gedərdim, əruzda yazanlar hecaya əyri-əyri baxardılar və sərbəsti heç qəbul etməzdilər. Yaradıcı insanlar arasında bu cür ayrı-seçkilik ədəbiyyatımızı hara aparıb çıxarır? Sərbəst yazılan gözəl bir şeir əgər sənət nümunəsidirsə, bunun nəyi pisdir? Amma bütünlükdə yadlardan gələni doğmalaşdırıb özününkünə arxa çevirmək cinayətdir, ədəbi qüsurdur, öz mənəviyyatına ögey münasibətdir!!! Məqsədli şəkildə şair olmaq istəyənlərdən heç vaxt şair olmayacaq, özləri dünyalarını dəyişən kimi, sözləri də dünyalarını dəyişəcək… Bizə elə gəlir ki, əsl şair şerin formasına baxmaz, şeir ona hansı formada gələrsə, elə o formada da yazar, istər ərəbin əruzunda, istər ingilisin sərbəstində, istərsə öz doğma türk hecamızda! Şairlikdə sözünü deyə bilməyənlər forma axtarmağa başlayır. Ey adını dilimə gətirmək istəmədiyim, həmkarım, kişi yazar, heca, qafiyə səni bezdirirsə, deməli, bu millət də, bu kök də, bu soy da səni bezdirib. Deməli, hecayla cilalanan ana laylası da sənin qanına, canına hopmayıb. Hecanı "adi, yorğun" adlandıranlar, sərbəsti "geniş düz" sayanlar öz mənəviyyatına arxa çevirənlərdir, deməli, heç sən ədəbiyyat adamı deyilsən, get özünə başqa peşə seç, çünki şairlik peşə deyil, ilhamla bağlı olan bir sənətdir. Sənəti isə duyub dərk edənlər yaşatmalıdır. Nə qədər ki türk var, onun sazı sağdır, deməli, heca da sağdır. İndiki şairlərin bəzilərindən eşidirsən ki, publisistikanın şerə gətirilməsi əbəsdir. Onların sözündən belə çıxır ki, sevdikləri sərbəstdə yazan Mayakovski şair deyil, çünki onun şeirləri başdan-ayağa publisist düşüncələrdən ibarətdir. Onda şeirdə satiraya da yer yoxdur, satirada publisistika olmasa, o satira sayılmaz. Belə çıxır ki, dahi Sabir də şair deyil, çünki yaratdıqları satiradır. Onda şair kimdir?..

Vətənimiz 20 ildən çoxdur ki, müharibə şəraitindədir. Hər tərəfdən təzyiqlər altındayıq, Amerikanın, Avropanın səsi hələ ki, yağı tərəfdən gəlir. Millətimizin üstünə xaç yürüşü edilir. Bu vəziyyətdə olan ölkənin

şairi şerinə publisistikanı gətirmirsə, onun şerində siyasətin mənfur üzü tənqid atəşinə tutulmursa, onun şerində satira ab-havası duyulmursa, Vətən ruhu misralarından boylanmırsa, onda bu Vətən başına haranın külünü tökməlidir?! Onda şairə nə qalır? Gül-çiçəkdən yazmaq, bir-birinə tərif, yaltaqlıq, məddahlıq etmək… Vətəni düşmən tapdağından qurtarmaq bizim borcumuzdur. Şair də, yazıçı da bu amala xidmət etməlidir. Çox təəssüf ki, böyük demokrat rus şairi Nekrasovun 150 il qabaq yazılan sözləri yadımızdan çıxıb: "Ola bilər ki, sən şair də olmayasan, amma vətəndaş olmaq borcundur". O, "Şair və vətəndaş" şerində yazırdı ki, Rusiyada hər peşənin, hətta şairlərin də sayı çoxdur, ancaq vətəndaş qıtlığı var. Böyük rus şairi Nekrasovun sözü olmasın, Azərbaycanda da vətəndaş qıtlığı yaranıb. Nə zahirən, nə televiziya və radio verilişlərindən, bütünlükdə mediadan belə məlum olur ki, biz müharibə şəraitində olan ölkəyə oxşamırıq. Səhərdən axşamadək şou əyləncələrilə qaynayıb daşan televiziya kanalları gənc düşüncəni niyə və hara kökləyir? Vətəndən, onun tarixindən, millətin ağrı-acılarından yazan şairlər dəbdən düşmüş sayılır. Hörmətli həmkarıma bildirmək istəyirəm ki, publisistikanı şerə gətirmək üçün güclü ilham və vətəndaş yanğısı olmalıdır. Şeri hansı formada qələmə almağa gələndə isə mənim həm əruzda, həm istəkli hecamızda, həm də ingilisin sərbəstində şeirlərim var, bu o demək deyil ki, mən hecama arxa çevirməliyəm. Heca ədəbi dünyada, ədəbi aləmdə şerimizin kimliyini tanıtdıran bədii bir ölçüdür, bir meyardır. Bu gün biz bu şeir formasına yadırğasaq, sabah düşmənlərimiz onu da özününküləşdirməyə cəhd edəcək. Heca anamın laylasıyla, ninnisiylə qanıma keçib, əlimin-qolumun kəsilməsi mənə necə fəlakət gətirərsə, yazdıqlarımın içində heca şeirlərimin olmaması da eləcə fəlakət doğurucu olar. Heca şeri ana laylalarımızın Allaha dikəlmiş ricasıdır!.. O bu ricalarıyla varlığının sağlığını Böyük Yaradandan iltimas edir! Bu ricanı susdursaq, Allahın əli üstümüzdən kəsilər. Müqəddəs hecamız saysız-hesabsız yüklənmiş dəvələri olan söz Sarbanıdır, onun dəvələrinin xurcunu kök qafiyələrlə doludur, o, şeriyyət, nəzmiyyət yolunun yolçusudur. Kimin ki, ruhu haqdan gələn ilhama köklənib söz Sarbanı öz xurcununu onun təbinə açacaq və ruhu qafiyələrlə feyzyab olacaq. Yox əgər şairlik sevdasına düşüb və şeir formasının axtarışına çıxıb, onda onun işi Allaha qalıb. Ömrü boşuna verəcək. Axırda da baxıb görəcək ki, ayə, yazdıqlarının içində heç zad yoxdur. Nə qədər ki TÜRK sağdır, o bu yoldan nə yorulacaq, nə usanacaq, çünki heca türk ruhu üçün Allahın

göndərdiyi baratdır! Sonda onu demək istəyirəm ki, Allah sizin kimi düşüncə sahiblərinin sayını ədəbiyyatımızda azaltsın. Amin!..

Bəlkə də mənim yazdığım bu məqalə kimlərinsə ruhunu oxşamayacaq, bu onların öz işidir. Hər kəs öz vicdanı və ürəyinin səsilə oturub-durur. Mənim də vicdanımın bağırtısı əlimə qələm alıb bu məqaləni yazmağa sövq etdi. Ulu hecaya həsr etdiyim bir şeirlə yazımı tamamlamaq istəyirəm:

ANAMIN RUHUNDAN GƏLİBDİ HECA

Anamın ruhundan gəlibdi heca,
Bu ruha göz dağı olma, sən Allah.
Ondan dikəlibdi Rəbbimə rica,
İlhamsız qəlb telin yolma, sən Allah.

O təbi olana çağlayan bulaq,
Ondan saz ruhunu duyur hər qulaq,
Heca sevdasında gəlin bir olaq,
Çətinsə sənətdə qalma, sən Allah.

Onla cilvələnib sazın telləri,
Gəzib addım-addım eşqi elləri,
O vəcdə gətirib yanan dilləri,
Kam ala bilmirsən, alma, sən Allah.

Heca könlümüzün nazlı afəti,
Onun sərvə bənzər qəddi-qaməti,
Oxşar qəlbimizi eşqlə xəlvəti
Bu eşqi ilan tək çalma, sən Allah.

Oxşama yağı tək yaddan gələni,
Yad eşqlə çox gördük millət dələni,
Hiylə torlarına düşüb öləni…
Acıqlı buludtək dolma, sən Allah.

Vətəntək, anatək heca canımız,
Ruha köklənməli bu vicdanımız,

Doldu düşmənlə dörd bir yanımız…
Sən də onlarla bir olma, sən Allah.

Yazın ağır olub bu Şadimana,
Dağın mehləri var gələn dumana,
Şeir dəb gətirib azğın zamana,
Çalış ondan dala qalma, sən Allah…

08.08.2010

ƏDƏBİYYAT HƏYATINI ŞAM KİMİ YANDIRANLARIN QƏLƏMİNDƏN KEÇİR

Millətin, xalqın varlığı və doğulduğu məkan onun yaratdığı söz xəzinəsi ilə, kətan üzərində əsrləri dil açdırıb danışdıran rəngli boyalarıyla, könül oxşayan fırçasıyla, ruhları cilalandıran musiqisilə, bütünlükdə ədəbiyyatı, folkloruyla təbii olaraq tarixin yaddaşına köçür. Əgər bir millətdə ədəbi-bədii dəyərlər yoxdursa, deməli, o millət, o xalq ölümə məhkumdur, sağ ikən, var ikən yoxdur. Deməli, bu dünyaya o yalnız say artırmaq üçün gəlib, insan sayını… Gec-tez tarix səhnəsindən silinib getməyə məhkum olacaq. Başqa xalqların içərisində əriyib itəcək. Böyük Yaradana şükürlər olsun ki, xalqımız tarix səhnəsinə qədəm qoyduğu gündən ruhları nəşələndirən sazı, tarı, muğamı, laylası, bayatısı, ağısı, oxşaması, dastanları onunla zaman dolaylarında yol yolçusu olub. "Ədəbiyyat zamanın güzgüsüdür" deyirlər, əgər bu güzgü olmasaydı zaman özünü tarix səhnəsində necə görə bilərdi? Mübaliğəsiz deyə bilərəm ki, elə tarixin də kitablarda doğru-düzgün öc alması ədəbiyyatda həyatını şam kimi yandıranların qələmindən keçir. Bu qələm ölsə, tarix də ölər, çünki törədilən müharibələrin dəhşətləri də, cəmiyyət içindəki haqsızlıqlar da, təbəqələr arasındakı iğtişaşlar da, yoxsulların göz yaşı da, kədərin böyüklüyü də, nəşənin həyatiliyi də elə söz adamının, qələm sahibinin vəfasından və cəfasından keçir. Qəlblərini od üstündə yağ kimi dağ edən qələm adamları ömürləri boyu yaşadıqları həyatın, cəmiyyətin qəm yükünü çiyinlərində daşıyırlar. Yaşadıqları cəmiyyətdən, doğulduqları məmləkətdən qazandıqları isə çox zaman biganəlik, soyuqluq, baxımsızlıq, unutqanlıq olur. Onlar isə gözlə gördüklərini, ağılla dərk etdiklərini Allahın könüllərinə bəxş etdiyi ilhamın köməkliyi ilə ağ vərəqlər üstünə tökürlər. Sevda dolu gecələrin

yuxusuzluğunun həsrəti alışır bu vərəqlər üstə!.. Yazan, yəni istedad kişi olanda, o hələ bəxti gətirənlər sırasına daxil olur, çünki kişi sözü önə çəkilir, hər tərəfdən eşidilir, şərəfinə layiq oldu-olmadı, təriflər yağdırılır. Onların əli hər qapını açа bilir. Evdən günün hər vaxtında çıxa bilir, hər kəsin üzünə utanmadan baxa bilir. Amma qadının yaradıcılıqla məşğul olması, ən əsası əlinə qələm alıb şeir yazması bütün dövrlərdə cəmiyyətdə birmənalı səslənməyib. Qadın sənətkarların yolu hər zaman milliyyətindən asılı olmayaraq daşlı-kəsəkli olub. Çox vaxt ailə qurmağa macal tapmayıblar və yaxud qurublarsa da ailələri dağılıb, özləri təhdidlərə, basqılara, qınaqlara məruz qalıblar. Əgər qadın şair doğulubsa, deməli, sonsuz məşəqqət, əzab-əziyyət də onunla doğulub, ya o bu yolu axıra qədər gedəcək, ya da zamanın hansısa dolayında qopan qasırğanın sürətində itib-batacaq. Anamız Məhsəti Gəncəvidən üzü bəri nə qədər qadın yazarlarımızın müsibət dolu həyatı gözlərimiz qarşısında canlanır. Sağlıqlarında təhdid və basqılardan əzab çəkən xanım yazarlarımız faciə və kədər dolu ömür yaşamışlar. Heyran xanım, Fatma xanım Kəbinə, Xurşudbanu Natəvan və bir çoxları min bir əzablar bahasına olsa da klassik ədəbiyyatda öz izlərini qoydular və yaxşı ki, bu izlərin işartıları ədəbiyyatımızdan boy göstərir, dünənimiz, bugünümüz, sabahımız onların yaratdıqları söz incilərilə qürurlanıb və qürurlanacaq, deməli, biz say üçün doğulan millətlər sırasında deyilik. Nəinki kişi yazarlarımız, hətta qadın yazarlarımız da ilham çeşməsinin gözündən qidalanır, könül duyğularını vərəqlər üstünə səpələyir.

XX əsr Azərbaycan ədəbiyyatında sovet dövrü adlı bir dövr də oldu ki, bu zaman da yazıb-yaradan qadın sənətkarlarımız barmaqla sayılası qədər idi. Mirvarid Dilbazi, Nigar Rəfibəyli, Mədinə Gülgün, Hökumə Bülluri, Ruzigar Əfəndiyeva, Kəmalə Ağayeva, Nurəngiz Gün, Südabə Şəfa, Şərafət Dağıstanlı və başqaları. Bu siyahını bir az da uzatmaq olar. Amma indiki qədər qadın yazarlarımız yox idi. Sovet dövrünün qadağaları, quruluşa qulluq insanların əl-qolunu bağlamışdı. 90-cı illərdən sonra Sovet İmperiyasının çöküşü bütün qadağaları aradan qaldırdı. Xalqlar azadlıq adlı Günəşin işığından öc aldı. O cümlədən millətimizin də əl-qolu açıldı, vətənimizin Rusiya boyunduruğunda olan hissəsi azadlığa çıxdı, məhz keçən əsrin 90-cı illərindən sonra qadın yazarlarımızın da sayı artdı. Bu yazarlardan ədəbiyyat aləmində özünəməxsus ilhamı, təbi, sözü olan xanımlarımızdan Sona Xəyal, Almaz Ülvi, Gülxani Pünhan, Məleykə Səma, Güllü Yoloğlu, Flora Xəlilzadə, Dilarə Şahid, Gülarə Munis, Azadə Taleh, Südabə Sərvi, Güləmayil, Zəminə Xınalı, Gülnigar

Rəhimli, Fəridə Hacıyeva, Fərqanə Mehdiyeva, Aləmzər Quliyeva, Zərxanım Ülvi, Salatın Əhmədli, Nəcibə İlkin, Gülayə Şınıxlı, Şövkət Zərin, Şövkət İmami, Dilarə Girzanlı, Cığatel, Minaxanım Təkləli, Pərvanə Zəngəzurlu, Səadət Buta, Xədicə Murad, Xatirə Əziz, Minayə Azaflı, Narınc Xatun, Zərəngiz Qayalı, Pərvanə Nizaməddin və sair. Və nəhayət, yaradıcılığı barədə söhbət açacağım Fəridə Ləman…

Keçən əsrin 80-ci illərindən ədəbiyyat aləmində Fəridə Ləman imzası ilə tanınan xanım şair özünəməxsus qələmilə söz sarayına birər-birər kərpiclər hörür. Özünü şəxsən tanımamışdan qabaq mətbuat səhifələrindən şeirlərilə, publisist yazılarıyla tanış idim. Onun yaradıcılığı haqqında geniş məlumat özüylə şəxsən tanışlıqdan sonra başladı. Onun mənə bağışladığı "Ürəyimi sabahlara açıram" şeirlər kitabıyla müəllif barədə dolğun məlumat almağa fürsət buldum. Bu kitabda qadın şairin ilıq nəfəsini, könül mülkünü öz ecazkarlığıyla şeir dünyasına çəkib aparan mehmannəvazlığını duydum. O özü duyduğu kimi, ilhamının ona yar olduğu qədər sözə "leylilik" edir. Söz öz məcnun sevgisini ona diktə edənə kimi bu aləmdən çıxmır. Şeirlərinin hər misrasında yanğı dolu bir pıçıltı var. Bu pıçıltıların sehri oxucunu onun söz dünyasına çəkib aparır və onu bu dünyayla aşina edir.

Beləliklə, Fəridə Ləman iri həcmli çapa hazırlanan "Anama məktub" kitabına ön söz yazmağı məndən rica edəndə məmnuniyyətlə bu təklifə razılıq verdim, çünki onun qələmi, sözü, şəxsiyyəti tanışlığımızın ilk günündən qəlbimdə özünə yer edib. Həqiqətən Fəridə Ləman qadın sənətkarlarımızın içində öz şəxsiyyətilə sayılıb-seçilən ictimaiyyətçi bir xanımdır. O, "Məhsəti" jurnalının baş redaktoru, "Məhsəti Şairlər Məclisinin" sədridir, çoxsaylı kitablar müəllifidir. O, Qarabağ müharibəsi zamanı ölümsaçan silahların əjdahatək od püskürdüyü vaxtda cəbhə meydanlarından söz-sovu gələn yazarlarımızdan olub. Fəridə Ləman yorulmaq bilmədən qələmlə söz karvanının sehrinə düşüb uzun bir yol gedir… Bu yolun istisi, soyuğu, ağrı-acısı qəlb söksə də xanım şair bir an belə usanmır. Elə qarşımda çapa hazırlanan, ön söz üçün vərəq-vərəq nəzərdən keçirdiyim "Anama məktub" kitabı da bu qəbildəndir. Kitab bütünlükdə dörd fəsildən ibarətdir.

Kitabın birinci fəslinin birinci səhifəsi nəsrlə yazılmış «Ana» adıyla başlayır. "Ey dan üzlü, Günəş nurlu ana…", "Başın dərdə əyilməsin…" deyir Fəridə xanım anaya. Ana haqqı, Tanrı haqqı deyiblər, bu haqqı tapdalayanlar böyük günahı olanlardandır. Bu haqqı uca tutursan, ucalıqdan

düşməyəsən, əziz həmkarım. Şairənin "Anama məktub" şeri də çox təsirlidir. Elə bu təsirin ovqatındandır ki, müəllif kitabın adını da bu şerin adıyla bağlayıb:

Yasəmənlər açıbdımı, ay ana?!
Ətrini duymağa gəlmək istərəm,
İncəçayı daşıbdımı, ay ana?
Səsində uymağa gəlmək istərəm.

Ana həsrətilə oylanan bu misralarda anadan ayrı düşmüş bir qızın həsrət dolu hıçqırtıları yatır. Əksərən qız uşaqlarının taleyinə ata, ana intizarıyla dopdolu bir ömür düşür. Başqa yuvanın işığını yandıran qız uşaqları ata evində keçirdikləri uşaqlığı və gəncliyi əbədi olaraq xəyal dünyalarına köçürürlər və o evə yalnız qonaq qismində gedib-gələ bilirlər. Fəridə xanımın bu şerində də həmin nisgilin işartıları duyulmaqdadır. Şeri oxuyan hər bir qadının, qızın könlünü yandıran bir şeirdir "Anama məktub":

Unnucadan zər düşübmü torpağa,
Yarpızların arx boyunca çıxıbmı?
Şeh ələnib zümrüd donlu yarpağa,
Pəmbə bulud kirpiyini sıxıbmı?..

Xanım şairin bu ürək titrədən misralarını həyəcansız oxumaq mümkün deyil. Müəllif, sanki bu məktubu bütün analara ərməğan edib. "Pəmbə buludun kirpik sıxması" ədəbi tapıntıdır. Bilmirəm başqa şairlərin şeirlərində var, ya yox, amma Fəridə Ləman şerində daha boyalı, daha obrazlı səslənib.

Şairin kitabda sıralanmış, birinci fəslin ilk səhifələrində özünə yer alan şeirlərindən biri də hamımızın könlümüzü yaxıb-yandıran, ürəyimizə qubarlı dağlar çəkən əsir Qarabağ haqqında olan "Can Qarabağ" şeridir:

Qan sızan yaram,
Ey ürək param,
Sənsiz inan ki,
Ömür bir heçdir,
Günlərim haram,
Qarabağ, ay Qarabağ,
Qarabağ, can Qarabağ.

O, burada sadə folklor diliylə, laylaya bənzər bir harayla uzaqdan-uzağa əsir Qarabağla danışır. İşğal altında inləyən Vətənin bir parçasına – Şuşaya, Laçına, Kəlbəcərə, Ağdama, yanıb kül olmuş, külü asimana sovurulmuş Xocalıya layla çalır. Bu laylanın hıçqırtıları şairənin misralarından boylanır, oylanır, sanki bizlərə səslənir ki, bu torpağı unutsaq anamızın südü bizlərə haram olsun!..

Şanım, şöhrətim,
Ən uca taxtım,
Qızıldan baxtım,
İki gözümsən,
Sevgi közümsən,
Qarabağ, ay Qarabağ,
Qarabağ, can Qarabağ.

Qarabağı iki gözü kimi tutan müəllif ürəyində Tanrı xofu olmayan işğalçılara meydan oxuyur. Könlünün duyduğu qədər, qələminin uyduğu qədər yaralı Qarabağa layla deyir, bu layla anamızın yanğısı sayaq şirin gəlir adama…

"Bu yurdu çiynimə yükləyin mənim". Əcəb deyimdi, əcəb şahanə, şairanə tapıntıdır. Bu şeir haraydırmı, fəryaddırmı, əsrlərlə başımıza gətirilən müsibətlərə etirazdırmı? Sinəsi min bir yerdən yaralı Vətənə oxşamadırmı? Bilmirəm, bir onu bilirəm ki, bu şeir qəlbi yerindən oynadır, ürəyi ah-nalə ilə qaynadır, əlinə silah götürüb bütün sərhədləri dağıtmaq istəyirsən, sərgərdan Vətənin yaralı bağrını ovutmaq istəyirsən. Əziz oxucular, sizi də bu şerin misralarıyla tanış etmək istəyirəm:

Bu yurdu çiynimə yükləyin mənim,
Aparım ocağı, piri gəzdirim.
Nə qədər nəfəsi öz üstündədir,
Görsün gözlərilə diri gəzdirim.

Vətən yanğılı bu misraların, Fəridə Ləman, ruhunu vətənsevər könüllərə necə mehman etməsin? Şair bu şeirdə vətənin pulunu-malını hərraca qoyanları, halına, əhvalına zərrəcə yanmayanları şiddətli tənqid atəşinə tutur:

Vətən torpağından yarıyanlardan,
Vətən bircə damla yarımayıbdı,
Vətəni hərraca qoyan dəllallar,
Vətən yarasını sarımayıbdı.

"Sözə müştəri" tapılmayan "bazarda" "xınalı quzu"lar cövlan edir. Söz sənəti, ədəbiyyat qədir-qiymətini itirib, onun başına sığal çəkəni yoxdur. Bu zəmanədə yazana elə yuxarıdan aşağı baxırlar ki, adam öz yazdığının yerinə utanır:

Sözün müştərisi yoxdur bazarda,
Müştəri xınalı quzu axtarır.
Sözü arxasında, addımı iti,
Yalmana-yalmana düzü axtarır.

O bütün yamanlıqları, pisliklәri, haramxorları, rüşvətxorları lənətləyəndən sonra yenidən Vətənə üz tutur:

Eşit harayımı, qiyyələrimi,
Mən sənin dəlinəm, dəlinəm, Vətən…

Müəllif məcnun eşqilə vurulduğu məmləkətinə sonda ana sevgisilə bir təskinlik verir.

Dərdin gedəcəkdir zaminəm, Vətən!
Mən sənin yerinə əminəm, Vətən!

O bu xoş sonluqla da şerin axırıncı misralarını sona yetirir. Deyirlər ki, şairlər üsyançıdırlar, həyatda baş verən özbaşınalıqları, haqsızlıqları, amansızlıqları onlar birinci görüb duyur, misra-misra şerə gətirir. Onlar ömür boyu Vətən ağrısını çiyinlərində aparırlar, milli təəssübkeşliyin daşıyıcılarıdır şairlər. Ana dilinin qoruyucularıdır, onlar yana-yana doğulur, cəmiyyətin amansızlıqları içində boğulur. Bu boğulmalar hər gün olur, gündə yüz dəfə! Dünyalarını dəyişənə qədər neçə kərə Əzrailin ağzından qopur şairlər… Elə Fəridə Ləman kimi… Onun "A bəxt yazan" şerinə diqqət edək:

Gəlirsənmi?! Gəl bir yoxla halımı,
İçin-için sökülənə bir bəxt yaz.
Buludların gözü doldu halımdan,
Damla-damla tökülənə bir bəxt yaz.

Adamın şam kimi əriməsi ifadəsi ədəbiyyatda tez-tez rast gəlinən bir deyimdir, "damla-damla tökül"məsi isə məhz Fəridə Ləman ilhamından qopan deyimdir:

A bəxt yazan, a bəxtəvər, hardasan?
Demirsənmi ünü ərşə qalxan var.
Bağrı yanıb hey dolanıb dörd yana,
Varlığını oda-közə yaxan var.

Şairə, sanki bəxti ilə bu şeirdə umu-küsü edir. Pərişan halının ağrılarını ona söyləyir, bir candidəsi, bir əzizi kimi, lakin heç də qəm möhnətinə yuvarlanmır. "Şükür sənə, ya Rəbbim" şerində Böyük Yaradana üz tutur:

Ruhum gülə bələnib,
Göydən ulduz ələnib,
Yatmış bəxtim dillənib,
Şükür sənə, ya Rəbbim.

Bu şükür-sənalar şair ruhunu cilalandırır, həyat eşqini coşdurur, yazıb-yaratmaq havasıyla onu haldan-hala salır. Elə sözün sehri, aliliyi də şair ruhunu aşıb-daşdırmaqdan ibarətdir. Bizim qadınlarımızın cəsarəti, analığı, ər başına pərvanə kimi dolanmağı, saflığı, paklığı, kişiyana at minib çapmağı, ərlərilə döyüşlərdə şücaət göstərmələri, tariximizdə də, ədəbiyyatımızda da çoxdan öz ucalığını qoruyub saxlayır. Qadın yazarlarımızın cəsarəti də bu baxımdan qürurlanmalı dəyərlərimizdəndir. Fəridə Ləman yaradıcılığında da bu cəsarətin şahidi oluruq. "Pəncərə gözlüyü kasıblar üçün" şerindəki bu ifadə müəllifin özünəməxsus ifadəsidir:

Birgünlük çörəyə möhtac olan var,
Kimi bir gecəyə doqquz min beş yüz.
Ehtiyac içində çapalayan var,
Bu qədər ağrıya, ürək, di gəl döz.

Bütün bu bərabərsizliklərə, tərəzinin gözünü əyilməsinə dözməyən şairə şerin bəndlərinin birində haqsızlığa qarşı belə öz səsini qaldırır:

Verdiyi quruşu deyər min dəfə,
Əlini cibinə atar, ya atmaz.
On-on beş qəzetdə yazdırar azdır,
Əndamı ləkəli, özü nataraz.

Söz xiridarlarının əksəriyyəti ədəbiyyatımızın bir qolu olan şerimizdə poetik kəşflər axtarırlar. Fikrimizcə, şeir də bədii yaradıcılığın digər qolları kimi dövrün ağrı-acılarını, haqsızlıqlarını əks etdirib tənqid atəşinə tutmalıdır. Ədəbiyyat bütünlükdə cəmiyyətin yaralarının sağalmasına xidmət etməlidir. Əgər belə deyilsə, onda o yaradıcılıq xalqın sevgi və istəyini qazana bilməyəcək. Müəllif dünyasını dəyişən kimi yazdıqları da dünyasını dəyişəcək. Ola bilsin ki, şairin poeziyasında poetik tutum zəif olsun, ahəng, qafiyə pozuntuları olsun, amma yüksək dərəcədə xalqın ağrı-acılarından bəhs etsin, onun məhəbbətini qazana bilsin və yazdıqları millətin yaddaşında iz qoysun. Belə olanda söz adamı uğur qazana bilir. Biz bu uğurun tapıntılarını Fəridə Ləman yaradıcılığında görürük:

Yoxdur haqq-hesabı çəkən, çevirən,
Pəncərə gözlüyü kasıblar üçün…
Dünyanın ləzzəti meşələr, dağlar,
Çiçəkli ormanlar varlılar üçün.

Şeirdə imkanlıların min bir cah-calalla ömür-gün sürdükləri, kasıb bəndələrin isə adi yaşam haqqını ödəyən qəpik-quruş içində əzildikləri misralara köçür, dükan görəndə ağzı sulanan binəva insanların əhvalı şair ürəyini yandırır və qələminin kağız üzərində harayına çevrilir.

Müəllif bacısı qızı şairə Pərvanə Nizaməddinə şeirlə yazdığı "Gətirə bilsən, gətir" məktubunda bütöv bir elin adət-ənənəsini ustalıqla, sənətkarlıqla qələmə alır:

Anamın nəfəsindən,
Atamın ər səsindən,
Yaşamaq həvəsindən,
Gətirə bilsən gətir.

O bu şeirdə Qazax elində bişirilən yeməklərdən, çəmənlərində, dağlarında, yaylaqlarında bitən çiçəklərdən, bulaqlardan, bütöv bir mahalın adət-ənənələrindən bəhs edir. Bizim tərəflərdə nə qurut hazırlanır, nə də qatlama bişirirlər. Şairə yazdığı bu mənzum məktub vasitəsilə oxucusunu söz qatarına mindirib ustalıqla çəkib öz yerlərinə aparır, adət-ənənələri və mətbəxi ilə onu tanış edir. Bax, poeziyanın uğuru budur. Şairənin "Bir meydan istəyirəm" şeri Qarabağ müharibəsinin veteranı şairə Aida Vüsala ithaf olunub. Şeirdə bütünlüklə keçmişimizdə və bugünümüzdə qəhrəmanlıq göstərən qadınlarımızın adı sadalanır. Şeirdə Qarabağ müharibəsində canı odlar görmüş Salatının, Gültəkinin, Məleykənin, Familənin, Aidanın, Rüxsarənin, Gülarənin adları yad edilir, şücaətləri dilə gətirilir:

Ey kişi libası geyənlər,
Sözlərini hünərlə deyənlər,
Çağırın Salatını, Gültəkini,
Məleykəni, Familəni, Aidanı,
Cavahiri, Rüxsarəni, Gülaranı,
Ayağımız altından torpaq qaçmayıbsa,
Səmamız haqsızlıqdan uçmayıbsa…

Fəridə Ləmanın "Bir meydan istəyirəm" şeri bütöv bir milləti döyüşə, vuruşa, qisasa çağırır. Ona görə "söz xəncərdən itidir" deyirlər, sözün gücü, dizin gücüdür! Bu gücün, bu təpərin alovu adamın ürəyini yandırır, damarlarını cuşa gətirir. Bax, budur vətənpərvər poeziya. Böyük rus şairi Nekrasov demişdir: "Şair olmaya bilərsən, ancaq vətəndaş olmaq borcundur", çünki Vətənin varlığı onun vətəndaşından asılıdır. Müəllifin "Tamahkar", "Oyaq olmaq istəmirəm", "Səni mən ağartdım, ay qara saçım", "Ağladan ağladır", "Vətən dərdi", "Görməmiş", "Sevin Vətəni" kimi şeirləri millətin cəfalarından, üzləşdiyi haqsızlıq və özbaşınalıqlardan bəhs edir. "Sevgi düşüncələri" şerində şair elə bil bir anlıq da olsa əzablar içində çırpınan ruhunu dincəldir:

Bir azca yaxın otur,
Bir azca mehriban ol,
Başını qoy çiynimə.
Əllərini ver mənə.

Bax gözümün içinə,
Bax qəlbimin suçuna,
Səni sevirəm axı!

Həqiqi məhəbbət ağrı-acılarla cilalansa da onun şirinliyi, sevdalığı insan ruhunda, şüurunda şahanə bir taxt qurub. Şair sözlə məhəbbətini ovudur. Söz əslində gözəgörünməz bir varlıqdır, onun dairəsi genişdir, sonsuzdur. O, bütün dövrləri yerindən silkələməyə qadirdir. Biz bu qadirliyin ucalığını Fəridə Ləman yaradıcılığında görürük. Şair iqtidarda olan hakimiyyətin uğurlarına göz yummur. Ölkənin birinci xanımı, millət vəkili Mehriban Əliyevaya həsr etdiyi "Xanım Mehriban" şerinə bəstəkar Zabitə Məmmədova musiqi də bəstələyib. Kitabın üçüncü fəslində mərhum prezident Heydər Əliyev haqqında yazdığı "Onu zaman seçib" poeması da bu qəbildəndir. Bu poema görkəmli bəstəkar Cövdət Hacıyevin 8-ci simfoniyasının şeir mətni kimi də götürülmüşdür. Bu fəsildə həmin poemanın ingiliscə tərcüməsi də yer alıb. Müəllif xalqın işıqlı gələcəyi üçün çalışanların zəhmətini poeziyaya gətirir, öz könül prizmasından baxır və yüksək qiymət verir. Şair kitabın ikinci fəslini nəvəsi Əmirxana həsr edib. Əmirxanın dünyaya gəlişindən təsirlənib yazdıqları şeirlər elə fidan balalarımızın hamısına şamildir:

Sən Vətən aşiqi, Torpaq aşiqi,
Səman aydın olsun, həyatın nurlu.
Sən elə böyü ki, elə yaşa ki,
Baxanda hər zaman görüm qürurlu!

Onun "Şirin pay verib", "Sarıl bu bayrağa", "Əmirxan çağırır", "Yazıq sərçələr", "Qızılgülümsən", "Xurcun əhvalatı", "Bu ki, ayrandır…" kimi bədii uğurları gül balalarımıza gözəl töhfədir. Üçüncü fəsildə müəllifin Böyük Vətən Müharibəsinin ağrı-acılarından bəhs edən "Abumüslüm dastanı" polkovnik-leytenant Abumüslüm Baxşıyevə həsr olunub. Poema uzaq cəbhələrdə canını güllə qabağına vermiş bir vətən oğlunun keçdiyi həyat yolunun müsibətlərindən bəhs edir. Fəridə Ləmanın "Anama məktub" kitabının üçüncü fəslində bəşəri hisslərlə yoğurulmuş "Fələstin" poeması da yer alır.

Bu kiçik poemada müəllif sinəsi dağlı-düyünlü Fələstin xalqının ağrı-acılarını öz başımıza gətirilmiş müsibətlərlə uzlaşdırır:

Azadlıq olmayan yerdə çatışmaz hava,
Olmaz dərdlərə dəva…
Bir zaman əzab köynəyindən doğulmuşuq,
Qan içində boğulmuşuq…

1947-ci ildən fəlakətlər tüstüsündə boğulan fələstin anası bu gün də dərd içində çapalayır, balaları gülləbaran edilir, haqqı tapdalanır, əzablardan mütiləşmiş dünya susur. Sonda müəllif Fələstinlə Qarabağın müsibətini eyniləşdirir. Eyni dairədən qaynaqlanan əli qanlı, başı havalı, pulu çox, vicdanı yox zülmkarlar şeytanla ünsiyyətdən yorulmur, bulanıq sular durulmur ki, durulmur. Dünyanın hər yerində müsəlman insanın haqqı tapdalanır, bəxtinə su calanır, varlığı paralanır, ürəyi yaralanır. Fəridə Ləman da məhz bu haqsızlıqlara qarşı qələmini itiləyir, cahanı əyri yola yuvarlayanlarla söz savaşına çıxır.

Yazımın əvvəlki səhifələrində qeyd etdiyim kimi Fəridə Ləman ictimaiyyətçi bir xanımdır. Ona görə onun dairəsi çox genişdir. Ziyalı təbəqə ilə daim ünsiyyətdə olan xanım sənətkarın ünvanına çoxlu sayda şeirlər həsr olunub. Həm məktublar yazılıb, həm də Fəridə Ləman yaradıcılıqla məşğul olan qadın və kişi sənətkarlarımıza çoxlu sayda şeirlər həsr edib. Haqq dünyasına qovuşmuş Bəxtiyar Vahabzadə, Mirvarid Dilbazi müəllifin yaradıcılığı barədə öz tutarlı fikirlərini bildiriblər. Ədəbiyyat aləmində tanınmış qələm sahibləri Fəridə Ləman yaradıcılığını yüksək qiymətləndirib. Müxtəlif vaxtlarda, müxtəlif mətbu orqanlarında onun alim, şair, jurnalist-publisist kimi uğurlu fəaliyyətindən könül dolusu söz açılıb. Elə "Anama məktub" kitabının dördüncü fəsli də müəllif haqqında yazılan saysız məktub və məqalələrdən ibarətdir. Alim, jurnalist, şair Fəridə xanım Ləman nəinki ölkəmizdə, hətta məmləkət xaricində də tanınır. Onun ölkəmizdən kənarda, qonşu İran və Türkiyədə şeirləri çap olunub və Fəridə xanım bu ölkələrdə Azərbaycanın bir şair xanımı kimi tanınır, sevilir, onun qələminə, şəxsiyyətinə hörmət və ehtiramla yanaşılır. Bir sıra ödül və mükafatların daşıyıcısıdır. Fəridə Ləman Allah adamıdır, müqəddəs Həcc ziyarətində olub. Mən də Fəridə xanım Ləmanın sənət uğurlarıyla qürur duyur, ona möhkəm cansağlığı və yaradıcılıq sevincləri diləyirəm.

Səsin daima zirvələrdən eşidilsin, Allahın nəzəri üstündən əskik olmasın, Fəridə Ləman…

26-27.07.2010

BƏYDADAŞ CƏFƏRLİNİN "POZULMAZ NİZAM" KİTABINDA BUGÜNÜN AĞRILARI

Ədəbiyyatımızda işıq saçan söz fatehləri yaşadıqları dövrün ağrı-acılarını, bəlalarını, qəhrəmanlıqlarını, şücaətlərini, məhəbbətlərini bütünlükdə tarixini kağızlar üzərində füsunkar, ilhamlı qələmlərilə bayatılaşdırıb, dastanlaşdırıblar. İnsan beyninin təxəyyülü olan bu çeşmə bəşər özünü dərk edəndən, əqli inkişaf zirvələrini fəth edən gündən susmaq bilmir ki, bilmir. Əslində söz fatehləri olmasaydı, insan sabaha tələsən zamanın axarında itib-batardı. Onun dünənindən tarixin yaddaşında heç nə qalmazdı. Bu gün istedadı olana dodaq büzmək, onun yoluna daş-kəsək yumbalamaq, meşinli qapıları üzünə bağlamaq, dünəninə və bugününə arxa çevirmək, dünənin və bugünün üstündən qara xətt çəkmək deməkdir, çünki tarixi və ədəbiyyatı kağızlar üzərində əbədiləşdirənlər söz sərraflarıdır. İnsan gedəridir, fəqət onun yaratdıqları hansı millətə, xalqa, ölkəyə məxsusluğu yazdıqlarında öz əksini tapır və hər millətin varlığı, yaşarılığı müqəddəs SÖZDƏN keçir. Elm, texnika nə qədər yüksəkləri fəth etsə də kompüterlər, mobil telefonlar at oynatsa da heç vədə qələmin, kağızın və sözün yerini verməz. Sənin yaratdığın kağız üzərində özünə yer etməyibsə, kompüterin yaddaşına köçürülübsə, deməli, yaratdıqların xəta içərisindədir. O sənin yazdıqlarını əbədi saxlamağa qadir deyil, kağız və qələm kimi insan könlünə munis ola bilməz. Çünki kompüter insan beynini xatırladır. İnsan beyni xəstəlikdən min bir bəlalara düçar olduğu kimi, kompüter də virus azarına mübtəla ola bilər və yazdıqların bir anda yox olar. Odur ki, ədəbiyyatımızı kağızlar üzərində yaşadanlar varlığımızı yaşadırlar. Ədəbiyyata, şerə, sənətə dodaq büzənlər öz varlıqlarına dodaq büzürlər. Nə zaman ədəbiyyatı yaradan söz sərrafları susacaq, millətlər də, xalqlar da əriyib yoxa çıxacaq, kosmopolit bir dünya qalacaq. Bu kosmopolitliyin içində vəhşilik, allahsızlıq, imansızlıq, ləyaqətsizlik, vətənsizlik olacaq və yəqin ki, insan öz əliylə dünyanı məhv edəcək, çünki söz sənəti millətin kimliyidir. O yoxdursa, millət də, vətən də yoxdur. Millətlər, xalqlar isə dünyanın varlığını qoruyur. Nə qədər müharibələr, qırğınlar, haqsızlıqlar olsa belə...

Müasir dövrümüzdə ədəbiyyatımıza nəzər yetirdikdə yazarlar iki qismə bölünür:

1. Dəm yazarları
2. Qəm yazarları

Dəmdən yazanlar, heç zaman yaşadıqları dövrün, zamanın çatışmazlıqlarını, amansızlıqlarını, imansızlıqlarını əks etdirmir. Öz qələmlərini yaltaqlığa, məddahlığa, gülə, bülbülə, cismani sevgiyə həsr edir, sanki onlar üçün dünya yalnız kef üstündə qurulub. Elin gözü tərəzidir, deyirlər onun tərəzisində dəmdən yazanların da, qəmdən yazanların da yükü çəkilir. Onun verdiyi qiymət heç bir kağız üstündə verilən qiymətlə, pul-parayla, dəm-dəsgahla ölçülmür. O, yaxşını pisdən ayırmağı bacarandır. Yaşadığın ölkənin, vətənin, millətin əyər-əskikliklərindən yazmaq ona olan sonsuz sevgidən qaynaqlanır. Bu nə dövlətə, nə xalqa, nə millətə qarşı çıxmaq deyil. Əksinə, onun inkişafına təkan verməkdir, onun dərdlərini başda oturub, ancaq özündən, evinin içindən fikirləşənlərin nəzər-diqqətinə yetirmək və onların qarşısında həyəcan təbili çalmaq deməkdir. Biz bunu millətin qəmindən yazanların yaradıcılığında görür və dərk edirik. Fikirləşirik ki, nə yaxşı qəmdən yazanlar var. Yoxsa nə ədəbiyyat olardı, nə onun min illəri haqlamış tarixi... Əslində qəmdən yazmaq göz yaşı tökmək kimi başa düşülməməlidir. Cəmiyyətdə tərəzinin əyilməsi, pisliklərin artması, haqsızlıqların çoxalması insanın göz yaşının tökülməsindən, onun bağrında yara açan qəmdən xəbər vermirmi? Elə bu qəm də ədəbiyyata gətirilir, onun qədir bilən söz bahadurları tərəfindən... Əlimə qələm götürüb yaradıcılığı barədə ürək sözlərimi yazmaq istədiyim qələmdaşım Bəydadaş Cəfərli də belə söz cəfakeşlərindəndir. O, şerində nə kəşf axtarır, nə də şerinə forma gəzir, şeir ürək alovuyla cilalana-cilalana gəlib onu tapır. Xalqın ağrı-acıları, dərd-səri, vəfası, cəfası ilə bir yerdə!

Onun yaradıcılığı elə o üzdən qəm üstündə köklənib. Bu qəm heç də səni ümidsizliyə aparmır. Bu qəm insanı mübarizliyə, şücaətə, cəsarətə, inkişafa səsləyir. Adamı yaltaqlığın, məddahlığın dərəcəsinə enməməyə, bəşəri mənlik və ləyaqət anlamına sadiq qalmağa, bu cür insani keyfiyyətlərin ucalığına qalxmağa səsləyir. Onun müxtəlif illərdə "Babadağdan gələn səs", "Çılğın sətirlər", "Sevgi çələngi", "Qarabağım-yara bağrım" adlı kitabları işıq üzü görüb. Paklığı, təmizliyi, mərdliyi, cəsurluğu öz şeirlərində ana xətt kimi götürən şair qardaşım füsunkar İsmayıllı bölgəsinin buz bulaqlarından, pak çeşmələrindən su içib, ana təbiətin mələk baxışlarıyla üz-üzə, göz-gözə qalıb. O, kəsilən meşələrin ah-zarına qulaq kəsilib. Qəpik-quruşla yaşayan kənd adamının ağır hə-

yatı ürəyində cığır-cığır şırımlar açıb. Nədənsə bölgələrimizdə doğulan yazarlarımızın bir çoxunun yaradıcılığında həyatın çətinlikləri daha qabarıq şəkildə əks olunur. Bəlkə kəndin heç kəsi əzizləməyən ağır zəhmətlərlə yoğrulmuş sərt təbiəti bölgələrdə doğulan yazarlarımızın qələmini daha sərt, daha üsyankar edir (Baxmayaraq ki, şəhərdə yaşayan orta imkanlılar isti yay günlərini kəndlərdə keçirməyə üstünlük verirlər, kənd adamının ağır güzarına nəzər yetirmədən...) Elə özünəməxsus dəsti-xətti olan yazarlarımızdan biri Bəydadaş Cəfərli də belə sənətkarlarımızdandır... Bu nöqteyi-nəzərdən öndə gedən söz adamlarımızdandır. Mən onun özünün dəsti-xəttilə əlimə yetmiş və 2008-ci ildə "Adiloğlu" nəşriyyatında çap üzü görmüş "Pozulmaz Nizam" kitabı haqqında dəyərli oxucularla öz fikirlərimi bölüşmək istəyirəm. Kitabın ilk vərəqlərindən başıbəlalı Vətən üçün yanan bir ürəyin şölələri üzümü qarsır. Bütün dövrlərdə və bütün cəmiyyətlərdə haqsızlıqlar, özbaşınalıqlar at oynadıb. Ən parlaq, ən inkişaf etmiş cəmiyyətlərdə belə çatışmazlıqlar, haqsızlıqlar var, həmin cəmiyyətlərin öz tərəzisinə görə bu haqsızlıqlar çəkilir və ağırlıq-yüngüllük ölçüsünə görə mübarizə aparılır. Bəydadaş Cəfərli vətənin bir şair oğlu kimi yaşadığımız ölkənin və millətin ağrı-acılarını öz könül prizmasından keçirib ulu sözə çevirir. Bu sözlər misra-misra şeirlər içində püxtələşir və cilalanır. Ulu heca şerimizin bir çox növlərilə qələmini sınayan şair elə "Qələm" şerilə də müqəddəs sözə çələng hörür. Bu dərin məzmunlu misralarda qələmin ucalığından söhbət açılır. İnsan qələmi kəşf edən gündən sözünü kağızlar üzərinə köçürtdü. İstər qələm lələk, istər qamış, istər ağac, istərsə müasir dövrün plastik kütləsi olsun. Min illərdi, o, Sözü kitablara ərməğan etməklə ona əbədi bir heykəl yonur. Dünən də beləydi, bu gün də, yəqin ki, sabah da belə olacaq...

Şamın yaşamağı yanmaqsa əgər,
Sənin yaşamağın yazmaqdır, qələm.
Yolu qamətintək olmayanların,
Nəsibi yolundan azmaqdır, qələm.

Əslində qələmlə çox şeylər edilir, sonsuz dərəcədə yaxşılıq da, amansız dərəcədə pislik də. Qələmlə neçə-neçə talelərin üstündən qara xətt çəkilir. Bir sözlə, o hər əmələ yarayandı, yaxşılığa da, naqisliyə də. Baxır kimin əliylə bəxt qapısı açılır. Şər əliylə bəxt qapısı açılanda şərə, xeyir əliylə açılanda xeyirə xidmətdə olur, məhz Bəydadaş bəy də elə bu prizmadan qələmi nəzmə çəkib:

Sənlə açıqlayır alim aləmə
Kəşfin, icadın, bicliyin, qələm,
Cahil əlindədir qara taleyin,
Sənin ölümündür dincliyin, qələm.

Əslində qələmsiz insan heç insan da olmazdı. O, gözü ilə gördüklərini, canından süzülüb gələnləri kitab vərəqlərinə büküb bu günlərə ərməğan edib:

Elmsiz cahanın üzü naşıdır,
Qələm kainatın qiblə daşıdır,
Bəxtə bax, ürəyin axan yaşıdır,
Bəşərin fərəhi, sevinci, qələm.

Şair qardaşım Bəydadaşın "Qələm" şeri geniş, əhatəli böyük mənalarla zinətləndirilən bir qoşmadır. Bu şeirdə qələmin qüdrətindən, onun gah vəfa, gah cəfa əhli olmağından söz açılır. Bu piranə nəzmin içində bir alilik, bir təmizlik, bir paklıq boylanır. Müəllifin özü demişkən cahillərin əlində "ölüyə", aqillərin əlində "diriyə" çevrilən, yarımçıqlar əlində "girinc" olan qələmin acı taleyindən şair ürək yanğısıyla söz açır. Ulu tarixi öz ələyində ələyən QƏLƏMin şahanə varlığı taxt-tacını kimsəyə bac verməyən xaqanları, sultanları, şahları, kralları, çarları xatırladır adama...

Qələm adamısan axı, Bəydadaş,
Çax göydə şimşəktək, yan yerdə yavaş,
Ehtiraslar coşub salanda savaş,
Sülh sözün demisən sonuncu, qələm.

"Sülh sözünü sonuncu deyən qələmin sehrindən söz açan şair bu sehrin sarayını birər-birər söz duyğularıyla cilalandırır. Sonunda nəsibi bir parça torpaq olan insanın öz dəyərini bilməməsi, ömrünün çoxunu yamanlıqda, qanlı müharibələrdə keçirməsi, millətlərin, xalqların bir-birinə qənim kəsilməsi, qan-qırğının, amansız terrorun dünyada ayaq tutub yeriməsi cahanın düşünən başlarını həyəcanlandırmaya bilmir. Elə haqqında söhbət açdığım şair də bu həyəcanlanmalar üstündə şeirlərini misra-misra, bənd-bənd araya-ərsəyə gətirir. Onun üç bəndlik "Məni" qoşmasında şairin öz taleyinə müraciət etməsinin şahidi oluruq:

Mənim yaşadığım taleyimə bax,
Düzlüyüm azdırdı düzlərdə məni.
Peşiman deyiləm gələcək nəsil,
Yaşadar yazdığım sözlərdə məni.

Düz olanın düzlərdə azmasını ürək çırpıntısı, təəssüflə şərə gətirən müəllif, sanki ataların "Düz axtaran, düzdə qalar" məsəlinə tapınır. Şeirlərində düzlüyü, paklığı özünə amal seçən Bəydadaş Cəfərli düzlük pərdəsi altında min bir oyundan çıxanlarla, xalqın puluna, varına qənim kəsilənlərlə söz döyüşünə çıxır. Axı şairin, yazarın döyüşmək üçün qələmindən başqa nəyi var? Amma bir məsələni də qeyd etmək yerinə düşərdi ki, əslində ehtiyac içində yaşayan qələm sahibinin yazdığı xalqa daha yaxındır. Millətin varlığı beş-üç xalqın sərvətini öz altına yığıb üstündə oturanlardan ibarət deyil. Gündəlik bir qarın çörək üçün həyatı olmazın işgəncə və əzablardan keçən insanlarımızın aqibəti həqiqi qələm əhlini düşündürməlidir. Onun "Villa yarışı" şerində biz bunun şahidi oluruq:

Hasara alınıb bölüşdürülüb,
Kasıba qalmayıb bircə qarışı.
Qarabağ taleyi yaddan çıxıbdır,
Gedir məmləkətdə villa yarışı.

Ölənə gor üçün tapılmır məkan,
Millətin əlində deyildir sükan,
Torpaq tutanlarda olsaydı imkan,
Göydə bölərdilər qarı, yağışı.

Əziz oxucu, bu şeir bugünkü taleyimizlə baş-başa deyilmi?! O, "Viranə parklar" şerini əslində ana təbiətə bizdən qat-qat xeyirli olan dilsiz-ağızsız ağacların ikiayaqlı, şüurlu, fəqət amansız bəndələrin ucbatından başı kəsildiyini, bədəninin yetmiş yeddi yerə parçalandığını ağrılı bir dillə qələmə alıb:

Ağac budağını ağac yerinə
Basdırırlar yerə guya bitəcək.
Gecələr kəsilir yüzillik ağac,
Kəsdirən bilir ki, izi itəcək.

Bəli, yüz illik ağacın təbiətə ərməğan etdiyi oksigen bu gün əkilən pöhrənin xeyriylə bir deyil. Bu gün əkilən pöhrələrin xeyri üçün uzun illər lazımdır. Bu gün öz başına bəla olan insan havasızlıqdan əzab çəkir. Cavan infarktlı xəstələrin sayı artıb, artıq uşaqlar arasında da bu xəstəliyin daşıyıcılarının sayı çoxalıb. Bəydadaş bəy bir həkim dəqiqliyi ilə bu bəlaları şərə gətirib və döyüşən misralarını səbəbkarlara qarşı tuşlayıb. Şairin vətəndaş yanğısını duyduqca, adam qürurlanır. Düşünürsən ki, İlahi, nə yaxşı misralarını haqqa, ədalətə ünvanlamış şairlər var. Dünyanın qulağı kar deyil ki, mini eşitməsə, biri eşidər... Şair "Didərgin kitab" şerində kitabxanaların basqıya məruz qalmasından, kitab dükanlarının sayının azalmasından, rüşvətin ayaq tutub yeriməsindən, xalqın ağrı-acılarıyla köklənmiş binəva alimin maaşının qəpik-quruş olmasından ürək yanğısıyla söz açılır:

Ziyalı maaşı dilənçi payı,
Başa vura bilmir onunla ayı,
Günbəgün azalır ölkədə sayı,
Alimin getməyi elə ayıbdır.

Üç ali təhsil ocağının, bir texnikum diplomunun daşıyıcısı olan Bəydadaş Cəfərlinin şeirlərinin dərinliyi adamı heyrətləndirir. Mən neçə-neçə tədbirlərin iştirakçısı olarkən yaradıcı insanlardan eşitmişəm ki, şairə ali təhsil, şairlik Allahdan gəlir. Amma onu da diqqətli və əzəmətli oxucuların nəzərinə yetirmək istəyirəm ki, şeir savadlı və savadsız olur. Hər bir şeir müəllifin kimliyini açıb ortaya qoyur, istər qafiyə baxımından, istər misraların dərinliyindən, istərsə də sözün bəndlər içində öz yerində olmasından. Bəydadaş Cəfərlinin savadlılığı, ziyalılığı şeirlərində boy göstərir. Onun "Ləpələr" şerindən axırıncı bəndə diqqət edək:

Baş alıb taledən qaçanlara de,
Tale qucağına tələsir yenə.
Bir ləpə sahildə şəhid olanda
Təzəsin doğmağa yel əsir yenə.

Təşbehlə, ibarələrlə dolu olan şeirdə, o, ləpələri insan taleyilə müqayisə edir. İnsan taleləri müxtəlif cür olduğu kimi, ləpələr də müxtəlifdir, lal, pıçıltılı, tələtümlü. Sükutun içində bir qorxu, bir titrəyiş olduğu qədər

tələtümün içində də bir sükut gizlənir. Şair "Elm" şerində elmin insan taleyi üçün nə boyda böyük səadət olduğunu önə çəkir:

Qavrayan beyində dağtək qalana,
Şöhrət gətirəndir nəzər salana,
Çətinə düşənə, darda qalana,
Köməklik göstərən mürvətdir elm.

Həqiqətən də elmli insan hamı tərəfindən eyni cür qəbul olunmasa da bütün dövrlərdə öz ağılı, biliyi sayəsində qüvvətli, qüdrətli olub, hətta müqəddəs kitabımız "Quran"da da elmin, biliyin aliliyindən bəhs edir. Onun dalınca getməyi tövsiyə edir. Əlbəttə, dini ağılla dərk edəndə insana irəliləyiş, mövhumatla qəbul edəndə insana gerilik bəxş edir. Bu geriləmənin içində nə qədər göz yaşı, nə qədər bədbəxtlik özünə yuva qurur. Ona görə şair elmi insan beyni, zehni üçün ən müqəddəs sərvət adlandırır.

Min illər bəşərin beynində, şüurunda yuva qurmuş məkr, hiylə ağılla çarpışmaqdadır. Neçə-neçə talelərin yolunda sərt qaya kimi durur, neçə-neçə arzuları heç-puç edir. Elə şair də "Məkr" şerində bütün bunları dilə gətirir. Bənd-bənd misralarının ovqatına kökləyir:

Mənbəyi, mənşəyi məlum olmayan,
Hər cür xəstəlikdən betərdir məkr.
Şərə xidmət edir vicdanı kordur,
Həmişə böhtanlar bitirdi məkr.

Şairin "Məmur", "Zərrələr, Kürrələr", "Real şair həyatı", "Tanrım" "Məmləkətim" və sadaladıqca adlarını sadalamaq istədiyin şeirlərini oxuduqca göz önündə bugünün mənzərələri canlanır. Bugünümüzlə yüklənən beynimizin ağrı-acıları misralar içində ah-ufla boylanır. Şərəfi, namusu, mənliyi, ləyaqəti misralarından boylanan Bəydadaş Cəfərlinin şeirlərini oxuduqca oxumaq istəyirsən. Bu sanballı şeirlərin içində məsum insan taleyindən nigaran bir şairin məddahlığa, yaltaqlığa, qorxaqlığa, cəhalətə boyun əyməyən qürurlu ilhamı var. Birdən mənə sual edərsiz, ilhamın da qürurlusu, qürursuzu var? Bəli, istedadı olanın ilhamı onun xasiyyəti, şəxsiyyəti və mənliyilə, ailədə aldığı təlim-tərbiyəylə, təhsil-elm ocaqlarından əxz etdiyi biliklə, mütaliəsi, ən nəhayət, savadıyla

birləşir. Yazarın mənliyi, şəxsiyyəti və xasiyyəti, savadı necədirsə, ilhamı və o ilhamdan doğan şeriyyəti-nəzmiyyəti, nəsri, publisistikası da elə olur. İlhamı millətinin ağrı-acısına köklənmiş yazarlar heç vaxt öz şəxsi yaşayışını millətinin güzəranından ayırmır, onun çəkdiyi dərdi-qəmi öz ruhu-canından keçirir. Müəllifin "Ola" şerində arzuladığı kimi:

Ömür saymadığım ötən günləri,
Tutub saxlamağa fərmanım ola.
Ürəklərdən qəmi, gözlərdən nəmi
Biryolluq silməyə dərmanım ola.

deyən Bəydadaş Cəfərli xalqın ağrı-acılarını, dərdini, qüssəsini, gündəlik çörəkpulu tapmayan, evində ətdən, balıqdan, toyuqdan hazırlanan təamlara həsrət qalan, xəstələnəndə dərman pulunu yuxusunda görən insanlarımızın dərd yükünü ürəyində, qəlbində daşıyır, öz ağıl tərəzisində ölçüb-biçir, misra-misra şeirlərinin ovqatına yükləyir, yəqin ki, özünün ürək ağrılarıyla birlikdə! Çünki bir söz adamı kimi bilirəm ki, qəmdən yazmaq, yaşadığın cəmiyyətin dərd-sərini çiyinlərində daşımaq yazanın səhhətinə nə divan tutur? Axır vaxtlar mənim ürəyim hava çatışmazlığından əzab çəkir. Min yolla başımı qarışdırıram ki, bir az ömrünü uzadım və nə qədər yazılmamış mövzularımı araya-ərsəyə gətirim. Şairin haqdan, ədalətdən deyən, əzmi ilə insan qəlbini riqqətə gətirən ürəyə məlhəm şeirləri mənə gözəl İsmayıllının saf havasıtək könüloxşayıcı, ruhverici, şəfaverici, zövqverici, dirildici oldu. Hörmətli Bəydadaş Cəfərli, ürəyin və ilhamın yorulmasın. Zehnin, idrakın dağ zirvəsindən yerə enməsin. Bu minvalla yaradıcılıq uğurları, türk qardaşlarımız demişkən, əllərinə sağlıq...

06.12.2010

AZƏRBAYCAN GERÇƏKLİYİ

1991-ci ildə "Ürək, niyə ağrıyırsan?!" ilk toplum dünya işığına vəsiqə qazanandan sonra uzun müddət ədəbi aləmdən ayrıldım. Səbəbi də o idi ki, bir həqiqəti gün kimi aydınca dərk etmişdim ki, yazar olmaq böyük bir məsuliyyətin altına girmək deməkdir. İstər şair, istər yazıçı, istərsə jurnalist olsun, əsl həqiqəti ortaya qoymalıdır. Heç kimə şər yaxmadan, heç kimi qaralamadan, heç kimin haqqını tapdalamadan, heç kimə yal-

taqlanmadan, heç kimə məddahlıq etmədən ağlının, şüurunun diktə etdiyi kimi, vicdanınla xoş məramlı təmasından rövnəqlənib əsl həqiqətlər fonunda yazmalısan. Yəqin ki, hər bir ciddi yazar dərk edir ki, o bu gün üçün yazmır. O, sabaha görə bu günü qələmə alır. Elə birinci kitabımda da əsl həqiqətlər ortaya qoyulmuşdu. Bu hələ o zamanlar idi ki, sovet hökuməti dağılmamışdı. Deyəsən mənim bəxti qara ilk kitabımın ayağı sovet hökumətinə düşmədi. Az müddət sonra onun ölüm xəbəri bütün dünyanı yerindən silkələdi. İndi bir çox siyasətbazlar, vətənbazlar, partiyabazlar, tayfabazlar, hoqqabazlar, habelə boşboğazlar sovet hökumətinin ölümünü Qarabağ hadisələrilə bağlayır, amma mən belə düşünmürəm, əslində Qarabağ və ümumən Sovet İmperiyası daxilində baş vermiş faciələr Sovetlər Birliyinin dağılması üçün qabaqcadan yazılmış, böyük dövlətlər tərəfindən planlaşdırılmış bir ssenari idi. Ssenarinin müəllifi isə hegemon dövlət olan Amerika, Qarbaçovsa bu ssenarinin baş qəhrəmanı idi, necə deyərlər, balıq başından iylənmişdi. Qorbaçovun Rusiyadakı tərəfdaşları isə ona görə bu addımı dəstəklədilər ki, yığdıqları milyonları həzm etmək üçün... Vaxtilə 300 illik Romanovlar sülaləsinin, yəni çar Rusiyasının altını üstünə çevirmiş və bütün dünyanı öz imperialist inqilabıyla çalxalamış, sosialist adı altında xalqları yenidən qoca imperiya qartalının caynaqları altına yığmış V.İ.Leninin təbirincə desək: "Yuxarıdakılar ölkəni idarə edə bilmirdilər, aşağıdakılar isə bu qaydayla yaşamaq istəmirdilər". Əlbəttə ki, dünyanın heç bir yerində vətəni olmayan, qaraçı qövmü olan ermənilər (hayklar) də bu cızılmış plandan yetərincə yararlandılar. Daha doğrusu, əzəli qardaşları ruslar bu baş verənlərdən onları dəyərincə mükafatlandırdılar. Bəs erməni sevgisi ruslarda nə zamandan yaranıb?.. Rusiya Qafqazda öz dayaqlarını möhkəmləndirmək üçün dünyanın heç yerində yeri-yurdu olmayan ermənilərdən istifadə etdi. Siz sual edə bilərsiz ki, xristian dininin qollarından biri – eyni pravoslav məzhəbin daşıyıcıları olan gürcülərlə ruslar niyə bu birliyi yarada bilmədilər? Ona görə ki, gürcülər ruslara işğalçı kimi baxır və Qafqaz onların ata-baba məkanıdır. Ruslara isə yersiz-yurdsuz bir qövm lazım idi ki, onları daimi boyunduruqda saxlasınlar. Özləri cənubi Qafqazda asanlıqla lövbərlərini sala bilsinlər. Bu qövm isə ermənilər oldu. Rus imperiyası Azərbaycanımızın ata-baba torpaqlarının hesabına qılınc gücünə ermənilərə dövlət qurdu. Ermənilər yaxşı tanıyan millətlərin aydınları yaxşı bilirlər ki, onların bir neçə üzü var. Bu bir neçə üzlü millətdən ruslar Qafqazda bu gün də yararlanmaqdadırlar. Əslində

Ermənistan adlanan dövlətin adı ermənilərin, dadı isə ruslarındır. Onlar necə lazımdır Qafqazda bu dövlətin dadını çıxardırlar. Ermənilər isə bu dövlətin kirayənişinləridir. Sual edə bilərsiz nəyə görə? Ona görə ki, gəlmədilər, yerli deyillər. Onları burda yerli edən ruslardır, ermənilər onlardan daimi asılılıqdadırlar, çünki ermənilərə dövlət, ruslara isə cənubi Qafqazda daimi at oynatmaq üçün məkan lazım idi... Məzhəbləri ayrı olsa da, əqidə birliyi dadlarına yetib. Həmişəki kimi... Əslində təkcə ruslar yox, hegemon xaçpərəst dövlətlər niyə ermənilərin tərəfindədir? Bunun səbəbini millətimizin çox qismi müsəlman dini ilə bağlayır. Yaşlı və gənc nəslin arasında bu fikir dolaşmaqdadır, ancaq birinci səbəb müsəlmançılıq yox, ölkə əhalisinin böyük bir qisminin türk olmasıdır. Hegemon dövlətlər ikinci bir türk dövlətinin bu bölgədə möhkəmlənməsinin əleyhinədir. Məhz müsəlman dövlət olan, güney Azərbaycanın öz əsarətində saxlayan İranla da bu məsələ də fikirləri üst-üstə düşür, çünki tarixləri silkələyən türk xofu onların qan yaddaşında öz dərin izlərini buraxıb... Bu baxımdan can-dillə ermənilərə tərəfkeşlik edirlər. Öz haqq işimiz uğrunda dünyanın böyük istilaçıları ilə çarpışmaq üçün bizə uzun bir mübarizə yolu lazımdır. Bu ölkənin vətəndaşı olan hər kəs başının altına yastıq qoyub dərin yuxuya getməməlidir, çünki əzəli yurdlarından çıxmışlar öz əzəli yurdlarına qayıtmalıdırlar. Bu belə olmasa, bizim bugünkü müstəqilliyimiz də olmayacaq. Bu məsələnin hamımız bir nəfər kimi dərkinə varmalıyıq. Bu gün bizim düşmənlərimizin çoxluğunun səbəbini dinimizdə yox, dilimizdə və hansı kökün təməlində durmağımızda axtarmalıyıq. Əgər bunu danmaq mümkündürsə danın, hansı millətdən istəyirsizsə olun, əgər bu sizə zövq verirsə... Ey internet portallarında səhərdən-axşamadək millətin dininə, onun həyatda daşıdığı mövqeyə dodaq büzənlər... Sizin axırınız hara gedir?!

Əslində ov silahları da əlindən alınmış kişilərimiz ordusuz, əliyalın imperiya qoşunu ilə üz-üzə qaldı. Elə burdaca bunun ən böyük günahını kürsü aşiqlərində görürəm. Onlar Moskvanın sözüylə yox, namusunun, vicdanının səsilə oturub-durmalı idi, amma təəssüf ki, bu belə olmadı... Biz ermənilərlə yox, rus işğalçılarıyla döyüşürdük, çünki ruslar onlara qahmar çıxmasaydılar, ermənilər bizimlə üz-üzə gəlməyə cəsarət tapmazdılar. Qarabağ döyüşlərində canıyla, qanıyla şücaət göstərən kişilərimiz hər cür hörmətə, izzətə layiqdirlər. Məhz onlar namuslarının tapdalanmasına, ana-bacılarının, arvad-uşaqlarının yağı əlinə düşməsinə dözə bilmədikləri üçün əliyalın, əllərinə keçən silahlarla nəyi bacardılarsa onu etdilər. Mən

Qarabağ döyüşçülərinə məğlub kimi baxmıram, onlar qəhrəmanların qəhrəmanıdırlar. Rusiya bizim qolumuzdan qandalları tam açmayıb, yurdlarımızı işğal altında saxlamaqla bizi öz tabeliyindən tam buraxmamağa çalışır, Qarabağ düyünü rusların idbar siyasətçilərinin əlindədir. Rusların daxildən öz burunları əzilməsə biz bu zillətdən çətin qurtararıq. Bu gün Rusiyada rəhmətlik Roxlin kimi siyasətçilərin sayı artmasa onun öz sabahı sual altında olacaq. Rusiyanın daxilində hələ zəncirlərdən qurtulmamış sayı milyonları ötmüş rus olmayan azsaylı xalqlar haqlarının tapdalanması məcburiyyətindədirlər. Rus hökuməti qandallardan azad olmuş ölkələrin azadlığını heç cür həzm edə bilmir. Bütün bunları yazıya gətirməkdə məqsədim heç də siyasəti çözələmək deyil. Tarixlə politoloqlar, tarixçilər, siyasətçilər məşğul olmalıdır, ancaq doğru-düzgün şəkildə... Bu da onların öz vicdanına qalıb...

Sovetlər Birliyinin dağılması bir tərəfdən bizə müstəqillik bəxş etdisə, digər tərəfdən bizi qarşısı alınması çətin olan bir çox problemlərlə baş-başa qoydu. Bu problemlər bu gün də yaşadığımız ölkənin hər sahəsində öz çılpaqlığıyla büruzə verməkdədir. Torpaqlarımızın az bir hissəsində müstəqillik ab-havasında yaşayırıqsa, bu bizim hələ tam xoşbəxtliyimiz demək deyildir, çünki bu müstəqilliyi göz bəbəyimiz kimi qoruyub saxlamaq üçün biz öz-özümüzlə, öz içimizdə inqilab etməliyik. Hamı bir nəfər kimi bu müstəqilliyin bayrağından, himnindən, himnin sözlərindən tutmuş bütün dəyərlərini can-dildən sevməlidir. Öz ailəsi kimi, ailəsinin içindəki uşağı kimi, nəfəsi kimi, insanın var olmasının əsas amili olan hava kimi, su kimi... Müstəqilliyimizi qazanan gündən demokratiya pərdəsi altında xalqın baş-beyni korlayan saysız-hesabsız sektalar qapı-qapı düşüb avam, pulsuz, köməksiz insanlarımızın şüurunu korlamağa başladılar. Bu, dünən özünü müsəlman kimi görən, müsəlman adət-ənənəsilə yaşayan insanlarımızın bir çoxunun beynini zəhərləməyə başladı. 70 il sovet sisteminin allahsızlıq, dinsizlik qadağaları altında yaşayan millətimiz ruhunu qorudu. Ata-babalarının əziz bir nemət təki saxladığı adətləri öz qan yaddaşında əzizlədi, ürəyində bəslədi, əqidəsindən dönmədi, onun üstünə heç bir ləkə düşməsinə yol vermədi. Bizim insanlarımızı nə əydi görəsən, maddiyyat çatışmazlığı və yaxud mənəviyyat yoxsulluğu? Əslində Azərbaycanda sektalaşma siyasəti aparanlar mənəvi casuslardır. Şimali Azərbaycanımızın varlığını yox etmək istəyənlərdir. Əgər dünən bu insanların sayı barmaqla sayılası idisə, bu gün minlərlədir. Ölkəmizə əməlli-başlı xarici missionerlərin

axını başladı. Pulsuz paylanılan boş-boş xülyalarla doldurulmuş kitablarla, aylıq ac millətə ödənilən məvaciblə sektalaşma sevdası gündən-günə insanlarımızın içində artdı, hətta bu bölgələrimizdə də tüğyan etməyə başladı. Bu gün sektalaşma gedən bir ölkədə sabah qardaş qardaşa qarşı çıxmayacaqmı?! Xristianlaşma, sektalaşma iki yüz il rusun əlaltısı olan və nəinki türk qövmünə, hətta bu ərazidə yaşayan müsəlman inanclı digər azsaylı xalqlara qənim kəsilən ermənіyə güllə atmamağı, onunla can deyib can eşitməyi təbliğ edir bizlərə... Bu ermənіylə müharibə şəraitində olan Azərbaycana nə vəd edir? Deməli, bizi içəridən dağıdıb məhv etmək istəyirlər. İş burasındadır ki, həmin bu adamlar müsəlman adlarını və soy adlarını daşımaqla millətimizə yad, ögey dinlərə, sektalara xidmət etməkdədirlər. Bu adamların ədəbi aləmdə də boy göstərmələri bu gün ağlı kəsən hər kəsə gün kimi aydındır. Onlar, islam inanclı millətimizin kimliyinə qara yaxır, məxsusi şərq aləmi ilə qırılmaz tellərlə bağlı olan ədəbiyyatımızı, musiqimizi, folklorumuzu danır və dünənimizin üstündən qara xətt çəkirlər. Bu şəxslər internet portallarında, necə deyərlər, at oynadır, xalqımızın kimliyini danırlar. İnternet portallarında bu adamların minlərlə oxucuları var. Jurnalist adıyla ermənilərin evinin içinə qorxusuz-hürküsüz gedib-gələn bu insanlarda milli hisslərdən başqa hər şey var. Əsasən internet saytlarından gənc nəsil istifadə edir. Deməli, sabahımız olan gənc nəslin beyni zəhərlənir. Nə qədər acı, ürəkbulandırıcı olsa da bunu etiraf etməliyik. Əslində dinlər müasir ikiayaqlı bəndələrin əlində oyuncağa çevrilib. Biri ondan öz siyasətini qurmaq üçün, digəri qazanc mənbəyi kimi, bir başqası başqalarından fərqlənmək üçün istifadə edir. Elə xristianlığa pərəstiş, onlar kimi yazmaq, onlar kimi danışmaq, toylarda gəlin və bəyə şampan içirtmək, qərb musiqilərinin sədası altında atılıb-düşmək, toyu iyrənc, çığır-bağırla dolu şouya çevirmək və sair. Onu da qeyd etmək yerinə düşər ki, bir tərəfdən gəlinlə bəyə Quranın haram saydığı spirtli içki olan şampanla dolu olan qədəhlər təslim olunur, digər tərəfdən elə ordaca onları Quran altından keçirdib dinimizə uyğun kəbin kağızı təqdim edilir. Heyrətamiz və acı bir mənzərə deyilmi?! Bir şeyi diqqətinizə yetirim ki, toyda pul yığmaq elə özümüz sayaqdır. Onu heç cürə dəyişmirik, çünki bu bizim cibimizin xeyrinədir.

Təhsilimiz qənaətbəxş deyildir. Savadsız, kitabdan, mütaliədən uzaq düşən, yazı-pozu bilməyən təbəqə yaranmağa başlayır və bu gənclərin sayı minlərlədir. Hamının söyüb təhqir etdiyi Sovet hökumətinin bir işi var idi

ki, elmə, təhsilə ciddi fikir verirdi. Alimin də, çobanın da, fəhlənin də, bir sözlə, bütün zümrələrdən olan insanların uşaqları təhsil görürdü. Məktəbi atmaq, oxumamaq, demək olar ki, yox idi. Bu gün isə avtobuslarda, metroda, küçələrdə məktəbyaşlı uşaqların alış-verişlə, yəni alverlə, yaşına uyğun olmayan işlərlə məşğul olduğunun şahidi olursan. Gələcəyimiz olan, canı bərkiməmiş balaların bəs sabahı necə olacaq? Məktəb ola-ola repetitor təhsili ilə ali məktəblərə üz tutan imkanlı uşaqlar kimi deyil axı bu gələcək vətəndaşlarımızın taleyi! Bir çox ali təhsil alanlarımızın isə bilik səviyyəsi yox dərəcəsindədir. Rüşvət verməklə ali təhsil alan, rüşvət verməklə elmi iş yazdırıb alim olanlarımızın sayı yağışdan sonra çıxan göbələklərə bənzəyir. Sonra bu alimciyəzlər ali məktəb otaqlarında binəva xalqın balalarına dırnaqarası elm öyrədirlər. İndi pullu adamların sevimli balaları ali təhsil almaq üçün xarici ölkələrə üz tutur. Nəyə görə? Niyəsinin səbəbi yuxarıdakı yazdıqlarımdır.Təəssüf ki, bizdə xarici ölkələrdən fərqli olaraq təhsil ocaqlarında pul xərcləyirik ki, oxumayaq. İnternetdən başı çıxan və yaxud ali məktəbdə oxuyan tələbələrin bir qismi internet çatlarında saatlarla məktublaşmaqla və porno-videolara baxmaqla məşğuldur. Kitabdan, tarixdən, mətbuatdan uzaq bu insanların gələcəkdə necə mütəxəssis olması indidən göz qabağındadır. Bəlkə də biz dünyada internetdən bu cür istifadəyə görə birinci yerlərdəyik. Bir ölkədə ki müəllim müraciəti bütün zümrələrdən olan hər kəsə şamil edilirsə, onda bugünkü məktəbimizin, mətbuatımızın, ədəbiyyatımızın, mənəviyyatımızın hali-vəziyyəti də bu şəkildə olmalıdır.

Əziz oxucular, neçə vaxtdan bəri məni narahat edən bir məsələni də sizinlə bölüşmək istəyirəm. Hicab barədə. Dərinliyinə varanda din fəlsəfədir. Hicab da bu fəlsəfənin bir qoludur. Baxmayaraq ki, ilahi varlığı tamamilə danıb, özünü Allah səviyyəsində sayanların sayı cəmiyyətdə günbəgün artmaqdadır. Onlar dinin boş ideologiya olduğunu aləmə canfəşanlıqla faş etməkdədirlər. Bəs günbəgün sayı artan bu filosoflar, şairlər, yazıçılar özləri kimdir? Haqqın nurunu danan bu sovet allahsızlıq ideologiyasının mənəvi məhsulu ilə çayır kimi qol-budaq atmış dırnaqarası bu bəşər fədailəri boş-boş cızma-qaralarından savayı özləri dünyaya nə bəxş edib? Onlar dünyanın təkərini hara döndərmək istəyirlər? Bəli, mən də səhərdən axşama qədər namaz qılıb heç bir işin qulpundan yapışmayan, gününü ibadətdə keçirdib ətrafdakılara ikrah hissi ilə baxanlara, müqəddəs dinimizi xurafatda əzənlərə yaxşı baxmıram, amma içində haqqın nuru

olmayan adamın yazdıqları boş-boş sözçülükdən savayı bir şey deyildir. Füzulini Füzuli eləyən Allah sevgisi idi. Dahi Üzeyiri dahi edən də bu işıq, bu nur idi. Ona görə də onları oxuyanda və dinləyəndə insan ruhu dilə gəlir. Bu diləgəlmə isə həyəcanlanma və duyğulanmayla olur. İnsan təbiətin zəif bir qüvvəsidir. Həm də təbiətin dağıdıcı qüvvəsidir. Başıbəlalı ağlının hesabına təbiəti məhv edir. Bu məhv öz istəklərinə nail olmaq üçün təbiəti özünə tabe etmək hesabına olur. O, haqqın verdiyi ağıl hesabına yaşayır, ancaq bu ağılı bəzən şər, bəzən isə xeyir qüvvə idarə edir. Allah da bu bənzərsizlik içində insanı öz ağlının ümidinə buraxıb, çünki Yaradan hər kəsin əməllərini yaxşı görür. Din insan həyatında xeyrə yönəlirsə, bunun nəyi pisdir? Bir haşiyə çıxım: Metroda gedirdim. Növbəti dayanacaqda salona 6-7 yaşlarında arıq, çəlimsiz, hicablı qızcığaz və onun cavan yaşında, üzü taraş edilməmiş, görkəmindən dindar, atası daxil oldu. Cavanlardan biri bu qızcığaza yer verdi. Qız əvvəl oturdu, sonra nə fikirləşdisə ayağa qalxdı və öz yerini atasına verdi. Ata oturmaq istəmirdi, qız təkidlə atasını oturtdu və özü də onun qucağında əyləşdi. Salondakılar sual dolu nəzərlərlə bir-birinə baxmağa başladılar. Bir çoxunun üsulluca dodağı da qaçdı. Cavan ata camaatın baxışlarında əks reaksiyanı gördükdə pərt oldu və növbəti dayanacaqda salonu tərk etdi. İndi siz deyin: 6-7 yaşlı, hələ ağlı kəsməyən qızcığazı hicablamaq nə əhəmiyyət kəsb edir? Deməli, bu uşaq hicabın mahiyyətini dərk etmir, dərk etsəydi atasının qucağında oturmazdı və ata da camaatın içində utanc vəziyyətinə düşməzdi. Əslində biz islam inanclı bir ölkədə doğulmuşuq, adlarımız da Əli, Vəli, Tükəzban, Fatma və sairdir. Daima analarımızın, nənələrimizin örpəyi olub. Bu gün də yaşlı qadınlarımız bu örpəkdən məmnuniyyətlə istifadə edir. Dini hansı şəkildə qəbul edib, hansı şəkildə həzm etmək hər kəsin öz daxili savadı, tərbiyəsi, mənəviyyatından və düşdüyü mühitdən aslıdır. Bu yaxınlarda qarşılaşdığım bir hadisəni də nəql etmək istəyirəm, çünki bu hadisəni də hicab barədə fikirlərimin davamı sayıram. Nəşriyyatdan çıxıb Elmlər Akademiyasının bağından metroya tərəf gedirdim. Bağ qələbəlik idi. Əsasən yaşlılar və uşaqlar buradakı istirahətin zövqünü çıxartmaqda idilər. Bir skamyada əyləşmiş hicablı bir qızla cavan oğlan diqqətimi cəlb etdi. Bəlkə də bu qızın başında hicab olmasaydı mənim diqqətimi cəlb etməzdi. Sayardım ki, gündəlik qarşılaşdığımız səhnələrdən biridir. Cavan oğlan qolunu hicablı qızın boynuna dolamışdı. Siz deyin, bu hicablı qızın qələbəlikdə qol-boyun olmasının hansı namusa, qeyrətə, adət-ənənəyə dəxli var? Qarşı skamyada

isə yaşlı kişilər oturmuşdu. Belə görünür ki, Azərbaycanda Həcc mövsümü dəb xarakteri aldığı kimi hicab da dəbə düşüb. Bu hicab örtənlərin az bir qismi Allaha sidq-ürəklə bağlıdırlar. Baş örtüyü təkcə islamda deyil, bu bütün dinlərdə, elə bir çoxlarının sevib pərəstiş etdikləri xaçpərəstlərdə də var. Sadəcə, onlar dinlərini yeniləşdiriblər, müasirləşdiriblər. Rahibələrini çıxmaq şərti ilə onların qadınları baş örtüyünü yalnız kilsəyə ayaq basarkən və yas yerlərində örtürlər. Son vaxtlar internetdə tüğyan edən portallar, virtual qəzetlər, mətbəədə çap olunan qəzetlər, televiziya, radio, bütünlükdə bütün məlumat qurumları hicabla bağlı xoşagəlməz xəbərlərlə gündəmdədirlər. Dini ağılla, mərifətlə qəbul etmək heç də insanın ziyanına deyil, onu bir çox iyrəncliklərdən və çılpaqlıqlardan çəkindirir, amma hər şey qədərincə olmalıdır. Dahi Nizami demişkən: "Artıq içiləndə dərd verir su da". Bu gün bizə nə hicabı şişirdib cəmiyyətin bəlasına çevirmək, nə də ona qorxulu bir kabus kimi baxmaq lazımdır. Əgər mövhumata qurşanıb elmdən bilikdən, təhsildən uzaqlaşacağıqsa, onda bizim sabahımızı bundan da ağır fəlakətlər gözləyir. Gəlin etiraf edək ki, əgər ananın savadı yoxdursa, əksər hallarda bu uşağın təlim-tərbiyəsində özünü büruzə verir. Mən savad deyəndə təkcə ali məktəbi nəzərdə tutmuram. Orta məktəbi yaxşı bitirmiş ana da uşağının savadlanmasına diqqətli olur, ancaq bu gün hicaba girib təhsildən uzaq düşmək, erkən yaşlarında ailə qurmağa sürüklənmək, kişilərimizin yenə də qadınlarımıza ikrah hissilə baxmasına və xaçpərəst qızlarla izdivaca girməsinə sürükləməyəcəkmi?! Onsuz da biz azəri qadınlar bu gün də bu fəlakətlə baş-başayıq. Bölgələrimiz yaşı 50-ni, 60-ı keçmiş qarımış qızlarımızla doludur, çünki onların yaşıdları olan kişilərimiz xaçpərəst qadınların sevdasına düşüb öz qız həmvətənlərinin taleyinə biganə qalıb. Özü də bizim kişilərin bir qəribəliyi haqqında da öz fikirlərimi qədirbilən oxucularla bölüşmək istəyirəm. Onlar bizim millətin qızlarıyla nikaha girməmişdən öncə dönə-dönə onun əsil-nəslini ələkdən keçirirlər. Həmin əsil-nəsil ələkdən təmiz çıxandan sonra gözaltı etdiyi qızla ailə həyatı qurur, ancaq başqa millətlərin qızları, qadınlarıyla həyat quranda isə əsil-nəsil məsələsi qətiyyən onları maraqlandırmır. Eşq ön plana keçir və eşqlə ailə həyatı qurur, böyük bir sevgiylə xaçpərəstlərin adlarını da doğulan uşaqlara qoyurlar. Özləri də ailə qurduqları bu qeyri-azərbaycanlı qadınlar üçün ev işindən tutmuş çöl işinə qədər hər iş görürlər, təki başqa millətdən olan zövcələrinin gözündən düşməsinlər. Onlar qeyri-azərbaycanlı qadınlarının qarşısında əməlli-başlı qulluqçuya çevrilirlər,

nəticədə dili, azərbaycançılığı, həm özləri, həm də uşaqları itirirlər. Bu çox vaxt belə olur... Halbuki bizim qadınlar kimi ailəcanlı, uşaqcanlı, ərcanlı, evcanlı yoxdur. Ömrümün 22 ilini erməni, rus, gürcü, yəhudi əsillilərlə bir idarədə işlədiyimə görə bu qənaətdəyəm. Qoy kişilərimiz mənim bu iradımdan inciməsinlər. Yaradanın dünyanın altını üstünə çevirməməsi üçün həqiqət nə qədər acı olsa da onu hərdənbir dilə gətirmək lazımdır. Mən də bacardığım qədər, ağlımın kəsdiyi qədər yazmağa başladığım gündən həqiqəti dilə gətirməyə çalışıram...

Gəlin müsəlman ölkələrinin hal-vəziyyətinə diqqət kəsilək. Əfqanıstan, Pakistan, İraq, İran və sair. Bunlarla yanaşı, Malayziya kimi iqtisadiyyatı inkişaf etmiş müsəlman ölkə də var. Deməli, geridəqalmışlığı biz müsəlmançılıqda yox, həmin millətlərin, xalqların kökündə axtarmalıyıq. Səhərdən axşama qədər, axşamdan səhərə qədər özümüzü tərif edib bir-birimizi mədh etsək, bu bizi hara aparar? Bu gün avam, savadsız ailələrdə İranın uzunsaqqal mollalarının kitabları doludur. 30 milyonluq güneyli bacı-qardaşlarımızın şərəf və ləyaqətini tapdalayan, bizim başımızın üstündən erməniyə raket başlıqları, bir sözlə silah, yemək içmək, yanacaq ötürən, ticari alış-verişi edən İran mollaları tutduğu bu əməllərinə görə bəs müsəlman olmağından, Allahından, Quranından qorxmurmu?! Əlbəttə ki, qorxmur, çünki onlar islama inanmır, islam onlara öz siyasətlərini yeritmək üçün, komfort həyatlarını qurmaq üçün lazımdır. İmperialist qonşumuz İran dilini, varlığını, torpağını əsir etdiyi cənubi Azərbaycanın ayağa qalxacağı gündən qorxur. Kəsə dillə desək şimali Azərbaycanın müstəqilliyi onların ürəyindən deyil. Ona görə də ölkəmizin içində və çölündə fəsad törətməklə məşğuldur. Əslində erməni sindromu həm Rusiyaya, həm də İrana lazımdır. Hər ikisi də bundan yetərincə faydalanır, bu məsələdə artıq din, iman arxa plana keçir. Hər iki imperiya baxmayaraq ki, ayrı-ayrı dinlərin daşıyıcılarıdır, can-dildən birləşirlər, bu məsələdə qardaşlaşırlar. Mən bunu «Siyasətdi, siyasət» şerimdə yazmışam:

Dinlər əldə oyuncaq...
Söndürülüb çox ocaq,
Qan içində hər bucaq,
Əzir milləti millət,
Siyasətdi, siyasət...

Elə buna görə də bugünkü təklənməyimizi islamla bağlamaq gülünclükdür. Bir də təkrar edirəm, bunun kökündə din yox, soy-kök, mənsub olduğumuz millət durur. Əgər öz kökündən, soyundan üz çevirmək istəyirsənsə, buyur çevir. Hegemon millətlərin dəyənəyi altında yaşamaq istəyirsənsə, buyur yaşa. Xaçpərəstlərə sevginizi daşdırmamışdan öncə bu məsələ barədə dərin düşünmək lazımdır. Bu gün torpaqları paramparça edilmiş bir yurdun yazarının əbədi mövzu olan məhəbbətə qapılması, hansı dəyərlərdən xəbər verir? Tarixin əsasını öncə yazarlar, salnaməçilər qoyub. Orxon-Yenisey abidələrində, Dədə Qorqud dastanlarında biz nəyi axtarırıq? Kimliyimizi! Deməli, heç də baş verən faciələri, sosial bəlaları ədəbiyyata gətirmək cılızlıqdan yox, istedaddan xəbər verir. Qaldı istedadın dərəcəsi fitrətdən asılıdır. Əgər bu istedad varsa, hər sahədən yazmağı bacaracaqsan. Bu gücü özündə hiss etməyənlər bu mövzulara qulp qoyurlar. Məhəbbət hər kəsin içində var. Bu mövzuya heç yazar olmayan da haçansa ürəyində bədiiləşdirib şəxsi gündəliyinin səhifəsinə həkk edir. Bu gün qlobal məsələləri ədəbiyyatda əks etdirə bilməyənlər dahilərin yaradıcılığında bəhs olunan sosial bəlalardan, dəhşətli müharibələrdən bəhs edən mövzulara dodaq büzürlər. Çünki əlinə qələm götürüb nəyisə yaratmaq istəyənlərin bir çoxu bu gücü özlərində görmürlər. Bütün bunların dərinliyinə varanda görürsən ki, dünyanın doğru-düzgün tarixini öncə vicdanlı ədəbiyyat adamı yaradır.

Qafqaz yanğın içindədir... Bu yanğında kimi günahlandırmaq olar? Kibriti, hansı ki, yanğın ondan başlayır, ya o əli ki, hansı ki, kibriti çəkib?!

Artıq küçələrimiz gənc, uzunsaqqal, qısaşalvar kişilərlə doludur. Onlar da Azərbaycanda heç vaxt olmayan ayrı bir məzhəbin dindaşlarına, təəssübkeşlərinə çevrilib. Nəyə görə?.. Bu niyənin səbəbindən başda oturanlarımız xəbərsiz deyillər. Deyilənlərə görə onlara aylıq ödənilən məvacib bu yola ayaq basanlara kifayət edir ki, onlar gənc yaşlarından qısa şalvar geyinib uzun saqqal saxlasınlar. Məzhəblərə gəldikdə isə müqəddəs kitabımız «Quran»ın 6-cı surəsinin 159-cu ayəsində deyilir:

"(Ya Rəsulum! Şübhəsiz ki, sənin firqə-firqə olub dinini parçalayanlarla heç bir əlaqən yoxdur. Onların işi Allaha qalmışdır. Allah sonra (qiyamətdə) onlara nə etdiklərini xəbər verəcəkdir!)"

İslama inanmayanlarımızı qoyuram bir tərəfə, sizə üzümü tuturam, ey din əhli, indi dini kitabımız olan "Quran"a inanım, ya başı çalmalı məzhəb təəssübkeşləri mollalara? Deməli, məzhəblər də hegemonluqdan, mənəm-

mənəmlikdən meydana gəlib. Əslində bütün dövrlərdə pul insanların başına bəla mənbəyi olub. Gündəlik maddi ehtiyacını ödəmək üçün bəşər övladı hansı acılardan keçməyib. Biz əvvəllər kölə millət idik. Bu gün nə qədər Koroğludan, Cavanşirdən, Babəkdən, Şah Xətaidən ürəkdolusu danışsaq da bu belə idi. Fakt odur ki, ürəkdolusu dəm vurduğumuz babalarımız çoxdan müstəqillik qazanmış millətlərin babaları kimi birləşə bilməyib və bu birləşə bilməmək sonrakı dövrlərdə Azərbaycanın neçə yerə parçalanmasına və imperiyalar əlində oyuncağa çevrilməsinə səbəb olub. Azərbaycan dediyimiz bir ölkə iki böyük imperiyanın əlində alət idi. Bunun səbəbinin çox dərin kökləri var. Elə bu gün iki imperiyanın boyunduruğu altında yaşamış quzeyli-güneyli vətəndaşlarımız xaricdə də olsa birləşə bilmirlər, çünki güney fars tərbiyəsi altında, quzey rus tərbiyəsi altında iki əsrdən çox gün-güzəran keçirib. Rus mentaliteti ilə fars mentalitetinin bir araya gəlməsi üçün səbirlə, təmkinlə, dözümlə uzun bir yol getmək lazımdır. Bu yolun çətinliklərinə dözə bilsək birləşəcəyik, dözümsüzlük göstərsək yenə yollarımız ayrı olacaq. Bizim birləşməyimizi isə biz özümüz istəmiriksə, hegemon dövlətlər heç istəmir. Bütün bunları sadalamaqda mənim başlıca məqsədim yazdığım mövzuda quzey Azərbaycanımızın bugünkü mənzərəsini canlandırmaqdır.

Bu gün mən qədirbilən oxucularımla ayrı bir məsələ barədə də fikirlərimi bölüşmək istəyirəm, yəni dərdləşmək istəyirəm. Ədəbi qurumlar barədə. Bu saat bizim ölkədə hər sahədə bolluq müşahidə olunur, təkcə puldan savayı. Pul da boldur, amma o az qisim adamın əlində toplanıb. Qalanları isə necə deyərlər ağızlarının suyu axa-axa o az qisim adamlara tamaşa etməkdədir. Onların geyim-keciminə, saysız-hesabsız zinət əşyalarına, bağ-bağatlarına, indiki dillə desək villalarına, bərbəzəkli maşınlarına, adamın ətini tökən təkəbbürlərinə, daha nələrinə, nələrinə... Varlıların həyatı millətimizdə üsyançılıq yox, paxıllıq hissi yaradır. Bu paxıllıq hissi isə cəmiyyətdə oğruların, rüşvətxorların, əliəyrilərin, dinsizlərin, allahsızların, sektalaşanların, narkomanların, əxlaqsızların, dəbbazların, falçıların, dinbazların, məzhəbbazların, mövhumatbazların, yazarbazların, bilmirəm daha nə bazların sayını artırır. Bu minvalla Azərbaycan gerçəkliyinin girdabında gün-güzəran keçirməkdəyik. Bu gün sən nəyisə əldə edə bilmirsənsə, qonşundan, tanışından, dostundan maddi baxımdan geridəsənsə, heç də bunun günahını müstəqillikdə axtarmaq lazım deyildir. Bunun günahı birinci özündədir. Yaxşı yaşamaq üçün ağıllı, şüurlu, çalışqan olmaq

lazımdır. Sovet sisteminin ən pis cəhətlərindən biri insanları ələbaxımlılığa öyrətmək idi. Sovet sistemi, necə deyərlər, hər təbəqədən olan insanların nazını çəkirdi. Onlar müstəqil yaşamaq prinsipinin nə olduğunu özlərində əxz edə bilmirdilər. Bu da axırda bu sistemin məhvinə gətirib çıxartdı. Can-dildən pərəstiş etdiyimiz Avropa ölkələrinin həyatı ona görə təmtəraqlıdır ki, onlar dincəlməyin dadını qocalan vaxtda, yəni təqaüdə çıxandan sonra çıxarırlar. Yaxşı yaşamaq üçün vaxtında texniki biliklərə yiyələnmək, ən azı bir-iki xarici dil bilmək lazımdır. Uşaq vaxtından çalışqanlığı özündə vərdişə çevirməlisən. Bugünkü həyatımız bunu tələb edir. Gəlin görək bütün bu dediklərimizin hamısı bizim hər birimizdə çatırmı? İndiki gün-güzəranın içində gündəlik yemək-içmək pulu tapmayan səsi olmayan müğənnilər, ömründə bir bədii kitab oxumayan şerin, ilhamın nə olduğunu anlamayan, ümumiyyətlə, ədəbiyyat nəzəriyyəsi haqqında təsəvvürü olmayan şairlər, yazıçılar, pulun, rüşvətin hesabına alim adı alan, müqəddəs alim adına xələl gətirən alimciyəzlər, adi səhnə mədəniyyəti olmayan aktyorlar, sözü hansı şəkildə oxucuya çatdırmaq iqtidarında olmayan jurnalistlər ordusu yaranıb, amma mənim artistlərlə, müğənnilərlə qətiyyən işim yoxdur. Özümdə cızma-qara elədiyim üçün elə qələm əhli barədə möhtərəm oxucularımla dərdləşmək istəyirəm. İldə iki-üç nömrəsi çıxan aşağı səviyyəli qəzetlərdə, jurnallarda baş alıb gedən məddahlıqlar insanda hərdənbir yazı-pozuya qarşı əməlli-başlı ikrah hissi yaradır. Deyirsən, iyirminci əsrin əvvəllərində o boyda möhtəşəm qələm əhli olmuş məkanımız, görəsən, niyə bu günə düşüb? Bunun səbəbi nədədir? Həddindən artıq savadlı olmağımızda və ya kitabdan, mütaliədən uzaq düşməyimizdə? Bu qarmaqarışıqlığın içində yaranan, iddiaları yeri-göyü lərzəyə salan ədəbi qurumlar və bu qurumların içindən peyda olan sədrlər, müdirlər, baş redaktorlar və bunların küləyi adam yıxan hikkələri... Bir sözlə, kimi avropasayaq yazıb Nobel mükafatı almaq istəyir, kimi müsəlman adı və soyadı daşımasına baxmayaraq, müsəlmançılığa nifrət edir, kimi tamamilə Azərbaycanın keçmişini danır və Azərbaycanın elə bugündən başladığını elan edir. Kimi bütün bunların başımıza gəlməsində islamın günahkar olduğunu elan edir. Kimi iyirmi ildə Azərbaycan ədəbiyyatında heç nə yaranmadığını elan edir. Kimi özünü dahi sayır və özündən başqa Azərbaycanda yazar tanımır. Kimi Yazıçılar Birliyində yazarların çoxluğundan şikayətlənir. Əlqərəz, aləm qarışıb bir-birinə. Qəzetlərə, internet portallarına baxanda adamın əməlli-başlı hönkür-hönkür ağlamağı gəlir. Ciddi yaradıcılıqla

məşğul olanlar isə çox azdır və onlar da bu qarmaqarışıqlığın içində itib batır. Azərbaycanın islam mənəviyyatının içində boya-başa çatdığını və bu günümüzə gəlib yetdiyini nədənsə müsəlmançılığı gerilik mücəssəməsi sayanlar anlamaq istəmirlər. Anlamaq istəmirlər ki, İslam 1400 illik tarixi ilə mədəniyyətimizi, mənəviyyatımızı çoxdan öz ağuşuna alıb. Nizamidən, Füzulidən üzü bəri klassik nümunələrimizi, muğamatımızı, folklorumuzu, tariximizi dananlar birbaşa erməni və onun havadarlarının dəyirmanına su tökənlərdir. Bəlkə də erməni havadarlarından və ya ermənilərin özlərindən qrant alanlardır. Dünənimizin üstündən qələm çəkən azərbaycançılar nəyi özlərində əxz etmək istəyirlər? Əslində bəzi qurumlar və bu qurumların içində Azərbaycanın özlərisayaq təəssübünü çəkənlər ədəbiyyatımızda da bir növ şou yaradıb bununla gündəmdə qalmaq istəyirlər. Yəqin düşünürlər ki, bu ölkədə musiqi (estrada) aləmində şou yaranıbsa, onlar bu şou ilə gündəmdədirlərsə və bütün xalq onları tanıyıb pərəstiş edir, bəs biz niyə şou yaradıb gündəmdə olmayaq?! Bu da yəqin günümüzün ədəbiyyat şoularıdır. Mən düşünürəm ki, mənəviyyatı biznesə qoymaq əxlaqi cinayətdir! İki şeir, ya bir hekayə yazan kimi tez yadlarına düşür ki, ay aman, belə nəzərləri cəlb edə bilməyəcəklər, o saat ya bir qəzet, jurnal və ya ədəbi qurum yaradıb baş olurlar. Yaranan qurumların içində peyda olan yazarların çoxusunun yazdıqları isə boşboğazlıqdan savayı bir şey deyil. Yaranan ədəbi qurumlar arasında bir-birinə hədsiz nifrət, bir-birini saymamaq, bir-birinin yazdığına yuxarıdan aşağı baxmaq ön plandadır. Ən çox söyülən, təhqir olunan isə Yazıçılar Birliyidir. Mən bu birliyin adını çəkirəm ona görə yox ki, özüm də bu birliyin üzvüyəm. Çoxillik ağrı-acıdan keçmiş böyük bir yazarlar qüvvəsini öz ətrafında cəm edən bu birlik hansı əzablara, hansı zülmlərə giriftar olmayıb? Onu nədə suçlandırırlar? Sovetlər Birliyi dövründə yarandığına görəmi? Sovetlər dönəmi yaşadığımız ömrün bir hissəsidir. Sovet yazıçıları yaşadıqları dövrü əks etdiriblər. Bu gün isə başqa dövrdür. Onu qoparıb atmaq, o dövr yazarlarının üstündən xətt çəkmək, tarixin üstündən xətt çəkməkdir. Gəlin unutmayaq ki, Yazıçılar Birliyi ədəbi dilimizin, sovetlərdən öncəki ədəbiyyatımızın, bütünlükdə mədəniyyətimizin bu günümüzə daşınmasında fədakar olub. O, həmin illərdə imperiya boyunduruğunda olmasına baxmayaraq, ana dilimizin paklığının keşiyində durdu. Azərbaycanımızın idarələrində rus dili tüğyan etdiyi bir vaxtda bu birlik millətin dilinin cəfakeşi oldu və onun ədəbi dilini bu günümüzə daşıdı. Bununla mən Yazıçılar Birliyini mədh etmirəm.

Onun heç buna ehtiyacı da yoxdur və mənim də onu mədh etməyə ehtiyacım yoxdur, çünki vaxtında özümə gün ağlamışam, başa düşmüşəm ki, yaradıcılıq gündəlik maddi tələbatını ödəmək üçün dolanışıq yeri deyil. Qaldı o dövrdə sistemin mədhinə, bu, indi də var. Heç kəs sənin əlindən tutub buna məcbur etmir. Bu hər kəsin qəlbindən və ağlından asılıdır. Bütün günü çayxanalarda qeybətlə günlərini başa vuranlar sonradan bu qeybətləri yazdıqları cızma-qara şeirlərə, məqalələrə (əgər məqalə, şeir demək mümkündürsə) gətirir. Özünə alov, atəş, Azərbaycan, vətən, türk ləqəbləri qoyub vətənin dünənini dananlar nə əldə etmək istəyirlər?.. Boş sözçülükdən, ifrat şitlikdən bədii nümunə yaranmaz, habelə şeir alınmaz. Gözəl şeir idrakın və hissin sevdasından doğulur. Ən başlıcası isə əgər fitrən ilhamın varsa... o əsər yaranacaq... İnternet saytlarında erotik şeirləri, bayağı yazıları ilə ətraflarında hır-hır yaradanlar uyduqları şou mənzərəsinin içində itib-batırlar. Biz bizə aid olan çox tarixlərin üstündən xətt çəkmişik, ona görə indiki vəziyyətə düşmüşük. Tarixi unudanlar öz kimliyini unudanlardır. Bu qurumların üzvlərinin bəzilərinin yazdıqları isə xaçpərəst ölkələrin tərcümə əsərlərini xatırladır. Bu yazıları mütaliə edəndə adamda belə fikir yaranır, ay həzərat, bizim qələmdaşlarımız Avropanın qələmdaşlarına necə pərəstiş etməkdədirlər, nəinki onların xoşbəxt həyatları, ədəbiyyatları da bizim yazarların bir qismini əməlli-başlı valeh edib. İnsanlarımız Avropanın bərbəzəkli həyatına can-dildən vurulub. Avropanın kiçik bir şimal ölkəsi olan Hollandiyanın 41.5 min kvadratkilometr ərazisi var. Əhalisi isə 16 milyondur. Bizim türk əsillilər və eləcə həmvətənlərimiz Hollandiyada artıq icma təşkil edirlər, məgər biz öz ölkəmizdə o şəraiti, o demokratiyanı, o düzlüyü yarada bilmərikmi?! Bizim Quzey Azərbaycanımızın ərazisi 86.6 min kvadratkilometr, əhalimiz isə 9 milyondur. Bəs hollandlardan, bütünlüklə avropalılardan fərqli bizdə, yəni qanunları yazan və onların təsdiqlənməsinə əl qaldıran kişilərimizdə, uşaqlıqdan südünü əmib tərbiyəsini mənəviyyatımıza yeritdiyimiz qadınlarımızda nə çatmır?! Mənə elə gəlir ki, müstəqil yaşamağın yolunu bilməmək... Ələbaxımlığı, mütiliyi, tənbəlliyi, müstəqil olmamağı uşaq vaxtdan beynimizə yeridir valideynlərimiz. Sonra uşaq bağçalarında, sonra məktəblərdə, ən sonda isə ali təhsil ocaqlarında biz bu acı həqiqətlə üz-üzə qalırıq. Əsasən bu oğlan uşaqlarında özünü büruzə verir. 30-40 yaşlı oğul ata-anadan asılı vəziyyətdə olur. Müstəqil heç bir qərar çıxara bilmir. Gəlin etiraf edək ki, bu bir çox ailələrdə belədir. Ölkənin təməli ailənin təməli üzərində qurulur. Əgər

ölkədə ailə təməli düzgün qurulmayıbsa, laxlayırsa, bu həmin ölkənin dövlət quruculuğunda özünü büruzə verir və həmin ölkənin insanları acı həqiqətlə üz-üzə qalır. Bu bəladır. Bu bəlanı biz müsəlmançılıqda yox, öz mənəvi dünyamızda axtarmalıyıq. Bu dünyada inqilab etməliyik. Onda bizim ölkə də Avropa ölkələri kimi xoşbəxt və firavan olacaq. Burda bir haşiyə çıxım, tanış bir alman tərcüməçi qadının mənə söylədiklərini eynilə istəkli oxucularıma çatdırmaq istəyirəm:

"Müsəlman əhli avropalıların əzab-əziyyətlə qurduğu gözəl şəhərlərə axışırlar və oralarda özlərinə gün-güzəran yaradırlar. Bu bizim heç xoşumuza gəlmir. Gəlməyinə gəlin, ancaq gəzməyə... Biz bu cah-calalı özümüz üçün yaratmışıq, gəlib niyə bizim yerimizi dar edirsiz?! Biz də qonaqpərvərik, amma bizə gələn qonaqlar sonra öz vətənlərinə qayıtmaq istəmirlər. Siz müsəlmanlar öz ölkənizdə tənbəlsiniz, amma yad ölkələrdə ən çirkli işləri görməyə hazırsız. Bu sizdə yaxşı cəhət deyil, ona görə biz sizlərə yuxarıdan aşağı baxırıq, inciməyin. Axır vaxtlar bəzi yazarlarınızın yazdıqları bədii nümunələr də elə bil Avropa insanının beynində istehsal olunub. Bilinmir bunu şərqli yazıb, ya qərbli! Qabaq sizin əsərləri tərcümə edəndə mənə ləzzət edirdi. Hiss edirdim ki, müsəlman insanının qələmindən çıxıb. Vaxtilə sizin Mirzə Şəfi Vazehin şeirləri sübut etmişdi ki, məhz şərqli qələmindən çıxıb. Sizdə nə baş verir? Mənəvi dəyərlərinizmi iflasa uğrayır?» Doğrusu, bu alman qadının sözlərində həqiqət necə çılpaqlığı ilə çığır-bağırda idi və bu çığır-bağırın içində bu günümüzdən hayqıran bir həyəcan var idi. Bu həyəcandan isə, istəkli oxucular, biz, siz, minlər, milyonlar boylanır Azərbaycan gerçəkliyinin girdabında ah-uf edə-edə... Özümə də aidiyyəti olmaqla sizə bir sual ünvanlayıram.

BİZ HARA GEDİRİK?!

02-09.01.2011

Və bu yazının ovqatına köklənmiş çoxdan yazdığım bir şeri də bu məqalənin davamı sanıram:

JORJİKLƏR

Özün qoyar dağ başına jorjiklər,
Bir bəladır öz başına jorjiklər.
Öz dilinə divanətək gülürlər,
Dindirəndə çox yuxarıdan gəlirlər,

Öz dilindən başqa hər dil bilirlər,
Nə ögeydi adətinə jorjiklər,
Necə yaddı millətinə jorjiklər.

Əsli-kökün yaxınına qoymayır,
Nizami kim, Füzuli kim duymayır,
Dahiyanə muğamata uymayır,
Ləkə olub hörmətinə jorjiklər,
Necə yaddı millətinə jorjiklər.

Yad ləhcədə danışmadan ötüşməz,
Şaxta vurmuş sünbül təki yetişməz,
Yurd qəlbində bir yaradır bitişməz,
Nə haraya, nə fəryada yetişməz,
Vurulub öz qamətinə jorjiklər
Necə yaddı millətinə jorjiklər.

Özgə xalqla hər havaya oynayır,
Canbir olub qarışqatək qaynayır,
Qəlbi, qanı yad millətlə qaynayır,
Vallah, billah tale ilə oynayır,
Şükürlüdür qismətinə jorjiklər,
Necə yaddı millətinə jorjiklər.

Bilmir, onun bu vətəndə özü nə?
Tarixi nə, alimi nə, sözü nə?
Öz elinə haram baxan gözü nə?
Bu torpaqda yaşamağa üzü nə?
Ortaq elin sərvətinə jorjiklər,
Necə yaddı millətinə jorjiklər.

Yurdum deyib ürəklərdə bitənin,
Hər ağrına, hər acına yetənin,
Yuxuda da bülbül təki ötənin,
Bu müqəddəs, bu qibləgah Vətənin
Fərq qoymayır qiymətinə jorjiklər,
Necə yaddı millətinə jorjiklər.

Kəbə hara, qiblə hara bilməyir,
El yanında dönüb xara bilməyir,
Gətiribdi xalqı zara bilməyir,
Bu yol onu çəkir dara bilməyir,
Vurulubdu xilqətinə jorjiklər,
Necə yaddı millətinə jorjiklər.

Bayatının şirinliyin qanmayır,
Layla ilə, tar, kamanla yanmayır,
Bu vətəndən olduğun da danmayır,
Kimliyini bircə kərə anmayır,
Səbəb olub illətinə jorjiklər,
Necə yaddı millətinə jorjiklər.

Adlarını yad xalqlardan götürür,
Uşağından nəvəsinə ötürür,
Nəslinin keçmişini bitirir,
Dədəsinin kimliyini itirir,
Yağıdır soy nemətinə jorjiklər,
Necə yaddı millətinə jorjiklər.

Soruşanda azəriyik deyillər,
Azərinin ana dilin əyillər,
Qanı bizdən, dili bizdən deyillər,
Əcnəbinin önündə baş əyillər,
Damğa vurur qeyrətinə jorjiklər,
Necə yaddı millətinə jorjiklər.

Qürbət təki yaşayır öz elində,
Şair, alim, dahi olmaq əlində,
El duyğusu vurmaz ürək telində,
Hey yaradar yad bir xalqın dilində,
Əhsən deyər vüsətinə jorjiklər,
Necə yaddı millətinə jorjiklər.

Xalq içində tanınmayır yad təki,
Batıb qalıb buz içində od təki,
Ağızlardan qopub düşər dad təki,
İçimizdə haray, fəryad, dad təki
Səbəb Tanrı heyrətinə jorjiklər,
Necə yaddı millətinə jorjiklər.

Öz dilindən, öz dinindən dönəndi,
Yad ölkədə ulduz olub sönəndi,
Ağız açıb yad havayla dinəndi,
Zirvələrdən ayaqlara enəndi,
Necə babdı xislətinə jorjiklər,
Necə yaddı millətinə jorjiklər.

Elitayıq deyirlər bu millətə,
Çatdırırıq onun adın şöhrətə,
Biz salırıq özümüzü zillətə,
Ay adamlar, minnətə bax, minnətə,
Salmaz özün heç çətinə jorjiklər,
Necə yaddı millətinə jorjiklər.

Haykanuşlar canlarına yar olub,
Doğduqları yurd başına dar olub,
Erməniylə canbir olmaq car olub,
Əllərindən cümlə-Vətən xar olub,
Sadiq olub öz xəttinə jorjiklər,
Necə yaddı millətinə jorjiklər.

Xaçpərəstin ayağına düşəndi,
Cazı, repi sümüyünə düşəndi,
Xalqın ruhu ürəyini deşəndi,
Bu üzlərdən Allah özü üşəndi,
Uyub şeytan ülfətinə jorjiklər,
Necə yaddı millətinə jorjiklər.

Ay camaat, qınamayın siz məni,
Yandırıbdı gördüyünə göz məni,
Alışdırır ürəyimdə köz məni,
Gəldi dilə qoymaz rahət söz məni,
Sığışmaz heç el bətninə jorjiklər,
Necə yaddı millətinə jorjiklər.

15.05.2001

ƏLİ RZA XƏLƏFLİNİN "ÜÇÜNCÜ DÜNYANIN QORXUSU" POVESTİ HAQQINDA MÜLAHİZƏLƏRİM

Mən payızı çox sevirəm. Bilmirəm, üzü payıza doğulduğuma görəmi və ya payız adama saralıb tökülən yarpaqlarıyla insan ömrünə daxil olacaq əsl həqiqət olan xəzanımı xatırladır? Bəlkə bununla bir bağlılıq görürəm, amma bu sevgimin mahiyyətinə vara bilmirəm. Bir onu bilirəm ki, payıza çox bağlıyam. Payızda daha çox yazıram. Yatmış duyğularım oyanır, inanıram ki, yayın qora bişirən atəşindən sağ çıxdım, deyəsən, bir il də yaşayacağam. Bəlkə heç vaxt sevmədiyim yayın ürək partladan istisindən sonra havaların sərinləşməsi məni payıza o qədər bağlayır, çünki duyğularım oyanır, ruhumda yeni bir canlanma başlayır. Bu canlanma təzə həyatın qapısını açır mənim üçün...

Əlqərəz, həmin vaxtlarda "Kredo"ya gəldim. Cəfakeş Əli Rza Xələfli mənə yenicə çapdan çıxmış kitablarını təqdim etdi. Diqqətimi "Üçüncü dünyanın qorxusu" əsəri cəlb etdi, artıq müəllifin saytından bu kitab haqqında məlumatım var idi, ancaq povesti oxuyandan sonra ondan yazmaq duyğusu könlümdən keçdi. Sözdən söz yaradan Əli Rza Xələfli əsərdə hər bir kəsin ürəyində yatmış duyğuları oyadan həqiqətdən söz açır. Həqiqət isə bir çox mətləblərin ortaya çıxmasında insana yardımçı olur, hərçənd ki, bəzən o adamlara xoş gəlməsə də!..

Biz insanlar doğulub həyatı dərk edəndən sonra bir içində yaşadığımız dünyanı, bir də uşaqlıqdan evdə böyüklərimizdən, böyüyüb özümüzü dərk edəndən sonra isə din adamlarından, dini kitablardan bəhrələnib məlumatlanırıq ki, bəs haqq dünyası var, insan dünyasını dəyişəndən sonra öz yaxşı və pis əməlləri ilə birlikdə haqq dünyasına qovuşur. Səmavi kitab-

lar o dünyanın varlığından bizlərə gen-bol məlumat verir. Bu məlumata, yəni o biri dünyanın varlığına inanan inanır, inanmayan isə yox. Mənə elə gəlir ki, inananların sayı inanmayanlardan çoxdur. Ancaq gəlin etiraf edək ki, günbəgün cəmiyyətdə yalançı peyğəmbərlərin sayı artmaqdadır, hətta Allahlıq iddiasına düşənlər də yalançı peyğəmbərlərlə yarışmadadı. Bu o düşüncə sahiblərinin öz işidir, çünki hər kəs öz ağlının aynasından yaşadığımız dünyaya sarı boylanır, amma mən mövzudan kənara çıxmaq istəmirəm, ona görə də qayıdıram yazacağım mövzunun üstünə...

Maraqlı burasıdır ki, odlu-alovlu nəzmi ilə, publisist yazıları ilə cild-cild kitablar yapan Əli Rza Xələfli bu dəfə oxuculara bədii nəsrin dili ilə üçüncü dünyanın varlığından bəhs edir. Bəli, düz oxudunuz, məhz üçüncü dünya!... Bəs üçüncü dünya hardadır? Müəllif üçüncü dünyanın insan qəlbində, könlündə yuva saldığından söhbət açır. Bəli, heç kəsə sirr deyil ki, hər kəsin könlündə gizli bir dünya var. Əli Rza Xələfli bu dünyanı üçüncü dünya adlandırır. Əslində müəllifin "üçüncü dünya" adlandırdığı dünyada təkcə kiminləsə olmuş eşq, məhəbbət ağrısı yox, itirilmiş günlər, ötüb keçən ömrün taxça-taxça düzülmüş acıları, göz yaşlarının nə vaxtsa gürşadlar, leysanlar doğmuş dəryaları, çayları, gölləri, zirvələrində əlçim-əlçim qarları parlayan qəm dağları, neçə-neçə diləkləri heç-puç edən dərələri, insan arzularını bir anda xıncım-xıncım edən sıldırım qayaları var. Biz bu dərinliyə varanda insan qəlbində sirli dünya olduğu ehtimalına varırıq. Bu dünyanın qapıları daim adamın özündən başqa qeyrilərin üzünə bağlı olur. İnsan öz ağrı-acılarıyla ölənə qədər iç dünyası ilə, üçüncü dünya ilə baş-başa qalır, hətta üçüncü dünyanın qapılarını öz əzizlərinin üzünə belə açmır. Əli Rza Xələfli məhz bu reallığı növbəti kitabının mövzusu edib.

Müəllifin "Üçüncü dünyanın qorxusu" povesti başdan-başa mesaj-məktublardan ibarətdir. Əsərdə iki obraz var. Kişi və Qadın. Hər ikisi ailəlidir, amma nə vaxtsa bir-birlərini uzaqdan-uzağa seviblər, əfsus ki, bu sevgi hansınınsa günahı ucbatından baş tutmayıb. İllər keçdikdən sonra Qadın hardansa onun telefon nömrəsini tapıb ona zəng edir. Kişi Qadının qəfil zəngini həyatında bir çevriliş sanır. Üçüncü dünyada, başın atıb yatmış, məhəbbət yenidən baş qaldırır, onun şölələri yenidən keçmişdə bir-birini sevmiş ürəkləri yandırır, amma hər ikisi ailəli, hər ikisi saysız-hesabsız şəxsi qayğılar, çətinliklər ilə üzbəüz, ancaq bütün bu qadağalar, keçilməzlər, heç olmasa, onların bir-birinə telefon vasitəsi ilə mesaj yazmaq istəyini öldürə bilmir. Baxmayaraq ki, qadın xəstədir, ağır

cərrahiyyə əməliyyatı keçirib və tez-tez əsəb sarsıntıları ilə baş-başadır. O, indi üçüncü dünyada haçansa məzarlanmış, fəqət torpaq altdan boy atıb qalxmış, yaşlı bir ağacın zoğ atmış fidanına bənzəyən məhəbbətinə layla çalır. Bu laylanın könül oxşayan şərqisi, lap uzaqlardan gələn pıçıltılarla onun qulaqlarına dolur, Qadında xoş ovqatlar yaradır, ağır xəstəliyin törətdiyi fəsadları yavaş-yavaş ona unutdurur, hətta həkimlər də onun halının belə tez yaxşılaşmasına təəccüb edirlər. O, hər gün ona yazılan mesajları səbirsizliklə gözləyir, telefondan səs gəlməyəndə darıxır, səbirsizləşir, sanki qadın üçün yeni həyat başlayıb, hər şey təzələnib, lap elə onun köksündə baş qaldıran gecikib yollarda azmış, hansısa qəfil əsən tufanın qovğalarında göylərə sovrulmuş məhəbbəti də! Povestin diqqət çəkən məziyyətlərindən biri də odur ki, burada təsvir olunan obrazlar dərin psixoloji sarsıntılar içərisində ağrı-acılarını bir-birlərilə bölüşürlər...

Bəlkə Qadınla Kişi obrazı müəllif tərəfindən düşünülmüş şəkildə adsızdır, çünki müəllif bu adsız obrazları, deyəsən, bütün dünyada sevgisinin ağrısını yaşamışların xatirəsinə həsr edib. Qəlblər arasında uçulan körpülərin ağrı-acılarının gətirdiyi həyəcanlar nakam ürəklərdə dərin-dərin yaralar açıb. Əsrlərlə adı tarixə düşməmiş Leyli və Məcnun timsallılar bu dünyanı nakam tərk edib. Öz istəklərinin odunda yana-yana ruhən kül olublar, amma insanın bir qəribə tərəfi də var ki, o ürəyində illərlə yığılıb qalmış dərdini kiminləsə bölüşmək istəyir. Ona görə özünə daim əziz bir həmdəm axtarır. Bu həmdəm isə çox vaxt insanın iç dünyası olur. Rəvayətə görə, Makedoniyalı İsgəndər öz sirrini heç kəsə deməzmiş, amma ürəkdə yığılıb qalan sirlər bir müddətdən sonra ürəyə ağırlıq edib dərdə çevrilir. Böyük hökmdar öz dərdini quyuya danışmaq məcburiyyətində qalıb və bununla da o, özünə təsəlli tapıbmış...

Gəlin etiraf edək ki, insan əzəli dünyanın ağrıları içində itib-batır. Adama təsəlli verən, onunla daim sevgili munis kimi pıçıldaşan üçüncü – iç dünyasında ona təsəlli olan bəlkə də ruhudur. Ürəyinin ruhla bağlı gizliliyi, insanın öz-özünə ruhaniliyidir. Ən ağır anlarda insan bəzən daxildən pıçıltılar eşidir. Bu pıçıltılar adamı ruhlandırır, hansısa bir işin qulpundan yapışmağa sövq edir. Adam daxildən gələn pıçıltıların möcüzəsindən baş açа bilmir. Hardan gəlir bu ilahi səs? Qulağa dolan sədalar hansı gözəgörünməz varlığın möcüzəsidir? İnsan saatlarla öz içinə çəkilir, özüylə haqq-hesab edir, səhvlərini can tərəzisində ölçüb-biçir. Ona edilən yaxşılıqları-yamanlıqları və ya özünün etdiyi yanlışlıqları çək-çevir edir,

bəzən üçüncü dünyaya qapılmalar dəliliyə, ruhi sarsıntılara, intihara gətirib çıxarır. Allah heç kəsi daxili tənhalığa mübtəla etməsin. Əli Rza Xələflinin "Üçüncü dünyanın qorxusu" kitabında məhz daxili tənhalıqdan əzab çəkən iki orta yaşlı insanın ürək çırpıntıları, keçirdikləri həyat sarsıntıları ustalıqla, bədii sözün qüdrətilə oxuculara çatdırılır. Onları nə ailə, uşaq, nə də o duyğulardan doğan fərəhli anlar sevindirmir. İstər Kişi, istər Qadın – hər ikisi daxilən tənha və bədbəxtdirlər. Bəs bu bədbəxtçiliyin kökündə nə durur? Cəmiyyətin qayda-qanunlarımı, sanki çox vaxt ailədə diktator rolunu oynayan ailə başçılarının hegemonluğumu? Övladlarına öz əşyası kimi baxmalarımı məhəbbətsiz qurulan ailələrin sayını çoxaldır? Və yaxud əsrlərlə milli adət-ənənələrin kökündə dayanan mövhumatmı və bu mövhumatın xofundan doğan yanlışlıqlarmı?! Nə qədər ölkəmizdə sevgisiz qurulan ailələr var. Xüsusilə də qohumlarla, xalaqızı, bibiqızı, əmiqızı, dayıqızı və çox vaxt bu ailələrdə doğulan xəstə, zəif, ağıldankəm uşaqlar....

Müəllif iki sevən qəlbin dili ilə, az qala, ağrıları qarabasmalar kimi dilə gətirir. Hər ikisi telefon yazışmasının onların həyatında yaxşı heç bir şey etməyəcəyinə əmindirlər. Adama elə gəlir ki, nisgilli bir ayrılma ilə bitəcək bu yazışmanın kökündə inamsızlıq var. Əsərin sonlarında birbirinə sənlə müraciət edən nakam məhəbbət daşıyıcıları uğursuz eşqi yenidən ürəklərində dəfn etmək qərarı ilə baş-başa qalırlar. Hər ikisi birbirilə birləşmək qorxusunun sonradan baş verəcək fəsadlarının ağrısıyla qol-boyundurlar, çünki önlərində bir keçilməz dağ var. O dağın başından sal buzlar asılıb üzü aşağı, əl vursalar qopub onları sıldırım qayalardan dərə aşağı yuvarladarlar...

Müəllif əsərin bir yerində Kişi surətinin dili ilə Keygidər quşundan söhbət açır. Bu quş insan, yurd sevgisinin rəmzi obrazıdır. Bu obrazı əsərdə səsləndirməklə Əli Rza Xələfli öz oxucularını yurda, kökə, soya bağlılığa çağırır, çünki bu bağlılıq qırılanda insan ürəyində ən pak sevgi olan yurd sevgisi də ölər. Adam soyunu, kökünü unudar, başqa millətlərin əlində oyuncağa çevrilər. İki obraz arasında hərdən əsəbi, çılğın yazışmalar da olur, hərdənbir xasiyyətlərinin gizli tərəfləri üzə çıxır. Gizli tərəflərin önündə də yenə sevgi durur. O sevgi saf, büllur sulartək dupduru, gözündən qaynayan bulaqlara bənzəyir. Məhəbbət insan həyatına qəfil gəlir və qəfil də insan ruhunda zəlzələlər qoparır, müdhiş təlatümlər yaradır, insanı öz əsirinə çevirir, amma hamı da mənə elə gəlir ki, sevən qəlb sahibi deyil, çünki məhəbbət Allahın vergisidir, istedad kimi o da hər adama verilmir.

Məhəbbət də seçilmiş adamlara verilir. Çoxları heç sevginin böyüklüyünü, ucalığını dərk etmək gücündə deyil. Sevgisiz ailə qurur, sevgisiz övladlar dünyaya gəlir, sevgisiz də öz ömrünü bitirib bu dünyanı tərk edir. Bəlkə o sevgisiz ailələrdən doğulan uşaqlar da sonradan böyük-böyük qanqırğınların, cinayətlərin, amansızlıqların müəllifinə çevrilirlər. İnanmıram ki, sevgiylə doğulmuş bir insan kiminsə həyatına qəsd edə, pisliyə, yamanlığa rəvac verə...

Müəllifin Kişi və Qadın obrazı yanıqlı bir dillə öz həyatlarının görünməyən tərəflərini bir-birlərinə açırlar. Təbii söz sərrafı olan müəllif "Üçüncü dünyanın qorxusu"nu real dünyamıza ünvanlanan mesaj-məktublar vasitəsi ilə qədirbilən oxuculara çatdırır. O, oxuculara müasir zəmanədə minlərin, milyonların yaşadığı acı həqiqətləri əsərin qəhrəmanlarının dili ilə aşkar edir. İnsanları öz hissləri, öz ürəkləri ilə oynamamağa dəvət edir. Bu mesaj-məktublar məhəbbətə keçici deyənləri həll olunması çox çətin olan riyazi məsələlərlə baş-başa qoyur.

Bu sevgi öz kollarının müvəqqəti səadətlərinə qovuşmuş cəmi bir neçə günlüyə açmış gülləri xatırladır mənə... Açanda gözəl olurlar, solanda kədərli. Dalbadal yazılan könül mesajları açmış güllərtək necə bəxtiyardırlar, onlar hər iki ürəyi sevindirir, onları sözlə ovundurur, olub keçənlərin dəlisov hissləri ilə yandırır. Könül xanəsi adlanan üçüncü dünya Əli Rza Xələflinin yazdığı kimi öz qorxuları ilə, öz şiddətləri ilə adamı zaman-zaman göynədir, amma hərdənbir mümtaz da edir. Hər dəfə telefona mesaj siqnalları gələndə qadın özünü, hətta öz ailəsinin yanında olduğunu unudur, həzin könül pıçıltılarının sorağı ilə növbəti mesajı gözləyir...

Hər adamın içində bir iç dünya var. Əsərdə Qadın da, Kişi də bu iç dünya ilə baş-başadır. Bu dünya sirlərlə doludur. İnsan nə qədər sağdır, nə qədər arzularla qol-boyundur, onlardan kam almaq istəyi bitib-tükənmir. Hələ bilinmir üzünə açılan sabahlar arzulara qəsbkar olacaq, ya ana nəvazişi ilə onun boynuna qol salacaq, uzun saatların həyat körpülərindən keçməyə ona dəstək olacaq. Bütün bunlar insan üçün sual olaraq qalır, amma o ruhdan düşmür, yaşamaq eşqi bir anda onu tərk etmir. Povestdə Kişinin yuxuda özünün dünyasını dəyişməsi, yasa gələnlərin biganəliyi, onun öz yas mərasiminə kənardan tamaşa etməsi, ətrafdan ikrah doğuran, kinayəli, başqasının kədərinə sevinmək kimi bir mənzərənin şahidi olmasından bəhs olunur. O, bu insanların çoxunu tanımasından, onun keçmiş həmkarlarının olmasından söz açır. Müəllif burda ibrətamiz məsələyə toxunur. Doğrudan,

bu gün şouya çevrilmiş yas mərasimlərinin gurultusu toylardan beşbetər qulaq batırır, görəsən, dünyasını dəyişənlə hüzr sahibləri nə dərəcədə sağlığında can deyib-can eşidiblər ki, dünyasını dəyişən üçün bu qədər canfəşanlıq edilir? Əli Rza Xələfli hamını düşündürən bir məsələyə toxunub. Sağlığında onunla xoş rəftarda olmuş adamlar indi kənardan onun meyitinə baxıb qımışırlar. Əsərin qəhrəmanı yuxuda bu acı səhnənin şahidi olur. Onun ölümünə sevinənlər dünən onunla deyib-gülüb, bir masa arxasında sağlıq deyən kəslər deyildimi? Bəs bu biganəlik, qeyri-insani duyğular nədən doğub ki, dünənin dostluqları, tanışlıqları bu günün yasında gülüşə çevrilib?

Yeri gəlmişkən, povestin mənim xoşuma gəlməyən tərəfləri haqqında da öz fikirlərimi dəyərli oxucularımla bölüşmək istəyirəm. Bu da ailəli bir qadının, əri, iki uşağı olan bir ananın nə vaxtsa məhəbbəti olmuş bir adama zəng etməsi və onunla sevgi mesajlarına rəvac verməsidir. Mütləq azadlıq yoxdur. Hər kəs öz hisslərinin əsirinə çevrilsə, onda nə ailə səadəti, nə kişi, nə qadın sədaqəti, nə də ailə olar. Mən bu qadını əsərin mənfi obrazı kimi qiymətləndirirəm. Müəllif bu obrazı əsərinə gətirməklə qadınların iradəsiz, hisslərlə yaşayan, hətta yeri gəlsə öz ərini, övladlarını da sevgisinə qurban vermək dərəcəsində olmasından söz açır. Bu fikirlə isə qəti şəkildə razı deyiləm. Qadınların hamısı belə deyil, belə qadınlar həm cəmiyyətə, həm də öz başlarına bəladırlar, çünki hansı kişi istəyər ki, onun yarısı başqa bir kişi ilə belə bir həyatı yaşasın... Freyd fəlsəfəsi, deyəsən, bizim milli sərvətimiz olan ailə təmizliyimizi də yavaş-yavaş işğal etməyə başlayır, çünki bizdə indi sürətli avropalaşma gedir. Avropa xeyirli tərəflərindən çox, ziyanlı tərəflərilə bizim həyatımıza kobud şəkildə soxulmağa başlayıb. Avropada həyatını hisslərin əsirinə çevirən kişilər və qadınlar axırda cah-calallı evlərində ömürlərini intiharla başa vururlar. Freyd fəlsəfəsi Avropanı necə əsir edibsə, orda bütün bağlılıqlar – qohum, ata-ana, övlad bağlılıqları dəhşətli bir zəlzələdən dartılan, min bir yerə parçalanan zəncirləri xatırladır adama, hətta ailə bağlılıqlarının beşiyi olan İngiltərə də bu acınacaqlı faktla üz-üzədir. İnsan mağaradan ailəyə gəlib, bu yolda nə qədər keçilməzlərlə üz-üzə qalıb, hətta heyvanlar arasında qu quşları, durnalar, canavarlar və mənim bilmədiyim bir çox canlılar ailə bağlılıqları içərisində yaşayır.

Mənəvi dəyərlərin uçurum qarşısında qaldığı bir dövrə gəlib çatmışıq. Yeri gəlmişkən, müasir zəmanəmizdə mesajla, təsadüfi telefon tanışlığı

ilə qurulan ailələrin də sayı artmaqdadır. Bu ailələrin də ömrü çox vaxt uzun olmur. Artıq inkişaf etmiş ölkələrdə, xüsusilə Avropada ailə təməlləri uçub tökülmə təhlükəsilə üzbəüzdür. Bizim ölkədə də göz önündə, əfsus bu problemlər günbəgün artmaqdadır, amma psixoloqların göstərdiyi hesablamalar deyir ki, heç də ailəsizlik böyük xoşbəxtliyə yol açmır. O insanı tənhalıq uçurumuna aparır. Onlar öz bacı-qardaşlarının, ata-analarının yanında olsalar belə ruhən tənhadırlar. İnsanı bu tənhalıqdan isə yalnız bir sevdiyi kəs, gözünün gördüyü, ürəyinin tutduğu şəxs xilas edə bilər. Bu şəxsi isə tapmaq çox vaxt hər insanın taleyinə düşmür. Bir az xudpəsəndlik, bir az tənbəllik, bir az adamlara yuxarıdan aşağı baxmaq, bəzən insanı tənhalığa aparan səbəblərdir. Qadınların mənsəb qurmaq arzusu, layiq olduqlarından daha yüksək mərtəbələrə can atmaları, qadının qadın yerini, kişinin kişi yerini bilməmələri və yaxud bilə-bilə bunu inkar etmələri onları tənhalığa düçar edir. Bu da istər qadın, istər kişi üçün böyük faciədir. Məhəbbət adiləşib, sevgilər pulla, varla əvəz olunur, sevgisiz qurulan ailələr isə bir sabun köpüyünə bənzəyir, nə qədər qabarsa o qədər gözəl görünür, amma partlayanda isə bir an əvvəlki gözəlliyini itirir. İndiki qurulan ailələrin çoxu da elə sabun köpüyünün taleyini yaşayır. Bir soyuq nəfəs, bir soyuq baxış dəyən kimi dağılıb-tökülür.

Əsərin bir yerində Qadının xəstə günlərində, 20 il bir yastığa baş qoyduğu, ərinin onun çarpayısının yanını kəsdirməsi, ona bir uşaq kimi qulluq etməsi önə çəkilir. Baxmayaraq ki, Qadın öz ərini sevməyib, ancaq ər həyat yoldaşının çətin vaxtlarında ona həmdəm olub. Onun ağrı-acılarına şərik olub. Qadının xəstəlik üzündən çəkdiyi əzablara biganə qalmayıb, amma bir damın altında yaşayan bu iki cütlükdə sevgi olmasa da, insani hisslər ölməyibmiş, hərçənd ki, ölsəydi neçə illər bir damın altında yaşamazdılar. İndi bu ağır məqamda əri onun dadına yetməzdi. Deməli, ailə içində də hələ körpülər uçmayıbmış. Çətin anlarda bir-birlərinə can deməyi bacara biliblər, məhz insani hisslər də ailəni bu günə qədər qoruyub saxlayıb. Onun dağılmasına, məhvinə fərman verməyib. Fikrimcə, müəllif demək istəyir ki, arada sevgi olmasa da heç olmasa insani duyğular adamları tərk etməsin.

Həqiqi sevgi elə alidir ki, o ötəri hisslərin fövqündən qat-qat yüksəkdədir. Qadın bu yüksək, bu ali hissin əsiridir. Bəlkə də məktub-mesajlar ürəkdə illərlə yığılıb qalmış ailədaxili qayğılar, çətinliklər, ağrı-acılar girdabında çapalayan qəlbi üçün bir ümid yeri, müvəqqəti də olsa sevinc mənbəyidir.

Bu mərhələ Qadını yaşadır, onu yenidən həyatı sevməyə sövq edir. O, sevgilisinin ona yolladığı mesajlardan xoşbəxtdir. O, xoşbəxtliyin illərlə uzanmasını istəyir. Mesajlar on günlə ara verəndə o özünə yer tapmır, öncəki günlərinin qayıtmasını istəyir. Əslində hər iki tərəf – istər Qadın, istər Kişi kifayət qədər qayğılarla yüklənib lər. Onlar bu yükün ağırlığını çiyinlərində hiss edə-edə öz şəxsi hisslərinin əsirinə çevrilirlər.

Əli Rza Xələfli "Üçüncü dünyanın qorxusu" kitabında obrazların dili ilə məhəbbətin aliliyini önə çəkir, sevgiyə gəldi-gedər bir hiss kimi baxanların aqibətinə axırda ağrılı bir həyat düşdüyünü oxucuya çatdırır. O, sevib-sevilməyin insan həyatında oynadığı önəmi məktub-mesajlar vasitəsilə suya həsrət dodaqlar kimi ürəklərə qurtum-qurtum içirdir. Nə yazıq ki, bəzən ürəklər bu istəkdən çox vaxt uzaq olurlar, istəsələr belə öz istəklərinə qovuşa bilmirlər. Min bir qadağaları, min bir sədləri, keçilməzləri aşmaq iqtidarında ola bilmirlər. Sevgiyə sərkərdə ola bilməsələr də sənətdə, elmdə, işdə böyük uğurlar qazanırlar. Öz böyük məhəbbətlərini bu yolda xərcləyirlər. Ömürlərini isə tənha başa vururlar. Sevda dolu gecələrin pıçıltıları yatır tənhalıqlarda. Öz ömürlərini bumbuz divarlar arxasında kimsəsiz gecələrin sakitliyinə qurban verirlər.

Əsərin sonlarında müəllif mesajlarla surətləri bir-birinə o qədər yaxınlaşdırır ki, tərəflərin bir-birinə evlənmək təklif etmək arzusu ortaya çıxır. Artıq nə ailə, nə yaş, nə ətraf Qadın və Kişini düşündürmür. Onları düşündürən yalnız bir-birinə qovuşmaq istəyidir. Bu istək isə yenə də qorxu ilə dilə gətirilir, çünki onların məhəbbətləri arasında keçilməz sədlər var. Ailə, uşaq, yaş, qohum-əqrəba, dost-tanış, adət-ənənə, bir də yorulub yollarda azmış eşq və ondan doğan uğursuz sevgi... Ona görə müəllif onların bir-birinə razılıq verəcəyini qorxu adlandırıb.

Əli Rza Xələflinin "Üçüncü dünyanın qorxusu" kitabı hisslər və düşüncələr toplusudur. Zənn edirəm ki, fəlsəfi anlamlarla çulğalaşmış bu məhəbbət povesti xüsusən gənclər üçün oxunaqlı bir kitab olacaq. Əsərdə başdan-başa mesaj məktublara yer verilsə də bu heç də əsərin yaxşı mənada bədii ədəbiyyatı sevənlər tərəfindən müsbət qarşılanacağına mane olmayacaq. Yaradıcılığı boyu istər publisist məqalələri, istər bədii yaradıcılığıyla könlünün təbii duyğularını söz ovqatına kökləyən müəllif inanıram ki, insanın iç dünyasının sehri ilə də oxucunu ovsunlaya biləcək. Yazımın sonunda arzu edirəm ki, qadınlar onların başına bəla ola biləcək hisslərin xəyanətindən uzaq olsunlar. Həqiqi sevgi ilə ailə qursunlar, mala-

pula aldanmasın və sonradan da sonu görünməz əzablara düçar olmasınlar. Müəllifin özü demişkən, qəlbləri birləşdirən "körpülər yanmasa" insanlar öz istəklərinə qovuşa bilərlər...

23.09.2011

PULA ƏYİLƏN MƏNƏVİYYAT VƏ YAXUD MİRZƏ CƏLİL BABAMA MƏKTUB

Nə qədər ki yaradıcı mühiti uzaqdan-uzağa izləyirdim, bu mühit mənə pak bir məbədgah, buradakı insanlar isə Allahın ən təmiz bəndələri kimi görünürdü. Millətini sevən, milləti üçün yanıb lap elə cızdağı çıxan mən bu mühitin içinə daxil olandan sonra isə, necə deyərlər, özümün özümdən zəhləm getdi. Tez yadıma düşdü, eyvah, XX əsrin əvvəlində ürəklərinin odunu kağızlar üzərinə ələmiş, qələmini düzlük, haqq, ədalət yolunda qılınc edərək söz döyüşünə çıxıb yazıb-yaratmış söz adamları... Həyatlarını insanlarımızın xoşbəxt gələcəyi, bu günü üçün od üstündə yağ kimi əritmiş fədakarlarımız, onlardan biri də Sizsiz, ey ruhu Vətən eşqiylə yanan, dahi insan. Fikirləşdim dini kitabımız deyir ki, insanın bədəni torpağa tapşırılır, ruhu isə sapsağlamdır. Belə olduğu halda, mən niyə dahi ədibə məktub yazmayım? Çox fikirləşdikdən sonra bu duyğuya qarşı çıxa bilmədim. Əziz Mirzə Cəlil babam, ruhunuz şad olsun, bu məktubu Sizə ünvanlamamışdan qabaq çox götür-qoy etdim yazım, ya yazmayım, amma ürəyim partlamaq dərəcəsinə gəldi, daxildən bir səs mənə vəsvəsə verdi ki, bəs bu məktubu Sizə ünvanlayım. Axı Siz o boyda "Molla Nəsrəddin" jurnalının çapına rəvac verən, onun Vətən içində yayılmasına, başıbəlalı Azərbaycanın yaralarına məlhəm olmasına cəfakeşlik etmiş insansınız. Bu yolda nə qədər ağrı-acılara tuş gəlsəniz də məqsədinizdən, müqəddəs amalınızdan dönmədiniz. Vətənin quzeyindən güneyinə, güneyindən quzeyinə könül atınızı çapdınız. Vətən insanının cəhalətdən, müsibətdən, fəlakətdən, mövhumatdan xilası üçün bacardığınız dairədə hər şeyi etdiniz. Bu yolda ulu Cavanşir törəməsi olan həyat yoldaşınız Həmidə xanım da sizə dayaq oldu, varını, pulunu bu yolda xərcləməkdən usanmadı. Siz böyük Molla Nəsrəddinçilər nəsli yetişdirdiniz, millətin cəhalətdən xilası naminə. Dahi Sabiri aləmə car edən, Mirzə Cəlil, ruhunuz şad olsun, bütün Molla Nəsrəddinçilərlə bir yerdə! Ümid edirəm ki, yazdıqlarım Sizə müdrik qocalarımızın dili ilə desək, əyan olar böyük Allahın köməkliyi ilə...

Ürəyimdə Sizə deyiləsi o qədər sözlərim var, hansı ki, qəlbimi dəlib-deşir. Əvvəllər elə zənn edirdim ki, yazarlar İlahinin yerdəki mələkləridir. Onlar gecə-gündüz millətin işıqlı gələcəyi uğrunda gözlərinin işığını kağızlar üstündə qaraldırlar. Ürəklərinin odunu bu yolda çıraq təki yandırırlar. Bilmirəm, əziz Mirzə Cəlil, bəlkə sizin dövrünüzdə də belə olub, mənim bu barədə məlumatım yoxdu, ancaq mənə elə gəlir ki, indiki qədər biabırçılıqlar olmayıb. Hər şey tərtəmiz, hər şey pak olub! Hərə öz yazdığının ağası olub, heç kəs heç kəsə pulla heç nə yazdırmayıb. Hər yazılan bədii məhsulun yiyəsi müəllif özü olub. Sizin dövrünüz haqqında kifayət qədər məlumatım var, deyilənlərə görə o zamanlar əsl ziyalılar təbəqəsi yaranıbmış. Onlar aldıqları savadın, biliyin hesabına uğur qazanırmışlar. Alimlik dərəcəsi almaq üçün pul verirmişlər, sizləri nə dəbdəbəli həyat, nə də pul, mənsəb maraqlandırıb. Sizlər millətin qaymağı olmuşdunuz, əziz ədib, o qaymağı 1930-37-ci illərdə qansızlar iştahalarına çəkdilər. Südün üzündəki qaymaq yeyildikdən sonra südün altı qaldı. İndi Siz deyin, südün altından əmələ gələn məhsulun nə dadı, ləzzəti olar? Əlqərəz, indiki ədəbi mühitin əhvalı heç də ürəkaçan deyil, necə deyərlər, heç kəs heç kəsin kitabını oxumur. İndi istedadı olanlar yox, istedadı olmayanlar meydan sulayır. İstər ədəbi aləmdə, istərsə də televiziya kanallarında, hərçənd ki, Sizin vaxtınızda televiziya yox idi. Yaxşı ki, yox idi. Olsaydı yəqin ki, qanınız çox qaralardı. Televiziya evlərimizdə peyda olandan sovet sisteminə xidmət etdi. Müstəqillik qazanandan sonra isə televiziya kanallarının sayı artdı, amma bu kanallar əksər hallarda reklama və müğənnilərə xidmət edir, çoxunun da səsi yox, səhərdən axşamacan kanallarda meydan sulayırlar, millətə namusdan, vicdandan, təmizlikdən dərs keçirlər, necə deyərlər, bizlərə necə yaşamağın yollarını öyrədirlər.

Hərdənbir də şeri, şeriyyəti olmayan, əksər halda sözünün əvvəli-axırı bilinməyən söz cəlladlarını ekrana çıxardırlar və onlar da millətə əsl şerin, bədii məhsulun təbliğini və necə yazılması dərsini keçirlər. Dahi insan, ruhun şad olsun, hələ sizə bir-iki gün bundan öncə bir televiziya kanalında olmuş ürək parçalayan mənzərəni də ərz etmək istəyirəm. Aparıcı ekrandan kişi şairlərimizdən birinə vətən haqda şeir söyləməyi rica etdi. O da qayıdıb aparıcıya nə desə yaxşıdı? Dedi ki, mən Müdafiə Nazirliyində işləmirəm ki, vətən şeri yazım. Vətən şerini qoy onlar desinlər və yazsınlar. Sonra da dedi ki, bəs mənim şeir yazmağım Azərbaycan ədəbiyyatında hadisədir. Bilirsiniz necə dəhşətə gəldim. Yəqin ki, dahi Mirzə Cəlil, sağ

olsaydınız, "Ölülər" əsərini yenidən işləyərdiniz, özü də yeni planda, çünki torpaqları yağı işğalında olan bir millətin şairi, yazıçısı, söz adamı necə Vətəndən yazmaya bilər?!

Əziz Mirzə Cəlil, ey Vətən eşqilə alışıb-yanan, ey avamlığa, cahilliyə, məddahlığa, mövhumata qarşı qələmini kökləmiş, vətən insanının gözüaçıqlığı üçün bütün gücünü, istedadını sərf etmiş həmvətən, gör indi biz nə gündəyik. Ədəbiyyatımız qara günlərini yaşayır. Hərə əlinə bir qələm və yaxud kompüter götürüb düşüb sözün üstünə. İndi bizim zamanda SÖZ yalana, məddahlığa, pula, vara xidmət edir.

Bizim zəmanədə ölkəmizdə alim olmaq o qədər çətin məsələ deyil. Ona görə istedad yox, pul və dayı lazımdır. Birdən məndən sual etsəniz ki, bəs dayının alim olmağa nə dəxli var? Hə, onda mən Sizin diqqətinizə ərz edim ki, "dayı" indiki zamanda bizim ölkədə arxa deməkdir, çünki pulnan bahəm əgər nəyəsə nail olmaq istəyirsənsə, möhkəm arxan olmalıdır, ancaq arxalı olanlar bizim ölkədə yaman at oynadırlar. Adama yuxarıdan aşağı baxırlar. Atalar demişkən, oğru necə bağırırsa, doğrunun bağrı yarılır.

Əziz Mirzə Cəlil, indi bizim ölkədə həqiqi alim olanlar, alim olmaq iddiasında olan, lakin alimliyə savadı, biliyi, istedadı çatmayanlar üçün elmi əsərlər yazırlar. Ona görə də bizdə indi alimlərin sayı, yalan olmasın, tələbələrin sayından bir az azdır. Sonra başqasının başının hesabına alimlik dərəcəsi alanlar ali məktəblərdə millətin binəva balalarına dərs keçirlər, yəni onlara dırnaqarası bilik, savad öyrədirlər. İndi Siz deyin, millətin gələcəyi olan binəva gənclər belə dırnaqarası alimlərdən hansı savad, bilik alıb elmə yiyələnə bilərlər?

Adam hərdənbir Sizin ədəbiyyatımıza gətirdiyiniz kefli İsgəndər kimi içib keflənmək istəyir ki, bu kimi dərdləri eşidəndə ürəyi partlamasın, sabahkı həyatını yaşamaq şansı qalsın.

Əziz Mirzə Cəlil, Sizin bədii aləmdə qələm çaldığınız zamanlarda hələ sözün urvatı var idi, onun karvan yoluna çıxmaq üçün hər adamın hünəri çatmazdı. İndi necə deyərlər, məmə deyəndən pəpə yeyənə qədər hamı girişib söz deməyə, kəsə dillə desək, yəni yazar olmağa... Ədəbiyyatımızda qoca yazarlar orta nəsil yazarları, gənc yazarlar isə heç birini bəyənmir. Tənqidçilərimiz deyirlər, ümumiyyətlə, yaxşı əsər yazılmayıb, ədəbiyyat durğunluq dövrü keçirir, istedadlı yazarlar yoxdu, buraxılan kitabların isə əksəriyyəti səviyyəsiz, istedadsız, yazmaq sərištəsi olmayan adamların qələminin məhsuludur. Vəssalam. İndi saysız-hesabsız qəzet redaktorları

meydan sulayır. Bir-iki şeir yazan artıq hansısa qəzetə, jurnala baş redaktor olur. O vaxt siz avamlıq, cəhalət və mövhumatla mübarizə aparırdınız. O vaxt siz və sizin yaşıdlarınız oxuyub təhsil almaq üçün pul ödəyirdiniz. İndi isə ali və orta məktəblərdə oxumamaq üçün pul ödəyirlər. Ali məktəb qurtaran məzun heç bir-iki bədii əsər oxumur, nəinki dünya ədəbiyyatından və tarixindən, hətta öz ədəbiyyatımızdan və tariximizdən xəbərsiz olur. Təbii ki, belə savadsız mütəxəssislər sonra gedib ali və orta məktəblərdə binəva millətin balalarına "elm, bilik, savad öyrədirlər". Özləri pul verib oxumadıqları halda, hazır diplom aldıqları üçün xalqın balalarını da bu asan və biabırçı yola cəlb edirlər. Onlar cəmiyyətimizdə bir qarayaradır.

Bu yaranın sağalmasına çarə olsa da, heç kəs onun müalicəsinə rəvac vermir. Əksinə çalışırlar ki, bu xəstəlik mənəviyyatımızda artsın, çoxalsın. Axırda da savadsız və mənəviyyatı boş olan dırnaqarası ziyalı təbəqəsi yaranır. Bu təbəqə heç nəyi, kobud şəkildə desək, vecinə almır, öz quru adı və maddiyyatını ödəmək üçün cibi onun üçün önəmli olur. Belə ziyalı təbəqədə nə Vətən sevgisi, nə milli hiss, nə ətraf aləmi öz könül prizmasından keçirən vicdan olur. Milli hissi, Vətən sevgisi olmayan şəxs çətin ki, xalqın balalarına, xalqın öz dili ilə desək, əməlli-başlı təhsil verə bilsin. Hörmətli ədib, artıq bizim ölkədə təbəqələşmə yaranıb. Lap sizin uşaqlıq və gənclik dövrünüzdə olduğu kimi. Amma sizin dövrünüzdəki varlılar halal zəhmətlərilə o mərtəbəyə yetmişdilər, bizim dövrümüzdə çoxu əyriliklə, rüşvətlə, müftəxorluqla, haramzadəliklə varlanıb hər sahəni işğal ediblər və özlərindən ağıllı heç kəsi görmürlər. Beləliklə, o qədər varlanıblar ki, dünyanın bir çox yerlərində aldıqları, indiki adamların dili ilə desək, villaların, banklara qoyduqları pulların sayını-hesabını itiriblər, axırda belə qənaətə gəliblər ki, bunlarla tarixə düşə bilməyəcəklər. Nə etmək lazımdır məşhurlaşmaq üçün? Pullarını ciblərinə basıb başlayıblar istedadlı, iradəsiz müəllifləri ələ almağa... Hə, əziz Mirzə Cəlil, dövrümüzün söz dəllalları yəqin ki, deyirlər: Pulu bizdən, yazmağı sizdən. Daha demirlər ki, xalqın gözü tərəzidir, o hər şeyi görür, dərk edir, bərkdən olmasa da ürəyində bu bəlalara facianə qəhqəhə çəkir, bu qəhqəhələr imansızların bağrını yarmasa da, göyün bağrını yarır axı... Amma açığını desəm, xalqın bağrından qopan qəhqəhələr Sizin "Ölülər" faciəvi-komediyanızdakı kefli İsgəndərin qəhqəhələrinə bənzəyir. O da o zaman, böyük ədib, sizin ağlınızdan və qələminizdən qoparaq millətin dərdini aləmə aşkar edirdi.

Etiraf edim ki, hərdən mənim pulu az, ağlı, biliyi çox alimlərə, söz adamlarına də yazığım gəlir. Deyirlər, pul şirin şeydir axı, insanın maddi ehtiyaclarını ödəmək üçün önəmli vasitədir. Onlar da beyinlərinin məhsulunu savadsız, təkəbbürlü adamlara satıb bir az maddi baxımdan irəli düşmək istəyirlər, ancaq mən onlara qətiyyən haqq qazandırmıram, çünki onların özləri millətin mənəvi sərvətidirlər, əsl alimlərin səviyyəsiz və iddialı adamların əlində oyuncağa çevrilmələri ürəkbulandırıcıdır. Bu həm də millətin mənəvi genefonduna ağır zərbədir. Axı gör-götür dünyasıdır. Bu sahədə görüb-götürənlərin sayı çox olsa onda biz nə günə qalarıq? Bizim xalqı gələcəkdə hansı mənəviyyat gözləyər? Bax, dahi Mirzə Cəlil, bütün bunları dərindən fikirləşəndə adamın bağrı partlayır. Adam heç yerdə özünə yer tapmır, çünki mənəviyyat öləziyəndə insanlarda Vətən hissi korşalır, mənəvi bağlılıqlar qırılır, ölkə inkişafdan geriyə qalır, torpaqları işğalçılar əlində oyuncağa çevrilir, milli, mənəvi dəyərlər arxa plana keçir, maddiyyat mənəviyyatı üstələyir. Millət parçalanır, yarısının pula, mala başı qarışır, yarısı isə dilənçiliyə aludə olur. Hegemon xalqlar isə sanki marıqda yatmış qurdu xatırladır ki, belə millətləri hissə-hissə didib parçalasın və məhv etsin.

Zaman diktə edir ki, hegemon xalqların tarixində rüşvət, harama batma yox, təmizlik, düzlük, öz millətinə hədsiz sevgi önəmli yer tutub. Mən deyərdim ki, iki yüz il bizi əsarətdə saxlamış işğalçı Rusiyanın imperiyaya çevrilməsi tarixində zülmkar adıyla özünə titul qazanmış İvan Qroznı, I Pyotr və II Yekaterinanın müstəsna rolu olub. II Yekaterinanın dövründə qanunsuz, yəni cəmiyyətdən gizlin doğulmuş uşaqlar üçün pəncərə açılmışdı. Hər kəs gəlib imtina etmək istədiyi körpəsini o pəncərəyə qoya bilərdi. Onun gizliliyi tam təmin olunurdu. Sonradan bu körpələr hökumət tərəfindən bəslənilib böyüdülürdü. Onlardan dövlət idarələri üçün məmurlar yetişdirirdilər. Həmin bu yüksək rütbəli məmurların qohum-əqrəbası, bacı-qardaşı, ata-anası olmurdu. Ölkəni rüşvətsiz və vicdanla idarə edirdilər. Bu adamlar böyük məmnuniyyətlə imperatora və onun qayda-qanunlarına riayət edirdilər və ona tam sadiq qalırdılar, çünki belə adamlar bilirdilər ki, vaxtında tale onların həyatında amansız rol oynayıb. Əgər təsadüfən bu pəncərəyə düşməsəydilər, kim bilir, onları hansı amansız tale gözləyəcəkdi? Ona görə də belə insanlar ölənədək rüşvət, qohumbazlıq, yerlibazlıq kimi cılız hisslərin əsiri olmurdular, hökumətə və onun başında oturanlara minnətdar olurdular... Məhz başda oturanların hakimiyyətini

möhkəmləndirmək üçün, dövlətçilik sütunlarının titrəməməsi üçün belə insanlar imperiyanın ömrünü uzadırdılar, amma doğru olaraq dəyərli oxucular tərəfindən sual ünvanlana bilər ki, bəs rüşvət elə Rusiya imperiyasının özündən bizə keçib. Bununla tam razıyam.

II Yekaterina rüşvətə qarşı dəyərli mübarizə vasitələrindən biri kimi yuxarıda sadaladığım üsuldan bəhrələnirdi. Deyirəm elə bəlkə bizim də başbilənlərimiz bu üsuldan istifadə etsinlər, çünki bizim də uşaq evlərində boya-başa çatan gənclərimiz var ki, onların savadlanmaları üçün dövlət səviyyəsində pul xərcləsək, bu uşaqlardan cəmiyyətimizin çiçəklənməsi naminə yararlanmaq olar. On səkkiz yaşından sonra bu günahsız balaların əksəriyyəti səfil həyatı yaşamazlar.

Böyük insan Mirzə Cəlil, indiki halda bizdə rüşvət erkən çağlardan cücərir, əslində bizim cəmiyyətdə rüşvətə alışqanlıq uşaq bağçalarında boy göstərməyə başlayır. Körpə balalar bağça liderlərinin doğum günlərində onlara hansısa hədiyyə, gül almaq zorundadırlar, sonra bunun davamı məktəbdə, ali məktəbdə, iş yerlərində qol-budaq atır. Beləliklə, görüm-baxım, bəxşiş, barat, hədiyyə, hörmət adı altında rüşvət bizim beynimizdə ən əziz, ən sevgili munisimiz təki özünə köklü-köməcli saray yapır.

Sonra bunun acı bəhrəsini bütünlüklə yaşadığımız cəmiyyətdə görürük. Rüşvətsiz, arxasız, dayısız qapılar üzlərə açılmır ki, açılmır. Hər insanın Yaradandan bir ömür bəxşişi var. Bəxşiş verilmiş ömür yaşadığımız illər ərzində zəhərə çevrilir. Çox insanlarımız cəmiyyətin özbaşınalıqlarından, ayrı-ayrı böyük və kiçik məmurlar tərəfindən onlara edilən haqsızlıqlardan zara gəlir. Bu zara gəlmələr gücdən, haldan düşmüş, günbəgün psixoloji sarsıntılarla üzbəüz qalmış adamlarımızın həyatında intiharlara yol açır. Belə intiharlar çox vaxt bütöv ailənin məhvi ilə günahsız, hələ həyatın acısını-şirinini dadmamış balaların bədbəxt sonluğu ilə bitir. Rüşvətin qol-qanad açdığı cəmiyyətlər daima köklü-köməcli iflasa uğrayıb. Onun dayanıqlılığı olmayıb, çünki rüşvət adi insanların cibindən tutmuş, millətin yeganə umacağı, dayaq mənbəyi olan dövlət xəzinəsinə qədər əl uzadır. Onun dayaqlarını sarsıdır, gec-tez belə dövlətlər başqa dövlətlərin və millətlərin içində əriyib yox olur. Rüşvət heç bir millətə, heç bir xalqa bəxtəvərlik, xoşbəxtlik gətirməyib. Onun açdığı cığırlar insan bədənində kök atmış xərçəngə bənzəyər. Gec-tez hansı dava-dərmanın, təbibin-loğmanın müdaxiləsi olur-olsun, həmin bədəni canından qoparıb məzara aparır. Eləcə də rüşvətə aludə olan dövlətləri və millətləri də belə bir aqibət

gözləyir... Keçmişlərdə də belə olub, indi də belədir. Min illər insanların keçdiyi həyat yolu bunu bizə diktə edir. Başa düşənlər üçün bu həyat məktəbi görk olub, nə isə yaxşı mənada götürüblər, başa düşməyənlər isə tarix səhnəsində iz qoymadan məhv olub gediblər.

Hələ dahi Məhəmməd Füzuli əsrlər öncə "Salam verdim, rüşvət deyildir deyə, almadılar" deyərək fəryad qoparırdı. Rüşvət əsrlərlə millətlərin bağrında dərin-dərin yaralar açıb. Əziz Mirzə Cəlil, bu yaraların göynərtiləri indi bizim cəmiyyətimizdə də vətən insanının ağlına, şüuruna toy tutmaqdadır. Axı toy tutmağın iki mənası var. Yaxşı və pis. Bizim ölkə də pis mənada bizə toy tutur. İşğal altında inləyən torpaqlarımızın dərdi bir yandan, bizə qıcıdılan xarici quldurların qurd dişləri bir yandan, o biri tərəfdən içimizdən bizi rüşvət girdabında boğanların qanlı əli bir yandan...

Əziz Mirzə Cəlil, ruhunuz şad olsun, bu yazımı sizə ünvanlamaqda məqsədim odur ki, bu kimi dərdlərimizi sizə əyan edim. Sizin pak ruhunuza and olsun ki, o vaxtların təmiz insanlarını indiki zamanda çıraqla axtarmaq məcburiyyətində qalırsan. Rüşvət məhəllə-məhəllə, bölgə-bölgə, diyar-diyar qol-budaq atıb, özü də cəmiyyətimizin hər sahəsində... Mən həqiqəti, düzlüyü, təmizliyi sevməyənlərin şərəfinə bu yazını araya-ərsəyə gətirdim ki, onlarda özümə dırnaqarası sevgi hissini artıra bilim...

Ruhun şad olsun, Mirzə Cəlil, sizə deyəcəklərim hələlik bu qədər.

07.10.2011

DAMCILIDAN GƏLƏN SƏSLƏR

Mənə elə gəlir ki, Vətən sevdası, yovşan iyi verən yurd sevgisi, ocağa bağlılıq kənddən başlayır, çünki kənddə yad dildə danışmırlar, insan doğulub beşiyə qoyulandan sonra anası hansı dildə ona pıçıldayırsa, uşaq da o dilin şirinliyini, odunu, közünü havayla birgə ciyərlərinə çəkir. Bu dilin sehri körpənin qanına işləyir, ruhuna çökür. Kənddə daha çox millilik, şifahi ədəbiyyatımızın inciləri analarımızın beşik başında söylədiyi laylalardan, nənnini yellədə-yellədə, yırğalaya-yırğalaya dilinin ucuna düzdüyü ninnilərdən ürəyimizə süzülür və qəlbimizin ən dərin guşələrində ocaq çatır, köz bağlayır. Hələ körpə ikən damarımızda dövran edən qanımızda şimşəklərtək çaxır, ağlımızın, ruhumuzun buzlaşmaması üçün bizə daim od-atəş verir. Elə Vətənə bağlılıq da nənələrimizin, adları heç yerdə çəkilməyən bu el şairələrimizin canından canımıza adlayır. Onlar təndir sala-

sala, ocaq çatıb lavaş yaya-yaya, nehrə çalxaya-çalxaya bal dillərindən süzülən bayatıları söz boğçalarında əzizləyə-əzizləyə nəsildən-nəslə bizlərə ötürüblər. Bir növ kimliyimizi bu söz incilərilə bizlərə diqqət ediblər. Bax beləcə yaranıb inkişaf edib dilimiz, kimliyimiz, sözümüz və özümüz!

Yeri gəlmişkən, bunu qeyd etmək yerinə düşər ki, bəzən ayrı-ayrı yazarlarımızdan eşidirik, hansısa şerin misralarında, nəsrin cümlələrində müəllif arxaik sözlərdən istifadə edib. Çox hörmətli həmkarlarımın nəzərinə çatdırmaq istəyirəm ki, hansısa söz adamına tanış olmayan ifadəyə arxaik damğası vurmaq olmaz. Əksinə, ayrı-ayrı bölgələrimizdə el arasında işlənən ifadələri bədii ədəbiyyata gətirmək dilimizi zənginləşdirmək deməkdir. Dilimizin zənginliyini arxaik damğasıyla yaralamaq yolverilməzdir. Ola bilsin ki, sözə arxaik damğası vuran müəllifin doğulduğu yerdə o sözdən istifadə olunmur. O demək deyil ki, ona tanış olmayan söz arxaik sözdür. Bir vaxt Salman Mümtaz kimi ədəbiyyatımızın qeyrətini çəkən tədqiqatçılarımız bölgələrimizi qapı-qapı düşüb dilimizin zənginliyindən istifadə edərək el arasında işlənən sözlərlə ədəbi dilimizi formalaşdırırdılar, onun inkişafı naminə gecə-gündüz, yorulmadan məşğul olurdular. Əbəs yerə demirlər ki, mütaliə insanın dilini zənginləşdirir, bu yolda gözlərinin işığını yağ kimi əridən söz adamının yaratdığı bədii ədəbiyyat yurdlarımızın dil şirinliyindən yaranıb və yaranır.

Məhz Vətən hissi, dilə, kökə bağlılıq gül analarımızın, nənələrimizin qönçə dodaqlarından qəlbimizə çağlar çeşmə kimi axdıqca axıb. Dədələrimizin, babalarımızın, atalarımızın yaratdıqları əfsanələr, dastanlar, növbənöv atalar məsəlləri bəzilərimizin "kəndçi" deyib yuxarıdan aşağı baxdığımız bu canlı, köklü-köməcli söz xiridarlarının bağrından qopub, məhz bu gün şifahi xalq ədəbiyyatı dediyimiz bu söz boğçasının yaranması üçün biz elə, elata, yurda, ocağa, onun əsrarəngiz gözəlliklərinə, ürəklərimizi təlatümə gətirən və bizi bir maqnit təki öz qoynuna çəkən KƏNDƏ borcluyuq...

Şəhərin ürək sıxan səs-küyü, sıxlığı, soyuqluğu, öz kökünə, soyuna yadlaşma diktəsi bizləri bir qədər dərinə varmağa, özümüzdən qopmamağa çağırır. Milli mənlik, qürur, ləyaqət hissini itirməməyi bizlərə aşılayır. Asfaltın qışda bumbuz, yayda can yandıran istisi insanda necə torpaq, ocaq sevgisi yarada bilər? Əgər analarımızın çatdığı o ocaqlarımız yoxdursa?.. Bütün günü internet çatlarında özündən uzaqlaşmağa ayaq döyən bəzi dırnaqarası vətənpərvərlər avropalılar kimi dəyişmək, yeniləşmək

istəyirlər. Avropalılar isə, əksinə, bu cür düşüncə sahiblərini mədələrində həzm etmək istəyirlər. Vətəndən yazmağı, Vətəni vəsf etməyi özlərinə ar bilən bu dırnaqarası bahadurlara deyəsən anaları beşik başında layla da çalmayıb, əgər çalmış olsaydı içlərində bir Vətən hissi oyanmış olardı...

Bəlkə də bu yaxınlarda televiziya kanallarının birində şair həmkarımın "Mən Müdafiə Nazirliyində işləmirəm ki, Vətən haqda şeir yazım" deməsi məni dəhşətli dərəcədə çalxalamasaydı, mən Əli Rza Xələflinin yenicə çapdan çıxmış "Damcılı" kitabına üz tutub bu poema haqqında söz deməyə ehtiyac duymayacaqdım, çünki düşünürdüm ki, kitabda əsər barədə həmkarlarım gen-bol sözlər deyiblər. Bir anlıq mənə elə gəldi ki, biz kifayət qədər Vətən haqqında yazılan bədii ədəbiyyat nümunələrinə diqqət kəsilmirik. Onları az təbliğ edirik, başımıza gələn yurdla bağlı müsibətlər bizə görk olmur ki, olmur. Ona görə bəzi gənclər arasında yurda biganəlik, başqa xalqların, millətlərin əsirinə çevrilmək, onlara can-dildən pərəstiş etmək kimi dəhşətli fikirlər mətbuat aləmində baş alıb gedir. Vətən məhəbbəti mənlik hissindən cilalanır. Mənlik hissi olmayan adamların Vətən sevgisi olmaz, çünki biz hamımız Allahın bəndəsiyik. Allah öz yaratdığı bəndələri fərqliliyinə görə dil, din məsələsində bir-birindən üstün tutmayıb. Mənliyi olan adam heç kimə alçalmaz və heç kimin qarşısında yaltaqlıq etməz, qul olmaz. Qul üçün fərqi yoxdur, kimdir onun yiyəsi! Sən əgər qul hisslərin əsirisənsə, milli təəssübkeşlik səndə yoxdursa, sən necə Vətəni sevə bilərsən? Necə deyərlər, elə mənim də şair həmkarımın dilindən qopduğu xətadan yana doğdu bu kitab haqqında yazmaq istəyim. İlahi, necə şair, yazıçı olasan, Vətəndən bir kəlmə söz deyə bilməyəsən?.. Özü də min bir yerə parçalanmış bizim doğulduğumuz Vətəndən!.. Deyirlər, qulaq gündə bir təzə söz eşitməsə kar olar...

Nə isə, dəyərli oxucular, sizi çox yormayım, əsas mətləbə qayıdım. Elə Əli Rza Xələflinin də "Damcılı" poeması tələtümlü ürəyin insanı riqqətə gətirən həzin söz çalarlarıyla şair ruhuna boyanmış yurd dastanıdır.. Əsərin lakonik yazılması da onun oxunaqlığını artırır, çünki indi informasiya əsridir. İnsanlar şam, neft lampasının işığında mütaliə etmirlər. İndi xəbər çoxluğu o qədərdir ki, bu əsrin adamları uzun-uzadı səhifələnmiş bədii əsərləri xoşlamırlar, daha doğrusu, mütaliə etməyə səbirləri çatmır. Elə poemanın diqqət çəkən məziyyətlərindən biri də odur ki, o qısa və əhatəlidir. Oxucu müəllifin müraciət etdiyi bölgə haqqında tam məlumatlana bilir. Vətənin hansı hissəsindən yazırsan yaz, sən onu sözün qüdrətilə bədiiləşdirə-

bədiiləşdirə təbii hisslərlə tarixə köçürürsən. Tarix isə elə ilkin olaraq söz sərraflarının ağlından və qələmindən həyatilik qazanır. Başıbəlalı, sinəsi azğın yağılar tərəfindən min bir yerə parçalanmış, sönmüş, ocaqlarına su calanmış Vətənin qərb hissəsində uca dağlardan üzü aşağı süzülən, qayalardan aram-aram ələnən, göz yaşı kimi dumduru bir bulaqdan söz açır müəllif. Qazaxın Daş Salahlı kəndinə toya gedən şairi bulağın qeyri-adiliyi ovsunlayır. O da ovsununa düşdüyü Damcılı bulağına gözəl bir poema yazır. Əsərlərinin ab-havasıyla tərbiyələndiyimiz böyük Səməd Vurğunun, "İdeal"ı ilə məni hələ də heyrətdə qoymuş İsa Hüseynovun (Muğannanın), "Dəli Kürü" ilə qəlbimizdə özünə yer qazanmış İsmayıl Şıxlı kimi sənətkarların diyarıdır Qazax mahalı. Bu bölgə qurudu, xingalı, qatlaması, yurdcanlılığı, elə bağlılığı, istiqanlılığı ilə dillər əzbəridir, məhz Əli Rza Xələfli də qonağı olduğu bu gözəl bölgədən söz ovqatını kökləməmiş qayıtmayıb.

Maraqlı və diqqətçəkən cəhət odur ki, müəllif oradakı camaatın Damcılı adı verdiyi bulağa əlavə bir ad da qoyub: "Ağlayan gözəl"ə nə gözəl deyim, nə gözəl bənzətmə! Qayalardan damcılar şəklində süzülüb gəlib daş hovuza tökülən bulağın əsrarəngizliyi şairi ovsunlayıb və könlünü riqqətə gətirib. Şair təbiətin rəssam fırçasıyla işlədiyi bu gözəlliyə biganə qala bilməyib və onun sözlə çəkdiyi təsvirini belə şeirlə cilalayıb:

Damla-damla yanağından süzülən,
Göz yaşıdı muncuq-muncuq düzülən,
Bəs neyləsin ümidindən üzülən
"Ağlayan gözəl?!"

Əli Rza Xələfli "Ağlayan gözəl" adı verdiyi bulağın ana laylasına bənzər pıçıltılarını həzin şair duyumu ilə qələminin sevdasına kökləyib. Qələm də ona dilsiz ruhu ilə, sanki leylilik edib, onun bulağı görüb vəcdə gələn və çağlayan təbinin ovsununa düşüb. Bəlkə Damcılı bulağına "Ağlayan gözəl" adı verən Əli Rza Xələfli itirdiyi yurdunun nisgilli ağrılarının pıçıltılarını qayalardan süzülən damcıların sədasında duyub? Nə fərqi var, Vətənin o başı da Vətəndir, bu başı da! Ürəkdə işğalda olan yurd, ocaq ağrısı yaşadan şairi də elə kövrəldən ayrılıq əzabıdır. O, əzabverici hisslərin qisasını misralara düzdüyü ürəyə məlhəm sözlərindən alırmış kimi deyir:

Ruhu uçsa kim saxlayar canı bəs,
Bais kimdi, kimlər tökdü qanı bəs,
Könül verdin, kimi sevdin, hanı bəs?
"Ağlayan gözəl?!"

Şair bir zərgər dəqiqliyi ilə başı bəlalar çəkmiş və hələ də işğal altında inləyən yurdunun, Cəbrayılın, əziz Qarabağın fəryadlarını könül tellərinə kökləyir, köklənmiş könül telləri kaman təki haray edir, ruhunun odunda üryan etdiyi sözləri misralara düzür. Bu misraların da hər biri, sanki "Ağlayan gözəl"in boyuna biçilib. "Ağlayan gözəl" şairlə munis olub, vəfadarlıq edir və onun çağlayan təbilə yol yoldaşlığı edir. Bəli, hörmətli oxucular, şeir onda şeir olur ki, o yazanın ruhunu titrətsin, könlünü tələtümə gətirsin, ondan bir-bir misralar doğulsun... Şair "Damcılı" bulağına bədahətən "Ağlayan gözəl" adı verdim deyir. Müəllif "Damcılı" poemasında bütöv bir yurdun adlı-sanlı adamlarını nəzmə çəkir. Onların bu yurdun üstündə bir işıq kimi parladığını və bu işığın ana Vətənin mənəvi nurlara boyanmasında böyük rol oynadığını poemasının misralarına gətirir. Əli Rza Xələfli əsərin proloqundan sonra ilk bəndini belə təsvir edir:

"Ağlayan gözəl"i görməyə gəldim,
Gəldim ki, çağlayan göldü Damcılı.
Dillərdə dolaşan əfsanə, nağıl,
Deyirdim bəlkə də sözdü Damcılı.

Bulağın təsvirini ustalıqla əsərin misralarına gətirən şair, sanki oxucunun əlindən tutub onu ömründə görmədiyi yerlərə sözün ovsunuyla, qüdrətilə səyahətə aparır. Deyirlər ki, şairlərdə həm rəssam, həm də musiqiçi duyumu olur. Bu iki duyum şairliklə birləşəndə misralar bənd-bənd özözünə çağlayır və ona üz tutan oxucularla könül bağlayıb həmdəm olur... Şeirdə quruluq varsa, o adamın ruhuyla dildarlıq etmirsə, o şəffaf bulaq suyu təki qaynamırsa, qaynaya-qaynaya söz kəhrizinə dolmursa, ondan nə misralar, nə də bəndlər yaranar. Oxucunu da özünə çəkməz. Beləliklə, Əli Rza Xələflinin Damcılı poemasının bəndlərində yuxarıda qeyd etdiyim axıcılığı, istiliyi, doğmalığı duyursan. O dəqiqə bir zaman sənə qoynun açıb ana laylalarına can deyib qucaq vermiş, doğulub pərvəriş tapdığın yurd-yuva gözlərin önünə gəlir, sanki müəllif səni Damcılının timsalında əlindən

tutub öz yurd-yuvana aparır. Hərəmiz bir tale yazısından yerlərimizdən, ocaqlarımızdan diyarbədiyar olmuşuq, amma o ocaqların tüstüsü də, ürək yandıran istisi də bir an belə yaddan çıxmır. İnsanın qan yaddaşıyla ətinə, sümüyünə, ruhuna yeriyir və adamı bu dünyadan köç edib gedənə qədər müşayiət edir. Elə Vətən sevgisi də qan yaddaşına çökən o doğmalıqdan, ocağa səcdədən ağlımızda, şüurumuzda peyda olur, bizimlə sevgili yar kimi dildarlıq edir. Müəllif Damcılını sözlərinin şirinliyilə oxşayır, bir rəssam fırçasının dəqiqliyilə vərəqlər üstündə onun canlı tablosunu nəzmə çəkir:

Gülər, qayaların xınası gülər,
Səhər günəşində aynası gülər,
Baxar gözlərinə sonası gülər,
Su sonası, tər nərgizdi Damcılı.

Şair Damcılını "tər nərgizə, su sonasına" bənzədir. Qayalardan süzülən damcıların pıçıltısı ona ana laylasının şirinliyini, müqəddəsliyini xatırladır. O, Qafqaza ömür boyu yad olmuş, bu torpağın üstünə axan qanların azğın baiskarı erməni (hay) cəlladlarının işğalı altında inləyən, neçə-neçə işğalçı hökmdarların tökdüyü qanların şahidi olmuş tarixi Xudafərin körpüsünü xatırladır. O körpünün hər iki tərəfində işğallardan, haqsızlıqlardan, imansızlıqlardan təngə gəlmiş eyni kökün, soyun daşıyıcıları Azərbaycan türkləridir ki, zaman-zaman bu tarixi bəlalarla baş-başa qalıblar. Əsrlərlə bu torpaqda qanlar tökülüb, şəhid qanıyla yuyulmuş torpağımızın ağrıları sinəmizə çalın-çarpaz dağlarıyla pərçimlənib, lakin Vətənimizin quzey tərəfi öz istiqlalına qovuşsa da, güneyli bacı və qardaşlarımız hələ də işğalın qanlı üzü ilə baş-başadır, məktəbdə öz dilində təhsil almağa həsrətdir. Hərdən mənə elə gəlir ki, biz güneyli vətəndaşlarımızın haqqını heç düşünməmişik, çünki müstəqilliyimizə yetişdiyimiz məqamda ölkəmizin adını müstəqil Azərbaycan Respublikası yox, müstəqil Şimali Azərbaycan Respublikası kimi elan edəydik. Bununla biz güneyli vətəndaşlarımızın da varlığını yazılı şəkildə dünyaya bəyan etmiş olardıq. Bu bizi zaman-zaman parçalamaq missiyasını öz üzərinə götürmüş xarici müdaxiləçilərə də görk olardı, məhz müəllifi də ehtizaza gətirən bu həsrət, bu yanğı, bu müsibətdir:

Xudafərin üstə həsrət dağ oldu,
Baxtın taxtı yandı, baxtı dağıldı,

Bu nə səbir, bu nə dözüm, ağıldı –
İnamı, ümidi üzdü Damcılı.

Başımıza gələn bu müsibətlər, torpaq itkisi, yurd itkisi varlığı Vətən eşqilə çağlayan kişilərimizi mənən əyib. Onların ulu babalarının qılınc çaldığı yurdlar güclə, zorla qoparılıb yadellilərə ərməğan edilib. Onları öz qadınlarının, ana-bacıların yanında gözü kölgəli, dili qısa edib, axı əskilərdən Vətəni, yurdu, ocağı kişilər qoruyub bu günlərimizə gətirib yetirmişdilər. Birdən-birə türk kişisinə nə oldu ki, onun vuran əli belə kütləşdi? Düşüncəsində bir ətalət, bir inamsızlıq yarandı. Bir vaxt bütün dünyanı qılıncıyla lərzəyə salmış bu qurd oğlu qurdun ruhunda, canında nə baş verdi? Bəlkə islam dini adı altında mövhumat və cəhalət türk kişisinin döyüşkən ruhunu öləzitdi. Onun döyüşkənliyinin yerini inamsızlıq, ümidsizlik, ağrıya əyilmək, onun quluna çevrilmək əvəz etdi. İndi mən tez-tez kişilərimizdən eşidirəm ki, axı biz təpədən-dırnağa kimi silahlanmış toplu-tüfəngli, atomlu-nüvəli imperiyaya neyləyə bilərik? Çox vaxt imperiyaların gücü sabun köpüyünə bənzəyir, qabaranda əzəmətli olur, partlayanda isə kədərverici. Onlar sabun köpüyü kimi şişib-şişib tez partlayırlar. Biz əgər rüşvətə hərisliyi içimizdə məhv eləsək, uşaqdan böyüyə ölkəmizin varlanması, insanlarımızın savadlanması, elmlənməsi üçün çalışsaq, az müddətdən sonra hansı imperiya olursa olsun, bizimlə hesablaşmağa məcbur olacaq. Ona görə kişilərimiz çalışıb rüşvətin kökünü ağıllarından, şüurlarından kəsməlidirlər...

Mənə elə gəlir ki, topdan da, tüfəngdən də qorxulusu millətin ruhunun ölən günüdür! Millətin ki, ruhu öldü, onun özü də, varlığı da bir müddətdən sonra heçliyə yuvarlanır. Elə Əli Rza Xələfli də yatmış ruhları ayıldan, onlarda Vətən eşqini alovlandıran Damcılı poemasında işğalda olan yurdları dilə gətirir, oxucunu o yerləri unutmamağa, haqq işi uğrunda mübarizə aparmağa, necə deyərlər, fil qulağında yatmamağa çağırır:

Xələflinin yurdu hələ dardadı,
Qarabağdan xəbər gələ hardadı?
Cənnətin qapısı, yolu burdadı,
Tanrı dərgahına izdi Damcılı.

Mənim bölgəbazlıqdan, yerlibazlıqdan, qohumbazlıqdan zəhləm gedir. İnsanın həyatda tutduğu mövqeyə çox vaxt yuxarıda sadaladığım

xüsusiyyətlər ağır zərbə vurur. Ümumiyyətlə, Əli Rza Xələflidə bir müsbət keyfiyyəti də dilə gətirmək istəyirəm. Onun üçün Azərbaycanın hər bir tərəfi əzizdir, o redaktoru olduğu "Kredo" qəzetinə gələnlərdən heç zaman soruşmaz ki, sən haralısan?! Bu Əli Rza bəydə ən müsbət keyfiyyətlərdən biridir. Bizim milləti geriyə salan ən mənfi xüsusiyyətlərdən bir də onun yerliçilik azarına mübtəla olmasıdır. Yerliçilik onu hər bir işdə geridə qoyur, istər elmdə, istər inkişafda onun boğazına kəndir təki dolaşır. Yurdu istəyərlər, ancaq o istək o dərəcədə olmalıdır ki, o sənin milli mənafelərinə xələl gətirməsin. Təəssüf ki, bizdə bu hiss çox vaxt həyat yollarımızda böyük maneəyə çevrilir. Çox vaxt bizi başqa millətlərlə müqayisədə inkişafdan geri salır, milli təəssübkeşlik hissini azaldır, hətta müəllifin Qazax bölgəsində doğulmuş ünlü-ünsüz adamların, elm, sənət xiridarlarının adını sadalaması və onların haqqında gen-bol izahlar verməsi onun ürəyinin genişliyinə dəlalət edir. Qaldı "Kredo"nun çətinlik içində olması və Əli Rza Xələflinin mənəvi və maddi basqılarda qalması ürəkağrıdıcı bir həqiqətdir, çünki "Kredo" ədəbiyyatı can-dildən sevib özünü bu sahənin adamı sayanların mənəvi ocağıdır! Bu ocağın sönməməsi üçün biz hamımız əlimizdən nə gəlirsə onu etməliyik.

Mən bir şeyi həyat təcrübəmdən müşahidə etmişəm ki, adi adamlardan çox yaradıcı adamlar arasında paxıllıq hissləri qol-budaq atır. Bir-birinin ayağından dartmağa cəhd edirlər, hətta bu hisslər o qədər yayılıb ki, əlinə qələm alıb təzə cızma-qara edənlər də bu mənfur düşüncələrin əsirinə çevrilirlər, Habelə, bunun ağrılarını universitetdə təhsil aldığım zamanlarda belə tələbə yoldaşlarımın arasında da hiss etmişdim...

Mənə elə gəlir ki, eyni dili danışan bir millətin bölgə sevgisi Vətən sevgisinin qarşısına sədd çəkməməlidir, məhz Əli Rza Xələfli də Vətənə olan hədsiz sevgidən bu poemanı qələmə alıb, onun "Həsrət körpüsü"ndəki istəyi, coşqunu, məhəbbəti duyursan bu poemada. Müəllif poemanın axırını gözəl sonluqla bitirir:

Zal oğlunun sözlərini yaz saxla,
Fəsil-fəsil payız saxla, yaz saxla,
Sinən üstə bir üçtelli saz saxla,
Deyərsən ki, əhdi pozdu Damcılı.

Damcılı bulağının hali-əhvalını qətrə-qətrə söz qədəhinə süzüb oxucusuna şərbət kimi içirən müəllif, "Ağlayan gözəl"in göz yaşlarını misra-

misra, bənd-bənd ovudur, ağ sulardan dəstə tutmuş "Ağlayan gözəl"in hörüklərinə söz tumarı çəkir.

Əli Rza Xələflini Damcılı bulağına çəkib aparan illərlə dostluq etdiyi Daş Salahlı kəndinin oğlu olan sadə, mehriban, sakit təbiətli Nizami bəy və həyat yoldaşı Həkət xanımdır. Bu poemanın yaranmasının səbəbkarları əsərdə adları çəkilən obrazlarla bir sıradadır. Həkət xanım ömrünün əziz illərini kompüterin monitoru qarşısında keçirir. "Kredo"nun araya-ərsəyə gəlməsində müstəsna rolu var. Ona bu yolda can sağlığı, səbir, dözüm diləyirəm.

Bir də Allahdan diləyim odur ki, "Ağlayan gözəl"in göz yaşları kədərdən yox, sevincdən çağlasın... Vətənimizin üstündən qara buludlar çəkilsin, işğal altında olan məmləkətimiz yağı tapdağından xilas olsun, yurdlarımızın, həmçinin Damcılının başına Haqqın göylərindən nur tökülsün... Elə bu istəklə də yazıma nöqtə qoyuram.

14.10.2011

ANADAN ŞAİR DOĞULAN MÜŞFİQ...

(*Mikayıl Müşfiqin əziz xatirəsinə...*)

Neft Daşlarında – Geofizikada işlədiyim vaxtlarda hər dəfə Böyük Zirə (Nargin) adasının yanından sərnişin gəmimiz keçərkən istər-istəməz, özümdən asılı olmayaraq qəhər məni boğurdu... O ada tərəfə baxa bilmirdim. Mənə elə gəlirdi ki, o adada bir zaman dəhşətlər içində haqsızcasına gülləbaran edilmiş insanların bədbəxt ruhları dolaşır. Sanki bu ruhlar bütün günü bir-birlərinə iblislər əlində qırılmış ömürlərinin şirinliklərindən bəhs edə-edə, acı qəhqəhələr çəkə-çəkə, oyan-buyana vurnuxa-vurnuxa sarı tüstü-dumanda bozaran Bakıya sarı boylanırlar... Böyük Zirə adasına yetişəndə, hətta gəminin göyərtəsində bərkdən səs çıxardan adamlara, üzdə büruzə verməsəm də ürəyimdə acığım tuturdu, çünki istəyirdim ki, onlar da mənim kimi Böyük Zirə adasına baxanda orda şəhid olanların əziz xatirəsinə hörmət əlaməti olaraq bir anlıq da olsa sükuta dalsınlar. Elə zənn edirdim ki, əgər belə etsək, orada sərgərdan dolaşan ruhlar da toxtaqlıq tapar...

Böyük Zirədə məhv olan insanların çox qismi aylıq qazanc haqqı üçün gəmidə gedən adi insanlar kimi deyildi. Onların əksəriyyəti milli mənsubiyyətinə görə, milli dəyərinə görə, xalqın arasından çıxmış sayılıb-seçilən şəxsiyyətlər idi. Onları zamanın acı fırtınası şeytanların ağız-ağıza

verib ulaşdığı bir dövrdə haqsızcasına, imansızcasına tar-mar etdi. Bütün arzularını, istəklərini heçə-puça endirdi. Evlərini xaraba qoydu, ailələrini zorla zindanlara atdı, sürgünə yolladı, boş qalmış xanimanlarında bayquşlar uladı...

Bu yaxınlarda televiziya kanallarının birində deyirdilər ki, bəs oranı turist məskəni etmək istəyirlər. Doğrusu, bu xəbəri eşidəndə çox pis olmuşdum. Çox zaman şayiələr həqiqətə çevrilir...

Yaxşı olardı ki, hökumətimizin başında duranlar nakam ruhların qaynaşdığı bu adanı qoruğa çevirsinlər. O ada açıq muzey kimi fəaliyyət göstərsin. Yerli əhali və ölkəmizə qonaq qismində gələnlər üçün Böyük Zirə adasıyla tanış olmaq üçün gediş-gəliş gəmiləri fəaliyyət göstərsin. Ən nəhayət, orada faciəli şəkildə öldürülənlərin ruhuna hörmət əlaməti olaraq abidə ucaldılsın... Bir çoxumuza məlumdur ki, həmin adada dustaqların vaxtilə yaşadığı uçuq-sökük daxmalar qalmaqdadır...

Hələ məktəb zamanından şeirlərini sevə-sevə oxuyub birnəfəsə əzbərlədiyimiz Mikayıl Müşfiq də belə bir bədbəxt tale yaşadı. Bəxtinə iyirmi doqquz il ömür düşən Müşfiq anadan şair doğulmuşdu. Bunu onun məhəbbət dolu, eşq dolu şeirlərinin axıcılığı da bizlərə diktə edir. Cəsədləri Xəzərin qorxulu fırtınalarına yem olan faciə qəhrəmanlarından biri də yəqin ki, Müşfiqdir... Həyatının baharında, ömrünün bar-bəhər verdiyi zamanlarda cismi yox edilib, ruhu incidilən Müşfiq!.. Nə idi bu böyük, bu istedadlı şairimizin günahı, hətta ona qəbir evini də çox gördülər?!

Bu gün müşfiqsevərlər, onun xatirəsini əziz tutanlar Xızı bölgəsinə, onun doğulduğu ata evinə üz tutmalı olurlar. Ona yadigar məzar da qoymamaq üçün çox güman ki, cismini Xəzərin sularına qərq etdilər!..

Bu yaxınlarda internet portallarında Müşfiqlə bağlı səhifələri aramağa başladım. Bu böyük şairə saytlarda bir sevgi, bir istək, bir məhəbbət gördüm. Bəlkə o, birinci şairdir ki, onun haqqında vikipediyadan, vikimənbədən tutmuş facebook da daxil olmaqla nə qədər istəyirsən gen-bol məlumatlar var. Şeirləri internet çatlarında çinar kimi sıralanıb. Ürəyim qürur hissilə doldu, sağ olsun bu portalları qurub-yaradan və insanlarımızın istifadəsinə verən kəslər! O kəslər ki, bizim çoxlarımızın bəyənmədiyimiz, ürəyi Vətən eşqilə yanan qeyrətli, həqiqi mənada qürur doğuracaq gənc insanlarımızdır. Belə gənclərin şəninə nə qədər qürurverici sözlər desək azdır. Necə deyərlər, ömürləri ləyaqət çərçivəsində uzun, bəxtləri ağ olsun! Bu gənclər Azərbaycanımız üçün çox böyük işlər görürlər internet çatlarında. Onların özləri də elə Müşfiq qədər əzizdirlər bizlərə.

İnternet nədir? İnternet Yer kürəsini öz cibində gəzdirmək deməkdir. Dünyada baş verən bütün hadisələrdən gün ərzində xəbərdar olursan, hətta imkansızlıq ucbatından xarici ölkələrə ayaq basa bilməyən insanlarımız internet vasitəsilə bütün dünyanı səyahət edə bilir. Keçən əsrin 90-cı illərində səsimizi içimizdə batıranların öz səsləri bu gün sürətli internet bazarında dərin quyunun dibindən gəlir.

Beləliklə, mətləbdən qaçmayaq. Yazacağımız mövzunun üzərinə qayıdaq, hətta vikimənbədə Müşfiqin dillər əzbəri olan "Yenə o bağ olaydı", "Oxu tar", "Maralım", "Yaşa könül", "Sənə qurban", "Küləklər" kimi eşqi-məhəbbətdən bəhs edən 50-yə yaxın həyati şeirlərilə bahəm bolşevik ab-havasını tərənnüm edən "28 Aprel", "Zəfər səsləri", "Əmək", "İrəli" kimi şeirləri də yer alıb. Bəs sovet dövrünün yaranışını böyük bir şövqlə nəzmə çəkən şairi kimlər ölüm girdabına sürükləmişdi? Hansı qara əllər iyrənc caynaqlarını onun yaxasına keçirmişdi? Axı o hələ çox gənc idi, amma gənc olmasına baxmayaraq 70 il, 80 il qələmi kağızlarda ahvay edən şairlərin yaza bilmədiklərini o cəmi-cümlətanı iyirmi doqquz ilin içində yaza bilmişdi. Əgər Allah verən ömrü qoysaydılar yaşamağa hələ neçə-neçə dastanların, poemaların, şeirlərin müəllifi olacaqdı, amma qoymadılar. Nəyə görə?.. Ona görə ki, Müşfiq anadan şair doğulmuşdu... Bunu isə o zamanın dırnaqarası mənəviyyat adamlarının bir çoxu götürə bilmədi, çünki Müşfiq cilalanmış almaz idi. O öz misra şəfəqlərilə aləmə nur saçırdı...

Bu nurun işığından gözləri qamaşanlar öz ala-yarımçıq bacarıqlarından qorxdular. Qorxdular ki, Müşfiq sağ olsa onlar Müşfiqin yanında çox solğun, üzgün, cılız, aciz görünəcəklər. Elə ona görə də şeirlərilə könülləri ovsunlayan, ürəkləri riqqətə gətirən şairi susdurdular. Susdurdular ki, bülbül kimi cəh-cəh vuran misraları, bəndləri bir də şair qəlbindən doğulmasın. Onlar təkcə Müşfiqin özünə yox, həyat işığı görməmiş neçə-neçə şeirlərinin də qətlinə fərman verdilər. Onlar ədəbiyyatımızı, kitab rəfini bəzəyəcək Müşfiqin doğulmamış əsərlərinə həsrət qoydular. Onlar ən nəhayət, mənəviyyatımıza zərbə vurdular Mikayıl Müşfiq, Hüseyn Cavid, Əhməd Cavad kimi şairləri məhv etməklə... Özləri nə qazandılar, nəyi qazandılar bilmirəm, amma biz belə mənəviyyat adamlarını itirməklə çox şeyləri bada verdik. "Kommunist" qəzetinin 20 iyun 1937-ci il tarixli sayında Ə.Əkbər adlı müəllif "Müsavatçıların tulası Müşfiq" adlı bir məqalə çap etdirib. Məqalənin kiçik bir parçasını istəkli oxucuların diqqətinə təqdim

etmək istəyirəm: – "İkiüzlü Əhməd Cavad, Hüseyn Cavid, Sanılı və onların ayrılmaz quyruğu olan Mikayıl Müşfiq uzun illər boyu sosializm quruculuğumuza istər açıq, istərsə də gizli surətdə zidd olmuş və murdar işlərini davam etdirmişlər". Adından da göründüyü kimi məqalə başdan-başa təhqir, böhtan, kinayə ilə doludur. 5 yanvar 1938-ci ildə isə Müşfiqi güllələyiblər. Bu məqaləni nə erməni, nə rus, nə yəhudi yazıb. Bu məqaləni adından göründüyü kimi Ə.Əkbər yazıb, necə deyərlər, sapı özümüzdən olan baltalar... Bu gün də Ə.Əkbərlərin xələfləri mövcuddur, amma dövr o dövr deyil, ona görə də Ə.Əkbərlər o qədər əl-qol ata bilmirlər...

Aman Allah, çox illər ağlımızın gerçəkliyindən qorxaqlıq boylandı, içimiz ağrılar içində alışıb yandı. Öz ahımızın fəryadına xəlvəti hıçqırdıq, bu hıçqırtılar kirpiklər üstündə şəbnəmlər təki parladı gecəbəgündüz... Biz uzun illər özümüzə gələ bilmədik. Bu gün də hələ yaşlı nəslimiz o qorxuların xofu altından titrək baxışlarla ətrafa boylanmaqdadır. O illərin qanlı havasını udanlar, zəhər kimi ciyərlərinə çəkənlər öz küskün mənləri ilə başa-başa inləməkdədirlər. Elə bu sətirləri yaza-yaza Müşfiqin ürəyindən qopub qələminə süzülən, ağ vərəqlər üstündə göyərçin tək qanad açan "Yenə o bağ olaydı" şeri qulaqlarımda səslənir:

Yenə o bağ olaydı,
Yenə yığışaraq siz,
O bağa köçəydiniz.

Bizdə muradımızca
Fələkdən kam alaydıq,
Sizə qonşu olaydıq...

Arzuya bax, sevgilim,
Tellərindən incəmi?
Söylə, ürəyincəmi?

O, gözəgörünməz, odu ürək yandıran sirli ilhamın gücü misralardan boy göstərir. İnsanın ruhuyla dildarlıq edir. Bax budur Müşfiq şerinin sehri! Ürəklərdə məbəd tikən, odu keçməz məşəl yandıran ilahi ovsunu. Onu aradan götürənlər də elə bu ovsundan qorxdular. Müşfiqin ata yurdu uca dağlar qoynundan boylanan Xızı bölgəsində Sayadlı kəndində yerləşirdi.

O bölgənin insanları farsdilli olsalar da Müşfiqin dahiyanə şeirləri təmiz Azərbaycan türkcəsinin axarı-buxarı ilə cilalanıb. Onun şeirlərini oxuyanda Azərbaycan türkcəsinə heyran olmaya bilmirsən. Onun hər şeri çeşmə kimi çağlayır, bulaq kimi gözündən qaynayır. İlahi bir pıçıltı duyursan bu nəğməkar şairin şeirlərində...

Bu gün özlərinə nəğməkar şair adı qoyub yazdıqları cızma-qaralara yüzlərlə mahnılar bəstələdənlərin nə şeirlərinin sözləri, nə musiqisi yadda qalır, çünki ilhamsız yazılan şeirlərdir. İlhamla yazılan şerin musiqisi də elə onun özüylə birgə doğulur. İstedadlı şairimiz Mikayıl Müşfiqin şeirlərində olduğu kimi...

Onun "Maralım" şerində istəkli sevgilinin surəti canlanır. Sən onun gözəlliyindən vəcdə gəlirsən, ruhun içində həyat eşqi çağlayır, sevdanın əli ömür dəftərini vərəqləyir, könülü haldan-hala salır, bu şeir qəlbə munis olub ürəyində qalır:

Dolaşma sıldırım sal qayalıqda,
Daşlar ayağını əzər, maralım!
Gəl səni bəsləyim gözümün üstdə,
Etmə aşiqindən həzər, maralım!..

Və yaxud "Sənə qurban" şerində istəkli sevgilisinə hər misradan bir uca söz sarayı yapır:

Deyirsən yanında qalacağam mən,
Çox gözəl fikirdir, qal sənə qurban.
Nə zaman istəsən əziz canımı
Qumral gözlərinlə al, sənə qurban.

Bu gün pula-vara hərislər, beşgünlük ailə həyatı quranlar, doğulan uşaqların həyatını faciə dolu ömürlə qol-boyun buraxanlar Mikayıl Müşfiq şeirlərindən bəhrələnsəydilər mənə elə gəlir ki, pis olmazdı. Onlar sevginin ucalığını, həyatın şirin olduğu qədər, acı olduğunu dərk edərdilər və qurduqları ailə həyatının möhkəmliyi üçün can-dildən çalışardılar, çünki Müşfiqin şeirlərində yüksək həyat eşqi, sevginin, məhəbbətin yenilməzliyi, möhtəşəmliyi insan ürəyində məhrəmanə hisslər bəsləyir. Onu nəinki öz sevdiyinə kəc baxmağa, əksinə, adamı bu ilahi hissə ömür boyu sadiq qalmağa səsləyir.

Bu gün yazıq şerin başına min bir oyun açan, bir-birini bəyənməyən şairlər ordusu yaranıb. Özü də biri-birindən müştəbeh, biri-birindən havalı! Şerə postmodern yarlığı yapışdırıb, onun hal-əhvalını pərişan edən bu dırnaqarası söz bahadurları nəinki ədəbiyyatımızı şeirlə parlatmaq istəyirlər, hətta onu belə getsə şeirsiz qoymaq istəyirlər. Bu gün ədəbiyyat portallarında gen-bol şeirləri çap olunan bu dırnaqarası istedad sahiblərinin şəninə internetdən başı çıxan və orda bir oxucu kimi sözünü deməyi bacaran insanlar həqarət dolu məktublar yazırlar, hətta şerin necə yazılmasını bu qələm sahiblərinə başa salmağa çalışırlar. Əziz söz və qələm sahibləri, bu ürəkbulandırıcı, başgicəlləndirici bir mənzərə deyilmi?!

Beləliklə, əgər biz ingilis kimi yazmaq istəyiriksə ingilisin Şekspiri olub və onun yazdıqlarını oxuduqca oxumaq istəyirsən, hərgah biz rus kimi yazmaq istəyiriksə rusun Puşkini olub onun şeirlərinin axıcılığına heyran olmaya bilmirsən.

Ədəbiyyatdan pul çıxarmaq istəyənlər, onu qazanc mənbəyinə çevirmək istəyənlər bilməlidirlər ki, bədii yaradıcılıq ilahi ruhun məhsuludur. O ani fikirlə, içib dəmlənməklə yaranmır. Onun yaranması üçün gərək anadan şair doğulasan Mikayıl Müşfiq kimi... Şair ilhamın nə olduğunu anlamayan, lakin şairlik sevdasına düşənlərə bir dördlüyündə yazırdı:

Şairə ilhamdan mayə gərəkdir,
Anasız çocuğa dayə gərəkdir,
Şairəm söyləyir yerindən duran,
Adamın üzündə həya gərəkdir!..

Bu gün Mikayıl Müşfiq həyatda yoxdur, onu ömrünün iyirmi doqquzuncu ilində bugünkü şair olmaq istəyən və anadan şair doğulmayan həmtayların sələfləri susdurdular. Cismən onu məhv etdilər, həyatının çiçəkləndiyi vaxda onu sevməyə, sevilməyə həsrət qoydular. Onu gülüzlü yarından ayırdılar, ona vətən xaini, xalq düşməni damğası vurdular. Onun şair ruhunun qarşısında bir tələ qurdular, bir səd kimi durdular və qismən də olsa arzularına çatdılar, amma bu ilhamlı şairi, ilham pərisi anbaan sinəsində cövlan edən şairi cismən öldürdülər, fəqət mənən onu həyatdan apara bilmədilər, çünki bu gün Müşfiq çox mənəm-mənəm deyən şairləri internet portallarında çoxdan ötüb keçib, öz ölməz, əbədiyaşar şeirlərilə!.. Facebookda Mikayıl Müşfiq səhifəsi var. Minlərlə oxucu onun şeirlərinin

şəninə xoş sözlər yazır, onun ruhuna Allahdan rəhmət diləyirlər. Sonra da deyirik ki, gənclik kitab oxumur, axı bu internet portallarında var-gəl edən əsasən gənc oxucu ordusudur ki, yorulmadan mütaliə edirlər və yaxşını pisdən ayırmağı bacarırlar. Belə gənclərimizə Allahdan cansağlığı diləyib, onlarla qürur hissi keçirdiyimi bəyan etmək istəyirəm.

Müşfiqin könlündə coşub-çağlayan məhəbbət, sanki mavi donlu bir mələk idi. Bu mələyin donunun qırçın ətəklərini qəlbində baş qaldırıb tüğyan edən ilham külәkləri əlləri oxşayan yelpiklər təki əzizləyirdi... O, məhəbbət mövzulu hər şerində sevgiyə misra-misra könül kərpiclərilə məbəd yapırdı, sanki bu məbəddən ilahi ruhun sədası göylərin bağrına dikəlirdi. Oradan buludların göz yaşına çevrilib yerlərə ələnməkçün... Bu ələnən gurşadlardan bağları, çəmənlikləri bəzəyən çiçəklər doğulurdu, Müşfiqin şeirlərinin ruhunda, amma bu ilahi eşqin carçısını susdurdular, sanki könül bülbülünün bağrına min bir yerdən ox vurdular.

Müşfiq daxilən azad idi, onun daxili azadlığı çeşmələr təki çağlayan misralarından görünür, amma o da dövrünün şairləri kimi bolşeviklərin, əli qanlara batmış cəlladların zor gücünə yaratdığı başıpozuq quruluşa şeirlər həsr edirdi. Bu şeirlər onun ruhundan, canından doğulmasa da, o, bunları yazıb o dövrün mətbuat səhifələrində nəşr etdirirdi, ancaq təəssüf ki bədxahlar onun yazdığı bu şeirlərə məhəl qoymadılar, ürəyi ilahi məhəbbət eşqilə döyünən şairi məhv etdilər.

Müşfiq 5 iyun 1908-ci ildə Bakıda rus imperiyasının tüğyan etdiyi bir zamanda doğuldu, onun bayrağını, 1918-ci ildə on yaşında olarkən səkkizaylıq müstəqilliyimizin şahidi olub üçrəngli istiqlal bayrağımızı və ən nəhayət, sovet bayrağını gördü. Onun körpəlik həyatı imperiyaların toqquşduğu və qanlı müharibələrin tüğyan etdiyi bir dövrə düşdü. 1920-ci ildə Azərbaycanda bolşeviklər qələbə çalanda Müşfiqin on iki yaşı var idi. Gəncliyə yetdikcə bu dəhşətli çaxnaşmalar onun şair ruhunu öz yolundan döndərə bilmədi. Onun duyğuları şerə çevrilib vərəqlər üstünə axdı, eşqə bağlı könülləri titrətmək üçün... Bir-birindən oxunaqlı, bir-birindən axıcı şeirlərlə cilalanmış kitabları çap olundu.

Müşfiq həyat eşqilə çağlayan könlünü ilahi misralarının şirinliyində ovudurdu. Bu şeirlərin hər biri sevgilisinə öz sevdalı diliylə şərqi bəstələyən bir bəstəkar ovsunu ilə, könül duyğularını rənglər içində hamarlayan və onlardan rəsmlər çəkən rəssam işığı ilə sehrlənmişdi. Bu şeirlər müxtəlif zamanların sevgi şərqiləri idi. Neçə-neçə nəsilləri yola salacaq, bu Vətən

var olduqca Müşfiqin şeirləri də, yaratdığı əsərlər də Azərbaycanımızla bahəm, onun dəyərli, vətənsevər insanlarının dilindən düşməyəcək...

Şeri yaşadan onun müəllifi yox, onun şeir kimi doğuluşudur. Şeri yaşadan nə müəllifə verilən ödüllər, nə təmtəraqlı tərifl ərdir. Şeri ilham yaşadır. İnsan bədənində can olduğu kimi, əsl şerin də bədənində ilham var, həm müəllifi, həm də şeri əbədiyaşar ilham edir. Onu da böyük Yaradan hər kəsə vermir, əgər şeir şeir kimi doğulubsa, onu nə zaman qadağaları, nə qarafikirli insanlar ədəbiyyatdan, insanların qəlbindən, düşüncəsindən silə bilməz. Bir el məsəlində deyildiyi kimi: "Su axar, çuxuru tapar". Müşfiqin şeirlərinin qarşısına keçilməz sədlər çəkib, onu yağı damğasıyla susduranlar, burnundan uzağı görməyən adamlar idi. Onlar ədəbiyyatımızı Müşfiqin şeirlərindən təmizləmək istədilər, əksinə, Mikayıl Müşfiq xalqın qəlbində bir əfsanəvi qəhrəmana çevrildi, onun sevda dolu şeirləri el-el, oba-oba dolaşdı, xalqın könlündə istəkli bir yer tutdu. Onu susduranlar xalqın gözündə kiçilib yox oldular, Müşfiq isə xalqın qəlbində yenidən doğuldu öz ruhu oxşar bir-birindən şahanə, gözəl misraları ilə... Şair "Oxu" şerində təkcə öz sevgilisinin yox, həyatı cani-dildən sevən insanların ruhunu dinlədir:

Oxu, sevdiciyim, öz həvəsinlə!
İlham qanadlanır sənin səsinlə.
Nəğməndə oynasın sellərin səsi,
Dan yerindən əsən yellərin səsi!

Bakı ərazisi, ümumilikdə Abşeron bölgəsi muğamın, qəzəlin beşiyidir. Burda tar hər insan qəlbinin istəkli qonağıdır. Onun telindən qopan sədaları burda uşaqdan böyüyə hamı sevir, çünki tarın əsrarəngiz tellərindən muğamın şöbələri yaranıb bəmdə-zildə muğam xiridarlarının nəfəslərində pərvəriş tapıb. Elə Müşfiq də dağlı ailəsində böyüyüb boya-başa çatmışdı, o, muğamı da, qəzəli də çox sevirdi. Elə o sevgidən yana onun "Oxu tar" şeri yaranıb. Dünən olduğu kimi bu gün də, sabah da xalqın könlündə bu şeir zaman-zaman yaşayacaqdır. İstedadı sellər təki aşıb-daşmış şair "Oxu tar" şerilə tara əbədi bir heykəl yonub. Nə qədər ki vətən insanı durur, bu şeir də onunla bahəm yaşayacaqdır:

Oxu, tar, oxu, tar!
Səsindən ən lətif şeirlər dinləyim.

Oxu, tar, bir qədər!
Nəğməni su kimi alışan ruhuma çiləyim,
Oxu, tar!
Səni kim unudar?
Ey geniş kütlənin, şirini, şərbəti –
Alovlu sənəti!...

Tarın qəlb titrədən sehrinə düşmüş şair onun tellərinin fəğanını misralarının dili ilə oxucunun ürəyinə bir şərbət kimi səpir. Tarın mizrabının tellərə haray salan sədaları altında qulaqlarında bağrı yandıran "Segah", "Çahargah", "Hümayun", "Şahnaz", "Şüştər" səslənir. Budur, Müşfiqin bulaq kimi çağlamış istedadının bəhrəsi!..

İlhamı sellər təki aşıb-daşan Müşfiqin "Həyat sevgisi" şeri, sanki öz dostu-yarı ilə, doğmaları ilə vida şeridir. Bədbəxt taleli şair, elə bil başına gələcək fəlakətin acı yellərinin qoxusunu qabaqcadan duyubmuş, ona görə insan ruhunu qəmləndirən, onu qəhər yaşları ilə boğan bu şeir yaranıb:

Ah, mən gündən-günə bu gözəlləşən
İşıqlı dünyadan necə əl çəkim?
Bu yerlə çarpışan, göylə əlləşən
Dostdan, aşinadan necə əl çəkim?

Həyat dedikləri bu keşməkeşdən,
Qəlbimdə, qanımda yanan atəşdən,
Gecədən, gündüzdən, aydan, günəşdən,
Bu əngin fəzadan necə əl çəkim?

Özünə Müşfiq adını təxəllüs götürən şair, yəqin ki, bu adın ərəbcədən tərcüməsini bilməmiş deyildi. Müşfiq – şəfaqətli, mərhəmətli, ürəyi yumşaq, mehriban deməkdir, amma çox təəssüf ki, dövr onunla mərhəmətli, şəfaqətli, mehriban olmadı. Bir el bayatısında deyildiyi kimi:

Fələyin qəhri mənə,
Gəlmədi rəhmi mənə.
Doldurub qəm piyaləsin
İçirtdi zəhri mənə...

Onun ilhamla çağlayan ürəyini susdurdular, hətta bir quru məzarı da ona çox gördülər. Hələ uşaq vaxtlarımdan Mikayıl Müşfiqin Siyəzən rayonunun girəcəyindəki büstünün küskün görkəmilə rayona gəlib-gedənlərin nəzərini cəlb etdiyini görürdüm. Bizi də ədəbiyyat müəllimlərimiz həmin büstün önünə gətirər və biz də onun şeirlərini əzbərdən deyərdik... Bu gün də o büst Siyəzənin girəcəyini bəzəməkdədir. Müşfiq öz küskün və yaraşıqlı görkəmilə üzü Xıdırzindəyə – Beşbarmağa, Xızı dağlarına sarı boylanmaqdadır, amma onun məhvinə fərman verənlərinsə nə özləri xalqın qəlbində var, nə izləri, nə də sözləri... Olub-keçənlər onu diktə edir ki, gec-tez zaman öz sözünü deyir, bu ikiayaqlı bəndələr hansı imansızlıqları, haqsızlıqları etsələr də, fələk hər kəsin əməlini öz qarşısına çıxarır. İstər yaxşı mənada, istər pis mənada. Müşfiqin də qətlinə fərman verənlər yəqin ki, Yaradanın qəzəbinə gəlməmiş deyillər. Arxivlər açılır, hər kəsin əməlləri yavaş-yavaş üzə çıxır və çıxacaq... Onsuz da dünyaya gələn istədi-istəmədi bir gün bu dünyadan yığışıb getməlidir. Mikayıl Müşfiq iyirmi doqquz illik ömrü ilə ədəbiyyatımızda öz nəhəng və möhtəşəm şeir heykəlini yondu, bu heykəli nə zamanın qasırğaları, nə tufanları yox edə bilməz, çünki o heykəl xalqın ürəyində ucalıb qeyri-adi istedad sahibi olan dahi şairin özü tərəfindən. Ruhun şad olsun, ey qəlbimizdə iyirmi doqquz yaşlı qalan şair!.. Allah sənə qəni-qəni rəhmət etsin...

19.11.2011

MƏNƏVİYYAT İŞIĞINDA

Müasir Azərbaycan ədəbiyyatını mütaliə etdikdə söz adamlarını bir neçə qismə bölmək məcburiyyətində qalırsan. Bir qisim söz adamları qələminə yaradıcılıq yolu qismində iyirmiillik müstəqilliyimizin yalnız cah-calallı tərəflərini seçir. Bununla da yaşadığı cəmiyyətdə öz ziyalılıq amalına xidmət etdiyini zənn edir, amma mənə elə gəlir ki, qələmi əlinə alıb özünü yazıçı qiyafəsində görən hər bir kəs doğulduğu yurdun, vətənin ağrı-acılarını, millətinin əyər-əskikliklərini vicdanının hökmüylə ürəyinin cəfasına, qələminin vəfasına söykənib yazıya gətirməlidir. Bu heç də iqtidarda olan hakimiyyətə zidd getmək yox, onun inkişafına təkan verməkdir. Cəmiyyətdə baş verən haqsızlıqlar da, vicdan tərəzisinin əyilməsi də, kasıbın, imkansızın göz yaşı da, işsizlik də, məmur özbaşınalığı da, amansızlıq-imansızlıq da hökmən yazarın qələmindən keçib vərəqlər üstünə

səpələnir. Bəli, cəmiyyətdə baş verən özbaşınalıqlara özünü şair, yazıçı, jurnalist sayan qələm əhli birinci səsini qaldırır və qaldırmalıdır, məhz Elman Rüstəmov (Qəmgin) o qisim qələm əhlindəndir ki, cəmiyyətin ağrı-acılarına, kəsə yolla desək haqq tərəzisinin əyilməsinə dözə bilmir. Yalançı təriflərdən, riyakar gülüşlərdən, həyası olmayan baxışlardan bezir. Dərdini ağlından qaynayıb çıxan sözlərin ağrısına bükür və onu publisist, hekayə, şeir dili ilə oxucusuna çatdırır. Elə söz adamının müqəddəs diləyi odur ki, düzə qələmini çalsın, yaltaqlığa, məddahlığa, yalançı təriflərə yox desin. Bəzi yazar qurumlarının daxilində öz əndazəsinə, yazısına-pozusuna vurulan və özünü anadangəlmə yazar qismində görən bir çox söz adamlarımız da bilməlidir ki, yazıçı olmaq hansısa birliyin daxilindən yox, öz içindən başlayır. Öz içindən başlayan yazıçılığının bar-bəhərini də oxucu dadmağa müyəssər olur və ondan əməlli-başlı zövq alır, necə ki, mən qələmdaşım Elman bəy Qəmginin kitablarını oxuduqca mənəvi qidalandım, hətta hərdənbir göz yaşı içində qəhqəhə çəkib güldüm də!

Hörmətli oxucuları dəyərli yazıçımızın 2010-cu ildə "Qanun" nəşriyyatında çap olunmuş "Başkəsənlər" kitabı ilə tanış etmək istəyirəm. Kitab üç hissədən ibarətdir. Kitabın birinci hissəsi müxtəlif illərdə yazılmış və dövri mətbuatda çap olunmuş hekayələrdən ibarətdir. Kitabın birinci hekayəsi olan "Kreml qülləsi" diqqətimi cəlb etdi, hətta oxuyub doyunca güldüm də. Əgər yazıçı oxucunu öz yazdıqlarıyla güldürürsə, ağladırsa, ən nəhayət, düşündürə bilirsə, demək, o bu yolda uğur qazanıb. Elə Elman Rüstəmov da uğur qazanan sənətkarlarımızdandır, çünki sənətkarlığın qiyməti nə aldığın mükafatlarda, nə də yerli-yersiz təriflərdədir. Sənətkarlığın qiyməti onun araya-ərsəyə gətirdiyi ədəbi-bədii məhsuldadır. Bu hekayədə həqiqətən göz yaşı içində gülüş var. İşğallar altında inləyən böyük bir millətin dilinin, mədəniyyətinin, siyasətinin basqıları altında inlədiyini bu kiçik hekayədə eyhamlarla, oxucunun diqqətinə çatdırır və düşünməyə vadar edir. Hekayənin sonunda "Mən isə raketi Kremlin qülləsinə oxşatmışam və anketdə Kremlin qülləsini çəkmişəm sən demə..." Sovet dövründə rus dilini bilməyən kənd uşaqlarımız Rusiyanın müxtəlif şəhərlərində ali təhsil alırdılar. Onlardan az bir qismi ali təhsilli mütəxəssis kimi yetişirdi. Özü də min bir əziyyətlərə qatlaşa-qatlaşa. Müəllif bu çətinlikləri yığcam bir hekayədə oxucusuna ustalıqla çatdırır. Onun "Ağ vərəq", "Mən tupoy", "Çaşbaş Əhməd" kimi hekayələri kitabda yer alıb. Bu hekayələr öz oxunaqlığı ilə, ürəyəyatımlığı ilə diqqəti cəlb edir.

Mən isə müəllifin "Başkəsənlər" hekayəsinin üstündə xüsusən dayanmaq istəyirəm. Elə uşaq vaxtlarımdan nənəmin türklər haqqında danışdığı şirin-şəkər xatirələri məndə onlara xüsusi məhəbbət yaratmışdı. Nənəm deyirdi ki, türklər gəlməsəydi, erməni-rus dəstələri bizi tamamilə məhv edəcəkdilər, hətta 1918-ci il dəhşətlərində nənəmin də bir bələkdə olan qız uşağını oda atıb yandırmışdılar. O, dünyasını dəyişənə qədər namaz üstündə şəhid türk əsgərlərinin ruhuna salavat çevirərdi və onları böyük məhəbbətlə yad edərdi... Elə Elman bəy də "Başkəsənlər" hekayəsində türkiyəli oğlanla azərbaycanlı qızın ali məktəbdə bir-birini sevməsindən, bir müddət sonra onların toy mərasimində baş verən məzəli əhvalatlardan bəhs edir və illər boyu bir-birindən ayrı düşmüş eyni dilin, eyni kökün, eyni dinin daşıyıcıları olan Türkiyə türklərilə Azərbaycan türklərinin dillərində işlənən bəzi sözlərin başqa-başqa mənalar daşımasının bir-birləri arasında anlaşılmazlıq yaratmasını qələmə alır. Burada həm ürəkağrıdıcı kədər, həm də düşündürücü gülüş vardır, çünki Türkiyə türklərinin çoxdan çəkilmiş filmlərinə baxdıqda onlarla demək olar ki, eyni dili danışdığımızın şahidi olursan. Sonralar isə Türkiyə türklərinin dilində, sanki bizim dilimizdən uzaqlaşma olub, amma Azərbaycan türkcəsinə yaxşı bələd olan hər bir kəs üçün Türkiyə türkcəsi də o qədər çətinlik törətməz.

Elman Rüstəmovun "Başkəsənlər" kitabında ikinci hissədə "Şeirlər" yer alır. Bir yazar olaraq şeir ruhuma daha yaxın olduğu üçün bu bölmədən xüsusi bir maraqla söhbət açmaq istəyirəm. Əksər hallarda tənqidçilərimiz şeirdə mənadan, məzmundan öncə kəşflər axtarırlar, amma mənə elə gəlir ki, şeir də yaradıcılıq növünün bir üsuludur. Onunla da çox mətləbləri, çox incəlikləri, dövrün ağrı-acılarını, zaman tərəzisinin əyilməsini daha yüyrək yolla oxucuya çatdırmaq olar, çünki şerin dili daha itidir, daha kəsicidir, daha ağrıdıcıdır. Biz bu gün dastanlarımızda, bayatılarımızda, ağılarımızda, laylalarımızda tarixin dolaylarında baş vermiş bir çox mətləbləri açıq-aşkar görürük. Hər bir dövrün yazarı öz tarixini təbii olaraq bədii ədəbiyyatın dili ilə kitab səhifələrinə həkk edir. Elə Elman Rüstəmovun "Başkəsənlər" kitabındakı şeir bölməsi yaşadığı dövrün bənzərsizliklərini, qeyri-adi incəliklərini, ağrıdıcı, düşündürücü, güldürücü məqamlarını şerin dili ilə nəzmə çəkir. Onun "Heykəllər də canlıdır" şeri dərin-dərin mətləblərdən xəbər verir. Şeirdə müxtəlif zamanlarda müxtəlif talelər yaşamış təfəkkürlü, təkəbbürlü insanların heykəl ömründən bəhs edir. Şeirdə Qarabağda erməni cəlladları tərəfindən güllələbaran olunmuş Natəvanın, Üzeyirin,

Bülbülün incik heykəllərindən söz açılır. Dahi Marksın, Leninin, Kirovun, Əzizbəyovun, Nərimanovun və bir çoxlarının heykəl ömrünü nəzmə çəkir. Müəllif elə şerin ilk misralarında heykəllər barədə tutarlı açıqlamalar verir:

Heykəllər də canlıdır,
Doğulur,
Yaşayır,
Ölür.
Heykəli dərd-qəm deyil,
Zaman özü öldürür.

Doğrudan da belədir. Bir zamanlar Leninin heykəllərilə bəzənmiş Azərbaycanda indi bir dənə də olsun onun heykəlinə rast gəlmək mümkün deyil. Mənim hərdən bir heykəltəraşlara elə ürəyim yanır ki... Axı bu heykəllər onların yaradıcılıq işidir. Öz ürəklərini, öz vaxtlarını qoyublar bu heykəllərə, amma axırda müəllif şeri gözəl, tutarlı bir sonluqla bitirir:

Nə yaxşı ki, Nizami,
Füzulimiz yaşayır,
Yenə dərisi soyulan,
Cilalanan, yonulan,
Nəsiminin heykəli,
Avropalaşmış Şərqdə,
Günəş kimi parlayır.

Doğrudan da kimlər at oynatmayıb bu ölkədə, amma Nizami, Füzuli, Nəsimi öz müdrikliyilə zirvədən boylanır, dünya durduqca da boylanacaqdır. Müəllifin bir-birindən dəyərli, bir-birindən maraqlı şeirlərini oxuyarkən oxucu bu mövzulardan bir çox məlumatlar toplayır, tarixin görümlü-baxımlı, ölümlü-qalımlı günlərinə çıraq tutur. Onun "Hitlerin uşaqları və yaxud qana boyanmış röya", "İşıq idarəsinin rəisi haqqında ballada", "Mən hansı bir insana" şeirlərini maraqla oxumamış keçə bilmirsən. Beləliklə, dəyərli oxuculara diləyim budur ki, Elman Rüstəmov yaradıcılığına diqqət kəsilsinlər.

Ümumiyyətlə, mütaliədən, kitabdan, kitabxanadan gen düşməsinlər, çünki nə internet mütaliənin yerini verə bilər, nə televiziya, nə də radio.

Mütaliə insanın mənəvi aləmini zənginləşdirir, onda bəşəri hissləri cilalayır, onu ilahi eşqə munis edir. Mənə elə gəlir ki, son vaxtlar cəmiyyətimizdə mənəvi kasadlıq yaranıb. Bu, insanların geyimindən tutmuş hər bir məsələdə özünü açıq-aydın büruzə verməkdədir. İnsanların simasında bir soyuqluq, bir biganəlik yaranıb. Mütaliə – insanın öz ruhuna qayıdışıdır, insani hisslərinin həyat toplusudur. Mütaliə edən şəxs heç zaman şər-şeytana ulaşmaz, xeyirxah, həyatsevər, vətənsevər olar.

"Xoşbəxt günlərimin acı göz yaşı" və yuxarıda haqqında söhbət açdığımız "Başkəsənlər" kitabı ilə oxuculara yaxşı tanış olan Elman Rüstəmovun (Qəmginin) 2011-ci ildə çapdan çıxmış "Anama məktub" kitabı öz oxunaqlığı ilə heç də o biri kitablarından geridə qalmır. Kitabda "Səfirin telefonu" tragikomediyasında başdan-başa cəmiyyətimizdə baş verən bir çox iyrəncliklər qələmin qüdrətilə sətirlər içində ay-haray salır. Müəllif bu əsərdə pulla təhsil alan, ancaq biliyi heç bir qəpiklik olmayan, əslində bədbəxt insanları kəskin tənqid atəşinə tutur. Əsərdə iştirak edən surətlərin adları artıq oxucuya çox mətləbləri aşkar edir. Qiyamzadə, Bərbərzadə, Dəllalzadə, Mollazadə və sair. Müəllif əsərdə cəmiyyətin görünməyən tərəflərini önə çəkir və əslində insanlığa, inkişafa, yüksəlişə zidd adamları üz-üzə qoyur və özü də bir yazıçı ustalığı ilə bu obrazlarla söz döyüşünə çıxır. O, əsərdə baş qəhrəmanlardan biri olan Qiyamzadənin dili ilə deyir: "Çoxunuz Akademiya qurtarmısınız, ancaq bir ünvanı oxuyub müəyyənləşdirə bilmirsiniz..." Doğrudan da ətrafımızda valideynləri tərəfindən min bir əziyyətlə oxudulan, amma sonda heç bir iş yerinə yaramayan onlarla ali təhsilli cavanlara rast gəlirsən, işsiz, bekar, bacarığı olmayan belə gəncləri görəndə adamın ürəyi ağrıyır.

Elman Rüstəmovun "Anama məktub" kitabında hekayələr bölməsi də var. Hekayələr bölməsində "Məhsətili qul", "Göz yaşı ilə isladılmış "Triaksion", "Çaşbaş Əhmədin sərgüzəştləri", "Anama məktub" və digər hekayələri rəvanlığı və axıcılığı ilə diqqəti cəlb edir. Ümumiyyətlə, müəllif cəmiyyətin içində baş verən gerçəklikləri bir yazıçı dəqiqliyilə görüb qiymətləndirməyi bacarır və onu sözün qüdrətilə gah nəzmə, gah nəsrə çəkir.

Elman bəyin kitabları ilə tanış olduqda Vətən təəssübü çəkən yaşadığı cəmiyyətin ağrı-acılarını çox düzgün qiymətləndirməyi bacaran vicdanlı, millətinə, yurduna vəfalı bir qələm əhli göz önündə canlanır. O, məhz gülbülbülü deyil, qəlbini titrədən məqamları qələmə alır. O, "Məhsəti qul" hekayəsində Bakıdan neçə illərdi xalqımızın dilindən düşməyən qul bazarından

bəhs edir. Burada ali təhsilli adamlardan tutmuş bütün zümrələrdən olan insanlara rast gəlmək olar. Onların bircə amacı axşama evlərinə beş-on manat çörək pulu apara bilməkdir. Oğurluq, əyrilik, haram, rüşvət əllərindən gəlməyən bu zavallı insanlar onun-bunun qapısında günəmuzd işləməyə məcburdurlar, məhz hörmətli yazarımız da cəmiyyətimizin üzqarası olan bu acınacaqlı vəziyyəti qələmə alır. Hekayənin əvvəlində yazıçının qeyd etdiyi kimi, "Qul bazarına sükut çökmüşdü, imkanlı ağalar yayın istisindən Antalyaya, "Atlanta", dənizkənarı villalarına qaçdıqları üçün qullar işsiz qalmışdı..." Bu yaxınlarda bizə də işlə əlaqədar bu qullardan ikisi gəlib çıxmışdı. Bu ana qədər öz gözümlə görməmişdim onları... Doğrusu, çox ürəyim ağrıdı və bir neçə gün özümə gələ bilmədim, çünki mən millətimizi bu vəziyyətdə görmək istəmirəm...

Müəllifin "Anama məktub" hekayəsi xüsusilə öyüdverici, ürəkağrıdıcı bir həqiqətlə oxucunu baş-başa qoyur. O, 20 il Vətəndən Hollandiyaya iş dalınca getmiş bir vətən insanından söz açır. 20 ildə anasına bir dəfə də məktub yazmayan oğul, hətta anasının adını da unudub. Bu gün nəinki Hollandiyaya, dünyanın dörd bir tərəfinə səpələnmiş vətən övladları bir parça çörək üçün yurd-yuvasından uzaq düşmüş və yol gözləyən əzizlərini intizarda qoymuşlar, amma təəssüf ki, öz ölkəmizin içində də yaşlı valideynlərini qocalar evinə atan, onların varlığını öz süfrəsinin qırağında görmək istəməyən neçə-neçə adı bilinməz soydaşlarımız var ki, onlar cəmiyyətimizə üz qarasıdırlar. Çünki bu gün atdığımız yanlışlıqlar sabahın bünövrəsində titrəyişlərə, çəkişmələrə, özümüzdən uzaqlaşmağa, yadlaşmaya aparıb çıxarır. Öz kökünə yad olan insanların isə aqibəti dünyaya çoxdan bəllidir. Dünya belə insan topluluqlarını tarix səhnəsindən silib arxivlərə asanlıqla atır, çox vaxt isə onlar hətta arxivlərdə də it-bata düşürlər.

Bizim millətdə də kökünə-soyuna yadlaşma göz önündədir. Quzey Azərbaycanın paytaxtı Bakı indi görünməz-tanınmaz dərəcədə dilini dəyişməklə məşğuldur. Bu, küçələrdə vurulan reklamlardan tutmuş, dükanların adlarına qədər hər yerdə müşahidə olunmaqdadır. Biz artıq sürətlə ruslaşmadan ingilisləşməyə doğru gedirik. Əlqərəz, hansı dildə danışırıq danışaq, təki bircə öz dilimiz olmasın. Əslində heç camaatı da qınamaq olmaz, rus dili, ingilis dili bilməyəni heç bir idarəyə işə götürmürlər. Balam, bu ingilisdən, rusdan soruşan yoxmu ki, mənim öz gözəl, mükəmməl dilim ola-ola mən sənin dilində niyə danışım? Dəyərli oxucular elə güman edərlər ki, mən dil öyrənməyə qarşı çıxıram. Əsla, neçə dil istəyirsən öyrən, amma

öz dilin də öz vətənində işlək olsun. Axı bu bizim Vətənimizdi, nə ingilisin, nə də rusun deyil, hətta televiziya aparıcılarının bəziləri də tez-tez gah ingilis, gah rus sözlərinə müraciət edir. Mənim "Əhsən" sözümə nə olub ki, tez-tez "bravo" deyirlər? Atalar demişkən: "Yağışdan çıxıb, yağmura düşdük". Əlqərəz, Allah bizim axırımızı xeyrə calasın... Mətləbdən uzaqlaşmayaq, sözünü, sözə söykənmiş qələminin qədrini bilən Elman Rüstəmov da hekayədə özünü-sözünü unudan, hətta onu dünyaya gətirən doğmaca anasının da adını yaddaşından silən dırnaqarası oğulları kəskin tənqid atəşinə tutur.

Müəllifin "Anama məktub" kitabında müxtəlif illərdə dövri mətbuatda çap olunmuş məqalələri də yer alıb. Onun "İngilisin it siyasəti" məqaləsi bugünümüzün ikili dünyasının acı mənzərələrinin gerçək təsviridir. Məqalə ev şəraitində bəslənən, əzizlənən itlərdən bəhs edir. Heyvanı təbiətin qoynundan qoparıb evə salan və onu uşaq kimi əzizləyən insanların əslində faciəvi həyat mənzərəsini gözlərimiz önünə gətirir. İtləri adamlardan çox sevən qərblilər bütün dünyaya ədəb dərsi keçirlər. Demokratiya pərdəsi adı altında insanları öz kök-soyundan uzaqlaşdırır, kosmopolit mühitin qurbanı edirlər. Tarix bizə diktə edir ki, öz dəyərləri ilə yaşayan xalqlar uzunömürlü olublar, yəni tarix səhnəsində əsrlərlə zirvələr fəth ediblər.

Dəyərli yazarımız Elman Rüstəmovun kitabının sonu "Hüseyn Cavidin antimanqurtlaşma peyvəndi" məqaləsi ilə bitir. Bəlkə müəllifin bu yazını axıra saxlamasının bir rəmzi mənası da var. Kitab başdan-başa cəmiyyətin ağrı-acıları ilə doludur, o yenidən oxucularının yaddaşlarını çözələməyə, olub-keçənləri göz önünə gətirməyə çağırır. Yazının əvvəli belə başlayır: "Ey türk, niyə məhv etdilər Hüseyn Cavidi və Cavidkimiləri, Hüseyn Cavidləri, Əhməd Cavadları, Ruhulla Axundovları, Heydər Hüseynovları, Salman Mümtazları? Nə idi günahları?" Əslində cəmiyyətdə baş verənlər həmin cəmiyyətin sakinləri ilə birbaşa əlaqədardır. Manqurtlaşma, soy-kökdən uzaqlaşma, əslinə xor baxma sonda insanları bir çox çaxnaşmalarla, fəlakətlərlə, ağrı-acılarla baş-başa qoyur. Ağac öz kökünün üstə bitər deyirlər. Elə müəllifin də dediyi kimi "odur ki, nə qədər gec deyil, gəlin unutqanlığa qarşı vaksin tapaq, millətimizi vaksinasiya edək. Öz keçmişlərini unutmamaq üçün".

Sonda dəyərli qələmdaşım – Elman Rüstəmova demək istəyirəm ki, sizin iki kitabınızı oxuyandan sonra belə qənaətə gəldim ki, sizə heç də Qəmgin adı yaraşmır, çünki siz qəmginliyi həyat devizi edib bir küncə

sıxılıb qalan adam təsiri bağışlamadınız mənə. Əksinə, sizin ağlınızdan zərrə-zərrə qopub düşən hekayələriniz, şeirləriniz, məqalələriniz cəmiyyətin bəlalarını üzə çıxarıb onu sərt qamçıyla döyəcləyən Mirzə Cəlil babamı, Mirzə Ələkbər Sabir babamı xatırlatdı mənə...

Bilirsiniz, sözü vaxtında deməyi bacaranlar sözün amaldaşına və əməldaşına çevrilirlər, həm vətənə xidmətdə, həm də oxucuya dəyərli əsərlər bəxş etməkdə seçilirlər. Sizin yazılarınızda çaşbaş içində qalan insanların dünya tutmaz əzablarını gördüm. Bu əsərlərdə öz müsbəti-mənfiliyi ilə bir-biriylə çarpışmada olan talelər gəldi mənim gözümün önünə. Çox təəssüf ki, cəmiyyətimizdə oxucu boşluğu var. Əgər cəmiyyətdə insanlarımız bir-iki manatından keçib kitab almış olsaydı, siz də bu dəyərli kitablarınızı 300 nüsxə ilə yox, daha çox nüsxə ilə buraxa bilərdiniz. Əfsuslar olsun ki, insanlarımız təkcə maddi yox, mənəvi aclıq içindədir. Dünən Cəlil Məmmədquluzadələr bundan əzab çəkirdi, bu gün isə biz... Allah bizi o gündən saxlasın ki, qələm əhli əlindən qələmi birdəfəlik yerə qoysun və qarışsın bu mütaliəsiz camaata!.. Bax o gün bizim mənəvi çöküşümüz olar, Allah bizi o gündən qorusun. Bizə elmimizi artırmaq lazımdır, elmimizi, soydaşlar!

Sizə isə dəyərli həmkarım, yeni-yeni yaradıcılıq uğurları diləyirəm. Tanrı ürəyinizi qorusun.

24.12.2011

YUVA DAĞIDANLARA VƏ YUVASI DAĞILMIŞLARA DİLƏKÇƏM

Əslində bu yazını heç zaman qələmə almazdım, bu yaxınlarda baş verən "Sulutəpə əhvalatları" olmasaydı. Vətəndaşa ən rahat ölkə onun Vətəni olmalıdır. Biz Azərbaycan türklərində, ən pis qarğış "Evin başına uçsun", "Evin dağılsın" və ən xoş alqış isə "Evin tikilsin", "Evin abad olsun" deyimləridir. Yəqin ki, bu sözlər istər sevgidən, istərsə nifrətdən el arasında tez-tez işlədilən ifadə vasitələridir. Biz əslində heç zaman bir-birimizə mərhəmətli olmamışıq. Əlimizə imkan düşən kimi, özümüzdən imkansızı əzməyə çalışmışıq. Qeyri-müsəlman əhaliyə isə xüsusi məhəbbət, sayğı bəsləmişik. Hələ 20 il müstəqillik keçəndən sonra da rusların dilindən qırıla bilmirik, uşaqları indiyədək bir qismimiz müstəqil Quzey Azərbaycanında rus dilində oxutdururuq və bununla da bol-bol qürurlanırıq. İnsani hisslər hər millətdə gözəl keyfiyyətdir, əgər varsa, ancaq bu insaniliyi birinci özünə, soyuna, kökünə, dindaşına bəsləməlisən, necə deyərlər, əvvəl

məscidin içi, sonra çölü… Biz ümumilikdə götürəndə evi dağılmış, evi başına uçmuş millətlərdənik, çünki nə qədər qaçqın-köçkün həyatı yaşayan və bu ağrıyla da dünyasını dəyişən soydaşlarımız var. Düzünə qalanda heç biz fəxr ediləsi millət də deyilik, yarımız farsın, yarımız rusun əsarəti altında kölə həyatı yaşamaq məcburiyyətində qalmışıq. Bu gün də elə Güneyli bacı və qardaşlarımız bu əsarətin acısını dadmaqdadır. Bu da deyəsən elə bizim bir-birimizə sevgimizin az olmasından irəli gəlib. Əgər belə olmasaydı vaxtında birləşib bu kölәlik adlı ağır ləkənin kölgəsində ömür-gün sürməzdik…

Qayıdaq mövzunun üstünə. Düzü, sizdən nə gizlədim, Sulutəpədə baş verən yuvadağıtma əməliyyatı məni möhkəm sarsıdıb. Bəlli məsələdir ki, imkanlı adamın evini bu ölkədə heç kim dağıda bilməz.

Bu zornan-gücnən daşı daş üstə qoyub özünə yuva quranların faciəsidir! Əgər, işdir şayəd, imkanlının evini dağıtmış olsalar da, hüquq-mühafizə orqanları tərəfindən tutarlı cəzaya düçar olarlar. Bu cəza yetim-yesirə verilən cəzadır. Bütün bu baş verənlərin ARDNŞ-lə əlaqəli olması məndə təəssüf doğurur, çünki o idarə mənə doğmadır və mən o idarənin tabeliyində işləmişəm. Ömrümün 22 ilini ARDNŞ-in tabeliyində olan Dəniz Mədən Geofizika Ekspedisiyasında yerin tədqiqilə məşğul olan şöbədə mühəndis işlədiyim üçün, yerin üstündən baş açmağa çətinlik çəkdiyimə baxmayaraq, yerin altından baş çıxarma təcrübəm var. Bir il bundan qabaq, Binəqədi ərazisindən təsadüfən maşınla keçərkən, mədən ərazilərində tikilən evləri görəndə, təəccüb etmişdim. Ona görə ki, o yerlər insan yaşamı üçün təhlükəli ərazi sayılmalıdır! Tam istismardan çıxmış mədən ərazilərinin çirki təmizləndikdən sonra o yerlərdə meşə zolaqları salınmalıdır. Belə ki, istismardan çıxmış quyuların, yenidən qazlılığının artması ilə əlaqəli, işləmə təhlükəsi var. Yəni hər hansı orda tikilən ev haçansa göyə sovurular, yəni partlayışla üz-üzə qala bilər. Bəs Bakıda bu işlə məşğul olan aidiyyəti orqanlar niyə bu vaxta qədər susublar? O ərazidə minlərlə ev tikilib, hətta deyilənlərə görə orta məktəb də inşa olunub. Bu vaxta qədər ARDNŞ özü niyə susqunluq göstərib və bu tikintiyə seyrçi qalıb? Bəs korrupsiya üzrə idarə hara baxıb? Qoy bu sualların cavablarını məsuliyyət daşıyanlar xalqa açıqlasınlar, amma mən mədən ərazilərdə evi uçulmuşlara, yuvası dağılmışlara üzümü tutub demək istəyirəm ki, qətiyyən bunu çox ürəyinizə götürməyin. Sadəcə, dəymiş ziyanı tələb eləyin, çünki ziyanın yarısından qayıtmaq özü də xeyirdir. Mən sizə sadalayım niyə?

1. Mədən ərazilərində yaşayış üçün tikilən evlər təhlükəlidir.

2. Torpaqda şüalanma gedir. Orda xərçəngə, qan azlığına tutulma ehtimalları çoxdur. Şüalanma gedən yerdə oksigen qıtlığı yaranır, bu da ağciyər, ürək çatışmazlığı xəstəliklərinə səbəb ola bilər.

3. Bakıya üz tutub, mərkəzi özünə yuva seçənlərə isə, demək istəyirəm ki, bu ərazi oksigen kasıblığından neçə illərdir ki, əzab çəkir. Neftli ərazilər insan yaşayışı üçün əlverişli sayılmır.

Üstəlik də istiqlalımızı qazandıqdan sonra ilk olaraq paytaxtda ekoloji cəhətdən təmiz olan tramvay, trolleybus və Bakı bağlarına gediş-gəlişi təmin edən elektrik qatarlarını şəhərdən yığışdırdılar. Bu da paytaxtda oksigen qıtlığının daha da artmasına səbəb oldu. Minlərlə balaca, böyük minik maşınları bu ərazidə ekoloji fəlakətin artmasına xidmət edir.

Mənə inanmırsınızsa, səhər saat 8-də gəmiyə minib Böyük Zirə (Nargin) adasının yaxınlığına qədər gedin və ordan Bakıya baxın. Siz üstündə sıx sarı duman dayanmış bir şəhər görəcəksiz. Bu sarı duman zəhərdir, sarı zəhər. Bu isə Bakının oksigen çatışmazlığından xəbər verir. Bu gün paytaxtda oksigen qıtlığından əzab çəkən xəstələrin sayı artıb. Buna ürək çatışmazlığı deyirlər. Özü də bu xəstəlik axır illərdə xeyli sayda cavan insanlarımızın arasında baş verir, yəni yarımçıq ömürlülərin sayını artırır. İnsan ömrünün səhifələrindən bəllidir ki, o heç də çox uzun deyil. Və qısa ömrü daha da qısaltmağa nə lüzum?

ARDNŞ-ə isə demək istəyirəm ki, insanlarla kobud rəftar, qəddarlıq, dünyada dördüncü hakimiyyət sayılan jurnalistin hüququnu tapdalamaq, ona əl qaldırmaq şəninizə ucalıq gətirməz. Bir də sizdən rica edirəm ki, yerli-yersiz ARDNŞ-in ərazisi adlı dəmir lövhələri harda gəldi yapışdırmayın. Bir az diqqətli olun, məsələn, mən Pirallahı adasında yaşayıram. Yaşadığımız mənzil isə 80 il bundan öncə tikilib. Hazırda bu evlər Abşeron neftin balansından alınıb və Bakı Şəhər İcra Hakimiyyətinin tabeliyinə verilib. Yəni bu evlərin ARDNŞ-ə dəxli yoxdur. Deyəsən, bu neft bizi istiylə yox, tüstü ilə boğmaq istəyir. Bir el məsəlində deyildiyi kimi "qızınmadıq istisinə, kor olduq tüstüsünə..." Mənim Bakı ərazisində yaşayan imkansız camaatımıza bir məsləhətim də var. Elə mən də sizqarışıq gəlin hər ailə özünə bir çadır alsın, çünki evimizin qəfildən sökülmə məqamı çatsa, Allah eləməmiş, onda, heç olmasa, başımızı salmağa çadırımız olsun. Sonda İlahidən diləyim budur ki, bizim insanlarımızda bir-birinə qarşı istəyi, sevgini, ülfəti artırsın. Amin!..

Vəssalam, şüdtamam… Hələlik deyəcəyim bu qədər...

20.04.2012

HİMNİMİZƏ BASQILAR…

Hər dəfə istəyirəm qələmi əlimdən yerə qoyum və yazmayım. Açığını deyim ki, axır vaxtlar heç qələmlə də yazmıram, kompüterin düymələrini basmaqla məşğulam. Hər halda bu da müasir dövrün qələmi əvəz edən yazı üsuludur, amma yazmamaq olmur ki, olmur, çünki bizim insanlarımızın daxili və xarici baxışları səni məcbur edir ki, yazasan. Yazmayanda da, başıbəlalı ürək partlamaq dərəcəsinə gəlir. "Azərbaycan gerçəkliyi-2" məqaləmdə yazmışam ki, biz kölə xalq idik, babalarımız birləşə bilmədiyi üçün iki yüz ildən yuxarı köləlik düsturu ilə qol-budaq atmış, onu ruhumuzdan beynimizə, beynimizdən yeni dünyaya gələn nəslin yetişməsinə sərf etmişik və bu köləliyin içində məddahlıq, yaltaqlıq, ikiüzlülük, rüşvətxorluq, oğurluq, haqqın tapdalanması, Vətən deyib Vətəni can-dildən sevənlərin təhqir olunması, güllələnməsi, sürgünlərə sürülməsi və bir çox yadıma sala bilmədiyim gerçəkliklər tarixin, başıbəlalı dolaylarında, özünə yer alıb. Bu düşüncə tərzi köləlik illərində bizimlə birgə doğulub ağlımızda, şüurumuzda özünə yaxşıca yurd-yuva qurub. 20 ildir torpaqlarımızın bir hissəsinin yenidən işğalı ilə biz müstəqillik qazandıq, amma bu o demək deyil ki, tam müstəqil olmuşuq. Bunun üçün öncə şüurun, düşüncənin müstəqilliyinə çalışmaq lazımdır. Hər dəfə, himn barədə yazı internet saytlarında və yaxud dövri mətbuatda özünə yer alanda, ürəyim yerə-göyə üsyan edir, içəridən canımı didir, dağıdır. Necə deyərlər, dözə bilmirəm. Vallah dözə bilmirəm, billah dözə bilmirəm… Ey xalq şairləri, ey xalq yazıçıları, ey millətin ziyalı, sayılıb-seçilən mənəviyyat, elm, bilik insanları, dözə bilmirəm. Axı biz cəmi-cümlətanı 20 ildir ki, parça-parça edilmiş, sinəsinə min bir yerdən dağlar, düyünlər vurulmuş, Azərbaycanın az bir hissəsində istiqlal qazandıq. O istiqlalı da gözümüzdən al-qırmızı qanlarla laxta-laxta tökdülər yerə!.. Yerin bağrı yarıldı, ağrısı köksümüzə sarıldı. O ağrı içimizi göyüm-göyüm göynədir hər gün, hər dəqiqə, hər saniyə… Azərbaycan müstəqilliyinin yaradıcılarının məsləkdaşı hesab olunan bəxti qara, ailəsi haqsızcasına, imansızcasına xalq düşməni elan edilib sürgünlərdə olmazın müsibətlərə düçar olmuş, 1937-ci ildə güllələnmiş Əhməd Cavad, sənin nə ağrılı taleyin varmış? Türkiyə Cümhuriyyətinin ikinci himni kimi səslənən "Çırpınırdı Qara dəniz" şerini türklər nə araşdırır, nə onun haqqında söz-söhbətlər aparır. Elə soruşanda deyirlər, bu bizim Əhməd Cavadımızın şeridir. Nə olub ki, bizim istiqlal mücahidlərimizin

nə özləri, nə sözləri, nə o dövrdə dahi Üzeyir bəy tərəfindən yazılmış musiqisi xoşumuza gəlmir?! Nə baş verir? Bu bizim öz içimizdən qaynaqlanır və yaxud kənardan bizə diktə olunur? Axı cəmisi dörd bəndlik şerə, İlahi, nə qədər araşdırma, nə qədər söz-söhbət ünvanlayarlar? Ey millətimizin sevimli qələm əhli, əlinizə, sözünüzə, ruhunuza qurban olum, Vətən deyən dilinizə qurban olum!!! Himn müqəddəsdir, toxunulmazdır, bu millət durduqca durmalıdır. Onun nə özünə, nə sözünə toxunmazlar. Başqa xalqlar yüz illərlə müstəqillik qazanıb nə himninin musiqisini, nə də sözünü araşdırma meyarına çevirib. Araşdırmaçılarımız, qoy gedib hayların əlinə keçmiş, bədbəxt Albaniyanın oğurlanmış tarixini, əlifbasını araşdırsınlar, əsrlərdir onu özününküləşdirmiş haylardan haqq-hesab sorsunlar. Axı "Çırpınırdı Qara dəniz" kimi, ürək titrədən, şeri yazan Əhməd Cavad niyə himnin sözlərini yaza bilməsin? Necə, Üzeyirlə bir dövrdə yaşamış Əhməd Cavadla həmyaşıd, dost olmuş Üzeyir bəy bilmirdi ki, kimin sözünə o musiqi yazır?! Nədən çoxdan dünyasını dəyişmiş, bu insanların ruhuna sayğısızlıqlar davam edir? Bəlkə kimsə bu gün himnin sözlərini yazmaq fikrinə düşüb? Elə bir-birimizə yadlaşma, bir-birini daşlama da köləliyin çayır kimi içimizdə qol-budaq atmış bar-bəhəri deyilmi? Dövlət atributları – bayraq, himn, herb toxunulmaz olmalıdır. Dövlət atributları eyhamlı müzakirəyə qoymamalıdır. Ağlı, huşu olan, Azərbaycan vətəndaşı onların qabağında diz çökməlidir. Kimlərsə bunu eləyirsə, pula satılmış adamlardır! Belə adamlar Azərbaycan vətəndaşı adını daşımağa layiq deyil. Belə yazılarla biz haylarla yox, öz-özümüzlə vuruşuruq. Hayları alçaltmırıq, özümüzü aşağılayırıq. Bir neçə il öncə Əhməd Cavadın oğlu Yılmaz Axundzadə televiziya kanallarının birində yana-yana bu şerin atasına məxsus olmasından danışırdı. Ey bizim qeyrətli, izzətli millətimiz, görün biz televiziya kanallarında, internet saytlarında, dövri mətbuatda nəyin araşdırmasını aparırıq? MÜQƏDDƏS HİMNİMİZİN! Əlbəttə ki, keçən əsrin əvvəllərində yazılmış bu şeirdə şəkilçi və sözlər baxımından bir az fərqlilik var və bu belə də olmalıdır, çünki hər bir dil zaman keçdikcə müxtəlif dəyişikliklərə uğrayır. Bu da bizim himnimizin tarixiliyini göstərir. İndi biz hər yüz ildən bir himnimizin sözlərini dəyişəcəyik? Bir siz onun sözlərinə fikir verin, ey Vətən eşqilə alışıb yanan soydaşlar, qan qardaşlar, necə ruhu titrədir, qəlbi riqqətə gətirir:

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa.

Bu şerin bəndində nə başa düşülmür?

Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Bu bəndin üçüncü misrası üçün bir haşiyə çıxmaq istəyirəm. Bəzi yazarların dilindən eşitmişəm ki, bəs "hüququndan keçən əsgər" ifadəsi düzgün işlədilməyib. Hər bir insanın, ay həzərat, yaşam hüququ var. Əgər bir oğul, bir igid öz yaşam hüquqdan keçib özünü torpaq uğrunda qurban verirsə bu qəhrəmanlıqdır. Bu öz hüququndan keçmək deyil, bəs nədir?

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə,
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən, şanlı Vətən!
Azərbaycan, Azərbaycan!

"Cümlə gənclər müştaqdır" misrası bəzi yazarlarımızı açmır ki, bəs vətən yaşlılara aid deyil? Aiddir, əziz soydaşlar, amma gəlin etiraf edək ki, Vətəni qorumaq məqamı yetişəndə cümlə gənclər önə çıxır, çünki güc də, həyat eşqi də, coşqunluq da gənc insanlarımızda qərarlaşıb. Bu ağrını hər dövrdə gənclər çiyinlərində daşıyıblar. Bu bizim niyə xoşumuza gəlmir? Misranın sonunda gedən müştaq (arzulayan) sözünü başa düşülməz hesab

edirlər. Müasir mətbuatımızda nə qədər xarici sözlər əlinə silah götürüb hücuma keçib dilimizin üstünə! Bəs bu ağrılara heç əlac edən yoxdu?! Biri deyir qafiyə yoxdur, biri deyir mətn zəifdir, biri deyir sözlər yerində işlədilməyib. İndiki dövrdə heç şeriyyəti olmayan müəllifləri dahiləşdiririk.

Gəlin tarixə səyahət edək. 1920-ci il yanvarın 30-da Azərbaycan Xalq Cümhuriyyətinin milli himninin hazırlanması haqqında qərar qəbul edildi. Və bu məqsədlə Xalq Maarif Nazirliyi tərəfindən müsabiqə elan edildi. Lakin 1920-ci ilin aprelin 28-də Azərbaycanın Sovet Rusiyası qoşunları tərəfindən işğalı və Xalq Cümhuriyyətinin süqutu Azərbaycanın milli himnini qəbul etməyə imkan vermədi. 1992-ci il mayın 27-də parlament "Azərbaycan Respublikasının Dövlət himni haqqında" qanun qəbul etdi. Qanuna əsasən, 1919-cu ildə bəstəkar Üzeyir Hacıbəyli və şair Əhməd Cavad tərəfindən yazılmış "Azərbaycan marşı" Azərbaycan Respublikasının Dövlət himni kimi təsdiq olundu.

Cümhuriyyət illərində Üzeyir bəy iki marş yazıb. Onların hər ikisi 1966-cı ildə Etem Üngörkün Ankarada nəşr etdiyi "Türk marşları" kitabında çap olunub, amma bizim AMEA-nın ədəbiyyat institutu ciddi tədqiqata başlayıb və məlum olub ki, bu şerin mətni "Cəmo bəy" imzası ilə dərc olunub. O vaxt ki, parlament üzvlərindən biri olan Cəmo bəy Hacınskiyə və yaxud Cəmo bəy Cəbrayılbəyliyə aiddir. Bəlkə səhv gedib? Azmı səhvlər olur mətbuatda? Üzeyir bəy, möhtəşəm musiqi əsərlərilə tarixə düşmüş dahi sənətkar bu marşı nota salıb və deyirsiniz ki, orda musiqinin sözlərini yazanın adı yoxdur. Bəs bu himn qəbul olunanda hünərli alimlərimiz harda idi? Niyə müəllifinin doğru-düzgün adını üzə çıxartmayıblar? İndi üstündən illər keçəndən sonra başlayıblar araşdırma aparmağa… Gəlin ey izzətli, hörmətli, şəfqətli, mərhəmətli qələm əhli, 1937-ci ilin ziyalı soyqırım qurbanlarından biri olan istiqlal şairimiz Əhməd Cavadın ruhunu incitməyək. Onsuz da onun ruhu o illərdə çox incidilib. Himn araşdırmasına son qoyaq. Deyəsən bu araşdırmaya son qoymaq üçün ya Milli Məclisin, ya da ölkə Prezidentinin qərarı gərəkdir. Belə olmasa hələ bu himn haqqında araşdırmalar çox uzun çəkəcək.

Mənə elə gəlir ki, burda gizli bir mətləb də var, kimlərsə öz adını himndə əbədiləşdirmək istəyirlər… Ey bizim yazar əhli, neçə yüz ildir ədəbiyyatımızla yol yoldaşlığı edən nə dahi Nizaminin, nə də Füzulinin heç bir himndə şeri yer almayıb, amma müasir dünyamızda bizimlə birgə yaşayırlar, diridirlər.

Deyəsən torbada pişik var. Pişik kimdi – hələ aydın deyil.

AMEA-nın araşdırma aparmaqçün o qədər işləri tökülüb qalıb ki… Məsələn, götürüb "Əsli-Kərəm" dastanını araşdırsınlar. Görək niyə araşdırmaçılarımız tərəfindən Əsliyə erməni deyilib. Şifahi formada dildən-dilə, ağızdan-ağıza keçən qədim dastanlarımızdan biri olan "Əsli-Kərəm" vaxtilə niyə möhtərəm alimlərimiz tərəfindən düzgün tədqiq olunmayıb. Bu ayrı dinlərdə olan iki türkün məhəbbət faciəsi idi. Rica edirəm, onu araşdırın. Bununla biz hayları burda qədimləşdirmirikmi?.. O qədər buna bənzər dərdlərimiz var ki…

Bu dərdlərimizə əlac edin… Hələlik isə Allah amanında. Tanrı bizlərə yar olsun və bizim ruhumuzu, ağlımızı tam müstəqil etsin…

30.05.2012

"MƏN BİR ZİYALI KİMİ…"

Bir ara tez-tez təqdimat mərasimlərinə gedirdim. Evə gələndə isə tam xəstə vəziyyətinə düşürdüm. Qan təzyiqim gah yuxarı qalxırdı, necə deyərlər əndazəsindən çıxırdı, gah da aşağı düşürdü. El arasında buna deyirlər ki, təzyiq oynayır. Beləliklə, ürəkdə əməlli-başlı ağrılar başlayırdı. Səbəbini özüm üçün yavaş-yavaş aydınlaşdırmağa başladım. Sən demə, mənim təqdimat mərasimlərində halımın pis olmasının səbəbi boğazdan yuxarı tərifləri, kitabın içərisi ilə tanış olmamış üzgörəli çıxışlar, yerinə düşməyən alqışlar, tənəli, tənəsiz baxışlar əməlli-başlı səhhətimə pis təsir edirmiş. Bir ay öncənin sözüdür, yenə də bir mötəbər təqdimat mərasiminə, necə deyərlər, dəvət etmişdilər, getmişdim. Mərasimin aparıcılığı həvalə olunmuş məşhur bir şəxs nitqinə bu cümlələrlə başladı. "Mən bir ziyalı kimi sizin mütərəqqi yazar olmağınızın çoxdan fərqinə varmışam…" "Mən bir ziyalı kimi…" sözünü eşidən kimi tamamilə halım qarışdı. Ay həzərat, bəlkə mən düz fikirləşmirəm, siz mənim başıma bir ağıl qoyun. Adam da özü özünə ziyalı deyər? Ziyalı sözü insanın gördüyü xeyirxah əməllərinə görə, öz işığı, nuru ilə milyonlar içərisində şəfəq saçdığına görə xalqın fərqli şəxslər barədə işlətdiyi deyimdir. Gəlin ziya sözünün mənşəyinə diqqət yetirək. Ziya sözü digər ərəb mənşəli sözlər kimi dilimizdə sənədləşmiş sözlərdəndir. Mənası işıq, aydınlıq, nur deməkdir. Bax, həmin ziya sözündən də ziyalı sözü yaranıb və bizim dilimizdə sevimli sözlərdən birinə çevrilib, amma bizim ali məktəb bitirmiş bəzi-bəzi adamlarımız

elə bilir ki, əgər ali təhsillidirsə, deməli o, ziyalıdır. Axı bu belə deyil, ay soydaşlar, ziyalılıq mərtəbəsinə qalxmaq üçün sən ruhən ziyanın içində olmalısan və nurunla ətrafdakıları, yaxını, yadı, qohum-qonşunu ziyaya boyamalısan, amma bizim ali təhsilli insanlarımızın dilində "Mən bir ziyalı kimi…" sözü "müəllim" sözünü geridə qoyub. Axır vaxtlar qulaqlarım qabar olub bu sözü eşitməkdən…

Deyirlər, söz sözü gətirər, elə mən də ziyalı deyiminə tapınıb, uzaq keçmişdə qalmış uşaqlıq günlərimin kiçik bir xatiratını sizin üçün nəql etmək istəyirəm. Bizim kənddə Səfurə adında bir qadın var idi. Atamın əmisinin həyat yoldaşı idi. Bəxtəvər günlərinin bəy xanımı olmuşdu. O dağ kəndlərinin birindən bizim kəndə gəlin köçmüşdü. Sovetin vurhavur vaxtında ərini, oğlunu itirmişdi, amma ruhən deyib-gülən, folklorumuzdan başı çıxan, dilindən bayatılar düşməyən bir xanım idi. El arasında belə insanlara "sinədəftər" deyirlər. Kənddə təzə doğulan uşaqları dünyaya gətirməkdən tutmuş, qadın yas məclislərinin aparılmasına qədər hər işə yarayırdı. El arasında arabir baş verən dava-dalaşlarda o sülh carçısı rolunu oynayırdı. Bir sözlə, bu qadın ölənə qədər nur, aydınlıq rəmzi idi. Aləmə işıq saçırdı. Bütün kənd böyüklü-kiçikli onu "dostu" deyə çağırırdı. Halbuki o bu kənddə heç kimə qan qohumu deyildi, baxmayaraq ki, hamı onu öz əzizlərindən artıq sayırdı. Bu qadın heç bir təhsil görməmişdi, amma öz ziyası ilə aləmə nur saçırdı… 70-ci illərdə dünyasını dəyişmiş bu qadını tanıyıb-bilənlər indi də rəhmətlə anırlar…

Cəmiyyətimizdə əyər-əskiklərin baş alıb getdiyi, işğalda inləyən torpaqlarımız haray qopartdığı bir məqamda indi həqiqi ziyalı sözünə ehtiyac duyur insanlarımız, amma bizim cəmiyyətimizdə boğazdan yuxarı təriflər aləmi başına götürüb. İş o yerə gəlib çıxıb ki, adam öz-özünə ziyalı deyir. Bəs görəsən, özünə ziyalı deyən şəxs haqqında başqaları nə fikirləşir? Burda, möhtərəm oxucular, böyük bir sual meydana çıxır və bu sualın cavabını siz istəkli oxuculardan sormaq istəyirəm. Adam da öz-özünə ziyalı deyərmi?.. Hələlik isə salamat qalın. Allah amanında…

19.06.2012

SAYMAN ARUZA DİLƏKÇƏM

Çox düşündüm bu diləkçəni sizə nəzmlə yazıb, amma sonra fikrimdən qəti şəkildə döndüm. Səbəbi də bu oldu ki, güman edirəm nəsrə daha çox maraq var. Ona görə də hələlik ki, sizinlə öz duyğularımı bir məqalə halında bölüşmək istəyirəm. Hələ uşaq vaxtlarımdan bizim xalqın, yəni Azərbaycan türklərinin bəxti gətirməyən bir xalq olduğunu tam mənasıyla dərk etməyə başladım. Hələ körpə vaxtlarımdan boğazımda kilidlənib qalan qəhər bu gün də məni boğmaqdadır. Deməli, mən bütün yaşadığım ömrü qəhərlə keçirmişəm. Bu qəhərin mahiyyətində isə ikiyə parçalanmış millətimizin fars və rus əsarətində əzilməsi, mənfur imperialistlər tərəfindən hayların (ermənilərin) üstümüzə qısqırdılması dayanır. Bir neçə ilin söhbətidir. Qayınım bizə əl telefonunda kimdənsə götürdüyü kiçik bir video-süjet gətirmişdi. Həmin videoda fars-molla rejiminin qadın və kişiləri dar ağacından asma səhnəsi nümayiş etdirilirdi. Orta əsrlərə məxsus dəhşətli bir görüntü… Mən özümdən asılı olmayaraq əllərimlə üzümü möhkəm-möhkəm tutdum ki, bu dəhşətli səhnəni görməyim, çünki bu vəhşətli mənzərəyə dözə bilmədim. İndi də cəzalar var, özü də ondan da qorxunc, amma o cəzaları bütöv toplum qarşısında səhnələşdirmirlər və müqəddəs kitabımız Quranın heç bir surə və ayəsində öz toplumuna bu cür cəzadan bəhs edilmir… Deməli, molla rejimi düzgün yolda deyil. Allah onları düz yola qaytarsın, əgər düz yolda olsaydı oradakı çoxsaylı Azərbaycan türklərinin səsini boğmazdı, onları yazılı ana dilindən məhrum etməzdi, orta məktəblərdə oz dillərində oxumağa icazə verərdi. Ən nəhayət, onları doğma torpaqlarından dünyanın hər yerinə səpələməzdi.

Mən hələ heç Təbrizə ayaq basmamışam, Güneyimizi görməmişəm. Bilirsiz niyə? Ona görə ki, fars rejiminin həmvətənlərimizə qarşı tutduğu acı mövqe ilə barışa bilmirəm. Təbriz, Urmiya, Xoy, qurumaq təhlükəsi ilə üzbəüz qalmış Urmu gölü üçün burnumun ucu göynəyir, amma mən torpaqlarımızı işğal altında saxlamış mürtəce bir hakimiyyətin bayrağının altından keçib Güneyə getmək istəmirəm. Sizə bu məktubu boğula-boğula, qəhər içində yazıram. Bu məktubu mənə yazmağa məcbur edənlərin acığına demək istəyirəm ki, qeyrətli həmvətən, istedadlı soydaş, ruhdan düşmə, ilahinin göndərdiyi həqiqi sözə-sova tapınanlar sizin yanınızdadır.

İyirmi ildi torpaqlarımızın, Qarabağımızın imperiya dəstəyilə ermənilər tərəfindən zəbt edilməsi fonunda Quzey Azərbaycanımız nisbi müstəqillik

qazanıb, bu millətimizin itkiləri, göz yaşları, ağrı-acıları hesabına olub… və bu gün də işğal davam edir… Millətimiz otaylı-butaylı tikanlı sərhədləri dağıdıb bir-biri ilə qucaqlaşanda mən elə bilirdim ki, bizi mənən, ruhən heç kim bir-birimizdən ayıra bilməz, amma düşmənlərimiz həm çöldə, həm də içəridədirlər. Onlarla mübarizədə bizlər ayıq-sayıq olmalıyıq. Bu yaxınlarda eşitdim ki, sizə qarşı içəridən basqılar var. Açığı, çox sarsıldım, İlahi, biz hələ birləşmək üçün nə qədər mübarizə yolu keçməliyik? Əslində Bakı Quzeyli-Güneyli hər birimiz üçün, Anadolu türkləri demişkən, baş kənddir, paytaxtdır və məsum-məlul müstəqilliyimiz güneyli-quzeyli hər birimizin tale payıdır. And olsun Pişəvərilərin, Səttarxanların, Məmmədəminlərin şərəfli ruhuna ki, bu belədir!!! Ona görə tutduğunuz kürsüdən heç yerə çəkilməyin. Bu Bakı BÜTÖV AZƏRBAYCANINDIR. Sizə kimsə ögey gözlə baxırsa, bu bizim, ürəyində VƏTƏN sevgisi olanların hər biri üçün yaradır. Bizim hər birimiz bu yaranın dərinləşməsinə yox, bütöv Azərbaycanımızın sabahına xidmət etməliyik. Bu yolda sizə könül dolusu uğurlar diləyi ilə…

22.07.2012

URMU GÖLÜ HARAYI

Güney ağrısı daima ürəyimdə dərd olaraq özünə yurd-yuva salıb. Güney Azərbaycanında tədris ocaqlarında dilinə yasaq qoyulmuş başıbəlalı xalqımız İran üsul-idarəsinin əlində ağrılar içərisindədir. Mənə elə gəlir ki, Vətən eşqi bütün hisslərdən, duyğulardan ucada durur. Bu duyğunu ürəyində daşıyanların əksəriyyəti ziyalılar, mənəviyyat adamlarıdır. Məcburiyyət ucbatından dünyanın dörd bir yerinə səpələnmiş, binəva Güneyli qardaş və bacılarımızın əzilən qürurlarından yana daima ürəyim sızıldayır. Bizim ulu babalarımız birlik şərbətini vaxtında niyə içə bilmədilər?! Bu gün onların törəmələri bu acı həqiqətin ağrıları içərisində əzilməkdədirlər. Azərbaycanın Güneyi daima inqilabların, haqq uğrunda mübarizələrin beşiyi olub. Nə qədər itkilər, nə qədər qanlar tökülüb məmləkətimizdə…

Bu yaxınlarda mətbuat səhifələrindən məlumatlandım ki, Azərbaycanımızın Güneyinə məxsus Urmiyamızın tacı olan Urmu gölü qurumaq təhlükəsilə üzbəüz qalıb. İran başbilənlərinin Urmu gölünə ögey münasibəti məndə həm təəccüb, həm də hiddət hissini gerçəkləşdirir. Belə götürəndə İran heç də kasıb bir dövlət sayılmamalıdır. Neftdən, qazdan

gələn gəlirlərlə o ölkə tam firavanlıq içində yaşaya bilər və baş verə biləcək hər bir təbii fəlakətlərin qarşısını ala bilər, çünki hər şeyi dünyada həll edən ağıl və paradır. Necə deyərlər: "Adamı adam edən paradır, parasız adamın üzü qaradır…"

İndi dünyamızda günbəgün artan təbii fəlakətlər, dağıdıcı zəlzələlər, sunamilərlə yanaşı ekoloji balans pozulması fonunda çayların, göllərin quruması səhralaşma, oksigen azlığı insan varlığını təhlükəyə atmaqdadır. Bütünlükdə bu olaylar insanları, xüsusən də dünyanı idarə edənləri ağıllarını işə salıb dərindən fikirləşməyə çağırmırmı?! Bu dünyanın nizamının pozulmasından yana həyəcan təbili deyilmi?! Mən təkcə bir yazar kimi yox, Neft sahəsində geofizikada çalışmış bir mühəndis kimi bu acıları yazıya almağa çalışacam. Neft istehsal edən ölkələr bilirlər ki, neft ölkəyə gətirdiyi gəlirlərlə bahəm bir çox ağrı-acılar da gətirir. Bu ağrı-acılardan ən böyüyü neftli ərazilərin çirklənməsi, atmosferə atılan qazlar, saysız-hesabsız tullantılardır. Bütün bunlar təbii fəlakətlərə yol açır, göllərin, çayların qurumasına yaşıllıqların məhv olmasına, təbiətdə karbon qazlarının çoxalmasına, oksigenin azalmasına səbəb olur. Bu da canlıların birbaşa sağlığına dəhşətli bir zərbədir. O canlılardan birincisi isə dünyanın həm bəzəyi, həm də başının bəlası olan İnsandır. İnsansız dünya heçdir, dünyasız insan… İndiki zamanda insan toplumu dünyada ürək çatışmazlığı bəlasından əziyyət çəkir. Bilirsiz niyə? Ona görə ki, bir el misalında deyildiyi kimi "Nə tökərsən aşına, o da çıxar qaşığına…" İnsan nəfsinin felinə düşüb, müvəqqəti ömrünü nəfsinə fəda edir, ona görə də İranda hakimiyyət kürsüsündə oturanlar bu acı mətləbi göz önünə gətirib URMU GÖLÜnün qurumasına seyrçi qalmamalıdırlar. İranın güc sahibləri tezliklə bu bəlanın qarşısını almalıdırlar.

Urmu gölü haqqında qısa bir arayış:

Urmu gölü İran hakimiyyətinin tabeliyində olan Güney Azərbaycan, Şərqi Azərbaycan və Qərbi Azərbaycan əyalətləri arasında olan göldür. Cənubi Azərbaycan və İranın ən böyük gölü… Səthinin sahəsi 5.822 km, maksimum həddi şimaldan cənuba 140, şərqdən qərbə 55 kilometrdir. Ən dərin nöqtəsi 16 metrdir. Göldə 100-dən çox ada var. Bu adaların ən böyüklərindən birində vaxtilə bütün dünyaya lərzə salmış Çingiz xanın nəslindən olan Hülakü xanın nəvəsinin qəbri var. Urmu gölü Cənubi Azərbaycanın və İranın ən məşhur gölüdür. Köçəri quşlar bu gölü miqrasiya zamanı fasilə məntəqəsi kimi istifadə edir. Gölə tökülən çaylar:

1. Nazilçay
2. Acıçay
3. Sofiçay
4. Cığatıçay
5. Tətovuçay

Arayışdan göründüyü kimi, göl həm tarixi baxımdan, həm ekoloji tarazlığın pozulmaması baxımından qorunmalıdır. Bu gölün quruması təkcə orda yaşayan Azərbaycan türklərinə yox, bütünlükdə İran əhalisinə, habelə qonşu ölkələrə faciə gətirə bilər. Bu yaxınlarda internet portallarında Urmu gölünün çəhrayı rəngə boyanmasının şəkilləri yayımlanırdı. Gölün çəhrayı rəngə boyanması göldə olan mikro canlıların qırılma təhlükəsindən xəbər vermirmi?.. Göldə canlı orqanizm üçün su azlığından bəlkə göl çəhrayı rəngə boyanıb. Gölün quruması ətraf ərazinin səhralaşmasına yol aça bilər. Bu isə qlobal fəlakət deməkdir! Deməli, bu, ətrafda yaşayan insanların həyatına təhlükədir. Bütünlükdə İran əhalisinə təhlükədir. İran güc adamları, alimləri bu ürək ağrıdan mənzərəyə seyrçi qalmamalıdır. Bu gün İran nüvə fizikası elminə yiyələnib. Bu elmə yiyələnmək üçün milyardlarla pul xərcləyib və xərcləyir. Deməli, bu gölün də qurumasının qarşısını almaq üçün elmi və fiziki gücü hərəkətə gətirib təbii fəlakətin qarşısını almaq olar. Yer kürəsi hamımızındır, milliyyətindən, dinindən, irqindən asılı olmayaraq, bütün insanlarındır. Hardasa bir meşə yanır, çay quruyur, göl quruyur, zibilləşmə gedir, bu bütün təbiətə quyu qazmaqdır və dolayısı ilə özümüzə… Müqəddəs kitabımız Quranı əlindən yerə qoymayan İran hakimiyyət adamları Allah eşqinə bu fəlakətin qarşısını tezliklə almalıdırlar, çünki Allah həm təbiətin, həm də dinindən, milliyyətindən asılı olmayaraq ona tapınanların və tapınmayanların qoruyucusudur. Allah eşqinə URMU GÖLÜ qorunmalıdır, elə bu dəqiqə, bu an, bu saniyə… Azəri türklərinə nifrətin acığını göldən, dənizdən, çaydan, meşədən çıxmaq olmaz! Bu acığın zərbəsi sonda onu edənlərin birbaşa özünə dəyəcəkdir! Ona görə də, ey İranın elm adamları, hakimiyyət sahibləri, URMU GÖLÜnün HARAYINA qulaq asın! Bu haray təbiətin, kainatın, bütünlükdə gecəbəgündüz məscidlərdə, camilərdə "Allahu-əkbər" dediyiniz ALLAHIN harayıdır, çünki yeri də, göyü də Allah yaratmış deyiriksə, bu İlahi harayıdır. Bu haraya tələsin, QURAN naminə, İSLAM naminə, ALLAH naminə…

26.07.2012

BAKININ TƏBRİZƏ AÇIQ MƏKTUBU

Çox düşündüm izzətli, hörmətli, sevgili Təbrizim, açıq məktubumu sənə yetirim, ya yox? Belə qərara gəldim ki, yetirsəm yaxşıdır. Məktubdan qopan harayım qulağına yetişəndə bəlkə sənə hökmranlıq edən güc adamları da insafa gələ və bizim, həm də sənin də əzizin olan iki gənc şairimizi – Fəridimizi və Şəhriyarımızı bizə qaytaralar. Axı İslami dəyərlərlə oturub-duran başbilənlər gənc balalarımıza qıyıb onları zindan küncünə atmamalıdır. Vallah mən Bakı sən Təbrizə ərz edirəm ki, bu gənclərin heç bir günahı-zadı yoxdur. Bu günah deyilən şeyi sənin molla ağaların özlərindən uydurublar, necə deyərlər, icad ediblər. Elə götürüb qurumaq təhlükəsilə üzbəüz qalmış Urmu gölünün dərdinə bir çarə icad etsinlər də… Necə deyərlər qəfildən xofa düşüblər. Axı bu gənclər şeir, sənət işığına getmişdilər sənin bizə doğma və əziz olan şəhərinə. Bəs nədən bu balaları İran molla rejiminin dəmir barmaqlıqlar arasına saldı? Gənclik gələcək deməkdir, yaradıcılıq deməkdir, həyat eşqi deməkdir. Bəs bu həyat eşqini iki gənc şairimizin ürəyində dərdə çevirən İran hakimiyyəti Allahın qəzəbindən qorxmurmu? Axı Güney Azərbaycan mənim qoynumda yaşayanların da Vətəni sayılır. İnsan öz Vətəninə niyə gedə bilməsin? Eşitdiyimə görə sizə getməkçün indiki dillə desək heç viza rejimi də yoxdur. Bəs nə vaxta qədər yalançı qadağalar, boğazdan yuxarı Allah sevgisi dünyada ayaq tutub yeriyəcək?..

Təbrizim, adam da öz Vətəninə icazə ilə gedər?! Bilirəm ey, sən də irtica qüvvələrinin təzyiqi altında əzilirsən, amma nə edim, dərdimi sənə açıq məktub şəklində çatdırmağı qərara aldım. Səhərdən axşama qədər minbərlərdə "Allahu-əkbər" deyən İran mollaları iki yaradıcı gənci getdiyi yerə niyə peşman edib? Əziz Təbrizim, axı qonağı belə qarşılayıb, belə yola salmazlar. Bilirəm ey, indi durub deyəcəksən ki, mənim nə günahım, bunu ikiayaqlı bəndələr ediblər. Əziz və müqəddəs Təbrizim, sən o başbilənlərinizə mənim dilimdən ərz elə ki, müqəddəs Ramazan günlərində Fəridimizi və Şəhriyarımızı qaytarsın bizə… Mən Bakı, o qədər qonaqlar qəbul edib yola salıram ki, vallah, billah heç birini də tutub saxlamıram. Əziz Təbrizim, istəkli qardaşım, sən o mollalara de ki, müqəddəs Quranımızda şairlər haqqında ayə var, o ayəyə and verirəm sizin padşahınızı ki, Şəhriyarımızı və Fəridimizi qaytarsın özümüzə! Həmin ayədə bəhs olunur ki, sevgili Allah şairlərə ilham verib, məhz o

ilhamın işığından vəcdə gəlib şairlər yazırlar. Onlar gəncdirlər, böyük istəklə, arzuyla sənin qoynuna təşrif buyurmuşdular. Öz istedadlarını sənin müqəddəs torpağında istəkli söz adamlarınla bölüşsünlər, amma sənin ağayi-mollaların heç ipə-sapa yatmırlar ki, yatmırlar. Vallah Təbriz, o cavanların təhsili yarımçıq qalıb, dəftərdən, kitabdan, evdən-eşikdən uzaq düşüblər. Mən Bakı elə bilirdim ki, bizim tək düşmənimiz var, o da gəmidə oturub gəmiçiylə dalaşan ermənilərdir, amma, qardaş, deyəsən sənin molla hakimiyyətin çalışır ki, məni də sənlə düşmən etsin. Daha düşünmür ki, heç qardaşdan qardaşa düşmən olar? Heç əti də sümükdən ayırmaq olar? Əlqərəz, əziz Təbriz, and olsun mənim damarlarımdan axan neftə ki, məndən sənə düşmən olmaz. Bizim hər ikimizin bir düşməni var o da özünə yalandan erməni adı qoyan, bizlərin erməni çağırdığı haylardır. Biz hər ikimiz o azğın düşmənə qarşı mübarizə aparmalıyıq. Elə sənə hakimlik edən farslar da müsəlman qardaşlar deyilmi? Bəs o mollalar bilmirmi müqəddəs Quranımızda yazılıb ki, müsəlman müsəlmanın qardaşıdır?! Vallah, Təbriz, heç orda məzhəblərdən də söhbət getmir. Əksinə, dini firqələrə parçalayanlar cəhənnəmlə hədələnir. Mən Bakı, sən Təbriz qardaşımdan xahiş edirəm, molla ağaların hüzuruna yetir ki, müqəddəs Ramazan günlərində nə incikilikləri varsa tamamən unutsunlar. Barışıq şərbətini birnəfəsə başlarına çəkib zindanda günahsızcasına günü-günə calayan gənc şairlərimiz Fərid və Şəhriyarı buraxsınlar bu taya… Mən Bakı sənə deyirəm ki, bu həm gözəl Allahımıza, həm də ürəyində insanlıq eşqi olan hər bir bəndəyə xoş gələr… Xoşca qal, əziz Təbrizim, bu mən qardaşın sən qardaşa kiçicik naməsi idi. Rica edirəm bu diləkçəmi öz başbilənlərinə yetir. Gecikdirmə a… Az qala yadımdan çıxmışdı… Qoy balalarımın soy adını da tam yazım ki, məktub ora yetişəndə anlaşılmazlıq olmasın. Fərid Hüseyn və Şəhriyar Hacızadə… Sən bu məktubu Baş Mollanıza yetir a, bəlkə Ramazan günlərində savab qazanmaq istədi. Ən yaxşı savab bu uşaqların məhbəsdən azad olunmasıdır. Əziz Təbrizim, de ki, onlara savab qazanmağa gecikməsinlər, çünki hər gecikmənin də düşər-düşməzi olur…

29.07.2012

BİZİM ZİBİLLƏMƏ XƏSTƏLİYİMİZ...

Əslində zibil sözü elə çoxmənalı deyimdir ki, onu bir çox məqamlarda işlətmək olar, amma mən bu yazımda küçələrimizdə, yaşayış ərazilərimizdə baş alıb gedən zibil yığınlarının bugünkü sağlamlığımız üçün açıq-aydın bəlaya çevrilməsinin acı gerçəkliyini dəyərli oxucularımızla, sözə, fikrə qiymət verən qələm əhliylə bölüşmək istəyirəm. İnan ki, bu üzdən xüsusən yay aylarında evdən çıxmaq istəmirəm, çünki çıxan kimi ya qonşularla, ya da zibilləmə xəstəliyinə tutulmuş, kimi gördüm, onunla didişməyə başlayıram. Bu didişmə isə sonucda ürək ağrılarımla başa çatır. Necə deyərlər, zərbə özümə dəyir, amma neyləyim ki, bu acınacaqlı vəziyyətə dözə bilmirəm. İndi bir çox məmur özbaşınalıqlarını, yağlananların haqsızlıqlarını və buna bənzər könül bulandıran mətləbləri çıxmaq şərtilə nəinki paytaxtda, hətta bölgələrdə də geniş və ürəkaçan abadlıq işləri gedir. Parklarda, yollarda, küçələrdə səliqə-sahman göz oxşayır, amma kaş ki, bizim öz əlimizlə yaşadığımız ərazini, küçəni, hasarımızdan o tərəfi zibilləmə əməliyyatımız olmayaydı. Biz xoşlayırıq evimizi, hasarımızı daşdan yapmağı, evimizin içini bahalı əşyalarla doldurmağı, hətta pulumuz olmasa belə kreditlə, borcla, xərclə bu diləklərimizi yerinə yetirməyi… Üst-başımızı zinət əşyaları ilə doldurmağı… Necə deyərlər, evimizin içi, üst-başımız par-par parıldayar, ancaq evimizdən çıxan zibilimizi mütləq hündürmərtəbəli binanın sakiniyiksə ordan aşağı, həyət evində yaşayırıqsa hasardan o üzə atmağı xoşlayırıq. Bunu qətiyyən natəmizlik hesab etmirik. Elə zənn edirik ki, evimizi, özümüzü təmiz saxlayırıq. Küçədən, parkdan, zibilxanalarda qoyulan qutulardan bizə nə, hətta işdir-şayəd aparıb kefimizin xoş vaxtı zibili zibilxanaya atmalı olsaq onu qutuya yox, mütləq yerə tullayırıq. Çox vaxt da bu əməliyyatı azyaşlı uşaqlara tapşırırıq, onlar da apardıqları polietilen torbaları elə yolun yarısındaca atıb qaçır. Əllərinə alışqan, kibrit düşsə zibilə də od vururlar. Bir də görürsən günəşin yandırıb yaxan vaxtında tüstü aləmi bürüyüb. Biz çox vaxt bu yanlışlıqlarımızı mənzil-istismar idarələrinin boynuna yıxırıq. Ay yığışdırmırlar, ay aparmırlar… Düzdü, onları da bu işdə çox səriştəli saymaq olmaz, çünki zibilliyə od vurma əməliyyatını çox vaxt onlar özləri edirlər, lakin biz heç düşünmürük ki, bu zibilliklər bizim sağlamlığımızın atasına od vurur, onun belini bükür, kitabını bağlayır. Bu tədricən, ağciyər vərəmi, ürək çatışmazlığı, qan azlığı, xərçəng (yandırılan polietilen torbalar xərçəng

xəstəliyinin dost doğmaca balasıdır) xəstəliklərinin bədənimizi ünvan seçməsinə və bizi vaxtsız məzara yollamasına səbəb olur.

Dünən işıq, qaz, su ödənişləri etmək üçün banka getmişdim. Bank beş qatlı binanın birinci qatında yerləşir. Təzə təmirdən çıxıb, necə deyərlər, içəri girəndə adamın ürəyi açılır, amma bankın həyəti zibillə doludur. Beşmərtəbədə yaşayan sakinlər zibil atmaq üçün aşağı düşməyi çətin sayıb eləcə yuxarıdan aşağıya – həyətə tökürlər. İşçi xanımlara deyirəm, heyif sizin bu təmirdən, həyətdə necə zibillikdir. Deyirlər ki, irad tuturuq üstümüzə hücuma keçirlər. Neyləyək, qanqaraldıcı vəziyyət yaratmaq istəmirik, biz yığışdırırıq, yuxarıdakılar tökürlər. Yəni istəkli oxuculara onu demək istəyirəm ki, bizim elə mənəvi xəstəliklərimiz var ki, ona nə həkim, nə təbib, nə də hüquq-mühafizə orqanları çarə edə bilər, çünki bu bizə içdən gəlir. Həkimlərin dili ilə desək, genlərlə daxil olur qanımıza…

Biz donlarımızı həddindən artıq qısa, şalvarlarımızı dar edib küçəyə çıxmaqla və yaxud televiziya kanallarında belə əndrəbadi geyimlərlə var-gəl etməklə, reklamlarda vay sözünə vuay deməklə, elə bilirik ki, avropalıyıq. Bizə avropalı yox, özümüz olmaq lazımdır, amma küçələrin, parkların təmizliyini avropalılar kimi, yəni inkişaf etmiş ölkələr kimi qorumalıyıq, bacarmırıqsa onlardan bu gözəl mətləbləri öyrənib gündəlik həyatımızda vərdişə çevirməliyik.

Biz hərdənbir əlindən çox əsəbiləşdiyimiz adama zibil deyirik. Yəni bu sözü söyüş kimi işlədirik. Deməli, zibilin üfunətli bir şey olduğunun fərqindəyik, amma bu üfunətli şeyi uf demədən qapımızın ağzına, dalanlara, yol kənarlarına tökürük, hətta insanlarımız, utanıb-çəkinmədən, asfalta tüpürür də… Günəbaxan tumunu isə çırtlayıb hara gəldi tullayırıq. Dayanacaqlar siqaret qutuları, kötükləri ilə ah-vay edir. Hələ saqqızı demirəm, hərdənbir kefimizə düşəndə onu sərnişin avtobuslarında oturacaqlara da yapışdırırıq…

Yazıqlar olsun ki, bunu qətiyyən eyib hesab etmirik. İndi siz deyin, ey şərəfli, izzətli millətimiz, bizim zibilləmə xəstəliyimizə kim çarə edəcək? Həkimlər, hüquq-mühafizə orqanları, ya özümüz?!

15.08.2012

İRANDA TƏKLƏNƏN GÜNEY…

Bir neçə gün öncə Güney Azərbaycanda baş verən zəlzələ ürəyimizi parçaladı, könlümüzü çalxaladı, hisslərimizi dilə gətirdi. Deyirlər ki, yurd istəyi, Vətən təəssübkeşliyi, milli duyğular bütün düşüncələrdən yüksəkdə durur. Bu hissi, bu duyğunu heç bir istəklə əvəz etmək olmur. Ən əziz adamlarını müəyyən müddətdən sonra məzar evinə yollayırsan. Və bir də onların üzünü görmürsən. Yalnız onlardan şirin-acı xatirələr, şəkillər, varsa videoyazılar qalır. Bir də soyuq bir məzar, bomboz daşlardan sənə baxan donmuş baxışlar, donmuş üzlər… Yəni biz hamımız vaxtımız çatanda ora köçürük... amma yeganə təsəllimiz, bizi qoynuna alan torpaq olur. Biz qoynunda doğulub boya-başa çatdığımız eli, yurdu, ocağı o tayı, bu tayı ilə geniş məfhumda Vətən, kiçik məfhumda isə oba, kənd, qəsəbə, şəhər adlandırırıq. Vətənə isə əzizləyə-əzizləyə ana Vətən deyirik, çünki o bizim ağlımızın, duyğumuzun sultanı, şahıdır. Elə bu ana Vətənimizin bir hissəsi də iki əsrdən yuxarıdır ki, bizdən ayrı düşmüş, yarı hissəmiz olan Güneydir. Güney o üzdən bizim ürəyimizə, hisslərimizə hopub. Adam bədənin hansısa üzvünü itirəndə necə ağrıyırsa, biz də Güney üçün elə ağrıyırıq. Bu ağrı ədəbiyyatımızda boy göstərən nəsrdən, nəzmdən boylanır. Bütün fəryadlarıyla, ağrılarıyla, yanğılarıyla. Dəyərli müğənimiz Yaqub Zurufçu "Ayrılıq" mahnısını oxuyandan sonra bir daha oxumasaydı da, o bizim ürəyimizdə Vətən harayını səsinin tellərində fəryada çevirən Yaqub Zurufçu kimi qalacaqdı. Bilirsiz niyə, çünki o, ikiyüzillik ayrılıq fəryadıyla aramızda tikanlı çəpərə çevrilmiş sərhəd direklərini dağıtdı… çünki onun səsinin harayı heç vaxt qulaqlarımdan getmir. BU BİR FƏRYAD İDİ, BU BİR TİTRƏYİŞ İDİ… Bütöv Azərbaycanın fəryadı, titrəyişi… hətta mərhum Rübabə Muradaova yanğısından da Böyük yanğı idi Yaqub Zurufçunun yanğısı… Bu səs otaylı-butaylı Azərbaycanın faciəvi çağırışı, naləsi idi… Bu səs Gülüstan, Türkmənçay sülh-işğal müqavilələrinə etiraz idi, dəhşətli etiraz… çünki bu İran İmperiyası ilə Rus İmperiyasına sərt mesaj idi… Düzdü, bu mesajdan sonra Rus İmperiyası qismən də olsa dağıldı… amma İran isə laxlayır, özü də onu kənar yox, özü laxladır… etdiyi uşaq kimi şıltaqlıqları ilə, caynağı altına almış Güneyimizin haqqını tapdalaması ilə…

Düzdü, bizim Gürcüstan ərazisində də ellərimiz var, amma biz ora gedib-gəlirik, ora gediş-gəlişimizə Gürcü hakimiyyəti qısqanclıqla baxmır,

məhz dərk edir ki, əti sümükdən ayırmaq olmaz. Biz Dərbəndə də gedib-gələ bilirik və bu gediş-gəlişə heç də qısqanclıqla yanaşmırlar. İstəsələr də, istəməsələr də bilirlər ki, Dərbənd Azərbaycan şəhəridir, hətta başqa ölkənin tabeliyində olsa belə… amma di gəl Güney bir çöp kimi İran başbilənlərinin boğazında qalıb. Beləliklə, gah ora gedən şairlərimizi tutub saxlayırlar, gah da mərhum yazıçı Rafiq Tağının ölümündə əli olduqlarını açıq-aşkar büruzə verirlər. Daha düşünmürlər ki, bir azca çeçəsələr, Güney onların boğazından qopub düşəcək yerə və öz özgürlüyünə, istiqlalına qovuşacaq… necə ki insanın əcəli çatır, imperiyaların da elə əcəli çatır. Bir də görürsən ki, heç nədən bir büllur qab təki paramparça olub töküldülər yerə…

İndi qayıdaq zəlzələnin üstünə… Bizim yaşadığımız ərazilər, İran, Türkiyə də daxil olmaqla zəlzələ zonasıdı, çünki bu ərazilərdəki dağlar biz ulu dağlar desək də, geofiziki baxımdan cavan dağlardır. Hələ çox-çox əsrlər bu ərazilərdə zəlzələ təhlükəsi labüddür. Təəccüb doğuran cəhət odur ki, deyilənlərə görə İran zəlzələ zonasına gələcək yardımların qarşısını kəsdi, Rusiyanın, Amerikanın kömək təkliflərini qəbul etmədi. Türkiyənin yardımlarını sərhəddən geri qaytardı. Özü isə vaxtında soydaşlarımızın harayına yetmədi və harayına yetmək istəyənlərə yox deməklə arxa çevirdi. Elə yaxşı ki, şükür Allaha, bizim yardımımızı qəbul etdi. Necə deyərlər, buna da şükür…

Görəsən, öz tabeliyində olan vətəndaşlarına qarşı belə mövqe tutmaq hansı şaha, hökmdara, indiki dillə desək prezidentə xeyir gətirib?! Bu zəlzələdir, bu minlərlə insanın faciəsi, göz yaşı, bədbəxtliyi deməkdir. Biz hələ dinlə də İrana qardaşıq, özü də İslam ölkəsi, bəs görəsən, islamın hansı dəyərlərinə tapınır ordakı başbilənlər ki, ikigünlük matəmi yalnız Güney ərazisində edir? Bəlkə Güney doğrudan da İrana lazım deyil. Bütün yer üzündə nə qədər imperiyalar, müstəbidlər varsa başa düşməlidirlər ki, bu orta əsrlər deyil. Bu sürət, internet əsridir, yəni atalar demişkən: "Cidanı çuvalda gizlətmək olmaz". Kim nə edirsə hər an bütün dünya xəbərdar olur. Sözümün canı ondadır ki, İran öz vətəndaşları arasında ayrı-seçkilik salmamalıdır, bu onun xeyrinə deyil, digər atalar məsəlində deyilir ki, "Sirkə nə qədər tünd olsa öz qabını çatladar". Əlqərəz, uzun sözün qısası, güneyli bacı və qardaşlarımızın ağrı-acıları, fəlakətləri bizi yandırır, yanan yerdən od çıxar deyiblər atalarımız… Bu odu alışdıran kibrit isə İran mollalarının öz əlindədir. Nə qədər gec alışdırsalar bu onların özlərinin xeyrinədir. Öz xeyrindən qaçanlara isə heç kim ağıllı deməz. Yazımın so-

nunda güneyli bacı və qardaşlarıma demək istəyirəm ki, keçmiş olsun, Allah uçuqlar altında qalıb həlak olanlarımıza qəni-qəni rəhmət etsin. Qalanlarımıza səbir versin.

Pullu insanlarımıza kiçik bir diləkçə ünvanlayıram: Əziz, şərafətli, mərhəmətli, imkanlı Vətən əhli, mərhum prezidentimiz Heydər Əliyev – sizin bugünkü gününüzün səbəbkarı, ərz etmişdi ki, azərbaycanlılar dünyanın harasında olursa olsun, bizim vətəndaşlardı, onların ağrısı bizim ağrımız, sevinci bizim sevincimizdi. İndi siz müqəddəs Ramazan günlərində mərhəmət əhli olun, varınızdan az bir qismini bu insanların yardımına ayırın, çünki Güneyli bacı-qardaşlarımızı bizimlə tikanlı sərhəd dirəkləri ayırır, amma ürəklərimizdə o sərhəd dirəkləri yoxdur. Ürəklərimizin dünyası sərhədsizdi, məhz həmin dünyada bizim güneyli bacı-qardaşlarımız da var, çünki onlar ürəyimizin bir parçasıdır! Onların xaraba qalmış kənd və qəsəbələri, sınmış ürəkləri yardıma möhtacdı. Allah heç bir bəndəsini belə fəlakətlə imtahana çəkməsin. Allah eşqinə yardıma tələsin…

Yazımın sonunda o taya səslənirəm: Başın sağ olsun, Güney! Başın sağ olsun, Vətən! Başın sağ olsun, yaralı Azərbaycan!!! Gün o gün olsun ki, torpaqlarının birliyini görəsən… Amin… Amin… Amin!!!

17.08.2012

DÜŞMƏN DƏYİRMANINA SU TÖKƏNLƏR

GÖZLƏNİLMƏZ XƏBƏR

Ramil Səfərovun Macarıstan məhbəsindən qəfil qurtulması xəbəri aləmə car olan kimi, nəinki öz insanlarımız arasında, hətta dünya səviyyəsində kütləvi xəbər birliklərində səs-səda qopdu. Əminəm ki, bu torpağın çörəyini yeyib suyunu içən, milliyyətindən asılı olmayaraq ruhunda azərbaycançılığı hiss edən hər bir kəs bu gözlənilməz azadlığa sevindi. Elə bil insanlarımızın içində öləziyən ümid çırağı bir günün içində işıq saçmağa başladı. Düzü, bu müjdəni internetdən alanda, əvvəl heç inanmadım, yəni inanmağım gəlmədi. Ömürlük həbs cəzası almış zabitimiz necə azad ola bilər? Bu mümkündürmü? Axı bu günə qədər bütün dünya birlikləri bizə qarşı çıxıb, evlərimiz uçub, yurdlarımız, obalarımız xaraba qalıb, ellərimiz ocaqlarından uzaq düşüb, dünya susub, qadınlarımızın, analarımızın, ba-

cılarımızın namusu tapdalanıb, körpələrimiz süngülərə keçirilib, dünya susub. İki yüz ildi bu yerlərdə türk-müsəlman qanı tökülür, bizi yerli-dibli yox etmək istəyirlər, varlığımızdan döndərmək istəyirlər. Dünya birlikləri bu biabırçılıqlara susur, dinmir. Əlimizi, dilimizi tərpədib bir söz demək istəyəndə, haqqımız uğrunda iş görmək istəyəndə bizə terrorçu deyirlər, halbuki terrorun əsasını qoyanlar xristianlar özləri olub. Ötən əsrin 20-ci illərində qan-qırğın üzərində İrəvan mahalı ərazisində rus istilaçılarının hesabına terrorçu Ermənistan yaradıldı, dünya xaçpərəst birlikləri bu dövlətin qanlar üstündə bərqərar olmasına rəvac verdilər, ancaq məsələyə çox dərindən varanda biz xaçpərəstlərin hisslərini də, demokratiyasını da, demokratiya adı altındakı gedişlərini də başa düşürük. Bu yaxınlarda yetmişdən çox insanı həyatdan mərhum edən və neçələrini yaralayan norveçli xristian qatilə 20 il iş kəsdilər, o dəmir barmaqlıqlar arxasından dönə-dönə törətdiyi kütləvi qətliamdan peşman olmadığını etiraf edir və bu qərara tam şüurlu surətdə gəldiyini dilə gətirir, amma bu terrorçuya cəmi 20 il iş kəsdilər. Nəyə görə, çünki o xaçpərəstdir. Müsəlman aləminə başdan-başa terrorçu kimi baxan inkişaf etmiş ölkələrin xristian birlikləri niyə bu dəhşətə susdular? Bəs görəsən, bu düşüncə xaçpərəst ölkələrini hara aparır? Qana, qırğına, dini düşmənçiliklərə… Onlar bu dar düşüncə tərzi ilə dünya ilə nə etmək istəyirlər? Avropada ağıllı başlar yenə etiraf etməyə başlayıblar ki, irqi ayrı-seçkilik günbəgün onların məkanlarında alovlanmağa başlayıb. Bunun qarşısı alınmasa sonrakı illər çox dəhşətli hadisələr baş verə bilər…

RAMİLİN HƏBSİ VƏ QAYIDIŞI

Ramil Səfərov zabitdir, ölkəmizi NATO-nun apardığı hərbi təlimlərdə təmsil edirdi. O, hərbçi olmaq üçün bayrağımıza and içib, bu andın məsuliyyətini kişilərimiz, yəqin ki, biz qadınlardan daha artıq dərk edir. Düşmən öz iç üzünü yad ölkədə də göstərib, zabitimizin gözləri qarşısında bayrağımızı təhqir edib və onu bu qanı tökməyə məcbur edib. Bəs görəsən, Ramil özü hansı bölgəmizdəndir? O, 20 il işğal altında inləyən Cəbrayıldandır. Onun yaşadığı yurd işğal altındadır, o torpaqda onun əzizləri, yurddaşları qətlə yetirilib, bir çoxları erməni əsirliyində çürüyür. Düşmən zabiti özünü qalib hesab edir, məğlub ölkənin zabitinin gözü qarşısında onun bayrağını təhqir edir, bəlkə o məqamda Ramil sussaydı,

o anı düşmən tərəf çəkib internetdə yayımlasaydı, yağı dəyirmanına su tökən "demokrat" yazarlarımız onda görən nələri söyləyərdi?! Onun düşdüyü bu durumdan anası dərdə batdı, balasının başına gələn müsibətə dözməyib dünyasını dəyişdi, artıq zabitimiz həbsdən azad olub. Ölkə başçısı səviyyəsində onun çəkdiyi doqquzillik əzablarına son qoyulub, bu bizim ermənilərin üstündə psixoloji qələbəmizdir. Haylar bizi bu gün terrorla hədələsələr də, özləri ağır vəziyyətdədirlər. Quzey Azərbaycan inkişafdadır, onun ordusu, silah-sursatı var. Bu Vətən, kim nə söyləyir söyləsin, 20 il qabaqkı deyil, onun inkişafını dünya birlikləri etiraf edir. Biz Ramil Səfərovun azadlığa çıxması ilə düşmən üzərində qələbənin birinci addımını çox uğurla atdıq. Sakit, səssiz və dünyanı təəccübləndirən bir KİŞİLİKLƏ!!!

Ramil Səfərovun atdığı addım bizim dilimizi bağlayan dünya birliklərinə sərt mesaj idi. Biz varıq, bizim haqqımızı nə qədər tapdalasanız da, biz özümüzə gəlib tökülən qanların əvəzini yağıdan çıxacağıq. Dünya məğlubu sevmir, aciz millətlər, aciz xalqlar, aciz dövlətlər, ancaq canını və qarnını qoruyan xalqlar gec-tez yer üzündən əriyib gedir. Bizi də 200 ildi əritmək istədilər, amma bacarmadılar. Biz qırıla-qırıla, soyqırımlarına məruz qala-qala yenidən dikəldik, varlığımızı bizi tanımaq istəməyənlərə bəyan etdik. Vətənsevərlərin gözündə Ramil Səfərov Azərbaycanın Milli Qəhrəmanıdır. Varlığımızı dünyaya bəyan edən, haqsızlıqlara, imansızlıqlara yox deyən başıbəlalı Vətənin Qəhrəmanı!

ƏDƏBİ DÜŞÜNCƏ SAHİBİ

Ramil Səfərov məhbəsdə olduğu zaman macar dilini mənimsədi. Macar xalqının ədəbiyyatından nümunələri bizim dilə çevirdi. Bu gün də o bu işini hərbi sahəsi ilə bahəm davam etdirsə, tərcümə ədəbiyyatına böyük töhfələr vermiş olar. Görəsən, içində qatillik hissləri olan bir şəxs belə bir addım ata bilərdimi? O bu gün AYB-nin üzvüdü, ona bu yolda ədəbi uğurlar arzulayıram.

BİZ NİYƏ QORXURUQ?

Atalarımızın bir məsəli var: "İslanmışın yağışdan nə qorxusu?" Bizim ruhumuzu kifayət qədər tökülən qanlarımızla islatdılar. Dondurulmuş müharibə, işğal altında olan torpaqlar bizi yuxuya getməməyə çağırır. Bu gün paytaxta yığışıb buranı özünə təhlükəsiz sığınacaq sananlar

anlamalıdırlar ki, bu müvəqqəti təhlükəsizlikdir. Biz gücümüzü yağıya göstərməliyik, əks təqdirdə bu qanlar bir müddətdən sonra növbəti torpaqlarımızda axacaq. Ona görə bizim geri çəkilməyə yolumuz yoxdur. Heç bir dövlət qansız, qadasız istiqlala yetişməyib. Ruslar bizə sovet zamanı şirin köləlik bəxş etmişdilər, indi biz kövrək müstəqilliyə sahib olmuşuq. Onun sınıb tökülməməsi üçün torpaqları işğaldan azad etməliyik. Nəyin bahasına olursa olsun, bizim geriyə yolumuz yoxdu…

VƏTƏNDAŞ OLMAQ HÜNƏR TƏLƏB EDİR…

İndi qayıdaq adını jurnalist, yazıçı, yazar qoyub digərlərinə yuxarıdan aşağı baxan, genlərinin haradan qaynaqlandığı məlum olmayan bir çox söz adamlarının üstünə… Yuxarıda qeyd etdiyimiz kimi biz xaçpərəst birliklərini də, onların insanlarının bir-birinə qarşı olan təəssübkeşliyini də başa düşürük, amma bizi təəccüb və heyrət içində qoyan bəzi yazar soydaşlarımızın məsələyə avropasayağı düşüncə ilə yanaşmasıdır, yəni belə görünür ki, bu yazar soydaşlarımız bizdən çox-çox mədənidir və bu baxımdan da sözün əsl mənasında irəli gediblər. Yazılarında zabitimizin cinayətkar olduğunu və insan həyatına son qoyduğu üçün ömürlük məhbəsdən çıxmamasını arzulayanlar hansı məfkurəyə xidmətdədirlər, bunu onların özləri və bir də Allah bilir. Bununla da onlar azad düşüncə sahibi kimi özlərini bizlərdən çox-çox zirvədə görürlər. 8 mart 2011-ci ildə Ağdamın Orta Qərvənd kəndində öz evinin həyətində oynayan 9 yaşlı Fariz Bədəlovu erməni cəlladı snayper tüfəngi ilə qəsdən vurdu. Bəs o görmürdü ki, onun hədəfindəki uşaqdır? Niyə buna dünya səs vermədi və onu qatil adlandırmadı? Ramil Səfərova cinayətkar-qatil adı ruslar qoyublar və öz medialarında onu səsləndiriblər. Bilmək lazımdır ki, ruslar bizim dostlar deyil, bütün bu ağrılar bizə ruslardan ermənilərin vasitəsilə gəlir. Bizimkilərdən kim ki, rus-erməni qansızları ilə bir xorda oxuyur, onları heç azərbaycanlı da saymaq olmaz.

Türkiyədə, Güneyli-Quzeyli Azərbaycanda az-az ailələr tapılar ki, ermənilərin törətdiyi soyqırımın dəhşətlərindən keçməmiş olsunlar. Rəhmətlik ana nənəm bizə nəql edərdi ki, Siyəzəni, doğulduğum Tağay kəndini gavurlar (o, ermənilər gavur adlandırırdı) xaraba qoymuşdu. 1918-ci il qırğınlarında onun bələkdə olan qızını – Məryəm xalamı, qaçaqaçda qucağından qəfil yerə düşən körpəni ermənilər (kənd adamları

o vəhşətləri qaçaqaç günləri təki yad edirdilər) oda atıb yandırmışdılar. Nənəm o günləri dünyasını dəyişənə qədər dəhşətlə yad edib xilasa gələn türk əsgərlərinin ruhuna dualar oxuyurdu.

Ağdamın Orta Qərvənd kənd sakini 9 yaşlı Fariz Bədəlov ermənilər tərəfindən qətlə yetiriləndə, mən bir dəstə yazar qadınla faciənin baş verdiyi kəndə getmişdim. Erməni vəhşilərindən 300 metr aralıda yerləşən bu kənd hər gün güllələr altındadır. Sakinlər orda yalnız gecələr iş görə bilirlər. Kənd evləri erməni güllələrindən dəlik-deşikdi. Bütün işğal olunmuş torpaqlarımıza yaxın ərazidə yaşayan insanlar sitəm içindədir. Bu bir-iki gün deyil, düz iyirmi ildir ki, davam edir. Mən orda gördüklərimdən dəhşətə gəlmişdim. Ağdam bölgəsindən qayıdandan sonra hələ də əsəblərimi ələ ala bilmirəm. Bu gün Bakıya yığışıb əlinə qələm götürüb özünü yazar qismində görən və erməni təəssübü çəkən, qəhrəmanlığa "ayrı nöqteyi-nəzərdən" baxan bu insanlar nə olar bir gedib cəbhə bölgələrindəki insanlarımızın səksəkəli həyatıyla maraqlansınlar. Sonra öz ölümünə özü bais olmuş erməni zabitinin dərdini çəksinlər…

Ramil Səfərov məhbəsdə olana qədər biz hamımız iqtidarlı-müxalifli onun düşdüyü duruma yanırdıq, zabitimizin ordan xilası haqqında uzun-uzadı sosial şəbəkələrdə dərdləşirdik. İndi Ramil balamız azadlıqdadır, biz onun sağlığını qorumalıyıq və bu coşquyla torpaqlarımızın işğaldan azad olması təbilini çalmalıyıq. Bu gün özünü yazar bilib başqalarına yuxarıdan aşağı baxan bəzi qələm əhli, hətta Vətən mövzusunda yazılan şeirlərə dodaq büzür, vallahi-billahi vətəndən yazanlar onu istəkdən yazır, hansı səviyyədə olursa olsun, bu torpaq sevgisindən, yurd sevgisindən irəli gəlir. Qaldı kim arxivlərdə itib-batacaq, onu zaman göstərəcək… Biz bu gün Ramil Səfərovun qurtuluş gününü öndə bizi gözləyən düşmən üzərində qələbə günü ilə tamamlamalıyıq, çünki bu iki amil bir-biriylə sıx bağlıdır.

Sonda erməni dəyirmanına su tökən bəzi qələm əhlinə ərz etmək istəyirik ki, heç yağı da öz millətinə, soyuna-kökünə xor baxanları sevmir. Bu gün ermənilər nə qədər atlanıb-düşsələr də, yəqin ki, Ramilin atdığı addıma ürəklərində paxıllıqları tutur, çünki özləri o mərtəbəyə heç vaxt qalxa bilməyiblər və qalxa bilməzlər.

Hansısa titulları almaqdan ötrü, yad ölkələrin qrantları ilə dolanmaq üçün milli qayəni ayaqlar altına salıb tapdalamaq olmaz. Bunun bir adı var: DÜŞMƏN DƏYİRMANINA SU TÖKMƏK…

09.09.2012

MƏN ÖZÜM-ÖZÜMƏ SÖZ VERDİM

Türkiyənin Adana şəhərindən mənim elektron ünvanıma bir məktub gəlmişdi. Məktubda şair-araşdırmaçı Münəvvər Düvər bir dəstə Türkiyənin yaradıcı insanları ilə Azərbaycana gəlmələri barədə məni məlumatlandırırdı. O, hətta bizim ölkəmizə gəlməmişdən öncə Gürcüstanda olacaqları, sonra Gəncəyə və Bakıya gələcəkləri barədə mənə yazdığı məktubunda açıqlama verirdi. Bakıda olarkən Yazıçılar Birliyində görüş keçiriləcəyi və mənimlə görüşməyi can-dildən arzuladığını yazırdı. Münəvvər Düvərlə biz internet portallarından tanış olmuşuq. O mənim "Həqiqət nə qədər acı olsa da" məqaləmi Yalquzaq.com saytından götürüb yayımlamışdı. Beləliklə, adanalı şair Münəvvər xanım-əfəndi ilə yaradıcılıq əlaqələrimiz başladı. O mənim şeirlərimi, publisist yazılarımı öz saytında yayımlayır. Bu üzdən interneti dünyanın ixtiyarına verən ABŞ hökuməti minnətdarlığa layiqdir. Nə yaxşı ki, internet öz qapısını insanların üzünə açdı, mənəvi sərhədlər götürüldü, adamlar bir-birini tanıdı. Hər sahədə öz istedadlarını üzə çıxarmağa nail oldular. Nə qədər internetin ziyanlı tərəflərindən danışsalar da, bu heç də insan yaradıcılığının üzə çıxması ilə müqayisəyə gələ bilməz. O üzdən dünyanın hegemon dövləti olan ABŞ-a vallah, billah, çox sağ ol düşür.

Əlqərəz, qardaş ölkənin yaradıcı insanları böyük bir heyətlə ölkəmizə təşrif gətirdilər. Mən Münəvvər xanımla telefon əlaqəsi yaratdım. Səhəri biz Qafqaz otelinin qarşısında görüşüb onlarla birlikdə şəhəri gəzməyə çıxmalı idik. Yolum uzaq olduğu üçün onların görüşünə Şirvanşahlar sarayını ziyarət etdikləri vaxt yetişdim. Yolüstü yaradıcı həmkarıma hədiyyə olaraq çiçəklər aldım. Onlar çiçəkləri görəndə o qədər sevindilər ki… Bu insanların çoxusu birinci dəfə idi Azərbaycana qədəm basırdılar, əllərində kiçik kisələr var idi. Onlar bu kisələrdə bir ovuc torpaq aparacaqlarını deyirdilər. Bu illərlə həsrətində olduqları Azərbaycan sevgisi idi. Yolboyu mən onlarda bir-birinə hədsiz ülfət, hörmət hissi gördüm, tutduğu vəzifədən asılı olmayaraq, onlar bir-birlərinə abi, abla, xocam deyə müraciət edirdilər. Biz Şirvanşahlar sarayından çıxıb, onları gəzdirən mehmanxanaya məxsus, avtobusla Nizami muzeyinə üz qoyduq, lakin muzeyə daxil olma qiyməti xaricilər üçün 7 manat, yerli vətəndaşlar üçün isə 5 manat dəyərindədir dedilər. Türkiyəli qardaş-bacılarımız bu ayrı-seçkilikdən bir qədər inciyən kimi də oldular. Muzeyə giriş qiymətinin baha olması onları çox təəccübləndirdi. Deyirdilər, əfəndim, bu qiymətlə muzeylərə

kim gələr? Əvvəlcədən müəyyənləşdirildiyi kimi Yazıçılar Birliyinə yola düşdük. Yazıçılar Birliyinin rəhbəri Anar müəllim gələn qonaqları, öncə öz iş otağında, sonra Natəvan klubunda isti ürəklə qəbul etdi. Onun masasında baş-başa vermiş Türkiyə-Azərbaycan bayraqları türk müsafirlərini əməlli-başlı həyəcanlandırdı və qürurlandırdı. Əsl hadisələr isə görüşün Natəvan klubunda davamı ilə başladı. Görüşə aparıcılıq edən AYB-nin gənclər üzrə katibi Rəşad Məcid idi. O bir-bir həm gələn qonaqlara, həm də əvvəlcədən dəvət edilən adamlara söz verməyə başladı. Mən də bir neçə ay öncə Münəvvər Düvərə yazdığım "Münəvvər" adlı şeri deməyi qərara aldım. Şeir heç də tək bir insanın tərifindən yox, türklüyümüzlə bağlı ağrı-acılardan bəhs edirdi. Münəvvər xanım təkidlə bu şeri deməyi məndən rica edirdi, görüşə rəhbərlik edən Rəşad Məcid mən oturduğum sıradan keçəndə ey-hamla soruşdu: "Siz də söz istəyirsiz?" Mən başımla "hə" işarəsi verdim, ancaq məclisin gedişində əvvəldən axıra qədər heç cürə mənə söz vermək istəmirdi, gələn müsafirlərin gözü məndə qalmışdı, çıxılmaz vəziyyətə düşmüşdüm, ya gərək zalı tərk edib gedəydim, ya da gələn qonaqların xatirinə birtəhər axıra qədər dözüb oturmalıydım, çünki Rəşad Məcid məni tanımaq istəmirdi ki, istəmirdi. Məclisin axırına yaxın qəribə bir hal alındı, Münəvvər Düverə söz verildi, o kürsüyə qalxdı və başının işarəsi ilə məni öz yanına çağırdı. Mən ona gətirdiyim çiçək səbətini əlimə alıb mənə söz verilməmiş Münəvvər xanımın yanına irəlilədim. Ona yazdığım şeri dedim, salonda alqış səsləri qopdu, beləliklə, əziz və möhtərəm ox-ucular, mən gələn qonaqların xatirinə özüm-özümə söz verdim. Bu əslində mənim tərəfimdən etikadan kənara çıxmaq, toplantını aparanın tərəfindən mənə qarşı insafsızlıq, aşağılama idi, çünki mən icazəsiz çıxış etdim. Rəşad Məcid isə Şirinxanım Kərimbəyli Şadimanı, 1991-ci ildə "Ürək, niyə ağrıyırsan?" kitabı ilə yaradıcılıq aləminə qədəm basmış bir insanı Azərbaycan Yazıçılar Birliyinin üzvü ola-ola tanımaq istəmədi. Görəsən, niyə??? Fikrimcə, yaradıcı insana dəyər tutduğu vəzifəyə görə yox, yaradıcılığa görə qiymət verilməlidir. Vəzifə bu gün var, sabah yoxdur, yaradıcı adamdan vəzifə yox, onun yaratdığı qalır.

Onu da qeyd etmək istəyirəm ki, mən Yazıçılar Birliyinə üzvlük haqqı ödəyəndən-ödəyənə gedirəm, çalışıram ki, təqdimat mərasimlərindən də uzaqda durum, bu mənə əsəb sakitliyi, ürək rahatlığı üçün lazımdır. O gün isə görüşə getməyə məcbur idim, çünki türkiyəli həmkarım Münəvvər Düvər mənimlə üz-üzə, dil-dilə görüşmək istəyirdi…

Görüş bitdikdən sonra Yazıçılar Birliyinin qabağında toplaşan qonaqlar bir xeyli dayandılar və təəccüb dolu nəzərlərlə mənə baxırdılar. Onlar deyirdilər, xanım əfəndi, biz sizin yaradıcılığınızla "Erbil" qəzetindən, "Töredergisi"ndən, "Münevver.com"dan, "Türkmenhaqq"dan, bir çox başqa saytlardan, www.shirinxanim-shadiman.net şəxsi bloqunuzdan tanışıq. Bu qədər başınız müsibətlər çəkib, sizlər bir-birinizə niyə soyuqsuz? Mən onların sorğuları qarşısında susdum. Daxildən bir qədər əhvalım pozulsa da üzümə xoş bir təbəssüm verib, qonaqlarla vidalaşıb ayrıldım. Yolboyu böyük şair Vətən uğrunda oğlunu, həm də canını (mən onu da şəhid sayıram) qurban vermiş Xəlil Rza Ulutürkün:

"Davam edir otuz yeddi, Daha qəti, daha ciddi…" misraları qulaqlarımdan getmirdi.

Bu davam, əlində imkan olan bəzi şəxslərin, törətdikləri fiziki ölümlə yox, ruhun sındırılması, qəlbin ağrıdılması ilə özünü büruzə verməkdədir. Yaradıcı insanları birləşdirən bu yaradıcı məbədgahda belə halların baş verməsi təəssüf hissi doğurur. Onda, əziz həmkarlar, adamda belə təsəvvür yaranır ki, bu Azərbaycan Yazıçılar Birliyi yox, Azərbaycan Acıçılar birliyidir, hərgah, elə olmasaydı, ovqatım təlx evə dönməzdim. Gümanım gözəgörünməzə gəldiyi üçün üzümü ona tuturam, İlahi, biz nə vaxt düzələcəyik?..

27.09.2012

YURD İSTƏYİ, VƏTƏN SEVGİSİ
(*HAFİZ RÜSTƏMİN "YARDIMLIYA SƏYAHƏT"İNƏ SƏYAHƏT*)

Azərbaycan ədəbiyyatında öz dəsti-xətti olan Hafiz Rüstəmlə mən yaradıcı insanların gediş-gəliş yeri olan, Əli Rza Xələflinin rəhbərlik etdiyi "Kredo" qəzetində tanış olmuşam. Onun bədii ədəbiyyatımız haqqındakı ürək yanğılı söz-söhbətindən doymaq olmur. Hafiz bəy geniş ürək sahibidir. O, əsl yaradıcılığı simiclik etmədən qiymətləndirməyi bacaran söz, fikir adamıdır, sözünün urvatı, axarı misralarından boylanan, qəlbi sözlə çalxalanan şairdir. Hafiz Rüstəm hər cümlənin quruluşuna, hər misranın düzülüşünə məsuliyyətlə yanaşan yaradıcı insandır. Qəlbi Vətən eşqilə döyünən vətəndaş yazardır.

Müəllifin "Bakıdan Yardımlıya Səyahət" kitabı haqqında öz fikirlərimi yazmamışdan öncə bir-iki kəlmə indiki yaradıcı durum barədə fikir söy-

ləmək yerinə düşərdi. Son illərdə bəzi yazar insanlarımızın yaratdığı ədəbi məhsullarda milli məfkurənin unudulduğu, hətta eldən, yurddan yazmağa rişxəndlə baxıldığının təəssüflə şahidi olursan. Vətənlə bağlı mövzulara geridə qalmışlıq kimi baxan dırnaqarası söz xiridarlarının fikri-zikri avropasayağı söz oynatmaqdır. Fikrimizcə, Vətən eşqi bütün hisslərdən, duyğulardan öndə olmalıdır. Kişini kişi edən Vətəndir, millətin xoşbəxtliyi onunla təndir!

İndi qayıdaq haqqında yazmağa qərar verdiyim müəllifin "Bakıdan Yardımlıya Səyahət" kitabının üstünə. Müəllifin bu kitabı özünün qeyd etdiyi kimi yaddaş-poemadır. Poema başdan-başa bütöv bir elin kədərini-sevincini, ağrısını-hekayətini özündə birləşdirən möhtəşəm bir əsərdir. Əsərin baş qəhrəmanı müəllif özü və dostu Mir Mahmud ağadır. Poemada müəllif klassik şairlərimizin yazı üslubuna sadiq qalıb. Xüsusən indiki dövrdə yazar insanlarımız arasında Allahın varlığına şübhəylə baxan, allahsızlıq ideyaları ilə nəfəs alan qövm yaranmaqdadır. Hafiz Rüstəm bu növ düşünənlərin əksinə olaraq poemanı Allaha münacatla başlayır.

Sən ey bağışlayan, sən ey rəhm edən,
Əsirgəmə eşqi, ilhamı məndən.
Ey iki dünyaya yeganə sahib,
Həm işin içində, həm də ki, qalib.

Haqqın varlığına sidq-ürəklə bağlanan, onu yaranışların sahibi sanan müəllif dünyanın böyük dahilərinin gəldiyi fikirlə həmahəng olur. Biz bütünlükdə ağrılı bir ömür yaşayan millətlərdənik. Bu ağrını isə öz çiyinlərində ömür boyu daşıyan vətən təəssübü, yurd ağrısı çəkən düşüncə sahibləri, həqiqi yazar insanlardır. Hafiz Rüstəm də, məhz belə yazar insanlardandır, əgər belə olmasaydı bu cür iri həcmli poemanı araya-ərsəyə gətirə bilməzdi.

Biz hamımız doğulub-böyüdüyümüz ocaqlardan, yuvalardan şəhərə peşə, sənət, böyük arzular dalınca üz tutan kəslərik. Kəndin təmiz havasını, saf, sadəlövh, dilə bağlı, yurda aşiq insanlarını buraxıb paytaxta yüksək amallar dalınca üz tuturuq. Hələ şəhərin isti asfaltını, boz üzünü görməmiş quş kimi qanad açırıq. Gəlib bir çox mətləblərdən hali olub qaim-qədəm olandan sonra çox şeylərin bizim gənclik düşüncələrimizdən daha ağrılı, daha çətin olduğunun fərqinə varırıq. Bu yolda sağlamlığımızı, uşaqlıq, gənclik illərinin şirinliyini itiririk, yavaş-yavaş iddialı, təkəbbürlü anadangəlmə

şəhərli olmasaq belə, şəhər insanına çevrilirik. Doğma yurdlarımızda qoyub gəldiyimiz istiqanlığı xatirələrə gömüldürük, amma hər birimizin içində doğulduğumuz yurdların eşqindən qaynaqlanan bir nisgil yatır. Biz vaxt tapanda hərdənbir qoyub gəldiyimiz ocaqlara yollanırıq, bəzən soyuq, bəzən isti qarşılanırıq, çünki tərk edilmiş yuvalardan canbir, qanbir yurddaşlar olsa belə, sən qonaqsan. Qoynunda məskən saldığın şəhərə qayıtmalısan. Ürəyi qan yaddaşından qopub gələn ocaq sevgisi adamı bir an belə tərk etmir, bu sevgi ağır vaxtlarda göz yaşlarına, xoş çağlarda isə yurdla təmasda olmaq istəyinə çevrilir. Müəllifi də yəqin yaşının yarıya adlayan çağında bu istək, bu dilək çalxaladıb, onu atalı, analı günlərinin ürək titrədən, qəlbə məlhəm xatirələrinə yönəldib. Ata ocağından boylanan isti ana nəfəsinin, cana məhrəm şirin laylalarının qulaqlarda donub qalmış havasının sədası nisgilli xatirələrinin dünyasından onu səsləyib. Onun da ata ocağının şirinliyi uşaqlıq çağlarının uzaq xatirələrində özünə məskən salıb. O da qələminə və kağızına sarılıb bu istəyi boğça-boğça xatirələr taxçasından çıxarıb misra-misra dastana çevirib. Şair yaşadığı anların xatirələrə dönmüş zamanlarını keçmişin ötüb qalmış günlərində itib-batmamaq üçün, doğulduğu ocağını, yurdunu sözün sehri ilə əbədiləşdirmək üçün bu həyat hekayətini muncuq-muncuq söz ovqatına kökləyir.

Hafiz Rüstəm poemanı ayrı-ayrı başlıqlarla səhifələyir. Hər başlıq adamı bəhs etdiyi hekayətin izinə salır. Müəllifin "Yardımlıya səyahət" yaddaş-poemasında "Cənuba doğru", "Sərhəd ağrıları", "Ricət", "Dağlar… meşələr", "Yollar-görüntülər", "Məcnun dağ havasında" və sair başlıqlarla sıralanmış hekayətlər Yardımlı bölgəsinin tarixi, etniki adət-ənənələri ilə oxucunu hali edir, yurdun gəlməli-görməli gözəlliklərilə onu tanış edir, sanki müəllif oxucunun əlindən tutub onu öz doğulduğu, boya-başa çatdığı məkana aparır. Şair poemanın "Sərhəd ağrıları" bölməsində yolların zaman köhləninə əyləşib insanı ömrün rəngarəngliyi ilə ulaşdırdığını şirin bir dillə nəzmə çəkir:

Yollar elə uzanır,
Sanki qurtarmayacaq.
Bizi apardığıtək
geri qaytarmayacaq.
Vaxt keçir, aşıb-daşır
insan dözümü, səbri,

Yardımlı – ölkəmizin
uzaq, ucqar "Sibiri".

Hafiz Rüstəm indi bir tarixə çevrilmiş sovet dövrünün yaşantılarını qələmə alır. O, Rus İmperiyasının ölkəmiz içində cızdığı sərhədlərinin törətdiyi fəsadları poemanın misralarına gətirir. Vətən içində öz yurd-yuvasına çətinliklə gedib-gələn insanların məşəqqətli həyatını yana-yana qələmə alır. O, parça-parça, tikə-tikə olmuş başıbəlalı Azərbaycanın faciəvi taleyini, bütünlükdə hamımızın ürək ağrısını poemasında əbədiləşdirir. Hələ tələbəlik illərində Bakı Universitetində oxuduğum zamanlarda tələbə yoldaşlarım Naxçıvana, Yardımlıya bir çox sərhəd rayonlarına gedişgəlişin başağrısı olduğunu deyirdilər. Onların başıbəlalı Azərbaycanımızın içərisindən çəkilmiş tikanlı məftillərin hər iki tərəfində həsrətli gözlərin axıtdığı kədər yaşlarının hekayətini nəql etdiklərinin şahidi olmuşam. Tələbə yoldaşlarım öz doğma yurdlarına çətinliklə gedib gəlirdilər, məhz şair də bu həyat hekayətində xalqın keçirdiyi acı-ağrıları misraların dili ilə oxucuya bəyan edir. Müəllif əsərin "İlk bahar lövhələri" bölməsində öz halı-əhvalını dağlarla bölüşür:

Sizinçün burnumun ucu göynəyir,
Burnumdan uzağa getmədim, dağlar.
Mən də bəxtəvərdim guya şəhərdə,
Əslində murada yetmədim, dağlar.

Sizsiz neçə-neçə illər ötüşdü,
Əsdi rüzgarlar, yellər ötüşdü,
Ələndi qar-yağış, sellər ötüşdü,
Mənsə yanınızdan ötmədim, dağlar.

Deyirlər ki, insanın yaxşı günləri barmaqların sayı qədərdir. Müəllif dağlara həsr etdiyi bu gözəl qoşmasında keçirdiyi xoş günlərinin xatirələrindən doğan yurd istəyini, təbiət gözəlliklərini misraların sehri içində bəsləyir. Sözün aliliyi ilə təbiət mənzərələrinə aşina olur. Şəhərin texniki üstünlükləri saf kənd havasının, onun təbii yeməklərinin qarşısında olduqca aldadıcı və keçicidir. Adam yaşa dolduqca, fiziki problemlər ortaya çıxdıqca daha çox o təmizliyin, o saflığın, o büllurluğun həsrətini

çəkir. Hər kəsə bəllidir ki, candan şirin heç nə yoxdur, o şirin can bədən ağrıları artdıqca öz öhdəsinə düşən yükü çəkə bilmir. Yavaş-yavaş insan özü üçün sakit bir guşə arzusunda olur. O sakit guşələr isə uf demədən atıb gəldiyimiz yurdlar, obalardır, məhz Hafiz Rüstəm də o obaların, o yurdların qəlbdən getməz məhəbbətini möhtəşəm sözün axarı-buxarı ilə misralarının ovqatına kökləyir. Qardaşım Hafiz Rüstəm, yurdun şirinliyi canla ölçülür, can nə qədər insana əzizdirsə, yurd da elə can mərtəbəsindədir. Mən əsgərlikdən sonra Rusiyanın ucqarlarının birində gün-güzəran sürmüş bir nəfər yurddaşımızın ağır vəziyyətdə kəndə dönüb ata evinin daş divarını qucaqlayıb hönkür-hönkür ağladığının şahidi olmuşam. Nə idi ömrünün qüruba enən çağında onu kilometrlərlə yolu qət edib can ağrılarıyla ocağa gətirən?! Mənə elə gəlir ki, beynin hansısa qatında özünə yuva salmış ocaq sevgisi, uşaqlıq xatirələrində mürgüləyən ata mehri, ana məhəbbəti idi. Diş göynədən bulaqların şaqqıltısı şairi hansı andasa gecə yuxusundan ayıldıb, şirin yuxusuna soyuq su səpib:

Get Çanaqlı bulağa
Diş göynədən,
Dil-damaq donduran
Bir kuzə su gətir…

Necə deyərlər, bir el mahnısında deyildiyi kimi:

"Sudan gələn sürməli qız,
Çox incidir kuzə səni…"

Çanaqlı bulaq kim bilir neçə əsmər üzlü gözəlin kuzəsinə su doldurub, üz-gözünə çisək ələyib, bulaq qənşərindən keçən hansısa bir igidin oğrun baxışlarına tuş gələn qız sonra barmağına nişan üzüyü taxıb. Şair "Kaş bir çoban olaydım" bölməsində təbiət rahatlığını çobanlığın sehrli çubuğu ilə ölçür. Uzun yollar qət edən çobanların dağda, düzdə keçən həyatını misralar içində mirvaritək sapa düzür:

Obaşdan örüşlərdə hər gün açam səhəri,
Tütəyimlə otaram, yatıram sürüləri.
Fəqət qoyun-quzudan ayrı bir şey qanmayam,
Bekara bir söz üstə alışmayam, yanmayam.

Ümumiyyətlə, şairlik, yazıçılıq, söz, misra pərvanəsi olmaq ürək ağrısından, ağrılı-acılı günlər içində çalxalanmaqdan başqa bir şey deyildir, bunu dərdi söz içində dağ edənlər yaxşı bilərlər, üstəlik, həmkarlarının sənə olan basqıları, soyuq baxışlar, soyuq üzlər, nifrət dolu gözlər…

Şair "İlk bahar lövhələri" hekayətində doğulduğu elin, obanın güllüçiçəkli ormanlarının, yamyaşıl düzlərinin, boy-boya verib təbiətə bir loğman dəqiqliyilə məlhəm edən ağacların çiçək açan vaxtında ətrafa rayihə səpdiyini, ruhu dilləndirdiyini rəssam təki boyalara tutur, amma rənglərlə yox, qəlbi təlatümə gətirən sözlərlə… O əsərə baş qəhrəman seçdiyi dostu Mir Mahmud ağaya üzünü tutaraq deyir:

Gəl, düşək maşından, Mir Mahmud ağa,
Çoxdandır bu yerə ayağım dəymir.
Üz tutaq dərədən axan bulağa,
Onun saf suyuna dodağım dəymir.

Yuxarıda qeyd etdiyim kimi, Hafiz Rüstəm hər birimizin gizli bir xiffətinə çevrilmiş ocaq həsrətini, yuva istəyini "İlk bahar lövhələri"nin qəlb yandıran, ruh tirədən misralarında sözə gətirir, nəzmə çəkir. Ali düşüncələr burulğanında özünə yer tapmayan şairin ilhamı bir qanadlı quşa bənzəyir. Daxilən öz dünyasına çəkilir, hüdudsuz səmalarda səkdikcə səkir. O, onu içəridən rahat buraxmayan ruhuna qoşulub istəkli məkanlarda şahin təki süzdükcə süzür. Müəllif hərdənbir talalara enir, yemliklərdən, quzuqulağından dadır, boynubükük, kol dibində nazlanan bənövşələrin başına tumar çəkir, nazlı təbiətin gül qoxuyan, bal dadan havasını ciyərlərinə çəkir:

Bilirəm, yol gəlib susamısan sən,
İç dərə döşündə soyuq bulaqdan.
Dər güllü təpənin yemliklərindən,
Həzz al çeynədikcə quzuqulağından.

Şair təbiətin saf və bol nemətlərini, qarın doyduran bərəkətini saydıqca, insanda şəhərin hay-küyünü atıb təsvir etdiyi məkanlara qaçmaq istəyi yaranır. Bax budur, dəyərli oxucu, şairin, yazıçının ürəyinin təbiətlə həmahəng vurmağı, onun nəbzini tutmağı… Bizlər təbiətə nə qədər di-

van tutsaq da, onun qədrini bilməsək də, hər addımda çirkləndirsək də torpaq bizdən hələ öz bar-bərəkətini əsirgəmir. Bizlər isə, sanki onun bitib-tükənməyəcəyinin fərqindəyik. Daha fikirləşmirik ki, heç nə əbədi deyil. Hər bir canlı kimi torpaq da canlıdır, yalnız və yalnız onun ömrünü uzada bilərik, çünki bugünkü, sabahkı insanın taleyi ayağımızı basıb, üstündə gəzdiyimiz yerdən asılıdır. O bizi bir gün qoynundan kənara tullaya bilər. Bu faciənin tezliklə baş verməməsinin qarşısını almaq üçün dəyərli söz adamı Hafiz Rüstəmin təsvir etdiyi ruh oxşayan, qəlb ovlayan təbiətin istəkli övladı olan torpağı qorumalıyıq!..

Ürəyimizi yandıran, qəlbimizi sızladan şəhid balalarımız bizlərə nə qədər kədər şərbəti içirtsələr də, onların Böyük Yaradan qarşısında da, vicdanımız qarşısında da müqəddəs mərtəbəsi var. Hər kəsə o mərtəbəyə qalxmaq nəsib olmaz! Şair Şəhid bacısı oğlu Füzulinin nakam taleyinə misralarla heykəl yonaraq deyir:

Deməyin yatıbdır bir uyqu kimi,
Təkcə məhşər günü qalxar Füzuli.
Günəş dan yerindən çıxdığı kimi,
Hər gün qarşımıza çıxar Füzuli.

Məncə, Şəhidi olmayan xalq yoxdur, əgər varsa belə xalqın yaşadığı yer Vətən deyil… Vətən sahibi olmaq çox çətin bir işdir. Vətən itkisiz, qansız, qadasız olmayır. Onu qorumağa hünər gərək, ər gərək… Nə yaxşı ki, bizdə belə ərlər var… Nə qədər soyqırımlarına məruz qalsaq belə Vətən təəssübünü çəkənlərimizin sayı azalmayıb, azalsaydı bu gün biz Vətənsiz qalardıq… Minlərlə şəhidimizin yurd-yuvalara tökülən qanıyla yoğrulan, Vətən torpağı, sən Füzuli kimi igid balalarımızı qoynunda bəslədikcə məmləkətimizin var olma qisməti canımızdan boylanacaqdır! Onların ruhu bizlərin ruhundan çox-çox yüksəklərdə olacaqdır, hərçənd ki, bəzi sağlarımız belə düşüncə tərzinin fərqində deyillər. Sağ ikən qarın doldurub dünyanın naz-nemətlərini dörd əllə qucaqlayıb başqalarına daddırmayanlar, xəstə ruhlarının şəfasına çarə ummalıdırlar. Bu çarə haqqın tərəzisini əyməməkdən, başqasının qəlbinə dəyməməkdən keçir. Sizsə, dəyərli şair, öz bacıoğlunuzla qürur hissi keçirə bilərsiz, o bu dünyadan pak getdi, o qədər aramızda ruhunu çirkaba batıranlar, vicdanını yatıranlar var ki…

Hafiz Rüstəm "Bakıdan Yardımlıya səyahət" kitabında əsər boyu adını çəkdiyi, yer, yurd adları, ordan çıxan şəxsiyyətlər, maraqlı adamlar barədə izahlar verir, onların kim, nəçi olduğu, hardan gedib hara gəldiyi barədə gen-bol məlumatlar, açıqlamalar verir. Şair şahidi olduğu və olmadığı bir çox məqamlar barədə oxucunu hali edir. Onun "Məcnun dağ havasında" hekayətində təmiz bir etirafla qarşılaşırsan:

Şəhərdə kəndliyəm, kənddə şəhərli,
Yarı sevincliyəm, yarı kədərli.
Mənim kənd mənşəyim, əslim, zatım var,
Əslində ikili bir həyatım var.
Çağırır hüsnünə təbiət məni…

Dəyərli oxucu, şərafətli, ləyaqətli söz xiridarları, fikir adamları Hafiz Rüstəmin "Bakıdan Yardımlıya səyahət" əsəri yaddaş-poemadır. Müəllif beynimizin dərin qatlarında uyuyan, hərdənbir diksinib ayılan və ruhumuzu göyüm-göyüm göynədən ocaq həsrətini, yuva istəyini misra-misra nəzmə çəkir, onun yaddaş-poeması bizi geriyə səsləyir, gəldiyimiz yerlərin görüşünə tələsdirir. Unutqanlığın daşını atıb o yerlərin şirin qoxusunu nəfəsimizə çəkməyə, ciyərimizə daddırmağa çağırır. Yad baxışların əhatəsində ötüb keçən ömrümüz istəkli yurdlarımızın, ellərimizin həsrət dolu ağrısını canda bəsləyir. Əsər başdan-başa bir elin, bir yurdun həyat, yaşam kitabıdır.

Böyük şairimiz Məhəmmədhüseyn Şəhriyarın Heydərbaba məktəbinə sadiq qalıb Hafiz Rüstəm… Əsər barədə "Kredo" qəzetinin baş redaktoru, dəyərli araşdırmaçı-şair Əli Rza Xələfli "Yaddaşa aparan yollar" adlı sanballı bir kitab hasil edib. Hər iki müəllifə – Hafiz Rüstəmə və Əli Rza Xələfliyə yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

Vətən duyğulu belə bir əsərin meydana gəlməsində şair qardaşım Hafiz Rüstəmə cansağlığı diləyi ilə:

14.10.2012

AZƏRBAYCAN TELEVİZİYA KANALLARINDA APARICILARIN LƏHCƏ YARIŞI

Bəlkə də bu səhər televiziya kanallarının birində aparıcı "nəzərinizə çatdırım", "nəzərinizə yetirim" əvəzinə "nəzərinizə salım" kəlməsini işlətməsəydi, bu yazını yazmaq qərarına gəlməyəcəkdim. Çünki fikirləşirdim ki, bu iş gündəlik jurnalist peşəsində çalışan qələm əhlinə aid olan məsələdir. İnanın Allaha, "nəzərinizə salım" kəlməsini eşidəndən sonra necə deyərlər hirs vurdu kəlləmə və yazını qələmə almaq qərarına gəldim. Dəyərli qələm əhli, hörmətli internet oxucuları, siz də mənimlə razılaşarsınız ki, televiziya aparıcılarının çox qisminin ədəbi dilimizə necə divan tutduğunun hər gün şahidi oluruq.

Biz bu gün ədəbi dilimizin inkişafında danılmaz xidmətləri olmuş yaşlı televiziya, radio diktorlarımızı minnətdarlıq hissilə yad edirik. Onların ruhumuzu oxşayan səsi, heç bir ləhcə içində itib-batmayan təmiz, saf ədəbi dilimizdən qaynaqlanmış danışıq qabiliyyətləri ürəyimizin içində özlərinə yer edib və əziz bir xatirə kimi yaşayır. Gəlin onların adların sadalayıb iftixarla yada salaq.

Aydın Qaradağlı, Sabutay Quliyev, Valid Sənani, Ofeliya Sənani, Rafiq Hüseynov, Natəvan Hacıyeva, Roza Tağıyeva, Hicran Hüseynov, Sabir Ələsgərov, Şərqiyyə Hüseynova, Həqiqət Əsgərzadə, Dilsuz Mustafayev, Gülşən Əkbərova və başqaları.

Bu insanlar efirə çıxan zaman hər hansı verilişə və yaxud xəbərlərə aparıcılıq edərkən biz heç vaxt ayırd edə bilməzdik ki, onlar Azərbaycanın hansı bölgəsindən, hansı məkanındandırlar. Əksinə, onların nitqindən ədəbi dilimizin gözəlliklərini mənimsəyirdik, çalışırdıq ki, cəmiyyət içinə çıxanda biz də onlar kimi ədəbi dilimizdə danışmağı bacaraq.

Bu gün Azərbaycan radio və televiziya məkanında gənc aparıcı vətəndaşların dilimizə hansı pisliklər etdiyi sözlə deyiləsi, yazılası deyil. Bəs hanı Aydın Qaradağlı, Rafiq Hüseynov və o nəsil aparıcılar məktəbi? Niyə televiziya kanalları o nəsil aparıcıların ənənəsini davam etdirmir? Nə baş verir? Bəlkə doğrudan da bizə ədəbi dil lazım deyil? Efirdən addımbaşı sözlərin və şəkilçilərin yanlış tələffüzü eşidilir. Məsələn: Uşaq-uşax, qalaq-qalax, olaq-olax kimi... Bildiyimiz kimi ədəbi dilimizdə "q" səsi "ğ" səsi, "x" səsi "h" səsi ilə əvəz oluna bilər. Yəni uşaq yazılır, uşağ kimi eşidilir. Düzgün tələffüz olunmayan söz və söz birləşmələrinin, ən nəhayət,

şəkilçilərin ədəbi dilimizdə nə fəsadlar törətdiyi göz qabağındadır. Əgər ləhcə danışığını biz televiziya kanallarına çıxartsaq, ədəbi dil dediyimiz məfhum kimə və nəyə lazımdır? Onda qoy hər kəs öz ləhcəsində yazmağa və danışmağa başlasın. Ləhcələrə gəldikdə isə bir kənd bir neçə tayfanın, nəslin birliyindən yaranır. Hər tayfanın da özünəməxsus danışıq xüsusiyyətləri olur, hətta bir kəndin içində fərqli ləhcələri tutmaq mümkündür. Elə ona görə də hörmətli dilçilik üzrə alimlərimiz ədəbi dilin formalaşmasına qərar verdilər. Bəs bu gün nə baş verir ki, ədəbi dilimizə belə biganə yanaşmalar telekanallarda baş alıb gedir?!

Gəlin indiki aparıcıların çoxunun hər hansı bir ölüm xəbərini insanlara necə çatdırmasının təhlilini aparaq. Filankəs cəbhə xəttində, maşın qəzasında, suda və yanğında öldü və yaxud vəfat etdi. Əvvəla, hörmətli aparıcı xanım və bəylər, cəbhə xəttində hər hansı ölüm istər mülkü vətəndaş, istərsə əsgər olsun, düşmən gülləsinə tuş gəlirsə ona deyirlər ki, şəhid oldu. Avtomobil, helikopter, təyyarə, yanğın qəzası zamanı dünyasını dəyişənlərə deyərlər ki, həlak oldu, suda dünyasını dəyişənlərə deyərlər, dənizdə, çayda, göldə batdı, boğuldu. Hər hansı xəstəlikdən dünyasını dəyişənlərə deyərlər ki, vəfat etdi. Öldü ifadəsini it, pişik, hər hansı heyvanla bağlı məlumat verəndə deyərlər. Hətta hər hansı məişətdə saxladığımız heyvanlar kütləvi şəkildə öləndə, ona da heç öldü demirlər, deyirlər ki, tələf oldu.

Aparıcıların mikrofon, səs gücləndirici ola-ola efirdə qışqıra-qışqıpa danışması, sözləri tökə-tökə, tələsə-tələsə tələffüz etməsi, öz doğulduğu yerin, məkanın ləhcəsini televiziya məkanında nümayiş etdirməsi və sair. Görəsən, bütün bunlara nə zaman, son qoyulacaq? Bəs görəsən, onlara rəhbərlik edən başçılar, rəhbərliklər bu barədə nə düşünürlər?

Hələ mən keçmiş SSRİ-nin hegemon dili olan rus dilinin dilimizin ətəyindən tutub buraxmamasını demirəm. Aparıcıların bu dilin yaddaşımızda kök salmış uje, koroçi, net, obşim sözlərini sevə-sevə işlətməsi də ki, öz yerində.

Hörmətli, şərafətli aparıcı əhli qoy məndən inciməsin, mən heç kəsin qazancına, işinə, peşəsinə mane olmaq istəmirəm. Sadəcə, bir dinləyici, tamaşaçı, seyrçi kimi istəyim odur ki, ədəbi dil dediyimiz məfhumun dil alimlərimiz tərəfindən tərtib olunmuş qayda-qanunlarına əməl etsinlər. Bu nə söz azadlığının pozulması, nə də kiminsə hüquqlarının tapdanması kimi başa düşülməməlidir. Orta və ali məktəblərimizdə ədəbi dilimizin

incəliklərilə tanış olan, bədii kitablar oxuyan, mütaliəsi bol olan insan təbii ki, aparıcılıq zamanı söz qıtlığı ilə üzləşməz. Əksinə, ədəbi dilimizi bizə şərbət kimi daddırar, könlümüzü, ruhumuzu şad edər. Çox təəssüf hissilə qeyd etmək yerinə düşər ki, axır illər biz belə insanlarla tele-məkanlarda təsadüfən rastlaşırıq. Bəs bu nəyin, bəlkə pis təhsilin və ya özünə məsuliyyətsiz yanaşmanın nəticəsidir? Bilmirəm. Bir onu bilirəm ki, Azərbaycan telekanallarında səhərdən axşama, axşamdan səhərə qədər ləhcə yarışması gedir. Mən hələ mənəviyyatımızı heçə-puça endirən şou xatirinə səviyyəsiz verilişlərin efirdə tüğyan etməsini demirəm. Bununla teleməkana tamaşaçı cəlb etmək olmaz. Siz də mənimlə razılaşarsınız ki, indi səviyyəli, savadlı, məlumatlı tamaşaçı, ya dilini bildiyi başqa ölkələrin telekanallarına üz tutur, ya da ki, virtual aləmə, yəni internet aləminə. Azərbaycan efiri isə gündən-günə öz tamaşaçısını itirməklə məşğuldur.

Mən telekanallar barədə dərdlərimizin bir parasını möhtərəm qələm əhlinin və oxucuların nəzər-diqqətinə yetirdim. Allah elə eləsin ki, tele-kanallarda baş alıb gedən acınacaqlı vəziyyət düzəlsin və mən bir də bu mövzuya qayıtmayım. Tanrı sizlərə yar olsun, ey Vətən əhli, ey məni duyanlar və duymayanlar, mənə haqq qazandıranlar və qazandırmayanlar, hələlik deyirəm sizlərə, hələlik…

15.12.2012

HƏQİQƏT NƏ QƏDƏR ACI OLSA DA...

Türk dünyası ilə bağlı, ələlxüsus son vaxtlar türklüyümüzün qürur ocağı olan Türkiyə ilə əlaqəli baş verən hadisələr digər türk yazarlar kimi mənim də ürəyimi yerindən oynatdı. Fransa dövlətinin Türkiyəyə qarşı, bütünlükdə türklərə tuşlanmış məlum qərarına rəğmən bu ürəkağrıdıcı haqsızlıqla bağlı fikirlərimi qələmə almaq xəyalına düşdüm. Əlbəttə ki, bir siyasi icmalçı kimi yox, bir yazar kimi…

İndi çox şairlərimiz öz yazılarında türk dünyasının parlaq keçmişini vəsf edirlər. Bununla mən razıyam, bəli, türk dünyasının keçmişi parlaq idi. Bəzi-bəzi yazarlarımız bu parlaq keçmişə uyaraq, artıq XXI əsri türk əsri elan edirlər.

Baxaq, müasir türk dünyası hansı dövlətlərdən ibarətdir və türk dünyasını nə gözləyə bilər? Ən böyük və güclü olan dövlət türk dünyasında Türkiyədir. Türkiyə Sovetlər Birliyi dağılmayana qədər yeganə müstəqil

türk dövləti idi. Sovet Rusiya İmperiyası dağılandan sonra Şimali Azərbaycan, Türkmənistan, Özbəkistan, Qazaxıstan, Qırğızıstan kimi müstəqil dövlətlər yarandılar. Müasir zamanda bu türk dövlətləri əsas türk dünyasını təşkil edirlər. Habelə İran dövlətində çoxsaylı cənubi Azərbaycan türk icması, Rusiya dövlətində Tatarıstan, Başqırdıstan, kiçik Sibir türk xalqları, Ukrayna dövlətində Krım tatarları, Moldovada Qaqauzlar yaşayırlar. Əksər türk xalqları islam inancında olduğu üçün İslam dünyasının problemləri, demək olar ki, türk ölkələrinin də problemi hesab olunur.

Rus Sovet İmperiyası dağılandan sonra, demək olar ki, hər təzə bir ölkədə metropoliya problem yaratdı və onlar tüstülənir. Nə vaxt isə onlardan böyük yanğın əmələ gələ bilər. Məsələn, Moldovada Dnestrətrafı rus qondarma respublikası, Gürcüstanda Abxaziya və Cənubi Osetiya, hansı ki, ruslar artıq öz bölgələrinə döndəriblər. Azərbaycanda Dağlıq Qarabağ rusların köməyilə haylar tərəfindən işğal olunmuş bölgə, Qazaxıstanda 49% əhali ruslardır, Qırğızıstanda və Özbəkistanda gərginlik rusların əlindədir, Türkmənistanın qaz kəmərləri olmadığına görə ucuz qiymətə qaz satmaq məcburiyyətindədir. Türkiyə neçə vaxtdır rusların yaratdığı və silahlandırdığı PKK-ya qarşı hərbi əməliyyatlar aparır və bu qarşıdurma neçə illərdir davam edir. Əslində kürd əsilli vətəndaşlar Türk dövlətinə qarşı terror əməlləri törədirlər və öz dövlətlərinə xain çıxırlar. Bu nə vaxta qədər davam edəcək, bilinmir. İraqda Kərkük elləri – türkmənlər böyük təzyiq altındadırlar. Demək olar ki, hər an terror basqılarıyla üzüzədirlər. Bütün bu sadaladıqlarımdan görünür ki, XXI əsr o vaxt türk əsri ola bilər ki, Azərbaycanın futbol komandası dünya çempionu olsun. Yəni Azərbaycanın futbolda dünya çempionu olmağı necə çətin görünürsə, XXI əsrin türk əsri olması da o dərəcədə çətindir.

İndi türk dünyası, nəinki dünyanın lideridir, hətta onlar üçün öz torpaqlarını əllərində saxlamaq böyük problemlərə çevrilib. Müasir dünya orta əsr dünyasından çox-çox fərqlidir. Necə ki, yer göydən fərqlidir, amma bir gerçək qalır, hansı ki, hər zaman işlənib və işlənəcək. Bu güc faktorudur. İstəyirsən səninlə hesablaşsınlar – GÜCLÜ OL! Bəs indiki zamanda necə güclü olmaq olar? Kim indi güclüdür? Böyük rus filosofu Berdyaev demişdir: "Xalq kəmiyyət deyil – keyfiyyətdir".

Bəs keyfiyyətli xalq olmaq üçün nə etmək lazımdır? Keyfiyyətin açarı hər xalqın özündə gizlənib. Müasir dünyaya baxsaq görərik ki, ən güclü dövlətlər elmi cəhətdən inkişaf etmiş ölkələrdir. Və o ölkələrdə orta sa-

vad çox yüksək dərəcədədir. Gəlin müsəlman ölkələrinə diqqət edək. Biz elə müsəlman ölkəsi tapmarıq ki, inkişaf etmiş ölkələrlə elmi cəhətdən rəqib ola bilsin. Şübhəsiz ki, müsəlman ölkələrindən də istedadlı alimlər çıxır, amma onlar öz istedadlarını inkişaf etdirmək və yaşatmaq üçün ya Avropada, ya da ABŞ-da tədqiqat institutlarında çalışırlar. Bu zəngin ölkələri daha da zənginləşdirirlər. Vaxt ötdükcə özləri də avropalaşırlar, amerikanlaşırlar, ola bilsin ki, hətta dinlərini də dəyişirlər.

Əsl təhsil ucuz başa gəlmir, böyük pullar tələb edir. Müsəlman ölkələrinə təbii sərvətlər baxımdan Allah imkan verib, çox müsəlman ölkələr neftlə zəngindirlər. Çox müsəlman ölkələr maliyyə ilə artıqlamasıyla təmin olunublar, ancaq heç bir müsəlman ölkəsini qabaqcıl Avropa ölkəsi ilə və yaxud ABŞ-la elmi cəhətdən müqayisə etmək olmaz. Belə ki, müsəlman ölkələri maliyyələrini gözəl sarayların, şəhərlərin, avtomobil yollarının tikilməsinə, habelə qızıl, zinət, bahalı avtomobillərin alınmasına və sair xərcləyirlər. Bəlkə bu sərvətlər də onların ən böyük cəzasıdır ki, bu sərvətlərə arxayın olub elmə baş işlətmirlər. Neftlə zəngin müsəlman ölkələrinin rəhbərləri başa düşməlidirlər ki, heç nə daimi deyil. Neft də, qaz da, pul da tükənər və inşa olunmuş çoxmərtəbəli hündür binaları vaxt gələr ki, istismar etməyə heç pul da tapılmaz və bu ölkələrin kasıb əhalisi daha da kasıblaşıb müflisləşər. Milyonları yığanlar da hansı isə Avropa ölkəsinə köçüb gedəcək. Bizim bir xalq şairi yazan kimi – harda sənə yaxşıdır, ora Vətəndir. Vəziyyət o dərəcəyə gəlib çıxa bilər ki, nəinki sərhədləri qorumaqda aciz qalarıq, hətta ölkə əhalisiz qalar və dünya xəritəsindən silinə bilər.

Beləliklə, Azərbaycan üçün neftdən gələn gəlirləri təhsilə qoymaq hələ gec deyil. Axır vaxtlar ali məktəbləri bitirən diplom sahiblərinin sayı xeyli artıb, ancaq savadlıların sayı xeyli azalıb. Biz əgər istəyiriksə dünya iqtisadiyyatına inteqrasiya olunaq, onda iqtisadiyyatın hansısa bir hissəsində texnologiya üzrə elm sahibi olmalıyıq. Başqa ölkələrin də marağı olsun ki, bizim ölkədə icad olunmuş texnologiya patentini bizdən pul ilə alsınlar.

Türk dünyasının zəifliyi göz önündədir. Bunu bu yaxınlarda Fransa açıq-aşkar çıxartdığı qərarla bütün dünyaya bəyan etdi. Onların parlamenti, senatı və prezidenti ermənilərin yalançı "genosid-soyqırım" məsələsini qəbul etdilər və ölkədə kim onlarla razılaşmasa 45 min avro cərimə edəcəklərini rəsmiləşdirdilər. Əgər Fransanın Türkiyəyə və yaxud türk dünyasına ehtiyacı olsaydı, yəqin ki, belə biabırçı qanun qəbul etməzdilər.

Orda nə insan hüquqlarına, nə fikir azadlığına, nə də söz azadlığına riayət etmədilər. Bu necə ola bilər ki, Fransada Rəbbi tanımamaq olar, ona deyirlər "vicdan azadlığı" onun üçün sənə heç nə olmaz, amma qondarma "erməni soyqırım"ı tanımasan (çox güman ki, bu qanun orda yaşayan türk əsillilərə qarşı düşünülmüş bir qanundur) səni böyük məbləğdə cərimə gözləyir, deməli, qondarma erməni genosidi Rəbbin varlığından üstündür? Bütün bu baş verənlərdən nəticə çıxarmaq lazımdır ki, demokratiya, söz və fikir azadlığı, ancaq hegemon ölkələrə aiddir. Hegemon dövlətlər hesablaşmaq istəmədikləri ölkələrlə hər nə ağıllarına gəldi törədə bilərlər… Onda belə nəticəyə gəlmək olar ki, bizim sağ qalmağımız, yaşamağımız, ölkəmizin dünya xəritəsində qalması onların, yəni hegemonların mərhəmətindən asılıdır! Ölkəmiz Azərbaycan müstəqil ölkə sayılır, amma onun 20% torpağını, bizim torpaqlarımızın hesabına yaranmış Ermənistan, Rusiyanın köməyilə, zəbt edib və bizi məcbur edirlər ki, ermənilərlə – bizim torpağımızı ələ keçirən işğalçıyla sülh yolu ilə məsələni həll edək. Bu lap rus şairi Krılovun təmsilinə oxşayır. Vaska pişik xamanı oğurlayıb və qalxıb bir əlçatmayan yerə, yiyəsi bunu görəndə başlayıb onu utandırmağa ki, bəs oğurluq yaxşı iş deyil, ancaq pişik, yiyəsinə qulaq asa-asa yeməyə davam eləyib.

Hər vaxt Azərbaycan tərəfindən məsələ qalxanda ki, bəs bizim torpaqlarımızı hərb yolu ilə almaq hüququmuz var, o saat Azərbaycana qarşı həm Amerikadan, həm Avropadan, həm də Rusiyadan barmaq silkələyirlər. Rusların prezidenti Medvedev açıq-aşkar deyir ki, "biz Gürcüstanla neylədik onu xatırlayın, sizi ondan da pis günə salarıq". Bu da çılpaqlığı ilə göstərir ki, azadlıq da, müstəqillik də, ancaq bir neçə güclü ölkələrə aiddir, amma bizim bəzi-bəzi gənc azərbaycanlılarımız avropalılaşmaq üçün, hətta öz dinindən keçməyə hazırdır, bəziləri təzə peyğəmbərlər yaradır, bəziləri isə xristianların yaxşı-pis bütün hərəkətlərinə pərəstiş edir və bizim bugünkü vəziyyətimizin günahını müsəlmançılıqda görürlər. Bu dar düşüncədir. Anlamaq istəmirlər ki, din təkcə inanc yeri yox, həm də hər bir millətin həyat tərzidir, bütünlükdə onun tarixidir, mənəvi aləmidir. Bizim geriliyimizin səbəbi dində yox, elmə fikir verməməyimizdə, daha doğrusu, kobud şəkildə desək – elmsizliyimizdə və yaxud elmə dırnaqarası baxmağımızdadır.

İndiki İran-ABŞ münaqişəsi niyə yaranıb? İran nüvə fizikası elminə yiyələnib, hansı ki, böyük xaçpərəst ölkələr sayır bu ancaq onlara aiddir, bu elmi ancaq onlar inkişaf etdirə bilərlər.

Bu da belə, ey XXI əsri "türk əsri" elan edən əziz şairimiz, yekun ondadır ki, indiki zamanda türk xalqları rus atalar məsələndə deyildiyi kimi, "fikri yağlanmağa yox, sağ qalmağa yönəltməlidir". Sonda onu demək istəyirəm ki, əziz türk əsillilər, biz yer kürəsində sağ qalmaq istəyiriksə, azad və müstəqil fikir sahibi olmaq istəyiriksə, onda sayımızı yox, elmimizi artırmalıyıq. Elmli millətlər güclüdür. HAQLI OLMAQ İSTƏYİRSƏNSƏ, GÜCLÜ OL! GÜCLÜ OL!..

29-31.01.2012

ÜRƏYİN HÖKMÜYLƏ YAZILAN MƏKTUB

(*"Xalq yazıçı"sı Əkrəm Əylisliyə)*

Öncədən sizin diqqətinizə yetirim ki, mən şair-publisist Şirinxanım Ağabala qızı Kərimbəyli (ŞADİMAN) heç bir siyasi partiyanın üzvü deyiləm, heç bir təmtəraqlı atributların daşıyıcısı deyiləm, bu yerə qədər yazdığım və çap etdirdiyim yazılarıma görə heç bir yerdən qonorar almamışam və buna da ehtiyac duymuram, çünki vaxtında özümə, necə deyərlər, gün ağladım ki, qələmdən asılı olmayım. Nəyi istəyirlər yox, nəyi istəyirəm onu yazım. Mənim sizinlə tanışlığım siz "Yazıçı" nəşriyyatında rəhbər işlədiyiniz 1992-ci ilə təsadüf edir. Mənə dedilər ki, sizə kitabımın çapı üçün müraciət edim, özümü tematik plana saldırım. Sizinlə mənim aramda bir dəqiqə söhbət oldu, özümü təqdim edib dedim ki, kitab çapı üçün müraciət etmişəm.

Dediniz: Nədir, şeir, ya nəsr?

Dedim: Şeir.

Dediz: Bizə şeir-meir lazım deyil.

O vaxt mən həyəcanla qapını örtüb çıxdım. O zaman indi tarixə çevrilib. Açığını etiraf edim ki, mən sizin, ancaq bir kitabınızı oxumuşam. Haçansa bir əsəriniz əlimə keçmişdi "Gilənar çiçəyinin dedikləri..." Siz Azərbaycan ədəbiyyatında öz yeri, dəst-xətti olan yazıçısız. Özü də tələbkar, özünü daim gündəmdə saxlamağı bacaran kifayət qədər tanınmış yazıçı…

Sizin "Daş yuxular" əsəriniz bu günlər ölkədə böyük səs-küyə səbəb olub. Bu reklam baxımından sizin xeyrinizədir, çünki hamı çalışacaq ki, bu kitabı alıb oxusun, amma vətəndaşlıq baxımından biabırçılıqdır.

Bilirsiz nəyə əsaslanıb bunu yazıram, "Kulis.az" da gedən müsahibənizə və "Dayaq"da yayımlanan əsərinizin qısa məzmununa görə…

Əvvəla, müsahibənizdə siz öz əsərinizi Lev Tolstoyun "Hacı Murad" əsəri ilə müqayisə edirsiz, guya hər iki əsərdə müəlliflərin xalqı tənqid olunur, ancaq unudursuz ki, Lev Tolstoy öz xalqına qarşı çıxmırdı. O, Rus İmperiyasının kiçik xalqlara qarşı siyasətini pisləyirdi. Ona görə yazırdı ki, haqsız zülmlər çeçen xalqına o qədər çox olub ki, çeçenlər rus obrazını murdar siçovulla bərabər tutmalı olub. Necə siçovulu görəndə öldürmək lazımdır, eləcə də harada rusu gördün onu öldür, amma siz öz əsərinizdə Azərbaycan xalqına qarşı rus-erməni imperiya təcavüzünü dəstəkləyirsiz. Lev Tolstoy rəhmətlik böyük bir imperiyanın – Rusiyanın dost-doğmaca övladı idi. O, Rus İmperiyasının azsaylı xalqların başına gətirdiyi vəhşətləri görüb, duyub, anlayıb bu əsəri yazmışdı və öz bəşəriliyini aləmə elan etmişdi. Hacı Muradın Şeyx Şamillə arası dəyir və rusların tərəfinə keçir. O, başa düşür ki, Şeyx Şamil kimi düşmən rus dostdan yaxşıdır. O, elə ruslar tərəfindən də qətlə yetirilir, çünki çeçenlər kimi yüzlərlə azsaylı xalqlar rus zülmü altında inləyirdi… hətta əsərdə qanqal misal gətirilir, o at arabası altında əzilir, yenidən dikəlir, boy atır və yaşayır. O, çeçen xalqını o qanqalla müqayisə edir. Çeçenlərin timsalında bütün əzilən xalqları. O əzilən xalqlardan biri də biz idik.

Sizin əsərinizin qısa məzmunu ilə tanış oldum, yazdığınızdan belə çıxır ki, erməni deyilən məxluqu biz illərdi, əzib tapdalamışıq, onlar bizi yox, biz onları qırmışıq. Siz, yəqin ki, tarixdən bilməmiş deyilsiz ki, bu ermənilər kimdi? Ermənilər (Çox güman ki, xristian türk boyu olan qıpçaqların toplumu) Rus imperiyası tərəfindən Qafqaza gətirilib yerləşdirilmiş hayların (haylar-əsli smit tayfalarından biri, onların heç farslarla da qohumluğu yoxdur) əlində oyuncaq, 300 ilə yaxındır ki, öz soyuna, kökünə, dilinə xain çıxmış bir qövm, gəlmə haylarla birləşib cənubu Qafqazda, Güney Azərbaycanında və Türkiyədə yaşayan müsəlman əhalinin qanını axıdan iradəsiz bir kütlə. Başqa millətlərin, əsasən də rusların və hayların dediyi ilə çalıb oynayan satqın bir tayfa! Siz isə onları yazıq, bədbəxt, çarəsiz biri kimi qələmə verirsiz. Sizin dediyiniz o xristian məbədlər həm də bizə aiddir, bizim müsəlmançılıqdan öncə tariximizdir. Siz İrəvan azərbaycanlılarından yazır və onları qaniçən kimi qələmə verirsiz, bəs siz Spitakda borulara pərçimlənib qaynaq edilmiş soydaşlarımızdan, o tifil balalardan niyə yazmadız? Bəs siz Sumqayıtda xəstəxanada Ermənistandan

qaçıb canını qurtarmış, namusları tapdalanmış, uşaqlıq yollarına boş butulkalar yeridilmiş qadınlarımızdan və palatada döşək ağı ilə özünü boğmuş o bədbəxt analardan niyə yazmadınız? Yəni bu qədər faciələrin fonunda heç bir ermənin burnu qanamayaydı? Axı bu faciələri onlar özləri başlamışdı. O faciələr hələ də davam edir.

Yeri gəlmişkən, İ.Nyutonun üçüncü qanununu sizə xatırlatmaq istəyirəm: "Təsir əks təsirə bərabərdir".

Etiraf edirəm ki, mənim uşaq vaxtdan Rus İmperiyasına nifrətim var, hətta universitetdə 3-cü kursda məni Moskvaya təcrübəyə göndərmək istədilər, mən getmədim. Nəyə görə? Həmin söylədiyim nifrətə görə… Bilirsiniz, o nifrət nədən qaynaqlanır? Onların I Pyotrdan üzü bəri bizim başımıza gətirdikləri vəhşətlərdən… Siz bu əsəri ilk dəfə rus dilində mətbuata çıxardız və Rusiyanın ədəbiyyat jurnalı olan "Drujba narodov"da (№ 12, 2012) çap etdirdiniz. Mən bilmirəm M.Qorki adına İnstitutu qurtaran insanlarımız nə ilə fəxr edir? O, Sovet İmperiyasının bir təbliğat ocağı idi ki, yazıçı olmaq istəyənləri aparıb rus ruhunda, rus düşüncəsində yetişdirsinlər. O yazarlar sonra ömrü boyu Rus-Sovet İmperiyasına xidmət etsinlər. Gəlin etiraf edək ki, çoxları da bu təbliğat maşınının təsiri altına düşürdü, az qisim yazar insanlarımızı çıxmaq şərti ilə…

Mən sizə 1975-ci ildə Bakıda Volodarski tikiş fabrikində işləyən bir qarabağlı erməni qadının fikirlərini çatdırmaq istəyirəm. Mən iki il o illərdə həmin fabrikdə çalışmışam. O, qonşu tikiş maşınında işləyən hay kökənli Raya ilə yola getmirdi. Hər gün dava edirdilər. İkisi də xaçpərəst, biri hay, biri Qarabağ ermənisi. Bir gün Qarabağ ermənisi Gülçöhrə tikiş stolunun üstünə çıxıb başladı bərkdən-bərkdən bu sözləri söyləməyə… "Biz neçə əsrdi bu gorbagor hayların əlində əsirik, onlar bizim hər şeyimizi, kilsələrimizi, əlifbamızı, tariximizi əlinə keçirib, qızlarımızı da alıb aparırlar Ermənistana, 5-6 aydan sonra qaytarırlar üstümüzə və deyirlər ki, siz türkün artığısız. Biz sizə də, türklərə necə nifrət etdiyimiz kimi nifrət bəsləyirik. Bizə sizlərsiz Qafqaz lazımdı. Biz rus qardaşlarımızın yardımı ilə sizlərin Qafqazda kökünüzü kəsəcəyik.

HAYLAR BİZİ QANI, KÖKÜ BİR QARDAŞLARIMIZDAN, SOY-KÖKÜMÜZDƏN AYIRIB".

Xristian Qarabağ ermənisi Gülçöhrə bu sözləri 1975-ci ildə heç kəsdən qorxmadan, çəkinmədən hönkürtüylə deyirdi. Sonra tikiş fabrikinin partiya rəhbərinə xəbər çatdı. Onu düz bir həftə işə buraxmadılar və işə qayıdanda

ayrı sexə keçirdilər. Yəni hay Rayadan onu ayırdılar. Əgər siz əsərinizi bir qövmün iki yerə parçalanmasından, xristian-müsəlman qarşıdurmasının gətirdiyi faciələri qələmə alsaydız, bu həm xristian qarabağlıların, həm müsəlman qarabağlıların yaralarının nisbətən müalicəsinə kömək edərdi, amma sizin "Daş yuxular" birtərəfli yazılmış əsərdir. Öz millətinə nifrət, öz millətini aşağılamaq, onu qaniçən, aşağı səviyyəli qövm kimi qələmə vermək…

Siz sünnət barədə yazırsız. Nəzərinizə yetirim ki, tibbi baxımdan sünnət bütün kişi cinsindən olanlara xeyirlidir. Siz Rusiya verilişlərini izləyirsizsə, onların həkimləri də bunun xeyirindən gen-bol danışırlar. Öz qulaqlarımla, gözlərimlə bu verilişlərdən birinin şahidi olmuşam. Yəni sünnətli kişilər daha az infeksion xəstəliklərə düçar olurlar. Bununla siz müsəlmançılığı aşağılayıb bu yaşından sonra kim olmaq istəyirsiz?

Onu da sizin diqqətinizə yetirim ki, siz tək deyilsiniz, bizim millətin kökünə, soyuna, tarixinə, mənliyinə, ləyaqətinə hücum edənlərin indi ölkəmizdə sayı artıb, necə deyərlər, "sapı özümüzdən olan baltalar" fəaliyyətə keçib. Bunların arasında sapı köhnə və təzə baltalar var. Biri Şah İsmayıl Xətaini yamanlayır, onu şiəçilikdə günahlandırır, amma şair Xətainin şipşirin türkcədə yazdığı, yaratdığı əsərlər unudulur. O öz şahlığı dövründə türk dilini hansı səviyyəyə qaldırıb, bu unudulur. Muğamatımıza, müsəlmançılığımıza, bir sözlə, əskidən nəyimiz var hər şeyimizə hücum edirlər. AYB-nin Güney Azərbaycan üzrə rəhbəri Sayman Aruzun sözlərini Mahirə Abdulla qəribçiliyə salmasın. Mən də Sayman Aruzla razıyam ki, istər Azərbaycanın Quzeyində, istər Güneyində həmvətənlərimizdən olan elə qüvvələr var ki, fars və rus imperiya düşüncə sahiblərilə həmfikirdirlər. Onlar paraya öz millətinin ləyaqətini ayaqlar altına atanlardır! Bizim Quzey Azərbaycanında isə bizə hələ 200 il lazımdır ki, rus düşüncəsindən xilas olub müstəqil düşünmək qabiliyyətinə nail olaq. Bizim yaşlı nəslin əksəriyyəti hələ də sovetsayağı hisslərin təsiri altındadır…

Bu gün bizim yaşadığımız ölkədə "xalq yazıçısı", "xalq şairi" titulu artıq dəbdən düşüb. İndi bizim bəzi-bəzi yazarlarımız bundan artıq titullara sahib olmaq istəyirlər. Bu təbiidir. Hər bir yazarın halal haqqıdır. Amma gəlin baxaq bu saat bizim zəmanəmizdə dəbdə olan Bakıdan Nobel qardaşlarının vaxtilə bizim neftin hesabına təsis etdikləri "Nobel" mükafatı əsasən kimlərə şamil edilir? Bu mükafat xristian kökənli adamlara və xristianlığa can-dildən pərəstiş edən, xaçpərəst dövlətlərin qrantları ilə özünə həyat quran bəzi qeyri-xristian kəslərə…

23 ildi torpaqlarımız işğal altındadı, biz bir qrup qadınlar Quzanlıda 9 yaşlı Fariz Bədəlovu ermənilər snayper tüfənginə tuş edəndən sonra faciə baş verən kəndə, körpə şəhid balamızın ailəsinə başsağlığına getdik, o kənd evləri erməni güllələrindən dəlik-deşikdi, insanlar gündüz evlərindən çölə sürünə-sürünə çıxırlar. Yəni işğal davam edir…

Mənə elə gəlir ki, sizin tutduğunuz yanlış yolun qayəsi xristian birliklərdən qaynaqlanır, onlar nəyin bahasına olursa olsun, demokratiya, söz azadlığı adı altında işğal olunmuş torpaqları bizim yaddaşımızdan silmək istəyirlər. Dünyada ən güclü silah QƏLƏMDİR! Bəli, o silahdan açılan qurğuşunlardan da güclüdür. Bu gün siz Rusiyada "Drujba narodov" jurnalında çap etdirdiyiniz "Daş yuxular" ilə neçə əsr milliyyətindən asılı olmayaraq müsəlman əhalinin qanına yerikləmiş hayları sevindirdiz. İndi Ermənistanda (Hayıstanda) uşaqdan böyüyə hamı sevinir. Əkrəm müəllim, bəşəri yazıçılar belə yazmırlar, onlar heç vaxt öz millətlərini başqa xalqın ayağına vermirlər. Öz millətini tapdalayanlara özünüz söyləyin nə ad vermək olar?!.

01.02.2013

VƏTƏN HAMIYA TƏN GƏRƏK…

Avtobusla yaşadığım Pirallahıdan şəhərə gedirdim. Təsadüfən qonşu oturacaqda uşaq bağçasında musiqi müəlliməsi işləyən bir xanımla yol yoldaşı oldum. Müəllimə öncə yolun uzaqlığından, əvvəllər "Qazel" tipli marşrutların fəaliyyətindən və 60 km yolu 40 dəqiqəyə qət etməsindən, 150 saylı marşrutun xəttə buraxılmasından, adamların basabasla, saat yarıma əziyyətlə getməsindən ağızdolusu bəhs etdi, sonra aldığı aylıq məvacibin azlığından gileylənərək sözünə davam etdi: "Mən 23 il bağçada musiqi müəlliməsi işləyirəm. Əvvəllər Neft Şirkətinə baxırdıq, aylıq məvacib 190 manat idi, indi isə bizi ordan xaric ediblər, 90 manat maaş alıram. Hamı müəllimləri, həkimləri pisləyir, amma aldığımız aylıq məvacibin fərqində olan yoxdu. Bu pulla necə yaşayasan? Heç mənzil xidmətlərini ödəməyə yetmir. Həyat yoldaşım isə 250 manat maaş alır, 3 uşağımız var, bilmirik necə yaşayaq. Vallah, billah, çətinlik içindəyik. Niyə bu büdcədən maliyyələşən qurumları bir fikirləşən yoxdu? Bunun bir sonu olacaqmı?"

Qadın danışdıqca mən günahkar-günahkar ona qulaq asırdım, sanki bu çatışmazlıqların səbəbkarı elə mən özüm idim. O, sözünə davam edib

deyirdi: “Dükanlara bahaçılıqdan girmək olmur, uşaqlarım qarnıdolusu çörək yemir. Bir gün kiçik qızım mənə nə desə yaxşıdır: “Ana, sənin ali təhsilinin bizə nə xeyri? Nə vaxta qədər biz yarıac yaşayacağıq, incimə, ana, ac adamın qızını heç alan da tapılmır, qalır atasının evində, un çuvalına tay olur…” Düzü, uşağın sözü məni yaman tutdu. Qəhər məni boğdu, gözlərim doldu… Dedim: Neyləyim, qızım, gedim xadimə işləyim? Heç süpürgəçiliyi də indi tapmaq olmur”.

Yeri gəlmişkən, süpürgəçi dedim yadıma düşdü, getmişdim mənzil haqqını ödəməyə, fürsətdən istifadə edib, küçəmizdəki zibilxananın aşıb-daşmasından gileyləndim. Dedilər ki, gördüyündən də beşbetər olacaq, çünki bizdə adamları işdən çıxarma əməliyyatı gedir. İşçilərin sayını azaldırlar, maaşlarını da kəsiblər. 110 manat maaş alırıq, onu da bizə çox görüblər. İşsizliyə əlac etməkdən, əksinə, ölkədə işsizlərin sayın artırırlar. Yol yoldaşım yana-yana sözünə davam edirdi: “Yaxşı ki, 3 qızım var, bir dənə buna sevinirəm. Bəlkə bəxtləri oldu kiməsə ərə getdilər. Əgər oğlan olsaydılar birinci onların əsgərliyini fikirləşəcəkdim. Dondurulmuş müharibə, tez-tez cəbhədən əsgər intiharlarıyla bağlı xəbərlər gəlir. Görəsən, torpağı işğal altında olan ölkənin əsgəri niyə intihar edir? Niyə bizim içdən və çöldən dövlətçiliyimizə qəsd edirlər? Nə baş verir? Bizim əsgərlərimizə indi elə baxmalıdırlar ki, onların ayaqlarını basdığı yerdən od çıxsın, amma bizdə əksinə, əsgərlər intihar edir, hərbidə xoşagəlməz hallar hər gün qulaqlarımızı dəlir. Camaat yarıac, yarıtox oğul bəsləyir, onun da aqibəti sonda belə olur. Yenə düşmən gülləsinə tuş gəlsə deyərsən ki, Vətən yolunda şəhid olub… Qayınanam pensiyaçıdır, yanvardan pensiyasını 80 qəpik artırıblar”.

Müəllimə ürəyini bir xeyli boşaldandan sonra üzünü mənə çevirib dedi:

“Eh, siz neyləyəsiz e… Sizi də bayaqdan mənfi emosiyalarla yükləyirəm, bağışlayın, siz Allah…

Bağça müəlliməsi əsl ziyalı düşüncəsi ilə çulğanmış qadın idi. Onun yana-yana söylədiklərini bir xeyli dinlədim. Düzü, adamın ürəyinin partlamağı gəlirdi, çünki bu müəllimə bağçada işləyirdi. Millətin sabahı, gələcəyi bağçadan başlayır, əgər bağça müəlliməsinin üzü gülmürsə, ürəyi çətinliklər burulğanında çırpınırsa, bir qarın çörəyin həsrətini çəkirsə, bəs onun tərbiyə verdiyi körpələr hansı mənəvi qidanı alacaqlar? Deməli, rüşvət bağçalardan başlayır. Rüşvətin kökünü kəsmək üçün birinci bağçalarda, məktəblərdə çalışan insanlarımız urvatlı maaş almalıdır ki, sabahımız olan balalarımızdan

süpürgə pulu, gül pulu istəməsinlər. Yəni həyatın çətinliklərini dadmamış balaları çətinlik burulğanında əzməsinlər. Sağlamlıqları üçün həkimə müraciət edəndə həkimə pul vermək barədə baş sındırmasınlar.

Kimi milyonlar üstündə oturub, maşınlarının sayını, evlərinin ünvanını unudur, bilmir paraları hara xərcləsin? Kimi də gündəlik çörəkpulunu çatdıra bilmir. Bizim ölkədə nə qədər ortabab cəmiyyət formalaşmayacaq, halımız gündən-günə fəna olacaq. İnsanlarımız banklardan asılı vəziyyətdə yaşayır, elə bir ailə tapmazsan ki, onun banklara kredit borcu olmasın.

İnsanları da elə tərəzinin həddindən artıq əyilməsi hiddətləndirir. Bizim dövlətçiliyimizin ömrü çox uzun illəri əhatə etmir. Çox kövrəkdir. Bu kövrəkliyi sabun köpüyünə döndərməyə çalışanlar, papaqlarını qabaqlarına qoyub dərin-dərin düşünməlidirlər. Ayə, bu Vətən təkcə biz milyonlar üstə oturanların deyil axı, milyonları rahat həzm etmək üçün millətin az maaşla yaşayan zümrəsinə də yaxşı mənada diqqət ayırmalıyıq. Sosial ədalətsizlik olan ölkələrdə xarici və daxili qüvvələr baş qaldırır, ölkəni içdən və çöldən didir, məhv edir, xaraba qoyur. Biz çox əzablar görmüş xalqlardanıq, o xalqlardan ki, hələ də qaçqın problemimiz var, işğal altında torpaqlar bizdən kişi hünəri gözləyir! Bizim varlı zümrəmiz isə "mənəm-mənəm"liklə məşğuldur. Sonda sözümün canı odur ki, bu Vətən bizim yuvamızdırsa, ONDA HAMIYA TƏN GƏRƏK…

01.03.2013

XƏYALLA DÖVLƏT YIĞANLARIN FACİƏSİ

Əslində dünyaya gələndən, bir balaca özünü dərk edən gündən həyatın çətinliklərlə dolu olduğunun fərqində olursan. O ki ola kasıb, imkansız, bir qarın çörəyi güclə-zorla qazanan ailədə doğulasan. Belə ailələrin uşaqlarının hansı ağrı-acılardan keçdiyi göz önündədir. Bunu hər gün qonum-qonşumuzda, qohum-əqrəbamızda, yaxın-uzaq olmağımızdan asılı olmayaraq eşidirik, görürük, duyuruq, bəzən biz də onlarla birlikdə ağrı-acılar keçiririk, əsəb sarsıntılarına, sonu bitməz üzüntülərə məruz qalırıq. Belə ailələrin uşaqları bəzən ali təhsil də alırlar, amma bu ali təhsil öz bəhrəsini vermir, çünki bizim ölkədə keyfiyyətsiz təhsil, keyfiyyətsiz mütəxəssis axınının yaranmasına səbəb olur. İmkansızlar özlərinə iş tapa bilmir, tapdıqları iş də çox vaxt aşağı maaşla olur. Hələ uşaq vaxtlarından bir-birinin yeməyinə, pal-paltarına göz dikən imkansız ailələrin övladları

belə bir tale yaşayır. Müstəqil ölkəmizdə tərəzinin gözü kəskin şəkildə əyilməyə başlayıb. Ortabab təbəqə artıq yox dərəcəsindədir. Həddən artıq kasıblar və həddən artıq varlılar boy göstərməyə başlayıb.

Varlı ailələrin uşaqlarının həyatı kasıb ailələrdə doğulan və çətinliklə boya-başa çatan yeniyetmələrdə, gənclərdə nifrət hissi yaradır. Onlar da nəyin bahasına olursa olsun, varlanmaq, ev-eşik, maşın-bağ, təmtəraq sahibi olmaq istəyirlər… Əslində bu hər bir insanın yaşamaq haqqıdır. Hər birimiz bir ömür yaşayırıq. Bu yaşadığımız ömrü ürəyimiz istəyən kimi başa vurmağa cəhd edirik, amma imkansız ailələrdə doğulan uşaqların bu cəhdləri çox vaxt sonugörünməz faciələrə gətirib çıxarır. Kimi varlanmaq, nəyə isə nail olmaq üçün oğurluğa əl atır, kimi ən ağır cinayətlərdən belə çəkinmir. Kimi isə…

Elə bu kimi isənin üstündə dayanmaq istəyirəm. İnternet həyatımızda peyda olandan, kasıb ailələrin uşaqları evdə kompüter, internet tapmasalar da, hər yerdə tüğyan edən, həyatımızın bir parçasına çevrilən internet-klublara üz tutdular. Bəs bu internet-klublar bizim uşaqlara, yeniyetmələrə, cavanlara nə verdi? Əsəbgətirici oyunlar, erotik filmlər, bir də indi çox imkansız ailələrin evini məzara çevirən qumar… Qumar saytları insana hər şey vəd edir. Bir an istər ki, həmin saytlarda qeydiyyatdan keçib onların quluna çevriləsən, hətta həmin saytlarda cürbəcür işlər də reklam olunur. Bir az bacarığı olan o işlərdən birinə düzəlib bu saytların birinin köləsinə çevrilir. Bəli, köləsinə… Maaş alan kimi sonuncu qəpiyini də bu saytlarda gedən oyuna uduzan bədbəxt adamlar milyoner olmaq eşqilə yanıb-yaxılır. Banklardan faizlə pul götürür, aylıq maaşlarını bu banklara ödəmək məcburiyyətində qalırlar. Çox vaxt belə adamlar ata-ana qoltuğuna sığındıqları evlərini, mənzillərini belə qumara qoymaq fəlakətilə üz-üzə dururlar. Onlar qumar saytlarının canlı şikarı olurlar. Udmaq xəyalı ilə dövlətli olmaq istəyən iradəsiz, aşağı düşüncəli insanlar isti, kasıb, doğma evlərində əməlli-başlı bəlaya çevrilirlər, ata-analarından, varsa gənc ailələrindən, körpə uşaqlarından üz döndərirlər. Nəyin bahasına olursa olsun, uduzduqları pulları heç olmasa geri qaytarmaq istəyilə yenə də, yenə də, yenə də tələyə düşürlər. Bəlkə də dünyada milyonda bir adamın taleyinə düşən udmaq şansı onlara qismət olmur ki, olmur… Uduzduqca doğmaların gözündən düşürlər, yavaş-yavaş bu sirr ailədən çıxıb qohum-əqrəba, tanış-biliş, qonum-qonşu arasına yayılmağa başlayır. Sirr faş olduqca onlarda, yəni bu qumar düşkünlərində ətrafdakılara nifrət qızışmağa başlayır. Dünən sevdikləri, yeganə təsəlli tapdıqları ata-ana, bacı-qardaş

onlar üçün artıq səddə çevrilir. Onlar bu səddi aşmaq üçün sonda hər şeyə əl atırlar, yetər ki, içlərində olan istəklərini, qumara girişmək atəşini yenidən söndürsünlər, bu "yenidənlər" isə bitmir ki, bitmir… Nə onlar qazanıb dövlətli ola bilir, nə də onları tutulduqları bu əzablı, dəhşətgətirici, fəlakətverici istək buraxır…

Ümumiyyətlə, bilmirəm sosial vəziyyətin aşağı olması, ya orta-ali təhsil ocaqlarının bizim insanların şüuru üçün yetərli olmaması insanlarımızda mənəviyyata marağı nəinki azaldıb, hətta demək olar ki, söndürüb. Əksər insanlarımızı indi nə işğal olunmuş torpaqlarımızın xilası, nə kitaba, mənəvi dünyaya tələbat maraqlandırır. Onları bu saat varlıların təmtəraqlı həyatı, min bir rəngli, bahalı maşınları, bütünlükdə yaşayış tərzləri vəcdə gətirir. Yazımın əvvəlində qeyd etdiyim kimi, deyəsən bizim ölkədə haqq tərəzisi əməlli-başlı əyilib. Haqqın tərəzisi əyilən yerdə isə süfrədən çörək göyə çəkilər deyirlər, mənəvi hisslər öləziyər, mənəvi dəyərlər yavaş-yavaş yoxa çıxar. Gəlin etiraf edək ki, ciddi xəbər saytlarından, satışda olan ciddi qəzetlərdən istifadə edənlərin sayı günbəgün azalır. Yüngül həyat tərzini təbliğ edən teleseriallar indi insanlarımızın beyinlərinə elə nüfuz edib ki, onlar bu həyatı beyinlərindən evlərinə köçürməkdədirlər. İndi imkansız ailələrin də uşaqları ayrı mənzil, çoxlu pul, firavan həyat istəyirlər. Bu firavanlığa çatmayanda isə hər şeyə əl atırlar. İnsan beynini zəhərləyən, şəraba-spirtli içkilərə, narkotik müsibətə, pozğunluğa, fahişəliyə, oğurluğa, ən ağır cinayətlərə, qumara… Bu da kütləvi şəkildə gənc ailələrin boşanmasına, doğulan uşaqların atasız və yaxud anasız böyüməsinə, sonu görünməz ailə faciələrinə gətirib çıxarır. İndi xəyalla dövlət yığanların faciəsinə bizlər seyrçi qaldıqca, bu addımımız sosial bəlaların artmasına zəmin yaradır. Bu gün 28-30 yaşlı cavan qumar saytlarının quluna çevrilib ondan asılı vəziyyətə düşürsə, ondan nə ailə başçısı, nə ləyaqətli ata, nə də cəmiyyətə layiq insan çıxar. Layiqli insan yetişdirən ölkələrin vətəndaşları bəxtəvərdir, vallah, billah. Biz isə hələ də xəyalla dövlət yığmaq faciəsi içindəyik. Allah belə günlərin sabahından qorusun bizləri…

28.01.2013

RUHUMUN İÇİNDƏN BOYLANAN NOVRUZ

Ruhumun içindən boylanan Novruz… Sən canımda özünə yuva salan qan yaddaşımsan! Ocağıma şadlıqlar, uğurlar gətirən yurddaşımsan, sirdaşımsan! Bəlkə hələ mənim özümsən, ürəyimdə alışıb-yanan közümsən! Bilmirəm niyə bu qədər mənə doğmasan?! Təzəliyim, təmizliyim, saflığım! Daşan çaylarının, əsən yellərinin açılan çiçəklərinin ətri gəzir ruhumda! Sənin qədər heç bir bayram məni riqqətə gətirmir, ruhumun içində dərin-dərin köks ötürmür… Yaddaşım sənin məhəbbətini itirmir ki, itirmir…

Hər dəfə sənin gəlişin məni uşaqlıq çağlarıma qaytarır. Rəhmətlik anam ev-eşiyi yığışdırardı, hər tərəf par-par parıldayardı. Evdə lazımsız, işlənməyən köhnə nə var idisə evdən çıxarılardı. Hər şeydə, hər yerdə bir təzəlik, ürəyə fərəh gətirən bir istiqanlılıq görünərdi. Atam əynimizə təzə paltarlar alardı. Oğlanlar damların üstünə taxmaq üçün şamlar, ocaqlar qalamaq üçün odun tədarükü görərdilər, bu işlərini yoluna qoyduqdan sonra yumurta döyüşünə çıxardılar. Biz qızlar anamıza ev-eşiyi səliqəyə salmaqda yardımçı olardıq. Bizi sovet qadağaları qətiyyən maraqlandırmazdı. İnsanlar sevinc içində çərşənbələri yola salırdı. Bayram axşamını səbirsizliklə gözləyərdi. Bizim kənddə Novruza-Yenigün də deyilirdi. Heç bir bayram biz uşaqları Novruz qədər riqqətə gətirmirdi. Bilirdik ki, bayramqabağı üst-başımız təzələnəcək, evdən bişiriləcək səməni halvasının iyi aləmi başına götürəcək, qonşu qadınlar, bibilər, xalalar anama köməyə gələcək, şəkərbura, paxlava, çayçörəyi, qoğal bişiriləcək. Sonra bayram axşamı plov dəmə qoyulacaq. Qapımıza torbalar atılacaq, bu torbalara rəhmətlik anam demişkən "qulpumuzdan nə çıxır onu qoyacağıq". Sonra tonqal qalanacaq, tonqalın üstündən atılanda "Ağırlığım-uğurluğum" deyəcəyik.

Bu bayramın bir özəlliyi də onda idi ki, adamlar bayram axşamı qəbiristanlığı ziyarət edərdilər, dünyadan köçmüş doğmalarının məzarı üstə şam yandırardılar, kənd evləri kimi qəbiristanlıq da şam işıqlarına qərq olardı…

Bayram axşamı analar öz balalarını güclə-zorla tonqallardan ayırıb süfrə ətrafına toplayardı. Hamı bir-birini öpüb-qucaqlayardı, küsülülər barışardı, hətta qan düşmənçilikləri bu bayramda yenilərdi, insanları birbirilə barışdırardılar. Biz uşaqların sevincinin həddi-hüdudu olmazdı, axın-axın evlərə qonaq-qara gələrdi. Kəndin yaşlı adamlarına baş çəkərdilər,

xəstələrinə təsəlli verərdilər. Bir il içində olan umu-küsülər baharın nazənin gəlişinə qurban verilərdi. Dünən bir-birinə acıqlı-acıqlı baxan, görmək istəməyənlər bayram günü barış-görüş olardılar. Adamlar evlərdən acıqlı söz-söhbətləri yığışdırardılar, "gəlib eşitsələr bizə nə deyərlər" düşünərdilər. Qışın soyuqluğu, acıqlığı, küləklərin – xəzri-gilavarın ərköyünlüyü, hirsi-hikkəsi baharın gəlişilə elə bil təntiyərdi.

Biz evimizin qənşərindən boylanan bağçamıza qaçardıq. Bir sırada əkilmiş heyva ağaclarına baxardıq, çünki onlar daha tez tumurcuqlayardı. Təbiətin canlanması elə bil bizim ürəyimizdə sevinc duyğularını artırardı. Saçlarımıza vurulmuş qırmızı lentlərdən kəsib heyva ağaclarına bağlayardıq, çünki el arasında deyərdilər ki, heyva ağacları nəzəri qaytarır. Sonra rəhmətlik anam heyva ağaclarının budaqlarından kəsdiyi kiçik çubuqları cibimizə qoyardı ki, bədnəzəri qaytarsın və buna çox inanardı bizim kəndin qadınları…

Çərşənbələrdə, bayram axşamı və sonrakı günlər uşaqlara bərk-bərk tapşırardılar ki, bir-birimizlə dava-dalaş etməyək, evdən çölə xoşagəlməz sözlər çıxmasın, bu günahdır və bu günlər həmişə belə gəlir, və adamların hərəkətlərinə kənardan göz qoyur, kim özünü düz aparmasa, ona deyir həmişə belə olasan və o adam da bütün il boyu xoşagəlməz hallarla qarşılaşır. Rəhmətlik anam xüsusən qızlara deyərdi ki, dilinizin altına bir parça qənd qoyun, diliniz şirinliyə öyrəşsin, sonra ər evində dil şirinliyi sizə lazım olacaq. Bayramda şirin danışsanız, il boyu həyatınız şipşirin olacaq. Rəhmətlik "Dil acılığı ev yıxar, dil şirinliyi evə baxar" deyərdi. Bayram günləri həyətlərin iti, pişiyi də sevinərdi, yemək-içmək çoxalardı, onlar da qarnıdolusu yeyərdilər, bir-iki gün yeməyə yaxın düşməzdilər… Evə gəlib-gedən adamlara itlər də mehribanlıqla quyruq bulayardılar, sanki heyvanlar da bu günlərin qeyri-adi gün olduğunu anlayardılar.

Novruzun gəlişi xüsusən uşaqları çox sevindirərdi. Təzə paltarlar, cürbəcür yeməklər, şirniyyat, qonaq getmək, qonaq gəlmək…

Biz Novruzu bizə əziz olan yaşamımızın çırağı olan atamız, anamız qədər sevirdik. Atamız, anamızla necə qürur duyurduqsa, Novruzla da eynən qürurlanırdıq. Bu bayram içimizə elə möhtəşəmlik gətirirdi ki, hətta həyatımıza da sirayət edirdi və il boyu bizi izləyirdi…

Şükürlər olsun ki, müstəqillik qazandıq, bu gün Novruz ölkəmizdə yüksək səviyyədə keçirilir. Deməli, min illərin qan yaddaşına hopmuş Novruzu, Yenigünü heç bir qadağalar, imperiyalar, haqsızlıqlar yuyub apara bilmədi.

Bu gün yeniləşmə-sivilləşmə havasıyla öz kökünə, soyuna ruhunun ona diktə etdiyi inamlara xor baxanlara yazıqlar olsun!!!

İnsan öz kökünün, soyunun üstündən boylananda daha əzəmətli, daha təmtəraqlı, başqa xalqların gözündə də daha maraqlı olur. Necə ki, ağaclar öz kökünün üstündən boylananda daha valehedicidir.

Ey kökündən-soyundan boylanan ellərimiz, obalarımız, Novruz adına süfrə açan yurdlarımız, ocaqlarımız, Novruzun ayağı sayalı olsun! Evlərinizə sevinclər, fərəhlər gətirsin… Hər il məni uşaqlıq günlərimin xatirələrilə yaşadan, Novruzum, ocaqlarımız gur yansın!

İŞĞAL ALTINDA QALAN TORPAQLARIMIZA
GEDƏN YOLLARIMIZI OT BASMASIN…

Yaddaşımıza köklənən vüqarımız yenməsin, yenənlərdən yox, yendirənlərdən olaq…

Ey Novruzum, mənim ruhum sənin ruhundan keçir, ruhumu ruhuna bağlayan min illərə salamlar olsun! Yaşa bəşəriyyətin ən qədim bayramı!..

BAKININ TƏBRİZƏ İKİNCİ AÇIQ MƏKTUBU

Əzizim Təbriz, qardaşım, can sirdaşım, ürəyimin yarısı, qəlbimin parçası…

Yadında qalıbsa, bir müddət əvvəl səni idarə edənlər cavan şairlərimizi tutub zindana salanda sənə məktub yazmışdım, amma məktub yetişəndən bir qədər sonra şairlərimizi dustaqlıqdan azad edib sağ-salamat bu taya yolladın. Mən demirəm ki, bu mənim sənə yolladığım məktuba görə oldu, xeyr! Yəqin səni idarə edən dövlət adamları insani keyfiyyətləri uca tutub bu xeyirxah işə qol qoydu, ancaq mənim məktubum da yəqin ki, bir az onların ürəyini yumşaltdı. Bəlkə sən elə özün mənim yazdığım xoşməramlı diləkçə barədə onların qulağına pıçıldadın… Əlqərəz, bu iş xeyirlə başa çatdı və cavan yazarlarımız öz doğmalarına sağ-salamat qovuşdu.

Məni sənə ikinci məktubu yazmağa vadar edən yenə bu yaxınlarda bir qadın alimimizin, mötəbər elm ocağımızın, AMEA Ədəbiyyat İnstitutunun elmi işçisi, araşdırmaçı-yazar, şəhriyarşünas alim Xalidə Xalidin və onun sürücüsünün o taya keçən kimi tutulub zindana atılması olub. Vallahi-

billahi gündə yüzlərlə adam müalicə üçün sənin xanimanına ayaq qoyur. Hamısı da razı qayıdır bu taya… Bəs nə olub ki, mənəviyyat adamlarıyla, qələm əhliylə sənin başbilənlərin belə rəftar edir? Dəyərli qardaşım Təbriz, açığını deyim ki, mənim məktubumu qələmə alan bu qızımın şəxsən nə əvvəlki cavan yazarlarla tanışlığı olub, nə də hazırda zindanda doğmalarının gözünü yolda qoyan Xalidə xanım Xalidlə yaxından tanışlığı var. Sadəcə, onların taleyi məni bərk narahat etdiyi üçün, qoynumda yuva salan vətəndaşlarım, ciyərparələrim olduğu üçün sənə bu məktubu bu yazar qızımın qələmi və narahat ürəyindən süzülən kəlmələr vasitəsilə ünvanladım. Xalidə xanımın hazırkı vəziyyəti məni çox narahat edir. Axı o, təkcə alim yox, həm də bir qadın, bir anadır. "Cənnət anaların ayaqları altındadır" bu Məhəmməd Peyğəmbərin (s.ə.s.) kəlamıdır. Sənin gündə məscidlərinin minbərlərindən İslamın cəfakeşi kimi özlərini aləmə bəyan edən başçıların bu kəlamın işığından öc alıb Xalidə xanıma və onun sürücüsünə imdad etsinlər. Bəs sənin hökumət adamlarına nə düşüb ki, zərif cinsin nümayəndəsi ilə belə rəftarda bulunurlar? Bəlkə Xalidə Xalidin şəhriyarşünaslığı sizin güc adamlarında qıcıq doğurur? Axı göz-bəbəyim Təbriz, Vətəni nə sərhədlər, nə qadağalar, nə işğallar insanların ürəyindən silə bilməz! Bu tayda yaşayan soydaşlar üçün də Təbriz, bütünlükdə güney Azərbaycan Vətənin bir hissəsidir. Şəhriyar həm o taya, həm bu taya aiddir. O bizim də böyük şairimizdir. Hansısa alimimizin gedib Şəhriyarla bağlı tədqiqat aparması sənin başda oturan hakim qüvvələrinə qəribə gəlməməlidir, çünki sərhəd dirəkləri torpağın üstündədir, ürəyin içində isə sərhədlər, qadağalar yoxdur, istəkli Təbriz. Xahiş edirəm mənim bu son kəlmələrimi qanun yazanlarının qulağına pıçıldayasan. Bilirsən ki, dinimizdə də alimin mərtəbəsi, mənəviyyat adamının dərəcəsi uca tutulur.

Yeri gəlmişkən, bu məktubu qələmə alan bu yazar qızım da bu yaxınlarda sənin gözəl, istəkli məkanına təşrif gətirmək istəyir. O taydan qələm əhli, söz xiridarları onu da Güneyə dəvət edirlər. Onda bəri başdan bu yazar qızımı da başa salım ki, o taya ayağını-filanını qoymasın, hərçənd qoymuş olsa, onda onun da halı fəna olacaq, çünki belə görünür ki, sənin başda oturanlarının bu taydan gedən ədəbiyyat adamlarının bir çoxunu görən gözü yoxdur. Dəyərli Təbriz, bu yazarlar tayfası bədbəxt məxluqdur, özü deyib özü eşidir. Əllərində qanun yox, hökm yox! Sadəcə, Vətən istəyi, milli təəssübkeşlik, insani duyğular bu insanlarda aşıb-daşır. Necə deyərlər, cibləri boş, ürəkləri dolu! Gəlib dolu ürəklərini o tayın

ədəbiyyatla nəfəs alan qardaş-bacılarına boşaldırlar. Bundan xofa, qorxuya düşmək, qısqanmaq nəyə gərəkdir? Axı biz dilbir, qanbir qardaşıq, rəhmətlik Süleyman Rüstəm demişkən, bizim qardaşlığımıza, aşıb-daşan məhəbbətimizə sənin güc adamların niyə şübhə ilə yanaşır?! Vətənin nə quzeyi, nə güneyi? Vətən, soy-kökünü bu yurdda görənlər üçün birdir, bütövdür, bölünməzdir! Sənin başda oturanların böyük Şəhriyarın adına layiq abidə-məbəd ucaldıblar. Şəhriyar özü "Heydərbabaya salam" poemasında necə yanğılı demişdir:

Bir uçaydım bu çırpınan yelinən,
Bağlaşaydım dağdan aşan selinən,
Ağlaşaydım uzaq düşən elinən.
Bir görəydim ayrılığı kim saldı?
Ölkəmizdə kim qırıldı, kim qaldı?

Axı insan əqlsiz, ürəksiz yaşaya bilməz, sevimli Təbriz, canım, gözüm. Sən o başda oturanlarına de ki, daşı töksünlər ətəklərindən, zindana atdıqları qadın alimimizi, Xalidə Xalidi və onun sürücüsünü tezliklə bu taya buraxsınlar. Onu gözləri yollarda qalan doğmalarına, o mötəbər elm ocağında çalışan iş yoldaşlarına, alimdaşlarına qovuşdursunlar. Bu həm Allaha, həm də onun heç bir günahı olmayan bəndələrinə də xoş olar. Mənim sənə deyəcəklərim hələlik bu qədər. Ümidvaram ki, mənim bu diləkçədə sızıldayan harayımı eşidib xoşməramlı ölçü götürəcəksən… İndisə məktuba nöqtəni qoyub tamama yetirirəm. İnşallah, səsimin sənə yetişəcəyi ümidi ilə o xoş günü gözləyirəm. Alim qızım Xalidə Xalidin azad olunacaq gününü deyirəm. Türk qardaşlarımız demişkən xoşca qal, Təbrizim…

13.05.2013

ON QƏPİK ƏHVALATI

Dəyərli oxucular, mənim qələmə alacağım bu yazının qətiyyən şəxsi maşını olanlara dəxli yoxdur. Onlar yollarda saatlarla tıxac əzabıyla üzbəüz qalsalar da, öz şəxsi maşınlarının sükanı arxasında otururlar və ictimai nəqliyyatdan istifadə edən şəhər əhalisinin hali-vəziyyətinin fərqində olmaya bilirlər, çünki onlar, bizlər kimi ictimai nəqliyyatdan istifadə etmirlər. Necə deyərlər, sürdükləri maşınlar sağlıqlarına qismət olsun, yol-

larda öz təhlükəsizliklərinin qeydinə qalsınlar və onları gözləyən ailələrinə, doğmalarına sağ-salamat qovuşsunlar.

Mənim yazacağım bu yazı başqa bir mətləbi sizlərin nəzər-diqqətinə yetirmək istəyir. Əvvəlcə qeyd etmək yerinə düşər ki, Azərbaycan televiziya kanallarında, habelə digər yayım mərkəzlərində gedən bəzi-bəzi xəbərlər ölkənin aztəminatlı, kasıb əhalisinin büdcəsinə əməlli-başlı zərbə vurur. Bu xoşagəlməz bəd xəbərləri sizlər üçün sadalamaq istəyirəm. Pensiyaların artımı ilə bağlı xəbər. Elə ki bu xəbər yayılan kimi tez bir zamanda dükanlara, bazarlara səs düşür. İşbazlar bahalaşmaya rəvac verirlər, yazıq təqaüdçülər artım xəbərinə kor-peşman olurlar. Yanvar ayında pensiyalarda 1-2 manat artım olmuşdursa, qarın doyduran ərzaq bahalaşdı. Bu yaxınlarda Nəqliyyat Nazirliyinin avtobuslarda gediş haqqına yenidən baxılması ilə bağlı Tarif Şurasına sorğu yollayacağı barədə xəbər yayıldı, amma sonradan dedilər ki, Tarif Şurası bu işə ilin axırında baxacaq və ictimai nəqliyyatda hələlik heç bir bahalaşma olmayacaq, ancaq nə gördük, bir-iki gündən sonra şəhərkənarı qəsəbələrə gedən marşrutlarda bahalaşma. Bu bahalaşmanın da ən böyük zərbəsi şəhərdən 60 km uzaqlıqda yerləşən. Bu yaxınlarda rayon statusu qazanmış Pirallahı adasına dəydi. 70 qəpiklik yol haqqı 80 qəpik oldu… Bu 80 qəpiklik marşrut ölüm-zülmlə, düz saat yarıma axırıncı dayanacağı olan metronun "Ulduz" stansiyasına gəlib yetişir. Qəsəbələrarası demək olar ki, hər addımda dayanan bu marşrutdan mənzil başına çatan adam özünü tam yorğun, əzgin hiss edir. Oturacaqları həddindən artıq çirk içində olan bu 150 saylı marşrutlar deyəsən 150 il də keçsə düzələn deyil. Axı biz adada yaşayırıq, ada da mərkəzdən 60 km aralıdır. Yeri gəlmişkən, onu da sizlərin nəzərinə ərz edim ki, Avtovağzaldan Siyəzənə "Qazel" tipli marşrutlarla 40 dəqiqəyə, uzaq başı 50 dəqiqəyə getmək olur. Yol isə 110 km-dir. Pirallahıya da "Qazel" tipli marşrutlar işləyirdi, yolu 35-40 dəqiqəyə qət edirdilər, onları guya yaxşı xidmət üçün ləğv etdilər. Bu necə yaxşı xidmətdir ki, insanlar saat yarıma, ayaq üstə yolu qət etməli olurlar? Hamı bilir ki, oturacaqların dolmağı ilə sürücülər qane olmurlar, çox vaxt yol boyu planı verə bilməmək barədə uzun-uzadı giley-güzar edirlər. Maşınlar səhər və axşam saatlarında dəhşətli basa-basla müşayiət olunur.

Deyilənlərə görə, Pirallahı adasına sovet zamanı, quru yol çəkiləndən sonra avtobus düz Dəmiryol Vağzalına qədər gedərmiş, özü də 50 qəpiyə. Hələ, üstəlik, elektrik qatarları da bir çox Bakı kəndlərinin bəzəyi idi. Bakı

bağlarına gedən insanlar bu sürət qatarlarından məmnuniyyətlə istifadə edərdi. İndi o qatarlar da ekoloji cəhətdən təmiz, qiymət baxımından sərfəli olan trolleybus və tramvaylar təki tarixə çevrildi. Niyə? Niyəsini başda oturanlarımız, qanun, hökm xiridarları, yəqin ki, gözəl bilir. Havaya bacardığı qədər çox karbon qazı buraxıb oksigeni, yəni bizim udduğumuz havanı məhv edən avto-maşınlar bəzəkli paytaxtı hava baxımından təzəyə çevirib. Bu saat xəstəliklərin başında həkimlərin "ani ölüm" adı qoyduğu qəfil ürək dayanmaları gəlir. Artıq vəziyyət o həddə çatıb ki, bu adı batmış mərəz 30 yaşlı cavan insanlarımızın arasında da müşayiət olunmaqdadır. Yəqin ki, bu xəstəliyin başlıca amillərindən biri paytaxtda havanı zəhərə döndərən saysız-hesabsız maşın axınının havanı çirkləndirməsidir. Əksər Bakı kəndləri üçün xəttə buraxılan avtobuslarda gediş haqqı bahadır.

Nəzərə alsaq ki, bu bahalaşma büdcədən maliyyələşən mənəviyyatımızın keşikçisi müəllimlərə, tibb işçilərinə, az maaş alan dəmiryolçulara, ürəyi dolu, cibi boş qələm əhlinə, valideyn cibinə göz dikən tələbələrə, bütünlükdə aztəminatlı ailələrə zərbədir, yəqin ki, dəyərli oxucular, sizlər də mənimlə razılaşarsınız, çünki Pirallahıya gedib-gəlmək adambaşı hazırda 1 manat 60 qəpikdir, çox vaxt avtobusların ürəkağrıdıcı əzabından bezən insanlar ciblərində olan axırıncı manatları 2-3 manata mənzil başına tez çatdıran taksilərə ödəməli olurlar.

Düzdür, bəziləri deyəcək ki, bu özəl xidmətdir, bazar iqtisadiyyatıdır. Əgər bu özəl xidmətdirsə, niyə camaat basabasla, uzun yolu ayaq üstə qət etməlidir? Habelə, təmiz geyimlərlə oturacaqlara əyləşən sərnişinlərin niyə üst-başları çirklənməlidir? Bu necə özəl xidmətdir?

Mən bilirəm, mənim qələmə aldığım bu yazı nəqliyyatla bağlı nə işgüzar adamların, nə də aidiyyəti qurumların ürəyincə olmayacaq, amma, ey bu işlə məşğul olub, bundan mənfəət götürənlər, şəhərə 200-300 manat maaş üçün hər gün gedib-gələn kasıb zümrənin hali-vəziyyətini nəzər-diqqətinizdən qaçırmayın, bilin ki, bu həm sizin büdcənizi halal edər, həm də aztəminatlı insanların gündəlik dolanışığına zərbə vurmaz. Çalışın haqq tərəzisi əyilməsin, çünki haqq tərəzisinin əyilməsi nə Böyük Yaradana, nə də onun halallıqla yaşayan bəndələrinə xoş gələr! Xoşagəlməz işlərin tozu isə qopanda çox bərk qopur! Tanrı hər birimizə nicat versin, ey bu yazını oxuyub məni haqlı sayanlar və saymayanlar… Hər birimizin işləri rəvan getsin. Gələn görüşlərədək.

18.05.2013

QƏRBƏ ASAYİŞİ BƏRPA ETMƏ, ŞƏRQƏ DEMOKRATİYA DƏRSİ

Hələ sovet vaxtında Əfqanıstana sovet qoşunları soxulan zaman, qardaşım oğlu da o vəhşətli müharibənin iştirakçısına çevrilmişdi. Orada sovet qoşunlarının törətdikləri vəhşiliklər barədə sonralar pıçıltıyla bizə nəql edirdi. Deyirdi ki, qoşunlar günahsız, silahsız əfqan kəndlərinə gecələr tanklarla girir, palçıqdan hörülmüş kasıb daxmaları yerlə-yeksan edirdilər. Müqavimətsiz dinc əhalinin naləsi, sərxoş rusların törətdikləri vəhşiliklər heç zaman yaddaşımdan çıxmayacaq. Onlar sonra utanmaz-utanmaz sovet bayrağını xaraba qoyduqları kəndlərin uçuq divarları üzərinə sancırdılar. Öldürdükləri insanların fəryadlarına həqarətlə gülürdülər. Onların nə geyimi, nə də həyat tərzi bu dırnaqarası sülh carçılarına xoş gəlirdi. Hələ də körpə qışqırtıları, ana-bala fəryadları, çığırtıları qulaqlarımdan getmir…

Əfqanıstan faciəsi sovet quruluşunun dayaqlarını sarsıtdı. Adamdan soruşarlar ki, sosializm adı altında idbar imperiyanın özgə torpağında nə iti azmışdı? O gündən bu günə hələ də Əfqanıstan dediyimiz ölkə özünə gələ bilmir. Ora terrorçuların məkanına, narkotik tarlaların çiçəklənməsi diyarına çevrildi. Bu gün işğal olunmuş Qarabağ ərazisində də həmin ssenari həyata keçirilir. Narko tarlalar əkilir, işğal uzanır, hegemon dövlətlər susur… çünki o zaman ABŞ ilə SSRİ o bədbəxt diyarda kəllə-kəlləyə gəldi. Ağrını çəkən isə əfqan xalqı oldu. Dünyanın min bir yerinə dağılmış bədbəxt əfqan xalqı… habelə, Vyetnam vəhşətləri, Corc Buşun İraqa demokratiya dərsi, İraq o gündən bu günə özünə gələ bilmir, etnik qrupların bir-biriylə terror döyüşü, sonra "Ərəb baharı" müsəlman ölkələrinin bir-bir xaraba qoyulması, Misir, Liviya, Suriya… Deyilənlərə görə, Suriyada artıq 90 mindən yuxarı insan qətlə yetirilib, bir milyondan artıq insan öz yerindən-yurdundan didərgin düşüb. Kəndlər, şəhərlər xarabazara çevrilib. Ölkədə vətəndaş müharibəsi gedir, qardaş-qardaşın, müsəlman-müsəlmanın qanını tökür. Hər tərəfdə "Allahu-əkbər" sədaları göylərin bağrını parçalayır. İran, Rusiya hökumət qüvvələrini, Qərbsə müxalifəti dəstəkləyir. Tökülən qan isə suriyalı vətəndaşların qanıdır. Xaçpərəst dünyaya müsəlman qanının tökülməsi sərfəlidir. Nə qədər müsəlman qanı tökülsə, o qədər xaçpərəst dünya hökmranlarının ürəklərinə su səpilər. Nəyə görə, ona görə ki, nə qədər Qərbdə istehsalın inkişafı üçün elm, bilik artıbsa, o qədər də dəyərlər iflasa uğrayıb. Yəni ailə dediyimiz qurum orada yavaş-yavaş

uçub dağılmağa başlayır, onun yerini insanların bir-birinə yadlaşması, eyni cinsdən olanların demokratiya adı altında biabırçı evlilikləri, artıq bir çox ailələrdə uşaqların yerini ev heyvanları əvəz edir, hətta əhali kilsələrdən də soyumağa başlayıb. Bir çox qərb ölkələrində kilsələr əzəlki nüfuzunu itirib. Xüsusilə xaçpərəst Avropa qocalmağa başlayıb. Müsəlman ölkələrdə isə əhali durmadan artır, bu da qərbliləri nəinki narahat edir, hətta onların yuxusuna belə haram qatıb. Ona görə də Şərqdə rejimləri tar-mar etmək adı altında müsəlman ölkələri gücdən salmaq, çökdürmək Qərbin gündəmdə olan həyat devizidir.

Suriyadan sonra növbədə son illər inkişafda olan Türkiyədir. Baş nazir Rəcəb Tayyip Ərdoğanın odlu-alovlu çıxışları, Fələstinlə bağlı Dovosda İsrailə sərt mesaj verməsi, ümumiyyətlə, müsəlman aləmində lap çoxdan demokratik yolu, inkişaf yolu seçmiş Türkiyə bu gün Qərbi bərk narahat edir. Bu günlər "Gəzi parkı" məsələsi də Türkiyəni gücdənsalma planına köklənib. Dünən İngiltərənin mərkəzi Londonda etirazçılara qarşı polisin törətdiyi vəhşilikləri, Yunanıstanda baş verən olayları Avropa "Asayişi bərpa etmə" kimi qələmə verir, ABŞ isə səssizcə susur.

Artıq 17 gündür İstanbulda "Gəzi park"ında baş verənlər Qərbin həyat nəbzinə çevrilib. Min bir yolla Türkiyədə aranı qarışdırmaq və orada qan tökmək, bu ölkəni də dizi üstə çökdürmək, budur Qərbin bizə, yəni müsəlman ölkələrə demokratiya dərsi…

Türkiyə keçən əsrin 70-ci illərindən üzü bəri SSRİ-nin onlara bəxş etdiyi PKK ilə çarpışmadadır. Həm türk xalqından, həm kürd xalqından minlərlə insanlar həlak olub. Necə deyərlər, bir-birlərini qanlarına qəltan ediblər, çünki xristian dünyası nə kürdün, nə də türkün dostudur. Bu xalqlar hər ikisi müsəlmandır (kürdlərin az qismi yezdi kürdüdür). Dünyada 1400 ildi xaçpərəst – müsəlman davası gedir. Onlar Məhəmməd (s.ə.s.) peyğəmbəri heç cür peyğəmbər kimi qəbul etmək istəmirlər. Ona görə də müsəlmanı terrorçu kimi qələmə verirlər, halbuki bütün terror yuvalarının dayaq nöqtəsi Qərbdir, başıbəlalı Şərq isə onun əlində əsirdir. Bütün dinlərin arasında İslamı nüfuzdan salmaq üçün Qərb "Əl-Qaida" kimi "Müsəlman təşkilatları" yaradıb, onları özü bəsləyib və maliyyələşdirib, ola bilsin ki, indiyə kimi də maliyyələşdirir.

20 ildən yuxarı torpaqlarımız işğal altındadır. Bu haqsızlığı çözmək üçün hegemon xristian ölkə nümayəndələri birlik yaradıb, gedirlər- gəlirlər, gəlirlər-gedirlər, məsələ "çözülmür ki, çözülmür".

Artıq içimizdən də yavaş-yavaş Qərbin dəstəyilə ədəbiyyat adamları, yazarlar, siyasətçilər erməni-hay təəssübü çəkməyə başlayıblar. Torpaqlar əldən çıxıb, işğalçıya yerini göstərmək əvəzinə, Qərb bizə demokratiya dərsi keçir. Biz nə içməliyik, nə yeməliyik, necə yaşamalıyıq? Yavaş-yavaş öz həyat tərzlərini beynimizə yeritməyə cəhd edirlər. Bunun üçün ölkə içərisində olan etnik qövmlərdən, dini min bir yerə parçalayan məzhəb təəssübkeşlərindən, bir də beşgünlük ömrünü keflə başa vurmaq istəyən, heç bir işin qulpundan yapışmayan, özünü heç bir işdə tapmayan bəzi gənclərdən istifadə etməkdədirlər.

Bu gün Türkiyədə baş verən olaylar bizə də sabahkı günümüzün xoş olmayacağından xəbər verir. Türkiyə demokratik özgürlüyü olan qardaş ölkədir, inkişafı da göz qabağında, Qərbin isə bunu heç cür gözü götürmür.

Bizdə isə tərəzinin gözü kəskin şəkildə əyilməkdə davam edir. Bazarlarda od tutub yanan bahalıq, aztəminatlı ailələrin yaxşı yaşamaq istəyi və bunu bulmadıqda təmtəraqla yaşayanlara nifrət hissinin artması sonda Qərbin əlinə yaxşı bir fürsət kimi düşə bilər...

Mən bu fikirlərimi qısaca, bir yazar olaraq, dəyərli oxucular, sizinlə bölüşdüm, ümid edirəm ki, aranızdan bu yazıya haqq qazandıranlar tapılar. Tanrı hər birimizi şərin bəlasından qorusun, biz öz xoşumuzla müsəlman olmadıq, sadəcə, tale belə gətirdi ki, artıq müsəlman ailələrində doğulduq. Müsəlman olmağın cəfası 1400 il öncədən çəkilib. Gəlin bir-birimizə sayğı ilə, qayğı ilə yanaşaq. Dostumuzu düşmənimizdən ayırd edək. Bir-birimizə dəyər verək, bir-birimizə demokratik prizmadan yanaşaq. Bir-birimizin dərdinə qulaq verək. Dərd şişəndə bəlaya çevrilir, sonu isə Qərbin "demokratiya dərsi" adlı acısı ilə bitir…

Türkiyəni Allah bu bəladan qorusun. Türkiyəyə atılan daş, bizim başımızda partlayacaq… Bunu milyonlar üstündə oturub öz rəngbərəng maşınları, bahalı villaları ilə imkansız əhaliyə acıq verənlərimiz yaxşı-yaxşı fikirləşməlidirlər ki, Qərbin demokratiya dərsi bizdən yan ötsün… Hələlik isə sağlıqla qalın, türkiyəli, azərbaycanlı Vətən əhli…

14.06.2013

“AZƏRBAYCAN ŞEİR ANTOLOGİYASI”NA TƏBRİKLƏRİM

Bir neçə gün bundan öncənin sözüdür. “Lit.parad” və “Dayaq” ədəbi saytlarından yaradıcılığına bələd olduğum və bu saytların nizamlayıcılarından olan İbrahim Seldən elektron poçtuma məktub gəldi. Məktubda yenicə işıq üzü görmüş “Azərbaycan şeir antologiyası”nın xoş xəbəri idi. Diləkçədə mənim də iki şerimin yayınlanması haqqında müjdə verirdi. Yeni çıxan kitabın metronun “Elmlər Akademiyası” stansiyasının girişində satışı haqqında məlumat da öz yerini almışdı. Bu həftənin birinci günü həmin kitabı deyilən yerdən aldım və kitabsevərlərə, həmçinin həmkarlara da bu kitabı əldə etmələrini tövsiyə edərdim.

Məlum məsələdir ki, hər kitabın doğuluşu mənəviyyatımıza çıraq tutmaqdır, kitab rəflərimizin yeni kitablarla bəzənməsi, zənginləşməsi, ədəbiyyatımızın çiçəklənməsi deməkdir. Biz o qədər də kitaba maraq, sevgi göstərən, kitab dolabçalarını, rəflərini evimizin bəzəkli əşyalarından üstün tutan millətlərdən deyilik. Bizlər evimizə bahalı nə varsa cibimizdəki paranın miqdarından asılı olmayaraq doldurmağı xoşlayarıq, əynimizi, qarnımızı bəzəyərik, bütün bunlar bizim fiziki yaşamımıza köklənib, amma millət olaraq nədənsə mənəviyyatı zənginləşdirən kitabdan uzaq düşmüşük. Axır zamanlar bu öz çılpaqlığıyla özünü büruzə verməkdədir. Sovet dönəmində az da olsa kitab oxuyanlara, evində kitab dolabçaları saxlayanlara rast gəlmək mümkün idi. Bu gün kitaba soyuqluq həm onu yazanların, həm də oxucuların arasında küləklər təki əsməkdədir. Biz yazarları niyə nəzərdə tuturuq, ona görə ki, yazanlar da bir-birinin kitabını oxumur. Oxumaq, həm oxucu kütləsinə, həm də yazarların özünə lazımdır. Vəziyyətin bu şəkil almasında geniş tamaşaçı yığnağının nəzərnöqtəsi olan televiziya kanallarının da günahı danılmazdır. Səhərdən axşamadək, axşamdan səhərədək cadugərlərin, falçıların, aşağı səviyyəli ailə dramlarının, səsi olmayan müğənnilərin, reklam mərkəzlərinin bəzək məkanına çevrilən televiziya məkanları insanlarımızın mənəvi düşüncəsini, həyata baxışını aşağılamaqla məşğuldur. Elə satıcıdan da İbrahim Selin müəllifliyi və Rasim Qaracanın zəhmətilə gün üzünə çıxmış “Azərbaycan şeir antologiyası”nı istəyəndə o çox sevindi və elə həmin an da gileylənməyə başladı. Dedi ki, vallah, billah, bu millət kitab oxumur. Az-maz xarici ədəbiyyata maraq var, öz yazarlarımızı heç oxumur-

lar. Satıcı səbəbini bilir, bilmir, deyə bilmərik, amma fikrimizcə, televiziya kanallarına hərdən-birdən yol tapanlar da bir-birini tənqid etmək, bir-birlərinə yuxarıdan aşağı baxmaqla məşğuldurlar. Axır zamanlar bədii əsərlərin yaranmamasından, şerin, nəsrin olmamasından şikayətlənirlər. Axı biz bir-birimizin kitabını oxumuruq, əgər oxumuruqsa, hardan bilirik ki, nə yazılıb, necə yazılıb?! Dəyərli yazar əhli, gəlin bir-birimizə qayğı ilə, sayğı ilə yanaşaq, bir-birinin yazdıqlarına dəyər verək. Yazan çox olanda dəyər də artır.

Yenicə çapdan çıxmış "Azərbaycan şeir antologiyası" klassik müəlliflərdən tutmuş çağdaş günümüzün şairlərinin nəzm boğçasından nümunələr toplusudur. Bu kitabda özünü şair olaraq tanıtmış müəlliflərlə yanaşı, imzasıyla bu kitabda tanış olduğumuz gənc yazarlar da var. Onlara da ədəbiyyatın keşməkeşli yollarında uğurlar diləyirik. Şairlik bir peşə deyil, o Yaradanın hər bəndəsinə qıymadığı, tək-tük adamların bəxtinə yazdığı ilahi mükafatdır. Bu mükafatın çeşməsindən dadanlar şair olurlar. Şairlik rahat həyat demək deyil, şairlik bütün dünyanın ağrı-acılarını göz çeşməsi ilə yuyub, ürək odasında ovutmaq deməkdir! Bu heç də şair olana xoşbəxtlik demək deyildir…

Kitabın bir önəmli cəhəti də diqqətçəkəndir. Bu da güneyli şair bacı-qardaşlarımızın yazdıqları şeirlərin də burda yer almasıdır. Heç olmasa bu kitabda Şimal-Cənub ayrılmamışıq! Kitabın bir əhəmiyyətli tərəfini də qeyd etmək istəyirik. Kitab xarici ölkələrdə yaşayan, vətəndən uzaqlarda, qürbətlərdə ömür-gün keçirən insanlar üçün nəzərdə tutulub.

Hər bir yazılan kitabı istədiyimiz qədər tənqid edə bilərik, amma biz bu kitabı tənqid yox, təbrik edirik, onu araya, ərsəyə gətirən İbrahim Sel və Rasim Qaraca ilə bahəm. Dəyərli qələm əhli, ey bizim səsimizi eşidən və eşitməyən oxucularımız, sizlər hardasız, bu kitabı almağa və oxumağa tələsin. Bilin və agah olun, bu kitabda klassik söz kəhkəşanından tutmuş bu günümüzdə yazıb yaradan qələm əhlinin ürək döyüntüləri var. Biz bu kitabı aldıq bu döyüntüləri duyduq və dinlədik, mənəvi zövq aldıq. Siz də mənəvi zövq almağa tələsin… And olsun qələmə və kağıza bu dünyada mənəvi zövqün yerini heç nə vermir. Mənəvi zövqlərin ən ucada olanı KİTABdır! Elə isə bu zövqdən sizlər də qidalanın. Xoşca qalın, Vətən əhli…

09.10.2013

MƏNƏVİYYATIMIZI AŞAĞILAYAN TELELAYİHƏLƏR

Hər dəfə istəyirəm ki, dilimi və əlimi dinc qoyum, bəzi-bəzi teleməkan əhlinin işlərinə qarışmayım. Olmur ki, olmur. Necə deyərlər, vicdanım əməlli-başlı məni narahat etməyə başlayır. Hərdənbir öz televiziya məkanımızda nə var, nə yoxla maraqlananda dözülməz hallarla qarşılaşırsan və görürsən ki, bizim teleməkan əhli baş vurur falçıların, cindarların, iblislə, şeytanla sevdaya girənlərin dünyasına… Onlar nə dedi, necə çaldı bizim də dırnaqarası istedadlı bəzi aparıcılarımız başladılar oynamağa… Ərindən küsən, arvadından boşanan, bic doğub sonra üstündən illər keçəndən sonra o uşağı onun-bunun üstünə yıxan, başıpozuq, mənəviyyatı puç nə qədər adam istəsən hamısı bu teleməkanlarda var-gəl edir. Sanki bu ölkə başdan-başa səviyyə cəhətdən nasaz olan adamların ölkəsidir.

Kitab oxumayan, ssenaristlər, rejissorlar, şairlər, yazıçılar, jurnalistlər, aparıcılar peyda olub. Kitabı alınmayanlara deyirlər gedin bazarda kartof satın. Mən sizdən soruşuram kimin kitabı oxunur? Kitabxanaları toz basır, kitab dükanlarında rusdilli kitablar təbliğ olunur, çünki bizim dildə təhsil alanlar, demək olar ki, kitaba, qəzetə yaxın düşmür. Elə mühit yaradıblar ki, insanlarımızın mənəvi səviyyəsi aşağı düşsün. Ey vətən əhli, yaradıcılığı mühit yaradır. Bizim mühitdə olan insanlarımızın çoxu isə aşağı səviyyəli televerilişlərdə ilişib qalıb. Vəziyyət elə şəkil alıb ki, öz şəxsi məsələlərini də telekanallara daşıyırlar.

Sanki bizdə nə məktəb var, nə ali təhsil, şəxsiyyətinə ziyalı dediyimiz insanlarımız da mat-məəttəl susub dururlar bu mənzərəyə. Əlinə mikrofon keçən bu insanlar bilmir ki, hər bir millətin mənəviyyat dediyimiz sandıqçası var. Bu sandığı dolu olan xalqlar bu dünyada, Allah verən ömürləri hesabına çox zirvələri fəth ediblər. Kitaba, biliyə, elmə sığınıb iri addımlarla irəliyə gediblər. Bizdə isə bəzi teleməkan əhli bizə nəyi təbliğ edir? Falçıya, görücüyə, fırıldaqçılara, ev yıxanlara üz tutmağı. Bəli hər bir xalqın, millətin ömür boğçasında belə şeylər var. Di gəl ki, onlar bizlər kimi bu kimi mənəviyyat aşağılayıcı, ürək bulandırıcı, utancverici adamların dırnaqarası ustalığını teleməkana çıxartmır. Düzdür, sizlər deyə bilərsiz ki, belə kəsləri verilişə dəvət etməklə ifşa edirik. Əfsuslar olsun ki, bu ifşa deyil, əməlli-başlı təbliğatdır, müasir danışıq dili ilə desək reklamdır. Bu bütün millətin obrazını vermir, millət öz ziyalıları ilə sayılır…

Televerilişlərdə millətimizi qaraçı, dilənçi, oğru, vicdansız obrazına salıblar, ləyaqətli adamlardan verilişlər hazırlamaq əvəzinə şou xatirinə aşağı səviyyəli adamlar tele məkanlarda cövlan edir. Bu verilişlərə baxandan sonra fikirləşirsən, ya İlahi, bu bizik!

Axı gəlin etiraf edək ki, insanlar eyni səviyyəli, eyni dünyagörüşlü deyil. Çoxumuz da adımız məktəbdən, ali təhsil ocağından keçə-keçə mənən oralardan heç nə götürməmişik, özümüzə heç nə qazanmamışıq. Bir də ayılıb görmüşük ömrü yarı etmişik, amma biz hələ də quru yurddayıq, necə deyərlər, bir həsirik, bir də məmmədyesir…

Bunun da səbəbini atırıq taleyin, bəxtin, bizi dünyaya gətirən valideynlərin, lap elə Allahın üstünə! Sanki bu teleməkanlar səsinin gücü olmayan müğənnilərə, donu bir qarış dizdən yuxarı və bütün günü bizlərə ədəb dərsi keçənlərə, evinin, ailəsinin hər nə əyər-əksiyi var açıb aləmə faş edən kəslərə xidmət edir. Bütünlükdə millətin, xalqın, ölkənin, məmləkətin, ən nəhayət, müqəddəs saydığımız Vətənin taleyini oyun-oyuncağa çevirən bu kəslərə nə deyəsən?! Bunlar bizə nəyi təbliğ edir? Nəyi bizim canımıza, qanımıza yeritmək istəyirlər?

Biz axı o kəslərdənik ki, hələ də torpaqlarımız işğal altındadır. Qarabağ adlı həll olunmayan acımız var. Biz o kəslərdənik ki, bir qarın çörək üçün öz isti ocağından diyarbədiyar düşmüşük. Güney boyda bir Vətən acısı yaşayırıq. Rusiya adlı bir ölkədə həmvətənlərimiz təhqirlərə, müsibətlərə düçar olur, mənlikləri tapdalanır, ləyaqətləri aşağılanır. Dünyanın dörd bir yerinə yayılmış həmvətənlərimiz ayrılıq adlı ağrıyla həmdərddirlər.

Bizi isə deyəsən qətiyyən bu kimi acılarımız maraqlandırmır. Vəziyyət elə bir şəkil alıb ki, bir çox ailələrdə ər arvadını, arvad ərini, qonşu qonşusunu, qohum qohumunu telekanallarla hədələyir və deyir- "Bax mənim filan istəyimi yerinə yetirməsən, filan telekanala gedib səni biabır edəcəm…"

Aydın məsələdir ki, ən səviyyəli ailələrdə belə ürəkbulandırıcı, könülyandırıcı söz-söhbətlər olur, çünki ailə özü də bir dövlətdir. İki evlənən ayrı-ayrı ailələrdə doğulub tərbiyə alır. Kim desə ki, yox biz iyirmi dörd saat bir-birimizə can deyib-can eşidirik, bu inanılmaz bir şey olar. Hər bir ailədə xoşbəxt günlər də, acılı-ağrılı günlər də olur. Ailədə yaşayan cütlük bir-birinin mənfi-müsbət cəhətlərini duyur, anlayır və bir-birlərinə güzəştə gedirlər, bu birliyi ömürlərinin sonuna qədər qoruyub saxlayırlar. Özünü digərindən yüksəkdə görən kəs heç vaxt yarısı deyib ailə qurduğu kəslə bir

yerdə axıra qədər qala bilməz. Bax belə ailələrin acılarını şouya çevirənlər başqalarının bədbəxtliyindən qazanc əldə edənlərdir!

Həyatda özünə bir yer tutmayan insanların faciəsini, həyatını şouya çevirib və onları ssenariləşdirən, bununla özlərini istedadlı telejurnalist adlandıranlar bilməlidirlər ki, yara ağrıyanda ona duz basmırlar… Sizlər isə yaraya duz basıb ondan həzz alanlarsız. Bunun bir adı da manyaklıqdır. Manyak elə tutub adam öldürmür ki, bu kimi mənəviyyatı puç edən işlərin özü də manyaklığın bir növüdür. Beynini, ağlını, zehnini, şüurunu bu kimi işlərə sərf edənlər mənəviyyatımıza bağışlanılmaz zərbə vururlar. Əgər bu kimi, insanı aşağılayan telelayihələrə son qoyulmasa, bizlər çox illər belə zərbələrin acısını dadacağıq. Kitabdan, bilikdən uzaq düşüb falçı dalınca qaçacağıq, dinə yox, mövhumata pərəstiş edib onun əsirinə çevriləcəyik. Müxtəlif sektaların, yalançı peyğəmbərlərin səcdəsində olacağıq. Nə qədər gec deyil, ey teleməkan əhlini idarə edənlər, hərəkətə keçin, mənəviyyatımızı aşağılayan, mənliyimizi heçə-puça endirən bu dırnaqarası vətən cəfakeşlərinə dur deyin! Sonra vallahi, billahi gec olacaq, biz bu biabırçılıqları yığıb-yığışdıra bilməyəcəyik. Gəlin sözümüzə, özümüzə, görən gözümüzə hörmət qoyaq. Axı bunları bizə Tanrı bəxş edib. Bəxşişi belə qorumazlar…

Ey Vətən əhli, onu da sizlərin diqqətinə ərz edim ki, bəndəniz, yəni mən heç kimə öyüd-nəsihət-filan vermək fikrində bulunan deyiləm. Elə içi mən qarışıq, bizlərin hər birinin çatışmazlıqları var. Mükəmməl Yaradandır deyirlər.

Yaradan hər birimizin yardımçısı olsun. Sizlərə sağlıq diləyilə yazımı tamama yetirirəm. Sağ olun, salamat qalın…

09.11.2013

BİR OCAĞIN İŞIĞINDA

(*Əli Rza Xələfli – 60*)

2008-ci ilin qış ayı idi. Bir gün həmkarım Fəridə Ləman mənə telefon açdı və dedi ki, gəl gedək "Kredo" qəzetinə sənin çapdan çıxmış kitablarının təqdimatını edək. Açığını deyim ki, yaradıcı aləmdən kənarda işlədiyim üçün və bu qəzet satışda olmadığına görə adını birinci dəfə eşidirdim. Bir çox yaxından tanıdığım adamlar "Kredo" qəzetinə gedib gəlsələr də, mənə o haqda bir məlumat verməmişdilər. Bu mənada dəyərli ziyalı xanım Fəridə Ləmanın bu xeyirxah addımını heç zaman unutmayacağam. Biz

“Kredo” qəzetinin redaksiyasına gəldik. Qəzetin baş redaktoru, cəfakeşi, ədəbiyyat yolunda ömrünü, günü şam kimi əridən Əli Rza Xələfli ilə ədəbi tanışlığım belə başladı. Açığını deyim ki, qəzeti əlimə alıb səhifələrilə tanış olanda heyrətdə qaldım, sanki qəzet başdan-başa ədəbi aləmin söz tutumlu, söz urvatlı alimlərinin, şairlərinin, yazıçılarının, ümumilikdə bütün ziyalı təbəqənin ədəbi ocağı idi. Bu ocağın işığı gözlərimdə ulduz kimi parladı, könlümü, ruhumu riqqətə gətirdi. Bütün redaksiyalardan qaçan, tənhalığı özünə əbədi bir meyar seçən ürəyim elə bil illərlə bu qəzetin, bu ocağın axtarışında olmuşdu. Elə bil Fəridə xanım həmin gün illər boyu həsrətini çəkdiyim bir məbədin, bir ədəbi hücrənin qapısını tanıtdırdı mənə… Qapını açıb içəri girəndən bu qəzetdə bir doğmalıq, bir istiqanlılıq gördüm. Mən baş redaktorun timsalında ədəbiyyatın bütün ağrı-acıları ilə cilalanmış, ürəyi söz kəhkəşanıyla dolu bir insanın narahat baxışlarıyla qarşılaşdım.

Bu bütün ədəbiyyat aləmimizin tanıdığı, bildiyi Əli Rza Xələfli idi. O gün mən ona illər öncə çapdan çıxmış kitablarımı təqdim etdim. Bu kitablar çox adamlara təqdim olunmuşdu, amma bəziləri susmuş, bəziləri isə qısaca nə isə yazmaqla mənə vəfadarlıq etmişdilər…

Həmin günün axşamı Əli Rza müəllim evimizə telefon açdı və mənim çapdan çıxmış kitablarım barədə bir çoxları kimi qısqanclıq hissi keçirmədən ürəkdolusu xoş sözlər söylədi və haqqımda kitab yazmaq qərarına gəldiyini bildirdi. Bu söz kəhkəşanı ilə aşıb-daşan insan o axşam mənim ilham pərimə qol-qanad verdi. Düşündüm ki, İlahi, illərlə yazıb çap etdirdiyim kitablarıma olan susqunluğa, sükuta, laqeydliyə son qoyuldu. Deməli, çoxlarının gözünü qamaşdıran “Kredo”nun istisi ətrafın soyuqluq buzlarıyla üşüyən kitablarımı öz ədəbi atəşilə isidəcəkdi, mənim bir şair olaraq yazdıqlarımı ətrafa faş edəcəkdi! Bundan böyük xoşbəxtlik bir yazar üçün nə ola bilərdi ki, yaradan mənə bu bəxtiyarlığı nəsib etmişdi. Beləliklə, 2008-ci il boyu, Əli Rza Xələfli tam düz bir il “Kredo” qəzetinin səhifələrində haqqımda və yaradıcılığım barədə yazdığı “Adı Şadiman olanın…” kitabını hissə-hissə çap etdi. 2009-cu ildə isə onu kitab halında çap etdik. Kitab çap olunanda çox sevinirdim, necə deyərlər, sevincimin həddi-hüdudu yox idi. Bu sevinc ona görə idi ki, illərin sükut buzları ərimişdi, bu kitab mənim yazdıqlarım haqqında ilk qaranquş, ilk kimlik, ilk diləkçə idi. Bu diləkçəni yazıb kitab halında araya-ərsəyə çatdıran isə heç kəsin yaradıcılıq aləminə həsəd aparmayan və həsədi paxıllıq səviyyəsinə qaldırmayan, böyük söz xiridarı Əli Rza Xələfli ətə-qana gətirdi.

Bir il içində “Kredo”da gen-bol publisist yazılarım, şeirlərim, poemalarım çap olundu. “Kredo” qəzetində çap olunan poemalarımdan biri “Burdan bir atlı keçdi” Əli Rza müəllimin diqqətini çəkdi. O mənə zəng edib dedi ki, bu poema məni çox həyəcanlandırıb, mütləq ondan bir kitab yazacam, ürəyim doludur. Açığını deyim ki, mən etiraz da etdim, dedim ki, məndən təzə yazmısınız, sonra deyərlər ki, ancaq Şadimandan yazır.

Dedi: Yox e, məni bu poema həyəcanlandırıb, mən mütləq ondan yazmalıyam.

Mən də dedim ki, bu poema olmuş hadisədən götürülüb və heç nə orda uydurulmayıb, yəni yazar təxəyyülünün məhsulu yox, həyatda baş vermiş Qərbi Azərbaycandan olan bir qəhrəman insanımızın hekayəsidir. Əli Rza Xələfli həmin poema əsasında yazdığı publisist kitaba “Axtala Əfsanəsi” adı verdi. Bu kitab da 2010-cu ildə həyata vəsiqə aldı. Təkcə bir poemam haqqında yazılan bu kitab, yaradıcılığım barədə yazılmış onun ikinci kitabı oldu. Mən artıq “Kredo”ya və orda işləyən işçilərə elə bağlanmışdım ki, onları bir həftə görməyən kimi darıxırdım, elə bil nə isə itirirdim.

Yenə də həmin ili redaksiyaya gəlib-gedən jurnalist Nəzirməmməd Zöhrablı bu ocaqda mənim kitablarımı gördü, diqqətini cəlb etdi və “Üçrəngli bayrağa bürünmüş şairə” kitabını yazdı və kitab 2010-cu ildə çap olundu. İstəkli oxucular, görün bu redaksiyanın işığı, nuru nə qədər mənim yaradıcılıq yoluma şəfəq saçdı… Üç ilin içində artıq mənim və yaradıcılığım haqqında 3 kitab hasil olmuşdu. Bütün bunların səbəbkarı isə “Kredo” və onun başında duran Əli Rza Xələfli idi.

2011-ci ildə Ağdam bölgəsinin Orta Qərvənd kənd sakini doqquz yaşlı Fariz Bədəlovu düşmən snayperi öz evlərinin həyətində vurmuşdu. Biz də bir qrup yazar qadınlar Azadə Talehin səbəbkarlığı ilə həmin hadisə baş verən kəndə, şəhid balamızın qırxına getmişdik. Doğrusu, o yerlər bizi həm çox həyəcanlandırmışdı, həm də qeyzləndirmişdi. Öz torpağımızda düşmən səngərlərinin 300 metrliyində idik. Kənd evləri yağı güllərindən dəlik-deşik idi, körpəcə balasını itirmiş ananın hönkürtüləri indi də qulaqlarımdan getmir… Bu nə vəhşilikdir, İlahi, axı davanı böyüklər edir, həyata təzəcə göz açmış balaların nə günahı?! Qafqaza bu qanı salanların Tanrı cəzasını versin!

Müharibə bölgəsindən, Qarabağdan qayıdandan sonra mənim Qarabağ haqqında silsilə şeirlərim yarandı, onlardan biri də hələ həyatın, ağrı-acısını dadmamış körpəcə şəhidimiz Fariz Bədəlova həsr etdiyim poema oldu. Bu nəzm dili ilə yazılan hekayə idi. Həmin nəzm-hekayəni bütün ruhumla bağlandığım “Kredo” qəzeti redaksiyasına gətirdim. Əli Rza

Xələfli məmnuniyyətlə həmin poemanı qəzetin çapa gedəcək səhifəsində dərc etdi. Bu poema da Əli Rza Xələflinin sərrast diqqətindən yayınmadı və həmin poemanın motivləri əsasında onun "Qırmızı Həqiqətlər" adlı publisistik kitabı hasil oldu.

Beləliklə, bu böyük insan, böyük ziyalı, dəyərli Vətən oğlu, dəyərli söz xiridarı, bugünkü ədəbiyyatımızın usanmaz cəfakeşi illərlə ağ vərəqlər üstünə yazıb tökdüyüm şeriyyətimi yaradıcılığıma həsr etdiyi üç kitabla qiymətləndirdi. Ümumilikdə artıq haqqımda dörd kitab yazılmışdı. Bütün bunların səbəbkarı "Kredo" qəzeti idi. Bir yazara bundan böyük barat nə ola bilərdi?!

Haqqa, həqiqətə qiymət verən, əsl sözün səcdəsində olan Əli Rza Xələfli… Siz "Kredo" adlı bir ocaq çatdız, bu ocağın istisinə, işığına, atəşinə əli qələm tutan, qəlbində tükənməz söz-sov bulağı olan qələmdarlar, sözkeşlər, ürəyində ilahinin verdiyi ilham çeşməsini qaynadanlar üz tutur. Bura kim üz tutursa, heç kəsin yazdığı məqalənin, şerin, hekayənin kobud dillə desək burnu, qulağı kəsilmir. Hər müəllifin ürəyinin və əqlinin məhsulu olan yazı olduğu kimi də "Kredo" qəzetinin səhifələrində çap olunur. "Kredo" adına ziyalı dediyimiz ədəbiyyat aləminin danılmaz bir hücrəsidir. Bu hücrə dünən də, bu gün də maddi baxımdan çətinlik burulğanında əzilməkdədir. Əli Rza Xələfli bu qəzeti satışa da qoymur, çünki o istəyir ki, qəzet əsl ziyalı insanların, ədəbiyyatın can-dildən səcdəsində olanların, söz-sova qiymət verənlərin əlinə düşsün. Satışda olub hər yetənin əlində bazara gedib çıxmasın və nəyəsə bükülüb atılmasın. Mən bunu heç zaman Əli Rza müəllimdən soruşmamışam, amma özlüyümdə belə nəticə çıxarmışam. Yəqin ki, gəldiyim qənaət doğrudur. O istəmir ki, qəzet səhifələrində gedən məzmunlu, bir-birindən dəyərli ədəbi, elmi tutumlu məhsulları qədirbilməzlər cırıb atsın.

Bu gün bu sanballı, bu urvatlı qəzet hər şeyi həll edən və çox şeyin yerini verməyən maddiyyat acıları yaşayır.

Bəlkə Əli Rza Xələfli "Kredo"ya görə pul-para acısı çəkməsəydi, vaxtını, ancaq yaradıcılığa sərf etsəydi, bundan da çox kitabların müəllifi olardı, amma "Kredo" olmazdı, bu ocağın işığına toplaşanlar olmazdı və mənim kimi yolu bağlı söz adamlarının da yolunda yaşıl işıq yanmazdı. Bu insan tək özü üçün çalışmır, bütünlükdə ədəbiyyatımız üçün ömrünü, gününü xərcləyir. Bu yolun enişinə, yoxuşuna baxmadan, yorulmadan, usanmadan "Kredo"nun ocağının sönməməsinə çalışır. Onun ətrafında toplaşan insanların ruhunu cilalayan, ilhamını şölələndirən "Kredo"nun…

Milyonları uf demədən xərcləyənlər, görəsən, bu ədəbiyyat cəfakeşinin qaladığı ocağa az da olsa əliaçıqlıq edərlərmi? Axı bu ocaq Azərbaycan dediyimiz bir ölkənin mənəviyyatının carçısıdır. Ədəbi aləmin söz xəzinədarıdır! Tarixi oğurlanan, torpaqları paramparça, yağılar əlində qalan Azərbaycanın!!!

Bizim mühitdə yaradıcı insan nə qədər sağdır, ətrafdakılar ona layiq olduğu dəyəri vermir, dünyasını dəyişib yüz il keçəndən sonra düşürlər əl-ayağa, deyirlər ki, bu bizimdir, bizə məxsusdur, bizim millət, bizim xalq bunu yetirib. Əli Rza Xələflinin və "Kredo"nun hali-vəziyyəti mənə keçən əsrin əvvəllərində Cəlil Məmmədquluzadəni və onun arayaərsəyə gətirdiyi "Molla Nəsrəddin"i xatırladır. Mən bu haqda başqa bir məqaləmdə də yazmışdım. O da çətinlik burulğanında boğulurdu, bu da. O da maddiyyat əzabı çəkirdi, bu da… O da laqeydlərin ona etdiyi sitəmlərlə qol-boyun idi, bu da…

Nədənsə çox vaxt mənəviyyat adamının qəlbi dolu, cibi boş, maddiyyat adamının cibi dolu, qəlbi boş olur.

Bütün bu natamamlıq cəmiyyətdə baş alıb gedən sayğısızlıqları artırır. Bu gün cəmiyyətimizdə sayğısızlıq artmamaqçün mənəviyyatımıza xidmət edən söz adamlarına yardımçı olmalıyıq. Bu gün imkanlı adamlarımız səsi olmayan bir çox şou əhlinin yolunda pul-paralarını xərcləyir. Onlara hər cür tərəfkeşlik edir. Nə olardı üzlərini dünənimizin, bugünümüzün, sabahımızın tarixinin qurucusu olan söz adamlarına tərəf çevirəydilər. Axı ədəbiyyatı olmayan xalqın varlığı da başqa xalqların içində itib batır, çünki doğru-düzgün tarix ədəbi əsərlərdən törənir, ədəbi qəhrəmanların dili ilə zamanın səhifələrində yaşam qazanır. Düzgün tarixi ədəbiyyat adamı yaradır. Ömrünü çıraq kimi yandıran ədəbiyyat adamı…

Bu gün biz çoxumuzun gözünün qabağında ehtiyac içində çapalayan "Kredo"nun varlığına barmaqarası baxırıq. Mənim filan yazımı çap etmədi deyib küsüb-inciyirik, amma bu qəzetin hansı əzablar hesabına çap olunduğunun fərqində olmuruq. Heç bir dövlət dəstəyi almayan, heç bir qurum tərəfindən maliyyələşməyən bu qəzet yalnız və yalnız əzabı çiyinlərində inləyən, cibi boş, qeyrəti çox yazı adamlarının ümidinə qalıb. Onların kiçicik maliyyə yardımlarıyla işıq üzü görən qəzet anbaan ocağı, sönmək, işığı keçmək təhlükəsi ilə üz-üzədir.

Qoy qəzet çıxardanlar, jurnal çap etdirənlər məndən inciməsin, hansı qəzeti, hansı jurnalı əlimə alıb səhifələrini vərəqləmişəmsə mənə "Kredo"dan aldığım ədəbi zövqü bəxş etməyib.

Bu qəzetdə bir təbiilik, bir doğmalıq, ədəbiyyat dediyimiz söz bağçasının rayihəsi var. Bu rayihənin təması səni ağuşuna alır, söz kəhkəşanına aparır. Bu qəzetdə söz tutumlu, söz yükümlü alimlərimizin ədəbi, bədii fikir boğçasından qaynaqlanırsan. Müxtəlif dövrlərdə, zamanlarda yaşamış təfəkkür sahiblərinin yaradıcılığından bəhrələnirsən. Onların döyünən ürəyini, zəkasını misralarda, sətirlərdə, qələm adamlarının ədəbi məhsulu olan yazılarda hiss edirsən.

Əli Rza Xələflinin yaratdığı "Kredo" XX əsrin sonu və XXI əsrin əvvəli fikir, ədəbiyyat tariximizdə özünə layiqli yerlərdən birini tutmuş dəyərli mənəviyyat ocağıdır! Bu ocağın şöləsinə yığışanlar, istisinə qızınanlar onu sönməyə qoymamalıdırlar. Bu qəzet gecəli-gündüzlü sözlə çalxanan, sözlə alışıb-yanan, fikir bağçası daim söz çiçəklərilə gözəlləşən dəyərli qələm əhlinin ocağıdır! Bu ocaqdan gələn şölə hələ çox-çox əsrlər nəinki Azərbaycan məkanının, hətta böyük və əzəmətli Türk dünyasının fikir, zəka tarixində layiqli bir çıraq olacaq. Necə ki biz dünəni arayıb, axtarıb tədqiq edirik, bugünü də gələcək nəsillər tədqiq edəcək. Çətinliklər içində vurnuxan, ehtiyac içində çapalayan bu ocağın çəkdiklərini sabahımızın işıqlı söz xiridarları qələmə alacaq.

60 ilin işığına saysız publisist və şeir kitabları cərgələnmiş Əli Rza Xələfli bugünümüzdən boylanan dəyərli qələm adamı, qeyri-adi istedadı olan söz xiridarıdır. Onun hamıya öz doğması kimi baxan yumşaq ürəyini uca Tanrı qorusun!

Biz də gəlin, ey qələm əhli arasında ayrı-seçkilik edənlər, bu gün hələ canı üstündə olan, nəfəsi gedib-gələn minlərin, milyonların içindən çıxan şəxsiyyətlərimizi qoruyaq. Onları Yaradan adda-budda qismət edir millətə, xalqa, Vətənə… bizlərə…

Bu gün çoxlarımız paralarımızı saymaqla, müxtəlif kef ocaqlarında, yeyib-içmə məkanlarında pul xərcləməklə, diyarbədiyar düşüb dünyanı gəzməklə məşğuluq. Biz də gedərgiyik, paralarımız da, yığdığımız hər nə varsa, varlığına tapındığımız övladlarımız da…

Yalnız və yalnız doğma Vətənimizə ərməğan mənəviyyatımızın, düşüncəmizin bizlərə əxz etdiyi ədəbi-elmi bilik xəzinəmizdən öc alan kitablar qalacaq. Bu kitabları araya-ərsəyə gətirən ocaqlardan birincisi "Kredo"dur. Neçə-neçə alimlərin, yazıçıların, şairlərin dəsti-xətti bu qəzetdən boylanır, sanki bu qəzet də canlıdır, öz sahibi kimi, o da ətrafın ona bəxş etdiyi soyuqluqdan, laqeydlikdən, unutqanlıqdan sızlayır. Gəlin sizli-bizli "Kredo"muzun, amalımızın sabahına çıraq tutaq, bu ocağın unutqanlıq sayəmizdə sönməyə

məhkum edilmiş közlərini kül olmağa qoymayaq! Çünki bu közlər əlinə qələm tutub özünü yazıçı qismində görən və bu hücrənin qapısını açan hər birimizin mənəviyyat yuvasıdır! Bu yuvadan gələn işıq hamımızın gözlərinə çıraq tutur. Gəlin çırağımızı sönməyə qoymayaq.

Müqəddəs ədəbi amalı uğrunda uzun yola çıxan "Kredo"muzun baş redaktoru Əli Rza Xələfliyə 60 ilin ucalığında cansağlığı, bol-bol yaradıcılıq sevincləri və uğurlar diləyirik. Öz adımdan yaradıcılığımla bağlı qazandığım uğurlarda danılmaz payı, xidməti olan bu böyük insana İlahidən səbir və dözüm arzulayıram. Qoy səbirlə dözüm onunla yol yoldaşı olsun, bundan sonra da başçılıq etdiyi qəzetin işıq üzü görməsində ona yardımçı olsun!

Sonda isə, ey Vətən əhli, ey bizi dinləmək istəyənlər və istəməyənlər, bizim harayımıza qulaq kəsilənlər və kəsilməyənlər, Uca Yaradan hər birimizin varlığına pasiban olsun. Bu yazını qəlbimin hönkürtüsü ilə, əqlimin diktəsilə sizlər üçün yazdım, rica edirəm oxuyub nə demək istədiyimin fərqində olasız.

Hələlik deyirəm sizlərə, sağ və salamat qalın.

15.11.2013

"QANUN" NƏŞRİYYATINA CƏRİMƏ, MƏNƏVİYYATA ZƏRBƏ

Kütləvi təbliğat vasitələrinin – qəzetin, kitabın, jurnalın küncə qısıldığı bir zamanda nəşr evlərinə edilən basqılar adama təəccüblü gəlmir. Ziyalı kəslərə yaxşı məlumdur ki, yazı adamının acınacaqlı taleyi ilə nəşriyyatlara başçılıq edənlərin çəkdikləri demək olar ki, üst-üstə düşür. Nəşriyyatlar, onlara üz tutan cibi boş, qəlbi dolu yazarların yazdıqlarının üzə çıxmasında yardımçı olan əvəzsiz ocaqlardır. Teleməkanlarda şou layihələrin baş alıb getdiyi bir vaxtda, insanların şəxsi münasibətlərinin efirə daşındığı, maddiyyatın mənəviyyatı aşağıladığı, insanların kitabdan, mütaliədən, mətbuatdan uzaq düşdüyü bir zamanda mənəviyyata xidmət edən qurumlar cərimə olunmamalıdır, əksinə, onlara yardım edilməlidir. Zənnimizcə, nəşriyyatlar vergidən azad olunmalıdır, çünki nəşr evləri birbaşa kitab nəşri ilə bağlıdır, KİTAB isə millətin, cəmiyyətin, ölkənin işıqlı gələcəyi deməkdir. Dünyada mütaliə etməyən millətlər elmdən, savaddan, həyata baxışdan həmişə kasadlıq çəkmişlər, elmli, bilikli millətlərin boyunduruğunda sürünmüşlər, işıqlı gələcəyimiz naminə nəşr işilə məşğul olan kəslər qeyri-biznes sahələrində öndə gedənlərlə bir tutulmamalıdır.

Naşirlər qələm əhlinin cəfasını çəkənlərdir. Özləri də bu cəfanın içində əzab və əziyyətə qatlaşanlardır.

"Qanun" nəşriyyatı nəşriyyatlar içində öz dəqiqliyilə xüsusi fərqlənən, qələm adamının ədəbi məhsuluna hörmət, sayğı göstərən, çap olunan dərginin, kitabın vaxtında müəllifə yetişməsinə vicdanla yanaşan dəyərli ədəbi orqandır. Bu ədəbi orqanı cərimə ilə əzib məhv etmək olmaz. Bu, "Qanun" nəşriyyatıyla əməkdaşlıq edən hər bir söz adamının ürəyinə zərbədir.

Gəlin etiraf edək ki, ölkəmiz mənəviyyat sarıdan getdikcə kasadlaşmağa doğru gedir. İndi para qazanmaq üçün öz millətinin varlığından, dövlətçiliyindən keçənlərin sayı ölkəmizdə günbəgün artmaqdadır. Məktəblərin, universitetlərin, müxtəlif elm ocaqlarının çiçəkləndiyi bir məmləkətdə biz mənəviyyatsızlıq azarı ilə üzbəüz qalmışıq. Ali təhsillilərin bir çoxunun ali təhsil almamışlardan heç nəylə fərqi yoxdur. Nə təhsildə, nə dünyagörüşdə, nə də həyata baxışda!

"Qanun" nəşriyyatının cəriməylə varlığına qənim kəsilmiş kəslər bilməlidirlər ki, bu nəşr evi kartof, soğan satmaqla məşğul olmur, o vətən insanının layiqli yetişməsi üçün bugününə, gələcəyinə xidmət edir, tərcümə ədəbiyyatı ilə məşğul olur, digər xalqların dillərində yazılmış ədəbi məhsulları ana dilimizə tərcümə edir, ən nəhayət, kitab yayımına köməkdarlıq edir. Bu nəşriyyat onunla əməkdaşlıq edən yazı adamının mənəvi qidasıdır, bizi mənəvi qidamızdan təcrid etməyin! Müstəqillik qazandığımız gündən bugünə qədər hələ də az-maz qalan kitab mağazalarında rusdilli bədii məhsullar çoxluq təşkil edir. "Qanun" nəşriyyatı isə bu müqəddəs missiyanı öz üzərinə götürüb, tərcümə işi ilə məşğul olur, cəhd edir ki, millətin balaları ana dilində xarici ədəbiyyatdan bəhrələnsinlər. Belə olan halda onlara dəstək olmaq əvəzinə, onları cərimələyirik ki, nəşriyyatı bağlamağa məcbur olsunlar. Söyləyin bir, ey qanun keşikçiləri, bu hansı məntiqə sığışar? Əksinə, nəşriyyatlar sabahımızın xoşbəxtliyi naminə həm dövlətdən, həm də imkanlı şəxslərdən dəstək görməlidir.

Ümidvarıq ki, ölkəmizin başçısı səviyyəsində bu məsələ "Qanun" nəşriyyatının sabahı naminə xeyirə həll olunacaq. Bu həm də "Qanun" nəşriyyatıyla əməkdaşlıq edən yazar əhlinin arzusudur. Gəlin sizli-bizli bu arzuya qoşulaq. "Qanun" nəşriyyatının, həmçinin digər nəşr evlərinin sabahı naminə…

11.03.2014

İMPERİYA HƏVƏSLİ QULLAR

Bu yazını heç qələmə almaq istəməzdim, ancaq nə edəsən, səni məcbur edirlər ki, yazmaq istəmədiyin mövzulara da qələm çalasan. Əfsuslar olsun ki, bizim əhalinin bir qismi internet saytlarında, sosial şəbəkələrdə var-gəl edir, ürəyində nə dərd-səri var hamısını açıb dünyaya faş edir. İş tapmayanlar, məmur özbaşınalığından təngə gələnlər, keçmişlərin xəyallarıyla aşıb-daşanlar, "bəlkə də qaytardılar" xülyası ilə yaşayanlar, bugünün azadlığına da, müstəqilliyimizə də xor baxanlar, sovet eşqilə həyatını qurban verməyə hazır olanlar, türk adına, türklüyə lənətlər yağdıranlar, Rusiya başçısının hazırkı hərəkətlərindən vəcdə gələnlər gündən-günə çiçəklənməyə başlayıb. Sosial ədalətsizliyin tüğyan etdiyi ölkələrdə el dili ilə desək, ara qarışdırmaq çox asan olur. Belə ölkələrdə qırğınlar salmaq, necə deyərlər, şəhərlərin, kəndlərin tozunu göyə sovurmaq, etnik qövmləri bir-birilə döyüşdürmək, çarpışdırmaq həmişə imperiyalar əlində ən güclü silah olub. Əslində biz heç Rusiya ilə ərazi baxımdan qonşu deyilik, amma o, kilometrlərlə yol qət edib və gəlib bizim qulağımızın dibində oturub. Rusiya başçıları Qafqaza qədəm qoyan gündən türk-erməni, müsəlman-erməni düşmənçiliyi yaradıb, bu düşmənçilik həm onların, həm bizim ürəyimizdə dərin yaralar açıb. Necə deyərlər, həm erməniləri əbədi bədbəxt edib, həm də bizi… Bu gün sosial şəbəkələrdə Rusiyanın bugünkü siyasi mövqeyindən zövq alanlar, məmur azğınlıqlarını imperiya ilə hədələyənlər bilməlidirlər ki, heç bir imperiya digər millətlərə xoşbəxtlik gətirmir, o da olsun Rusiya… O ölkəyə bizim isti iqlimimiz, təbii sərvətlərimiz lazımdır, bizim varlığımız isə onlara qətiyyən lazım deyil, ruslar o qanlı-qadalı illərdə bizləri buralardan yox etmək istəyirdilər, amma bizim içdən milli dirənişimiz, dilimizi, adət-ənənəmizi qorumağımız, kökümüzdən-soyumuzdan uzaq düşməməyimiz onların imperiya hisslərinə üstün gəldi. Bu gün sovet eşqilə aşıb-daşanlar bilməlidir ki, o quruluş bir də geri qayıtmayacaq, o quruluş özü də kökündən bədbəxt və yerində sayan quruluş idi, insan yaxşı nəsə bir geyim almaq istəyirdisə, bir-iki aylıq qazancından keçirdi, pullarımız o zamanın dili ilə desək "alverçilərin" əllərində toplanırdı. Dükanlar boş olurdu, çörək, ət, kolbasa, pal-paltar növbələri, adamların günü növbələrdə keçirdi. Hələ bir-birinin başını yaran, bir-birinə xəsarət yetirənlər də olurdu. Biz hamımız məhbəsdə idik, təsadüfən xaricə yolu düşənlər də ordan qorxa-qorxa nə isə gətirirdi, qohum-qonşu da

onun gətirdiyi pal-paltara, həsədlə baxardı. Bizim arzularımız boynumuza bağladığımız qırmızı qalstuklar idi, sonralar onlar rus gülləsinə çevrilib ürəyimizə dikləndi. Biz indi müstəqilik, amma müstəqillik özüylə bizə çox böyük əzab-əziyyətlər də gətirib. O əziyyətlər nədir?

Birinci əziyyət, işğal olunmuş torpaqlar, dondurulmuş müharibə, susmayan güllələr… İkinci, bizim ölkəmiz 200 ildən çox qul psixologiyası ilə yaşayıb, köləlik düsturu ilə qol-boyun atıb, insanların içində vara hərislik, ac qalmaq təhlükəsi, yığmaqla doymamaq hazırda keçmişin bizə vurduğu sağalmaz xəstəliklərdən biridir. Yəni gözümüz acdır, yetmiş il sovet hökuməti kimləri hakimiyyətə gətirirdi? Tam savadı olmayan, səfil, yoxsul adamları, bu adamlar sonradan yavaş-yavaş təhsil görməyə başladılar. Yəni gözü ac adamların törəmələri meydana çıxdı… Əgər insanın gözü ac olmasa, o yığdığı varidatla çox böyük xariqələr yarada bilər, milləti, ölkəni ayağa qaldıra bilər, camaatın sevgisini qazana bilər. Xeyirxahlıq, ancaq halal pulla ola bilər, Zeynalabdin Tağıyev, Musa Nağıyev, Murtuza Muxtarov və başqa milyonerlər sovet vaxtından qabaq öz halal pullarını necə xeyirxahlığa sərf edirdi…

İndi isə bizdə əksinədir, getdikcə insanların indiki quruluşa da, onun məmuruna da nifrəti artır. Bunu biz özümüzdən demirik, insanların yas yerlərində, toy ziyafətlərində, sosial şəbəkələrdə, bir çox saytlarda söylədiklərinə, yazdıqlarına rəğmən bu fikirləri yazmağa məcburuq. Əlinə vəzifə keçənlər bu ölkədə özünü Allah sayır, başqalarına yuxarıdan aşağı baxır, artıq vəziyyət o həddə çatıb ki, sürdükləri maşınların sükanını idarə etməyə qadir deyillər, necə deyərlər, camaatı ayaq altında tapdalayırlar. İndi müharibədən də çox yol qəzalarında insanlar həlak olur. Bunumu biz arzulamışdıq?! Ruhunda qul psixologiyası oturuşmuş insanlar, təzədən yatmış hisslərini ayıltmağa başlayıblar: Bizim dərdimizə yalnız "böyük qardaşımız"əlac edə bilər. Artıq rus eşqilə yanıb-yaxılanlar bugünlər Rusiyanın atdığı yanlışlıqları alqışlamağa başlayıblar. Deməli, yuxarılar varidat yığıb kef çəkməklə məşğul ikən, millətin miskin hissəsinin içində bölünmələr baş alıb gedib, dini parçalanmalar dini əndişələrə gətirib çıxarıb, iş o yerə gəlib çatıb ki, öz torpağında əsgərlik çəkərkən ata-anası on dəfələrlə yanına gedib gələn oğullarımız indi Suriyada bir-biriylə çarpışan məzhəblərarası rəzil savaşın qurbanı olurlar. Bir qarın çörək üçün özgə məmləkətlərdə od-alovun içinə atılırlar! Axı biz bu müstəqilliyi ona görə qazanmışdıq ki, gedib dilini belə bilmədiyimiz ölkələrdə qanımıza

qəltan olaq? Bunun kökündə nə dayanır? Bunun kökündə dayanan yəqin ki, maddiyyatdır, bu, qəpik-quruşla yaşayan insanların artıq öz ölkəsinə qarşı ümidsizliyi və yad ölkələrdə imdad aramaq istəyidir. Bu yaxınlarda görkəmli politoloq Vəfa Quluzadənin 5-ci kolon barədə dediyi fikirlərin canlı təzahürü insanların sosial şəbəkələrdə, bir çox saytlarda, etnik qarşıdurma prinsiplərinə söykənən fikirlər səsləndirməsi, ölkə içində baş alıb gedən incikliklərdən xəbər verir. Məmurların bir gündə xarici ölkələrdə xərclədiyi pulları bu məsum insanlar on illərlə əldə edə bilmir. Ölkəmizdə hələ də 160-180 manat maaş alan və bu maaşla ailəni saxlamağa məhkum olan insanlarımız var. Günəmuzd daş karxanalarında işləyən insanlar artıq öz varlıqlarına belə nifrət edirlər. Axı sovet quruluşundan bizi elə də uzun bir dövr ayırmır, o dövrün insanları hələ həyatdadı. İndiki həyatla keçən dövrü müqayisə edirlər, deyirlər ki, o vaxt heç nə tapılmasa da iş var idi. Heç kim heç kimə hambal kimi baxmırdı. O zaman burdakı azğınları Moskva ilə qorxudurduq, indi isə harınlamış adamlar heç kəsdən qorxmur, hətta millətin nə gündə yaşamasını da artıq unudublar, ölkədə bahaçılıq baş alıb gedir, insanlar ət, balıq, bir çox yeyinti məhsullarını almağa çətinlik çəkir, necə deyərlər, hər şey var, pul yoxdur! Adicə qarın dolandırmaq müşkülə çevrilib, ilbəil oğruların, yolkəsənlərin, öz evində pul-para üstündə öldürülənlərin sayı artır, hamı banklardan asılı qalıb. İndi doğmalar doğmalardan üz döndərib, hamı öz hücrəsinə çəkilib, insanlar əsəbidir, hər gün narazı üzlərlə metroda, digər nəqliyyat vasitələrində qarşılaşırsan, necə deyərlər, ümidsiz gözlər üzür adamı, cənablar! Sovet dövrü pul var idi, yemək qıt idi, indi yemək bol, para qıt.

Bax budur, insanları bizə yad olan məzhəblərə üz tutmağın, "böyük qardaş" eşqilə alışıb-yanmağın, etnik qrupları bir-birinə qarşı çıxartmağın səbəbi… Ac adamda nə vətən hissi, nə millət istəyi olar, çünki ac qarının qurultusu, nəinki adamın özünü, onun yaşadığı ölkəni də zəlzələtək titrədər və böyük dağıntılar törədə bilər.

Müstəqillik hər bir dövlətin insanları üçün böyük xoşbəxtlikdir, amma bu xoşbəxtlik o dövlətin insanlarına heç olmasa orta dolanışıq səviyyəsində çatırsa… Bizim ölkənin müstəqilliyi kövrək və gəncdir! Gənclər necə dözümsüzdürsə, bizim müstəqillik elə dözümsüzdür, hələ oturuşmayıb, o da olsun ki, qarşıda dondurulmuş qanlı müharibə, düşmənimiz arxasında dayanan qorxulu, əli saysız-hesabsız qanlara batan yağı. Necə deyərlər, ilahi, məni düşmənimin dostundan qoru, düşmənimlə özüm

bacararam. Türküylə, farsıyla, talışıyla, ləzgisilə, kürdüylə, yəhudisilə, həmçinin bu ölkədə, özünü bu ölkənin doğması sayan bütün insanlarımızla birlikdə, biz hamımız bütünlükdə azərbaycanlıyıq, bu ölkə hamımızındır, hamımızın da bu müstəqilliyin bəhrəsini dadmağa haqqımız var, bu haqdan bizi təcrid edənlər bunu anlamalıdır, dərk etməlidirlər ki, xalqın əsəblərilə oynamaq olmaz, bunun fəsadlarını aradan qaldırmaq sonra çox çətin olur… Necə ki, iğtişaşlar baş qaldıran ölkələrdə olduğu kimi… Allah elə eləsin ki, müstəqilliyimiz ötən əsrdə 23 ay olmuşdusa, bu əsrdə isə neçə-neçə iyirmi üçləri keçsin, neçə-neçə əsrləri adlasın, çünki müstəqillik özü də kişilik məktəbidir! Bu məktəbin qapıları heç zaman üzümüzə qapanmasın, işğal olunmuş torpaqlarımızda, əsgərlərimiz zəfər marşı çalsın! Güneyimiz istiqlal şərbətini dadsın! Bəsdir itirə-itirə getdik, artıq yetər!..

Sonda ölkəmizdə baş qaldıran beşinci kolona məsləhət: tələsməyin, siz baxın, görün 1-2 ildən sonra Rusiyanın özündə nə baş verəcək?..

25.03.2014

İNSANLIQ VƏ VƏTƏNDAŞLIQ BORCU

İnsan, insan olmaqçün, doğulan gündən borclarla doğulur. Bu borcları aşağıdakı kimi oxucuların diqqətinə çatdırmaq olar.

1. Allahı tanımaq.
2. Halalı haramdan ayırmaq.
3. Yaxşını pisdən ayırmaq.
4. Paxıl olmamaq.
5. Ədalətli olmaq.

Bu tələbləri körpə vaxtdan insana əxz etmək üçün, birinci növbədə ailə, sonra təlim-tərbiyə ocaqları olan uşaq bağçaları, məktəblər önəm kəsb edir. Yəni şəxsiyyətin yetişməsi üçün bu ocaqlar mənəvi dayaqdır, yəni insanın insan olması tam mənada onlardan asılıdır. Sovet vaxtının böyük pedaqoqu Makarenko demişdi ki, "uşağı beş yaşına qədər tərbiyələndirmək lazımdır. Beş yaşından sonra o əks tərbiyə tələb edir". Mənə elə gəlir ki, bu fikir öz dəyərini itirməyib.

Məktəbə gedəndən sonra uşağın dünya görüşünü formalaşdırmaq, vətəndaşlıq hisslərini onun körpə qəlbində alovlandırmaq, vətənpərvər duyğularla bəsləmək əsasən müəllimlərdən asılıdır. Onlar bu əvəzsiz rolun daşıyıcılarıdır, bu danılmaz yük onların çiyinlərinə düşür. Tam mənasıyla

desək, müəllimlər məktəblərdə gələcəyimiz üçün dəyərli ana və ata, Vətəni qorumaq üçün vətəndaş yetişdirirlər.

Ölkəmizdə axır vaxtlar xeyli sayda yeni məktəblər tikilib, təzə avadanlıqlarla doldurulub, deməli, uşaqların yüksək səviyyəli təhsili üçün imkanlar yaradılıb, amma gəlin görək 200 manat maaşla müəllim öz şagirdinə obyektiv, yəni səmimi ola bilərmi? Bizim ölkəmizdə dövlət antikorrupsiya idarəsi varsa, deməli, korrupsiyanı inkar etmək ən azı nadanlıqdır. 200 manat alan müəllim məktəbdə işləyirsə, ya doğrudan da 200 manata layiq müəllimdir, onun bəslədiyi şagirdlər elə özünə oxşar, ya da dolanmağa başqa yollar tapar.

Müasir adamı bir şəxs kimi formalaşdırmaq dövrün yazarlarının boynuna bir borc təki düşür. Media insanları arasında belə fikir səsləndirilir və bu fikir rəsmi fikir təki qəbul olunur ki, altmışıncılardan sonra Azərbaycan torpağında yazıçılar, şairlər olmayıb, nə vardısa keçmişdə qalıb. Bu mövqe təəccüb yaradır ki, bəs onlardan sonra gələn nəsil içərisindən çıxan yaradıcı şəxslər hardadır? Yazarların sırasında heç vaxt indiki qədər üzv olmayıb. Altmışıncıları biz inkar etmirik. Onlar üç şeyi ədəbiyyata gətiriblər:

1. Stalinin mifini yox etməyi, bu da kommunist partiyası siyasi bürosunun sifarişi idi.

2. Dissidentliyi ədəbiyyata gətirməyi, hansı ki, gec-tez Sovet İmperiyasının məhvi ilə başa çatıb.

3. Öz şəxsi hisslərini dövlətin və millətin mənafelərindən yuxarıda tutmaq, bu da ailənin zəifləməsinə və çox ailələrin dağılmasına gətirib çıxarıb. Allahsız ölkədə allahsızlıq sovet tərkibində olan xaçpərəst respublikalarda daha çox açıq-aşkar özünü büruzə verib. Hazırda onlar demoqrafik vəziyyətdən zərər çəkir.

Altmışıncılar sovet ölkəsinin törəməsidirlər. Onların əsas müsbət cəhətləri savadlı olmaqları və əksəriyyətinin ana dilini yaxşı bilmələridir.

İndi tamam başqa dövrandır. Yeganə Sovet İmperiyasının əvəzinə on beş müstəqil ölkə yaranıb. 163 illik köləliyin əvəzinə azadlıq gəlib və biz azad ölkənin layiqli vətəndaşı olmalıyıq ki, azadlığı qoruya bilək. Bunun üçün dövlət təzə adamlar bəsləməlidir ki, özünü rus qulu yox, azad insan kimi hiss eləsin. Təəssüf ki, bunun üçün də üç nəslin dəyişməsi lazımdır, necə ki vəba epidemiyasında üç dərəcəli karantin yaradılır, çünki biz hamısı indiki yaşayanlar sovet yoluxucu xəstəliyinə yoluxmuş xəstələrik. Bu da ona gətirib çıxarıb ki, respublika içərisində azərbaycanlılardan ibarət

beşinci kolon yaranıb. İndi baxaq cavan şairlərin arasında hansı mahnıların sözləri yazılır? O mahnılar bizi azad Azərbaycanı qorumağa apara bilərmi?

Bu yaxınlarda telekanalların birində gedən verilişə baxırdım. Orada cavan bir şair də var idi. Şairin iddiası açıq deyim ki, məni sarsıtdı. Onun sözlərini olduğu kimi dəyərli oxucuların nəzər-diqqətinə yetirmək istəyirəm. Xülasə, onun dediyi fikir belə idi: «Mənim 28 yaşım var, mən şairəm, nə evim, nə də işim var. Dövlət mənə nə verib ki, mən vətəndən yazım?! Sonra da seks barədə bir şeir oxumaq istədi, aparıcı ona icazə vermədiyinə görə, o, studiyanı tərk edib getdi. O, studiyanı ona görə tərk etdi ki, onun azad və dərin fikirlərini orda oturanlar qiymətləndirməyə qadir olmadılar. Bu istehlakçı duyğular cavan adamda hardandır? Yəqin ki, sovet Azərbaycanından gələn duyğulardı, çünki sovet vaxtında bəzi şairlər və yazıçılar dövlət balansında olaraq, ad alaraq soveti, sovet ideologiyasını vəsf eləməklə çox yaxşı öz istedadlarını işlədirdilər. Bu əməklərinin əvəzində onlar Bakının mərkəzində mənzil, bağ evləri, xüsusi istirahət evində dincəlmək, kitablarını dövlət hesabına tirajlarla çap etdirmək və sair imtiyazlar qazanırdı. Bu cavan şair unudub ki, bunlar hamısı keçmişdə qalıb. Çox vaxt mediada tez-tez rast gəldiyimiz "kapitalist ölkələr" adlı bir ifadə səslənir. Bu ifadəni işlədən adam fikirləşməlidir ki, o bu ifadəni işlədəndə, deməli, kapitalist ölkələrdən fərqli bir ölkədə yaşayır. Onda belə sual doğulur, bəs biz hansı quruluşlu ölkədə yaşayırıq? Qabaq sovet dövründə biz hamımız bir nəfər kimi inkişaf etmiş sosializmi qurmağa çalışırdıq. O sovet quruluşu 1991-ci ildə məhv oldu, indi isə biz ölkəmizdə inkişaf etmiş kapitalizmi qurmağa cəhd edirik. Savadlı və ehtiyaclı adamlar bunu çoxdan başa düşüb Azərbaycan vətəndaşlığını dəyişdirib inkişaf olunmuş kapitalist ölkələrinə üz tutublar. Beləliklə, bir şeyi unutmaq lazım deyil ki, kapitalist ölkələrində heç nə pulsuz verilmir, nə mənzil, nə istirahət evi, nə də rahat yaşayış. Bütün bunların hamısını qazanmaq lazımdır.

Gənclər unutmasınlar ki, "pulsuz yalnız tələdə pendirdir". İndi gənc qızların arasında pritça yazmaq dəbə düşüb. Onlar bilməlidirlər ki, pritça sözünü rus dilindən bizim dilə çevirəndə mənası hədis anlamını verir. Hədislər isə peyğəmbərlərin işlətdiyi ifadələr və yazılar idi. Yüz iyirmi dörd min peyğəmbərdən heç biri də qadın olmayıb. Bunu gənc şairlərə ali məktəbdə oxuyanda, görəsən, müəllimlər başa salmayıblar? Çox təəccüblüdür ki, belə cavan şairlər, beş-on şeri, cızma-qarası olanlar prezident təqaüdçüləridir. Zənimcə, prezident mükafatını verəndə bir az

ehtiyatlı olmaq lazımdır. Düşünməliyik ki, bu prezident adından verilən ədəbiyyat mükafatı nə həkim seksoloqlara, nə də qız peyğəmbərlərə çatsın, çünki prezident adından belə yazarlara verilən mükafat, bu mükafatı devalvasiyaya aparır. Mənim yaxşı yadımdadır ki, hələ sovet vaxtında yazıçı Çingiz Abdullayev demişdi ki, Türkiyədə iki nəfər yazar, bizdə isə tək mən qonorarla yaşayıram. Ümumiyyətlə, şeir yazmaq, şairlik bütün yer kürəsində cibə ziyandır. Yəni adam bundan para qazanmır, para itirir, şairlik heç bir gəlir gətirmir. Şair olan kəsin mütləq başqa peşəsi olmalıdır. Bunu nəzərə alaraq mən həyat yoldaşımla maaşımızı birləşdirib çapdan çıxacaq kitabları öz hesabımıza buraxırıq. Artıq bu illər ərzində mənim yaradıcılığıma 30 000 manatdan çox pul gedib, hələ demək olar ki, reklama pul sərf eləməmişəm. Mən fikirləşəndə ki, Məmmədhüseyn Şəhriyar kimi şair dolanmaq üçün Təbrizdə bankda işləyib, elə oradan da təqaüdə çıxıb, öz-özümə deyirəm kı, mən ondan artıq ola bilmərəm.

İndi kapitalist ölkəsində şair olmaq çox baha başa gəlir. İlhamı olmayan, şair tipli yazarlar özlərindən çox razıdırlar, onlar vətənpərvərlik mövzuları misralarına gətirməyi özlərinə yaraşdırmırlar. Halbuki vətəni olmayan şairin nə doğma dili, nə doğma ruhu, nə də milliyyəti olur. Avropa abhavasıyla coşub-daşan bu insanlar anlamırlar ki, Avropa avropalılar üçün doğmadır, millidir. Özlərini onlara oxşatmaqla avropalı ola bilməzsən, bu qarğanın bülbül təki cəh-cəh vurmaq sevdasına bənzəyir. Özlərini avropalılara bənzədən kəslər avropalılar üçün də çox maraqsız, çox gülüncdür, çünki ağıllı avropalılara da hər kəsi öz donunda görmək daha maraqlıdır.

Allaha qarşı çıxmaq, şeytani hisslərlə oturub-durmaq, vətənə arxa çevirmək, bu ölkənin əksəriyyətinin islami inancda olan adamlarının dini hissləri ilə oynamaq və bu yolla özünü reklam edib populyarlıq qazanmaq bəzi yazar əhlinin həyati tələbatına çevrilib. Nə bilmək olar, bəlkə də onlar hansı xarici qurumlardansa maddi dəstək alırlar? Özünü yazar qiyafəsində görən belə kəslər yaxşı olardı ki, "bağa qınından çıxdı, öz qınını bəyənmədi" misalına diqqət kəsilsinlər. Dövlətçiliyimizə, milli adət-ənənələrimizə arxa çevirib, kimliyini unudub bizə yad olan təriqətlərə, sektalara, dinlərə üz tutanlar tufanlı dənizin kənara atdığı taxta parçalarına bənzəyirlər. Adları müsəlman adları, özləri bizə yad olan sektaların, dinlərin qulu…

Biz müharibə şəraitində yaşayırıq, düşmən bizi azadlığa problemlə buraxıb, bu problem torpağımızın bir hissəsindən məhrum olmaqdan

ibarət olub. Biz iqtidarlı-müxalifli hələlik ki, bu ağır, üzücü yükün daşıyıcılarıyıq, amma bəzilərinə xarici, bizi istəməyən qüvvələr tərəfindən vətənsizlik təbliğ olunur. Onlar elə zənn edirlər ki, dahi olmaq üçün yazar öz milliliyini, vətəndaşlığını heç zaman yazılarında büruzə verməməlidir, belələrinə nə əldən getmiş torpaqlar, nə də cavan canını Vətənə qurban vermiş şəhidlər maraqlıdır. Onların marağı hansısa bir xarici dili bilib lap elə erməni adıyla bu ölkəni tərk edib qoltuqlara sığınmaq və sonra getdiyi yerdən öz vətənini, mənsub olduğu millətini, dinini, dədəsini, babasını getdiyi yerə xoş gəlsin deyə yamanlamaqdır, zənnimcə, bələləri Vətənə düşmənimizdən də qorxulu varlıqlardır. Bəla burasındadır ki, belələrinin yazdıqları cızma-qaralar saytların mötəbər yerlərində dolaşır, belələrinə saysız-hesabsız şərhlər yazılır, onlar ağızlarda-dillərdə dolaşır, lap şou-biznesin dəbdə olan adamları kimi, əksəriyyətinin səsi yox, sözü-söhbəti, qeybəti önəm kəsb edir, sanki ölkə başdan-başa şou azarına tutulub. İndi bizim toylarımız da, yaslarımız da şouya çevrilib, artıq dinimiz də şou burulğanında batır, müasir zəmanəylə ayaqlaşmayan uzun saqqallardan tutmuş, nənələrimizin baş örtüyünə bənzəməyən qadınların geyindiyi baş örtüklərinə qədər…

Mənə elə gəlir ki, biz sovet dövründə qadağalara baxmayaraq daha çox dinimizə, mənəviyyatımıza sadiq olmuşduq. İndi isə kimin kim olduğundan baş çıxarmaq olmur ki, olmur.

Heç şübhəsiz ki, ilhamlı şair, yazar təkcə vətənpərvərlik duyğularıyla yox, dünyəvi prizmadan da öz ruhunu kökləyir, yaşadığı dövrdə baş verən bütün əngəllərə yox deyir, ruhu riqqətə gətirən bütün gözəlliklərə, incəliklərə könül bağlayır, ilahinin ona bəxş etdiyi təbinin pıçıltılarına biganə qala bilmir.

Bəs gənc yazarların içində vətənpərvərlik duyğularıyla coşub-daşan istedadlar yoxmu? Şübhəsiz ki, var, onları axtarmaq, üzə çıxartmaq, onlara dövlət tərəfindən kömək göstərmək, kitablarını buraxmaq, reklam etmək lazımdır.

Onda Azərbaycanda da azad Azərbaycana aid dəyərli, qəlbləri oxşayan, ürəyəyatımlı nəğmələr eşidəcəyik. Sonda onu bildirmək istəyirəm ki, istedadlara kömək lazımdır, istedadsızlar isə özləri üzə çıxar.

Əks təqdirdə, Azərbaycan əlvan yox, hamısı boz rəngdə və eyni səviyyədə görünəcək.

19.06 2014

RUHU GÖYLƏRƏ UÇAN ŞAİR

İki gün bundan qabağın sözüdür, "Kredo" qəzetinin baş redaktoru şair-publisist Əli Rza Xələfli mənə telefon açdı, dedi ki, dünyasını dəyişmiş bir şair var onun haqqında yazı yazmaq lazımdı, şeirlərini sənin elektron poçtuna yollayırıq, oxu, bəlkə nə isə yazdın? Açığı bir az tərəddüdlə, bir az maraqla şeirlərlə tanış oldum və bir şair duyğularının istiliyi ilə, ürək çırpıntıları ilə baş-başa qaldım.

Kitabın, mənəviyyatın ucuzlaşdığı, cılızlaşdığı, şerin, bədii yaradıcılığın mərtəbələrdən endiyi, mənəviyyat insanlarının öz iç hücrəsinə çəkildiyi bir məqamda ürəyi dolu, qəlbi həyan axtaran söz adamları tənhalaşma, ruhdan düşmə dövrünü yaşayır. Bəs ədəbiyyatı olmayan, bədii yaradıcılığı kasad olan xalqların mənəviyyatı tufan vurmuş bağları xatırlatmazmı? Mənəviyyat zənginliyi millətlərin həyat diləkçəsi, onların kimliyinin açarıdır. Özünə doğru-düzgün qiymət verməyən, keçmişinə, bugününə yuxarıdan aşağı baxan xalqların gələcəyi də başqa millətlərin əlində oyuncaq olar. Mənəvi dünyamızın işığı olan ağlımız gərək ki, keçəri parıltılar içində solmasın. Dünəninin üstündən qara xətt çəkib, sabahını özgələrin cızdığı cığırlara möhtac etməsin. Belə ki, mənəviyyat ögeyləşəndə, yadlaşanda insan kimliyini itirir, dədə-babasının hardan gəlib hara getdiyinin fərqində olmur. Yavaş-yavaş öz ruh dünyasından uzaq düşür. Öncə vətənsizləşir, sonra dilsizləşir, ömür qüruba yetəndə yalqızlaşır, heçkimləşir…

Millətin kimliyi ədəbi-bədii düşüncələr içində qol-budaq atır, şeir, şeriyyət isə ədəbiyyatın cəh-cəh vuran bülbülüdür, dilin gözəlliyi, axıcılığı, zənginliyi ondan boylanır. Şeir ilhamın tanrı pıçıltılarıdır. Şeir yazılmır, o doğulur, çağa təki hıçqırtılarla ruhu titrədir, ürəyi alışdırır, dodaqları yandırır, ağ vərəqlər üstündə titrək cığırlar açır, baxmayaraq şər qüvvələr tərəfindən ona min bir tənələr edilsə belə…

Mən haqq dünyasına qovuşmuş Tapdıq Əlizamanoğlunun şeirlərində yanan bir ürəyin titrək pıçıltılarını duydum və rəhmətə getmiş həmkarımın qələmindən süzülüb ağ vərəqlər üstündə tovuz quşu təki min bir çalarlı, əlvan don geyinmiş sözlərin sehrinə düşdüm. Şairin "Aramızda həsrət qaldı" şeirlər toplusu bir yurdun, bir elin bağırından qopmuş söz adamının həyat dastanıdır. Bu şeirlərdə vətən təəssübkeşliyi, vətəndaşlıq qeyrəti, ata-ana istəyi haçansa qoyub gəldiyi yurduna bağlılıq var. Toplunun ilk

səhifəsində ruhu göylərdə cövlan edən şairin "O günlərə" adlı şerindən bəzi məqamları oxucuların diqqətinə yetirmək istəyirəm:

Yığışardıq bir ağacın dövrəsinə,
Pərvanəydik bir işığın şöləsinə,
Xəbərsizdik bu dünyanın hiyləsi nə?
Gəl qayıdaq o günlərə.

Doğrudan da bu şeir adamı keçmişinə – hansısa kəndində, elatında şirin xatirələrə hücrə olmuş o günlərə qaytarır, atalı, analı o sevdalı illəri xatırladır. Nə qədər ürəyə yaxın, nə qədər doğmadır bu misralar:

İtirdiyim qazancımdan çox baha,
Çox məclisdə tay-tuşlarım yox daha,
Əl uzanıb dil gödələn vaxt, daha
Gəl qayıdaq o günlərə.

Əslində yaş üstünə yaş gəldikcə adam ötən günlərin xiffətini çəkir, yaş artdıqca vaxtın daralması önə çıxır, şair ötən günlərin dəyərini sadaladıqca günün insan ömründə hansı mərtəbədə olduğu göz önünə gəlir. Şairin "Kəndimiz" şeri doğma obasından ayrı düşmüşlərin nəğməsidir.

Bu axşam yuxuma girib kəndimiz,
Darıxmışam o yerlərçin, a qardaş.
Orda qalıb ləpirimiz, izimiz…
Darıxmışam o yerlərçin, a qardaş.

Kimə doğma deyil ki, insanı bircə anlıq olsa da xatiratlar atına mindirib yurduna, yuvasına qaytaran bu misralar? Vətən ruhunda yurd sevgisi olan hər bir kəsə əzizdir, yurd isə Vətən içində sənin doğulduğun guşədir, harda olursansa ol, o sənlə həmişə şüuraltı bir yerdədir, nə qədər sağsan heç zaman unudulmur ki, unudulmur. "Anama giley" şeri ata-anası haqq dünyasına qovuşmuşların ürəyində bir nisgil, bir xatirat çözələyir:

Bu axşam yuxuma gəlmişdin, ana,
Bal dadır bu sənli yuxular mənə.

Nə isə fikirli, pərişan idin,
Qayğıyla doluydu gözlərin yenə.

Görəsən, dünyada hansı məhəbbət ana məhəbbətini əvəz edə bilər? Balasına bəslənən sonsuz sevgisi ölənədək tükənməyən ana, daima baladan nigaran ana, haqq dünyasına qovuşandan sonra da yuxulardan getməyən ana! Elə Tapdıq Əlizamanoğlu da bu məqamı nəzmə çəkib, şerin diliylə oxucusuna çatdırıb:

Danışıb-dinmirsən, bir söz de, barı,
Nəfəsin ağlatsın qoy ayrılığı.
Danış ki, səsinin hərarətilə
Ərisin qəlbimin qoy həsrət dağı.

Bu dünya elə dünyadır ki, yalnız insana son məqamda ötənlərin xiffəti, itirdiklərinin acısı, yaşadıqlarının acılı-şirinli işartıları qalır.

Ruhu şad olmuş həmkarımın şeirləri bir-birindən duyğulu, bir-birindən tutarlıdır, əgər oxucu bu topluyla tanış olsa, mənim nə dərəcədə haqlı olduğuma şahidlik edəcək. Şairin "Gərək" şerində olduğu kimi:

Dünyada hər zaman arif yaşayıb,
Mətləbi bir sözdən anasan gərək.
Özgə işığında yol getmək olmaz,
Özün çıraq olub yanasan gərək.

Və yaxud:

Xoşbəxtdir, ey könül, sevib yaşayan,
Nadandır sevdiyi yardan söz soran.
Sevdiyi gözəlin baxışlarından,
Onun ürək sözün duyasan gərək.

İndiki məqamda bir çox insanlarımızın arasında öz kökünə yadlaşma, özgələşmə gedir. Öz kökünü, soyunu lağa qoyub, tənə edənlərin sayı alaq otu təki günbəgün qol-budaq atır. Necə deyərlər, bağa qınından çıxdı, qınını bəyənmədi. Elə şair də bu iztirabın acısından yana misralar içində köz-köz alışıb yanıb, xalqına xor baxanlara meydan oxuyub.

“Danışsan danılacaqsan” şerində olduğu kimi:

Öz xalqına bağlı olan bir ürək,
Üstünə su calansa da alışar.
Bir ağac ki, öz kökündən ayrıla,
Külək onu tez aşırar, tez yıxar.

Şairin “Gəncliyim” şeri hər bir insanın könül çeşməsini çalxalayan, dünəninə qaytaran, yorulmaq bilməyən cavanlığın şirin xatirələri ilə qovuşduran isti, məhrəmanə pıçıltılardır...

Görəsən, özündən başqa şairlərin ürək yanğılarını başa düşən bir kəs varmı ətrafda, İlahi?..

Həyat sanki sirli nağıl, tapmaca,
Oğul gərək bu hikmətdən baş açа.
Yaxınlaşan əlli dinir astaca,
Dönməz daha, daha dönməz gəncliyim.

Onun “Kənd yolları”, “Səslə” şeirlərində də həmin yanğı, həmin şirinlik, doğmalıq duyulmaqdadır. Bir çoxlarının allahsızlıq, imansızlıq duyğuları şaqqanaq çəkib güldüyü halda, başqalarının inancına həqarətlə baxıldığı zamanda Tapdıq Əlizamanoğlunun “Ey hikmət sahibi” şeri haray çəkir:

Ey hikmət sahibi, kömək ol mənə,
Səni vəsf etməyə söz tapa bilim.
Ey qüdrət sahibi, kömək ol mənə,
Dodaq titrəməsin, əsməsin əlim.

Sən yazan talehə, bəxtə min şükür,
Zaman qəddi əyir, zaman bel bükür.
Tək sənsən gümanım, köməyim mənim.
Şükür taleyimə, şükür, min şükür!

Şair yenə də yaşadığı ömrə şükürlü olub, oxucunu ruh düşkünlüyündən uzaq olmağa səsləyib. Etiraf edim ki, ruhu haqqına qovuşmuş şair həmkarımın heç bir şerinin üstündən ötəri keçə bilmirəm, çünki onun hər misrasından bir hərarət, bir həyat həqiqəti, bir canıyananlıq boylanır. Hiss

edirsən ki, rəhmətlik heç bir sözü misra xətrinə yazmayıb. O, "Köçəri quşlar" şerində yuvasını tərk edib uçub getmiş quşların yenidən köhnə yuvalarına qayıtmasını təsvir edir, sonra isə sevgisinə dönük çıxmış vəfasızla köçəri quşları müqayisə edir:

Sən də köçəri quştək qəlbimdə yuva salıb
Yad ürəyə köçmüsən.
Bil ki, sən nə vaxtsa peşiman olub
Geriyə – yuvana dönmək istəsən,
Bu yuva dondurar səni oduyla.
Bu yuva rədd edər, yox edər səni,
Dolar buz qəlbinə dünyanın qəmi.
Odur ki, qayıtma, qayıtma…
Qayıtma geri!..

"Qayıtma geri" deyən şairin ruhu yəqin ki, şeirlərinin havasıyla duyğulandığım bir məqamda bir şam işığıtək öz hərarətini misralarının ətrafında şölələndirir. Odur ki, şeirlərini birər-birər oxumaq sevdasına düşmüşəm. Oxuduqca sanki bugünlərlə səsləşir, baxmayaraq ki, şeirlər 1980-ci illərə, başqa tarixə, imperiya əsarətində yaşadığımız illərə təsadüf edir, amma şeirlərin ab-havasıyla tanış olanda heç bir pafos, tərif şairin yaratdıqlarında duyulmur. Ona görə də istedad sahibinin tabe olduğu qüvvə onun təkcə ilhamı olmalıdır. Necə ki, Tapdıq Əlizamanoğlunda olduğu kimi… Təbii şair, yazıçı zaman burulğanlarına sinə gərib bacardıqca, fürsət düşdükcə öz azad hisslərini heç bir qadağaya tabe etməməlidir milli dəyərləri ayaqlar altına salmamaq şərtiylə…

Şairin "Son sözüm" şeri qəlbi dönük çıxmış dildara hicran ağısıdır:

Son sözüm nə oldu – min bir bəhanə,
Özün-öz səhvini bilərsən bir gün.
Sındırıb bir qəlbi – gedirsən – apar,
Bu qəlbə səcdəyə gələrsən bir gün.

Bizi öz qoynunda bəsləyən, ağrılı-acılı günlərimizə şahidlik edən başı bəlalı, sinəsində topları, tüfəngləri susmayan dünyaya nə qədər nəzmlə,

nəsrlə sözlər deyilmiş, kitablar yazılmış, tarixlər cilalanmışdı. Şairin "Dünyadır" şeri elə bu məqama köklənib:

Hər bir işi müəmmalı, düyünlü,
Avand işi nəhs eləyən dünyadır.
İşi olmaz qanmayanla heç zaman,
Qananlarla bəhs eləyən dünyadır.

Yolumuzu dağa, daşa tuş edib,
Qəlbimizdən qara qanlar keçirib,
Duzlu suyu bal yerinə içirib,
Sonra gendən baxıb gülən dünyadır.

Minləri, milyonları yola salan, şahları, sultanları taxtından düşürən, öz varıyla gözləri özünə cəlb edən, ürəkləri fəth edən dünya sonda insanı ayaqdan, dildən salır, bəzən şahı gədaya möhtac edir, insanın yığdıqlarını birər-birər, astaca-ustaca əlindən alır, onu yorğan-döşək möhtacı edir, əlini əsdirir, dizini titrədir. Təkcə bir dəfə baharı olan insanın tufanlı qışını qapıdan içəri salır. Şair demiş:

Könül, tez alışıb, tez də odlanma,
Hər yanar ocaqdan sən gəl od alma,
Şirin-şirin yalanına aldanma,
Üzə gülüb gəl-gəl deyən dünyadır.

Vətən qeyrətli söz adamlarımızın istər nəzmində, istərsə nəsrində Vətən ayrılığı bir qırmızı xətt kimi keçir. Paramparça Azərbaycanın ağrı-acıları hansı söz adamının ruhunu dilə gətirməyib? Bu yaranın acısını ədəbiyyatımız tariximizlə yanaşı çəkib və çəkir… Şairin "Uzanaydım Araz üstə" şeri bu qəbildəndir:

Uzanaydım Araz üstə,
Sinəm üstdən keçəydilər.
Deyirlər su aydınlıqdır,
Bu su məni dərdə salıb,
Bu nə zülm, bu nə sitəm,
Məni məndən çay ayırıb...

İndi də işğaldan başı qurtulmayan, Vətən, səni nə zaman əliqanlı, düşüncəsi dəhşət saçanlar rahat buraxacaq? Bəlkə biz özümüz sənə dönük çıxmışıq, bir ola bilməmişik, elə bu gün də bu ağrılarla baş-başayıq. Tapdıq Əlizamanoğlunun "Bütöv gör məni", "Yuxuma gəlmişdin", "Tarixim qədimdən qədim", "Dönəcəyəm mən", "Darıxdım" şeirlərində vətəni bütöv görmək həsrəti, ülvi məhəbbət, yurd istəyi qəlb titrədir. "Ay məzar daşı" şeri şairin haqq dünyasına qovuşmuş doğmasıyla səmimi söhbətidir. Bu söhbət, bu ülfət ürəkləri yanıqlı misraların diliylə titrədir:

Bir yer var ki, o köksümü dağ edir,
Bu gecə görüşdük, ay məzar daşı.
Bir yer var ki, zaman-zaman köhnəlir,
Bu gecə öpüşdük, ay məzar daşı.

Doğmasıyla daşların harayı ilə dilləşən, sükutdan səs qoparan şair məzarı təkcə ölənin yatdığı yer təki deyil, həm də tarix təki dilə gətirir. Doğrudan da qəbiristanlıqlar həm də insanların milliyyətini, tarixini, dini inancını isbat edən tarixi bir ocaqdır. Onlara həddindən artıq bəzək-düzək gəlmək də olmaz, dilsiz məzar daşları yazısız-pozusuz da olmaz:

Alov-alov günlər keçir gözümdən,
Həyatımdan, dünənindən, özümdən.
Keçən günün o səs-küyü sözümdən –
Dolub qalar səslər qardaş qardaşı
Bu gecə dirilik, ay məzar daşı.

Şair demiş:

Burası bir cənnət, bura gülüstan,
Burası son mənzil, yer azaddırsa.
Burası səninlə bir görüş-məkan,
Bu kənd ikimizin tək yol qovşağı,
Bu gecə birləşdik, ay məzar daşı.

Bəli, məzarlıq itirdiyin doğmaların sığındığı məkan deyil, həm də tarixin əsl həqiqətləri bizə diktə etdiyi bir ocaqdır, oralar ölüb getmiş insanların varlığından xəbər verir. Öz susub durmuş lal sərdabələri, göyün gürşadlarına qucaq açan, sükuta boyanmış daşlarıyla birlikdə…

Tapdıq Əlizamanoğlu övlad sevincini, bala istəyini misralarında ata məharətilə təsvir edir. "Gördüm onun gözlərində" şerini bütünlüklə dəyərli oxucuların diqqətinə yetirmək istəyirəm:

Sanki duyub düşüncəmi,
Yanıma gəldi oğlum.
Sarıldı boynuna qolum.
Baxdım onun gözünə,
Sevinc qondu üzümə.
Elə həmin hərarəti –
Gördüm onun gözlərində.
Təravət də gül üzündə,
Şükür sənə, uca Tanrı!
Hər işdə bir xeyir vardı…

Şairin "Öyrədir mənə" şeri həyatın ağrılarıyla üzbəüz qalan insanın ürəyindən qopan yaşam sədalarıdır. Bu sədalar adamı özüylə birlikdə ünyetməz, əlçatmaz ənginliklərə aparır. Həyatda itirdiklərinin ağrısını çəkən insan daima nəyinsə ümidindədir, nələrəsə nail olmaq arzusu, istəyi, diləyilə yaşayır. Əzabın özü də insanı bərkdən, boşdan keçirir. Yaşamaq eşqini alovlandırır, duyğularını çiçəkləndirir, sabahın eşqilə coşdurur. Bu coşqunluq olmayanda insan özünə qapılır, hər şeydən, hər kəsdən küsür, inciyir. Ona görə istəkli oxuculara şairin bu misralarını əzbərləməyi tövsiyə edərdim:

Nəyə gərək dayaz yerdə üzüm mən,
İstəyirəm gedə bilim dərinə.
Könlüm əzabların yuvası olsun,
Əzab yaşamağı öyrədir mənə.

Doğrudan-doğruya sözün qiymətdən düşdüyü dövrdə, zamanda yaşayırıq. İnsan əqli bəzən kəşf etdiklərinin acı-ağrısını çəkir, insan şüurunda robotlaşma gedir, ünsiyyət, mehribanlıq, səmimiyyət arxa plana keçir. Üzdə dost deyib can yaxanların sırası çoxalır. İnternet, sosial şəbəkələr doğmaları bir-birinə yadlaşdırır, adamın yavaş-yavaş təbiətlə sevdası arxa plana keçir, saatlarla elektrotexnikaya əsir olan gənclik kitabdan, dərgidən uzaq düşür, gözlər baxa-baxa baxışlarda bir soyuqluq, bir ögeylik müşahidə olunur.

Şair elə bil "Dostlar" şerində, sanki bu dərdləri nəzmə çəkir:

Daş atır ayrı düzə,
Qiymət verən yoxdur sözə,
Qurd tək durarlar göz-gözə,
Rəqiblik edən dostlar.

Mərhum şairimiz Tapdıq Əlizamanoğlunun "Dünya" şeri özünəməxsus bənzətmələri ilə diqqət çəkir. Kimi üçün kiçik dünya, kimi üçün böyük dünya nə qədər acılardan keçib. Şair insan taleyini ovuc içində olan xətlərlə müqayisə edir. Şair bu acıları həyatın gözəlliyi qarşısında çökdürür:

Dünya çox kiçikdir – ovuc içi boyda,
Ovuc içi çox böyükdü – dünya boyda.
Taleyimizin yolları görsənir orda.
O yol nə yoludur kəsişir?
Sevgi yoludu.
Bəs ən qısa?
Ömür yoludu.
Ən uzun arzumun yoludur.
Şükür sənə, Tanrı.
Arzumun yolu ömür yolumdan uzundu,
Həyatın gözəlliyi də budu!

Sevginin ucalığı önündə qələmini titrədən şair:

Ovut ürəyimi bircə baxışla,
Söndür qəlb odumu odlu yağışla,
Gəl mənə ömürlük vüsal bağışla,
Yoxsa həsrət məndə yurd salar, gülüm.

Bu istəyə, bu ülfətə kim əsir olmayıb... sevgi elə bir hissdir ki, o bütün səmimi duyğuların açarıdır. O, hər kəsin ürəyində yurd salmaz, salsa da çox qalmaz, necə gəlibsə elə də keçər gedər. "Dönən deyiləm" şeri də elə saf sevdaya bir etiraf diləkçəsidir. Bu diləkçənin sızıltısı isə misralara çökmüş ürək çırpıntıları:

Mən səni sevirəm, sevəcəyəm də…
Eşqinlə yanıram sönən deyiləm,
Bir dəfə dediyim sözün cavabın
Min il də gözlərəm dönən deyiləm.

Şair demişkən məhəbbət yükü çox ağır yükdür, onu hər kəs çiyinlərində daşıya bilməz. Daşısa da çox uzaqlara apara bilməz. Necə ki, zəmanəmizdə dağılan gənc ailələrin sayı günbəgün artır. Öz ürək sevdasını vara, pula əsir edənlər bu sevgi notlarından azacıq da olsa qidalansaydılar, nə baş verərdi? Dünya dağılmazdı ki, ey sevdalı ürəklər, könlü daş olanlara qoy sevgi şərqisi olsun mərhum şairimizin "Sevgi həyatdır" şeri:

Məhəbbət kimin ki qisməti oldu,
Demək yana-yana yaşayacaqdır.
Onun sevinc yükü, qəm yükü boldu,
Sevənlər mərdanə daşıyacaqdır.

Tapdıq Əlizamanoğlunun "Bir topa tüstü" şeri maraqlı oxşamaları, bənzətmələrilə diqqəti çəkir, o tüstünün əvvəlcə topalaşıb-birləşib, göy üzündə birdən-birə ayrılıb-yox olmasını varlığın itməsilə eyniləşdirir. Doğrudan da tüstü bacadan çıxıb gedəndə topa şəklində olur, sonra haçalanır, parçalanır və göy üzündə yox olub gedir. Elə bu maraqlı gediş də şair diqqətindən yayınmayıb, onu insan varlığı ilə uzlaşdırıb, məharətlə nəzmə gətirib:

Bir topa tüstü qalxdı havaya,
Yüksələrək göylərə –
birdən-birə ayrıldılar.
Səmanın boşluğunda
Gözdən itib yox oldular.
Ayrılmasaydılar,
Bir tüstü kimi,
Görərdi, tanıyardı hamı onları.
Varlığını itirmək
Qorxusu gözləyir ayrılanları.

Ruhu göyə ürcah olmuş dəyərli şairimizin "Bıçaq" şeri insan şüurundan bir-birinin həyatına qəsdi, qırğını bitməyən bəşər acılarına tutarlı cavab

misralarıdır. Doğrudan da görəsən, insan niyə bir-birinin həyatına qəsd edir, ona bu haqqı kim verib? Özünü vəhşi heyvanlardan qoruyan adam özü vəhşilik edir, bu müharibələr, bu torpaq oğruları, bu insan alverçiləri, bu canalanlar niyə kəsmir ucu-bucağı görünməyən dəhşətləri, qəsdləri?! Nədir onların amacları? Yer kürəsini məhvə çəkmək, ev yıxmaq, qan tökmək… Bəlkə insan cildində iblislər var aramızda, ona görə də dünya yaxasını xətalardan qopara bilmir ki, bilmir, şairin şerində acı ittihamsayağı deyildiyi kimi…

Birinin əli ilə sancıldı
o birinin kürəyinə.
Sancıldı milyonların ürəyinə.
Öldürdüyünü öldürdü,
Qorxu altında saxladı dirini.
Amma heç eşitmədik
İki bıçaq doğraya
bir-birini.
Belədir bütün silahlar,
Görəsən, heç bunu
düşünübmü insanlar?!

Şairin "Baba-Nəvə" şeri yatmış balacanın qığıltısıyla qol-boyun olan babanın nəvəsinə köklənmiş heç zaman sönməyən, ürəyindən çıxmayan ülvi, səmimi məhəbbətidir. Baba, sanki nəvəsinin üzündən qəlbinə çilənən həyat eşqini duyur. Bu insanları bir-birinə bağlayan nəsil, kök telləridir ki, bəşəriyyəti min illərdir yaşadır, gələcəyə aparır, insan kökünü, soyunu qırılmağa, məhv olmağa qoymur. Şair bu kökün şirinliyindən, müqəddəsliyindən misralarında bəhs edir.

Baxıb babasının solmuş üzünə.
Ay baba, nə gözəl nağıldı, – dedi.
Nağıl özü babanın
qəlbini dəldi keçdi,
Ötən günlər gözləri
önündən gəldi keçdi.
Dəyişdi əhvalı-halı

bir anda,
Ömür nağıl imiş
sən demə sonda.

Şair vəfasız dünyanın etibarsızlığından "Dünya" şerində bəhs edir. Dünyanın şirinliyinə aludə olub vardan, sərvətdən bərk-bərk yapışan, ətrafındakı ac-susuzlara məhəl qoymayan, amma guya Allah eşqilə hər il müqəddəs ocaqlara baş çəkənlər bilmirlər ki, bununla çullarını sudan çıxara bilməyəcəklər, müqəddəs ocağı ziyarətlə günah yuyulmaz, günah ac qarnı doydurmaqla, ətrafına mərhəmətli, sədaqətli olmaqla dost-tanış, qohum-əqrəba yaddaşında xeyirxah əməllərlə iz qoymaqla yuyular. Necə deyərlər, Allaha da xoş gedər, bəndəyə də:

İnanma dünyanın etibarına
A qardaş, inan ki, gididi dünya.
Axır möhtac edər əl ağacına,
Uşağı, böyüyü, igidi dünya.

Tapdıq Əlizamanoğlunun "Məni danarsanmı?" şeri gözəl bir məhəbbət nəğməsidir. Yalnız onu şərqiyə çevirəcək bəstəkar lazımdır. Təəssüf hissilə qeyd eləmək yerinə düşər ki, indiki zamanda mahnı sözləri də cılızlaşıb, çünki şərqinin, nəğmənin sözləri şair qələmindən çıxmalıdır. Hər yerindən duran isə şair ola bilməz. Mərhum şairimizin məhəbbət şerini bütünlükdə oxucuların diqqətinə çatdırmaq istəyirəm:

Söylə görüm ay vəfasız,
Ötən günü anırsanmı?
İlk məhəbbət həsrətilə,
Alovlanıb yanırsanmı?

Uydun ötəri həvəsə,
Düşdü qulağın min səsə.
İndi özgə bir nəfəsə,
Sən şirinlik qatırsanmı?

Əllərimdən çıxıb qaçdın,
Özgəsinə könül açdın.

Özgə ömrə işıq saçdın,
İndi məni danırsanmı?

Şeir isti ürək sevər, ucalıq sevər onu duyanların qəlbində əbədi yaşar, o məhrəmanə hisslərin, şirin təbəssümlərin ilıq nəfəsidir.

Yetər ki, onu duyub diqqət edəsən, bax onda şairlərin könül təranələrinin səsdasını eşidəcəksən, bir çoxları kimi deməyəcəksən mən şeir oxumuram. Şeir yerin, göyün məhəbbət nişanələrini özündə əks etdirən, misra-misra, söz-söz nəğmələşən şair ilhamının məhsuludur. Şairin özü kimi, sözü də, misrası da möcüzədir. Bu möcüzənin qapısının açarı yalnız şairlərin ürək guşələrində əxz olunur.

Tapdıq Əlizamanoğlunun "Kimə gərəksən", "Eşidin sevənlər", "Külək", "Gözəlliyi duyasan gərək", "Ürək-dil", "Seç görüm", "İki qardaş", "Yaşımı soruşma" şeirləri bir-birindən oxunaqlı, bir-birindən diqqətçəkəndir. Yuxarıda qeyd etdiyim kimi adam heç bir şerin yanından ötəri baxıb keçə bilmir. Şairin " Səhəri gözləyirəm" şerinə diqqət edək:

Gecələr ürəyim yetim uşaq tək,
Mütləq qüssələrlə bələnməlidir.
Tənhalıq qəlbimin gecə köynəyi
Qaranlıq düşdümü geyinməlidir.

Onun "Dəyişib zaman" şeri vara hərisləri qamçılayan, öz əqidəsindən dönməyən təmiz bir insanın haqqı tapdalayanlara, yalanlarla böyük kürsülərə nail olanlara tutarlı cavabdır.

Dünyanın ən böyük həqiqətindən
Sən üstün tutmusan dövləti, varı.
İtirdin vicdanı and içə-içə
Bəsdir, yalanlardan əl götür barı.

Şairin "Nişan günündür", "Günahkar özünsən", "Səndən nigaranam", "Dedin yandıraram səni" şeirləri ülvi məhəbbətin yaratdığı hisslərin vüsal-ayrılıq təranəsidir. Gözəl şairin "Yuxu" şeri ikiyə parçalanmış Azərbaycanın yaralarından bəhs edir, Arazın qanlı axması, ona kədərlə baxması, ikiləşmiş bir xalqın tarixi faciəsidir. Bu faciəni şairlər zaman-zaman nəzmə çəkib. Şair də öz yuxusunda qanlı Araz çayını görür:

Qardaşım əl edib
Çağırdı məni.
Qaçmağa tələsdim yanına.
Birdən ilişdim dünyanın
Tikan hasarına.

Şairin "İki qardaş" şeri də bir növ "Yuxu" şerinin davamıdır:

Bir-birindən ayrı yaşadı
Qanı bir, dili bir,
İnamı bir, dini bir.
İki qardaş.

İçində Araz adlı bir dərd daşıyan millətin Qarabağı da işğal altındadır, bu işğal sonu görünməyən dibsiz dərə kimi elə hey uzanır, məkrli imperiyaların oyun mərkəzinə çevrilmiş Azərbaycan onu sevən qələm əhlinin daim diqqət mərkəzində olub. Mərhum şair Tapdıq Əlizamanoğlu da bu dərdi öz şeirlərində yana-yana nəzmə çəkir.

Şeirlər səksəninci illərdə yazılmasına baxmayaraq, siyirmədə yatıb qalırdı. Yaxşı ki, dəyərli insanların əlinə keçib və kitabın çapına maliyə tapılıb. "İki qardaş" şerindən nümunə gətirməklə sözümü burda tamama yetirib dərindən köks ötürdüm.

İlahi, aramızda o qədər söz qoşub şair olmaq istəyənlər var ki, qoy onlar vaxtilə çapını gərəkli bilməyən mərhum şairimiz Tapdıq Əlizamanoğlunun şeirlərilə tanış olsunlar. Hər fikri misraya düzüb şeir saymasınlar, şairlik içdən gəlsin gərək, qəfil gələn məhəbbət kimi… Necə deyərlər, quyuya su tökməklə quyu sulu olmaz, ay adamlar! Şairliklə onsuz da pul qazanmaq, dolanmaq olmur. Yaza bilmirsinizsə yazmayın, siz Allah! Sözümü ruhu göylərə uçan şairin 1983-cü ildə yazdığı "Dansan danılacaqsan" şerinin son bəndilə bitirmək istəyirəm, ruhu şad olsun, məzarı nurla dolsun, necə deyərlər, Allah o dünyasını versin:

Boy verməyən bir dənizdir bu həyat,
Üzmək bacarmasan boğulacaqsan.
Yeni həyat qurub "köhnəni" danma,
Dansan sən özün də danılacaqsan.

Bununla da şairin "Aramızda həsrət qaldı" toplusu haqqında yazdığım bu publisist yazıya son nöqtəni qoydum. Bu an gözlərimin önündə bir işıq yanıb-söndü, yox, elektrik işığını demirəm, ümumiyyətlə, bizdə nadir hallarda işıqlar sönür.

Bəlkə bu yəqin ki, haqqında yazdığım, haqq dünyasına qovuşmuş şair qardaşım Tapdıq Əlizamanoğlunun ruhunun işığı idi, qəfil yandı, ağ işığa döndü və tez də ötüb keçdi, ruhu şad olsun!

13-14.09.2014

SAYMAN ARUZUN "YÜZ İL İNQİLAB" KİTABINDA GÜNEY FƏRYADI

Ey Vətən, Azərbaycan, qalx, özün söylə, niyə sən belə paramparçasan? Səni bu günə salanlara üsyan et, fəryad eylə! Güneyindən Quzeyinə Quzeyindən Güneyinə haray sal, bu haray qoy bütün dünyanı silkələsin. Qoy bütün dünya başa düşsün ki, AZƏRBAYCAN adında parçalanmış, qərbində işğalçı, ipə-sapa yatmayan Ermənistan (Hayıstan) adında qondarma bir ölkə yaradılmış, Qarabağı Rus İmperiyasının tapdağının qurbanı, Güneyi fars-molla zülmü altında əzilir, bütün bunları sənin dünyaya səpələnmiş 50 milyonluq xalqın həll etməlidir, VƏTƏN, VƏTƏN, VƏTƏN… sən məni eşidirsənmi VƏTƏN?..

Uzaq illərin xatirəsidir. Siyəzən şəhər 2 saylı orta məktəbdə 9-cu sinifdə oxuyurdum, bir gün Sima adlı bir sinif yoldaşım mənə əl içi boyda bir kitabça bağışladı. Kitabçanın üstündə Məhəmmədhüseynin Şəhriyar və "Heydərbabaya salam" sözləri yazılmışdı. Kitabı elə dərsarası fasilələr zamanı oxudum və çox həyəcanlandım. İnanın ki, həmin gün keçilən dərsləri unutdum və bütünlüklə dahi şairin poemasına kökləndim. Mən ondan qabaq da İran tərkibinə ürcah olunmuş Güney Azərbaycan barədə bir çox bədii kitablar oxumuşdum, amma "Heydərbabaya salam" poeması qədər mənim könlümü təlatümə gətirən ikinci bir əsər olmamışdı. Əsər, sanki bütün Güney Azərbaycanın dilinin, varlığının fəğanı, harayı, fəryadı idi. Bu, bütünlükdə Azərbaycan xalqının harayını aləmə yayacaq, bütün dünyaya səs salacaq böyük şairin hecada bərqərar olmuş misralarının dili, hayqırtısı idi…

"Heydərbaba" poeması nəzm diliylə bizim kimliyimizi bizə diktə edən acı həyat dərsi idi… Bu poema ana laylasıtək doğma, lətif, şirin gəlmişdi

mənə… O illər arxada qalıb, Azərbaycanın Quzeyi artıq müstəqillik qazanıb min bir qanlar bahasına olsa belə, Güney isə hələ də azadlığa çıxacaq gününü gözləyir. O gün gələcəkmi? Gələcəksə, bəs nə zaman? Nəsillər dəyişir, tarixə dövlətlər bəxş edən Azərbaycan torpağı hələ də parça-parça, tikə-tikədir… Elə bu ağrılı taleyimizə çıraq tutan gənc yazar, nasir-şair Sayman Aruz "Yüz il inqilab"la bizi qəflət yuxusundan ayıltmağa səsləyir.

Elə bir axşam virtual kitabxanada rastlaşdığım Sayman Aruzun "Yüz il inqilab" kitabıyla baş-başa qaldım. Romanı bir nəfəsə oxudum. Əvvəlcə Sayman Aruz barədə bir neçə kəlmə dəyərli sözün qiymətini bilənlərimizlə fikirlərimi bölüşmək istəyirəm. Sayman Aruz Güneydən Quzeyə o tayın ağrı-acısını qəlbinə yükləyib bu taya üz tutmuş istedadlı qələm adamıdır. Sayman bəy bəlkə də bu ağrıların çoxunu özü yaşamış, özü məşəqqətli həyatla baş-başa qalmış adamdı. Ona görə də Onun "Yüz il inqilab"ı belə təsirli, könül titrədən məqamlarla doludur. Bu kitab bir millətin dilini, varlığını itirmək təhlükəsilə üz-üzə qalmış ömür hekayəsidir. Din adı altında xalqların istəklərini boğan, onları dilindən, varlığından, ruhundan uzaqlaşdıran bir ölkədə cərəyan edən vəhşiliklərin çarəsi nə ilə çözülər, dəyərli Vətən əhli? Bizi bizdən ayıranlar hər şeyə nail olublar, torpaqlarımızı parçalamaqla, varlığımızı aşağılamaqla, kimliyimizi yasaqlamaqla... Amma bir şeyi unutmamalıdırlar ki, haqq nazilər, üzülməz… atalar demiş…

Əsərdə baş qəhrəman Seyiddir. Elə bütün baş verən hadisələr də Seyidin dili ilə nəql olunur və onun ətrafında cərəyan edir. Seyid özü bədbəxt insandır, bütün istəkləri gözündə qalmış, nəsibi isə adama cismani əzab verməkdir. Onun taleyinə güney Azərbaycanın Sulduz şəhərində həbsxanada işləmək düşür. Bu onun gündəlik işi, peşəsidir, təsadüfən həbsxanada uşaqlıq sevgisi olan Raziyə ilə qarşılaşır… Müəllif qadın qəhrəmanı Raziyəyə verilən amansız işgəncələri oxucuların gözlərindən yaş çıxardacaq dərəcədə bəyan edir. İran zindanlarında din, Allah adıyla adamlara tutulan divanlar insanı dəhşətə gətirir. "Quran"dan saysız-hesabsız təfsir kitabları yazıb pul-para qazananlar, gündəlik həyat tələbatlarını ödəyənlər, adamların beyninə bütün günü "şaxsey-vaxsey" aşılayanlar bəs Allah bəndələrinə niyə böylə zülmdə bulunurlar?

Bəs zülm etdikləri insanların yaşam haqqı yoxmu?! Əsərdə öz varlıqlarını döyülə-döyülə, əzilə-əzilə, tutula-tutula, asıla-asıla qoruyan binəva millətimizin acı həyat dastanı adamın ürəyini param-parça edir. Axı Raziyə də, Seyid də başqa cür həyat yaşaya bilərdilər, hər insana bir

ömür düşür, bəxtə düşən ömrü viran edib, bundan kam alanlar özləri öz cəzalarına yetəcəklər, bunun gec-tezi var… Elə müəllif də əsərin sonunda Seyidin əlilə bu vəhşiləşmiş adamları məhv edir. Feyzi, Hacı, molla, doktor verdikləri zülmün cəzasını alır, Seyid tərəfindən güllələnir, axırıncı gülləni isə Seyid özünə saxlayır və özünü məhv edir. Raziyənin boğazına kəndir keçirib onu assalar da, o əsərdə hamıdan pak, hamıdan yüksəkdədir, sanki yaralı Azərbaycanın özüdür Raziyə. Öz uşaqlıq sevgisinə məftun olub heç kimlə ailə qurmayan, öz dilini, varlığını, vətənini sevdiyi üçün həbsə atılan və işgəncələrə məhrum olan, istəklisi Seyidlə həbsxana divarları arasında üz-üzə gələn, elə onun tərəfindən işgəncələrə məruz qalan, öz bakirəliyini də illərlə sevdiyi bu adama – Seyidə təslim edən Raziyə…

Budur bizim ana-bacılarımızın təmizliyi, paklığı! Bəs bu gün bizə nələr təbliğ edilir – vətənsizlik, keçmişimizə, mənəviyyatımıza arxa çevirmək, hər cür pozğunluğun təbliği, qərbi yamsılamaq, qərbə yarınmaq üçün Vətənin müstəqilliyini təhdid etmək, el adət-ənənələrini təpikləmək, xor baxmaq, dodaq büzmək…

"Yüz il inqilab" kitabını oxuyanda müəllifin vəsf etdiyi Raziyə namuslu-qeyrətli vətən qızı, vətən övladıdır. O, illərlə istəklisinin bağışladığı gümüş üzüyü barmağında əziz xatirə kimi qoruyub saxlayır, öz istəklisinə qovuşmasa belə, onun sevgisi ilə yaşayır, uşaqlıq günlərinə çıraq tutan üzük ona ən dəyərli xatirədir. Ona görə də Seyiddən o üzüyün qaytarılmasını rica edir, amma Seyidin onun illərlə həsrətində qaldığı istəklisi olduğunu asılacağı gündən bir gün öncə bilir. Bu o gün idi ki, onu məcburi öldürülməmişdən əvvəl bakirə olduğu üçün zindanda faciəvi toy edəcəkdilər… Budurmu bizim inandığımız, körpəlikdən beynimizə yeridilən, səcdəsi vacib bilinən Din! Əgər budursa, islam adıyla insanlara vəhşət göstərənlərin cəzasını Allah niyə vermir?! Din adıyla insanları bir-birinə qırdıranlar, yağı edənlər, bəs görəsən, tanrı xofunu ağıllarından keçirirlərmi? Gücü, silahı, hakimiyyəti ələ keçirənlər anlamırlarmı heç bir imperiya zülmlə uzağa getmir? Gec-tez özülü, bünövrəsi titrəyir, divarları çökməyə başlayır.

Əsərdə müəllif İran-İraq müharibəsindən, sərhəddə yerləşən Sulduz şəhərinin adamlarının çəkdiyi müsibətlərdən obrazların diliylə yana-yana bəhs edir. Əsərdə kürd yaraqlılarından, onların şəhərə basqınından bəhs edən müəllif o insanların da faciəvi həyatını qələmə alır. Əslində imperiyalar daxilində yaşayan xalqları bir-birinə yağı etmək güc qurumlarının əlində

ən düşünülmüş silahdır. Elə əsərdə də bu gerçəkliklə qarşı-qarşıyayıq. Kürdü türkə düşmən edənlər əslində "parçala, hökm sür" siyasətilə yaşayır və çox vaxt da buna nail olurlar. Əzəli Azərbaycan torpaqlarına sahib çıxmaq istəyənlər bu diyarda, bu məmləkətdə yaşayanların dillərinə yasaq qoyub. Əgər bir kimsənin kimliyini yox etmək istəyirlərsə, birinci onun danışdığı dildə olan kitaba, yazıya, əlifbaya qadağa qoyulur. Elə İran zülmü altında əzilən həmvətənlərimiz də bu yasaqla üz-üzədirlər.

"Yüz il inqilab" əsəri haqqında yazılan məqalələrin birində oxumuşam ki, əsərin dilində qüsurlar var, amma mən bunun tam əksini deyərdim. Əsər çox şirin və oxunaqlı dildə yazılıb, Güneyin yapışıqlı, ürək oxşayan ləhcəsindən də çalarlar var romanda. Ələlxüsus nəzərə alsaq ki, əsəri yazan müəllif yazısı-pozusu, ana dili yasaq edilmiş bir rejimdə boya-başa çatıb, fars dilli məktəb, institut bitirib və doğma dildə təhsil almayıb, onda ancaq Sayman Aruza təşəkkürlər düşür, çünki ana dilli məktəblərlə dolu Quzeyimizdə nə qədər insanlarımız öz dilində təhsil almağı, bu dilin gözəlliklərindən bəhrələnməyi özünə ar bilib. Elə indi də bədii yaradıcılıqla məşğul olub, özünə şair, yazıçı adı verənlərin bir çoxunun yaratdığı ədəbi məhsullarda bol-bol dil kasadlığı ilə üzləşirik. Yenə də təkrar edirəm, amma Sayman Aruz o tayda doğma dildə məktəb, tədris görməyib, yazılı şəkildə ana dilindən bəhrələnməyib. Onun ana dilində əxz etdiyi yalnız şifahi yolla doğmalarından eşitdiyi, duyduqları olub. Bu barədə müəllif ən böyük tərifləro, alqışlara layiqdir. Deməli, Güneyli bacı-qardaşlarımız şifahi şəkildə bu dili yaşadıb, nəsildən-nəslə ötürüb. Biz kirilə keçəndə onlar da bizimlə kiril əlifbası ilə yazışdılar, məktublaşdılar, latına keçəndə latın əlifbası ilə. Allah sizləri qorusun, əziz Güneylilər.

Bir-iki kəlmə də xaçpərəst və müsəlmanlar arasında paralellər aparmaq istəyirəm. Hamımızın bildiyi kimi Azərbaycanın Quzey tərəfi Rus imperiyasının əsarəti altında olub, bu əsarətə baxmayaraq, biz öz dilimizdə yazıb oxumuşuq, təhsil almışıq, orta-ali məktəblərimiz olub, amma ruslar bizə tam yad bir millət olub həm dili ilə, həm dini ilə. Amma bizim ana dilimizə yasaq qoymayıb, bu dildə tədrisimizi əlimizdən almayıb, bu dildə musiqimiz, muğamatımız, folklorumuz, ədəbiyyatımız, elmimiz inkişaf edib, nə qədər başqa sahələrdə bizə qarşı qəddar olsalar belə…

Azərbaycanın Güney tərəfi isə İranın əsarəti altındadır. Dini, hətta məzhəbi (hərçənd ki, mən məzhəbləri qəbul etmirəm və tanımıram) də bizimlə eyni olan bir xalq niyə bizim dilimizə, varlığımıza qarşı belə

amansız mövqedədir? Məgər islami dəyərlər qəddarlığımı, başqa xalqların varlığını danmağımı təbliğ edir? Əsla yox! İslam, təkcə islam yox, bütün dini kitablar, sülh, ülfət, sədaqət, saflıq, xeyirxahlıq aşılayır insanlara. Əfsus, nə fayda, səhərdən axşama qədər "Allahu-əkbər" deyənlər, möhürlə alnını göyərdənlər insanların haqqını tapdalayır, 50 milyonluq bir xalqın dilinə yasaq qoyur. Bu da bizim din qardaşlarımız, dindaşlarımız.

Güneyli-Quzeyli Azərbaycan ədəbiyyatının görkəmli gənc simalarından biri olan Sayman Aruz millətimizin dəhşətli həyat hekayətini özünəməxsus dillə yana-yana, qövr edə-edə "Yüz il inqilab" romanında qələmə alıb və dəyərli sözə, mənəviyyata qiymət verən vətən əhlinin ixtiyarına verib. And olsun kitaba və qələmə, bu kitabı oxuyan heç nə itirməz, əksinə, içində Vətən eşqi şahə qalxar, sizlərə bu eşqlə baş-başa qalmağı diləyirəm. Sayman Aruza isə yeni-yeni yaradıcılıq uğurları…

15.12.2014

SÖZ MƏSULİYYƏTİ

Dünən 11.01.2015-ci il, Fransanın paytaxtı Parisdə, bütün Avropanın, bəlkə də bütün dünyanın nümayəndələri yığışıb və "Charlie Hebdo" satirik jurnalının müsəlman terrorçular tərəfindən öldürülmüş işçilərinin faciəsinə etiraz etmək üçün yürüş təşkil etdilər. Öldürülənlər tək Allaha inansaydılar mən onlara Allah rəhmət etsin deyərdim, ancaq bu sözlər ölənlərə düşmür, çünki onlarda nə Allaha, nə də onun timsalında heç bir dinə inam yox idi. Onlarda inam olsaydı 1,5 milyard müsəlmanın iman gətirdiyi Məhəmməd (ə.s.) peyğəmbəri təhqir etməzdilər.

Bir çox ölkələrin başçıları bu yürüşə qatılıb, yüz minlərlə insanlar dünya cəmiyyətini inandırmağa çalışırlar ki, öldürülənlər öz həyatını söz azadlığına görə qurban veriblər. Qərb demokratiyasının yüksəlişi naminə bu yolda özlərini həlak ediblər. Bəs bu jurnalistlər müsəlman peyğəmbərini təhqir edəndə bilmirdilər ki, onların düşüncəsinin məhsulu nə nəticə verə bilər? Nə ilə qurtara bilər? Çox güman ki, onlara terrorçulardan xəbərdarlıqlar da gəlirdi. Mən müsəlman olduğuma görə bu mövzunu qələmə almadım, ümumiyyətlə, hər dinə hörmətlə yanaşmaq, sayğı göstərmək lazımdır. Anlamaq lazımdır ki, hər dinin arxasında milyonlarla insanlar dayanır, elə adamlar da var ki, təhqirə dözə bilmir. Olan oldu, nəticə nədir?..

Hələ Fransanın "Charlie Hebdo" jurnalının vəkili Rişar Malka tutduqları yoldan dönməyəcəklərini bəyan edib: "Təbii ki, biz geri çəkilməyəcəyik, yoxsa bütün bunların heç bir mənası olmayacaq. "Je suis Charlie" ("Mən Şarliyəm" sloqanı ruhun xüsusi halını, Allah və dini məsxərəyə qoymaq hüququnun olmasını göstərir. "Je suis Hebdo" sizin dini tənqid edə bilmək hüququnuzun olduğunu və əslində bunda qeyri-adi heç nəyin olmadığını diqqətə çatdırır. Yəhudini iudaist, xristianı xristian, ya da müsəlmanı müsəlman olduğuna görə tənqid etmək doğru deyil, amma xristianlıq, islam və iudaizm haqda ən iyrənc şeyləri demək olar və biz bunu edirik".

İndiki baş verən hadisələr adama 30-40-cı illərin ab-havasını xatırladır, o vaxt yəhudilərə qarşı mübarizə gedirdi, indi isə müsəlmanlara qarşı. Adama elə gəlir ki, böyük dövlətlər artıq sakit yaşamaqdan beziblər, onlar yeni dünya müharibəsinə rəvac verməyə başlayıblar. Əgər belə olmasaydı, 1988-ci ildən bu günə qədər davam edən torpaqlarımızın haqsız işğalına yox deyərdilər, ayrı-ayrı yerlərdə müharibə ocaqlarını qızışdırmazdılar.

Bütün dünyada islamofobiya baş qaldırıb, müsəlmanları vəhşi, barbar sayırlar. Mənə təəccüblü gəlməz ki, sabah xristian ölkələrində adamları məhz müsəlman olduqları üçün öldürəcəklər. Əgər jurnalistlər bunu istəyirdilərsə, artıq bu nəticəyə gəliblər. Bu onların canları bahasına başa gəlib, amma onların fəaliyyəti söz azadlığı mübarizəsi yox, adi bir provokasiyadır.

Dünya böhran içindədir, iş yerləri azalır, maaşlar azalır, afrikalılar yeməyə qida tapmır. Yer kürəsində insanların sayı həddindən artıq çoxalıb, kimdir təqsirkar – çoxalan müsəlmanlar?! Qırın onları, sizə müsəlmanlarsız yaxşı, rahat həyat olacaq. Fikrimcə, provokasiyanın nəticəsi bu ola bilər. Yoxsa sakit həyat yaşayırdı ərəb ölkələri, indi nə olub? İraq, Suriya, Liviya, Fələstin, Əfqanıstan… ən nəhayət, ölkəmiz Azərbaycan, bu qanlar bitmir ki, bitmir. Bu ölkələrin havadarları hansı baharı gətirib insanlara? Ölüm, qırğın, qan, qaçqın, köçkün… Budur bu gün müsəlman insanın bəxtinə düşən həyat! İŞİD hardan peyda olub? Kim onlara silah verir? Bizim müqəddəs kitab olan Quranın hansı hissəsində yazılıb ki, günahsız insanların qanı axıdılsın, mülki əhali qırılsın, hardan qaynaqlanır bütün bunlar? Görürsünüz, nə qədər suallar yaranır, dünya dövlətlərinin möhtərəm, hörmətli başçıları!

Deməli, fikirləşiblər ki, lazımdır "Söz azadlığı", bunların söz azadlığına baxın… əgər dini təhqir etmək qırğınlara aparırsa, ey sözü beynində qaynadıb qələmə alanlar, ona hüdudlar qoymaq lazımdır. Bu heç də

demokratiyanın boğulması demək deyil, hər şeyin bir əndazəsi, ölçüsü olmalıdır. O da ola ki, sən milyonlarla insanın dini inancını təhqir edəsən, onun peyğəmbərinə ağlasığmaz hədyanlar edəsən və adını da qoyasan "Söz azadlığı"...

"Mən belə istəyirəm" azadlıq deyil, o anarxiyadır, insanı məhvə aparan həyat tərzidir, başa bəlalar gətirən yaşayış prinsipidir.

Xristian dünyasında elə din xadimləri var ki, başa düşürlər, bu yol bəşəriyyəti hara aparır? Onlar bu cür dırnaqarası qəhrəmanlara qarşı çıxır, heyif ki, bu gün onların sayı azdır, Allah eləsin, sabah onların sayı çoxalsın. Hansısa bir ağıllı adamın fikridir: "Allah olmasaydı belə, onu uydurmaq lazım olacaq idi", çünki Allahsız dünya harmoniyasız qalar və məhvə gedər. Siz bir yadınıza salın SSRİ-ni, 70 ildən artıq davam gətirmədi, çökdü… Bütün bu yuxarıda yazdıqlarıma rəğmən mən heç də terroru törədənlərə haqq qazandırmıram, sadəcə, demək istəyirəm ki, heç nə elə-belə baş vermir, yer də tərpənib minlərlə insanı qıranda, bilin ki, yeraltı qatlarda baş verən təkanlarla əlaqədardır.

Şübhəsiz ki, bütün terror təşkilatlar yer üzündən silinməlidir, əgər bunu böyük dövlətlər istəyirsə… hər insan həyatı müqəddəsdir, elə bizim peyğəmbərimiz bir insanın öldürülməsi bütün bəşərin öldürülməsi kimi başa düşülməlidir deyib. Heç kimə icazə verilmir ki, bir başqasının həyatına son qoysun, amma dinləri təhqir etmək, onları gülüş obyektinə çevirmək yolverilməzdir. Kim sənə məcbur edir ki, hansısa dinə inan, inanmırsan inanma, amma başqalarının hissiyyatına xələl gətirəcək inanclara da pis gözlə baxma! Bu heç də nə yüksək səviyyədən, nə də yüksək savaddan xəbər verir. Məncə, hər ölkədə dinləri mühafizə edən qanunlar olmalıdır və dövlət başçıları fikirləşməlidirlər ki, provokatordan qəhrəman çıxmaz. Belə qəhrəmanlar nəinki özlərini, hətta bütün dünyanı ağlasığmaz faciələrə gətirib çıxararlar. Bəsdirin, insanların min ilə gedib çıxan inancına pis gözlə baxmayın. Gəlin bir-birimizin həyatını zəhərə döndərməyək, bizim başqa bir planetə gedəsi yerimiz yoxdur, hamımız yer kürəsinin övladlarıyıq, dinindən, dilindən, irqindən asılı olmayaraq gəlin bir-birimizə mərifətlə yanaşaq. Ey Allaha inanan və inanmayanlar, hamımız bir ömür yaşayırıq, qısa bir ömür, vücudumuz da elədir ki, çox vaxt bu olanlara dözmür, gəlin can deyib, can eşidək.

12.01.2015

MANATA GİZLİ MƏKTUB

Deyirəm ki, vallahi-billahi bu dünyada inanmaqdan pis şey yoxdur. Kiməsə, nəyəsə ürəkdən inanasan, sonra o sənin inamını qəfildən vura yerə… Bütün ümidlərini itirəsən bir anın içində! Necə ki, MANAT, sən bizim ümidləri bir gecənin içində atdın ayaqlar altına. Cənab manat, mən biz deyəndə kasıb-kusub təbəqəni nəzərdə tuturam. Elə o kasıb-kusubdan biri də mən özüməm. İnanıb sənə bir-iki manat dala atmışdım yaman günüm üçün… bir də eşitdim ki, kəlləni qoymusan yerə. Mən onda xəbər tutdum ki, artıq gec idi, başına gələnlərdən tez hali olanlar, necə deyərlər, başının çarəsini qılmışdı. Manat hüzuruna ərz edim ki, verdiyin faizə aldanıb elə kasıb-kusub da sənin qapını döyürdü. Yoxsa varlının, imkanlının nə dərdinə qalıb ki, sənlə para bölüşsün? Etiraf edək ki, imkanlı adamların içində də sənin pulundan yararlananlar var idi.

Sənin varlığından istifadə edən imkanlı adamlar hansı ki, kimlər üçün dal qapılar açıqdı, vaxtında xəbər də tutdular, vaxtında da, manat, səni dollara dəyişdilər, deməli, varlıların üçdən biri daha da varlı, ala-babat yaşayanların isə üçdən biri kasıb oldu. Ona görə də bizim sevimli Milli Məclisdə deyirlər ki, heç kəsə ziyan olmayıb, onsuz da camaat pulu dollarla banklarda saxlayır, onların sözündən belə çıxır ki, xalq deyəndə ancaq özlərini nəzərdə tuturlar. Bəs biz kimik, manat? Dünyada hər milli valyuta dollara bağlıdır, istədi-istəmədi, hər ölkədə milli valyuta dollarla hesablanır. İqtisadiyyatı əmrlə, göstərişlə idarə etmək olmaz, köhnə qiymətləri müvəqqəti 3-4 ay saxlamaq olar, sonra otuz dörd faiz inflyasiya özünü göstərəcək. Bu mənim fikirlərimdir, fikirlərim düz, ya da yanlış olacaq, bunu bir neçə ay ərzində bilərik, manat.

Deyirlər ki, sən saydığını say, gör fələk nə sayır. Vallah, bütün ümidimi qırandan sonra daha sənə inamım-zadım qalmadı. Zad demişkən, elə bizim Milli Məclisdə də sevimli millət vəkillərinin bəziləri deyirdi ki, sən onlara heç ziyan-filan vurmamısan, çünki onlar onsuz da pullarını dollarla qoyublar banklara…

Mən sənin qarşında tam etiraf edim ki, manat, sənin varlığın pula pul deməyənlərə yox, pulu gündüz çıraqla axtaranlara lazım idi. Sən gör nə etdin, manat? Elə bir işin var idi, biz yetim-yesirə vaxtında xəbərdarlıq edərdin də, manat. Axı biz də sənə azından-çoxundan sayğı göstərirdik! Varlını onsuz da sən maraqlandırmırsan, manat. Sən çarəsizlərin arxasında

dayanmışdın, axı. Birdən-birə nə oldu sənə? Xahiş edirəm cidanı çuvalda gizlətmə, etiraf et ki, qarşımızda günahkarsan. Bir xeyli mənim kimi ac-yalavaclar səndən incik düşüb. Sən ümidimizin üstündən ağır çəkili maşınla keçdin. Bir gecənin içində 34 faiz bizi çırpdın yerə, bizi yerə çırpana qədər, görəsən, min ölçüb-bir biçmişdinmi, manat? Yoxsa sən bir gecənin içində bu nə hoqqadı çıxartdın, manat? Özün söylə, biz indi sənə necə bel bağlayaq, manat?! Bir az insaflı ola bilməzdinmi? Yəni demək istəyirəm ki, sən bu işi bir ilə edə bilərdin, amma heç fikirləşmədən bir gecəyə etdin. Sənə afərinmi, ya nifrinmi deyim, manat? Sən bizi yarı yolda tənha buraxdın. İndi bilirəm mənə deyəcəksən ki, bu işi mən yox, ətrafımdakı ikiayaqlı bəndələr edib. Mənim vallah, manat, o dediyin ikiayaqlı bəndələrə gücüm çatmır, aqillər demiş, vuran əl olmayanda dil işə düşər. İndi məndə zəif cinsin nümayəndəsi olduğum üçün manat əlimi yox, dilimi işə salım sənin hüzuruna öz tənələrimi yetirirəm. İndi mənə bir şey maraqlıdır, manat, qırdığın inamları necə geri qaytaracaqsan? Axı deyirlər ki, ulaq ulaqlığıyla yıxıldığı arxdan bir daha keçməz. İndi bizlərə, yəni pulu gündüz çıraqla axtaranlara etdiyin bidada görə sənin şəninə nə düşür, görəsən, manat? Kəsəsi, manat, sən bizimlə çox aldadıcı, çirkin oyun oynadın, bir-iki qəpiklik faizinlə bizi yamanca yoldan çıxartdın. Sonra isə gecəylə həm verdiyin faizləri, həm də qəpik-qəpik yığdığımız ölü-diri pulumuzun da bir hissəsini əlimizdən üsulluca aldın. Afərin sənə, manat, sənin bu sevginə, bu ülfətinə, bu məhəbbətinə!

Bilirəm, indi mənə deyəcəksən ki, inflyasiyadır, bir dön ətrafındakı qonşu dövlətlərə nəzər yetir, gör nə gündədirlər. Əgər mənə belə sual verəcəksənsə, mən sənin sualını cavablandırıb, əvvəla, biz qonşu ölkələrin əhalisi kimi elə də çox deyilik, bu çox əhalisi olmayan ölkənin neft gəlirləri var idi, manat, birdən-birə nə oldu ki, sən o gəlirlərdən dar gününə atmadın? Heç bizləri fikirləşmədinmi, manat? Əlqərəz, bizim sənə inamımızın təqsirinin bir ucu da elə özümüzlə bağlıdır. Keçən əsrin axırında banklarda ölən paralarımızın aqibəti bizə qəpik-quruşla qayıtdı, manat. Biz bundan heç nəticə çıxartmadıq. Deyirlər ki, başına gələn başmaqçı olar. Biz isə başımıza gələnlərdən nəinki başmaqçı, heç pinəçi də olmadıq.

Sonda sənə deyəcəyim odur ki, manat, bu gizli məktubumu oxuyub qəlbini sıxma. Heç bizdən utanma, çəkinmə. Bizlər onsuz da hər əzaba öyrəşmiş canlarıq. Necə deyərlər, islanmışın yağışdan nə qorxusu? Sən sağ, biz salamat, manat. Başını aşağı salma, dik tut bir, gecədə cibindən pul

çəkdiyin bəndələrin gözlərinin içinə bax, əgər baxmış olsan göz yaşında batarsan manat, bax o batacağın gündən bizi yox, özünü qoru… Axı sən bizim milli valyutamızsan, paramızsan, ciyərparəmizsən. Sən bizi sevməsən də biz səni sevirik… Sağ ol, salamat qal. Sənə yazdığım bu gizli məktuba görə qınama məni, qınama məni…

14.03.2015

ƏDƏBİYYAT YALAN SEVMİR

Taleyini qələmə bağlamaq, özünü qələm əhlinin əhatəsində görmək içdən gəlməlidir. Necə deyərlər, bu bir mənəvi tələbat olmalıdır. Yəni sən yazmasan, yaşaya bilməzsən. Yazmaq həyatı qida kimi səni çuğlamalıdır. Yazdığın bədii parçaların içində "baş üstə, bəli" düşüncəsi olmamalıdır. Yaradıcı adam tam azad olmalı, öz ruhuna köklənməlidir. Onda ortaya nə isə çıxartmaq olar. Tarix boyu şahların, hökmdarların hökm etdiyi zamanlar olub və bu gün də var. Tarix çox vaxt başıpozuq hökmdarların ucbatından saxtalaşdırılır, həqiqətin üzünə çirkab atılır, həqiqət bir boğçaya bükülüb, hansısa taxçada gizlədilir.

Əsl ədəbiyyat adamı, qələm əhli tarixin qoruyucusuna çevrilir. Yaşadığı dövrdə gizlədilmiş həqiqətlər bədii əsərlərdə, istər nəzm olsun, istər nəsr, istər publisistikada öz əksini tapır. Şairlərin, yazıçıların yazılarında dövrün mühiti hiss olunmalıdır. Sonradan zaman keçir, o hökmdarlar əməlləri ilə birlikdə tarix səhifəsinə köçdükdən sonra, əsl qələm əhlinin yazdıqlarında yaşananların əks etdirdiyi bədii məhsullar kara gəlir. Tarixin yenidən yazılmasında öz bəhrəsini verir. Yalana köklənən ədəbiyyat və onun daşıyıcıları saxtalaşdırılmış tarix kimi kitab hücrələrində əbədi toz basır. Bəlkə də yaşadığı dönəm kəsiyində o bir çox ödüllərə, tərifləra, titullara sahib olsun, amma özü dünyasını dəyişən kimi yazdıqları da dünyasını dəyişəcək.

Keçən əsrin 90-cı illərində Lev Qumilyovun tarix barədə yazdıqları əl-əl gəzirdi, oturub onun yazdıqlarıyla tanış olandan sonra görürsən ki, Sovet İmperiyasının sifarişi ilə yazılıb və Rus İmperiyasının təcavüzünə bəraət qazandırır, onun nəzəriyyəsilə ruslar hələ 300 il təcavüzkar (passionar) xalq olacaq və dünyanı hələ 300 il qorxu içində saxlayacaq. O öz yazdıqları ilə nəinki bizə, bütün türklərə kifayət qədər çirkablar atıb, əsasən də Azərbaycana… Özü bilərəkdən, ya bilməyərəkdən saxta rus-erməni tarixçilərinin düşüncələrinin qurbanına çevrilib.

Keçən əsrdə ədəbiyyatda yazarlar arasında kifayət qədər quruluşu öyən, onun varlığına mədhlər söyləyənlər, vaxtlarını boşuna sərf etdilər, sağlıqlarında quruluşdan bəhrələndilər, amma onların yazdıqlarının çoxusu indi nə ədəbi məhsullar kimi dəyərli, nə də insan mütaliəsi üçün yararlıdır. Yalnız o dönəmi işıqlandırmaq üçün tədqiqatçılara lazım olar.

Bu yaxınlarda saytların birindən oxudum ki, Böyük Atatürkü əlinə silah götürüb, Vətəni xilas etməyə ruhlandıran dahi Hüseyn Cavidin "İblis" dramı olub. Hüseyn Cavid cismən sağlığında çox dəhşətlərə, haqsızlıqlara, imansızlıqlara düçar oldu. Ailəsi faciələrə atıldı, özü Sibirin soyuq buzlarında məhv edildi. Etiraf edək ki, ədəbi məhsullardan başı çıxan bir kimsə taparsınızmı Hüseyn Cavidi sevməsin?! O bu gün aydınların, ziyalıların, səviyyəli oxucuların qürur mənbəyidir.

Ədəbi yaradıcı məhsullara baş vuranda görürsən ki, bir çox qələm əhli kökündən sapmanı özünə həyat amalı seçib. Bədii məhsulların içində şounu andıran məqamlar bəzən adamı özündən çıxarır. Keçmişinə dodaq büzmək, ədəbi ənənələrə arxa çevirmək, şeri, şeriyyəti söz yığını etmək, sanki ali bir məqsədə çevrilib. Gənclik – gözəllik, enerji, yaradıcılığın vulkan təki püskürməsi, güc-qüvvət, sağlamlıq deməkdir. Yaradıcı gənclik bu imkanları kökünə-soyuna bağlılıq, təmənnasız yaradıcılıq fövqündə qurmalıdır. O heç kəsdən yaratdığına ödül gözləməməlidir, yaradılan bədii məhsul ürək yanğısı ilə, təbii mənəvi tələbatla yazılmalıdır. Azad yaradıcılığa görə, insan özünə gündəlik yaşamı üçün başqa peşə seçməlidir. Ədəbiyyat adamının gizli könül hücrəsi olmalıdır, orda yalan, böhtan, yaltaqlıq, ikiüzlülük, kimlərəsə yarınmaq, mənəvi dünyanı aşağılamaq olmamalıdır.

Keçən əsrin əvvəllərində haqsız böhtan və qırğınlara məruz qalan ədiblərin həyatına və yazdıqlarına diqqət kəsildikdə görürsən ki, yaşadıqları zaman kəsiyinin ab-havasını öz qələm məhsullarında əks etdirən bu insanlar ədəbiyyatımızın baş əyəsi, fəxarətlə yad ediləsi şəxsiyyətləri olublar.

Bu gün ədəbiyyatımızı bölgələrə parçalayanlar, bölgə psixologiyasından qurtulmayanlar, bir-birinin yazdıqlarına xor baxanlar yaradıcı gəncliyə könül verməlidirlər. Onları xoş məramları ilə, canıyananlıqlarıyla qəlblərini isitməlidirlər. Yaradıcı gəncliyin yaşlı ədəbi nəslin deyəcəyi xoş sözə, iltifata, düz cığıra, düz yola ehtiyacı var. Biz bunu anlamalı və onlara qayğı ilə yanaşmalıyıq. "Burda mənəm, Bağdadda kor xəlifə" deyib gənc nəsil tərəfindən yazılan ədəbi məhsullara dodaq büzmək olmaz. Onlar bizim sabahımızdı, hər bir sabah isə qoynunda yuva saldığımız Vətənin varlığından keçir.

Yaxın keçmişimizdə Qarabağ haqqında yazılan bədii məhsullar barədə yerli qarabağlı yazarlardan eşidirdim ki, bu dəhşətlər bizə aiddir, biz bunları qələmə almalıyıq, digər bölgələrdən olan yaradıcı insanlar bunları bizim kimi yazılarında əks etdirə bilməz. Bu çox gülməli və ürəkağrıdıcı fikirdir. Dəyərli qələm əhli, rica edirəm, vətəni bölgələrə bölməyək, onsuz da Azərbaycandan bölünə-bölünə heç nə qalmayıb. Bizim bütün bölgə mərkəzlərimizdə Şəhidlər Xiyabanları var, bu Xiyabanlarda yatanlar, orda azğın düşmənin fəğan etdiyi ana məmləkətimizdə üzünü torpağa sürtüb Vətən uğrunda can verdi, o dərd hamımızın dərdidir, keçən əsrin 90-cı illəri bizim cavanlığımıza düşdü, bizim gəncliyimiz acı hönkürtülərlə, göz yaşları ilə keçdi, indi də içimizdə bu ağır kədəri daşıyırıq, o dövrün gəncləri bu gün hamı əsəbi, hamı xəstədir. Qarabağda baş verənlər Güneyli-Quzeyli bütöv Azərbaycanın yarasıdır, bu yaranı sağaltmasaq hələ çox qanlar axacaq.

Möhtərəm ədəbiyyat adamları, gəlin ədəbiyyatımızı ədəbi məhsullarda baş alıb gedən yalanlardan xilas edək, gəlin ruhumuzun təmizliyinə diqqət edək, axı ruhun ağrısı vicdan ağrısı deməkdir, o insanı ölənədək rahat buraxmır, hələ deyilənlərə inansaq, o dünyada da cəzası var. Yazımı burdaca bitirmək istərəm, dəyərli oxucular, həm ürəyi həyat eşqilə qaynayan ədəbi gəncliyə, həm də yaşlı yazar nəslə cansağlığı diləyilə, türk qardaşlarımız demişkən, xoşca qalın!

25.03.2015

XRİSTİAN OCAĞI

Səmavi dinlər dünyaya gələndən, cahanda kütləvi insan qırğınlarının sayı artdı. Müsəlmanlara qarşı törədilən Xaç yürüşlərində qan su yerinə axdı. Dünya dinlərdən nə qazandı, ölüm, qan, qırğın, dini düşmənçilik. Elm inkişaf etdi, insan ağlının əxz etdiyi kəşflər dünyanı heyran qoydu. Qərb dini dövlətçilikdən məhrum edib kilsəyə yerləşdirdi, amma içində öz dinində olmayanlara kin bəslədi, bu kin, bu ayrı-seçkilik bu gün də davam edir. Öz dinindən olmayanlara yuxarıdan aşağı baxan, dodaq büzən aşağı irq hesab edən Qərb bilmirəm hansı demokratiyadan, insan azadlığından, demokratik dəyərlərdən bəhs edir?

Roma Papasının, Avropa Birliyinin Türkiyəyə qarşı utancverici qərarı yuxarıda qeyd etdiklərimə bariz nümunədir. Birinci Dünya savaşında demək olar ki, qərb ölkələri Osmanlını çökdürmək üçün savaşa atıldılar,

bu zaman Osmanlı dövlətinin vətəndaşları sayılan ermənilər Rusiyanın dəstəyilə silahlanaraq, qoynunda yaşadıqları vətənlərinə xain çıxdılar. Osmanlı dövlətinə arxadan xaincəsinə zərbə vurdular, minlərlə türk kəndləri yandırıldı, kütləvi şəkildə qoca, körpə, uşaq, qadın qətlə yetirildi, quyulara doldurduldu, sonra onlar bu qırğınları Güney Azərbaycanında, Quzey Azərbaycanında davam etdirdilər. O zaman Osmanlı ön cəbhədə ölüm-dirim savaşında idi, ermənilər isə xaincəsinə yüz illərlə suyunu dadıb, çörəyinə ortaq olmuş Türk millətinin kürəyinə bıçaq sapladı. Bəs görəsən, Osmanlı dövləti nə etməli idi? Ermənilərin başınımı tumarlamalı idi törətdikləri qətliamlara görə? Arxada viran qoyduqları kəndlərə görə… 1915-ci il olaylarını istər Avropa Birliyi, istərsə də Roma Papası bizlərdən də yaxşı bilir. Məgər Avropa Birliyi bilmirmi, ermənilər yaxın keçmişimizdə Qarabağda hansı dəhşətləri törədiblər? Viran etdikləri Qarabağda məhv olmuş Xocalının fəryadına göz yuman Qərb bu gün bizə hansı demokratik dəyərləri diktə edir? İşğal altında olan Qarabağ torpağından didərgin düşmüş insanların fəryadına Avropa niyə susur? Ona görə ki, biz müsəlmanıq, bizim günahımız müsəlman olmağımızdadır, xristian qan da tökə bilər, torpaqları da işğal edə bilər, milyonlarla insanın haqqını tapdalaya bilər, ona heç bir söz deyilə bilməz, çünki xristiandır! Mən şəxsən öz adımdan deyirəm ki, bu gün Qərbin etdikləri adamı bu qənaətə gəlməyə vadar edir. Görəsən, dini ibadət ocaqlarında İsa Həzrətlərinə iman gətirən, onun şərəfinə misilsiz ayinlər icra edən xristianlar heç düşünürlərmi, onların bu haqsız əməlləri Allah saydıqları, sayğı duyduqları müqəddəs varlığa necə təsir edir, onlar öz çirkin əməllərilə Həzrəti İsanı yenidən çarmıxa çəkmirlərmi? Onun ruhunu incitmirlərmi? Heç bir dəfə olsa da bu barədə düşünüblərmi? Axı bizim bir insan olaraq dərk etdiyimizə görə Allah öz bəndələrinə eyni gözlə baxır, istəyirsən hansı dində olursan ol, deyilənlərə inansaq o dünyada insanın yaxşı-pis əməlləri sorğu-sual olunacaq.

Bir neçə gündə baş verən olaylardan belə nəticəyə gəlmək olar ki, Qərb üçün xristian dünyası və onun insanları var.

XXI əsr texnika, mədəniyyət, inkişaf, super güclərin uğurları əsridir. Güman edirdik ki, daha dünyada qandondurucu dəhşətli müharibələr olmaz, insanlar mədəniləşmiş, axı insan insanı niyə öldürsün? Dünya belədir ki, hamımıza torpaq da, su da, yemək də çatar. Təəssüflər olsun ki, bu belə deyil, günahsız insanların qanını tökməkdən həzz alan cəlladlar hələ də

dünyada hökmranlıq edir. Əgər keçən əsrin birinci yarısında Avropada yəhudilərə, türklərə qarşı kütləvi soyqırım törədilmişdisə, keçən əsrin sonunda yenidən Xocalıda bütünlükdə Qarabağda türklərə, müsəlmanlara qarşı soyqırım törədildi. Balkanlarda müsəlmanların başına gətirilən müsibətlər, soyqırımlar, bu gün də o soyqırımları davam edir, İraqda, Yəməndə, Misirdə, Suriyada, Əfqanıstanda, Liviyada, Azərbaycanda!

Bu gün Türkiyə Suriyada törədilən dəhşətlərdən baş götürüb qaçan yüz minlərlə qaçqına qucaq açıb, onların suyunu, çörəyini verir, tədrisini həyata keçirir. Belə bir xeyirxah missiya ilə məşğul olan bir dövləti soyqırımı ilə suçlamaq, ən azı Allahsızlıqdı, din adı altında Allahın özünü ələ salmaqdı!

Bu gün demokratiya adı altında cəmiyyətlərə, insanlığa, kişiliyə zidd olan xəstə təfəkkürlü fərdlərin əməllərinə haqq qazandırmaq, onların haqlarını müdafiə etmək Qərbdə adət halını alıb, belə olmasaydı kişini kişi ilə, qadını qadın ilə evləndirib, hələ onlara uşaq da icad etmək savab sayılmazdı. Hələ qədimlərdən belə utancverici əməllər, cəmiyyətə təlqin olunmazdı, əksinə, bələləri qınanılardı, xəstə insanlar kimi dəyər verilərdi. Bələlərinin həyatını önə çıxarıb, insanların beynini zəhərləmək insan haqları sayılırmış, amma bu gün İraqda, Suriyada,Yəməndə, Azərbaycanın işğal altında olan ərazilərində baş verənlər insan haqları sayılmırmış. Bütün bunların bir səbəbi var, çünki bu ölkələrdə yaşayan insanların çoxu xristian inanclı yox, müsəlman inanclıdır, deməli, bizim günahımız müsəlman olmağımızdadır.

Biz vəhşi xalq deyilik, baxmayaraq ki, erməni ilə müharibə aparmaq məcburiyyətindəyik, 30-40 min ermənisinin ad-soyadını dəyişdirib öz qoynumuzda bəsləyirik, onlar bizim aramızdadı, biz onları tanıyırıq, amma susuruq, çünki bizim xislətimizdə vəhşilik yoxdu. Hələ mən Azərbaycanda kütləvi şəkildə türklərə soyqırımı edən ermənilərin utanmadan Türkiyəyə axın etməsini demirəm. Ey insan haqları deyib bütün günü hay-haray salan Avropa, məgər sən bunları bilmirsənmi? Bilirsən, amma susursan. Belə olan halda sən İsa Həzrətlərinə də xain çıxırsan, çünki heç bir dində haqqı, ədaləti tapdalamaq yoxdu, sadəcə, dini kitablardan siyasətdə silah kimi istifadə edən bəndələr nə öz vicdanları, nə də Allah qarşısında cavab verə bilməyəcəklər.

Bir neçə kəlmə də Qərbə aşiq olub, öz keçmişinə, bugününə, dövlətçiliyinə, vətəninə arxa çevirən xarici ölkələrdən ciblərinə dollar axan həmvətənlərimə deyəcəyim var. Əzizlərim, candaşlarım, soydaşlarım, qan qardaşlarım, bura VƏTƏNDİR, başıbəlalı, min bir yerə parçalanmış

VƏTƏN! Bizim Qarabağ boyda sinə dağımız var, bizim Xocalı yaramız var, VƏTƏN adı gələndə biz bütün umu-küsüləri, incikliklər unutmalıyıq, Azərbaycanımızın sabahı naminə! Allah Türk millətini qorusun, ona arxa olan bütün dindaşlarını qorusun. Dünya bizi eşitməkçün biz güclü olmalıyıq, bir olmalıyıq, nicat yolumuz birliyimizdədir, əks təqdirdə bizi təkləyib dənləyəcəklər…

Deyəcəklərim bu qədər, sağ olun, salamat qalın…

16.04.2015

ŞƏRƏ ƏYİLƏNLƏRİMİZ

Uşaq vaxtlarımdan rəhmətlik nənəmdən belə bir deyim eşitmişdim, bala, rusun çörəyi dizinin üstündədi, onlara bel bağlamaq olmaz, yoldaşlıq et, amma ehtiyatını da əlindən vermə. Oktyabr ayından bu yana dəfələrlə Türkiyə hava sərhədini pozan rus qırıcıları, nəhayət ki, öz layiqli cəzasını aldı. Türkiyə hava sərhədini pozan rus bombardmançı qırıcısını türk şahinləri vurdu. Gəlin görək bu xoşagəlməz xəbərə bizim bəzilərimiz necə yozum verdik?

Deyirlər ki, mərdi qova-qova namərd edərlər. Bizim ölkədə yaşayan bir çox insanlarımız əsarət altında yaşayandan üzü bəri öz şirin canlarını, mallarını, paralarını, arvad-uşaqlarını məkrli düşməndən qorumaq üçün namərd olmağa öyrəşiblər. Bu namərdlik onların içlərində o qədər vüsət alıb ki, çox vaxt öz doğmalarını belə şəxsi mənfəətləri üçün düşmənə satmaqdan çəkinməyiblər. Bu gün bizim ölkəmiz başıbəlalı Quzey Azərbaycanı qismən azadlığın bəhrəsini görməkdədir. Ona görə Quzey Azərbaycanı deyirəm ki, bizim ölkənin adı Quzey Azərbaycan olmalıdı, çünki biz Azərbaycan adını daşımaqla çoxmilyonlu Güney Azərbaycanının varlığını kölgə altında qoymuşuq. Əlqərəz, keçək əsas mətləbə.

Türkiyə öz varını, varlığını, özgürlüyünü qorumağı bacaran və bunu bütün dünyaya sübut edən qüdrətli, şərafətli, ləyaqətli bir dövlətdi. O öz qeyrətli insanları ilə Vətən torpağını qorumağa qadir olan ölkədir. Onun varlığı, istiqlalı, kökü-soyu ilə qürur hissi keçirən milyonlarla türk kökənli insanlarımız var. Türkiyə bu gün nə etməlidir? Bayır-bucaq türkmənlərinin acısına seyrçimi qalmalıdır? Hansı ki, bu diyar düz onun qulağının dibindədir. İnsanları vəhşət içində hər şeyini itiriblər, Suriyada, İraqda bu

gün vəhşət yaşanır. Özünü insan hesab edən hər bir kəs dilindən, dinindən asılı olmayaraq o bölgənin fəlakətinə ürək ağrısı keçirməlidir.

Əslində tam səmimiyyətimlə deyirəm, mənim rus xalqına yazığım gəlir, vaxtilə Rusiyanın meşə bataqlıqlarında yaşayan bu xalq ömürləri boyu müharibələrin cəngində olublar. Bu müharibələri onlara başda oturub bütün dünyaya meydan oxuyan, bütün millətləri özlərindən aşağı sayan hakimiyyət alverçiləri yaşatdı.

Rus padşahları dünyanın yarıdan çoxunu zəbt edib millətləri aclıq, səfalət, qorxu, qul qismində saxlayırdı, bu gün Vladimir Putin kimi müstəbidin əlində həmin xalqların bir çoxu hələ də əsirdi, Rusiyanın bugünkü məqsədi Rus İmperiyasını bərpa etmək, azadlığı dadmış 14 respublikanı öz tərkibinə salmaq və dünyaya meydan oxumaq, Bizim qulbeçələrimiz də o günü səbirsizliklə gözləyir. V.Putin Rus xalqına bu gün nə bəxş edib? Faşist keçəlbaşları… Sənə oxşamayanları harada gördün öldür, məhv et…

Rus işğalçıları 5000 km yol qət edib gəlib bizim evimizin içində qan-qırğın törədirlər. Erməni kimi milliyyəti qaranlıq olan qövmü üstümüzə salıblar. İki əsr bizə dəhşət yaşadırlar. Bu gün də bu dəhşət bitmir. Torpaqlarımızda erməni dövləti yaradıblar, ikinci bir erməni dövlətinin yaranmasına səy göstərirlər. Qarabağ əlimizdən gedib, biz yağıya atəşkəs elan etdik, zaman keçib gedir, o illərin şahidləri bir-bir dünyasını dəyişir, biz isə hələ də susuruq, gözləyirik ki, işğalçı Rusiya bizə torpaqlarımızı qaytarmaqda yardımçı olacaq! Axı bu torpaqları bizdən elə rus hərbçiləri alıb ermənilərə verməyibmi? Niyə biz həqiqəti dünyaya car çəkməkdən qorxuruq! Bir atalar məsəlini dəyərli oxucuların diqqətinə yetirmək istəyirəm: "Qorxan gözə çöp düşər…" Bizim gözümüzə çöp düşüb, iki əsrdən çoxdur ki, o çöpü gözümüzdən çıxara bilmirik.

Biz qorxa-qorxa hər şeyimizi itirmişik, torpaqlarımızı, qürurumuzu, döyüşkənliyimizi. Varlığımızı da yavaş-yavaş itirmək üzrəyik.

Bir baxın Türkiyə öz kimliyini dünyaya sübut edir, biz burda tir-tir əsirik, başlayırıq kökü-soyu bizimlə bir olan qan qardaşlarımıza öyüd-nəsihət verməyə… Ay siz düz etmədiz, qoy sərhədini pozsunlar, bir sözlə, cəhd edirik ki, özümüzdə əskidən nə varsa Türkiyə türklərinin beyninə yeritməyə, onlara öyüd-nəsihət verməyə, fikrimizcə, keçəl tük bitirə bilsəydi, birinci öz başının çarəsini qılardı.

Hələ yaxın bir vaxtda deyirdik ki, biz bir millət, iki dövlətik və buna əl çalırdıq. Bəs bu gün nə baş verir? Bu hadisəyə ölkəmizdən heç rəsmi

münasibətdə də yoxdur. Məzhəbi əlində bayraq edib türk millətinin arasına girmək istəyən bəzi üzdən iraq dindarlara da ismarışımız var. Millət, soy-kök, varlıq, Vətən olan yerdə heç bir din, heç bir din içində məzhəblər bizim kimliyimizə kölgə sala bilməz.

Sözümüzün canı budur ki, ay bizim bığıburma kişilərimiz, dövlətlər arasında hər şey iqtisadi əlaqələrlə bitmir, ayrı-ayrı fərdlər kimi dövlətlərin də mənlik məsələsi var… Türkiyə əskidən üzü bəri heç zaman öz mənliyini dövlət olaraq aşağılamağa yol verməyib, bu gün də yol vermir.

Sizlərdən ricamız budur ki, qoyun papaqlarınızı qabağınıza özümüzün düşdüyümüz durum barədə dərin-dərin fikirləşin… Vaxt gələcək ki, əgər belə getsə sizin o yığdığınız var-sərvət də dadınıza yetməyəcək. Beyinlərinizin təzələnməsinin qeydinə qalın, artıq sizin köhnə havaya oynadığınız dövrlər keçib.

Axırda sizlərə içimizi didib-tökən fikrimizi ünvanlamaq istərdik, sizin indiki düşüncənizlə bizlər nə qədər məsafə qət edə bilərik və hara gedirik?!

26.10.2015

GÜNDƏM XƏSTƏLİYİNƏ TUTULANLAR

Axır zamanlar məndə belə fikir yaranıb, təhsildə davamiyyəti zəif olan, kifayət qədər məktəbdə öyrədilən fənlərdən baş çıxarmayan insanların bir çoxu qələm əhli, ya da müğənni olur. Mənim indiki yazacağım mövzuda qətiyyən müğənnilərlə işim yoxdu. Bu mövzu ilə qoy musiqi sahəsində çalışan, ömrünü-gününü o işə sərf edən adamlar məşğul olsun. Mənim özümün də içində olduğum mühit axır zamanlar daha çox narahat etməyə və həyəcanlandırmağa başlayıb. Necə deyərlər, hərə əlinə bir qələm götürüb, bir-iki hekayə, ya şeir yazandan sonra çevrilir şirə, az qalır ətrafındakıları dağım-dağım etməyə, hətta nəinki ətrafdakıları, bir neçə əsr bundan qabaq dünyasını dəyişib haqq aləminə qovuşmuş insanlarımıza qarşı zəif inkişaf etmiş beyinlərinə nə düşdü sözə çevirib indi internetdə geninə-boluna var-gəl edən saytlarda çirkab atmağa, hay-həşir salmağa… Guya bunlar ədəbiyyatımızda inqilab etmiş dahilərdi. Bunların işığı elə aləmə düşüb ki, günəş bunların yanında yalan olub. Bunlar olan yerdə klassiklərimiz Füzuli, Nəsimi, Xətai kimdi? Onlar eşqdən, güldən, bülbüldən yazıblar, bu üzdəniraq dahilərsə ədəbiyyatımızda tapıntılardı.

Adama deyərlər, ay özünü yazar sayan bu tip bədbəxtlər, Füzuli, Nəsimi, Xətai harda, siz harda? Füzuli çoxdan sizin kimiləri həm öz dövründə, həm də sonrakı dövrlərdə öz nəhəng söz kəhkəşanı ilə özünün də dediyi kimi ("Mən qoparıb atmışam min dağı bir dırnaq ilə") bir dırnağı ilə qoparıb atıb. Siz onun-bunun qeybətini qırmaqdansa başınızı salın aşağı ağıl qazanınızda nə isə varsa bişirin, sonra ortaya qoyun. Xarici yazarların yazdıqlarının orasını-burasını düzəldib, özününküləşdirib, surətini çıxarmayın. Siz xarici yazarlar kimi yazmaqla nə alman, nə ingilis, nə də digər millət olacaqsız. İnanın ki, bu çox gülünc görünür. Xarici oxuculara da hər millətin adət-ənənəsi, mədəniyyəti, yaşam tərzi, həyata baxışı maraqlıdır. Saqqal-bığınızın görkəmini dəyişib, xarici yazarlar sayağı cəh-cəh vurmağınız gülünc görünür, bu həm də sizin kimi cikkildəyən qadın yazarlara da aiddir. Necə deyərlər, bağa qınından çıxıb qınını bəyənmir. Mən başa düşə bilmirəm, siz hansı ailələrdən çıxdız, sizin çıxdığınız ailələrdə hansı qeyri-adiliyi yaşadız ki, Azərbaycanın həm çörəyi, həm suyu, insanlarının yaratdıqları sizə zəhər dadı verir. Siz körpə ikən beşiyiniz başında analarınız layla demədimi? İçinizi kök-soy sevgisilə doldurmadımı? Hardan, nədən qaynaqlanır sizdə kökə, soya nifrət? Axı siz keçmişdə və bu gün bədii yaradıcılıqla məşğul olmuş insanlarımızdan nə istəyirsiz? Bununla nəyə nail olmaq istəyirsiz? Fikrimcə, fitri istedadı olan kəs heç kəsin bostanına daş atmaz, öz ürək çırpıntılarının səsini dinləyər, özünün bacardığı qədər yaradıcılığa nail olar. Nifrət heç zaman heç kəsi xoşbəxtliyə çatdırmayıb, xoş günlər nəsib etməyib. Nifrət insanı uçuruma aparır. Bədbəxtliyə düçar edir. Siz sovet dövrünün yazarlarını daşlamaqla nəyi qazanırsız? Onlar heç olmasa, işğal dövründə dilimizi qorumağa nail olublar, siz o zamanlar doğulsaydız necə və hansı dildə cəh-cəh vurardınız, Allah bilir…

Yaradıcı insanın kimliyi onun aldığı ödüllərin, hansı birliyin üzvü olmağıyla ölçülmür. Sizin həsrətində olduğunuz "Nobel" mükafatı da çox vaxt siyasi meyarlara xidmət edir. Siz hansı etnik kökə sahib olmağınıza baxmayaraq, bu torpağın suyunu, çörəyini daddınız, bu ölkədə boya-başa çatdınız, Avropanın hansı küncündəsə yuva qurmaq üçün öz kimliyinə xilaf çıxmaq satqınlıqdan başqa bir şey deyildir. İnanın ki, satqını heç kəs sevmir, nə daxil, nə xaric!

Füzuli bəşəri sevgini ilahiləşdirdi, eşqi heçliyə endirənlərin düşüncələrinə qarşı çıxdı, özü eşqin zirvəsini fəth etdi, axı sizlər bunu necə dərk edib, qavrayasız, özünüz uçurumun dibindəsinizsə…

Sizlər kompüterin düymələrini basmaqla, bir-iki proqramları əzbərləməklə özünüzü dahi sayırsınızsa, onda yazıqlar olsun bizim gələcəyimizə…

Dəqiq deyə bilmirəm, sizlər daxildən, ya xaricdən maliyyə dəstəyi alıb ortaya çıxmısınız, amma həqiqət budur ki, sizlər ədəbiyyat adamı yox, ədəbiyyata baş ağrısısız… Sizlər hansı ocaq, hansı qurum yaradırsız yaradın, bu əqidəylə heç bir uğur qazana bilməyəcəksiz. Halal uğur qazanmağın yolları istedaddan, ağır zəhmətdən, özünün üstündə çalışmaqdan, yaradıcılıqdan savayı digər peşəyə yiyələnməkdən keçir. Yəni sənin başqa peşədən gəlir mənbəyin olsun və heç kəsdən asılı olmayasan, özün öz sözünün sahibi olasan. Bütün bunlara sahiblik isə orta məktəbdə qazandığın biliklərdən boy göstərir.

Yoxsa səhərdən axşama qədər gününü çayxanalarda keçirib, özündən çox-çox ucalarda dayananların haqqında ağına-bozuna baxmadan ağzına gələni üyüdüb-tökmək savadsız, məqsədsiz, amalsız adamların işidir. Sizlər hələ gəncsiniz, oxuyub hansısa sənətə yiyələnmək, sizlər üçün hələ gec deyil, əgər buna daxili gücünüz və savadınız çatırsa... Ədəbiyyat qeybətlə, kimlərinsə ünvanına şər-böhtan söyləməklə yaranmır, ədəbiyyat istedadlı adamları sevir, onlara ana təki isti qucağını açır. Adam ədəbiyyatda yaratdığı ocaqla, qurumla, aldığı ödüllərlə, tutduğu kürsüylə yox, nəyi yaradıbsa onunla qalır. Füzulilər, Nəsimilər, Xətailər, Seyid Əzimlər və digərləri öz yaratdıqlarıyla ədəbiyyatda öz dövrlərinin özəlliklərini əks etdirdilər. Sizlər də öz dövrünüzün əyər-əskikliklərini yazıya almağa qadirsinizsə, buyurub öz sözünüzü deyə bilərsiz. Bir şərtlə ki, dünənimizi və bu günümüzü təhqir etməməklə.

Sizlərin tutduğu yol bugünkü gününüzü gündəmdə saxlamaq üçündür, sabah isə sizlər yaddaşlarda qalmayacaqsız. Ədəbiyyat lağlağı deyil, yaşadığımız həyatın aynasıdır, bu aynadan kim özünü necə görürsə, qələmi də gördüyünü yazır… Gənc yaşınızdan Tanrı xatirinə düşüncənizdə dərin şırımlar açmış bu mənfilikləri silin, milli düşüncənin, kökün-soyun əksinə getməyin. Əks halda bu da manqurtluğun bir növüdür. Manqurt isə nə doğulduğu ölkəyə, nə də bəşəriyyətə heç bir bəşəri dəyər verməyib.

Dağlar başını duman, sis alan təki ədəbiyyat aləmi də dumansız, sissiz, yağmursuz olmur, bu yağmurun çamurları sizi batırmamaq üçün bir az dərrakənizi işə salın, nəyə qadir olduğunuzu ortaya qoyun. Bəsdirin, eninə-boyuna özünüzdən qat-qat yuxarıda olanları aşağıdan yuxarı daşladınız.

Bir həqiqəti dərk edin ki, daş yuxarıdan aşağıya atılanda yaxşı əks-səda verir, aşağıdan yuxarı atılan daşsa qayıdıb adamın öz başına dəyə bilər.

Sizə deyəcəklərim bu qədər, istəyirsiz qəbul edin, istəyirsiz etməyin, bu sizin öz işinizdi. Bunu da unutmayın ki, boşa keçən ömrün dəyərini heç nə ilə ödəmək mümkün deyil. Özünüzü qələm əhli sayırsınızsa, onabuna çamur atmaqla yox, ciddi yaradıcılıqla məşğul olun. Deyəcəklərim bu qədər, vəssalam, şüttamam.

21.12.2015

MANATA İKİNCİ GİZLİ MƏKTUB

Əzizim manat, salam. Əgər yadındadırsa, mən sənə 14 mart 2015-ci ildə gizli məktub yazmışdım və həmin məktubda sənin bizim başımıza gətirdiyin bu müsibətə görə öz etirazımı bildirmişdim, yəqin ki, unutqan deyilsən, yaddaşını işə salsan yazdığım məktubumun sətirlərini xatırlayarsan. O vaxt sənə demişdim axı durub-durub özünü və bizi quyunun dibinə salma. İnsafın, mürüvvətin olsun, sən bir halal zəhmətlə yaşayan kasıb zümrəni düşün. Əvvəlki dəyərində qala bilmirsənsə, bunu qəpik-qəpik et, camaatın belini qırma, boğazına çatı salma. Sən dolların qarşısında duruş gətirə bilməzsən, süni vəziyyətdə dondurmasınlar səni, reallığı nəzərə al. Dollar hara, sən hara? Özünü hegemon dövlətin pulundan üstün tutma. Sən az bir zamanda müstəqillik tapmış bir ölkənin parasısan, özünü dağ başına qoyma. Mən sənə o vaxt yazmışdım ki, gözdə-qulaqda ol, səni növbəti dəyərdən düşmə (devalvasiya) gözləyir. Sən deyəsən o zaman mənim yazdığım məktubu qulaqardına vurdun, heç vecinə də almadın. Deyəsən sənə kasıb camaatın halı, vəziyyəti çatmır. Sən onu bilirsənmi, millətin yarısından çoxu banklardan götürdükləri kreditlərdən asılıdırlar? Onlar bu kreditləri xəstələri, ölüləri, diriləri üçün götürüblər. Axı sənin düçar olduğun ikinci devalvasiya onların düşdüyü durumu daha da dəhşətli edib.

Əzizim manat, xəbərin varmı ki, ölkədə intiharların, yəni öz canına qəsd edənlərin, bir qarın çörək üçün törədilən cinayətlərin sayı artıb, sənin xəbərin varmı ki, bu ölkədə yaşayan insanlar bir-birilə pul üstündə üz-göz olur, hətta doğmalar arasında bir-birinə qarşı dəhşətli cinayətlər baş alıb gedir? Əzizim manat, hələ üstümüzə cuman xərçəngdən, infarktdan, şəkərdən sənə bəhs etmirəm. Sən bilirsənmi, insanların həyat şəraiti aşağı düşəndə xəstəliklər baş alıb gedir? Niyə susursan? Haqlı suallarım qarşısında cavab tapmırsanmı?

Sən bilirsənmi, növbəti böhranı necə qarşılayır Azərbaycan? Kasıblar bu böhranı necə keçirir, bilirsənmi? Artıq iki dəfə devalvasiya göstərdin bizlərə, qabaqda neçənci dəyərdən düşmə səni gözləyir, Allah bilir. Canım manat, dilim gəlmir deməyə, amma deyəsən səni də rus rublunun aqibəti gözləyir. Sən rubla baxma, Rusiya böyük ölkədir, daxili bazarı var, bizimlə müqayisədə inkişaf etmiş iqtisadiyyatı var. Necə deyərlər, çullarını sudan çıxarırlar. Belə böhranları kapitalist ölkələri dəfələrlə yaşayıb, Avropa, Amerika, amma onların daxili bazarı və güclü iqtisadiyyatları olduğu üçün bu çətinliklərdən üzüağ çıxmağı bacarıblar.

Azərbaycan isə… Əzizim manat, böhranı ala-babat keçirmək üçün bizim daxili bazarımız çox varlı olmalıdı. Sənə demədimmi, manat, öz varlığını neftə bağlama, neft səni qaldırıb təpəsindən çırpar yerə… Sən bilmirsənmi neftə bağlı dövlətlərin axırı heç-puç olur? Neftdən gələn pullar sel kimi axır, axırda isə bu pullar onları yıxır, necə deyərlər, gözləri qızır, sonda uduzur. Bizim isə daxili bazarımızda Azərbaycanın iqtisadiyyatının payı on faiz var, ya yox. Bununla millətin qarnını doydurmaq, müstəqilliyi qorumaq olarmı? Bizim başı bəlalı Vətəndə bütün mallar xaricdən gəlir. Sən də dəyərdən düşmüsən, bəs biz indi necə yaşayaq, hansı gəlirnən, manat? Sənə dedim axı neftdən gələn gəlirləri sel kimi axıtma, qara günümüz üçün yığ, sən bəs pullarını neylədin manat? Niyə sən gəlirlərini kənd təsərrüfatına, yüngül və yeyinti sənayesinə, həmçinin digər gəlir gətirən sahələrə yatırmadın? Bizləri heç fikirləşmədin. Əgər belə olsaydı bölgələrdə də çoxlu sayda iş yerləri açılardı, kişilər də öz əhli-əyalını, yəni arvad-uşaqlarını qoyub xarici ölkələrə üz tutmazdılar. Qadınlar ərsiz, uşaqlar atasız qalmazdı. Vallah manat, bizim kişilər kimi zəhmətsevər, ailəcanlı yoxdu. Sadəcə, bir tikə çörək qazanmağın ucbatından öz yurdlarından diyarbədiyar düşürlər. Sən bunları görmürsənmi, manat?!

Neft gəlirlərinin yaxşı vaxtında Azərbaycan nə nailiyyət qazanıb? Dollardan gələn valyutanı əgər iqtisadiyyatın dirçəlişinə xərcləsəydin bugünkü ağır duruma düşməzdik. Əzizim manat, səndən sormaq istəyirəm ki, bu idman oyunları, avroviziya haramıza yaraşırdı? Axı bizim işğal altında qalan yurdlarımız bizdən bir tərpəniş, bir hayqırtı gözləyir. Sən isə, manat, nəyin varsa hamısını göyə sovurdun. Özünü də, bizi də pis günə qoydun. Açığını sənin hüzuruna ərz edim ki, millətin heç halı da yoxdu torpaq azad etməyə, adətən torpağı işğaldan kasıb zümrə azad edir, onun da hay-hayı

gedib, vay-vayı qalıb, özün söylə, ac qarında necə hal olar ki, gedib torpaq azad eləsin qəvi düşməndən…

Əslində sən nə edəsən, bizim başbilənlərimiz bizi fil qulağında yatızdırıb, arxayın salırdılar ki, bəs torpağı biz azad edəcəyik, siz siyasətə qarışmayın. Başbilənlərimiz bizə deyirdilər ki, lazım gəlsə silah gücüylə torpaqları işğaldan azad edəcəyik, deyəsən, əzizim manat, lazım hələ gəlib çıxmayıb, ona görə torpaqlarımız azad olunmayıb, pullu vaxtında bunu etmədin, bəs indi pulsuz vaxtında müharibə edəcəksən, manat?

Əzizim manat, sən hakim partiyaya de ki, boşuna xərclədiyi pulları qaytarsın versin sənə. Bir də onun səhvlərini üzünə vurmaq üçün güclü müxalifət yaratsın. Vallah-billah, manat, sivil ölkələrdə belə edirlər, dövlətin strukturları zəifləyəndə onun inkişafına təkan vermək üçün müxalifət olmayanda, pul qoyub süni müxalifət yaradırlar. Əgər bizdə də belə olarsa, həm ölkəmizin iqtisadi potensialı yüksələr, həm də iqtidar partiyasında olanlar Vətənin inkişafına, varlığına, müstəqil yaşam haqqına məsuliyyətlə yanaşar. XX əsrin avropalı böyük fəlsəfəçisi Karl Yaspers yazırdı ki, sivil ölkələrdə müxalifət hansısa səbəbdən zəifləsə, onu dirçəltmək üçün pul qoymaq lazımdır, çünki güclü müxalifət inkişafın mühərrikidir. Biz müxalifəti məhv eləyənlərə əl çalırdıq və sonra deyirdik ki, biz də avropalıyıq. Vallah manat, mən siyasət adamı deyiləm, nə iqtidaram, nə müxalifət, heç bir partiyanın da üzvü deyiləm, sadəcə, yazaram, yaşadığımız günlərin güzəranını qələmə alan söz adamıyam. Ürəyim yandığı üçün düşdüyümüz bu acı durumu sənինlə paylaşmalı oldum. Uman yerdən küsərlər… Bizi özündən tamamilə küsdürməməkçün dediklərimi qulağında sırğa elə. Sənə bu düşdüyün durumdan xilas yolu arzulayıb sözümü tamama yetirmək istəyirəm. Əzizim manat, deyirlər ki, indi üzməyə başlamısan, vay o gündən ki, uçmayasan. Onda nə əlimiz çatar, nə ünümüz… Allah uçacağın gündən qorusun bizləri… deyəcəklərim bu qədər, vəssalam.

11.01.2016

ÖN SÖZÜ VACİB BİLİNƏN HEKAYƏ

Ömrünün çiçəklənən vaxtında həyatı acılar içində keçən bir həmvətənimizin keşməkeşli taleyindən bəhs edən “Erməni həkimin borcu” hekayəsi məni çox təsirləndirdi. Həyat hər bir kəsin bəxtinə bir dəfə düşür. Hər bir insan övladı çalışır ki, ağlının bacardığı qədər nəyə isə nail olsun...

Hekayəni araya-ərsəyə gətirən müəllif Ceyhun Ağabəyov əslində həyati əhəmiyyətli vacib bir mövzunu qələmə alıb. Gözəl şeirləri ilə ürəkləri riqqətə gətirən şair, qələmini nəsrdə də sınayıb. Əslində nəsrlə qələmə alınan bu yazı insanlarımızı ayıq-sayıqlığa səsləyir. Bizlərin hər birinin yolu ən azından bircə dəfə olsa belə xəstəxanalardan keçir, elə bir insan tapmazsan ki, o hansısa həkimə, ya xəstəxanaya müraciət etməmiş olsun. Bizlər tibb ocaqlarına ümidlə gedirik, şəfa bulmaq üçün üz tuturuq, amma bəzən elə olur ki, ümidimiz puç olur, ömrü boyu çarpayı möhtacı oluruq, ya da vaxtsız həyatı tərk etmək qismətimizə düşür.

Bilərəkdən və ya bilməyərəkdən insanlar həkim yanlışlığının, səhvinin qurbanı olur. Müəllifin bəhs etdiyi hekayədə isə milliyyətcə mənfur qonşumuz erməni Sveta Bacanyanın açıq-aşkar çirkin cinayət əməli ifşa olunur. Hekayənin əsas qəhrəmanı Nail 15 yaşlı yeniyetmədi, məktəb illərini başa vurmadan xəstəliyə düçar olan uşaq qəfil ağrılarla Bakı şəhərinə gətirilir, burda hadisələr erməni həkimin ətrafında cərəyan edir. Həkim uşağı ömürlük əlil edir...

Bu il mənim doğmalarımdan birinin başına gələn faciəni də qısaca dəyərli oxucuların diqqətinə yetirmək istərdim. Soyuq qış günü idi, bağça yaşlı balaca Əsmər birdən-birə xəstələndi. Yaşadıqları binada yanğın olmuşdu, uşaq qorxmuş və dalağı şişmişdi, həkimlər ona qanda xərçəng (leykoz) diaqnozu qoydular. Uşağı Nəsimikənd bazarının arxasında yerləşən Xərçəng Xəstəxanasına yerləşdirdilər, 5 yaş yeddi ayında olan bu balaca qızı da üzü üstə uzatdılar, belindən 3 dəfə ilik götürdülər, uşaq cəmi beş gün yaşadı, dedilər götürün aparın evə, uşağı evə gətirdilər, uşaq 5 gün fəryadla can verirdi. Mən bu dəhşətli mənzərənin şəxsən şahidi oldum, bu dəhşəti bizə həkimlər yaşatdı... Milliyyətləri kim idi dəqiq bilmirəm, adları bizim adlardan idi. Mən Qusar rayonunun Balaqusar kənd orta məktəbində tarix müəllimi işləyən, bədii yaradıcılıqla da məşğul olan, şair-jurnalist Ceyhun Ağabəyova yaradıcılıq uğurları diləyirəm.

23.04.2016

SÖZÜN CÖVHƏRİ

(Paşa Qəlbinurun " İdrak ətri" kitabı haqqında düşüncələrim)

Yaxın günlərin söhbətidir, doğmalarımdan biri göz ağrıları ilə əlaqədar mənə zəng edib, məsləhət istədi. Mənim də ürəyimdən ünlü doktor Paşa Qəlbinur keçdi. Dedim, oğlum, doktorla əlaqə yaradaq, onun qəbuluna gedək. Doğrusu, xəstə çox sevindi. Əlqərəz, biz bir gün vaxt təyin edib, doktorun qəbuluna getdik. Təyin etdiyimiz gündə doktorla görüşdük. Biz onunla ilk dəfə dəhlizdə qarşılaşdıq, qarşımızda sakit təbiətli, üz-gözündən mehribanlıq yağan nurlu bir insan durmuşdu. Onun mehriban baxışlarından nur ələnirdi, sanki bu nur insanlara bəxş edilən işıq idi. Bu işığın həsrətində olanlar üçün doğulmuşdu, göz həkimi, ünlü sənətkar, istedadlı şair, elmlər doktoru, professor Paşa Qəlbinur…

Xəstəni müayinə edib məsləhətlərini verəndən sonra, doktorla vidalaşmaq məqamı çatanda o mənə 2013-cü ildə nəşr olunmuş "İdrak ətri" adlı kitabını bəxşiş etdi. Mən ona bu gözəl hədiyyəyə görə təşəkkürümü bildirdim. Evə gəlib dincələndən sonra kitabı vərəqləməyə başladım. Kitab ilk sətirlərindən diqqətimi cəlb etdi və onu xüsusi bir maraqla oxumağa başladım…

Oxuyub başa vurandan sonra məndə kitab haqqında yazmaq istəyi yarandı. Beləliklə, dəyərli oxucular, yazdığım məqaləni sizin diqqətinizə yetirmək istəyirəm. Buyurub tanış ola bilərsiz.

Paşa Qəlbinurun "İdrak ətri" kitabı ömür yollarının müxtəlif məqamlarında qarşılaşdığı və təmasda olduğu ziyalı insanlarımızın taleyinə işıq tutur. Müəllif əsəri iki hissəyə bölür: Esselər və Portret esselər. Müəllifin dil üslubu o qədər şirindir ki, kitabı birnəfəsə oxudum. Esselər əsasən onun fəlsəfi düşüncələrindən bəhs edir. Həyatı boyu rast gəldiyi və ürəyinə toxunduğu, ağlında, düşüncəsində özünə yer edən məqamları fikir süzgəcindən keçirərək nəsrin dili ilə nəql edir. Əsasən oxucular doktoru ədəbiyyat aləmində bir şair kimi tanıyır, amma "İdrak ətri" nəsrlə yazılsa da, dili axıcı və ürəyə yatımlıdır, sanki əsər nəsrlə yox, nəzmlə qələmə alınıb. Öncədən onu xüsusi qeyd etmək yerinə düşər ki, kitabın adı adamı düşünməyə vadar edir, insan ağlının ona bəxş etdiyindən ya xeyir, ya bəla tapır… hər insan idrakı da ətir saçmır axı… Kitabda ilk Essenin adı "Cihad"dır.

XX əsrin ən dəhşətli cinayətlərindən biri Xocalı faciəsini ağrılı bir dillə yad edir. Müəllif essedə ürəyimizdə yaraya çevrilən Xocalı dəhşətini önə çəkir. O, çox təsirli fəlsəfi düşüncə ilə oxucuya çatdıraraq bildirir ki,

Xocalıda ölənlərin, yaralananların harayı damarlarımızda axan qana keçib cihad deyərək fəryad qoparır! Yara ürəklərə keçib, şüurlara təsir edib, əsəbləri yerindən oynadıb. Ermənilərin ağlasığmaz vəhşiliklər törətdiyi Xocalı qətliamı nəsilbənəsil qəlbləri göynədəcək.

Paşa Qəlbinurun "İdrak ətri" kitabında portret esselərdən fərqli olaraq Esselərdə müəllif ömür boyu rast gəldiyi yaxından, uzaqdan eşitdiyi maraqlı hadisələri fəlsəfi yozumla nəql edir. Bu ibrətamiz həyat hekayələri adamı düşünməyə vadar edir. «Çilçıraq» essesi çox maraqlı və düşündürücü məqamlardan bəhs edir. Müəllif nəql edir ki, kənddə Kar Cavanşir adlı bir nəfər var idi, oğlu maşınla meşə yolu ilə gedən zaman qəzaya düşür, onlar maşında iki nəfər olur, biri yaralı halda birtəhər kəndə çıxıb gedir, onun oğlu isə yaralı halda, hətta yaralı qolunun üstünə benzin də tökülür, səhərə qədər zarıyırmış… Səhər oğlunun zülmlə öldüyünü görən Kar Cavanşir, dəfn zamanı ağlamırdı böyürürdü. Bala dağı kişini yandırıb-yaxırdı. Qonşu Gülüstan xala nəql edirmiş ki, müharibə dövrü həmin bu Kar Cavanşir onların sağmal inəyini oğurlayıb kəsib satıb, inəyin balası südəmər buzov neçə gün böyürürmüş… Bu ibrətamiz həyat hekayəsi onu insana diktə edir ki, gec-tez hər kəsin etdikləri – istər yaxşı, istər pis mənada onun qarşısına çıxır. İnsan bədxahlıq, pislik etməyə çalışmamalıdır, baxmayaraq ki, aramızda həyatımızı cəhənnəmə çevirən nə qədər çirkin fikirli adamlar var. Yetim malına göz dikənlər, xalqın cibini talayanlar, necə deyərlər, özgə bostanına daş atanlar günü-gündən artmaqdadı. Dünya silkələnir, günahsız insanların qanı axıdılır, dinlər ikiüzlü insanlar əlində oyuncağa çevrilib, min sifətli siyasətçilər, insanların taleyilə oynayır, lokal müharibələr dünyanı çalxalayır, hər tərəfdə göz yaşı, ölüm, qan! Bütünlüklə şairi bu ağrı-acılar düşündürür, narahat edir. Ömrünün müxtəlif zamanlarında ayrı-ayrı insanların başına gəlmiş həyat hekayələrini müəllif nəsrə çevirib təsirli bir dillə oxucuya çatdırır.

Müəllif "Mirvari suyu (ktarakta)" essesində qədim zamanlarda bu göz xəstəliyinin necə qəribə üsulla müalicə edilməsindən bəhs edir. Bu xəstəliyi müalicə edən adama dəllək deyirdilər, dəllək xəstənin gözünün üstünə yumruqla vururdu və büllur dağılırdı, xəstə bir anlıq görürdü. Çox-çox qədim zamanlarda insanlar dərdlərinə çarə düşünürdülər, yaşam uğrunda mübarizə aparırdılar. "Tanrı möhürü" essesində müəllif ürək haqqında çox maraqlı insanı doğumdan ölümünədək düşündürən açıqlamalar verir. Adətən həkimlər ürəyi adama mühərrik kimi təqdim edir, amma bu essedə

maraqlı məqamlarla qarşılaşırıq, adətən insanlar "ürəyimə damıb", "ürəyim düşdü", "ürəyimdə saxlamışam" və sair ifadələr işlədir.

Nyu-Yorkda 50 yaşlı qadına 18 yaşlı qəzadan ölmüş gəncin ürəyini köçürdürlər, qadın cərrahiyyə əməliyyatından sağ-salamat çıxandan sonra bir müddət keçdikdə qadının yuxusuna cavan bir oğlan girməyə başlayır, qadının topladığı gizli məlumatlar əsasında məlum olur ki, bu ürəyi ona köçürülən oğlandır, hətta oğlan hansı yeməkləri xoşlayırdısa qadın da o yeməkləri istəməyə başlayır. Bu heyrətamiz hadisədən sonra ürək köçürülən başqa xəstələr arasında sorğu keçirilib eyni hadisənin müxtəlif variantları özünü büruzə verib. Burdan belə nəticəyə gəlmək olar ki, ürək təkcə mühərrik rolunu oynamır, onun həm də sinir fəaliyyəti də varmış.

Müəllif qeyd edir ki, sonralar gözəl alimimiz, fizioloq, professor Qəhrəman Qəhrəmanov ürəyin avtonom sinir requlyasiyası haqqında məşhur kəşfini etmişdi. Essenin sonunda müəllif belə qənaətə gəlir ki, təkcə təbiətdə yox, insanın yaratdıqlarında da Tanrı möhürü var. Doğrudan da müəlliflə tam şərikəm, istər rəssamlıqda, musiqidə, şeriyyətdə, elmdə insanlar tərəfindən yaradılmış nə heyrətamizliklər varsa, hamısında Tanrının möhürü var. İnsan Tanrıdan izinsiz heç nəyə qadir deyil.

Müəllif Alzqeymer essesində əsrimizin bəlası olan yaddaşsızlıq probleminə toxunur, essedə qeyd olunur ki, dünyada 35 milyon insan bu xəstəlikdən əziyyət çəkir. Bəzi alimlərin gəldiyi qənaətə görə insanlar çox vaxt mütaliəsizlikdən bu bəlaya düçar olur. Müəllif maraqlı, diqqətçəkən müqayisələr aparır.

O, keçmiş «Azərnəşr» binasını yad edir, həmin binada indi bank yerləşir, doğrudan da o vaxtlar həmin nəşriyyata daxil olarkən insanın burnunu qəribə bir iy alırdı, etiraf edim ki, heç yerdə duymadığım o iyi mən "Azərnəşr"də hiss edirdim, bu kitabların qoxusu idi. Gözlərimiz baxa-baxa İçərişəhərimizin dörd bir yanında dəyişikliklər edirlər, halbuki onun bircə daşına, divarına toxunmaq olmaz. Müəllif bu essedə mənim də yaralı yerimə toxunub, çünki Bakıda kütləvi şəkildə söküntü işləri gedir, tarixi abidələrimiz gözümüz baxa-baxa çox zaman yox edilir. Yeniləri ilə əvəz edilir, sizə şəhər salmaq lazım idi, boş yer tapıb tikərdiz, keçmişimizlə bağlı olanları söküb məhv etmək, keçmişimizə güllə atmaq deməkdir… Xəzərin dörd bir yanı daş hasarlarla hörülür, axır vaxtlar dənizin gözəlliyinə həsrət qalmışıq, hətta bəzən adamlara başa salmaq olmur ki, təkcə evin içini təmiz saxlamaqla iş bitmir, evin ətrafını da, yaşadığın küçəni də evinin içi təki təmiz saxlamalısan. İctimai avtobuslarda baxmadan oturmaq çox təhlükəlidi, çünki pal-paltarın saqqıza bulaşa

bilər. Artan zibilliklər, çirklənən dənizlər, çaylar, bulaqlar, çeşmələr, qırılan meşəliklər öz sağlamlığımıza balta çalmaq deməkdir. Müəllifin özü demişkən: "Ruhumuzun Nuh tufanı yaxınlaşır!!! Gəlin həyatımızı xilas edək, necə ki, gec deyil!"

Bu sözlər təbabət aləminin içində olan bir təbibin qələmindən çıxan ifadələrdir. Essenin sonunda müəllif belə bir qənaətə gəlir ki, biz təbiəti çirkləndirməklə özümüzü xəstəliklərə düçar edirik. Xəstəliklərin ən dəhşətlisi isə yaddaşını tamamilə itirməkdir, hətta öz doğmalarını belə tanımamaq durumuna düşmək. Atalar demiş: "Nə tökərsən aşına, o da çıxar qaşığına". Bizim özümüzə etdiklərimiz dolayısıyla alzqeymerə (yaddaşsızlığa) gətirib çıxarır.

Onun Portret esselərində ünlü tibb alimlərimizin sənət və həyat yolu işıqlandırılır. Müəllif Zəhra xanım Quliyeva, Zərifə xanım Əliyeva, İbrahim Topçubaşov, Ağabəy Sultanov, İmam Mustafayev və bir çoxlarının həyat yoluna çıraq tutur, onları böyük məhəbbət hissilə anır.

Kitabına da ad seçdiyi "İdrak ətri" portret essesini alim, psixiatr Ağabəy Sultanova həsir edir. Müəllif onun insanpərvərliyindən, kübarlığından, ziyalılığından söz açır.

Kitaba, yazıya, yazara hörmət azalan bir zamanda, yazanların sayının artdığı, oxuyanlarının sayının azaldığı bir vaxtda onu da etiraf etmək lazımdır ki, yaxşı kitablar az-az ələ düşür. Həqiqətən görkəmli alim, professor, şair-publisist Paşa Qəlbinirun "İdrak ətri" kitabını əlinə alıb oxuyan heç nə itirməz, əksinə, mənəviyyatını bir az da zənginləşdirər. Mən də sözün səcdəsində olan biri kimi kitabı sevə-sevə oxudum və zövqümü zənginləşdirdim. Dəyərli oxucular, Allahdan diləyim budur ki, sizlərin də zövqü, mənəviyyatı zəngin olsun, o üzdən gəlin kitablara üz tutaq, onlarla ünsiyyətdə olaq. Yazı adamlarının ürək atəşindən yaranmış sətirlərə, misralara mehman olaq, kitablardan gələn hənirtilərə, pıçıltılara qulaq kəsilək, çünki həqiqi sənət əsərlərinin üstündə görkəmli təbibimiz və şairimiz Paşa Qəlbinur demiş, Tanrı möhürü var… Mən görkəmli alimimiz, ünlü doktorumuzun da kitabında Tanrının möhürünü hiss etdim. Bir söz adamı kimi müəllifə yeni-yeni yaradıcılıq uğurları diləyirəm. Qoy onun gözlərə işıq bəxş edən əlləri yorulmasın, Vətən, sənət eşqli ürəyi daima coşub-daşsın, fəlsəfi fikirlərlə zəngin sözlərini kitaba çevirsin və bu kitablar kitabxanalarımızın kitab rəflərini bəzəsin. Qoy insanlarımızın gözlərinə nur bəxş edən təbibimizin ürəyindən həyat sevgisi azalmasın. Sənət və həyat eşqli alim, təbib şairimizə can sağlığı və yaradıcılıq uğurları diləyi ilə sözümü tamama yetirirəm.

08.06.2016

NİZAMİ MƏQBƏRƏSİ ÖNÜNDƏ RƏQS

İki gün bundan qabağın sözüdür. Mədəniyyət Azərbaycan Televiziya Kanalına baxırdıq. Gəncədə Nizami məqbərəsinin önündə oğlan və qızların rəqsini göstərirdilər. Doğrusu, mən o qədər də fərqinə varmadım. Birdən həyat yoldaşım dedi, bunlara bax e, gör harada rəqs edirlər?!

Orda rəqs, musiqi olmaz, ora ziyarətə gedərlər, rəqs etməzlər…

Elə bil yuxudan ayıldım, həqiqi mənada çox pis oldum. Adətən məzar yerləşən yerə ziyarətə gedərlər. Nizami Gəncəvinin məqbərəsi önündə rəqs ansamblını nümayiş etdirmək, məncə, heç bir məntiqə sığmır, çünki hamı bilir ki, orda dahi şairin məzarı yerləşir, məzar yerləşən məkanda hansısa rəqsi görüntüləmək heç yaxşı hal deyil. Zənnimcə, bu orda yatanın ruhunu incitməkdən savayı bir şey deyil.

Yəqin ki, hər dəfə o məkanda hansısa bir musiqi nömrəsi nümayiş etdiriləndə bizim kimi fikirləşənlər az olmur. Ona görə bu kimi işləri həyata keçirən, məsul olan şəxslər diqqətli olmalıdırlar. Nizami Gəncəvi dünyəvi şairdir, indi bizim teleməkana da xaricdən baxanlar az deyil. Özümüzü etdiyimiz qeyri-normal hərəkətlərlə gülüş hədəfinə çevirməyək. Kənardan vallah, billah yaxşı görünmür.

Məqbərə və onun ətrafı oxumaq, oynamaq məkanı deyil. Ora ziyarətə gedərlər, ən azından müsəlman olduğumuza görə, məzarda yatanın ruhuna salavat çevirərlər.

Doğrudan da, hər hansı düşünülməmiş hərəkət, yersiz ağızdan çıxan söz, taleyüklü məsələlərdə tələskənlik sonradan qarşısıalınmaz ağrı-acı ilə özünü büruzə verir. Mənə elə gəlir ki, məqbərə önündəki rəqs də düşünülməmiş hərəkətin bəhrəsidir.

Bu kiçik məqaləni dahi şairin öz sözləri ilə bitirmək istəyirəm:

“Bir inci saflığı varsa da suda,
Artıq içiləndə dərd verər o da”.

10.07.2016

MÜƏLLİF HAQQINDA

Şirinxanım Ağabala qızı Kərimbəyli (ədəbi təxəllüsü ŞADİMAN) 2 sentyabr 1955-ci ildə Siyəzən (keçmiş Dəvəçi, indiki Şabran) bölgəsinin Tağay kəndində anadan olub. Doğulduğu kənddə səkkizillik məktəbi, sonra Siyəzən şəhər 2 saylı orta məktəbini bitirib. 1973-75-ci illərdə Yenikənd üzümçülük sovxozunda fəhlə, 1975-76-cı illərdə Volodarski adına tikiş fabrikində tikişçi işləyib. 1977-ci ildə ADU-nun (indiki BDU) hazırlıq şöbəsində dinləyici, 1978-83-cü illərdə Kitabxanaçılıq (indiki informatika fakültəsi) əyani şöbəsini bitirib. 1992-ci ildə Azərbaycan Jurnalist Sənətkarlığı İnstitutunun məzunu olub. 1984-cü ildə Dəvəçi rayonunun (indiki Şabran), hazırda Siyəzən rayonunun inzibatı ərazisi sayılan Gilgilçay qəsəbəsində kitabxana müdiri vəzifəsində çalışıb. 1985-2007-ci illərdə ARDNŞ-in Mədən-Geofizik İdarəsinin "Neft Daşları" geofizik ekspedisiyasında cizgiçi, texnik, mühəndis peşələrində çalışıb. 2007-ci ildən həmin idarədən əmək təqaüdünə çıxıb. Əmək fəaliyyəti ilə bərabər bədii yaradıcılığını davam etdirib. Dövri mətbuatın mətbu orqanları olan "Neft Daşları", "Ədalət", "Çənlibel", "Azərbaycan müəllimi", "Bütöv Azərbaycan", "Kredo", "Mütərcim", "Məhsəti" və sair qəzet-jurnallarda çap olunub. "Məcməüs-şüəra" (Şairlər məclisi), "Füzuli" ədəbi məclislərin üzvü olub. AYB-nin və CASCFEN-in (Orta Asiya və Güney Qafqaz Söz Azadlığı Şəbəkəsi) üzvüdür. Hazırda ədəbi fəaliyyətlə məşğuldur. "Modern.az", "Yalquzaq. Com", "Davam.az" "Lit.parad", "Dayaq.az" və sair internet portalları ilə yaradıcılıq əlaqələri saxlayır. "AzPress" və "Kredo" qəzetlərinin əməkdaşıdır. Şəxsi saytı aktiv fəaliyyətdədir.

ÇAPDAN ÇIXMIŞ KİTABLARI

1. «Ürək niyə ağrıyırsan?» (şeirlər). Azərnəşr, Bakı 1991, 56 səh. sayı 3000.

2. «Çəkənə qəm dünya, çəkməyənə dəm dünya» (şeirlər, poemalar, pyeslər). Bakı 2000, AEK «Mafta press», 400 səh. sayı 1000.

3. «Kiminə acı dünya, kiminin tacı dünya» (şeirlər, pyeslər, poemalar). Bakı 2002, Nurlan, 566 səh. sayı 500.

4. «Ağıla bəhər dünya, ürəyə qəhər dünya» (şeirlər, poema). Bakı 2007, Nurlan, 742 səh. sayı 500.

5. "Seçmələr" (Könül harayı). I cild, Nurlan, Bakı 2008, 292 səh. sayı 1200.

6. "Məni illərdən soruşun" (publisist düşüncə). «MBM», Bakı 2008, 95 səh. sayı 300.

7. «Dünya mənə tanış gəlir» («Ürək niyə ağrıyırsan?» və «Çəkənə qəm dünya...» kitablarının birlikdə nəşri), Bakı 2009, Nurlan, 522 səh. sayı 500.

8. «Tağayım» (poema). «Adiloğlu» nəş., Bakı 2010, 56 səh. sayı 500.

9. «Ay adamlar, mən burdayam» (şeirlər, poemalar, əhvalatlar), «Adiloğlu» nəş., Bakı 2012, 456 səh., sayı 500.

10. «Seçmələr», II cild, (şeirlər, poemalar), Adiloğlu nəş., Bakı 2012, 335 səh., sayı 1200.

11. «Ötənlərdən gələn səslər», (şeirlər, poemalar, qəzəllər), Qanun Nəşrlər Evi, Bakı 2013, 632 səh., sayı 500.

12. «Ötənlərdən gələn səslər – 2», (şeirlər, qəzəllər, dördlüklər, bayatılar) Qanun Nəşriyyatı, Bakı – 2014, 480 səh., sayı 500.

13. «Seçmələr», III cild, (şeirlər və poemalar) Qanun Nəşriyyatı, Bakı – 2015, 447 səh., sayı 750.

14. «Seçmələr», IV cild, (şeirlər, poemalar, dramlar), Qanun Nəşriyyatı, Bakı – 2015, 359 səh., sayı 750.

Müəllif və əsərləri haqqında çap olunmuş kitablar

1. Əli Rza Xələfli. «Adı Şadiman olanın...». Bakı: Təknur, 2009, 256 səh. sayı 1000.

2. Əli Rza Xələfli. «Axtala əfsanəsi». Bakı: Adiloğlu, 2010, 144 səh. sayı 500.

3. Nəzirməmməd Zöhrablı (Quliyev). «Üçrəngli bayrağa bürünmüş şairə». Bakı: Adiloğlu, 2010, 148 səh. sayı 500

4. Əli Rza Xələfli «Qırmızı həqiqətlər», Bakı: Adiloğlu, 2011, 128 səh., sayı 500

MÜNDƏRİCAT

O yerlərdə izim qaldı 3
8 Marta ağım 5
İnanmıram yoxluğuna 5
Yaşıl avtobusların yaşıl zəhəri 8
İki könül işığı 9
Açıq məktub 15
Bölgələrdən gələn səslər 20
Ənvər Nəzərliyə açıq məktub 22
Fəridə Ləmana diləkçəm 25
Sözüm haqqı-dözüm haqqı 27
Sözün dərdi 33
“Bu dünyanı belə gördüm” kitabı haqqında 40
Şerimiz-seyrimiz 47
Alban abidələri keçmişimizin yadigarı və yaxud ölü tariximizin bəlalları 58
“Kredo”nun on illiyi münasibətilə məktub 67
Mətbəx döyüşləri – xalqımızın biş-düşləri 71
Vicdandan mükafat alan şair 74
Heca – Allaha rica 82
Ədəbiyyat həyatını şam kimi yandıranların qələmindən keçir 88
“Pozulmaz nizam” kitabında bugünün ağrıları 99
Azərbaycan gerçəkliyi 106
“Üçüncü dünyanın qorxusu” povesti haqqında 124
Pula əyilən mənəviyyat və yaxud Mirzə Cəlil babama məktub 132

Damcılıdan gələn səslər 138
Anadan şair doğulan Müşfiq 146
Mənəviyyat işığında 155
Yuva dağıdanlara və yuvası dağılmışlara diləkçəm 162
Himnimizə basqılar 165
“Mən bir ziyalı kimi” 169
Sayman Aruza diləkçəm 171
Urmu gölü harayı 172
Bakının Təbrizə açıq məktubu 175
Bizim zibilləmə xəstəliyimiz 177
İranda təklənən Güney 179
Düşmən dəyirmanına su tökənlər 181
Mən öz-özümə söz verdim 186
Yurd istəyi, Vətən sevgisi 188
Azərbaycan televiziya kanallarında aparıcıların ləhcə yarışı 196
Həqiqət nə qədər acı olsa da 198
Ürəyin hökmü ilə yazılan məktub 202
Vətən hamıya tən gərək 206
Xəyalla dövlət yığanların faciəsi 208
Ruhumun içindən boylanan Novruz 211
Bakının Təbrizə ikinci açıq məktubu 213
On qəpik əhvalatı 215
Qərbə asayişi bərpa etmə, Şərqə demokratiya dərsi 218
“Azərbaycan şeir antologiyasi”na təbriklərim 221
Mənəviyyatımızı aşağılayan telelayihələr 223
Bir ocağın işığında 225

"Qanun" nəşriyyatına cərimə, mənəviyyata zərbə 231
İmperiya həvəsli qullar 233
İnsanlıq və vətəndaşlıq borcu 236
Ruhu göylərə uçan şair 241
"Yüz il inqilab" kitabında Güney fəryadı 255
Söz məsuliyyəti 259
Manata gizli məktub 262
Ədəbiyyat yalan sevmir 264
Xristian ocağı 266
Şərə əyilənlərimiz 269
Gündəm xəstəliyinə tutulanlar 271
Manata ikinci gizli məktub 274
On sözü vacib bilinən hekayə 276
Sözün cövhəri 278
Nizami məqbərəsi önündə rəqs 282
Müəllif haqqında 283

Şirin Xanım
Kərimbəyli Şadiman

SÖZ KÖNLÜMÜ QƏLƏM ETDİ

"Söz könlümü qələm etdi (Publisistik düşüncələr)" kitabı müəllifin yaradıcılığı boyu müxtəlif illərdə qələmə aldığı məqalələr toplusudur. Məqalələrin mövzusu bir sıra qələm sahiblərinin yaradıcılığı, habelə siyasi, mədəni, mənəvi həyatımızda baş verən bir çox proseslər barədə söz çələngidir. Ümid edirik ki, "Söz könlümü qələm etdi" kitabı oxucular tərəfindən maraqla qarşılanacaq. Nəşriyyatımız adından müəllifə yaradıcılıq uğurları diləyirik.

ISBN 978-9952-36-

0

QANUN NƏŞRİYYATI
kitab sifarişi (012) 431-16-62
və www.qanun.az saytında
www.fb.com/qanunpublishing

www.qanun.az